**LƏTİFƏ ƏLİYEVA**

**(Lətifə Oruc)**

# SİRLİ GEDİŞLƏR

**Bakı – 2021**
**"Elm və təhsil"**

**Redaktor:**
**İltifat Əliyarlı**
*tarix üzrə fəlsəfə doktoru*

**Lətifə Əliyeva (Lətifə Oruc). Sirli gedişlər.**
**Bakı, "Elm və təhsil", 2021, 356 səh.**

Romanda yeddi bacının həyatından bəhs edilir. Ataları sürücü, anaları evdar qadın olan, kasıb ailədə doğulub, böyüyən bacılar öz zəhmətləri, iradə və bilikləri sayəsində ali təhsil alır, müxtəlif sahələrdə çalışırdılar. Bu şərq aləmində nadir hadisələrdən biri kimi qiymətləndirilir.

Əsərdə bacıların tələbəlik, sonradan işlədikləri dövrlərində üzləşdikləri çətinliklərə, həyatın sirli gedişlərinə qarşı bilik, xeyirxahlıq, qanunpərəstlik və insansevərliklə mübarizə aparmaları, həmişə qalib gəlmələri, bədii obrazlar və maraqlı, düşündürücü hadisələr fonunda verilir.

Eyni zamanda, romanın əsas qəhrəmanlarından olan Leylanın vəkillik fəaliyyəti, oğlu Rüfətin şahmat yarışları zamanı başlarına gələn qəribə və ibrətamiz hadisələr oxucunu maraqda saxlayır, əsəri daha rəngarəng edir.

İri həcmli bu roman bu gün və gələcək üçün milli və bəşəri dəyərlər baxımından əhəmiyyətli bir əsərdir.

Roman geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN 978-9952-8414-0-4**

**© Lətifə Əliyeva (Lətifə Oruc), 2021**

*Cəmiyyətdə nizam-intizamın bərqərar olması üçün ədalət tərəzisini peşəkarlığı və vicdanıyla tarazlıqda saxlaya bilən hüquq işçilərinin və real vəziyyətin gələcək çoxkombinasiyalı dəyişmələrini analitik təfəkkürü ilə doğru hesablaya bilən dahi şahmatçılara İTHAF olunur.*

# Ön söz

Lətifə xanımın zəngi məni 1980-ci illərin qaynar ədəbi məclislərinə, ali məktəblərdə, zavodlarda, fəhlə yataqxanalarda, kitabxanalarda keçirilən görüşlərə qaytardı. O vaxt Azərbaycan Dövlət Universitetinin Hüquq fakultəsinin tələbələri həm yeni çıxan kitabların gur müzakirəsi, həm də dünyada gedən proseslərə ayıq və yüksək vətəndaşlıq mövqeyindən yanaşmaları ilə seçilirdilər və ən unudulmaz ədəbi məclislərimiz onların iştirakı ilə keçirilən məclislərdi. Balaca qardaşım da onların arasındaydı, bizi tez-tez görüşdürürdü. Sonralar həmin gənclər Azərbaycanın hüquq- mühafizə sistemində layiqli yerlərini tutdular və aralarındakı dostluq münasibətləri də bu günə kimi davam edir.

Bu nəsr kitabının qəhrəmanı olan xanım da həmin gənclərin arasındaydı.

Aradan keçən illər ərzində öz ixtisasına uyğun olaraq vəkilliklə məşğul olmuş qəhrəman çətin və mürəkkəb bir həyat yolu keçmiş, nəsr üçün zəruri olan zəngin həyat materialı toplamışdır. Oxuculara təqdim edilən “Sirli gedişlər” romanı da həmin həyat materialı əsasında yazılmışdır. Bu növ nəsr əsərləri peşəkarlıq baxımından, bədii nəsr texnalogiyası nöqteyi nəzərindən müəyyən tələblərə cavab verməyə bilər. Dil, orfoqrafiya, üslub baxımından tam cilalanmamış ola bilər. Lakin bəzən onların verdiyi tarixi-mənəvi, etik-psixoloji material yüksək nəzəri hazırlıqla yazılmış və çeşidli “izm” iddiaları ilə çıxış edən yazılardan daha maraqlı olur və səriştəli bir redaktor və üslübiyyatçı əlindən keçsə dəyərli əsərə çevrilir.

“Sirli gedişlər” romanında yeddi bacının həyatı əks etdirilir. Romanın mərkəzində bacılardan biri Leylanın həyatı, uşaqlıqdan başlayaraq keçdiyi yollar, yüksələn xətlə, canlı bir dinamika ilə təsvir edilir. Həyat öz qeyri-adiliyi, gözlənilməzliyi və hər insan taleyində yeni bir şəkildə qol-qanad açıb şaxələnməsi ilə uydurulması mümkün olmayan sujetlərlə doludur. Müəllif iştirakçısı və şahidi olduğu olayları bir hüquqşünas səriştəsi ilə qələmə alır. Oxucu hadisələrin gələcək davamını intizarla, səbrlə gözləyir; həyatın əsər qəhrəmanlarını hansı sınaqlardan keçirəcəyini, hara aparacağını izləyir. Romanın qəhrəmanlarını, o cümlədən Leylanın həyatı insanı düşündürən və yaşadığımız dünyanın hər cür gözlənilməz olaylarına hazır olmağa sövq edən motivlərlə zəngindir.

Leyla ailəsinin istəyini qəbul etmədən, öz arzusu və bacarığına uyğun olaraq hüquqşünaslıq yolunu seçir. Qanunun aliliyinin qorunmasına xidmət, çətinliklərlə üzləşən insanlara kömək yolunu seçir. Onun əsas amalı xeyirxahlıqdır. Kasıbların, kimsəsizlərin, imkansızların, maddi sıxıntı keçirənlərin, haqsızlıqlarla üzləşənlərin müdafiəçisi kimi şərəfli bir yol tutsa da, həyatın paradoksu olaraq özü də haqsızlıqlarla, təhdidlərlə, şər və böhtanla üzləşir; lakin ədalət uğrunda mübarizədə öz əqidəsindən geri çəkilmir.

Mən Azərbaycan şahmat federasiyasının yaradılmasında iştirak etmiş və bir müddət federasiyanın prezidenti olmuşam. Romanda başqa adla təqdim edilən, bir neçə dəfə Azərbaycan çempionu olmuş gənc qroysmestri, yəni romanın qəhrəmanının oğlunu yaxşı tanıyır və onun şahmata həsr olunmuş uşaqlıq və yeniyetməlik illərini xatırlayıram. Əslində bu romanın yazılmasına hüquqşünas xanımı – şahmatçı anasını həvəsləndirən də elə oğlunun bu zəka idmanı sahəsində qazandığı uğurlar olmuşdur.

Qroysmestr Rüfət Məmmədovun heyrətamiz oyunlarını, şahmat taxtası arxasında gözlənilməz gedişlərini və bəzən də tə-

rəddüdlərini, qaçırılan fürsətləri müəllif bir ana həssaslığı ilə təsvir edir.

Əsər qəhrəmanın həsrətlə xatırladığı uşaqlıq illərinin təsvirindən, üzləşdikləri maddi çətinliklərdən, atası Oqtayla İrəvan bazarına soğan satmağa getmələrdən başlanır və Şuşanın azad olunmasının sevinci ilə bitir. Qəribədir ki, bədxah qonşuların mənfur xisləti, iç üzü elə o uşaqlıq xatirələrində də bir qara ləkə kimi qalır. Yeddi qız atası olan Oqtay təcili yardım maşınında sürücüdür. Lakin bu yolla böyük ailəni dolandırmaq çətindir. Leylanı Bakıya imtahana aparmaq üçün bazara üz tutmağa məcbur olmuşdur. Qızının arzusunu yerinə yetirmək niyyətiylə özünü oda-közə vurur və bu vaxt qızının xasiyyətindəki bir sıra gözəlliklərin, rəhmliliyin, mərhəmətini, hamıya əl tutmaq istəyinin və elə bu yaşından ədəbiyyat tərəfdarı olmağının sevincini yaşayır. Beləliklə, anasının riyaziyyat sevgisinə baxmayaraq, Leyla hüquqşünas peşəsini seçir və anasını da buna razı salır. Bundan sonra həyatın Leylanı üzləşdirdiyi müxtəlif hadisəlıər, Bakıya gedərkən həmyerliləri ilə söhbətləri, Qaya və onun bacısı Məsmə ilə danışıqları, Məsmə ilə dostlaşması və yolda başlarına gələn olaylar təbii boyalarla təsvir edilmişdir.

Bakıya gəldiyi ilk günlərdən başlayaraq ata və qız şəhər həyatının gur axınında gözlənilməz hadisələrlə, xaraktercə fərqli və ziddiyyətli insanlarla qarşılaşırlar. Leylanın gələcək həyatı rastlaşdığı xeyirxaq insanların himayədarlığı ilə bağlıdır. Məhs bu insanlar onun işə düzəlməsinə kömək edirlər. Bundan sonra onun tələbə həyatı başlayır.

Leylanın vəkil kimi peşəkarlığını və ədalətini göstərən hadisələr, müxəlif şahmat yarışlarına gedərkən oğluyla etdiyi söhbətlər romanın maraqlı səhifələridir. "Sirli gedişlər" adı rəmzi xarakter daşıyır. Roman boyu həyatın gözlənilməzlikləri – "sirli gedişlər"i şahmat taxtası üstündə qurulan kombinasiyalarla qarşılaşdırılır. Müəllifin düşüncəsinə görə dünya da elə şahmat taxtasıdır

və bir çox hallarda şahmatın məntiqi ilə həyatın məntiqi üst-üstə düşür.

Düzünü deyim ki, romanı gözdən keçirərkən bir sıra düzəlişə ehtiyac olan orfoqrafiya səhfləri də gördüm. Təəssüf ki, bunları düzəltmək, daha doğrusu, romana redaktor gözü ilə baxmaq imkanım olmadı. Çox istərdim ki, əsər nəşrə hazırlanarkən səriştəli bir redaktor əlindən çıxsın.

Roman iş və təhsil dalınca şəhərə köçmüş ailələrin keçdiyi mürəkkəb həyat yollarının daha bir maraqlı və qürur doyuran səhifəsi ilə tanış edir.

**Sabir Rüstəmxanlı**
*Xalq şairi, Millət vəkili*

# REDAKTORDAN

Respublikada tanınmış hüquqşünas, vəkil Lətifə Əliyevanın yeni işıq üzü görmüş "Sirli gedişlər" adlı romanı onun ilk bədii əsəridir.

Roman əslən Naxçıvandan olan, əsərin əsas qəhrəmanı Leylanın ata ocağının təsviri ilə başlayır. Gənc Leylanın atası və anası sadə adamlar idi, ailədə ancaq yeddi qız idilər. Valideynləri onları halal zəhmətləri ilə böyütmüşdülər. Ataları Oqtay təcili yardım maşının sürücüsü idi. Xeyirxah və hörmətli insan kimi tanınırdı. Oğlu olmamasına baxmayaraq, Allahın ona bəxş etdiyi 7 qız övladının üstündə əsirdi. Anaları Səriyyə də həmçinin. Hər ikisi övladlarını ali təhsilli görmək istəyirdilər. Bu işdə Leylanın xüsusi rolu olmuşdur .O, uşaqlıqdan hüquqşünas olmaq arzusunda idi. Və çətinliklə olsada, buna nail ola bilmişdi. Öz biliyi və zəhmətinə arxalanan Leyla düz 4 dəfə BDU-nun hüquq fakultəsinə daxi olmaq üçün imtahan vermiş, bir neçə dəfə konkursa düşsə də, nəhayət, istəyinə çatmış, hüquq fakultəsinə daxil olmuş, universitedə əla oxumuş, qrup nümayəndəsi seçilmiş, BDU- nu qırmızı diplomla bitirib, Bakının hüquq məsləhətxanalarından birində vəkil kimi əmək fəaliyyətinə başlamış və tezliklə, öz əməlləri ilə hörmət-izzət sahibi kimi tanınmışdı.

Leyla qalan bacıları üçün böyüklük etmiş, onların həm işləmələri və ali təhsil almalarında əsas rol oynamışdı. Bacıları Kəmalə, Həlimə, Nailə, Zəhra, Yasəmən, Sevda da universitet təhsilinə yiyələnmiş, öz fəlaiyyətlərində də nümunə göstərmişdilər. Onların hər biri Leyla ilə fəxr etmiş, ondan əqidəliliyi, zəhmətsevərliyi və mübarizliyi öyrənmişdilər.

Ədəbiyyatımız üçün yeni olan romanda cəmiyyətimizdə, dövlət srukturlarında, o cümlədən hüquq-mühafizə orqanlarında hələ də rast gəlinən tüfeyli ünsürlər, "yaramaz" adamlar tərəfindən yol verilən neqativ hallarla (rüşvət, korrupsiya, müxtəlif cinayətlər və onların növləri ilə) mübarizədə vəkil Leylanın mübarizəsi, bu mübarizədə "şər", əks qüvvələrin ona qarşı törətdiyi haqsızlıqlar, hədəqorxular, təzyiq və təqiblər və s. hərəkətlər öz əksini tapmışdır. Leyla öz fəaliyyəti və iş təcrübəsi ilə sübut edirdi ki, vəkillik sənəti hüququn çətin sahələrindən biridir və hər adam onu bacara bilməz . Çün-

ki, bu sənət ilk növbədə ancaq qanunun aliliyi, ədalət və i. a. kimi bəşəri, humanist prinsiplərə söykənir, insanların hüquq və azadlıqlarını təmin və müdafiə edir, ilk növbədə həm də səbir tələb edir; vəkilinsə öz qərarında səhv etməyə sadəcə ixtiyarı yoxdur. Bu, əsərdə Leylanın bir vəkil kimi nahaq yerə, başqasının əvəzinə həbs olunmuş Abdullanın hüquq və mənafeyini qoruyub onu həbsxanadan qurtardığı epizodda aydın görünür. Həmin işdə prinsipiallıq göstərən Leyla bir peşəkar vəkil kimi qanunları pozan müstıntiq A.Musayevi və prokuror M.Mədətovu ifşa edir, müstəntiqi orqandan qovdurur. Əvəzində Abdulla və onun ailəsinin, sadə adamların rəğbətini və inamını, etimadını qazanır.

Vəkil Leyla imkanlı, lakin qanunsuz və cinayət əməlləri törətmiş Qədirzadələrə, Salmanzadələrə və başqalarına qarşı mübarizədə qətiyyətlə qanunun imtiyazlılığını sübut edir, hətta öz katibəsi tərəfindən şərlə həbsə alınmış yüksək vəzifəli şəxsin belə haqsız yerə həbs olunduğunu tutarlı dəlillərlə sübut etməklə onu həbsdən azad etdirir. Bu cəsarətli vəkil qadın həmişə kasıblara arxa durur, onların hüquq və mənafelərini qanuna əsalslanmaqla müdafiə edir. Bütün bunlar Vəkillər Kollegiyasında , Ali Məhkəmədə və digər qurumlarda çalışan "şər" qüvvələri qıcıqlandırır, onları Leylaya qarşı qisas almağa sövq edir. Ona qarşı hədə-qorxu, təhdidlər başlayır, özünün uzun illər çalışdığı hüquq məsləhətxanasından onun özünün xəbəri olmadan yerini dəyişirlər. İxtisasca prokuror olan ərini işdən çıxarıb, Bakıdan Sumqayıt şəhərinə göndərirlər. Azərbaycanı beynəlxalq yarışlarda öz parlaq qələbələri ilə layiqincə təmsil edən beynəlxalq dərəcəli qrossmeyster Rüfəti milli şahmat komadamızın üzvlüyündən azad etdirirlər. Halbuki, Rüfət şahmat taxtası arxasında öz "Sirli gedişləri" ilə erməni qrossmeysterləri Artur Mirzoyana, Ohan Melkumyana həlledici görüşlərdə qalib gəlmiş və Avropa çempionu olmuşdu. Rüfət həm də 9 qat Azərbaycan çempionu idi.

Əsərdə Leyla və bacılarının öz məqsədlərinə çatmaq üçün nə qədər çətinliklərdən keçdikləri və ali universitet təhsilinə yiyələnmələri yolunda nə qədər zəhmət çəkdikləri, habelə xeyirxahlıqları, dğvlətə, doğma Azərbaycan Respublikasına sədaqətlə xidmət göstər-

dikləri təsvir edilmişdir. Ata-analarını dərin məhəbbətlə sevdikləri hər amallarında bilinən Leyla və bacıları üçün onların həyatdan köçmələri çox ağrılı olmuşsa da, buna mərdlikə sinə gərmiş, onların Naxçıvanda dəfnlərini və yas mərasimlərini yüksək səviyyədə təşkil etmişdilər. Əsərdəki mühüm personajlardan olan Qaya və Məsmənin də ölüm səhnəsi çox sarsıntı və təsirli verilmişdir.

Leyla hələ tam həddi-buluğa çatmayan çox istedadl oğlu Rüfəti yarışlara gedən zaman bəzən müşayiət etmiş, şahmat arenasındakı parlaq oyunu və beynəlxalq aləmdə keçirilən turnirlərdəki qələbələri ilə nə qədər sevinir, fəxr edirdisə, bacılarıda bir o qədər sevinirdilər. Çünki, beynəlxalq dərəcəli qrossmeyester Rüfət Məmmədov öz “Sehrli gedişləri” ,qələbələrilə (Moskvada, Parisdə, Vyanada, Kritdə, Linaresdə, Madriddə və s.) xalqımızın adını həmişə şərəfləndirmiş və müstəqil Azərbaycan Respublikasının müqəddəs bayrağını daim yüksəklərə qaldırmış, bu yöndə erməni şahmatçılarını da məğlub etmişdi.

Həmişə özünü Azərbaycan Respublikası Milli Məclisinin millət vəkilləri arasında görmək istəyən Leyla seçiciləri ilə görüşündəki şıxışlarında gələcək fəaliyyət platforması haqqında danışmışdı. Beləliklə, bir hüquqşünas kimi yeni qanunlarımızın hazırlanması və həyata keçirilməsində iştirak etmək arzusunda olan Leyla Milli Məclisə seçkilərdə iştirak etmiş və arzusuna çatmaq məqamına yetişsədə, sonda bəzi məmurların saxtakarlığı nəticəsində istəyinə nail ola bilməmişdir.…

Romanın sonunda öz ailəsi və qonaqları ilə birlikdə özünü erməni işğalçılarından azad olunmuş (Ali Baş Komandanımız İlham Əliyevin apardığı müdrik diplomatik siyasəti, sərkərdəlik qabiliyyəti və şanlı Azərbaycan Ordusunun rəşadətli əsgər və qazilərinin şücayətləri sayəsində azad olunmuş Şuşada, Cıdır düzündə olması təsvir edilir və Leylanın gələcəkdə kerçəkləşəcək arzuları canlandırılır.

“Sehrli gedişlər” romanı ibrətamiz vəziyyətlərə, təsirə və əhəmiyyətə malikdir. Ümid edirik ki, roman geniş oxucu kütləsinin , həmçinin onunla xüsusi tanış ola bilən hər kəsin dərin marağına səbəb olacaqdır.

**İltifat Əliyarlı,**
tarix üzrə fəlsəfə doktoru.

# I FƏSİL

*Məncə isə Allah özü hər şeyin yaxşısını bilir, kiminsə sözü ilə başqasının həyatını dəyişmir.*

* * *

*Bəlkədə, dünyada baş verən bütün müsbət işlərin, quruculuğun, inkişafın əsasında fəhlənin və kəndlinin çəkdiyi real zəhmət dayanır.*

* * *

*Suyun kənarında Quran oxunuşu, musiqi, qarğış, söyüş və s. səs amilləri onun molekullarının düzülüş nizamına təsir edir. Bir sözlə, su həyatın özü və yarandığı aləmdir. Suyun qiyməti həyatın özü qədərdir və bu qiymətlini Allah səxavətlə çox, bol yaratmışdır. Allahın Qüdrətinin hüdudları insan ağlına sığmaz.*

* * *

*Çünki, dəyişmək fərqlilik, həyat, sükunət isə ölüm deməkdir. Bəlkə, elə buna görədir ki, həyat sudan yaranmağa başlamışdır və həyat amili olanların çox hissəsi sudur.*

* * *

*Yaxşılıq, savab iş görmək lazımdır! Yalnız xeyirxah əməlin enerjisi insanı yenidən Allahın yadına sala bilər! Əslində, insan ya sınaq üçün, ya da pis əməlləri nəticəsində Allahın yadından çıxır! Həqiqətdə isə daima onun nəzərindədir.*

* * *

*Yaxşılıq kainatda ən sürətlə yayılan və uzun müddət qalan, Allahın yalnız insana icazə verdiyi əməldir. Digər yaranmışlar ancaq əmrə tabedir.*

Həyətdəki tut ağacının budağından asılmış yelləncəkdə yellənə-yellənə, gələcək arzularını xəyalında canlandırır və bu zaman daha da ucalara qalxmaq istəyirdi. Odur ki, var gücü ilə ayağını yerə vurur, geri gedib, yenidən irəli hündürə qalxırdı. Bu zaman, əvvəl həyətin sonundakı çəpərin dibində əkilmiş qələmə ağacları, sonra isə onların arxasından boylanan Ağrı dağının qarlı zirvələri elə bil kiçilir, onlardan yüksəyə qalxırdı. Bir an dayanır, yenidən əvvəl dağ, sonra isə ağaclar yüksəlirdi. O isə aşağı enirdi... Və aşağı enəndə bu onun xoşuna gəlmirdi, düşünürdü ki, arzulara çatmaq, daha yüksəklərə qalxmaq üçün çox zəhmət çəkməlisən. Yenidən ayaqlarını cütləyib, daha bərk yerə vurur, zövqlə ağacları, dağları seyr edə-edə xəyallarında arzuları ilə rəqs edirdi... İyun ayının əvvəlləri idi. Gün günortadan keçmişdi...

Stul əvəzi kötük kəsiyinin üzərində oturub, köhnə, ora-bura dəyməkdən qıraqları əyilmiş, dibi batıq forma almış alüminium tasda paltar yuyan Səriyyə hərdən əlini saxlayır, diqqətlə qızına baxır, sonra yenidən işinə davam edirdi. Hər baxanda Səriyyə qarayanız, fındıqburun, almacıq sümükləri nisbətən qabarıq, incə və nazik dodaqları, özünə inam və mərhəmət süzülən ala gözlü, bəstəboylu qızının gözəlliyindən yeni görürmüş kimi zövq alır, şükr edirdi. Eyni zamanda, nigarançılıq, narahatçılıq və çıxılmaz vəziyyətdən irəli gələn hisslər keçirirdi. Nəhayət, o, əlini saxlayıb, üzünü qızına tərəf tutub dedi:

– Daha bəsdir, düş aşağı, yekə qızsan. İndi sənin yelləncəkdə yellənən vaxtın deyil. Qonum-qonşu görər, ayıbdı.

Qız yellənməkdə davam edərək, gülə-gülə dedi:

– Neyləyim, mən hələ uşağam. Mənim günahım deyil ki, siz doğum tariximi iki il əvvələ yazdırmısınız. Məni vaxtından əvvəl böyütmüsünüz.

Səriyyə qaşqabağını töküb bir az əsəbi, bir az da özünü günahkar sayırmış kimi dedi:

– Leyla, imtahan verəcəksən, indi gərək, sənin baş qaşımağa vaxtın olmasın. Düş aşağı, get dərslərini təkrarla. İşim qurtaran kimi riyaziyyatı soruşacam səndən.

Səriyyənin qırx-qırx beş yaşı olardı. Orta boylu, arıq, qarayanız qadın idi. Şərq qadınlarına məxsus iri qara gözlərindən zəhmətkeşliyin, çətin günlərin və pak mənəviyyatın ifadələri süzülürdü. Qızı Leyla ona çox bənzəyirdi. Təkcə xarici görnüşdən deyil, yerişləri, müxtəlif hisslərin təsirindən dəyişən üz cizgiləri, digər davranış xüsusiyyətləri də bənzər idi. Lakin Leyla anasından fərqli olaraq ətarfadkıların rəyini, baxışlarını, öz planlarına, istək və arzularına təsir etməsini qəbul etmirdi. Şüuraltı olaraq belə hesab edirdi ki, qarşıya qoyulan məqsədə çatmaq, arzuları gerçəkləşdirmək üçün yaxın və uzaq ətrafındakı insanların rəylərini, fikirlərini planlarına uyğundursa (,) qəbul etmək olar. Leyla ətraf aləmin təsirinə xaotik, hər beyindən çıxan qəribə fikirlər kimi baxır, onları arzulara çatmaq üçün qurulan planlara müxtəlif istiqamətlərdən vurulan zərbələr hesab edirdi. Səriyyə isə "qohumlar nə deyər", "qonşular necə baxar", "camaat necə düşünər" – fikirlərini həmişə diqqətdə saxlayırdı. Lakin ana və qızının burada da bənzər xüsusiyyətləri var idi. Hər ikisi nahaq sözə və əmələ qarşı güzəştsiz, haqlı irad və ya faydalı məsləhəti qəbul edərdilər. Xüsusilə, ədalətsiz qərara, kiməsə haqsız ittiham etməyə dözməzdilər. Səriyyə indi deyəndə ki, "imtahanlarının vaxtına azalıb, dərs oxumalısan" fikrini Leyla qəbul etdi. Lakin "düş yelləncəkdən, qonum-qonşu görüb, nə deyər?" fikrini isə qəbul etmədi...

Əslində, Səriyyə heç bir fənni dəqiq bilmirdi. Nəinki bilmirdi, yalnız üzündən oxumağı bacarırdı. Bununla belə, uşaqlarının dərslərini oxumasında böyük rol oynayırdı. Onun yoldaşı Oktay da təhsilsiz idi, səkkizinci sinifdən ailəsinə maddi köməklik göstərmək üçün məktəbdən çıxmışdı. Odur ki, uşaqlara dərslərində heç biri real kömək edə, başa düşmədikləri hissələri izah edə bilmirdilər. Onlar çox kasıb yaşadıqları üçün hazırlıq müəllimləri tutmağı heç ağıllarından keçirmirdilər. Ancaq Səriyyə uşaqlarının oxumasını o qədər çox arzu edirdi ki, onlara kömək etməyin, dərslərini yaxşı oxumaqlarının sadə

yolunu düşünüb, tapmışdı. O, hər gün dərslərin yerini soruşar, oxumaq və oynamaq vaxtlarını müəyyən edərdi. Oxumaq vaxtı diqqətlə nəzarət edərdi ki, uşağın fikri kitabdadır, yoxsa, ora-bura baxır. Dəftərlərində qaralama olarsa, ən çox əsəbləşdiyi hal olardı. Müəllimin qırmızı qələmi ilə yazdığı aşağı qiymət isə uşağın cəzalandırılmasına – istirahət günləri oynamağa qadağa və həmin fəndən keçirilən bütün mövzuların təkrar edilməsinə səbəb olardı. Uşaqlar dərsi oxuyub bitirdiyini dedikdən sonra kitabı götürüb özünə tərəf tutar – Danış! – deyərdi. Bu işdən yorulmaz, usanmazdı. Hər gün bütün ev, həyət-baca işlərindən vaxt tapıb, müəyyən etdiyi qaydalara ciddi riayyət edərdi. Bu qaydalar artıq həm özündə, həm də uşaqlarda vərdiş halına keçmişdi və öz bəhrəsini verirdi.

Səriyyə eşitdiklərindən və uşaqların dərs oxuma prosesi zamanı müşahidə etdiklərindən belə qənaətə gəlmişdi ki, riyaziyyatı bilmək çox vacibdir və digər fənlərin öyrənilməsində lazımdır. Odur ki, həmişə riyaziyyat dərsinin öyrənilməsini tələb edərdi. O, indi də qızına "riyaziyyatı soruşacam səndən" demişdi. Leyla gülümsəyib, başını bulaya-bulaya dedi:

– Ay ana, sən bu riyaziyyatdan nə vaxt əl çəkəcəksən? Elə çox istəyirdin, özün vaxtında oxuyardın, riyaziyyat müəlliməsi olardın də...

Səriyyə ciddi görkəm alıb dedi:

– Məncə, elmi bizim bu həyətə bənzətsək, bura girmək üçün bax (,) bu qapıdan keçməlisən. - O, bunu deyib, sağ əlini havaya qaldıraraq, şəhadət barmağı ilə həyətin köhnəlmiş və sağ böyrü üstə əyilmiş taxta qapısını göstərdi. Sonra isə davam etdi:

– O qapı riyaziyyatdı. Hesablamağı bilmək, təkcə digər fənnləri oxumağa kömək etmir, həyatda bütün işlərdə lazımdı. Alver edəndə, həkim, müəllim, lap nazir işləyəndə də lazımdı. Kaş vaxtında oxuyaydım...

Leyla yelləncəyi dayandırıb, diqqətlə anasının göstərdiyi taxta qapıya baxa-baxa dedi:

– Bilirsən ki, hüquq fakultəsinə qəbul olmaq üçün riyaziyyatdan imtahan vermirlər. Bu həyətə isə təkcə o qapıdan deyil, məsələn, çəpərin üstündən də aşıb keçmək olar.

– Sən əl çəkmirsən bu hüquqdan. Qız uşağı üçün ən yaxşı sənət müəlliməlik, həkimlikdi. - Səriyyə dedi və sonra əlavə etdi:

– Çəpərdən həyətə girmək çətindir. Həm də insanlar buna yaxşı baxmırlar. Kaş ki, mən riyaziyyatı bilərdim, ali təhsil alaydım.

Bunları deyib, Səriyyə köks ötürdü. O, ömrü boyu ali təhsil almadığına təəsüflənmiş, həmişə də bu işdə valideynlərini qınamışdı. Bəlkə də elə bu səbəbdəndir ki, indi övladlarının dərsləri ilə ciddi məşğul olur, hər birinin instituta qəbul olmasını arzu edirdi. Səriyyənin və Oktayın zəhmətləri boşa getmirdi. Uşaqlar yaxşı oxuyurdular. Artıq böyük qızları Kəmalə universitetin filologiya fakultəsinin tələbəsi idi. Kəmalə universitetə qəbul olanda onlar çox sevinmişdilər. Lakin sonradan bu sevinclə yanaşı, Bakıda kirayədə tələbə oxutdurmağın çətinliklərini, onsuz da kasıb yaşayan ailə üçün yeni qayğılarını yaşamağa başlamışdılar. İndi də Leyla imtahan verməyə hazırlaşırdı. Bütün ailə onun imtahan verəcəyi günü səbirsizliklə və həyəcanla gözləyirdilər. Ancaq bundan da çox Leyla qəbul olarsa, iki tələbəni necə oxudacaqlarını, maddi ehtiyyaclarını təmin edəcəklərini düşünəndə, bir çıxış yolu tapa bilmir, gələcək günlərin ağırlığını çiyinlərində hiss edirdilər.

Leyla yenidən ayağını yerə vurub, yellənməyə başladı və dedi:

– Ana, hər şey artıq gecdi. Hüquq fakultəsinə daxil olmaq mənim ən böyük arzumdu. Üç ildir ki, buna hazırlaşıram. Bax, bu həyəti görürsən, elə bil insanın xoşbəxtlik aləmidi. Bura daxil olmaq üçün isə ən yaxşı, rahat yol o taxta qapıdı. Xoşbəxtlik aləminə keçməyin ən yaxşı yolu, qapısı isə öz ürəyindən keçən arzudadı. Mənim də arzum hüquqşünas olmaqdır. Çox inanıram ki, hüquqşünas olaramsa, xoşbəxtlik aləminə qovuşaram. Özümə, sizlərə və cəmiyyətə daha çox xeyir verə bilərəm.

Hər ikisi susmuşdu. Hərə öz aləmində düşünür, gələcəyə doğru gedən yolu aydınlaşdırmaq istəyirdilər. Sükutu Leyla pozub, anasından soruşdu:

– Niyə mənim yaşımı öz vaxtına yox, iki il əvvələ yazdırdız? Elə olmasa idi, mən indi yox, iki il sonra imtahan verəcəkdim. Elə bil istədiyim qədər uşaq ola bilmədim.

Səriyyə əsəbi halda onun sözünü kəsdi:

– Sən bu sualı bəlkə yüz dəfə vermisən. İnsan eyni şeyi nə qədər soruşar? Sənə izah etmişəm axı. Kəmalədən sonra iki oğlumuz oldu, heç biri çox yaşamadı. Odur ki, sən anadan olandan sonra biz düşünürdük ki, sən də qardaşların kimi çox yaşamayacaqsan. Daha doğrusu, nənəngil belə düşünürdülər. Beləliklə, sənə şəhadətnamə çıxarmaq günü-gündən uzandı.

– Mən ancaq Həlimə anadan olanda yada düşdüm? Onda mənə şəhadətnamə çıxartdız, həm də doğum tariximi iki il əvvələ yazdırdız? – Leyla istehza ilə soruşdu.

– Hə, elədi! Bir hissəsi doğrudu, sənə sənəd çıxarmağı sanki unutduq. Atan niyə doğum tarixini iki il əvvələ yazdırdı bilmirəm, ancaq səni necə unuda bilərdik? Hər gün gözümüzün önündə deyildin? Sənə süd verib, əzizləyib, böyütmürdük? Boş-boş danışma! İndi atan yorğun-arğın gələcək, ona da belə suallar verib, yorma!

– Ana, deyirlər əmimin dörd qızı varmış, oğlanları olmurmuş. Bizim oğlanlar olanda nənəm deyirmiş ki, "Ay Allah Oktaygil hələ cavandı, oğlanları gərək bu oğluma verəydin, onların dörd qızı vardı. Sonra Oktaygilə verəydin...".

Səriyyə bir qədər fikrə getdi. Sonra ayağa qalxıb, tasdakı sabunlu suyu yaxınlıqdakı kiçik arxın içinə tökdü. Tası evin divarına dayayıb, gəlib Leylanın önüdə dayandı və dedi:

– Dediklərin olub. Doğurdan da nənən elə deyib. Sonra həqiqətən bizim oğlan uşaqları dünyalarını çox kiçik yaşda dəyişdilər. Əmingilin isə ard-arda dörd oğlanları oldu. Mənim isə bir daha oğlum olmadı. Ancaq sizin kimi oğuldan da qiymətli yeddi qızım oldu. Allahın məsləhətinə şükür!

– Məncə nənəmin sözlərini, istəyini Allah eşidib. Axı, nənəm seyid idi. - Leyla dedi.

– Məncə isə Allah özü hər şeyin yaxşısını bilir, kiminsə sözü ilə başqasının həyatını dəyişmir. Və sən belə şeylərlə beynini doldurma, düş aşağı, get imtahanlarına hazırlaş! - Səriyyə amiranə səslə dedi.

Bu zaman çəpərin yanındakı yolun qırağında təcili yardım avtomobili dayandı. Az sonra taxta qapı cırıldayıb, açıldı. Oktay həyətə daxil oldu. Leyla yelləncəkdən enib, atasına tərəf gəlib dedi:

– Ata, niyə gec gəldin? Səhərdən ac-suzsan. Az qalır axşam olsun. Əl-üzünü yu, mən yemək gətirim.

– Yaxşı qızım, tez gətir. Həm vaxtım azdır, həm də çox acmışam. - Oktay bunları deyib, gülümsədi.

Leyla həyətdəki alça ağacının altından masanın üzərinə pendir, pomidor, xiyar, vəzəri, reyhan qoydu. Sonra isə anasının bişirdiyi yalançı – içərisində ət olmayan dolma gətirdi. Səriyyə də gəlib Oktayla üz-üzə əyləşdi. Leyla anasına da bir stəkan çay süzüb, imtahana hazırlaşmağa getdi. Səriyyə çayından bir qurtum içib dedi:

– Niyə gec gəldin? Səhər yediyin yeməyin üstündəsən.

Oktay pendirdən bir tikə çörəyin arasına qoyub, yeməyə başladı. Loxmasını udduqdan sonra dedi:

– İşim çox idi.

Oktay, ümumiyyətlə, çox danışmağı sevməzdi. Qısa və yığcam danışar, suallara da belə cavab verərdi. Ailədə, qohum-əqrəbada və işdə hamı onun bu xasiyyətini bilirdi. O, həm də çox ciddi, sözünü bir dəfə deyən və verdiyi sözə nəyin bahasına olursa-olsun əməl edən insan idi. Odur ki, ailə üzvləri və ətrafdakı digər insanlar ondan çəkinər, eyni zamanda, sözübütövlüyünə, dürüstlüyünə və saflığına görə təbii hörmət qoyardılar. Oktayın ciddi xasiyyəti simasındakı cizgilərə hopmuş, daxili aləmini inikas etdirən forma almışdı.

Ümumiyyətlə, insanın düşüncə və əməlləri onun simasını zaman keçdikcə yazarlar. Fəhmli, müdrik insanlar təxminən də olsa bu yazılardan həyat yolunu və xarakteri oxuya bilirlər. Oktay ortaboylu, nisbətən arıq, ancaq sağlam bədən qurluşuna malik idi. Onun iri, qara gözləri, ağbəniz simasına və düz biçimli burnuna uyğun harmoniyada olub, dərinliklərindən saflıq, xeyirxahlıq və məğrurluq süzülürdü. Əsəbləşəndə isə bu qədər çox nüfuzedici, qorxulu görsənirdi. Həyat yoldaşı Səriyyə kimi Allaha, onun yazdığı taleyə  çox inanırdı. Odur ki, hər dəfə qızı olanda şükr edirdi. Ətrafdakı insanlar onun qızları anadan olduqca nə cür reaksiya verəcəyinə maraq göstərir, sərgilədiyi münasibətə təəccüb edirdilər. Hətta, bəzi yaxın qohumların ona acığı da tuturdu ki, bu qədər qızı neyləyir? Niyə dördüncü, beşinci, yeddinci qızı olanda belə sakit qarşılayır? Oktay isə hər qız uşağı anadan olanda,  xatirə qalsın deyə Səriyyəyə bir hədiyyə alırdı.

Oktayın bir məğrur xarakteridə beləydi ki, pulu olmasa, ən zəruri bir şeyə ehtiyyacı olsa da heç vaxt, heç kimə nəinki ağız açmazdı, heç bildirməzdi də. Onun bu xasiyyəti sonradan qızlarına da keçmişdi.

Səriyyə yenidən dilləndi:

– Dolman soyumamış ye. İçində ət olmasa da dadlıdır.

Oktay diqqətlə Səriyyənin üzünə baxdı. Səriyyənin baxışları baxışlarıyla toqquşdu. Səriyyə həmişə olduğu kimi indi də baxışlarını qaçırdı. O, həm Oktaydan utanır, həm də çəkinirdi. Onu orta məktəbdə oxuyanda necə sevirdisə, indi də elə sevirdi. Oktay çəngəllə dolmadan birini ağzına qoyub, çeynəyə-çeynəyə dedi:

– Vaxt azalır, Leylanı Bakıya imtahana aparmağa hardan pul tapacıq, bilmirəm. Göycələri də dəyər-dəyməzinə satıb, Kəmaləyə göndərdik. Hələ bu qız universitetə qəbul olsa, nə edəcəyik? İki tələbəni oxutmaq bilirsən nə deməkdir?

Bu zaman qızları Yasəmən, Zəhra evdən çıxıb, yellənçəyə tərəf getdilər. Onlardan sonra Sevda evdən çıxıb, gözlərini ovuşdura-ovuşdura anasına tərəf gəldi. Sevda evin sonbeşiyi idi, onun üç yaşı vardı. Zəhranın beş, Yasəmənin isə iki aydan sonra yeddi yaşı tamam olacaqdı. Bu il o da məktəbə gedəcəkdi. Digər qızları Nailə bu il beşinci sinifi, Həlimə isə altıncı sinifi bitirmişdilər. Səriyyə günortalar uşaqları yatızdırırdı. Nailə və Həlimə hələ yuxudan oyanmamışdılar. Məktəb bağlanıb, uşaqlar yay tətilinə çıxsalar da Səriyyə onlara dərslərini təkrar etməyi tapşırmışdı. Uşaqlar yuxudan duran kimi dərs oxuyacaqdılar. Sevda gəlib anasına qısıldı. Səriyyə onu götürüb dizi üstə qoydu və gülümsəyərək dedi:

– Sən fikir eləmə, mən bir şey düşünmüşəm pul barəsində.

Oktay çəngəli boşqabın qırağına qoyub, diqqətlə ona baxıb soruşdu:

– Nə düşünmüsən?

– Bilirsən indi soğanın qıt vaxtıdır, payızdan on kisə soğanımız qalıb. Apar, onları İrəvanda sat. Deyirlər orda kilosu bir manatdan yuxarıdı. Leyla da səninlə gedər, kömək edər...

Səriyyə son sözləri çəkinə-çəkinə dedi. Oktay heç nə demədi, yelləncəkdə yellənnən qızlarına baxa-baxa düşünməyə başladı. Bu vaxt Leyla evin qapısını açıb dedi:

– Ata, xəstəxanadan zəng ediblər.

Oktay cəld qalxıb, evə keçdi. Sonra yenidən həyətə çıxıb dedi:

– Mən tez getməliyəm!

– Heç nə yemədin axı. Otur beş dəqiqə yeməyini ye, gedərsən. Beş-on dəqiqə ilə heç nə olmaz. - Səriyyə qayğılı halda dedi.

– Bax, o maşının üstündə təcili yardım yazılıb. Mən neçə ildir ki, sürücüyəm, bir şeyi bilmişəm ki, həkimləri xəstənin yanına bir dəqiqə tez çatdırmağım insan həyatını xilas etmək deməkdir. Qonşu kənddə bir qadın təndiri qalayanda özü odlanıb, ağır yanıb!– (-) Oktay bunları deyə-deyə sürətlə taxta qapını açıb, həyətdən çıxdı.

Səriyyə öz-özünə ucadan – : "Bəlkədə, təcili yardım sürücüsü dünyada ən çətin işdi, insan heç vaxt tapıb, salamat çörəyini də yeyə bilmir ki... Bu qadın niyə bu vaxt təndir qalayırmış, elə bil , əcəl girələyirmiş. Görmüşük ki, təndiri tezdən qalayarlar..." - dedi.

– Ay ana, öz-özünə niyə danışırsan? - Leyla anasına tərəf gələ-gələ, gülüb dedi.

– Nə bilim bala, insan hərdən öz-özünə danışır. Atanın işini deyirəm da. Yazıq heç çörəyini yeyə bilmədi. Belədə iş olar? Nəticədə də aldığı maaş heç ayın başına çatmır. - Səriyyə dedi.

– Ay ana, atam düz deyir. Onun məsuliyyəti, vicdanla öz işini görməsi, bəlkə də neçə insanı ölümdən qurtarıb. Bilirsən ana, bəzən düşünürəm ki, bu həyatın qüdrətli bir əl tərəfindən sirli gedişləri var. Məsələn, o qadın niyə bu zaman təndir qalayır? Və ya insanlar indi o qadının həyatının xilas olunmasını həkimlərlə bağlayacaqlar. Əslində isə atamın nəfsinə qalib gəlib, yemək yemədən tez getməsi məsələni həll edir. Ancaq həkimlər atamdan həm çox maaş alır, həm də işin nəticəsi onların adına yazılır. Bax odur ki, mən həkim yox, hakim olmaq, ədalət tərəzisini taraz tutmaq istəyirəm - Leyla söylədi.

– Yaxşı, atan ora tez çatdı, ancaq həkimlər olmasa nə edə bilər? Heç nə! Həyatın sirli gedişləri, filan yoxdu. Hər şeyi Allah edir. Ancaq qadının bu vaxt təndir qalaması doğrudan da qəribədir. Allah köməyi olsun! Get, get Leyla bacılarını da yuxudan oyat, qoy dərslərini təkrarlasınlar. Hələki, havalar nisbətən sərindir, oxusunlar. Bir azdan isti günlər başlayacaq, yazıb-oxumağa həvəsləri heç olmayacaq. Səndə imtahanlarına hazırlaş. İndi sənin hər dəqiqən qızıldan

qiymətlidir. - Səriyyə bunları deyib, evin divarına söykənmiş kətməni götürüb, pomidor, bibər, badımcan, xiyar əkilmiş bostana doğru getdi.

Axşamçağı idi. Hava qaralırdı. Hamı həyətdəki alça ağacının altındakı masaya yığılmışdı. Səriyyə kartof qızartmış, qatıq aşı hazırlamışdı. Hamı sakit çörəyini yeyir, fincandakı qatıq aşından içirdilər. Oktay süfrə başında olanda, uşaqların heç birinin səsi çıxmırdı. Bir-birlərindən suyu belə göz-qaşla istəyirdilər. Leylanın üzü gülürdü. Atası bu gün cəldliyi, işinə vicdanla yanaşması səbəbindən həkimləri vaxtında hadisə yerinə çatdırmış, təndirdən alov alıb, yanan qadının həyatını xilas etmişlər. O, yenə də bu işdə əsas rolun atası oynadığını düşünür və anasının : "Həkimlər olmasa, atan neyləyər?" sualına ürəyində : "Atam xəstəni dərhal xəstəxanaya çatdırar. Ona digər həkimlər yardım edərlər" cavabını verirdi. Və sonra düşünürdü ki, demək burada əsas şərt sürətdi. Onda belə çıxır ki, xəstəni nə həkimlər, nə də atası-sürücü yox, təcili yardım avtomobili xilas edib? Yəni, avtomobil olmasaydı, necə olardı? Yaxşı, sürücü də, həkimlər də əyləşib avtomobilə, yol yoxdu, onda necə olacaqdı? Atası maşını necə sürüb, həkimləri ora çatdıracaqdı? Demək, yanan qadının həyatını xilas etmək üçün nə vaxtsa bu yolu inşa edən fəhlə və mühəndislərin sərf etdikləri enerjisi əsas rol oynayır? Orada neçə mühəndisin ancaq beyni işləyib, çertyoj çəkib, plan qurub, göstəriş verib, ancaq fəhlə tər tökməsəydi, gerçək iş görməsəydi, o yol necə inşa ediləcəkdi? Demək əsas rolu fəhlənin qabarlı əlləri, fiziki gücü oynayıb. Bəlkədə, dünyada baş verən bütün müsbət işlərin, quruculuğun, inkişafın əsasında fəhlənin və kəndlinin çəkdiyi həqiqi zəhmət dayanır. Ancaq yol çəkiləndə o texnika və yola döşənən asfalt olmasaydı, mühəndis və fəhlələr necə yol çəkərdilər ? Offf... Bu sirrin deyəsən, axırına çıxmaq olmayacaq. Həyat özü sirli gedişlərin dövrə hərəkətindən ibarətdir. O, dərindən köks ötürdü. Səriyyə çönüb, tərs-tərs baxdı. Oktay da başını qaldırıb, Leylaya baxdı, gülümsəyib dedi:

– Qızım, narahat olma, imtahana getməyə pul tapmışam.

Leyla elə bildi ki, yenə yelləncəkdə lap yuxarıdadı, ondan ucada ancaq səmalar var. Sevincini qışqırıb, ucadan dilə gətirmək istəsə də,

özünü güclə saxlaya bildi. Atasından çəkindi. Sevinc enerjisi göz yaşları ilə çıxdı. Bəlkə də, sevinc və kədər göz yaşları fərqli mənbədən gəlir, tərkibi müxtəlifdir. Ancaq hər ikisi orqanizmin yüksək emosianal halda fəsadlardan, zədələrdən qorumaq, sinir-humoral gərginliyi azaltmaq üçündür. Leyla sual və sevinc dolu nəzərlərini atasının gözlərinə dikdi. O gözlərə ki, həyatının hər bir anında sevincli, kədərli, çətin vaxtlarında, mühüm qərarlar verdiyi anlarda ona baxdığını hiss etmişdi. O gözlərə ki, daima onu mələk tərəfə yönləndirmiş, pis, "şeytan" düşüncələrin hücümündan qorumuşdu. Və Leyla bu gözlərdə həyatın paklıq, güc, dürüstlük cizgilərini görmüş, öz dünyasının mənəvi dayaq nöqtəsi hesab etmişdi.

Oktay Leylanın sevincli və ümidli baxışlarından karıxan kimi oldu, bir az dayandı. Çünki, neçə gün idi ki, evdə hamı imtahana getmək üçün haradan, necə pul tapmaq haqqında düşünürdü. Səriyyə də bir anlıq sevindi. Oktay gözlərini Leylanın gözlərindən yayındırıb, bir az susdu. Sonra sakit, ancaq soyuq səslə dedi:

– Hazırlaş, sabah səninlə İrəvana gedəcəyik...

Oktay bunu deyib, ayağa qalxdı. Cibindən siqaretini çıxardıb, bir gilə götürdü. Damağına qoyub, taxta qapıya tərəf getdi. Leyla bir xeyli atasının arxasınca baxdı. Sonra sual dolu nəzərlərini anasının gözlərinə dikdi. Səriyyə köks ötürüb dedi:

– Atanla soğan aparacaqsınız İrəvana, satmağa. Başqa yolumuz yoxdur.

Yasəmən tez dilləndi:

– Mən bu il məktəbə gedəcəm, çantam yoxdur. Mənə çanta alarsınız.

Zəhra əlini əlinə vurub sevincək:

– Bacı, mənimdə başmağım çoxdan cırılıb. Mənədə başmaq alarsız.

Sevda:

– Mən gəlin kukyası istəyiyəm...

Nailə də istəyirdi nə isə desin, Həlimə tez dilləndi:

– Bacı, bizə heç nə lazım deyil, sən imtahan verməyə gedəcəksən...

Leyla diqqətlə bir-bir bacılarına, sonra isə anasına bir xeyli baxdı. Səriyyə gözlərini səmaya dikib, susmuşdu.

Leyla atasına əməlli-başlı kömək edirdi. Kağızdan olan torbaları tutur, Oktay çəkdiyi soğanları tökdükdən sonra ağzını büküb, müştəriyə verirdi. Onlardan sağ tərəfdə də bir erməni soğan satırdı. O, kilosunu bir manat əlli qəpiyə veririrdi. Soğanlarıda elə bil nəm yerdə saxlamışdılar, çoxunun bir tərəfi göyərmişdi. Həm də nisbətən çox iri soğanlar idi. Müştərilər isə əsasən orta ölçülü soğanlara üstünlük verirdilər. Soğanın qiymətini soruşub, sonra bir-ikisini götürüb o yan bu yanına baxan müştərilərin əksəriyyəti almırdılar. Gəlib Oktayla Leylanın satdığı soğanları görüncə, dərhal qiymət soruşurdular və alırdılar. Onların soğanları həyətlərində becərilmiş, gübrəsiz, təbii böyümüşdülər, orta ölçülü idilər. Və Səriyyə öz zəhməti hesabına soğanları keçən il payızdan indiyə qədər sağlam saxlaya bilmişdi. Başlıcası isə Oktay soğanı nisbətən ucuz, bir manat iyirmi qəpiyə verirdi. Soğanları əlləyib, lakin almayan müştəriləri iri gövdəli, badımcanburun, sifəti çopur, qara bığlı, qalın tüklü qaşlı, dəyirmi xırda gözlü Artur baxışları ilə izləyir, onlar gəlib Oktaygildən soğan alıb, piştaxtadan ayrılana qədər arxalarınca qəzəblə baxırdı. Bu Leylanın gözündən yayınmamışdı. Yeniyetmə qız yad şəhərdə, bu yekəpər, uzun tüklü qaşlı ermənidən qorxurdu. Hələ tezdən ilk müştəriyə iki kilo soğan satdıqdan sonra Artur onlara yaxınlaşmış, əgər səksən qəpikdən verərlərsə, soğanların on kisəsini də bir yerdən alacağını təklif etmişdi. Lakin Oktay razı olmamışdı. Bu zaman Artur qəzəbli halda demişdi ki, "Əgər elədirsə, sizdə bir manat əlli qəpiyə satın, ucuz verməyin. Bizim bazarı öldürürsünüz!". Onların mübahisəsinə qonşu satıcılar da yığışmışdı. Əksəriyyəti, xüsusilə bir az aralıda digər soğan satanlar Arturun tərəfini tutmuşdular. Ancaq Oktay nə Arturdan, nə də ona tərəf çıxan digər soğansatanlardan qorxmadan öz sözünü qısa və cəsarətlə demişdi : – Mən bir iyirmidən satacam, siz gedin neçədən istəyirsiz satın! Onun cəsarətlə və özünə inamla dediyi bu sözlər ermənilərin bir hissəsini sakitləşdirsə də, bəziləri, xüsusilə Artur əl çəkməmiş, hədə-qorxu gəlmişdilər. Lakin Oktay bunların heç birini vecinə almadan, əhəmiyyət vermədən satmağa davam etmişdi. Leyla bir daha atasının cəsarəti, özünə arxayınlığı, qorxmazlığı ilə qürur duymuşdu. Elə ürəklənmişdi ki, bütün bazardakı erməni-

rin yığışsa belə atasına heç nə edə bilməyəcəkləri qənaətinə gəlmiş, ucadan onlara xitabən : – "Soğansatanlar!" - demişdi. Ermənilər əvvəlcə onun söyüş söydüyünü düşünmüşlər, lakin içlərində azərbaycanca bilənlər Leylanın dediyini yoldaşlarına başa saldıqdan sonra başlarını yelləyib, istehza ilə gülüb, getmişdilər. Onlar gedəndən sonra Oktay da gülərək Leyladan soruşmuşdu : – "Ay qızım biz də soğan satmiriq? O nəyiydi ermənilərə dedin, guya söydün onları?". Leyla hirsindən bilmirdi neynəsin. Atasına cavab vermişdi ki, "Biz məcburiyyətdən öz halal və sağlam malımızı satırıq. Onlar isə alverçidilər! Fırıldaqçıdılar! Öz millətlərinə baha satmağımızı istəyirlər...". Oktay gülüb demişdi: – "Qızım, bax o Artur var ha, bütün İrəvanı on kisə soğana dəyişər. Mən onu illərdi tanıyıram, həmişə burda soğan satır. Soğanı həm də isladır ki, ağır gəlsin. Odur ki, bəzilərinin yanyörəsi qaradı."

Günortaya az qalırdı. Ata-bala hər ikisi acmışdı. Leyla anasının bir dəsmala büküb qoyduğu pendir, xiyar və göy- göyərtini çıxarıb, piştaxtanın üstünə, soğan tərəpisinin arxa tərəfində qalmış, nisbətən kiçik bir sahəyə qoydu. Oktay üzünü qızına tutub dedi:

– Sən sat, mən gedim çörək alım, gəlim.

Leyla başını yelləyib, razılaşdığını bildirdi. Oktay getdi. Leylanı əvvəl qorxu hissi bürüdü, çönüb sağ tərəfinə, Artura baxdı. Artur da ona tərəf baxırdı. Leylanın lap əti ürpəşdi, ancaq tezdə özünü ələ aldı. Qiymət soruşan müştəriyə bilmədi nə desin. O, erməni dilini bilmirdi. Müştəri yaşlı bir erməni qadını idi. Öz-özünə deyinə-deyinə gedib Arturdan soğan aldı. Arturun üzü gülürdü. Leyla bayaqdan fikir verirdi ki, Arturdan soğan almayıb, onlardan alanların əksəriyyəti gənc və orta nəslin nümayəndələridi. Nisbətən yaşlılar isə Arturdan baha qiymətə zay soğanlar alırlar. Leyla belə qənaətə gəlmişdi ki, yaşlı nəsildə azərbaycanlılara qarşı qəribə, yad və soyuq münasibət var.

Leylanın diqqətini iki cavan oğlan cəlb etmişdi. Geyimlərindən çox kasıb olduqları bəlli olurdu. Onlardan birinin əlində kağız torba var idi. Onlar piştaxtalara yaxınlaşır, biri satıcını söhbətə tutur, digəri isə guya satılan mala baxır, birini götürüb, o birini yerinə qoyurdu. Hərdən isə imkan düşən kimi birini kağız torbaya atırdı. Qəribə idi

ki, onlar ancaq soğan oğurlayırdılar. Yavaş-yavaş gəlib Leylanın yanına çatdılar. Biri ermənicə nəsə soruşdu, Leyla başa düşməyib çiyinlərini çəkdi. Oğlan dişlərini ağardıb, uzun-uzadı nəsə danışmağa başladı. Digəri soğanlardan birini götürüb əlindəki torbaya atanda Leyla gördü. Onların baxışları qarşılaşdı. Oğlan heç nə olmamış kimi dişlərini ağartdı. Leyla özü də bir soğan götürüb onun torbasına atdı. Oğlan bundan həvəsləndi. Torbasını doldurmağa başladı. Leyla dayanıb mat-mətəl onlara baxırdı. Əslində (,) o düşünmüşdü ki, oğlanın torbasına soğan atmaqla onun oğurluq etdiyini gördüyünü özünə anladar. Onlar da utanıb, çıxıb gedərlər. Onlar torbanı doldurub, çıxıb getmək istəyirdilər ki, Oktay onun qulağından yapışıb, burmağa başladı. Oğlan ha çırpındısa, qulağını onun əlindən çıxara bilmədi. Elə bil kəlbətinlə tutmuşdular. Oktay əsəbi halda ona dedi:

– Tök soğanları yerinə! Soğan oğruları.

Onların ətrafına yenə adamlar yığışmışdı. Leylanın oğlana yazığı gəldi, onun əvəzinə utandı. Artıq oğlanın dostu aradan çıxmışdı. Milis də gəldi. Oğlanın qolundan yapışanda, yalvarmağa başladı ki, tələbədirlər, pulları olmadıqları üçün məcbur qalıb, bir kilo soğan oğurlamaq qərarına gəliblər.

Leyla milisi görən kimi atasına dedi ki, - "Onlara de, soğanı oğurlamayıblar, pulunu veriblər! De ata, de! O uşaqlar həqiqi oğru deyillər, onlar kasıbdılar!" – (-) Bunu deyib, Leyla oğlanın kağız torbasını götürüb, yenidən soğanla doldurmağa başladı. Hamı məətəl qalmışdı. Oktay bir anlıq qızına, sonra isə onun kağız torbaya soğan dolduran nəcib əllərinə baxdı və sonra milisə dedi ki, yalnışlıq olub, uşaqlar əslində (,) soğanın pulunu veriblər, sadəcə, qarışıqlıq düşüb. Milis bu dəfə də Oktayı məzəmmət edib çıxıb getdi. Artuturun kefi kök idi. Olanlar onun xoşuna gəlirdi. Həm də Oktay qayıdıb gələnə kimi xeyli soğan sata bilmişdi.

Oktay isti çörək və kolbasa almışdı. Bilirdi ki, uşaqlarının, elə Leylanın da İrəvan kolbasasından xoşları gəlir. Leyla kolbasanı görən kimi dedi:

– Ay ata, neyləyirdin kolbasanı alırdın? Anam pendir, göyərti qoyub axı...

Oktay gülüb dedi:

– Qızım, qəribə qənaətçil qızsan. Kolbasa alanda pula heyfin gəlir, erməni dığasına pulsuz soğan verirsən.

– Ata, onlar kasıb uşaqlar idilər. Hiss olunurdu ki, peşəkar oğru deyillər.

– Nə bildin? – (-) Oktay bıçaqla kolbasanı doğraya-doğraya soruşdu.

– İkisinin də başmaqları köhnə və cırıq, şalvar-maykaları köhnə. Ancaq soğan oğurlayırdılar. Başlıcası isə o soğan oğurlayan oğlanın barmaqları mənimki kimi nazik və incə idi. Həm də əsirdi. Çox güman ki, onlar tələbə idilər. - Leyla dedi.

Oktay əlini saxlayıb, diqqətlə qızının üzünə baxıb dedi:

– Sən erməni dilini bilirsən?

– Xeyr.

– Axı, o oğlan da kasıb və tələbə olduğunu dedi. - Oktay təəccüblə söylədi. Sonra əlavə etdi.

– Qızım, çəkdiyimiz zəhmətlər halaldı sənə. İndiyə qədər ürəyimdə sənin hüquqşünas olmağına razı deyildim. Ancaq bundan sonra razıyam. Allah indi də, gələcəkdə də, həmişə sənə kömək olsun!

Leyla atasının bu sözlərindən çox sevindi. Aylarla, illərlə atasından bu razılığı almağı arzulamışdı. Lakin Oktay açıq şəkildə onun seçdiyi peşəyə etiraz etməsə də, müsbət fikir, razılıq da verməmişdi. Leyla isə atasının üzündən narazılığı həmişə oxuyub, arzuları ilə olan fərqin küləyindən üşümüşdü. Anası, "İrəvana soğan satmağa gedəcəksiz" deyəndən sonra, gecə səhərə qədər ağlamışdı. Taleyin qara buludlarına çevirmişdi gözlərini. İndi isə o qədər sevinir, şükr edirdi ki, bura gəlməsəydilər, bu hadisələr olmasa idi, atasının onun seçdiyi peşəyə razılığını ala bilməyəcəkdi.

– Qızım, ancaq bir şeyi yadında saxla, bu ermənilərə yaxşılıq yoxdu. Onların varlısı da, kasıbı da eyni cürdülər – soğan oğrularıdı.

Leyla gülüb dedi:

– Ata, gərək səhər onlara soğan satan yox, "soğan oğruları" deyəydim.

İkisidə güldülər. Leyla kolbasanın bir doğramının qabığını soyub agzına qoydu. İsti çörəkdən də dişləyib, yeyə-yeyə dedi:

– Ata, kasıb hər yerdə kasıbdı. Məncə, insanları millətlərə deyil, maddi durumuna kasıb, orta kasıb, varlı və s. qruplara bölmək lazımdır...

Bir müştəri yaxınlaşdı, iki kilo soğan istədi. Leyla istədi ki, kömək etsin. Oktay qoymadı. – Sən çörəyini ye, mən yola salacam - dedi. Müştərini yola salandan sonra dedi:

– Qızım bilirsən, bu ermənilər qəribə xalqdılar. Yeri gələndə ağlayıb, yeri də gələndə qəddarlıq edib öz niyyətlərinə çatırlar. Onlar bax bu İrəvan şəhərində vaxtilə nə qədər azərbaycanlı öldürüblər. Bu şəhərin sakinlərinin çoxu azərbaycanlı olmuşdur.

Leyla bir az fikirləşib dedi:

– Ata, doğurdan da qəribədirlər. O soğan oğurlayan erməni oğlanın sağ əlinin üstündə iri, qara ləkə var idi. Mən o ləkəyə baxırdım. O, bunu gördü, oğurluğundan və mənim ona pulsuz soğan verməyimdən utanmaq əvəzinə dişini ağardıb, daha çox götürməyə başladı.

Bu zaman sol tərəfdə, onların piştaxtasına qonşu, kartof satan satıcı azərbaycan dilində "Nuş olsun!" dedi. Oktay təəccüblə ona baxıb fikirləşdi ki, bu şəxs azərbaycanlıdırsa, niyə səhərdən baş verən həngamələrə öz münasibətini bildirməyib? Yaxşı, bir həmyerli, eyni millətin övladı kimi ermənilərin hədə-qorxusundan, birgə və haqsız söz-söhbətlərindən onları müdafiə etməyə, həmrəylik göstərməyə cəsarəti, qeyrəti çatmırdısa, heç olmasa (,) bir qonşu kimi niyə söhbət etmirdi? Və indi nə oldu ki, "Nuş olsun!" dedi. Oktay bunları düşünə-düşünə dedi:

– Çox sağ olun, siz də gəlin bir tikə yeyin!

Qonşu bu təklifə bənd imiş, kartof yığmaqdan kirlənən əlini isti çörəyə uzatdı və az qala yarısını kəsib götürdü. Sonra ortadakı üç pendir tikəsindən ən irisini götürüb, çörəyin arasına qoydu. Baş barmaqları ilə pendiri əzib, sonra ortaqlıdakı göyərtiləri üstünə qoyub, möhkəm sıxdı. Bir dişləm götürüb, əlinə bir xiyar aldı, ondan da bir diş götürüb xırpıldada-xırpıldada yeməyə başladı. Leyla təəccüblə ona baxırdı. Kartofsatan ağzındakı loxmanı tələsik udub dedi:

– Naxçıvanın pendirinə, göy-göyərtisinə heç bir yerdə rast gəlmək olmaz!

O, bunu deyib, yenə ağzını açıb əlindəki dürməyin az qala yarısını qopardı. Oktay ona tamaşa edə-edə dedi:

– Düz deyirsiz eloğlu! Naxçıvanın pendiri, yağı, meyvə-tərəvəzinin dadına nəinki, bu Yerevanda, heç yerdə rast gəlmək olmaz. Allah bərəkət versin öz torpağımıza. Siz də Naxçıvanlısınız?

Kartofsatan güldü. Bu zaman onun mırıq və saralmış dişləri göründü. Leyla bunu gördükdən sonra iştahı tamam küsdü.

Kartofsatan cavab verdi:

– Xeyr qardaş! Mən elə bu Yerevanda doğulub, böyümüşəm. Atam azərbaycanlı, anam ermənidi. Adım Orantdı. Anam öz atasının adını qoyub.

Kartofsatan dürməyini yedikdən sonra kolbasadan götürüb yeyəyeyə dedi:

–Yerevanın da kolbasasından heç yerdə yoxdur. Odur ki, mən sevinirəm ki, sovet hökuməti xalqları "qardaş" edib. Sizin pendir, bizim kolbasa, rusların duşonkası... Ta yeməyə nə istəsən var. Hərdən düşünürəm ki, niyə keçmişdə erməni-müsəlman davası olub? Axı, nə fərqi var ki, torpaq kimindi? Əsas odur ki, hər cür yeməklər var...

Müştəri gəldi, kartof istədi, kartofsatan cəld öz tərəfinə keçib, dişini ağarda-ağarda onunla söhbət edib, kartof çəkməyə başladı. Sonra isə bayaqdan onunla alver edir (,) deyə üzünə güldüyü, şirin sözlər dediyi qoca erməni qadınla beş qəpiyin üstündə bəlkə on dəqiqə mübahisə etdi. Ya iri bir kartofu geri götürəcəyini, ya da beş qəpiyi verməli olduğunu dedi. Axırda qadının əlli manatlığını xırdalayıb, ondan beş qəpiyi aldı, sonra yenə siması dəyişdi. Onunla deyə-gülə danışıb, yola saldı. Oktay onun görməmiş hərəkətlərinə bərk əsəbləşmişdi. Heç çörək qalmamışdı. Oktayı əsəbləşdirən o idi ki, bilmirdi ki, bu yarımçıq erməni onları ələ salırdı, yoxsa, xəsislikdən, görməmişlikdən belə edirdi. Ona nə deyəcəyini isə bilmirdi. Desin ki, az çörək götür, pendirdən, kolbasadan az qopart? - belə demək olmazdı axı! Həm də Leyla burda idi, onun yanında kartofsatanı nə təhqir edə, nə də bir söz deyə bilməzdi. Leylaya tərəf baxıb dedi:

– Qızım, bu saat yenə çörək alıb, qayıdıram.

Leyla:

–Yox, ata! Getmə, mən onsuzda az yeyirəm, doydum. Qalanı da sən ye.

Oktay hirsli-hirsli kartofsatana tərəf baxıb dedi:

– Ən qorxulu və yaramaz insanlar bu yarı erməni, yarı azərbaycanlı olanlardı. Bunlar iyrəncdirlər. Beş qəpikdən ötrü, əlli manatı xırdalatdı.

– Ata, hirslənmə, boş şeydi. Mən bilirəm, sən onun mədəniyyətsizliyinə, görməmişliyinə əsəbləşdin! Ancaq eybi yoxdu. Soğanımızı satıb, tezliklə burdan gedək! Bax, yarıdan çoxunu satmışıq, cəmi dörd kisə qalır! - Leyla qayğılı halda dedi.

Günorta idi, satılmamış iki kisə soğanları qalırdı. Oktay üzünü Leylaya tutub dedi:

– Qızım, onsuzda müştərilər seyrəlib, sən qal burda, mən gedim yaxınlıqdan Yasəmənə çanta alım. Bu il məktəbə gedəcək.

Leyla gülümsəyib dedi:

– Yaxşı ata, ancaq Zəhraya başmaq, Sevdaya isə bir gəlincik oyuncaq al. Bura gələnə qədər, bəlkə yüz dəfə mənə tapşırıblar. Bax, bu da Zəhranın başmağının ölçüsü.

O bunu deyib, anasının yemək qoyduğu torbadan üç ip parçası çıxarıb, atasına tərəf uzatdı. Oktay qayğılı səslə dedi:

– Ay qızım, axı, bunları alsaq, sənə paltar, ayaqqabı almağa, yol pulu eləməyə pul çatmaz. Çanta mütləq lazımdı, uşaq məktəbə gedəcək.

Leyla israr etdi:

–Yox, ata, bunlar da lazımdı. Hələ iki kisə də soğanımız qalır. O birisi iki ip də Həlimə ilə Nailənin başmağının ölçüləridi. Onlar mənə görə istəmədilər, uşaq olsalar da hər şeyi dərk edirlər. Ancaq yazıqların başmaqları cırıq-sökükdü.

Oktay köks ötürüb, heç nə demədi, ip parçalarını qızından alıb getdi. Geri qayıdanda həm sevnir, həm də qayğılı idi. Sevinirdi ona görə ki, Yasəmənə çanta, Sevdaya oyuncaq, digər üç qızına isə ayaqqabılar almışdı. Təsəvvür edirdi ki, ayda-ildə imkan düşəndə uşaqlara bir şey alanda evdə necə bayram olurdu, indi də onların sevincdən atılıb düşməklərini göz önünə gətirəndə, qeyri-ixtiyari olaraq, öz-

özünə gülümsəyirdi. Ancaq alıdğı əşyaların daha gözəlini, yaxşısını seçmişdi. Bu səbəbdən bahalı olmuşdular. Nəzərdə tutduğundan artıq pul xərcləmişdi. Bu isə onu qayğılandırır, Leylanın xərclərini ödəyə bilməyəcəyindən qorxurdu. Gəlib bazara girdi, uzaqdan Leylanın başına xeyli insanın yığışdığını gördü. Bərk həyəcanlandı, nəsə hadisə olduğunu düşündü. Tez-tez addımlamağa başladı. Yaxınlaşanda ordan insanların soğan almaq üçün növbəyə duran alıcılar olduğu aydınlaşdı. Oktay çox sevindi, demək o uşaqların da ruzi payı varıymış. Ancaq yaxınlaşanda Leylanın simasındakı yorğunluğu, pərtliyi o an hiss etdi və təəccübləndi. Bu qədər müştəri varsa, gətirdikləri soğan satılıb qurtarırsa, Leyla sevinməliydi axı...

Oktay Leylanın yanına çatanda məlum oldu ki, o, soğanları iyirmi qəpiyə satırmış. Müştəriyə bir manat iyirmi qəpik qiymət demək əvəzinə, çaşıb "dask kopek – iyirmi qəpik" deyib. Müştəri də tez "On kilo ver" - deyib. Özü də Leylaya qoşulub, torbaları doldurmağa başlayıb. Bu digər müştərilərin də diqqətini cəlb edib, ora yaxınlaşanda həmin erməni müştəri "dask kopek" deyib... Leyla qalıb qıraqda, müştərilər özləri bir-birlərinə qiyməti deyib, gözləmədən hərə bir kağız torba götürüb, soğan yığmağa başlayıblar. Beləliklə, fürsətçilər növbəsi yaranıb. Oktay məsələni anladıqda onlara yaxınlaşıb, hirslə ucadan dedi:

– Heç utanmırsız? İyirmi qəpiyə soğan olar?

Kök, ucaboy bir müştəri ona tərəf əyri-əyri baxlb dedi:

– Sənə nə var, özü belə satır!

Digər müştəridə ona tərəfdar çıxdı:

– Sən kimsən? Niyə gedib öz işinlə məşğul olmursan?

Oktay əsəbi halda:

– Bu mənim qızımdı!

Digər müştəri:

– Hə, nə edək? Özü "dask kopek" dedi. Biz də alırıq.

Oktay yaxınlaşıb onun əlindən torbanı aldı, soğanları piştaxtanın üstünə töküb, hirslə dedi:

– O uşaqdı, çaşıb deyib, sizin vicdanınıza nə gəlib?

Qadın müştərilərdən biri istehza ilə gülüb dedi:

– Bu boyda uşaq olar? Bunun tayları ərə gedirlər.

Mübahisə böyüdü. Oktay bir-iki müştərinin əlindən torbalarını alıb, soğanları piştaxtanın üzərinə tökdü. Müştərilərin bir qismi "pulunu vermişəm, deyib, ordan uzaqlaşdı. Bəziləri aranı qarışıq görüb, pul vermədən əkildilər. Lap fürsətçiliklərindən də iki nəfəri beşlik və onluq verdiklərini deyib, pulun qalığını tələb etdilər.

Ara sakitləşdikdən, fürsətçil müştərilər dağılışıb getdikdən sonra Oktay Leylaya baxıb soruşdu:

– Qızım, necə oldu ki, sən iyiyrmi qəpik dedin?

Leyla nəsə demək istədi, deyə bilmədi, içini çəkib ağlamağa başladı. Oktay gülümsədi, əli ilə onun başına sığal çəkib dedi:

– Olub keçən işlər üçün heç vaxt ağlama. Bu ağıllı adamlara yaraşmaz. Puldan, dünya malından ötrü ağlamaq isə heç yaraşmaz. Canın sağ olsun, fikir eləmə, yadından çıxart bunları. Bax gör, bacılarına nə qədər şeylər almışam.

Leyla gözlərinin yaşını silib, həvəslə bacılarına alınan əşyalara baxmağa başladı. Atası çox zövqlə bunları seçmişdi. Bir anlıq Leyla özünü evlərində hiss etdi. Uşaqların necə sevindikləri gözlərinin önünə gəldi. Qeyri-ixtiyari üzünə təbəssüm qondu. Siması qar altından çıxan tək-tük bənövşələrə bənzədi. Oktay elə bil indi ayıldı, baxdı ki, soğan kisələri hamısı boşdu. On beş-iyirmi kilo piştaxtanın üstündə qalıb və vəssalam. Bir az düşünüb yavaş səslə dedi:

– Leyla, bəlkə aparım aldığım əşyaları qaytarım? Yaydı, onsuzda uşaqlar ayaqyalın gəzirlər. Sevda da uzağı bir az ağlayacaq, yadından çıxacaq. Yasəmən də sənin çantanı götürər...

Oktay bunları dedikcə onun gözləri önünə qızların sevinclə atılıb-düşdüyü səhnəni, hərəsinin bir qıraqda pərişan, sakit dayanıb, ona zillənən sehirli baxışları əvəz edirdi. Oktay bu baxışları çox görmüşdü və ən çox qorxduğu, mənəvi aləmini, ruhunu silkələyən də qızlarının bu cür baxışları idi.

Leyla acı-acı gülümsəyib dedi:

– Yox, ata, yox. Səhv mənimdi, eybi yox köhnə paltarlarımla imtahana gedərəm. Ancaq bunları qaytarmaq olmaz. Bilirsən necə sevinəcəklər? Sevda bu gəlinciyi görəndə, onun sevinci dünyalara dəyəcək.

Oktay düşündü ki, aldıqlarını aparıb qaytarsa, Leyla lap pərt olacaq, özünü günahlandıracaq. Odur ki, qızıyla razılaşdı. Gülümsəyib dedi:

–Yaxşı qızım! Allah Kərimdi. Bu yerdə qalan soğanları da sataq, gedərik.

Sonra sağ tərəfdən gələn gülüş səslərini eşidib, çönüb baxdı. Artur idi. Kefi kökəlmişdi, qonşu satıcılarla kolbasa ilə araq vururdu. Oktayın onlara tərəf baxdığını görüb, əlindəki araq dolu balaca qədəhi yuxarı qaldırdı, "Sənin sağlığına!",- deyib, içdi. Sonra isə "Ay qonşu, buyur gəl bir yüz vuraq. Əşşi, hər şey ötüb keçər. İnsana yeyib-içmək qalacaq" - dedi.

Oktay Artura heç nə demədi. Gözləməyə başladı ki, qalan soğanları da satıb qurtarsınlar. Bazarda müştərilər çox seyrəlmişdi. Alıcı yox idi. Olanlar da nədənsə, gedib Arturdan alırdı. Oktay gözlədikcə səbri tükənirdi. Vaxt azalırdı. Geciksəydilər, axşam qatarının vaxtına çata bilməzdilər. O, bir siqaret yandırıb, üzünü sol tərəfdəki yarımermənіyə tutub dedi:

– Orant, sən görmədin ki, bu uşaq çaşıb, bir manat iyirmi qəpik əvəzinə iyirmi qəpik deyib? Niyə o müştərilərə başa salmadın?

Orant dişlərini göstərərək, gülüb dedi:

– Qardaş, gördüm (,) elə bildim malınız az qalıb, qatara çatmaq üçün ucuz verirsiniz ki, tez satıb qurtarasınız.

Oktay tərs-tərs ona baxıb dedi:

– Ucuz, yəni bir manat iyirmi qəpikdən iyirmi qəpiyə qiymət düşərlər?

Orant çiyinlərini çəkib dedi:

– Nə bilim. Mən sizin işə qarışa bilməzdim axı... Əşşi, boş ver, onsuzda çoxunu yaxşı qiymətə satdız. İnsan puldan ötrü çox fikir eləməz. Həm də əslində (,) bu qız çox savab iş gördü. O, ucuz soğan alanların çoxu kasıb adamlar idi. Onların duası bu qıza bəsdi.

Orant danışdıqca Oktay ona elə baxırdı ki, sanki dünyanın ən iyrənc, ikrah hissi doğuran canlısına baxır. Oktay başını bulayıb heç nə demədi. Bir az da keçdi, qalan soğanları alan olmadı. Artur yaxınlaşıb gülə-gülə dedi:

–Yaxşı, qonşu bilirəm incimisən, ancaq boş ver getsin. Qatara geciksəz, bir gün burda qalmalı olarsınız. Nə qədər əlavə xərciniz çıxar... Qalan malınızın hamısını 80 qəpikdən alıram. Nolar ki, insan insana yaxşılıq edər.

Oktay tərs-tərs ona baxıb, hirslə dedi:

– Artur, qayıt get öz yerinə!

Artur Oktayın cavabından anladı ki, o razılaşmayacaq. Odur ki, israr eləmədi, daha doğrusu, kefini korlamaq istəmədi.

– Özün bilərsən! - deyib, çıxıb getdi.

Artur gedəndən sonra Leyla astaca dedi:

– Ata, o düz deyirdi. Sən gərək, razı olaydın, eybi yox, bir az aşağı qiymətə hamısını verib, gedəydik. Qalsa neyləyəcik? Bir də özümüzlə geri aparacıq?

Oktay heç nə demədi, gah soğanlara, gah da Leylaya baxıb fikirləşirdi. Bu zaman kartofsatan Orant yaxınlaşıb dedi:

– Çəkin hamısını, kilosu bir manatdan pulunu verəcəm.

Leyla çox sevindi. Atasına baxdı. Oktay bir kisə götürüb, soğanları yığmağa başladı. Leyla da tez-tez ona kömək edirdi. Soğanları yığıb qurtardıqdan sonra Oktay kisəni çiyninə alıb, üzünü Leylaya tutub dedi:

– Götür əşyalarını gedək!

Leyla təəccüblə atasına baxdı. Orant da əlində hazır saxladığı pula, gah da Oktaya baxıb, çiyinlərini çəkdi və dedi:

–Bunları bir də geri aparırsan? Mən yaxşı qiymət verirəm axı. İyirmi qəpikdən ötrü bu qədər əziyyət çəkməyə dəyər? Onsuzda bizim kimi pul verib almamısan ki. Torpaqdan, yerdən çıxarmısan. İnad eləmə, qoy tərəzinin üstünə, pulunuzu verim, rahat gedin. Bu da mənim sizə köməyim olar.

Oktay üz gözünü turşudub, Oranta baxa-baxa dedi:

– Sən o təmiz erməni Arturdan pissən! Bunu azərbaycanlı atana deyərsən.

Oktay soğanların hamısına bazarın girişində çoxdan tanıdığı göy-göyərti satan yerli azərbaycanlı qadınlara payladı. Onlar nə qədər israr edib, bir manat əlli qəpikdən pulunu vermək istəsələr də Oktay

götürmədi. Leyla ömrü boyu bu hadisəni unutmadı, atasının Artura, Oranta niyə satmadığını, azərbaycanlılardan isə pul almadığını sonralar dərk elədi. Həmin dövrdə bir manata belə ehtiyyacı olan atanın bu cür hərəkətini, sonralar qarşılaşdığı hadisələrdə bəzi insanların puldan ötrü mənəvi detallarını necə və neçəyə satdıqları ilə müqayisə etdikcə böyüklüyün, şəxsiyyətin ucalığını dərk etdi.

* * *

... Qatar Araz çayının qırağı ilə Naxçıvandan Bakı istiqamətinə irəliləyirdi. Bu vaxtlar çayın suyu nisbətən azalırdı və dibindəki iri daşlar aydın görünürdü. Çay daşları bir-birinə zahirən bənzəsələr də, diqqətlə baxanda hər biri fərqli gözəllilklərə, mənalara malik idi. Onları fərqləndirən ölçüləri, quruluşları, rəngləri, tək və ya cəm yerləşmələri, üzərlərindən axan suyun çoxluğu, azlığı və sürəti idi. Bu çoxlu amillərin təsirindən çay daşları, tamaşa edən insana hər biri müxtəlif cür təsir bağışlayırdı. Xüsusilə, hərəkətdə olan insan bu müxtəlifliklləri daha yaxşı görə bilirdi. Hər bir insan öz dünyagörüşü (,) təxəyyülü və hisslərinin sayəsində çay daşlarına tamaşa edəndə, özünəməxsus xəyallar aləminə düşürdü. Çay daşları soyuq və pak düşüncələr yarada bilirdi.

Çay yatağının qurluşundan, dibinin relyefindən, çay daşlarının böyük-kiçikliyindən, sıralanmasından asılı olaraq, çayın suyu özü də müxtəlif hissələrə ayrılırdı. Hər hissənin öz sürəti, rəngi, forması olurdu. Çay daşının üstündən sürətlə sürüşən sular çönüb ona tərəf qabarırdı, köpüklənirdi. Uşaq kimi sevinib, gülürdü. Yəqin bir də sürüşmək istəyirdi. Çay daşları sularla, sular da çay daşlarıyla çayda sürüşərək "ayrılıq rəqsi" oynayırdılar. Ümumilikdə, hər an dəyişən ecazkar təbiət mənzərəsi yaranırdı. Digər mövcudluqlardan fərqli olaraq, suların yaratdıqları mənzərələrdə dəyişmək xüsusiyyəti, axmaq, getmək var. Bu isə həyat deməkdir. Çünki, dəyişmək fərqlilik, həyat, sükunət isə ölüm deməkdir. Bəlkə, elə buna görədir ki, həyat sudan yaranmağa başlamışdır və həyat amili olanların çox hissəsi sudur. Yalnız su dəyişməyin, fərqliliyin əsası ola bilərdi. Suyun bir çox ecazkar xüsusiyyətləri var. Su ən çox istilik tutumuna malikdir. Müsbət 4°C-yə qədər suyun sıxlığı artır, ondan aşağı endikdə yenidən çoxalmağa başlayır. Odur ki, dünya okeanının hər yerində, ən dibdə

suyun temperaturu eynidir, müsbət 4°C-dir. Suyun kənarında Quran oxunuşu, musiqi, qarğış, söyüş və s. səs amilləri onun molekullarının düzülüş nizamına təsir edir. Bir sözlə, su həyatın özü və yarandığı aləmdir. Suyun qiyməti həyatın özü qədərdir və bu qiymətlini Allah səxavətlə çox, bol yaratmışdır. Allahın Qüdrətinin hüdudları insan ağlına sığmaz.

Araz çayının sahilləri müxtəlif relyeflidir. Yamaclar, sıldırım qayalar bir-birini əvəz edirdi. Axşamçağı bu yolu qatarla getmək çox zövqlü idi. Dəyişən, çay daşları, sular, sahillər, bir-birini əvəz edən kölgələri, çayın səsi, ona qarışan qatarın səsi, hərdən zamana salam verən qatarın fit səsi insanı qəribə aləmlərə aparırdı. İnsan bu aləmlərdə ən çox pak arzularını xəyal edir, onlara yaxınlaşmaq, zamanın budaqlarından qoparıb, özünün yanına gətirmək istəyirdi.

Leyla pəncərənin kənarında durub, Araz çayını seyr edə-edə arzularını axıb gedən çayın ecazkarlığı ilə qarışdırıb, xəyallar aləmində zamanla gerçəklikdən gələcəyə "rəqsi" oynayırdı.

– Qızım, nə düşünürsən? Bayaqdan çağırıram, heç eşitmirsən.

Leyla atasının səsinə çönüb baxdı. Gülümsədi və dedi:

– Ata, inanmıram ki, dünyanın harasındasa Araz qədər gözəl, həzin səsli, çay olsun. Elə bil, ayrılıq nəğməsi oxuyur.

– Ayrılıq nəğməsi niyə? - Oktay sual verdi.

– Bax, ata, sərhəd dirəkləri eyni xalqı iki yüz ildir ki, iki yerə bölüb. Əslində, tarix xalqların başına gətirilən bəlalar müharibələrdir və bunların hamısı kasıbların pərakəndə çoxluğunun hakimiyyət və mülkiyyət üçün birləşən azlığa uduzması deməkdir. Dünyada çox az xalqlar var ki, yarısı bir, digər yarısı isə başqa dövlətin tərkibində olsun. Bizim xalqın bəxti gətirməyib ki, üç imperiyanın birləşdiyi üçbucağın içərisindədir və zəngin sərvətləri var. Hətta, bizim çayımız Arazı da bölmüşlər.

Oktay gülümsəyib, asta səslə dedi:

– Bir də ermənilər kimi namərd, "hər şey mənimdi" deyən qonşuları var. Gəl keçək kupeyə...

Oktay ehtiyyat etdi ki, onların söhbətlərini eşidən olar. Keçən əsrin yetmişinci illərinin ortaları idi. Bu cür söhbətlər çox təhlükəli

idi. Leyla atasının nigarançılığını anladı. Onlar kupeyə keçdilər. Kupedə onlardan başqa daha iki nəfər var idi. Bunlar qonşu kənddən olan Qaya və Məsmə idi. Qayanın otuz beş-qırx, Məsmənin isə iyirmi beş-otuz yaşı olardı. Qaya ortaboylu, fiziki görkəmi idmançı təsiri bağışlayan bir kişi idi. Məsmə iri, badamı gözlü, ağbəniz, gözəl bir qadın idi. Onlar qardaş-bacıydılar. Məsmənin əsəblərində dörd-beş il olardı ki, problemlər yaranmışdı. Qaya onu Ermənistanın bir çox yerlərinə, hətta, ucqar kəndlərindəki "loğman" adıyla deyilən insanların yanına, İrəvana və s. yerlərə aparmışdı. Nə qədər pul xərcləmişdi. Lakin xeyri olmamışdı. Əksinə (,) günü-gündən Məsmənin baş ağrıları, halüsinasiya, tez-tez özündən çıxma anları artmışdı. İndi Qaya onu Bakıya həkimə aparırdı.

Məsmə  lap dibdə əyləşib, gözlərini pəncərədən bayıra dikib, dəyişən təbiət mənzərələrinə baxa-baxa fikrə getmişdi. Qaya onun yanında əyləşmişdi. Leyla da keçib digər tərəfdə pəncərənin dibində əyləşdi. Onlar artıq iki saatdan çox idi ki, bir kupedə yol gedirdilər. Müxtəlif mövzularda söhbətlər etmiş, bir-birilərini müəyyən qədər tanımışdılar. Oktayla Qaya isə əslində, çoxdan tanış idilər.

Qaya gülümsəyərək Leyladan soruşdu:

– Yəqin, Araza baxa-baxa, imtahanda "Hansı suallar düşər?" haqqında düşünürdün?

Leyla da gülümsədi və dedi:

– Bəli, Qaya əmi! Ancaq qəribədi, insan Araza tamaşa etdikcə eyni bir məsələ haqqında düşünə bilmir. Yəni, düşüncələr çay kimi axır. Çayın sahilləri kimi dəyişir, müxtəlif aləmlərə gedir... Ancaq nədənsə, əsasən arzular istiqamətində, həm də nikbin aləmlərdə dolaşır insan xəyalları.

Qaya başı ilə onun dediklərini təsdiq edib dedi:

– Düz deyirsən, ümumiyyətlə, insan müxtəlif obyektlərə baxanda, musiqi dinləyəndə, xəbər eşidəndə, dad-qoxu hiss edəndə fərqli aləmlərə düşür, xəyalları zamanın indiki anından çıxıb geriyə, ya da irəliyə gedir. Nədənsə, Araz çayına baxanda insanın xəyalları daha çox irəliyə, həm də sən demişkən arzuların gerçəkləşdiyi aləmə axıb gedir. Yəqin ki, çay özü kimi xəyalları da irəli axıdır.

Oktay Leylanın yanında əyləşib, sakitcə onların söhbətinə qulaq asırdı. O, Qayanı şəxsən tanısa da, haqqında da çox eşitmişdi. İnsanlar onun haqqında "çox savadlı", "yaxşı insan" sözlərini həvəslə deyirdilər. Onunla bir kupeyə düşdüklərinə sevinmiş, indi Leylayla olan söhbətlərinə maraqla qulaq asırdı. Məsmə isə pəncərədən dağlara, daşlara tamaşa edə-edə öz aləmində idi. Qatar fit verib, tunelə girdi. Hər yan qaranlığa qərq oldu. Qatarın, relslərin bitişən yerlərindən keçəndə dəmir təkərlərinin çıxardığı özünəməxsus səsləri daha aydın və gur eşidilməyə başladı. Hamı susmuşdu. Qatar tuneldən çıxanda Qaya dedi:

– Bax, Leyla, insanın fikir, düşüncələri də belədi. Bu qatar kimi gah işıqlıqda, gah da qaranlıq tuneldə hərəkət edir. Bu, şəxsin seçdiyi yoldan asılıdı. Deməli, ən ağıllı fikirlər, yəni, ən sağlam qatar da olsa, iradə - dəmir yolları onları öz yolu ilə aparacaq. Yəni, dəmir iradə yolu müəyyən edir. Bu isə insanın ümumi gələcək həyatını müəyyən edir.

Leyla gülümsəyərək dedi:

– Qaya əmi, razıyam sizinlə. Mən də qarşıma məqsəd qoymuşam və Allahın, atamın köməkliyi ilə bir yol tutub gedirəm.

– Özün tək gedə bilmirsən? İnsan axı, əslində, həmişə təkdi. Allahın da işi çoxdu. Birdən yadından çıxa bilərsən. Və ya atan yanında olmaz. O vaxt tək qalarsan, tuneldən necə çıxarsan? - Məsmə gülümsəyərək bu sualı verdi və diqqətlə Leylanın gözlərinin içinə baxmağa başladı. Leyla Məsmənin qəfil verdiyi bu sualdan çaşıb qaldı. Deməli, o, pəncərədən ətraf aləmi seyr edə-edə, onlara qulaq asırmış. Leyla belə fikirləşdi. Ancaq, Məsmənin bu sualı ömür boyu onun yadında qaldı. Həyatda həmişə çətinliyə, çıxılmaz vəziyyətlərə düşəndə, atasının olmadığı vaxtlarda, bu sualı xatırladı, Allahın da yadından çıxdığı qənaətinə gəldi.

Oktay gülümsəyib dedi:

– Məsmə bacı çox gözəl sual verdi. Leyla, demək istəyir ki, tək öz ayağı üstündə durmağı bacarmalısan.

Leyla atasının yol yoldaşına qarşı mədəni davranışlarını, hər vəziyyətdə güzəştli hərkətlərini, Qayaya və Məsməyə çox hörmət

bəslədiyini sezmişdi. Ümumiyyətlə, kupe yoldaşlarından razı qaldığına sevinmişdi. O, düşünürdü ki, indi də atası Məsmənin bu qəfil sualında olan sərt cizgiləri yumşaltmaq üçün söhbətə qarışdı. Leyla Məsməyə baxa-baxa dedi:

– Məncə, insan heç vaxt tək qalmaz. Atası olmasa da, yanında digər bir yaxını, söykənə biləcəyi "dağı", "qayası" olar. Allahın yadından isə heç vaxt çıxmaz! Baxın, indi sizin yanınızda Qaya əmi var...

Məsmə baxışlarını Leyladan ayırıb, Qayaya baxdı. Gözlərində fərəh, üzündə sevinc cizgiləri yarandı. Mülayim səslə dedi:

–Düz deyirsən Leyla, Qaya mənim söykəndiyim dağdı. Bizim qayamızdan heç yerdə yoxdu.

O, susdu, pəncərədən bir az bayırı seyr edib, sonra yenidən Leylanın gözlərinə baxa-baxa dedi:

– Dünya təkcə qayalardan, dağlardan ibarət deyil. Bax, Leyla, pəncərədən baxanda ətraf aləm tez-tez dəyişir. Bu dəyişkənlik insanı harasa aparır və  biz bir az əvvəl qaranlıq tunelə girdik. Allahın yadından çıxdıq! Yalnız qatarın - bizi aparan taleyin səsini eşidirik. Belə olan hallarda insan kimsəsiz olur, tək! Onda nə etməlidi? Mən bayaqdan o barədə düşünürəm.

Qaya maraqla Məsmə ilə Leylanın dialoquna qulaq asır, bacısının qəribə və sərt suallarına gənc qızın necə cavab verəcəyinə tamaşa edirdi. O, Məsmənin bu cür kəskin və dərin, bir çox hallarda başqalarının heyrətlə, qəribə baxdığı fikirlərinə bələd idi. Ancaq Məsmə hər insanla danışmaz, sual verməzdi. Demək, Leyladan və Oktaydan xoşu gəlmişdi. Qaya onun Leylayla söhbətindən sevinirdi. Həkimdə demişdi ki, Məsmə insanlarla çox təmasda olmalı, söhbət etməlidir. Bu, onun sağlamlığına faydalıdır. Lakin o, get-gedə daha çox özünə qapanırdı. Ancaq Qaya ilə söhbət edir, onunla fikirlərini bölürdü. Anasına və digər bacılarına deyirdi ki, "Siz heç nə bilmirsiniz!".

– İnsanın yanında atası, qardaşı və digər yaxınları olmaya bilər. Ancaq Allah həmişə onun yanındadı. Məncə, insan əbədi olaraq Allahın nəzarətindədi. - Leyla dedi...

– Razı deyiləm, Leyla! İnanıram ki, insanın mütləq tək-tənha olduğu, Allahın yadından çıxdığı anlar olur. Bu vaxt bilirsən nə etmək lazımdı? - Məsmə sual etdi.

– Nə etmək lazımdı? - Leyla maraqla sual verdi. Oktayla da Məsmənin nə cavab verəcəyini, səbirsizliklə gözlədi. Qaya isə təxminən bilirdi ki, o nə cavab verəcək. O, bacısının həyat fəlsəfəsini, dünya görüşünü, demək olar ki, nə sual-cavab verəcəyini təxminən hiss edir, görə bilirdi.

– Yaxşılıq, savab iş görmək lazımdı. Yalnız xeyirxah əməlin təsiri insanı yenidən Allahın yadına sala bilər! Əslində isə insan ya sınaq üçün, ya da pis əməlləri nəticəsində Allahın yadından çıxır! Həqiqətdə isə daima onun nəzərindədi. Bax, Leyla, gələcəkdə nə vaxt lap tək qaldın, çıxılmaz vəziyyətə düşdün yaxşılıq elə! Yaxşılıq kainatda ən sürətlə yayılan və uzun müddət qalan, Allahın yalnız insana icazə verdiyi əməldir. Digər yaranmışlar ancaq əmrə tabedir.

Məsmənin bu sözləri də Leylanın yadında həmişəlik qaldı. Gələcəkdə, çətin vəziyyətlərə düşəndə çıxış yolu kimi yaxşılıq etməyi, xeyirxah işlər görməyi əsas və təsirli vasitə bildi. Bu onun üçün həm də ən asan və zövqlü oldu, çünki Oktay və Səriyyədən götürdüyü nümunələr, aldığı tərbiyə, keçdiyi həyat yolu, başlıcası isə öz xilqətinə uyğun idi. Leyla düzgünlüyü və xeyirxahlığı ən asan yol hesab edirdi. Digər yollar onun üçün çətin və keçilməz görünürdü.

Məsmənin bu sözləri Oktayın da çox xoşuna gəldi. O dedi:

– Bəli, Məsmə bacı çox düz deyir. Yaxşılıq mütləq cücərəcək bir toxumdu.

Bu zaman kupenin qapısı açıldı. Vaqon bələdçisi arıq, qarayanız, orta yaşlı bir qadın içəri keçib, mülayim səslə dedi:

– Çay istəmirsiniz?

Qaya tez dilləndi:

–Hə, zəhmət olmasa dörd nəfərlik gətirin!

– Qaya əmi, mən içməyəcəm, üç nəfərlik deyin. - Leyla dilləndi.

Vaqon bələdçisi "Yaxşı", deyib, getdi. Leyla evdən termosda çay götürmüşdü. Əslində, bunu qənaətə görə və daha çox da sofuluğundan etmişdi. Hətta, sonralar qatarla yol gedəndə özünə ayrıca ba-

lınc üzü və əl-üz dəsmalı götürürdü. İndi də termosu çıxardı, iki stəkan çay süzdü. Birini Məsməyə tərəf qoyub dedi:

– Məsməylə mən termos çayı içəcəyik

Məsmə gülümsəyib dedi:

– Hə bax, bu çox yaxşı olar!

– Deyirsən, yəni, kainata tez yayılar? Daha yaddan çıxmarıq? - Leyla zarafatla dedi.

Bu zaman qatar yenidən fit verib, tunelə girdi. Qaranlıq oldu. Naxçıvan-Bakı dəmir yolunun Culfa, Ordubad və Mehri ərazilərində tunellər çoxdur. Bu yolu gedib-gələnlər həmişə maraqla qatarın tunelləri keçməsini izləyir və yadlarında həmişəlik qalırdı.

Qatar tuneldən çıxanda Məsmə çayından bir qurtum içib, gülərək dedi:

– Görünür, çay çox isti olduğundan və hamıya çatmadığından biz yenə tunelə girdik.

Onun bu sözlərinə hamısı güldü. Məsmə də güldü. Qaya Məsmənin xoş əhval- ruhiyyəsinə çox sevinirdi. Məsmə son vaxtlar nadir hallarda sevinib, gülərdi. Görünür, onun Leyladan çox xoşu gəlmişdi.

– İndi deyirsən, xalat öz sehrini itirib? - Qaya bacısı ilə zarafat etdi. Məsmə gülümsəyib dedi:

– Yox, zarafat etdim Leylayla. Ən kiçik xeyirxah iş, xoş niyyət və düşüncə də tez yayılır. Qaya yadındadı, sən İrəvanda xəstəxanada kasıb bir erməni uşağının müalicəsi üçün atasına kömək etdin və bir gün sonra mən orda zəhərlənmişdim, ölümdən həkimlər güclə qaytardılar. Bax, o yaxşılığının nəticəsi idi, məni ölməyə qoymayan. Yadında?

– Hə, yadımdadı Məsmə. - Qaya dilləndi.

– O da yadındadı ki, sən olmayanda mən o uşağın anasından bir stəkan çay istədim, vermədi? Termosu isə doluydu. - Məsmə yenə sual etdi.

– Yox, Məsmə, o yadımda deyil, axı onda mən orda deyildim. - Qaya cavab verdi. – (-) Həm də o hadisə çoxdan olub. - Qaya əlavə etdi.

Bu zaman kupenin qapısı açıldı. Vaqon bələdçisi içəri daxil olub, çayları pəncərənin dibinə bərkidilmiş balaca masanın üstünə qoydu.

Qaya çıxarıb ona bir manat verdi. O pulu götürüb, gülümsəyərək : – “Nə zaman çay istəsəniz deyin!” - deyib getdi.

Leyla Məsmənin qatar bələdçisini çox diqqətlə, başdan ayağa süzdüyünü gördü. Həm də bu zaman simasında əsəb, nifrət hissi ilə dolu ifadə yarandığı diqqətindən qaçmadı. Bələdçi getdikdən sonra Oktayla Qaya çaylarını içib, vaqonun ümumi dəhlizinə çıxdılar. Burada siqaret çəkmək olardu. Məsmə yenə pəncərədən ətraf aləmi seyr edəedə dərin düşüncələrə dalmışdı.

Oktayla Qaya kupeyə daxil olub, əyləşdilər. Qaya üzünü Leylaya tutub dedi:

– De görüm, qabında bir şey var?

Leyla dərhal dilləndi:

– Bəli, Qaya əmi! Anam bizə yol üçün tədarük görüb. Bu saat çıxardaram. - Sonra o, atasına tərəf baxıb dedi:

– Ata, icazə ver keçim, çantamızı açaq, görək anam yol üçün bizə nələr qoyub.

Onun bu sözlərinə Qaya gülümsədi. Oktay da gülüb dedi:

– Qızım, Qaya əmin o qabı demir, deyir ki, imtahana necə hazırlaşmısan? Bir şey bilirsən?

Leyla indi anladı məsələni, gülümsəyib dedi:

– Bacardığım qədər hazırlaşmışam. Var gücümlə.

Oktay da söhbətə qarışıb dedi:

– Qaya, biz nə qədər istəsək də Leyla həkimliyi, müəlliməliyi deyil, hüquq fakultəsini seçdi. Bilirsən, ora qəbul olmaq çox çətindi. Hər il əlli nəfər qəbul olur. Gör respublikada nə qədər vəzifəli şəxslər, nazirlər, raykom katibləri var. Onların övladları, yeznələri, bacıqardaş oğulları var. Mən savadsız, təhsilsiz insanam, bilirəm ki, bəlkə də o fakultəyə beş min insan daxil olmaq arzusundadı. Yəni, bir yerə yüz nəfərin içindən seçilməlisən. Bir alma var, yüz göz dikilib, yüz əl uzanıb.

Qaya ciddi görkəm alıb dedi:

– Mənim inandığım bir şey var, həqiqi bilik hər yerdə qalib gəlir. Onların vəzifələri, pulları var, Leylanın da biliyi. Ancaq o biliyi indi yoxlayacam. Sən belə şeylər danışıb, Leylanı həvəsdən salma!

Oktay köks ötürüb dedi:

– Bilirsən qardaş, o fakultəyə daxil olmaq üçün yetmiş, səksən min pul təklif edirlər. O pulnan Bakıda beş-on ev almaq olur, ya da hansısa nazir zəng edib tapşırır. Onları qoyub, kimdi Leylanın qəbul olmasına razı olan. Mən sadə sürücüyəm. Onlar heç bilmirlər ki, yer üzündə mənim kimi bir insan var, ya yoxdu.

Bunları deyib güldü, sonra yenə də gülə-gülə:

– Sürücü qızı hara, hüquq fakultəsi, prokuror, hakim olmaq hara?

Məsmə çönüb Oktaya baxdı, heç nə demədi. Yenidən pəncərədən baxmağa davam etdi.

– "Aydın sabahlar zülmət gecələrdən doğur!" kimin əsərindəndi? - Oktay Leylaya xitabən soruşdu. Leyla dərhal cavab verdi:

– Görkəmli ədibimiz Hüseyn Cavidin!

– Cavid ədəbiyyatımıza nə kimi yenilik gətirib? - Oktay yenə sual verdi.

Leyla:

– Hüseyn Cavid XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında meydana çıxan, ictimai-fəlsəfi məzmun daşıyan mənzum dramaturgiyamızın banisidi.

Leyla suallara cavab verdikcə, Qaya başı ilə onun doğru dediyini təsdiqləyir, sual verməkdə davam edirdi. Oktay isə çox diqqətlə gah Qayaya, gah da Leylaya baxırdı. Qızı hər dəfə düzgün cavab verəndə sevinirdi, sanki həqiqi imtahana tamaşa edirdi.

Qaya yenə sual verdi:

– Nizami Gəncəvi ədəbiyyata hansı yeniliklər gətirmişdi?

– Elm və ədəbiyyatın vəhdəti, ədalətli hökmdar, müsbət qadın obrazları! Ona qədər qadına ədəbiyyat aləmində daha çox şər obrazı kimi baxılırdı. - Leyla cavab verdi.

Qaya bir az düşünüb dedi:

– Nizami də, Füzuli də ayrı-ayrı zirvələrdi. Səncə, bu iki dahi şəxsiyyətin yaradıcılıqlarında oxşar və fərqli cəhətlər nədir?

Leyla düşünməyə başladı.

– Öz başa düşdüyün formada izah et. - Qaya dedi.

Leyla sağ əlinin şəhadət barmağı ilə gicgahını qaşıya-qaşıya dedi:

– Nizami Gəncəvi zirvəsindən baxanda kainatın vəhdətinin elmlə, hikmətlə yaradıldığı, hər bir mövcudluğun sirlərinin, ancaq elm ilə öyrənildiyi bəlli olur. Ədalət qüvvəsinin, yaxşılığın dünyanı tarazlıqda saxladığı, xeyirin həmişə şərdən güclü olduğu görsənir. Həm də, Nizami zirvəsində öyüd-nəsihət, faydalı məsləhətlər mehi əsir. Füzuli zirvəsində sözün içində söz, aləm içində aləmlər görsənir. Yaradılışın müxtəlif formalarında ümumi vəhdət – eşqin təcəssümü görünür. Və İlahidən süzülən, müxtəlif formalar alan eşqin yenidən birləşərək, Allaha tərəf əks olunması məlum olur. Füzuli zirvəsində İlahi eşqin aləmlərə doğru mövcud olmaq səbəbləri, küləkləri əsir. Hər iki zirvənin ucalığı elm, zəhmət və Quran məntiqindən yaranmışdı.

Oktay diqqətlə Qayanın üzünə baxmağa başladı. Qızının doğru cavab verib,(-) vermədiyini səbirsizliklə bilmək istəyirdi. Qayanın kefi kökəlmişdi. Düşünürdü ki, niyə bu qızla bayaqdan söhbət etmirdi. O, bu cür söhbətləri, yeni söz, fikir dinləməyi ömrün ən faydalı anları hesab edirdi. Leylanın cavabları, xüsusilə son ətraflı izahı, mühakiməsi onun çox xoşuna gəlmişdi. Bu cür aydın məntiqli mühakiməni yalnız hər iki böyük şairin, mütəfəkkirin əsərlərinə, fəlsəfəsinə bələd olan, ədəbiyyatı bilən və öz təfəkkürü ilə fərqlənən insan yürüdə bilərdi. Qaya heç ədəbiyyat müəllimlərindən belə cavablar, mühakimələr eşitməmiş, nə də oxumamışdı.

– Leyla, heç yerdə eşitmədiyim çox gözəl cavab verdin! Əhsən, mən beş verirəm!

Oktay rahat nəfəs aldı, elə bil qızı doğurdan da, ədəbiyyatdan beş aldı. Leyla da sevindi. Qulaqlarına inanmırmış kimi :

– Doğurdan? - soruşdu.

Bayaqdan susan, ancaq pəncərədən baxaraq düşüncələrə dalan Məsmə gülümsəyərək, Leylaya baxıb dedi:

– Leyla, Qaya heç vaxt nə artıq, nə əskik deməz. Qaya beş verirsə, mən də on verirəm. Beş də bacı payı...- Onun bu sözünə hamısı güldü.

Qaya dedi:

– Doğru deyirəm! De görüm, işığın rənglərə ayrılmasına nə deyilir? Bir az əvvəl ilahi eşqin süzülüb, müxtəlif formalara ayrılmasından danışmışdın...

Leyla gülümsəyərək dedi:

– Mən fizika üzrə hazırlaşmamışam, ancaq deyim buna işığın dispersiyası deyilir. Nyuton ağ işığı prizmadan keçirərkən, yeddi rəngə ayrıldığını görmüşdü.

– Doğrudu. Yaxşı, tutaq ki, hinduşkalar qarışıb quzulara. Başlarını sayırsan iyirmi, ayaqlarını sayırsan qırx səkkiz dənədi. Neçəsi hinduşka, neçəsi quzu olar? - Qaya sual verdi.

Oktay yenidən qızına tərəf baxmağa, onun nə cavab verəcəyini gözləməyə başladı. Leyla dedi:

– Qaya əmi, riyaziyyatdan da imtahan verməyəcəm. Ancaq anam deyir ki, elm "həyətimiz", riyaziyyat "taxta" qapımızdı. Həyətə ən asan o qapıdan girmək olar.

Leylanın bu sözünə güldülər. Məsmə də onlara tərəf çöndü, ancaq gülmədi.

– Hə, anan düz deyir! Riyazi təfəkkürü olmayan insan heç bir elm sahəsində və öz peşəsində həqiqi üstünlük qazana bilməz! Riyaziyyat iti bıçaq kimi hər şeyi kəsə bilər - Qaya dedi.

– Qaya əmi, iks üstə gəl iqrik bərabərdi iyirmi. Dörd iks üstə gəl iki iqrik bərabərdi qırx səkkiz, sistem tənliyi ilə neçə hindüşka və neçə quzu olduğunu tapmaq olar. - Leyla Qayanın sualına cavab verdi. Oktay çiyinlərini çəkib dedi:

– Bir az əvvəl dediklərinizdən nəsə başa düşürdüm, ancaq indi Leylanın cavabından heç nə anlamadım.

Məsmə gülümsəyərək dedi:

– Qaya, olmaz ki, bir tərəfə dən səpəsən, bir tərəfə də bir koma yonca tökəsən, quzu ilə hindüşka ayrıla, sayıb biləsən hərəsindən neçə dənədi? Ola da bilər ki, hansınınsa bir ayağı ağrıyar, qaldırar yuxarı, say-hesab düz gəlməz.

Qaya ayağa durub dedi:

– Məsmə, bu şərti bir məsələdi. Əgər riyaziyyatdan anlayış varsa, onu eləmək asandı. Leyla düz cavab verdi, afərin ! Daha onu yormayaq. Mən bilirəm ki, tarixi və digər fənləri də əla bilir və əsas da özünə inanır. Biz də inanaq, arzu edək ki, imtahanları çox yaxşı verib, qəbul olacaq... - O bir az dayanıb, sonra əlavə etdi:

– Bir yola düşdünsə, əvvəl-axır gedib, mənzil başına çatacaqsan. Bax, bu qatar gec-tez Bakıya çatacaq. Oktay, sən onu heç vaxt ruhdan salma. Leyla, sən isə həmişə qatar kimi öz yolunla get! Ətraf tez-tez dəyişəcək, ancaq sən özün-özünlə birlikdə dəmir yolunla hədəfə doğru gedəcəksən!

Qaya bunları deyib, siqaret çəkmək üçün kupedən çıxdı. Oktay da onun arxasınca çıxdı. Qayanın sözləri, verdiyi qiymət Leylanı sevindirdi, özünə inamını artırdı. O, həmsöhbətinin dürüstlüyünə inanmış, bütün elm sahələrindən xəbərdar olduğuna heyrətlənmişdi. Atasından gizlincə onun harada işlədiyini soruşmuş, "üzümlükdə briqadir" eşitdikdə, təəccüb etmişdi. Bu yolçuluqda Bakıya ilk gedişində onun yadında qalan "özün-özünlə, dəmir yolunla hədəfə doğru gedəcəksən!" və Məsmənin dediyi "Yaddan çıxanda xeyirxahlıq, yaxşılıq et, bu daha tez yayılır" fikirləri olmuşdu və çox vaxtlar xatırlamışdı.

Oktayla Qaya kupedən çıxandan sonra Məsmə üzünü Leylaya tutub dedi:

– Atanız sürücüdü, siz prokuror olmaq istəyirsiz. Ancaq Oktay əmi niyə inanmır?

– Çünki, deyilənə görə, ora varlı və vəzifəli insanların övladları qəbul olurlar. - Leyla gülümsəyərək cavab verdi. Məsmə də gülümsədi və dedi:

– İsgəndərlə Xızır qaranlıq aləmdə bulaq başına gəlirlər. Bulağın gözündə çoxlu parıldayan daşlar olur. İsgəndər bacardığı qədər parıltılı, Xızır isə adi daşlar götürür. Gəlib bu dünyaya çıxanda İsgəndərin götürdüyü daşların adi, Xızırın götürdükləri isə qiymətli daşlar olduğu məlum olur. Var dövlət, vəzifə bu dünyanın parıltılarıdı. Həqiqətdə bilik, elm, yaxşılıq və xeyirxahlıq dəyərlidi və bunlar adidi, sadədi.

Leyla ona diqqətlə qulaq asır, nə qədər pak, həm də mütaliəli olduğuna heyran olurdu. Düşünürdü ki, Məsmə adi qadınlara bənzəmir. Ancaq onun davranış və psixoloji durumunda nə isə qəribəliklər də var. Leyla Məsmənin dediklərini başı ilə təsdiq edib dedi:

– Sizin çox gözəl, elə o qiymətli daşlar kimi fikirləriniz var. Hansı institutu bitirmisiniz?

Məsmə gülüb dedi:

– Biz üç bacıyıq. Heç birimiz oxumadıq. Ancaq qardaşımız Qaya oxudu. Mən Qaya ilə çox, həm də müxtəlif mövzularda söhbət edirəm, nə bilirəmsə ondan öyrənmişəm. Qaya çox savadlıdı, həm də o, yaxşı insandı. Qardaşım olduğu üçün demirəm. O heç vaxt yalan danışmır, böyüklərə yaltaqlanmır, həmişə zəifləri müdafiə edir. Qaya belə yox, əksinə olsa, mən neyləyərdim? Oktay əmi də yaxşı insandı. Zəhmətkeş, ciddi xasiyyətli və dürüstdü. Mən insanları çox yaxşı tanıyıram.

– Dediklərinizlə razıyam. Həm atam, həm də Qaya əmi yaxşı insanlardı. Mən də hərdən sizin kimi düşünmüşəm ki, atam pis insan olsaydı, biz yeddi bacı neylərdik? Pis insanın qızı olmaqdan ağır yük olarmı? Bir ömür insan onu necə daşıyar? - Leyla dedi.

Məsmə onun gözlərinin içinə baxa-baxa sual verdi:

– Məncə, insan iradəsindən kənar bir şey üçün cavabdeh deyil. Mənə deyin görüm, niyə hüquqşünas olmaq istəyirsiniz? Axı, müəllimlik, həkimlik daha işıqlı, faydalı sənətlərdi. Biri insanı öyrədir, digəri sağlamlığını qoruyur... Mən heç vaxt prokuror olmaq istəməzdim. Hətta, milislərdən zəhləm gedir...

– Xoşum gəlir bu sənətdən. Haqq-ədalət tərəzisini düz saxlamaq, cinayətlə mübarizə etmək də cəmiyyətə, insanlara fayda verir.

– Leyla, kasıbın təkəbbürü varlı olur, bilirsən? - Məsmə sual etdi.

– Bilirəm, ancaq inanın, mən təkəbbürdən bu sənəti seçmədim. - Leyla özünə inamla, mülayim səslə cavab verdi.

Məsmə bir xeyli pəncərədən baxıb fikrə getdi. Sonra yenə üzünü Leylaya tutub dedi:

– Əslində, dünyada hər şey həm aydın, eyni vaxtda sirlidi. Ədalət tərəzisi heç vaxt taraz dayanmır, dayanmayacaq da. Onun gözlərinə iki eyni şey tapıb qoya bilməzlər. Birinin uşağını vurub öldürəcəklər. Sən də hakim kimi ona on-on beş il iş verəcəksən. Bir-birini əvəz edəcək? Yox! Məncə, sizin kasıblığınız və yaxşı oxumağınız birləşərək, özün də bilmədən, cəmiyyətdə xof, qorxudan hörmətli kimi görünən prokuror olmaq arzusu yaratmışdı.

– Yox, mən heç vaxt elə düşünməmişəm! - Leyla etiraz etdi.

Məsmə gülümsəyərək dedi:

– İnsan bəzən özü-özündən gizli, sirli gedişlər edir. Hər bir məsumluğun içində gizli nəsə var.

Hər ikisi susdular. Leyla ilk dəfə idi ki, bu cür qəribə, həm də təhsizlsiz ola-ola dərin düşüncəli, özünəməxsus həyat fəlsəfəsi olan qadınla söhbət edirdi. Təəccüblü qalmışdı. Bu cür fikirləri ancaq kitablardan oxumuşdu. Məsmə hardan bilirdi bunları?

– Dediklərim xətrinə dəydi? - Məsmənin mülayimliklə verdiyi sual onu fikirdən ayırdı.

– Xeyr. Əksinə, sizin fikirləriniz, həyata baxışlarınız maraqlıdı, xoşuma gəlir. Siz bütün bunları hardan bilirsiniz?

– Üzüm yığanda qızlar bir-birilə söhbət edirdilər, mən isə sakitcə iş görə-görə bunları düşünürdüm. Həm də dedim axı, Qayadan öyrənmişəm! O, mənim kitabım, müəllimim, institutumdu. Bacısı ona qurban olsun! - Məsmə söylədi, sonra əlavə etdi:

– Leyla, sən istədiyinə çatacaqsan, hüquq fakultəsinə daxil olacaqsan! Ancaq bacı kimi deyirəm, heç vaxt məzlumun haqqına girmə, zəifin, kasıb-kusubun tərəfində ol. Dünyada Allahın qəzəbinə tuş gəlməkdən qorxulu pis şey yoxdu.

– Sizinlə eyni fikirdəyəm. Bu sənəti seçəndə də, əsas məqsədim bu olub. Hərdən düşünəndə ki, hansısa kasıbın hüququnu qoruyacam, rüşvət təkliflərini, vəzifəlilərin hədə-qorxularını, tapşırıqlarını rədd edəcəm. Onda zövq alıram. O günün tez gəlməsini istəyirəm.

Məsmə düşünüb dilləndi:

– Bu sözlərimi yadında saxla, rüşvətə yox demək üçün mənəvi kasıb olmamalısan. Yuxarıdan gələn tapşırığa yox demək üçün mənəvi cəhətdən yüksəkdə olmalısan. Hədə-qorxuya təslim olmamaq üçün mənəvi ölümdən qorxmalısan. Həmişə çətinə düşəndə təklikdə özünlə danış, fikirləş. İmkan vermə ki, qanunlar ancaq kasıbları qapan it olsun!

Leyla ona diqqətlə qulaq asırdı. Hər yeni fikrinə heyran olur, yadında saxlamaq istəyirdi. Həm də, Məsmənin əsəblərinin korlanmasına, psixikasında çıxan problemlərə təəssüf edirdi. Bilirdi ki, belə xəs

təliklər sağalmır, əksinə, get-gedə şiddətlənir. Az bir vaxtda tanıdığına baxmayaraq, Məsmədən çox xoşu gəlmiş, ürəyində ona qarşı hörmət, bacı sevgisi yaranmışdı.

Qaya Araz çayına baxa-baxa siqaretindən bir qullab vurub dedi:

– Oktay, mən də bilirəm ki, hüquq fakultəsinə daxil olmaq çox çətindi. Bizim rayonun ikinci katibi Abbaszadə iki ildir oğlunu o fakultəyə salmaq istəyir, bacarmır. Bu il üçüncü dəfə uşağın sənədlərini verib. Nə qədər desən pulu var. Lap yüz min istəsələr də verər. Mərkəzi Komitədə, respublikada çoxlu dost tanışları var.

Oktay da siqaretin tüstüsünü ciyərlərinə çəkib, ağzından, burnundan havaya buraxdıqdan sonra dedi:

– Mən də bunları eşidib, bilirəm. Odur ki, qızın başqa peşə seçməsini istəyirdim. Ancaq Leyla inadından dönmədi. Arzusuna qarşı çox çıxa bilmədim. Qoy görək, axırı nə olur? Yəqin, bu il qəbul olmaz. Gələn il başqa fakultə seçər.

– Allah Kərimdi. Bilmək olmaz nə olacaq. Sən Leylanın yanında heç vaxt bu cür danışma, onu ruhdan sala bilərsən. Həmişə inandır ki, qəbul ola bilər, inam qələbənin yarısıdı.

Oktay qayğılı halda dedi:

– Həmişə ona ürək-dirək vermişəm, ancaq hərdən özümündə yadımdan çıxır, qızı həvəsdən salıram. Düz deyirsən, gərək, belə söhbətlər etməyim. Doğurdan Leyla yaxşı hazırlaşıb?

– Hə, yaxşı yox, çox yaxşı hazırlaşıb. Bilirsən qardaş, elmə çəkilən zəhmət torpağa basdırılmış toxum kimidi. Nə vaxtsa, münbit şəraitdə cücərəcək, öz mahiyyətinə uyğun meyvələr verəcək. Sən heç narahat olma, gec-tez Leyla qazandığı biliklərin bəhrəsini görəcək.

Oktay dərindən köks ötürüb dedi:

– Allah ağzından eşitsin qardaş. Yaxşı de görüm, Məsmə bacı ilə siz Bakıya xəstəxanaya gedirsiniz?

Qaya təəccüblə ona baxıb dedi:

– Hə, siz hardan bilirsiz?

Oktay gülümsəyib dedi:

– Məsmə bacı gözümə birtəhər, narahat dəydi. Həm də, mən uzun illərdi təcili yardımda sürücü işləyirəm, odur ki, xəstəhal insanları daha tez tanıyıram.

Qaya siqaretindən ard-arda iki dəfə dərin qullab vurub dedi:

– Zənnin aldatmayıb səni. Mənim bir bacım gənc yaşında vaxtsız dünyasını dəyişdi. Ondan sonra Məsmənin psixologiyasında qəribəliklər, problemlər yaranmağa başladı. Öz-özünə tez-tez danışır, ən adi şeylərə əsəbləşirdi. Həm də, elə söhbətlər edirdi ki, sanki neçə-neçə kitab oxuyub. Ancaq heç üzündən oxuya bilmir, ömür boyu üzüm bağlarında, pambıq tarlalarında işləyib. İrəvandan bəri harda yaxşı həkim, loğman eşitdim apardım. Ancaq heç bir faydası olmadı.

Oktay başını bulayıb dedi:

– O ermənilərdən kimə xeyir dəyib ki... Bildikləri bir şey olsa da, ancaq öz millətlərinə edərlər.

Qaya Arazın o tayına baxırdı. Fikiri yenə uzaqlara, keçmişə gedirdi. Necə də xoşbəxt vaxtları olurmuş insanın, ancaq o zaman qədrini bilmirmiş. O, üzünü Oktaya çevirib dedi:

– Oktay, bax görürsən Araz axır, həyatda da hər şey belə axıb gedir. Başlanğıcdan sona gedir. Elə şeylər var ki, bizim əlimizdə deyil, öz-özünə meydana çıxır. Məsmənin sağalması mümkün deyil, mən bunu bilirəm. Həkimlər də deyiblər.

Oktay qaşqabağını töküb, əsəbi halda dedi:

– Eməni həkimlər, onlara inanma, bəlkə (,) qəsdlə belə deyirlər. Özün mənə deyirsən ki, Leylanın yanında belə danışıb, ruhdan salma. Sən özündə Məsmə bacını, özünü ruhdan salma. Erməni həkimlərinin nə dediyinə fikir vermə.

Qaya diqqətlə Oktayın üzünə baxdı. Elə bil bu insanın daxili nuru simasına çıxmışdı. Əlində olsaydı bütün həkimləri bir yerə yığıb, Məsməni sağaldardı. Elə pak və qayğı ilə Qayaya təsəlli verirdi. Qaya gülümsəyib dedi:

– Məsmənin sağalmayacağını təkcə erməni həkimləri yox, tibb elmi deyir!

Qatar Mincivanda dayandı. Qrafikə uyğun olaraq, həmişə burada yarım saata qədər  dayanırdı. Sərnişinlər düşür, müxtəlif şeylər, o cümlədən də, mövsümə uyğun meyvələr alırdılar. Zəngilan rayonu və onun Mincivan qəsəbəsi sonralar Ermənistan tərəfindən işğal olunacaq, iyirmi yeddi ildən artıq müddətdə əsarətdə qalacaqdı. Və

Naxçıvan-Bakı dəmiryolu bağlanacaqdı, Naxçıvan blokadaya düşəcək, camaat məhsullarını, Bakıya gətirə bilməyəcək, özləri də çətinliklə Bakıya gəlib-gedəcəkdilər. Qatarla bu yolu gedib-gələnlərin yaddaşında çoxlu zövqlü xatirələr qalacaqdı ki, bunlardan biri də Mincivanda düşərək, alış-veriş etmək, müxtəlif meyvələr almaq olacaqdı.

Leyla və Məsmə də qatardan düşmüş, söhbət edə-edə gəzişirdilər. Oktay və Qaya da yaxınlıqda siqaret çəkib, söhbət edirdilər. Qaya Oktaya dedi:

– Qızları çağıraq, burada yaxşı çay verirlər, birlikdə çay içək!

– Hə, çox yaxşı olar. - Oktay dedi.

Onlar yaxınlaşıb, fikirlərini Leylagilə dedilər. Məsmə etiraz etdi:

– Siz gedin rahat çayınızı için. Biz gəzişək, neçə saatdı elə otururuq, həm də buranın çox gözəl havası var.

Leyla da Məsmənin dediyi ilə razılaşdı. İlk dəfə görən kimi bu yerdən çox xoşu gəlmişdi. Düşündü ki, burada gəzişmək, oturub çay içməkdən daha maraqlı olardı. Ümumiyyətlə, kişilər çayxanalarda çay içməyi daha çox sevirlər. Onları çayxanaya gəlməyə vərdiş elətdirən nərd, domino, şahmat oynamaq, müxtəlif mövzularda söhbət etmək, bir sözlə, çay içə-içə istirahət etmək marağı idi. Sovetlər zamanında insanlar əsas informasiyaları qəzetlərdən, yerli və Mərkəzi Televiziya kanallarından alırdılar. Bu xəbərlərin əksəriyyəti də bir-birinə oxşar, eyni məqsədli və mahiyyətli olurdu. (lar) Odur ki, bədii kitablara, jurnallara və çayxanalara əlavə, yeni informasiya mənbəyi kimi baxırdılar. Çayxana Şərq xalqlarının, xüsusilə Azərbaycan xalqının ənənəvi, sevimli, istirahət, xəbərləşmə, söhbətləşmə və marağı olduğu stolüstü oyunlar oynayacaq ictimai yeri idi. Bundan başqa, faydalı tərəfləri çox idi. Məsələn, kənddə olan xeyir-şər xəbərləri buradan yayılır, camaat vaxtında xəbərdar olurdu. Birinin satılıq mal-heyvanı, meyvə-tərəvəz məhsulu var idisə, insanlara burada bildirilirdi. Eyni zamanda, qonşu kəndlərdən, rayonlardan gələn insanlar onlara lazım olan hansısa şəxsi və ya almalı, satmalı olacaq bir şeyin haqqında bilgini çayxanada yığışan insanlardan öyrənə bilərdilər və bütün bunları nəzərə alsaq, keçən əsrin ortalarında, ikinci yarısında çayxanaların ictimai rəyin formalaşmasında, sosial həyatın bir çox sahələ-

rində əhəmiyyətli rol oynadığını demək olar. Sovetlər dağılanda müxtəlif telekanallar, qəzetlər ortaya çıxandan, xüsusilə internet, sosial şəbəkələr və i. a. meydana gəldikdən sonra çayxanalar informasiya mənbəyi kimi əhəmiyyətini itirməyə başladı. Ancaq yenə də insanların mədəni istirahət, sosial həyatın əhəmiyyətli bir sahəsi kimi qalmaqda davam edir.

Qaya uzaqdan Məsmələ Leylanı müşahidə edə-edə, orta yaşlı çayçıya çay sifariş etdi və kəklikotusunu bol etməyi tapşırdı. Sonra üzünü Oktaya tutub dedi:

– Bu yerlərin kəklikotusu çox ətirlidi. Bizim Naxçıvan dağlarının kəklikotlarına çox bənzəyir.

Oktay başı ilə onun dediklərini təsdiq edərək dedi:

– Elə bu yerlərin insanları, onların xasiyyəti, danışıqları da bizimkilərə çox oxşayırlar.

– Hə, elədi. Bilirsən qardaş, insan təbiətin bir parçasıdı, onu torpaq, su, bitkilər yetişdirir. Bu yerlərin iqlimi, torpağı, suyu, bitkiləri bizim yerlərə bənzədiyindən insanları da oxşayırlar.

Qaya Oktayın dediklərinə əlavə etdi, bu zaman çayçı bir çaynik, iki armudu stəkan gətirib, masaya qoyub getdi. Qaya Oktaya və özünə çay süzdü. Sonra çayından bir qurtum qaynar-qaynar içdi. Oktay gülüb zarafatla dedi:

– Qaradaş, qoy bir az soyusun, ciyərlərin yanar ki...

Qaya bir qurtum da içib dedi:

– Çayı gərək qaynar-qaynar içəsən ki, ləzzətini biləsən. Çox əla çaydı. Bakıda belə çay tapmaq çətin olar. Burada doyunca içək. Hə, Oktay, yadıma salarsan burada kababçı Veysəl var. Çox gözəl lülə kabab verir, içinə nə ot-ələf qatırsa bilmirəm, ancaq kababı qəribə çox ləzətli olur. Alaq, qızlar isti-isti yesinlər.

Oktay dinmədi. Onun cibində pulu çox az idi. Qatarda bələdçiyə çay pulunu Qaya vermişdi. Həmçinin Naxçıvan şəhərində qatar dayananda bir neçə ədəd "Badamlı", "Sirab" suları da almışdı. Odur ki, indi də kabab alarlarsa, pulunu Qayanın verməsini istəməzdi. Oktay belə şeylərdə çox diqqətçil idi və kimsənin ona çox yaxşılıq etməsini, xərc çəkməsini qəbul etməzdi. Bilirdi ki, əvəzini çıxa bilməyə-

cək, odur ki, borclu qalmağı özünə sığışdırmırdı. Bu səbəbdən iş yoldaşları, dostları, qohum-əqrəba nə qədər qonaqlıqlara, yeyib içməyə, dəvət etsə də, adətən, getməz, özünün xərcini çəkmədiyi və ya əvəzini verə bilməyəcəyi məclislərdə iştirak etməzdi. Oktayın qürurlu xasiyyəti, dürüst qəlbi, aldığı məvacib və böyük ailəsi onu mərhumiyyətlərlə yaşamağa, istirahətdən, dost-tanışdan uzaq olmağa vadar etmişdi.

Qaya çayını içib qurtardı və dedi:

– Sən rahat çayını iç, mən kababları sifariş edim, qayıdım. Veysəlin müştərisi çox olur. Qatar yola düşənədək hazır olsun.

Oktay bilmədi nə desin. Qaya da onun nə deyəcəyini gözləmədən, qalxıb getdi.

Oktay bir stəkan çay içib, yenidən süzdü. Doğurdan da çox gözəl, ətirli çay idi. Çaya kəklikotundan da əlavə dağ çiçəklərindən atmışdı. Bu çayın üstündən mütləq bir siqaret daha çox zövq verərdi. O, siqaretini yandırıb, dərin bir qullab vurdu, iki yeniyetmə uşaq yaxınlaşıb əllərində nazik söyüd çubuqlarına keçirilmiş gilənarları göstərərək – "Əmi, alırsan? Çox dadlıdılar", dedilər. Oktay uşaqları başdan-ayağa süzdü. Çox kasıb idilər. Bir manat verib, iki gilanar çubuğu aldı. Uşaqlar minnətdarlıq edib, getdilər. Oktay çay içə-içə siqaretindən çəkib, dərin fikrə getdi. Leyla ilə Bakıda harada qalacaqlar? Leyla qəbul olacaqmı? Qəbul olmasa, çox pis olacaq. O, Leylanın universitetə qəbul olmadığını gözünün önünə gətirə bilmirdi. Düzdür, Oktay çox soyuqqanlı idi və iş vaxtları hər cür "ürək əridən" hadisələr, həyəcanlı anlar görmüşdü. Lakin Oktay buz ürəyində kimsənin görə bilmədiyi yeddi solmaz, zərif çiçək bəsləyirdi. O, qızlarının kiçik kədərini böyük ürək sızıltısyla qarşılayır, ancaq bunu nə özlərinə, nə də ətrafdakılara hiss etdirmirdi. Az-çox Səriyyə onun nələr çəkdiyini hiss edirdi. Yaxşı, bəs, Leyla qəbul olmasa, Səriyyə nə edəcək? O, bunu çox gərgin, həyəcanlı qarşılayacaq. - Oktay bütün bunları düşündükcə dilxor olsur, iqareti daha bərk sümürür, sanki gələcək problemləri, həyəcanları indi bu saat tüstü ilə boğmaq istəyirdi.

– Qardaş, gilənar alırsan?

Əlində çoxlu gilənar taxılmış çubuqlar tutmuş orta yaşlı, arıq, keçəl bir nəfərin sualı Oktayı fikirdən ayırdı. O, masanın üzərinə qoyduğu iki gilənarlı çubuğu başı ilə işarə edib, göstərdi və dedi:

– Sağol qardaş, almışam!

Həmin şəxs əl çəkmədi:

– Məndəkilər başqa, daha dadlı sortlardı, alın!

-–Yox, daha lazım deyil! - Oktay bir az sərt şəkildə dedi.

Həmin şəxs:

– Qardaş, qızım xəstədi, ehtiyyacım var. Lap üç çubuğuna bir manat verin.

Oktay bilmədi nə desin. Elə bil nitqi tutuldu, almaq da istəyir, almamaq da. Ürəyində deyir ki, ay zalımın balası, mən də səndən betər kasıbam, gör nə qədər bu vağzalda insan var. Niyə axı, onlara satmırsan?

– Çox sağ olun, Allah razı olsun. Nə niyyətlə Bakıya gedirsiniz, Allah köməyiniz olsun. - Keçəl bunları deyib, üç gilənarlı çubuğu masanın üzərinə qoyub, pulunu almağı gözləməyə başladı.

Bu zaman Leyla təngnəfəs, həyəcanlı halda gəlib çıxdı. Oktay onu görən kimi bərk narahat oldu, tez:

– Nə olub qızım? - sual verdi.

Leyla gözləri dörd olmuş, səsi titrək halda:

– Ata, Məsmə yoxa çıxdı! Mən onu tapa bilmirəm!

Leyla bunları deyib, özünü ağlamaqdan güclə saxladı və birdən keçəl gilənar satanı görüb dedi:

– Bax, ata, bu gilənarsatan elədi.

Oktay tərs-tərs gilənarsatana baxdı. Sonra yenə Leylaya baxıb dedi:

– Başa düşmədim Leyla! Aydın de görüm bu adam neylədi, Məsmə hara getdi?

Leyla atasını tələsdirərək dedi:

– Ata tez gəl, gedək axtaraq! Mən qalxıb vaqonda kupemizə də baxdım. Orda da yoxuydu. Bu adam yaxınlaşıb, gilənar almağımızı istədi, əl çəkmədi, başım qarışdı. Bir də baxdım ki, Məsmə yoxdu. Gəl ata, tez gedək!

Leyla çox həyəcanlı idi. Oktay cəld ayağa qalxıb, Leylanın dediyi istiqamətə, qatarın getdiyi yolun əksinə tərəf getməyə başladı. Çayçı arxadan çağırdı.

– Ay yoldaş, çayın pulunu kim verəcək?

Oktay tez geri qayıdıb bir manatı masanın üzərinə qoydu. Çayçı üz-gözünü turşudub:

– Qardaş, iki manat edir.

Oktay bir manat da verib, getmək istəyəndə çayçı yenə dilləndi:

– Gilənarlarını da götür, hara tələsirsən? Qatarın getməsinə hələ beş dəqiqə var.

Oktay "beş dəqiqə" sözünü eşidən kimi elə bil yuxudan ayıldı. Tez Qayanın getdiyi tərəfə baxdı. İnsanlar gəzişirdilər, bəziləri durub, söhbət edirdilər. Ancaq Qaya görsənmirdi. Oktay cəld Leylanın göstərdiyi istiqamətə doğru tez-tez getməyə başladı. Leyla da onun yanınca gedirdi. Oktayın iri və sürətli addımlarına Leyla az qala, yüyürərək çatırdı. Keçəl gilənarsatan arxadan çağırdı:

– Mənim gilənarlarımın pulunu vermədin, heç olmasa, özününküləri götür!

Oktay ona qulaq asmadan, Leyla ilə qatarın geri istiqamətinə doğru gedirdilər. Onların kupesi altıncı vaqonda idi. On beşinci vaqona yaxınlaşmışdılar. Sağa, sola, insanların arasına baxa-baxa Məsməni axtarırdılar, ancaq tapa bilmirdilər. Vaxt azaldıqca, Leylanın həyəcanı çoxalırdı. Oktay özüdə həyəcanlanmağına baxmayaraq, Leylaya toxdaqlıq verir, tezliklə onu tapacaqlarını inandırmağa çalışırdı. Leyla titrək, qorxmuş səslə dedi:

– Ata, Qaya əmi necə oldu? Hara getdi?

– Getdi kabab alsın, qatarın baş tərəfinə doğru.

Leyla istehza ilə gülərək:

– Qəribə adamlardı e, bacısı qatarın quyruğuna, qardaşı kabab almaq üçün başına gedir. İndi biz Məsməni tapmasaq necə olacaq?

Oktay bir siqaret çıxarıb, yandırdı. Bir-iki qullab vurub dedi:

– Darıxma, qızım, İnşallah taparıq!

– Hara darıxmayım, qatar bu saat yola düşəcək. Biz bu dəqiqə tapsaq belə, gedib öz vaqonumuza çata bilməyəcəyik - Leyla narahat halda dedi.

Bu zaman qatar xəbərdarlıq fiti verdi, sərnişinlər qatara minməyə başladılar. Leylanın həyəcanı və təlaşı daha da artdı. İstədi atasına desin ki, "Qatar gedəcək, gəl minək". Ancaq onun xasiyyətini bilirdi ki, heç vaxt Məsməni, Qayanı burada qoyub, getməyəcək.

Hiss etdilər ki, arxadan sürətlə ayaq səsləri onlara yaxınlaşır, Leyla çönüb baxdı. Qaya ilə həmin keçəl gilənar satan idilər. Oktay da çönüb geri baxdı. Qaya və keçəl gəlib çatdılar. Heç biri dinmədi, sürətlə yanaşı getməyə başladılar. Keçəl birdən dayanıb dedi:

– Bir dəqiqə dayanın, mənə qulaq asın. O, bura qədər gəlib çıxa bilməzdi. Gəlin, qayıdaq geri. Bir az geridə, dəmir yolundan aralı bir neçə söyüd ağacından ibarət bağ var. Orada oturacaqlar da var. Bəlkə, orda olar.

Oktay onun sözünü yarımçıq kəsib, əsəblə dedi:

– Çıx, rədd ol burdan! Əlim ayağım dəyməmiş itil get!

Leyla da ona tərs-tərs baxdı, Qaya dinmədi. Keçəl kabab və gilənar çubuqları əlində donub qalmışdı. Birdən, geri çevrilib, sürətlə qaçmağa başladı. Oktay, Qaya və Leyla sürətlə irəli getməyə davam edirdilər. Artıq qatarın sonuna gəlib çıxmışdılar.Vağzalın bu hissəsində, bir-iki yerdə zəif, közərən işıqlar var idi. İşıq dirəklərindən bir az aralıda heç nə görünmürdü. Bu yerlərin gecələri çox qaranlıq olur. Xüsusilə, ay dağların arxasında gizlənəndə zülmət olur. Leylanı vahimə basırdı. Məsmənin itməsi, bir azdan qatarın yola düşməsi və onun imtahanlara çata bilməməsi fikirləri sürətlə bir-birini əvəzləyir, qarışıq, narahatedici hisslər fonunda çıxılmaz aləmə çəkib aparırdı. Artıq onun Məsməni tapa bilməyəcəklərinə heç bir şübhəsi qalmamışdı. Birdən, Qaya dilləndi:

– Oktay, indi bu dəqiqə qatar yola düşəcək! Siz tələsin, minin qatara, Leyla imtahanlara çatmalıdı, mütləq çatmalıdı!

Onun bu sözlərinə Leyla sevindi. Düşündü ki, Məsmə düz deyirmiş, Qaya çox pak və böyük insandı. Leylanın bu sevinci bir anlıq oldu. Oktay tez və qəti cavab verdi:

– Məsməni tapmayınca, qatara minən deyilik! Hər tərəfi axtarmalıyıq! Elə bu zaman kimsə arxadan həyəcanla çağırmağa başladı:

– Burdadı, qayıdın! Tez qayıdın!

Üçü də eyni vaxtda gəlib çatmışdılar və təngnəfəs idilər. Məsmə sakitcə söyüd ağacının altında oturacaqda oturmuşdu. Leyla onu görən kimi çox sevinmişdi. Eyni zamanda, maraq etmişdi ki, Qaya bu qədər həyəcandan sonra ona nə deyəcək. Keçəl isə elə bil düşmən əsiri tutmuş kimi Məsmənin başının üstünü kəsdirmişdi ki, birdən qaçar. Qaya dayanıb, dərindən köks ötürdü, heç nə demədi. Keçəl yenə qışqırdı:

– Nə gözləyirsiniz, qatar yola düşür, tez olun!

Onun bu sözündən sonra elə bil indi qatarın yola düşəcəyi yadlarına düşdü. Məsməni tapanda o qədər sevinmişdilər ki, qatara gecikmək yadlarından çıxmışdı. Həyatda canlılar aləmində bir hissin digərinə qalib gəlməsi, kölgədə saxlaması halları çox olur. Hisslərin də yaşamaq uğrunda mübarizəsi gedirmiş!

Qatar yenidən fit verməyə başladı. Qatarın ucadan, tələsdirən fitinə qarşılıq Qaya mülayim və sakit səslə:

– Məsmə qalx gedək, qatar yola düşür - dedi.

Keçəl əlindəki iki çubuqlu gilənarı Məsməyə uzatdı və dedi:

– Mən də bunları Məsmə bacıya bağışlayıram!

Məsmə gülümsəyərək:

– Hə, indi alaram, bayaq Qaya yanımda deyildi, almağa pulum yox idi - dedi və keçəldən gilənarlı çubuqları aldı. Qaya tez cibindən bir qırmızı onluq çıxarıb uzatdı keçələ. Keçəl pula tərəf baxdı, götürmədi və dedi:

– Tələsin! Getdik!

Onlar çatanda qatar xeyli sürət almışdı. Birinci Oktay minəcəkdi. Qızların əlindən tutub, tez yuxarı çıxmasına kömək etsin. Sonra Məsmə, Leyla, ən axırda Qaya minməliydi. Belə danışmışdılar. Keçəl də yanlarınca qaçırdı. Oktay cəld ayağını pilləkənə qoyub, qapının qırağında bərkidilmiş dəstəkci dəmirdən yapışıb yuxarı qalxdı. Məsmənin ayağını pilləkənə qoymağı bir az vaxt aldı. O, ayağını pilləkənə qoyub, dəmirdən tutan kimi Qaya iki əli ilə onun qoltuqlarının altından dəstək verdi, digər əlindən Oktay tutub yuxarı çəkdi. Onların yanıyca yeriyən keçəl sevinclə : "Afərin! Afərin!"- dedi və sonra yenə "Sleduşi! Sleduşi!" - dedi. Leyla Məsməyə nisbətən daha tez, ancaq çaşıb sağ ayağını pilləkənə qoydu və bu zaman sol ayağı qeyri-ixtiya-

ri yerdən üzüldü. Arxasınca sağ ayağı da pilləkəndən sürüşdü, sol əlini imkan edib Oktaya uzada bilmədi. Onun, qatarın altına düşəcəyini zənn edən atası bərk qışqırdı. Sağ əli ilə dəmirdən ani vaxtda asılı qalan Leylanın qorxusu üzərinə atasının qışqırmağı da təsir etdi. Özü də qışqırdı. Bir anlıq gözlərinin önünə qatarın ağır, dəmir təkərləri və dəmir yolunun relsləri gəldi. Qatarın altına düşən insanların necə doğrandığı haqqında eşitdiklərini sürətlə xatırladı, dəmirdən var gücü ilə tutub, gözlərini yumdu. Ancaq Qaya çox cəld, vaxtında onun iki qoltuğundan möhkəm tuta bilmişdi. Keçəl özünü itirmədən qışqırırdı : – "Sol əlini yuxarı qaldır! Sol əlini yuxarı qaldır!". Qatarın getdikcə yüksələn səsi fonunda keçəlin qışqırıq səsi Leylanı elə bil ayıltdı. Əlini yuxarı qaldırdı və dərhal atasının əllərini hiss etdi. O anda bütün vücuduna əminlik, arxayınlıq yayıldı. Ruhən hiss etdi ki, yüz əzrayıl da gəlsə, bu dəmirləşən əllərdən onu ala bilməz.

Keçəl yenə qışqırdı : "Sleduşi!". Qaya hoppanıb sol ayağını, sonra isə sağı pilləkənə qoydu. Tez sağ əlini dəmirdən tutub, sol əlini isə cibinə salıb bayaqkı onluğu çıxarıb, hələdə az qala qaçaraq qatarın yanıyca yeriyən keçələ uzadıb dedi:

– Xahiş edirəm, bunu götür. Sən bizə çox kömək etdin.

Keçəl gülə-gülə dedi:

– Mənim qızım da sizin bacınız kimi özünü narahat hiss edir. Narahatlar bir-birlərinə pulla yox, dua və yaxşılıq etməklə kömək edərlər. Mən də xahiş edirəm ki, bu yerlər sizin yadınızda çay pulunu iki dəfə alan insanları ilə qalmasın.

Bunları deyib, o dayandı və əl edə-edə qışqıraraq, getdikcə uzaqlaşan Qayaya dedi:

– Eyy, bu gün dəmir təkərlər ət kəsməliydilər, kəsdilər də. Sənin aldığın kababları kəsdilər. Həmişə dua edin, duayla nəinki qatara, göylərə də çıxmaq olar. Sizə yaxşı yol!

Kupedə oturmuşdular. Oktayla Qaya söhbət edirdilər. Məsmə yenə dinməzcə pəncərədən ətrafa, qaranlığa baxır, dərin düşüncələrə dalmışdı. Leyla isə olub keçənləri xatırlayır, xəyalları gəlib qatara minəndə az qala, təkərlərin altına düşəcəyi yerə çatanda, əti ürpəşirdi. Bu anı yadından çıxarmaq istəyirdi. Ancaq çıxara bilmirdi. Hərdən

minnətdarlıq hissi ilə Qayaya baxır, həyatını qurtardığını düşünürdü. Hərdən də gilənar satan keçəl kişini xatırlayıb, onun barəsində əvvəlcə pis düşüncələrdə olduğu üçün özünü qınayırdı və belə qərara gəldi ki, gələcəkdə insanlar barəsində tez qərara gəlməsin. Ayın formaları və görünməyən tərəfləri olduğu kimi, insanların da çox tərəfləri və müxtəlif qiymətli düşüncə və əməlləri vardır. Yalnız bunların çoxluğunu müəyyən edib, toplayıb həqiqi qiymət vermək olar. Keçəl əslində, çox dürüst, yaxşı insanıymış, bəlkədə mələklərin "keçəliymiş". Leyla onun Qayaya dediyi son sözləri də eşitmişdi, çox xoşuna gəlmişdi. "Dualarla lap göylərə də çıxmaq olar" - nə gözəl sözlər idi. Hə, axı, Məsmə də deyirdi : "Xeyirxahlıqlar, yaxşılıqlar kainatda daha tez yayılır. Allaha çatır." Yaxşı (,) bəs, onun dediyi "Bu gün o təkərlər ət kəsməliydilər" nə demək idi? Bunu heç başa düşmürdü. Qərara gəldi ki, Qayadan soruşsun, həm də ona təşəkkür etsin.

– Qaya əmi çox sağ olun, məni tutmasaydız qatarın altına düşəcəkdim. - Leyla utana-utana dedi.

Qaya gülümsəyərək dedi:

– Əslində, siz sağ olun ki, məni tək qoymadız. Həm də bizə görə qatara gec mindiniz.

– Siz də olsaz bizim yerimizə eynisini edərdiz. Doğurdan da qızımın həyatını xilas etdiniz. Mən sizə borclu. - Oktay söhbətə qarışdı.

Qaya gülərək dedi:

– Belə şeyləri tez yaddan çıxarmaq lazımdı. İnsan olub keçənləri yalnız faydalı nəticələr çıxarmaq üçün düşünər. Yaxşı, o çayçı məndən iki manat aldı, keçəlin dediyindən belə nəticə çıxır ki, səndən də alıbmış?

– Hə, məndən də almışdı. Bəs, səndən alanda, o keçəl niyə demədi ki, a kişi, axı pulunu veriblər. - Oktay dedi.

– Keçəl onda gilənar satırdı, başı qarışmışdı. Yolda məndən soruşdu. Demək, o, çayçının fırıldaqlarını bilirmiş. Eybi yoxdu, halal xoşu olsun! O işdə keçib, gedib.

– Qaya əmi, o keçəl : "Bu gün ət kəsməliydilər, sənin aldığın kababları kəsdilər", deməklə, nə fikir bildirmək istəyirdi?

Məsmə fikirdən ayrılıb dedi:

– Qaya, kabab almışdın?

– Hə almışdım. Leylanı tutanda əlimdən düşdü qatarın altına.

Məsmə gülümsəyərək, masanın üzərindəki iki çubuqlu gilənarı göstərib dedi:

– Baxın, ən qoçaq mən çıxdım. Siz kababları və gilənarları saxlaya bilmədiz.

Onun bu sözlərinə gülümsədilər. Məsmə dedi:

– Mən lülə kababı xoşlayıram. Qaya, Bakıda alarsan?

– Hə, alaram. - Qaya nəvazişlə bildirdi, sonra isə üzünü Leylaya tutub dedi:

– Leyla, o keçəl də kababların qatarın altına düşdüyünü görüb, ağlına gələni dedi. Orda nəsə mifik bir şey axtarmağa dəyməz. Ümumiyyətlə, həyatda elmə, Quran məntiqinə və Allaha inanmaq lazımdı. Yalnız cahil adamlar “saman düşdü, zaman öldü” fəlsəfəsinə inanırlar.

Leyla bir az düşünüb, üzünü Məsməyə tutub soruşdu:

– Məsmə, sən niyə gedib orda oturmuşdun?

Məsmə gülümsəyərək cavab verdi:

– Söyüd ağacını sevirəm. Onlar gözəldirlər, meyvələri də olmur. Elə bil özlərinin özlərinə yazığı gəlir. Başlarını çox vaxt aşağı salıb, fikir edirlər. Ulduzları da sevirəm, onlar ucalardan yaxına gəlib, adama göz vururlar, həm də sadədirlər. Oturub orda ulduzlara baxırdım. Həm də düşünürdüm. Nəsə tapmaq istəyirdim.

– Tapdın? - Leyla maraqla soruşdu.

– Yox, hələki, tapa bilmədim. - Məsmə başını yırğalayaraq dedi.

Bu zaman vaqon bələdçisi qapını döyüb, içəri girdi. Yataq dəstlərini qollarının arasına yığıb, gətirmişdi. Məsmə yenə də ona diqqətlə baxırdı. Oktay Qayaya dedi:

– Çıxaq siqaret çəkək, uşaqlar yerləri rahatlasınlar.

Qaya ayağa qalxıb:

– Hə, düz deyirsən, yatmaq aparar - dedi və onlar vaqonun dəhlizinə çıxdılar.

Gecə Leyla narahat yatdı, tez-tez oyandı. Hər oyananda gözucu Məsməyə baxırdı. Onlar ikisi də ikinci mərtəbədə yatırdılar. Özləri belə istəmişdilər. Leyla hər oyananda Məsmənin gah gözlərini tavana

zillədiyini, gah da ağzı üstə uzanıb, pəncərədən qaranlıqlara baxdığını görürdü. Səhərə yaxın Leyla gözlərini azca aralayıb, yenə Məsməyə baxdı. O hələ də yatmamışdı. Leylanın ona baxdığını hiss edib, elə bil bunu gözləyirmiş kimi dedi:

– Leyla oyaqsan? Bir söz deyim?

– Hə, oyağam de. - Leyla pıçıltıyla dedi.

– Leyla, tapdım.

– Nəyi tapdın? - Leyla maraqla soruşdu.

– Bu vaqon bələdçisi var e, İrəvanda Qayanın uşağının müalicəsinə kömək etdiyi, ancaq mən su, çay istəyəndə "Yoxdur" , deyib, verməyən qadındı. Onu görəndə tanış gəldi, ha yadıma salmağa çalışırdım, sala bilmirdim.

– Əminsən odu? - Leyla təəccüblə soruşdu.

– Hə, dəqiq odur, ancaq bir az arıqlayıb. Tək söyüdün altında oturub, xatırlamağa çalışırdım. Bir az əvvəl sən yatmışdın, düşdüm getdim çay istədim, o mənə "Qurtarıb, yoxdur"- dedi. Onun bu sözləri deməsi, daha doğrusu, yalançı rolunda olanda cizgiləri heç dəyişməyib. Mən o dəqiqə onu tanıdım. Bildi ki, mən pul verməyəcəm, mənə "yox", dedi.

– Qaya əmi bilir? - Leyla soruşdu.

– Yox, yox bilmir. Yavaş danış, eşidər, pis olar. Mən istəmirəm ki, o, belə şeylərə görə narahat olsun. Yaxşı, gecən xeyrə, yataq.

– Xeyrə qarşı.

Məsmə bunları deyib, doğurdan da yuxuya getdi. Leyla nə qədər xatırlamaq istəsə də yadına sala bilmədi ki, Məsmə yuxarıdan düşüb, kupedən çıxıb, ya yox. Tezdən atasından da soruşdu. Atası da " Bilmirəm, bəlkə də çıxıb, hiss etməmişəm. Yəqin, mən yuxulu olanda çıxıb", - deyə cavab verdi.

Gün xeyli üfüqdən qalxmışdı. Qatar Bakıya yaxınlaşırdı. Hamı geyinib əşyalarını da hazırlayıb, gözləyirdi. Onlar bir-birlərilə sağollaşırdılar.

Leyla Məsməyə dedi:

– Məni heç vaxt yadından çıxarma.

Məsmə gülərək dedi:

– Mən heç nəyi yaddan çıxarmıram. Çıxarsam da, sonra xatırlaya bilirəm. Sən də məni unutma. Mən unudulmaqdan, yox olmaqdan qorxuram.

Leylada gülümsəyib dedi:

– Səni heç unutmaq olar? Söyüdün altında oturub, ulduzlara baxdığını heç unutmaram. Çox dəyərli nəsihətlərin həmişə yadımda qalacaq.

Onlar qucaqlaşdılar, bir-birlərinin üzündən öpdülər. Vaqonun dəhlizində isə Qaya ilə Oktay sağollaşdılar. Oktay əlini uzadıb dedi:

– Sənin haqqında eşitdiklərimdən daha çoxunu gördüm. Qızımın həyatını da xilas etdin, sənə borclu düşdüm.

Qaya onun əlini sıxıb, gülərək dedi:

– Nə görmüsən səhv görmüsən, bir düz gördüyün əfəlliyimdi ki, kababı əlimdə saxlaya bilmədim. - Onun bu sözünə ikisi də gülüşdü. Sonra Qaya əlavə etdi:

– Doğurdan da, ən tez yayılan yaxşı əməldi. Əslində, mən sənin borcundan çıxdım. Bir neçə gün əvvəl həyatını xilas etdiyin, təndir qalayanda yanan mənim anam idi...

* * *

... Təyyarə havaya qalxanda həyəcanlandı, özünü sanki boşluqda hiss etməyə başladı. İlk dəfə idi ki, təyyarəyə minirdi, həm də valideynlərindən ayrı harasa, uzaq şəhərə gedirdi. Qoruyucu kəməri taxıb, alnını dairəvi pəncərəyə dayayıb, aşağı baxırdı. Gecənin qaranlığı işıqlara qarışmışdı, yuxarı qalxdıqca, işıqların sayı çoxalırdı. Təyyarə Bakının üzərində dövrə vururdu, şəhər və ətraf qəsəbələr, sayrışan işıqlar formalarında görsənirdi. O həyəcanlansa da, seyr etdiyi mənzərə xoşuna gəlirdi. Hərdən yaxınlıqdan sürətlə buludlar keçir, yenidən işıqlar görsənirdi. Qaranlıq fonda işıqlara baxa-baxa xəyalında işıq mənbələrinin yerini dəyişdirib, yaranacaq mənzərəni təsəvvür etməyə çalışırdı və birdən bunu sürətlə etməyi, tək işıqlarla topa halında olan işıqların yerini tez-tez dəyişdirərək, alınacaq görünüşü təxəyyülündə canlandırırdı. Xatırlayırdı ki, sevimli müəllimi ona həmişə deyirdi ki, "Kim daha sürətlə və düzgün təsəvvür edəcəksə, o qalib gələcək". Müəllim sonra əlavə edirdi "Əsas indini yox, bir az son-

rakı vəziyyəti təsəvvür etməkdir. İndini nəinki rəqib, hamı görür". O, müəlliminin bu tapşırıqlarını həmişə özünə şüar etmiş, bir az sonranı, dəyişimləri sürətlə təsəvvür etmək vərdişinə yiyələnmişdi. Əslində, lap uşaqlıqdan onda bir az əvvəli, indini müqayyisə edib, bir az sonra nə olacağını düşünmək xasiyyəti vardı. Onun xəyal və düşüncələri indiki hala nəzərən sonranı təsəvvür etmək müstəvisində məşğul olurdu və onu bu cür düşünməyə həvəsləndirən də bu idi ki, bir az sonranı təsəvvür etdiyi fantaziyalar çox vaxt eynilə gerçəkləşirdi.

– Rüfət, uçmaq xoşuna gəldi? - O, fikirdən ayrıldı, çönüb yanında əyləşmiş orta yaşlı, saçları ağ, yarı qaradan birləşmiş, gümüşü rəng almış, əlində açıq jurnal tutmuş müəlliminin nisbətən aşağı enmiş eynəyinin üstündən baxan və həmişəki kimi tez cavab gözlədiyi hiss olunan gözlərinə baxdı.

– Uçmaq yox, yuxarıdan aşağını seyr etmək xoşuma gəlir. Tək və topa hallarda çoxlu işıqlar var, onlar maraqlıdı, - deyə cavab verdi.

– Ürəyin bulanmır? - müəllim yenə sual verdi.

– Xeyr, bulanmır, ancaq hərdən özümü gah qalxan, gah da boşluğa düşən kimi hiss edirəm.

Bunu deyib, yenidən pəncərədən baxdı və az sonra çönüb, müəlliminə sual verdi:

– Fuad müəllim, mən yolda gedəndə belə gördüyüm maşınların, ağacların, evlərin yerini xəyalən dəyişdirməyi, yaranacaq mənzərəni gözlərimin önündə canlandırmağa çalışıram.

Fuad müəllim gülümsəyərək dedi:

– Bunu bilirdim. Müşahidə etmişdim səndə və ilk dəfə məktəbə gələndə mən də bu cür xəyal məşqləri edirdim. Bir çox şahmatçılar bu cür hisslər keçirdiyini, düşündüklərini öz xatirələrində yazırlar.

Rüfət bir az düşünüb dedi:

Ancaq mən indi aşağı baxanda xəyalən işıqların yerini dəyişdirməyə çalışırdım, alınmırdı. Çünki, onların yeri öz-özünə dəyişir, biri gedir, digəri gəlirdi.

Fuad müəllim gülümsəyib dedi:

– Axı, biz hərəkətdəyik, təyyarə sürətlə uçur, ona görə də gördüyün işıqlar tez-tez bir-birlərini əvəz edirlər. Əslində, onlar öz yerlə-

rindədi, biz yerimizi dəyişirik. Buna "hərəkətin nisbiliyi" deyilir. Yuxarı siniflərdə fizikada bunları keçəcəksiniz.

– Mən onu da müşahidə elədim ki, təyyarə yerdən təzəcə ayrılanda o işıqlar sürətlə bir-birini əvəz edirdi və mən belə qərara gəldim ki, elə bil yüksəkliyə qalxmaq olar ki, orda hansı sürətlə hərəkət etsək də, aşağıda gördüyün obyektlər sükunətdə qalar.

Rüfətin bu cür nəticəyə gəlməsi müəllimini heyrətləndirdi, həm də qürur, sevinc gətirdi. Gözlərinə fəxarət işığı gəldi. Səkkiz yaşlı bu uşağın qeyri-adi istedad sahibi olduğu qənaətinə gəlməyində səhv etmədiyinə əmin oldu. Rüfətin ilk dəfə şahmat məktəbinə gəldiyini xatırladı. Bu, cəmi bir il əvvəl olmuşdu. Onu anası məktəbə gətirmiş, tanış etdikdən sonra çıxıb getmişdi. Rüfət əvvəlcə sakit qıraqda dayanmış, yan-yana düzülmüş şahmat masalarında iki uşağın oynuna baxmağa başlamışdı. Bir az keçdikdən sonra digər masada oynayanlara tərəf getmiş, onların oynuna baxmışdı. Ancaq ordan da tez aralanmış, digər masaya yaxınlaşmışdı. Bu təcrübəli şahmatçı Fuad müəllimin diqqətindən yayınmamışdı. Rüfəti müşahidə etməkdə davam etmişdi. O, sonuncu masadakı oyuna da bir az baxdıqdan sonra pəncərəyə yaxınlaşmış, sakitcə nəzərlərini uzaqlara zilləyib, düşüncələrə dalmışdı. Sonra pəncərəyə qoyulmuş ətirşah gülünün çiçəklərinə baxmış, barmaqları ilə onları oynatmağa başlamışdı. Orda da çox qalmayaraq, yenidən ilk baxdığı masaya yaxınlaşmışdı. Ancaq bu dəfə digər oyunçunun tərəfindən baxmağa başlamışdı və yenə də tez-tez digər masalara tərəf getmişdi. Rüfət Fuad müəllimi ilk dəfə elə birinci tanışlıqdan təəcübləndirmiş, sonralar isə belə hallar bir neçə dəfə təkrar olunmuşdu.

Rüfət özü uşaqlara "kim mənimlə oynayar?"- deyə müraciət etdi. Masa arxasında beş yaşdan, on iki, on üç yaşa qədər uşaqlar var idi. Onun müraciətini bəziləri eşitmədi, bəziləri eşidib əhəmiyyət vermədi, oyunlarına davam etdi. Bir qismi isə istehza ilə gülümsəyib, başlarını yellədilər. On bir, on iki yaşlarında sarışın, qıyıq göz bir uşaq başı ilə işarə edərək:

– Gəl otur, oynayaq - dedi və özündən arxayın halda gülümsədi, sonra isə üzbə-üz əyləşən rəqibinə dedi:

– Nə oturmusan, uduzmusan qalx, o gəlsin, onu da udum.

– Mən həmişə səni uduram, indi ilk dəfə uddun. O da mənim texniki səhvimdən istifadə etdin. Mən sənə nə qədər icazə vermişdim, qaytarmağına. Ancaq sən icazə vermədin ki, mən bir dəfə qaytarım, topumu havayı vurdun.

Bunu deyib, uduzan uşaq könülsüz, bir az , bir az da dilxor şəkildə ayağa qalxdı və sonra əlavə etdi:

– Bu gün yenə oynayacam səninlə!

– Hə, oynayarıq. - Udan oğlan özündən razı halda dilləndi və Rüfətə təkrar : - otur! - dedi.

Rüfət sakitcə masanın arxasında əyləşdi. İlk dəfə idi ki, yad bir insanla, özüdə uşaqla oynayırdı. O, həmişə xalasının yoldaşı Şamil və atası Əli ilə oynamışdı. Şamilgil onlara gələndə yeyib-içəndən sonra həmişə şahmat oynayırdılar. Rüfət də qıraqda dayanıb, tamaşa edərdi. O birinci sinifə yenicə getməyə başlamışdı. Şamil şahmatı düzüb, fiqurların gedişlərini söyləmişdi. İlk sərbəst oyunda heç-heçə etmişdilər. Əslində, özü qıraqdan oynamağın ilk şərtlərini öyrənsə də, Şamili həmişə birinci müəllimi hesab etmiş, hörmətlə xatırlamışdı.

Uduzan oğlan və Fuad müəllim gəlib Rüfətin sağında-solunda dayanıb, maraqla baxmağa başladılar. Rəqib ondan əvvəlki oyunçunu udduğunu əsas gətirərək, ağ fiqurları özünə götürdü və ağ xanada duran filin önündəki piyadanı iki xana irəli oynadı. Rüfətin isə ilk gedişi "Şah" piyadasını iki xana irəliyə, e-4-də oldu. Oyunun gedişində kürən oğlan bir neçə dəfə texniki səhv etdi. Hər dəfə üzr istəyib, oyunu geri qaytaranda bir az əvvəl udduğu oğlan etiraz etdi ki, "sən mənə icazə vermirdin". Fuad müəllim dinmirdi, sakitcə tamaşa edirdi. O, yeni gəlmiş "qəribə oyunçu"nun oynamaq istedadı ilə yanaşı, şəxsi keyfiyyətlərini də kəşv etmək istəyirdi. Rüfət isə hər dəfə gülümsəyərək, "eybi olmaz, qaytar, yaxşı fikirləş", - deyirdi. Bu zaman kürən qızararaq, oyunu qaytarır, yeni gediş edirdi. Digər uşaqlardan da iki nəfər onun yanında dayanıb, maraqla tamaşa etməyə başlamışdılar və onlar köhnə dostun təsübünü yeni oyunçuya verməmək hissləri ilə kürənə azarkeşlik edir, onun öz aləmlərində "ən yaxşı gedişlərini" mimikaları və yavaş səs-küyləri ilə, göz-qaşları ilə alqışlayırdılar. Fuad müəllimdən qorxmasaydılar, lap əl çalıb, alqışlayardı-

lar. Bu zaman kürən oğlan dostlarının etimadını doğrultduğuna sevinir, stula yayxanıb, rahat nəfəs alır, sağa-sola baxıb, özündən razı halda gülümsəyirdi. Ancaq onun və dostlarının bu halı uzun çəkmirdi. Rüfət gözlənilməz, sirli gedişlər edirdi. Bu zaman kürənin azarkeşləri bir-birlərinə baxıb, çiyinlərini çəkir, bir-birlərinə heç nə başa düşmədiklərini anladırdılar. Məhz bu zaman rəqibin gedişinin mahiyyətini anlamayanda kürən oğlan qızarırdı və onu ən çox da çaşdıran, anlamadığı o idi ki, rəqib növbəsi çatanda fikirləşmir, dərhal gediş edirdi. Fuad müəllim çox diqqətlə yeni şagirdin "sirli gedişləri"ni izləyirdi. Hər dəfə də düşünürdü ki, "O bu qədər sürətlə və dərin fikirləşə bilməz! Çox güman ki, təsadüfən bu gedişləri edir, heç mahiyyətini özü də bilmir". Fuad müəllim Rüfətin gedişlərinin mükəmməlliyinə əmin olmuşdu. Onu bilmək istəyirdi ki, bu gedişlərin sirrini özü bilir, ya təsadüfən oynayır.

Kürən topla oynadı. Rüfət artıq yoldaşlarının dilindən onun adını öyrənmişdi. Sakitcə dedi:

– Natiq, atla şah və topunu "vilka" edib, topu vuracam, geri qaytar, yenidən oyna. Bu texniki səhvdi.

Natiq yenə oyunu geri qaytardı və yeni gediş elədi. Rüfət fikirləşmədən, dərhal vəzirlə gediş etdi. Rəqibin qara fillə oynayaraq, onun vəzirini şahla qarşısıalınmaz "açılmaza" sala bilməsi aydın görünürdü. Natiqin yoldaşları da bunu dərhal gördülər və dərindən, rahatlıqla nəfəs aldılar. Artıq azarkeşlik etdikləri dostlarının qalib gələcəyinə heç bir şübhələri qalmamışdı. Az qala, onun əvəzindən özləri oynamaq istəyir, göz-qaşla görünən gedişə işarə edirdilər. Natiq də bu gedişi görmüşdü. Sadəcə olaraq, gözlənilməz gedişlər edən rəqibinin "səhv gediş"inin arxasında nə dayandığını fikirləşməyə başladı. Qərara gəldi ki, heç bir təhlükə yoxdu. O, "özünü güclü" hesab edən rəqibinin vəzirini "vuracaq" və qələbə çalacaq. Bir istədi ki, ona "səhv gedişdi, qaytar, yenidən oyna"(,) - desin və bir neçə dəfə onun səhv oyunlarını bağışlayan rəqibinin borcundan çıxsın. Ancaq dərhal bu fikrindən vaz keçdi, düşündü ki, belə fürsət ələ düşməz. Bir az əvvəl qalib gəldiyi oğlan tez dilləndi:

– Bu texniki səhvdi, Natiq. O sənin səhvini bir neçə dəfə bağışlayıb, icazə ver, qaytarıb yenidən oynasın.

Onun üzünə baxan Natiq qızardı, heç nə demədi. Rüfət gedişini geri qaytarmadı. Natiq bir də sonrakı gedişləri ölçüb-biçib, qara fillə gediş edib, "vəzir", - dedi. Rüfət ayağa qalxıb:

– İcazə verirəm, qaytar, yaxşı fikirləş, - dedi və pəncərəyə doğru getdi. Ordan uzaqlara baxmağa başladı. Axşam düşürdü. Bu dəfə Natiqin azarkeşləri oyunu uca səslə müzakirə etməyə başladılar. Bir az əvvəl uduzan oğlan da məətəl qalmışdı. Natiq çarəsiz qalıb, üzünü Fuad müəllimə tutub dedi:

– Müəllim, axı, burda fikirləşməli nə var ki? - Mən onun vəzirini havayı əvəzsiz vururam. Yəqin, o səhv edib, utandığından geri qaytarmır, ya da psixoloji təsir edir ki, vəziri vurmayım, çaşım, səhv gediş edim.

Fuad müəllim gülümsəyib dedi:

– Natiq, belə oyunçular səhv etmirlər, havayı isə vəzir nədir, piyadanın yarısını heç vermirlər.

Müəllimin bu sözündən sonra Natiq lap çaş-baş qaldı. Azarkeşləri də yeni oyunçunun "sirli gedişinə" məətəl qalıb, susdular. Nəhayət, Natiq:

– Mən gedişimi geri qaytarmıram, gəl oyna, - dedi.

Rüfət yenidən masanın yanına qayıtdı. Üç gedişdən sonra Natiq mat oldu. Həmin gün Rüfət Fuad müəllimin özünün seçdiyi daha üç rəqibə asanlıqla qalib gəlmişdi. Bu oyunlarıda diqqətlə izləyən Fuad müəllim onun sirli gedişlərinin təsadüfü olmadığını və mahiyyətlərini tam olaraq anladığına əmin olmuşdu. O , öz təcrübəsindən Rüfətin xüsusi istedada malik olduğunu kəşf etmişdi.

– Düz fikirləşirəm müəllim?- Rüfətin sualı onu düşüncələrdən ayırdı. Gülümsəyərək dedi:

– Rüfət, insanlar həmişə düz fikirləşdiklərini düşünürlər, xüsusilə uşaqlar. Uşaqlar böyüdükcə, cəmi insanlar isə tarix keçdikcə yeni biliklərə yiyələnirlər və sənin dediyin kimi daha yüksəyə qalxırlar. Bu zaman daha çox geniş mənzərə görsənir və əslində, hər şeyin sükunətə yaxın dəyişməz olduğu aydınlaşır.

Rüfət tez dilləndi:

– Bəlkə, əksinə, hər şey uzaqdan sükunətdə görsənir, elmə, biliyə yiyələndikcə yaxınlaşırsan, onda aydın olur ki, hər şey dəyişkən və müxtəlifdi? Məncə, həqiqəti görmək üçün ondan uzaqlaşıb, yüksəyə qalxmaq yox, enib yaxınlaşmaq lazımdı.

Fuad müəllim gülüb, həmişə olduğu kimi əlini irəli uzadıb dedi:

– Vur bura! Çox güclü gediş etdin. - Rüfət də gülümsəyib müəlliminin əlinin içinə şapalaq vurub, gözlədi. Müəllim dedi:

– Ancaq mən təslim olmamışam, fikirləşirəm.

–Yaxşı, onda heç-heçəyə razı olaq? - Rüfət özündən razı halda dedi. Fuad müəllim əlindəki jurnalı qatlayıb, önündəki açılmış kiçik masanın üzərinə, eynəyini də çıxarıb, jurnalın üstünə qoydu. Gövdəsini nisbətən ona tərəf çevirib, ciddi görkəm alaraq dedi:

– saxla, udduğun vəziyyətdə heç-heçə haqqında qətiyyən düşünmə ki, uduzarsan. Uduzduğun halda isə ancaq qələbə haqqında düşün ki, heç olmasa, heç-heçə edə bilərsən. Üçüncüsü isə rəqibinə heç bir halda humanist yanaşma. Humanistlik təbii qanunlara ziddir.

– İndi siz qələbə haqqında düşünürsüz ki, heç olmasa heç-heçə edəsiniz? - Rüfət gülümsədi. O gülümsəyəndə sağ yanağında çökək əmələ gəlir. Gözlərinin içində parıltı yaranırdı. O, bütün hissləri təbii keçirir. Doğru, həqiqi hallara düşürdü. Yalan hisslər və sözlər Rüfətə yad idi.

– İndi bax pəncərədən, nə görürsən? - Fuad müəllim dedi.

Rüfət çönüb bir az baxdı və dedi:

– Müəllim, dumandı, heç nə görsənmir.

– Rüfət, həyatda hər şeydə, şahmatda da çox vaxt belə olur. Dumanlıq bürüyür, heç nə görsənmir. Bu halda sənin dediklərin düzdür, yoxsa mənim? - Fuad müəllim sual verdi. Rüfət ona tərəf çevrilib dedi.

–Heç birimizin, yəni heç-heçə olur!

Fuad müəllimdə gülümsəyib dedi:

– Yaxşı, mən də heç-heçəyə razıyam.

– Ancaq mən şahmatda dumanlı vəziyyəti heç xoşlamıram. Belə hal yarananda rəqibin niyyətini aydınlaşdırmaq üçün boş, mənasız gediş edirəm.- Rüfət dedi.

Fuad müəllim ciddi görkəm alıb:

– Şahmatda boş, mənasız gediş etmək, tikilən evin bir daşını necə gəldi, əyri-üyrü qoymağa bənzəyər. Sonradan onu düzəltmək çətin olar, ya da evin gözəlliyi itər...

* * *

– Rüfət, oyan, çatmışıq. - Fuad müəllimin sözlərinə oyandı. Gözlərini açıb, yuxarı, yan-yörəyə baxdı. Yarıyuxulu halda harada olduğunu anlamağa çalışdı. Gözlərini bir də yumdu. Bərk yuxusu gəlirdi. Fuad müəllim sol əli ilə onu silkələyib bir də : - "Oyan Rüfət, Moskvaya çatırıq" , - dedi. Rüfət gözlərin ovuşdurub, pəncərədən baxmağa başladı. Sonra çöküb, heyrətlə dedi.

– Müəllim, Moskva çox böyük şəhərdi.

– Hə, elədi Rüfət! Hazırlaş indi düşəcik. - Fuad müəllim dedi.

Təyyarə Vnukova hava limanına endi. Onlar əvvəlcədən müəyyən edilmiş otelə gəldilər. Burada altıncı mərtəbədə yerləşdilər. Artıq səhər saat səkkiz idi. Fuad müəllim dedi:

– Rüfət, düşək aşağı, ikinci mərtəbədə otelin restoranı var. Orda səhər yeməyi yeyək.

– Mənim iştahım yoxdu. Təyyarədə yediklərim bəs edib. Yuxum gəlir. Siz düşün - mən yatmaq istəyirəm.

– Yox, birlikdə düşək, yemək ye, çay iç. Sonra gəlib, bir az dincələrik. Ancaq saat on birdə yarışın keçiriləcəyi yerdə olmalıyıq. Həm tanışlıq məqsədilə, həm də qeydiyyatdan keçməliyik. Əsas da püşkatma olacaq ki, kim-kiminlə oynayacaq. Fuad müəllim etiraz etdi.

Onlar gələndə artıq xeyli insan yığışmışdı. Moskvada keçirilən on yaşlılar arasında şahmat çempionatına Rusiyanın bir çox şəhərlərindən, həmçinin keçmiş Sovet respublikalarından çoxlu məktəbli şahmatçılar gəlmişdi. Azərbaycanı təmsil edən yeganə şahmatçı səkkiz yaşlı Rüfət idi. Fuad müəllimi burada da çoxlu insanlar tanıyırdı. Onunla səmimi görüşür, Rüfətin çox da yaxşı başa düşmədiyi rus dilində danışırdılar. Fuad müəllim onların hamısına Rüfəti təqdim edirdi. Onlarda Rüfətlə salamlaşır, öz növbələrində yanlarındakı məktəbli şahmatçıları Fuad müəlimə təqdim edirdilər. Fuad rəqiblərini çox diqqətlə müşahidə edirdi. Onlara elə baxırdı ki, sanki onlarla sabah şahmat oynamayacaq, güləşəcək.

Püşkatma keçirildi. Hər oyunçu doqquz nəfərlə oynayacaq. Uduş bir, heç-heçə yarım xalla qiymətləndirildi. Rüfətin ilk rəqibi Moskva məktəblisi, on yaşlı Vladimir Volkov idi. Fuad müəllim onu uzaqdan Rüfətə göstərmişdi. Rüfət arıq, uzun, nazik burun, göy gözlü, alnı iri, saçlarını elə bil inək geri yalamış rus oğlanı diqqətlə süzmüşdü. İndidən onunla oynamağı səbirsizliklə gözləməyə başlamışdı. Hətta, əlində olsa, bu saat oynamağa başlayardı. Volkovun da diqqətlə ona baxdığını gördü. Düşündü ki, yəqin onun da müəllimi ilk rəqibini göstərmişdi. Nədənsə, Rüfət Volkovun göy gözlərində qələbəsinə yüz faizlik əminlik, ona istehzalı "bu ki, lap uşaqdı" mənalı baxışlar hiss etmişdi. O, bundan əsəbləşmiş, sabahsı günü, oyunun başlayacağı anı daha da səbirsizliklə gözləməyə başlamışdı.

Onlar otelə gələndə qaranlıq düşmüşdü. Yenicə paltarlarını dəyişib, rahat idman paltarları geyinmişdilər ki, qapı iki dəfə döyüldü. Rüfət çönüb Fuad müəllimə baxdı. Fuad müəllim bu qapı döyülüşünü gözləyirmiş kimi arxayınlıqla durub qapını açdı. Əvvəlcədən sözləşdikləri kimi gürcü şahmat müəllimi Eduard Çiburdanidze və onun şagirdi Nodar Şukvani qonaq gəlmişdilər. Fuad müəllim onları mehribanlıqla qarşıladı və içəri dəvət etdi. Sonra Rüfəti qonaqlarla tanış etdi.

Masada yeyib-içmək məclisi düzəltmişdilər. Eduard gürcü çaxırı, arağı gətirmişdi. Görünən o idi ki, Eduardla Fuad müəllim bir-birlərini çoxdan tanıyırlar.

Sağlıqlar deyilir, deyib-gülərək yeyib içirdilər. Rüfət masadan tez qalxdı, çantasını açıb, oradan taxta şahmat çıxardı. Digər nisbətən kiçik masanın üzərində düzüb fikirləşməyə başladı. Sonra gəlib, pəncərdən baxmağa başladı. Şəhərin ucu-bucağı görünmürdü. O, Moskva haqqında çox eşitmişdi. Həmişə buranı görmək gəzmək istəmişdi. Ancaq hava limanından gələndə seyr etdiyi Moskva küçələri onun təsəvvüründəkilərlə nədənsə, gəlmirdi. O, Moskvanı daha da möhtəşəm təsəvvür edirdi. Ancaq real gördükləri fərqli idi. Ona elə gəlirdi ki, sanki burada insanlar və binalar, şəhərin özü qocalıb. İndi də bu böyük şəhərə baxanda ona elə gəlirdi ki, Bakı daha gənc, işıqlı şəhərdir. O qayıdıb yenidən şahmat taxtasının arxasında əyləşib, fikirləş-

məyə başladı. Nodar da qonaqlıq masasından durub gəldi. Görünür, müəllimlərin köhnə xatirələrdən danışıb çaxır, araq içmələri ona da maraqsız gəlmişdi.

Nodar təklif etdi ki, oynasınlar. Rüfət razılaşdı. İlk dəfə idi ki, başqa bir şəhərdə, ayrı millətin nümayəndəsilə oynayacaqdı. Qonaq kimi hörmət edib, ağ fiqurlarla oynamağı Nodara verdi. Özü isə qara xanadakı filin önündə olan piyadanı bir xana irəli verməklə ilk gedişinə başladı. Oyunun gedişində çətin vəziyyətə düşdü. Fikirləşməyə başladı. Gözucu onları müşahidə edən Fuad müəlim Rüfətin çətin vəziyyətə düşdüyünü başa düşdü. Oturacaqdan qalxıb gəldi, oyuna baxaraq dedi:

– Rüfət, vəziyyət yaxşı deyil. Məncə, bu oyunu qatın, məğlubiyyətlə razılaş.

Eduard da gəldi. O da oyuna baxıb dedi:

– Afərin Nodar. Sən artıq qalib gəlmisən. - Sonra üzünü Fuad müəllimə tutub dedi:

– Nodar dörd ildir ki, şahmatla məşğul olur, beş yaşından. Elə ilk vaxtlardan müəllimi özüm olmuşam və düşünürəm ki, istənilən idman növündə, xüsusilə şahmatda şagird əvvəldən axıracan eyni bir müəllimlə hazırlaşmalıdı. Müəllim dəyişmək heç vaxt yaxşı effekt vermir. Əksinə, şahmatçıda özünün ənənəvi oyun üsulunun yaranmasına, möhkəmlənməsinə mane olur.

Rüfət atla irəli gediş etdi. Rəqib bu cür gediş gözləmirdi. Nə qədər fikirləşdisə, bu gedişə bir məna verə, məntiq tuta bilmədi. Eduard da başını bulayıb, Fuad müəllimə baxıb dedi:

– Gəl gedək vuraq, oyundu, biri udar, biri uduzar. Rüfət də yaxşı oynayır, ancaq təcrübə və peşəkarlıq öz sözünü deyir. Nodar çox güclü, rəqibin gözləmədiyi gedişlər edən oyunçudu. O, çox qədim, özünə məxsus ənənəsi olan gürcü şahmat məktəbinin yetirməsidi. Qızıl medal, ən aşağısı gümüş medal bizim olacaq! - bunları deyib, özündən razı halda güldü. Rüfət başını sola əyib, altdan yuxarı ona baxdı. Ağbaş qonağın iri burnu qızarmış, qarnı bir az da elə bil şişmişdi.

Sonra o, öz müəlliminə baxdı. Fuad müəllimin simasında məyusluq vardı. Doğurdan da o, Rüfətin son gedişində heç bir məna tapa bilməmiş, niyə belə məntiqsiz oynadığına təəcüb etmişdi. Rüfət xəya-

lən Eduardın başı ilə öz müəlliminin başının yerini dəyişdirdi. Gülümsədi, doğurdan da gülməli bir şeylər alınırdı. Sonra o durub yenidən pəncərənin önünə getdi. Şəhərə baxmağa başladı. Yağış yağmağa başlamışdı, zəif duman var idi və şəhərin işıqları daha da sönük görünürdü.

Fuad müəllimlə Eduard yenidən masaya qayıdıb, yeyib-içirdilər. Eduardın kefi kök idi, düşünürdü ki, birinci yer tutmaq arzularına çatmaqları reallaşacaq. Ən azından Nodar doqquz rəqibindən birinə nisbətən çox güclü oynayır. Badəni qaldırıb dedi:

– Fuad müəllim bu badələri içək, Qafqaz xalqlarının sağlığına! Söz verirəm ki, Nodar birinci yer tutsa, yaxşı bir restoranda özüm sizə qonaqlıq verəcəm!

Fuad müəllimin kefi yox idi. İlk görüşdən Rüfətin bu cür oyunu onun heç xoşuna gəlməmişdi, ümidləri azalmağa başlamışdı. Buna səbəb şagirdinin uduzmağı yox, fikirləşib-fikirləşib ən zəif, məntiqsiz bir gediş etməsi idi.

Üzünü gürcü dostuna tutub dedi:

– Qafqaz xalqlarının yox. Gürcü xalqı ilə Azərbaycan xalqının sağlığına içək və mən sizin birinci yer tutmağınızı çox arzulayıram. Doğurdan da Nodar güclü şahmatçıdı.

Keçən əsrin doxsanıncı illərinin ortaları idi. Ermənistan Azərbaycanın torpaqlarının doxsan faizini işğal etmiş, Xocalı soyqırımı törətmiş, bir milyona yaxın azərbaycanlını öz ata yurdundan didərgin salmışdı. Eduard köhnə dostunu dərhal anladı və gülümsəyərək heç nə demədən badələrini toqquşdurdular.

Bir az keçdi, uşaqlardan heç bir səs gəlmirdi. Eduard ucadan gülə-gülə üzünü onlara tərəf tutub dedi:

– Daha səsiniz çıxmır. Hesab neçə-neçədi?

Çənəsini və yanaqlarını iki ovcunun arasına alıb, dərin fikrə getmiş Nodar başını qaldırmadan dedi:

– Hələ birinci oyundu.

Onun bu sözlərinə Fuad müəllimdə inanmaq istəmədi. Eduardın isə gülüş cizgiləri simasında quruyub sofillər kimi qaldı. Onlar ikisi də cəld durub uşaqların yanına gəldilər. doğurdan da birinci oyun

idi və çox aydın görsənirdi ki, iki gediş sonra Nodar mat olacaq. Bunu görən Eduardın qanı qaraldı, bərk dilxor oldu. Hirsini gizlədə bilməyib, əsəbi halda Nodara dedi:

– Axı, sən udurdun? Yüz faiz qələbəyə çox yaxın idin, Rüfət də biz baxanda ən pis məğlubiyyətə aparan gediş eləmişdi. Necə oldu ki, indi uduzursan?

Nodar çox pərt olmuşdu, rəngi pörtmüşdü. Heç nə demədi. Fiqurları dağıdıb, yenidən qurmağa başladı və dedi:

– Mən bu oyundan heç nə anlamadım. Gəl bir də oynayaq!

– Oynayaq! - Rüfət ağ fiqurları düzə-düzə dedi.

Fuad müəllim həm təəccüblənmiş, həm də sevinirdi. Axı, bu cür çətin vəziyyətdə, ən mənasız səhv gedişlə necə udmaq olardı...?

O üzünü Eduarda tutub dedi:

– Gəl gedək vuraq, belə şeylər şahmatda olur. Bəzən , zəif oyuncu rəqibi bezdirib, qalib gəlir. Ya da güclü oyunçu texniki səhv edir, uduzur. Onsuz da bu elə belə oyundu. Əsas oyun, sabahdan başlayır.

Onlar yenidən masanın arxasında oturdular. Eduard özünə təsəlli verirmiş kimi dedi:

– Siz düz deyirsiz, zəif oyunçu ilə oynamaq bəzən insanın səbrini daşdırır, texniki səhvlərə səbəb olur. Nodar birinci oyunun qalibi sayılır, biz ikimizdə onu gördük, şahidi olduq.

Fuad müəllim badəni qaldırıb dedi:

– Bizim həyatda görə biləcəyimiz dəyişikliklər, həqiqi dəyişmələrin çox cüzi bir hissəsidi, dünya yaranandan sona qədər sirli dəyişmələrdədi. Şahmatın da sirli gedişləri çoxdu.

– Deyirsən yəni, biz gördüyümüz vəziyyətdən çıxış yolu var idi?- Eduard təəccüblə soruşdu.

Fuad müəllim gülümsəyərək dedi:

– Axı, sizin Stalin deyirdi ki, çətin vəziyyətdən ən azı iki çıxış yolu var.

O, bunları deyib, badələrini toqquşdurdu və dedi:

– Nə isə güclü şahmatçıların sağlığına, Nodara da, Rüfətə də uğurlar arzulayıram.

Qonaqlar getmişdilər. Hərə öz çarpayısına uzanıb, yatmağa hazırlaşırdı. Fuad müəllimin səsi gəldi:

– Axı, birinci oyunu uduzurdun, biz baxanda da ən mənasız, səhv gediş etdin. Necə oldu ki, uddun? O gedişin arxasında heç bir kombinasiya, filan yox idi.

– O vəziyyət çətin idi, ancaq çıxılmaz deyildi. Rəqibin niyyəti dumanlı idi. Qəribədir ki, mən pəncərədən baxanda yağış yağırdı və şəhərə zəif duman gəlmişdi. Bu fonda şəhərin işıqları daha da sönük, közərmiş görsənirdi. Müəllim, mənə elə gəlir ki, bu şəhərin işıqları çoxdu, ancaq sönük, közərmiş kimidilər. Uşaqları böyük, böyükləri də qocalmış kimi görsənirlər. - Rüfət dedi.

– Aydın de, Rüfət, nə demək istəyirsən? - Fuad müəllim soruşdu.

– Mən ən səhv, mənasız gediş elədim. O, bunu gözləmirdi və fikirləri qarışdı. Öz-özünə qurduğu kombinasiyanı pozdu. Onu səhv etməyə məcbur edə bildim. Bəzən evin bir daşını, ümumi işin xeyrinə əyri qoymağa məcbur olursan. - Rüfət fikrinə aydınlıq gətirdi.

Fuad müəllim təyyarədəki söhbəti xatırlayıb, güldü. Sonra dedi:

– Demək, sənin hər vəziyyət üçün hazir variantın var?

– Hər vəziyyət üçün yox, şahmatın sonunu görmək olmaz.

– Yaxşı, bəs onda niyə 1:2 hesabı ilə uduzdun?

– Mən birincidə həqiqi oynadım. Nodar onları da uduzsa idi, müəllimi ona hirslənərdi. O isə sabah ruh düşkünlüyü ilə oynayardı. Mən bunu istəmədim.

– Afərin Rüfət, bu çox yaxşı əməl oldu. Sən savab iş gördün. - Fuad müəllim dedi.

Sonra Rüfət maraqla soruşdu:

– Müəllim, mənim sabah ilk rəqibim Vladimirin soyadı Volkovdu? Axı, "volk" "canavar" deməkdi. Yəni Canavarov?

Onun bu sualına Fuad müəllim xeyli güldü, kefi açıldı. Rüfət də güldü. Nəhayət (,) müəllim zarafatla dedi:

– Hə, elədi. Indi sən sabah ehtiyyatlı ol. O səni yeməsin!

– O, "canavar" olsa, mən pələng olacam, müəllim, - Rüfət özünə inamla dedi.

Fuad müəllim ciddiləşib, soyuq səs tonuyla dedi:

– Volkov bu yarışmanın favorit yarışmaçılarındandır. Onun birinci yerə çıxacağına heç kim şübhə etmir. O, fitri istedaddır.

Rüfət heç nə demədi, susdu. Fuad müəllim ona ürək-dirək verib dedi:

– Ancaq sən qəribə oyunçusan. Gözlənilməz əsgərə bənzəyirsən. Özünə inan! İndisə heç nə düşünmə, yat! Gecən xeyrə qalsın!

–Xeyrə qarşı, müəllim!

Volkov ağ fiqurlarla, Rüfət qaralarla oynayırdı. Rəqib şahmatda ənənəvi olaraq piyadaları irəli verməklə ağ xanadakı piyadanı B-3-ə oynamaqla debüt etdi. Rüfət isə həmişə istifadə etdiyi debütlə - şah piyadasını iki xana irəli oynamaqla başladı. Deyilənə görə, bu başlanğıcdan ilk dəfə 1280-ci ildə İspaniyada istifadə etmişlər və uzun müddət dövrün ən uğurlu debütü sayılmışdı. Rüfətlə Vladimir Volkovun oyununa maraq çox böyük idi. Demək olar ki, bütün məşqçilər, təşkilatçılar və hakimlər gəzə-gəzə ən çox bu oyuna nəzər yetirirdilər. Moskvalılar Volkovun yarışın qalibi olacağına şübhə etmir, ki, ona həvəslə azarkeşlik edirdilər.

Hər idman növünün özünəməxsus azarkeşləri olur. Məşqçilər, müəllimlər, hakimlər isə bu oyunlara azarkeşlik etməklə yanaşı, hər turnirdə, qarşılaşmada ortaya çıxan gözlənilməz situasiyalardan, kombinasiyalardan xüsusi zövq alırlar. Onlar sonralar təhlil edir, birlikdə müzakirələr aparır, heyrət hisslərini doyuzdurmaqla bərabər, informasiya və vərdişlər sistemini, təcrübələrini zənginləşdirirlər. Şahmat oyununda olan variantların, kombinasiyaların sayına görə bəlkədə birinci idman növüdür. Odur ki, məşhur fransız yazıçısı Pyer Mak-Orlan "Şahmat taxtasında bütün dənizlərdən daha çox macəra var"(,)-deyirdi. Şahmat oyununun mahiyyəti oyunçudan dəqiq və sürətli hesablama, sonrakı vəziyyəti düzgün təsəvvür edə bilməyi tələb edirdi. Məhz kim daha sonrakı vəziyyəti və ondan sonranı düzgün təsəvvür edirdisə, o qalib gəlirdi. Yaxşı şahmatçı olmaq üçün riyazi təfəkkürə malik olmaq, ehtimallar çoxluğunu, məçhulları tapa bilmək idrakına sahib olmaq və fantaziya, təsəvvür etmə genişliyi, dəqiqliyi vacib şərtlərdir. Əlbəttə ki, zəhmət və vərdişlər də çox əhəmiyyətlidir.

Şahmatın tarixnin təxminən 1400 il əvvəl Hindistanda başlandığını, oradan İrana, yaxın Şərqə, Avropaya yayıldığı güman edilir. Son-

ralar bu oyun iki nəfər arasında keçirilməklə yanaşı, müxtəlif yarışlar təşkil edilməyə başlamışdı. Ilk şahmat qarşılaşmalarından biri 900-cü illərdə qədim Şərq şəhəri Bağdadda keçirilmiş, əlyazmaçısının öz tələbəsi ilə oynaması ilə başlamışdı. Şahmat tarixində ən uzun müddətli çempion 26 il, 1894-cü ildən 1921-ci illədək dünya çempionluğunu heç kimə verməyən Emanuel Lasker olmuşdur. Bu rekordu təkrarlayan şahmatçı hələki olmayıb.

...Vladimir Volkov alnını əlinin içinə dayayıb, fikirləşirdi. Ümumiyyətlə, onun ilk oyunda hər gedişlə bu qədər fikirləşməsini azarkeşləri, xüsusilə müəllimi Nikolay Peskov gözləmirdilər. Hətta, Peskov əsəbindən öz-özünə istehza ilə "Elə bil Troisdi" deməklə, şagirdini şahmat tarixində ən çox fikirləşmək rekordu qıran, bir gedişi 2 saat 20 dəqiqə düşünən brazilyalı şahmatçı Fransisko Troisə bənzətmişdi.

... Rüfət yenə gedib pəncərənin önündə dayanıb, uzaqlara baxırdı. O, ümumiyyətlə, oyun ərzində və bundan sonrakı oyunlarda bir az düşünüb, gediş edir, sonra qalxıb ya digər masalara yaxınlaşırb, oyunlara, ya da gedib pəncərədən bayıra baxırdı. Elə ilk qarşılaşmada məşqçilər və hakimlər öz aralarında ona "Ne posidi Rüfət Mamedov" ləqəbi qoymuşdular. Çox təcrübəli şahmat müəllimi olan Nikolay Peskov Volkovun ilk oyununun səkkiz yaşlı Rüfətlə keçirməyinə sevinməkdə tələsdikləri qənaətinə gəlmişdi. , şahmat yarışlarında ilk oyunun nəticəsi çox əhəmiyyət daşıyır. Sonrakı oyunlarda oyunçunun əhval-ruhiyyəsinə, özünə inamına böyük təsir. Peskov şagirdinin ilk oyunda nəinki uduzmasını, hətta, heç-heçə etməsini belə qəbul edə bilmirdi, ancaq qələbə barədə düşünürdü.

... Rüfət gəlib əyləşdi. Vladimir Volkov çox düşündükdən sonra onun bütün hücum taktikasını alt-üst etmək, çətin vəziyyətdən çıxmaq üçün yeganə uğurlu variantı "qala qurma" etməkdə görürdü. O, belə də etdi. Rüfət sanki bunu gözləyirdi. Fikirləşmədən ağ xanada olan topun önündəki piyadanı iki xana irəli oynadı. Rəqibin filinə

hücum etdi. Nəinki Volkov, oyunu diqqətlə izləyən Nikolay Peskov da bu gedişi gözləmirdilər. Fuad müəllimdə heç nə başa düşmədi. Rüfətin bu gedişi hər üçünə, eləcə də, oyunu diqqətlə izləyən Volkovun azarkeşlərinə müəmmalı gəldi. Rüfət gediş etdikdən sonra ayağa qalxıb, Nodar Şukvalinin oynadığı masaya doğru yaxınlaşdı. Ona göz vurub, sağ əlinin baş barmağını qaldırıb, vəziyyətin "əla" olduğunu demək istədi.

Rüfəti diqqətlə müşahidə edən Peskov, onun yenə gedib, pəncərənin önündə dayanıb, baxdığına maraqla tamaşa edirdi. O, özünü saxlaya bilməyib, gedib Rüfətin yaxınlığında dayandı. Onun hara, nəyə baxdığını bilmək istəyirdi. Rüfət əlli-altmış metr aralıda olan beşmərtəbəli evin damındakı çöl göyərçinlərinə baxırdı. Onun üzündə təbəssüm vardı.

Nikolay Peskov otuz ilə yaxın idi ki, şahmat müəllimi kimi fəaliyyət göstərirdi. Özünün də çox nəaliyyətləri olmuşdu. Şahmat üzrə idman ustası dərəcəsi var idi. O özü və şagirdləri istər ölkə daxilində, istərsə də xaricdə bir sıra nüfuzlu turnirlərdə iştirak etmişdi. Ancaq ilk dəfə idi ki, Rüfət kimi soyuqqanlı, oyuna laqeyd yanaşan, lakin sürətlə və sirli gedişlər edən oyunçuya, həm də səkkiz yaşlı oyunçuya rast gəlirdi. Peskov düşünürdü ki, "Ne posidi Rüfət Mamedov" ləqəbi düzgün deyil. Ona "Tainstvennıe proqulki Rüfət Mamedov" ləqəbi vermək lazımdır. Çünki, bu uşağın həm oyundakı gedişləri, həm də öz davranışları sirli idi. Onun sonuncu gedişinin məntiqini fikirləşib tapan, sirrini açan Peskov buna heyrət etmiş, inanmamışdı. "Ola bilməzdi ki, o, bu qədər uzağı qısa zamanda düşünüb oynasın. Bu, ancaq təsadüf bir gedişdir" qənaətinə gəlmişdi. Odur ki, səbirsizliklə Rüfətin sonra hansı gedişi edəcəyini gözləyirdi. İndi Peskov şüuraltı olaraq özündən asılı olmayaraq şagirdinin deyil, Rüfətin oyununun azarkeşinə çevrilmişdi. "Yox, doğurdan da Rüfət sirli gedişin sonunu görürdüsə , bu, sadəcə heyrətamiz idi", - fikirləşirdi.

Vladimir Volkovun yenə də çox fikirləşib etdiyi gedişdən sonra Rüfət əlini alnına qoyub, bir az düşündü. Ancaq şahmat taxtasına de-

yil, ovcunun altından rəqibinin üzünə baxa-baxa... Sonra növbəti gedişini etdi, vəziri E-5-ə oynadı.

Özünü saxlay bilməyən Nikolay Peskov Fuad müəllimə yaxınlaşıb, pıçıltı ilə qulağına "sadəcə heyrətamizdir", - dedi.

Bütün masalarda birinci partiya oyun bitmişdi. Yalnız Rüfətlə Volkovun qarşıdurması davam edirdi. Digər yarışçılar on dəqiqə fasilə edib, növbəti oyunlarına başlamışdılar. Fasilədə demək olar ki, hər bir iştirakçı sakitcə gəlib onların oyunlarını qıraqdan seyr etmişdi. Nodar da oyunun gedişatını seyr etdikdən sonra öz müəllimi Eduarda bu qarşılaşmanın heç-heçə bitəcəyini pıçıldamışdı. Özü qalib gəldiyindən fəxrlə gülümsəmişdi.

Gözlənilmədən Vladimir Volkov heç-heçəyə) razılaşmağı təklif etdi. Ancaq Rüfət dərhal imtina cavabı verdi. Volkov yenə fikirləşməyə başladı. Müəllimi Peskov isə yarış keçirilən böyük otaqda var-gəl etməyə başladı. Fuad müəllim bayaqdan nisbətən kənarda dayanıb, bir anda olsun diqqətini Rüfətin oyunundan ayırmırdı. Onun bütün gedişlərini yadında saxlamışdı. Düşünürdü ki, otelə gedən kimi şahmat taxtasını quracaq. Rüfətdən oyunun gedişatına aid düşüncələrini soruşacaq. Bu oyun təkrar oteldə oynanılacaq.

Volkovun müəllimi və azarkeşləri açıq-aydın məyus olmuşdular. Onlar ilk oyundan Vladimirin heç-heçə təklif etməyini gözləmirdilər. Ancaq vəziyyət bunu tələb edirdi. Rüfət daha masadan qalxmırdı. Volkov gediş edən kimi, öz növbəsində o da çox fikirləşmədən oynayırdı.

Vladimir Volkov uduzdu. Bu xəbəri digər masada oynayan bütün oyunçular onlara tərəf çönüb, təəccüblə baxmaqla qarşıladılar. Volkovun azarkeşləri son dərəcə məyyus olmuş, Nikolay Peskov isə siqaret çəkmək üçün yarış zalını tərk etmişdi. Fuad müəllim dərindən nəfəs alıb, əlini açıb, qabağa uzatdı. Rüfət gülümsəyib ora sağ əli ilə salam vurdu. Eduard da Rüfəti təbrik etdi. Nodar uzaqdan sağ əlini yuxarı qaldırıb, baş barmağı ilə "əla" göstərdi. Volkov qızarıb, pörtmüşdü.

Rüfətə elə tərs-tərs baxırdı ki, imkanı olsaydı bu saat onu döyərdi. Rüfət əlini ona tərəf uzatdı. O da əlini uzadıb, möhkəm sıxdı. Əslində, rəqibi təbrik yox, sıxıb, sirli gedişlər edən barmaqlarını sanki qırmaq istəyirdi.

Yarış təşkilatçıları qonaqlara Moskvanın tanınmış restoranlarından birində ziyafət təşkil etmişdilər. Demək olar ki, hamı Rüfətdən danışırdı. O, bu gün keçirdiyi üç oyunun hər birində qələbə qazanaraq maksimum göstərici 3 xal qazanmışdı. Eduard 2,5 xal, Vladimir Volkov isə 2 xal qazanmışdı. Oyunçuları və müəllimləri heyran edən Rüfətin bütün oyunları udması deyildi, üç xal qazanan daha iki nəfər var idi. Biri Ukraynadan, digəri isə Sankt-Peterburqdan gəlmiş şahmatçılar idilər. Şahmatçıları heyran edən, təəccübləndirən Rüfət Məmmədovun sonranı, ondan da sonranı aydın təsəvvür etməsi, sürətlə fikirləşərək, qeyri-adi fantaziyası ilə şahmat taxtasında qəribə mənzərələr yaratması idi. O, birmənalı olaraq bu günkü oyunların favoriti idi. Fuad müəllim ziyafət başlamazdan öncə foyedə, sakit bir guşədə şahmat taxtasını qurmuş, Rüfətin birinci qarşılaşmasını Vladimir Volkov üzərindəki parlaq qələbəsini müzakirə etmişdilər. Rüfət hansı gedişi niyə etdiyini, nə düşündüklərini müəlliminə izah etmişdi. Yekunda, Fuad müəllim elə bil Rüfət indicə yenə də hansısa rəqibə qalib gəlirmiş kimi əlini açıb, ona tərəf uzadaraq "vur gəlsin", - demişdi.

Yarışmanın ikinci günü də maraqlı və gərgin keçən qarşılaşmalarla yadda qaldı. Rüfət keçirdiyi üç qarşılaşmanın hər birində qalib gəldi. Yarışın favoritlərindən olan dünənki qarşılaşmalardan maksimum 3 xal toplayan ukraynalı və Sankt-Peterburqlu şahmatçılar üzərində parlaq qələbələri ikinci günün yekunlarına görə onu şəriksiz lider etdi. Rüfətin 6 xalı oldu. Vladimir Volkovda ard-arda üç qələbə qazanıb, xallarını 5-ə yüksəltdi. Gürcü şahmatçı Nodar Şakavili çox yaxşı oynadı, iki şahmatçını məğlub edəndən sonra liderliyə namizədlərdən olan Sankt-Peterburqlu şahmatçını da gözlənilməz kombinasiya ilə məğlub etdi. Beləliklə, yalnız Rüfətdən yarım xal geri qalmaqla,

ikinci yerdə qərarlaşdı. Nodarın məşqçisi Eduardın kefi o qədər kökəlmişdi ki, imkan olsa, bu dəqiqə dostu Fuad müəllimlə yeyib-içməyə oturar, bu günkü qələbəni qeyd edərdi. Çoxdan qərara gəlmişdi ki, bu axşam oteldə Fuad müəllimi və Rüfəti qonaq çağırsın. Ukraynalı şahmatçı və Vladimir Volkov hərəyə 5 xalla 3 və 4-cü yerləri bölüşdürdülər. Sankt-Peterburqlunun isə 4 xalı var idi.

Fuad müəllim Rüfətə gürcü Eduard Çuburdanidzenin onları qonaq çağırdığını dedi. Rüfət bir az düşünüb dedi:

– Müəllim siz gedin, mən yorğunam, bir az oyunlar barədə düşünüb, yatacam. Sabah həlledici görüşlər olacaq, yatıb dincəlmək lazımdı.

Fuad müəllim israr etmədi. Fikirləşdi ki, Rüfət düz deyir. Özü tək getdi Eduardın qonaqlığına. Eduard yaxşı qonaqlıq süfrəsi açmışdı. Cürbəcür kabablar, Moskva istehsalı olan bahalı araq sifariş etdirib, qaldıqları nömrəyə gətizdirmişdi. Onda böyük ümid yaranmışdı ki, şagirdi Nodarın birinci yer tutmaq şansı çox yüksəkdir. Lakin sabahkı oyunları gərgin və çətin keçəcəkdi. O, ukraynalı şahmatçı ilə və Rüfətlə, sonda isə Andrey Volkovla qarşılaşacaqdı. Hər üçü yarışmanın ən güclü oyunçuları idilər. Eduard fikirləşirdi ki, Nodar U(u)kraynalı şahmatçını mütləq udacaq. Buna heç şübhə etmirdi. Əgər sonra o, Rüfət və Volkovdan birini uda bilsə, 7,5 xalla böyük ehtimalla birinci yerə, yüz faiz isə ikinci yerə çıxacaq. Birinci yerə çıxarsa, ölkəsində onları necə hörmətlə qarşılayacaqlarını, şahmat müəllimləri arasında nüfuzunun artacağını düşünüb, indidən öz-özünə lovğalanırdı.

Fuad müəllim gələndə Eduard Nodarla bu gün keçirilmiş oyunları müzakirə edir, onu tərifləyir və sabahkı oyunlar üçün ruhlandırırdı.

İlk sağlığı Eduard dedi:

– Nodarın qələbələri şərəfinə! - Hər ikisi badələrini toqquşdurub, içdilər. Sonra Eduard əlavə etdi:

– Fuad müəllim, bizim uşaqlar doğurdan da Moskvada Qafqazı, ölkələrimizi layiqincə təmsil etdilər. Nodar gözlənilməz hücumlarla, Rüfət qəribə gedişlərlə buradakıları heyrətləndirdi.

Fuad müəllim onun dediklərini başı ilə təsdiq edib:

– Elədir. Doğrusu, mən bu qədər gərgin keçən yarışma, Rüfətin, eləcə də, Nodarın bu cür heyrətamiz oyunlar nümayiş etdirəcəklərini gözləmirdim. Yaddaşlarda, bəlkə də, şahmat tarixində qalacaq yarışmadı.

Sonra badəsini qaldırıb:

– Gəl, bu badələri içək, hər iki şahmatçının gələcəkdə qazanacaq böyük uğurları şərəfinə, - dedi və onlar badələrini toqquşdurub, içdilər. Nodar təriflərdən cuşa gəlib, yarışın liderlərindən olan Sankt-Peterburqlu şahmatçını necə məğlub etdiyini, hansı gedişlər, kombinasiyalar qurduğunu danışmağa başladı. Bir az əvvəl onları müəllimi Eduarda söyləmişdi.

Nodar yemək masasından qalxıb, digər kiçik masada şahmat taxtası arxasında əyləşmiş, gah özü, gah da xəyali rəqibi əvəzinə oynayırdı. Hərdən düşünür, bəzənsə gedib, pəncərənin önündə dayanırdı. Şüuraltı olaraq Rüfəti təqlid edirdi. Onun, təkcə Rüfətin liderliyinə deyil, həm də "Ne posidi Rüfət Mamedov" ləqəbinə paxıllığı tuturdu. Sabah onu məğlub etməyi bəlkədə, ömrünün ən böyük arzusu sayırdı. Əgər belə olarsa, bütün yarışma iştirakçıları arasında nüfuzunun necə yüksələcəyini, hamının ondan danışıb, tərifləyəcəklərini düşündükcə öz-özünə lovğalanır, gülümsəyirdi. Həm də o, Rüfətə qalib gələrsə, U(u)kraynalı şahmatçını udacağına heç şübhəsi yox idi. Vladimir Volkovla heç-heçə edəcəyinə inanırdı və belə olan halda birinci yerə çıxırdı. Bəli (,) birinci yerə! Hər şey yaxın idi, yalnız Rüfəti məğlub etmək qalırdı. Nodar bunu o qədər arzu edirdi ki, elə bu dəqiqə Rüfətlə oynamaq istəyirdi! Öz-özünə oynadığı şahmat taxtasındakı xəyali şah Rüfətin idi. Nodar nə olur - olsun onu mat etmək istəyirdi.

Eduard gündüzdən fikirləşdiyi ehtiyyat variantı haqqında təklifini Fuad müəllimə deməyə tərəddüd edirdi. Lakin arağın təsirindən

cəsarəti utanmaq hissinin üzərinə kölgə salmağa başlamışdı. Nəhayət, o, növbəti sağlığa içindən sonra badəni yerə qoyub gülümsəyərək dedi:

– Fuad müəllim, bayaqdan bir təklif vermək istəyirəm! Ancaq tərəddüd edirəm.

– Niyə çəkinirsiz, buyurun deyin! - Fuad müəllim sual dolu nəzərlərini Eduarda dikdi.

– Yarışın nəticələrini və sabahkı oyunların əhəmiyyətini siz də bilirsiniz.

– Bəli, bilirəm. Əsl yarış, mübarizə sabah olacaq!

Fuad müəllim ona heç imkan vermədi, sözünü tamamlasın. Onun bu cür həssas reaksiyası Eduardı təklifini deməmək fikrinə gətirdi. Ancaq düşündü ki, mütləq deməlidir.

– Sabah əgər lazım olarsa, Rüfət və Nodar bir-birlərinin xeyrinə bilərəkdən uduzsunlar.

O, çəkinə-çəkinə, pıçıltıynan bunları dedi ki, Nodar eşitməsin. Eduard əslində, demək istəyirdi ki, Rüfət qəsdlə Nodara uduzsun. O, bilirdi ki, Fuad müəllim razılaşarsa, bu ehtiyyat 90% Nodarın xeyrinə olacaq.

Fuad müəllim bu cür təklif gözləmirdi. O, nə qədər içkili olsa da, həmişə öz məntiqini, ağlını saxlayırdı. Həm də normasında içirdi. Eduardın bu təklifini idmançıya, xüsusilə şahmatçıya uyğun fikir olmadığını düşündü, o stehza ilə dedi:

– Mən sizinlə bu razılaşmaya hə deyərdim...

Eduard onun sözünü ağzında qoyub, sevincək tez əlini ona uzadıb dedi:

– Demək , razısınız?

Fuad müəllim Eduardın əlini sıxıb, gülümsəyərək dedi:

– Əlbəttə, ancaq oyunda siz və mən iştirak etsəydik. Rüfət isə bizim kimi düşünmür. Buna yüz faiz əminəm. O, yalnız qələbə çalmaq istəyir!

Eduard pərt olsa da, əl çəkmək istəmədi. Onun əlini bir az da bərk sıxıb:

– Biz onların müəllimləriyik. Nə desək, onlar edərlər! - dedi.

Fuad müəllim əlini geri çəkib, ciddi görkəm aldı:

– Desək! Mən həmişə Rüfətə "Rəqibə güzəşt öz istedadına hörmətsizlikdi", - demişəm.

O, bunları deyib, ayağa qalxdı. Eduard pərt halda:

– Yaxşı, siz bilən məsləhətdi. Ancaq niyə gedirsən? Əyləş, gör nə qədər arağımız, yeyib-içməyimiz qalıb, - dedi.

Fuad müəllim saatına baxaraq:

– Daha gecdir, sabah rahat oturub, yeyib-içərik. Mən də çox yorğunam, elə Nodara da istirahət lazımdı, - söylədi. Nodar adını eşidəcək, başını şahmat taxtasından ayırıb, onlara tərəf baxdı. Fuad müəllim gülümsəyərək:

– Nodar istedadlı şahmatçıdı, sabah sənə uğurlar arzulayıram, - deyib, hər ikisi ilə sağollaşıb, çıxdı.

Rüfət qapı döyülən kimi açdı. Fuad müəllim təəccüblə soruşdu:

–Yatmamışdın?

– Azca yatdım, qəribə yuxular gördüm. Bir gördüm ki, laləzarlıq, gül-çiçəklik bir düzənlikdəyəm. Anam düşür dalımca, mənimlə uşaq kimi oynayır. Bir də gördüm ki, Nodargilin otaqlarında işıq yanmır, gəlib bizdən işıq istəyirlər. Təsəvvür edirsiz müəllim, işıq... Biz onlara necə işıq verə bilərdik?

Fuad müəllim gülümsəyərək dedi:

– Çiçək və işıq. Yaxşı yuxulardı. Yataq, gecdi!

– Müəllim, elə bil qanınız qaralıb.

– Yox, sadəcə, bu gün çox yorulmuşam. Yatmaq lazımdı!

Yarışın üçüncü günü gərgin və maraqlı oyunlarla başladı. Nodar Şukvalinin ukraynalı şahmatçı ilə oyunu çox uzun çəkdi. Nəhayət, o qalib gəldi. Vladimir Volkov Sankt-Peterburqlu şahmatçıya qalib gəldi. Rüfət isə bu müddətdə iki rəqibinə qalib gələrək, xallarını 8-ə yüksəltmişdi. Rüfətlə Nodar, Volkovla ukraynalı şahmatçı oynamağa

başladılar. Eduard yenə Fuad müəllimə yaxınlaşıb, "Rüfət artıq birinci yeri götürüb, 8 xalı var. Siz deyin heç-heçə oynasınlar ki, ikinci yerə də Nodar çıxsın. Qafqaza hədiyyə ilə gedək", - dedi. Fuad müəllim ona mədəni formada gülümsəyərək:

– Şahmat taxtasına diqqətlə baxanda, bütün dünya, keçmiş və gələcək görsənir. Təkcə Qafqaz yox, - dedi.

Volkov ukraynalı şahmatçını da uddu. Eduardın qanı qaraldı. Nodarla Rüfətin oynadığı masaya yaxınlaşdı. Lap dilxor oldu, Rüfət üstünlüyü ələ almışdı. Fuad müəllim pəncərənin önündə dayanıb, rahat nəfəs alır, sevinirdi. Artıq Rüfət qələbə çalmaq üzrə idi və doqquz oyundan maksimum 9 xal toplayırdı.

Gözlənilmədən Rüfət əlini uzadıb Nodara heç-heçə təklif etdi. Fuad müəllim mat qaldı. Bu necə ola bilərdi? Axı o, yüz faiz qələbəyə yaxın idi. Yarış iştirakçılarıda təəccübləndilər. Nodara qəhrəman kimi baxdılar ki, necə oldu "Ne posidi  Mamedov"u, məğlubedilməz Raufu heç-heçəyə məcbur etmişdi? Fuad müəllimin gözü, bütün diqqəti Rüfətin oyunlarında olmuşdu. Eduard ona yaxınlaşmamışdı. Nodarla da söhbət etməmişdilər. Bəs, necə oldu ki, qələbə çalması real olduğu halda, heç-heçə təklif etdi? Onun bu sualına Rüfət sonra təyyarədə belə cavab vermişdi:

– Qalib gəlsəydim, ancaq birinici yeri götürəcəydim. Heç-heçə etməklə ikinci yeri də qazanmaq istədim. Ancaq Nodar Volkova uduzmaqla özünü və məni ikinci yerdən məhrum elədi. Etimadı doğrultmadı. Ikinci yeri Volkova verdi, üçə çıxa bildi. Mənim isə üçüncü yerdən heç xoşum gəlmir!

Anlamadım, Nodar Sukavali ikinci yerə çıxsaydı, sən bu yeri də özününkü biləcəkdin? – Fuad müəllim təəccüblə soruşmuşdu.

– Əlbəttə! Mən zəhmət çəkib heç-heçə üçün oyun qurmuşdum. Bu vəziyyəti saxlamaq, udmaqdan da çətindir. - Rüfət gülümsəyərək cavab vermişdi. Müəllimi isə gülərək, əlini ona tərəf uzadıb:

– Vur gəlsin, sən təkcə şahmat taxtasında deyil, xalların cədvəlində də oynayırmışsan,- demişdi.

– Rüfət, oyan. Bakıya çatırıq. - Müəllimin bu sözlərinə gözlərini açan Rüfət, tez pəncərədən baxdı. Hə, bura Bakı səması idi. İşıqların gur yanmasından, parlaqlığından tanıdı. Onları hava limanında Rüfətin atası və anası qarşıladı. Anasının qucağında böyük gül-çiçək dəstəsi var idi. Bunlar Rüfətə tanış gəlirdi. Yuxuda anası bu çiçəklər və güllərlə dolu olan çəmənlikdə onunla oynayırdı.

# II FƏSİL

*Xeyirxah və savab işlər çətin vəziyyətlərdə bəxti və şansı maqnit kimi çəkib, gətirirlər.*

* * *

*Əks istiqamətə tez dəyişə bilən insanlar çox təhlükəli, üzləri rezinləşmiş şəxslərdir.*

* * *

*Bu gündən gələcəyə əl uzadıb, meyvə dərmək, bu dünyada oturub o biri dünyanın zəri ilə oynamaq kimi bir şeydir.*

* * *

*Ən pisi hakim, müəllim və s. olub, özü öz əməlləri ilə vicdanını kirlətməkdir.*

Bakı Dəmir Yolları Vağzalı. Uzaq yerlərdən gələn qısa dəmir yolları burada sona çatırdı. Elə buradan da uzaqlara başlanğıc götürürdü. Vağzal həmişə səfərə gedən, gələn və onları qarşılayan, yola salanlarla dolu olardı. Bir də burada qazanc məqsədilə çıxan taksi sürücüləri, "peraşki", "blinçik" və s. yemək satanlar, ara-sıra isə kənddən, rayondan və başqa respublikalardan gələn nabələd insanların ciblərinə girmək, çamadanlarını oğurlamaq, onlara müxtəlif fırıldaqlar gəlməklə, pul qopartmaq istəyən adamlar olardı. Bu səbəblərdən dünyanın bütün dəmir yol vağzalları təqribən bir-birlərinə bənzəyirdilər. Vağzalların memarlıq görnüşləri fərqli olsa da, aurası, insan kontingentinin məqsədləri bir-birinə oxşayır, ümumən nostalji, ayrılıq, arzulara qovuşmaq, yeni həyata başlamaq ab-havası ilə yanaşı, sakit kriminal küləkləri, bişən yolüstü yeməklərin, kiçik kafelərin qoxusu ilə də elə bil əkiz məkanlar çoxluqları idilər.

Bakı-Noraşen qatarı da sürətini azaldaraq vağzala yaxınlaşırdı. Artıq dayanacaqda sərnişinləri qarşılayan dost-tanışları, qohumları görsənilirdilər. Onlar diqqətlə vaqonların pəncərə və qapılarından baxan insanlara tərəf boylanırdılar. Vaqondakılar da dayanacaqdakı insanlara baxır, "özününküləri" tapmaq istəyirdilər. Elə bu xüsusiyyətlərinə görə də iri şəhərlərin dəmir yol vağzalları bir-birlərinə bənzəyirdilər.

Oktay pəncərədən diqqətlə baxırdı. Leyla onun yanında dayanmış, sağ əlilə bir çamadanın, sol əli ilə isə böyük bir çantanın qulpundan tutmuşdu. Qatar dayandı. Sərnişinlər düşməyə başladılar. Oktay çamadan və çantanı Leyladan alıb irəlidə vaqonun pilləkənlərindən endi. Leylaya dedi:

– Qızım, yanımdan ayrılma, insan çoxdu, itərsən.

Onlar düşdükləri vaqonun yanında, nisbətən seyrək bir yerdə dayanıb, gözləməyə başladılar. Sərnişinlər  qatardan düşür, onları qarşılayan, yaxınlarını tapan kimi sevinclə görüşür, deyə-gülə vağzaldan çıxırdılar. Leyla maraqla onlara tamaşa edirdi. Qaya ilə Məsməni də uzaqdan gördü, onlar vaqonun digər tərəfindən düşərək çıxıb, getdilər. "Tək idilər, yəqin qarşılayanları yox idi", - deyə Leyla düşünürdü. Onlara kök, orta boylu, gümüşü bığlı, girdə göz bir taksi sürücüsü yaxınlaşdı.

– Xaloğlu, hansı tərəfə gedəcəksiniz? - deyə sual etdi. Oktay ona tərəf baxıb dedi:

– Novxanıya... Ancaq arxamızca gələn olacaq, onu gözləyirik!

– Lazım olsa, deyərsiniz, buralardayam, - bunu deyib sürücü uzaqlaşıb, digər sərnişinlərə tərəf getdi.

Artıq adamlar seyrəlmişdi. Leyla dedi:

– Ata, bəlkə, əmim işdədi, gəl özümüz gedək!

Oktay gülümsəyib dedi:

– Leyla bu gün altıncı gündü. Əmin işə getməyib. Həm də onunla danışmışıq telefonla, mütləq gələcək.

Aradan bir az da keçdi. Bu müddət ərizndə daha iki nəfər taksi sürücüsü yaxınlaşıb, onları hara istəsələr, ucuz qiymətə aparacaqlarını təklif etdilər. Oktay onlara da "arxamızca gələcəklər", - deyib, imtina etmişdi. Leylanın səbri tükəndi:

– Ata, ola bilər işi çıxıb. Artıq yarım saatdı gözləyirik. Həm də isti düşür, susamışam.

– Bir az səbr elə, qızım, harda olsa bu dəqiqələrdə gələcək. O bilir, biz indi gözləyirik. - Oktay eyni inamla dedi və sonra əlavə etdi:

– Sən burada gözlə, mən o yaxınlıqdakı butkadan su alım, gəlim. Həm də siqaretim qurtarır, bir qutuda siqaret alım, qayıdım. - O, bunları deyib getdi.

Leyla fikirləşirdi ki, anası düz deyirmiş, "Oktay, bəlkə, başqa bir yerə gedəsiniz. Onlara narahatçılıq verməyinizi istəmirəm". İndi Leyla analamağa başlayırmış ki, o nə üçün belə deyirmiş. Oktay qayıdıb gəldi. Artıq dayanacaqda onlardan başqa heç kim qalmamışdı. O, bərk dilxor olsa da, qızına bildirmək istəmədi. Getdiyi köşkdə də su

və siqareti iki qat qiymətinə satmışdılar. Buna lap pərt olmuşdu. Zorla gülümsəyərək:

– Yaxşı, qızım, gəl özümüz gedək.

Oktay bunları deyib, çamadan və çantanı götürdü. Leylanın tərpənmədiyini görüb təəccüblə dedi:

– Leyla niyə gəlmirsən? Axı, bayaqdan məni tələsdirirsən.

– Ata, bəlkə, başqa yerə gedək? - Leyla ehtiyyatla dedi.

– Başqa yerə hara? Gedəcəyimiz bir yer var? - Oktay pərt halda soruşdu.

– Kəmaləgil qalan mənzilə gedək... - Oktay qızının sözünü kəsib dedi.

– Onlar balaca bir otaqda qalırlar. Mən Kəmalənin otaq yoldaşının yanında bir ay necə yatıb, duraram? Orda qala bilmərəm.

Leyla daha heç nə demədi. Bir az getmişdilər ki, birinci yaxınlaşan taksi sürücüsü hardansa peyda oldu və gülərüzlə dedi:

– Qardaş, deyəsən, gözlədiyiniz adam gəlib çıxmadı. Fikir eləmə, belə şeylər olur, "qağan" ölməyib ki, gəlin sizi on beş dəqiqəyə Novxanıya aparacam.

Bu sürücü digərlərinə baxanda Leylada xeyirxah və dürüst insan təsiri bağışladı. Elə Oktayında görünür, onunla getmək fikri vardı, tez razılaşdı.

On beş dəqiqə əvəzinə yarım saat yol gəldilər. Yolboyu sürücü maraqlı, başına gələn, eşitdiyi, bildiyi hadisələrdən danışdı və bütün hallarda özünü haqlı çıxardı. İmanın və dürüstlüyün insanın əsas var-dövlət olduğuna, pulun "əl çirki" kimi bir şeyə bənzədiyini dedi. Tez-tez də "Atam rəhmətlik belə demişdi", sözləri deyir. Oktay da "Allah rəhmət eləsin!" dedikdən sonra "Ölənlərinə rəhmət qardaş" , - deyirdi. Leyla daha ona qulaq asmırdı, pəncərədən tez-tez dəyişən ətrafı seyr edir, gah anasını, bacılarını, gah Məsməni, gah da imtahanlarını düşünürdü. Oktay da bezmişdi, ancaq həmsöhbətə qulaq asmamaq yaxşı çıxmazdı, - deyə fikirləşib, məcbur qulaq asırdı.

Gəlib çatdılar Novxanıya. Sürücü:

– Oktay qardaş, ünvanı bilirsən? - deyə soruşdu. Oktay cibindən bükülü kağız çıxarıb, ona tərəf uzatdı və dedi:

– Buyur qardaş, ünvan burada yazılıb.

Sürücü kağızı alıb oxudu, bir az fikirləşib, bir də oxudu və dedi:

– Çətin yerdədi. Ancaq bilirəm, zənnim məni aldatmaz.

O, bunları deyib, sürəti artırdı. Ancaq heç cür deyilən ünvanı tapa bilmirdi. Düz yarım saat Novxanının içərisində gəzdi, daha o küçə qalmadı ki, girməsin. Sonda bir böyük göy boya ilə rənglənmiş darvazanın yanında saxladı. Kağıza və darvazanın kənarında hündür hasarın üzərinə vurulmuş ünvana baxıb dedi:

– Qardaş, yüz faiz bura olmalıdı!

Leyla təəccüb etdi. Axı, buradan düz üç dəfə keçmişdilər. Bu hasarın hündürlüyü və iri zövqsüz boyanmış göy darvaza onun diqqətini cəlb etmişdi. Ancaq bir söz demədi, düşündü ki, yaşlı insandır, bəlkə, diqqət yetirməyib, həm də maşın sürə-sürə hər divardakı lövhəyə diqqət edə bilməzdi.

Oktay darvazaya, lövhəyə diqqətlə baxıb dedi:

– Hə, qardaş, buradı.

– Şükür Allaha, sağ - salamat gəlib çatdıq.

Bunu deyib, sürücü qapını açıb düşdü. Taksinin yük yerinə yaxınlaşıb, qapağı açdı. Çanta ilə çamadanı götürüb yerə qoydu. Oktay gülümsəyərək çoxdan tanıdığı bir dost qayğısı ilə dedi:

– Çox sağ ol qardaş, xeyli əziyyət çəkdin. Çox uzun yol imiş. Borcumuz nə edir?

– Qardaş, qonaq olun! - Sürücü gülümsəyərək dedi.

– Yox, nə qonaq, çox əziyyət çəkdiz. - Oktay etiraz etdi.

– Nə verərsən, özün ver. Sən çox dürüst, ədalətli insana bənzəyirsən. - Sürücü dedi.

Oktay cibindən bir beşlik çıxarıb, ona tərəf uzatdı. Sürücünün üzü bir anda yetişmiş pomidor rəngi aldı.

– Bu nədir qardaş? Bu pulnan heç Binə kəndinə getməzlər. Mən sənin öz vicdanına buraxdım, bu pul lap təhqirdi. Yoxundursa, başqa məsələ. Onu da götür, mən çıxım gedim. Onsuz da bu günüm hədərə getdi.

Oktay pərt oldu, bilmədi nə desin. Məcbur qalıb, bir üçlükdə çıxarıb pulun üstünə qoydu, səkkiz manat verdi. Leyla səkkiz manata ba-

xanda, soğan satmaqları yadına düşdü. Fikirləşdi ki, gərək, ən azı yeddi kiloqram soğan sataydın ki, səkkiz manat edəydi.

– A kişi, məni sarımısan? - Sürücünün az qala, it hürməyinə oxşar uca səsi Leylanı fikirdən ayırdı. O diksindi, utandığından atasına tərəf baxa bilmədi. Oktay quruyub yerində qalmışdı. O da utandığından qızına tərəf baxa bilmədi. Həm də düşündü ki, birdən qardaşı, ya da onun yoldaşı səsə bayıra çıxarlar, sürücünün pulunu "kəsdiyini" görərlər. Onda lap biabırçılıq olar. Oktay tez əlini cibinə aparıb bir qırmızı onluq çıxardı, sürücüyə uzadıb dedi:

– Götür, halal xoşun olsun!

– Bu yolun haqqı iyirmi beş manat edir. Ancaq deyəsən, pulun yoxdu, beş manatı keçirəm. Atam rəhmətlik deyib ki, "Həmişə savab iş tut! Kasıbların yanında ol!"

Leyla iyirmi manat eşidəndə, qulaqlarına inanmadı. Qeyri-ixtiyari olaraq dedi:

– Nə, iyirmi manat? Biz iki nəfərə iyirmi manat verib, Naxçıvandan Bakıya gəlmişik.

– Qızım, sən qarışma. Belə şeyləri bilməzsən. Atan bilər, mən bilərəm.

Onun bu sözləri Oktayı təmiz hövsələdn çıxardı, cin vurdu təpəsinə, istədi əlinin dalı ilə möhkəm bir sillə ilişdirsin onun cin, şeytan tökülən "padoş" sifətinə. Ancaq yenə də Leyla və səs-küy olacağı qorxusu kəsdi önünü. Özünü güclə ələ alıb, hirslə:

– Götür, bu on beş manatı, səni rəhmətlik atanın yanına göndərməmiş, çıx get burdan – deyib, onluğun üstünə bir beşlik də qoyub, əlləri əsəbdən əsə-əsə ona uzatdı. Üzü-üzlər görmüş, altı-yeddi manatlıq yolu on beş manat almaq üçün hər cildə, yalançı formalara düşmüş sürücü on beş manata sevincini gizlədə-gizlədə baxıb, əlini uzatdı. "O bilirdi ki, abırlı adamlardan qızlarının yanında artıq pul almaq olar, o bilirdi ki, qonaq gələn adam çatdığı ünvanın yanında səs-küy qopmasını istəməz. O, mələk cildinə girib, hər şeyi bilən bığlı şeytan idi. Onu da yaxşı bilirdi ki, insanı hara qədər qısnamaq olar. Bundan o tərəfə pul əvəzinə təpik, yumruq olacaqdı. Nə pis, kiflənmiş çörəklə murdar şeylər dürməkləyib yeyirmiş bu varlıq." - Leyla bunları düşündükcə əslində, sürücüyə yazığı gəlirdi.

– Yaxşı, yoxundu, eybi yox. Rəhmətlik...

– Heç nə danışma, tez sür get burdan! - Oktay sürücünün sözünü kəsib, asta, lakin onun ürəyinə qorxu, həyasızlığına od salıb yandıracaq əzəmətli səslə dedi.

Sürücü daha heç nə deməyib, sürüb getdi.

– Ata, əsəbləşmə, eybi yox, cəhənnəmə olsun! - Leyla gülümsəyərək, nəvazişli səslə dedi. Oktay bir siqaret yandırıb, dalbadal iki qüllab vurub dedi:

– Biz keçən yay bu yolu şəhərdən iki dəfə gəlmişik. Hər dəfə də 6-7 manat vermişik. Bu adam çox axmaq adam idi.

– Ata, burda saxlayanda mən təəccübləndim. Üç dəfə burdan keçmişdi. Bu göy darvaza yadımda qalmışdı. - Leyla dedi.

Oktay taksinin getdiyi yola baxa-baxa dedi:

– Gərək, vaxtında deyərdin, ağzının üstündən bir sillə çəkərdim.

Leyla gülümsəyərək:

– Elə ona görə demədim. Yaxşı, ata, yadından çıxart, özün həmişə deyirsən ki, olub keçən işlər üçün heyifsilənməzlər. Siqaretini çək qurtar, qapını döy görək, yəqin əmimgil bizi gözləyirlər. İndi nigarandılar.

Artıq beşinci dəfəydi ki, Oktay iki-üç dəqiqə fasilələrlə qapını döyürdü. Ancaq qapını açan yox idi. Saat on iki olardı. Leyla bərk acmışdı. Axşam da qatarda utandığından rahat yemək yeyə bilməmişdi. İndi yorgunluğun, əsəb gərginliyinin, pərtliyin üzərinə isti hava və aclıq da gələrək, onu ruhən əzgin etmişdi. Hər şeyə dözərdi. Bircə atası pərt olmasın. O, atasının nə qədər saf, qürurlu olduğunu bilirdi. Onu da bilirdi ki, atası heç bir hissini dayaz çaylar kimi sürətlə, səs-küylə bildirməzdi. Onun keçirdiyi hisslər daxili təlatümləri üstdən sakit, dərinliklərdə iti axan çaylar kimi ruhunun görünməz, iç qatlarında idi.

Oktay balaca bir daş parçası götürüb, qapını döyməyə başladı, sonra dayandı. Darvaza qapısı açıldı, orta yaşlı bir qadın görsəndi. Leyla saçları qısa kəsilmiş, arıq, bəstəboy, qarayanız çənəsində və yanaqlarında xalları olan bu xanımı diqqətlə başdan ayağa süzdü. Nədənsə, ani olaraq, xəyalən anası ilə müqayyisə etdi. Bu qadını ilk dəfə

görsə də bildi ki, əmisinin yoldaşı Simadı. Sima da qonşu kənddən idi. Əmisi Bakıda oxusa da, nədənsə (,) ailə qurmaq üçün öz rayonlarından, həm də təhsilsiz bir qız seçmişdi.

Sima əvvəl onlara təəccüblə baxdı. Bəlli olurdu ki, onların gələcəklərindən xəbəri yox idi. Oktayın salam verməsindən sonra gülümsəyib dedi:

– Salam, keçin içəri.

Oktay irəlidə, Leyla arxasınca həyətə girdilər. Həyət geniş və gözəl idi. Burada hündür hasarın diblərində həmişəyaşıl sərv ağacları, onların diblərində isə tuyalar əkilmişdi. Darvazadan evə tərəf gedən səkinin qıraqlarına qızılgüllər, həyətin digər yerlərində isə çoxlu bəzək və meyvə ağacları əkilmişdi. Darvazadan içəri girəndə həyətin sağ, yuxarı tərəfində kürsülü, bir mərtəbəli ev vardı. Evin üzü günçıxana idi. Beş-altı pilləkən çıxandan sonra iri bir eyvan var idi. Bu eyvanın ön tərəfi bir metrdən az hörülmüş, yuxarı hissəsi açıq idi. Eyvanın dibində əkilmiş qızılgüllərin iplərə bağlanmış budaqları yuxarı qalxırdı. Bu güllərin arasında yasəmənlər də əkilmişdi. Eyvandan həyətə düşən pilləkənlərin ətrafı metlaxla örtülmüşdü. Buradan bir yol darvazaya, digəri həyətin ortasında zövqlə qurulmuş çardağa gedirdi. Bu üstü örtülü çardaqda iri masa, stullar var idi. Həyətin cənub hissəsində iri bir əncir ağacının altında da oturacaq qoyulmuşdu. Bağ evi yayda istirahət, yaşamaq üçün çox əlverişli və rahat hazırlanmışdı. Oktayın qardaşı hər il yayda ailəsilə bura köçürdü.

– Sima necəsiniz, işləriniz necədi? - Oktay hal-əhval tutdu.

– Yaxşıyıq, hər şey yaxşıdı. Səriyyə necədi? - Sima dedi.

– Yaxşıdılar, çox sağ ol. Balaş hardadı? Deyəsən, evdə yoxdu. Biz onu vağzalda çox gözlədik, ancaq gəlib çıxmadı.

Sima çiyinlərini çəkib dedi:

– Sübh tezdən evdən çıxıb, ancaq mənə demədi ki, vağzala gedəcək.

Onlar gəlib eyvana qalxan pilləkənin yanına çatdılar. Oktay çəmədan və çantanı yerə qoyub, dərindən rahat nəfəs aldı. Geniş həyətə, ağaclara, güllərə həvəslə baxa-baxa yol yorğunluğunu, xoşagəlməz hadisələrdən yaranan pərtliyi yavaş-yavaş unutmağa başladı. Ərklə gəldiyi qardaşı evini, həyətini özününkü kimi doğma bilirdi və

həyətə baxa-baxa burada daha hansı meyvə ağaclarının əkilə, onların yerlərinin harada ola biləcəyini xəyalən təsəvvür edirdi.

– Qalxın yuxarı, çay gətirim için. - Sima dedi.

Oktay fikirdən ayılıb, gülərüzlə dedi:

– Hə, çox yaxşı olar. Doğurdan yaman yorulmuşuq, əvvəl çay içmək yerinə düşər.- Sonra o, çönüb yanında dayanmış qızına dedi:

– Leyla niyə donub qalmısan, gəl, gəl qalxaq yuxarı. Burda özünü evimizdəki kimi hiss et. Lap rahat ol!

Leyla Simaya baxdi. Onların baxışları toqquşdu. O, tez baxışlarını qaçırıb dedi:

– Ata, əvvəl əz-üzümüzü yumalıyıq.

– Hə qızım, düz deyirsən. Tamam yadımdan çıxmışdı.

Oktay bunu deyib, hasarın ön tərəfində olan su krantına tərəf getdi. Leyla da onun arxasınca. Krantın altında kiçik hovuz hörülmüşdü. Hovuzun içində bəlkə də bir qonaqlığın çirkli qabları var idi. Bir az aralıda zibil yeşiyinin içərisi isə butılkalarla dolu idi.

Oktay əllərini, üzünü yuyub, gülümsəyərək dedi:

– Hə, qızım, su həyat imiş. Elə bil, indi özümə gəldim. Gəl səndə əl-üzünü yu, içədə bilərsən, təmiz Şollar suyudu.

Leyla əl-üzünü yudu. Sərin sudan doyunca içdi. Sonra onlar gəlib eyvana çıxdılar. Buradan baxanda qızılgül budaqlarının arasından mavi Xəzər görünürdü. Leyla dirsəyini masaya dayayıb, sağ üzünü ovcunun içinə qoyaraq, güllərin arasından dənizə baxa-baxa, fikrə getmişdi.

Sima Rusiya istehsalı olan, el arasında "daş stəkan" deyilən stəkanlarda çay gətirdi. Ortaya kəllə qəndi, konfet qoydu.

– İndi bəlkədə Balaş bizi vağzalda axtarır. Gərək, bir azda gözləyəydik. - Oktay çayından bir qurtum içib, dedi.

– İndi harada olsa gələr. Siz çayınızı için, yəqin yorulmusuz, bir az yatıb dincəlin. -Sima dedi.

Oktay başı ilə razılığını bildirərək:

– Hə, yaxşı olar. Bərk yorulmuşuq. Gecə heç rahat yata bilmədim, qatarın səsində mən heç vaxt rahat yatmıram.

... Yasəmən çantasını belinə keçirib, həyətdə o başa, bu başa gedirdi. Çox xoşu gəlmişdi çantasından. İndidən məktəbə gedəcəyi günü gözləyirdi. Çantasını uşaqlara həvəslə göstərəcək, bacısı Leylanın aldığını deyəcəkdi. İnanırdı ki, onun çantası hamınınkından yaxşı olacaq. Elə həvəslənirdi ki, elə bu dəqiqə maəktəbə getmək istəyirdi. O, anasına yaxınlaşıb:

– Ana, mən oxuyub həkim olacam. Çox yaxşı oxuyacam, - dedi.

Ocaqda günorta yeməyi hazırlayan Səriyyə gülümsəyərək dedi:

– Onun üçün gərək çox zəhmət çəkəsən,- bütün dərslərindən beş alasan.

Həyətdəki alça ağacının altında oturub, kitab oxuyan Leyla zarafat etdi:

– Yasəmən, riyaziyyatı isə lap yaxşı oxumalısan.

– Hə, bacı, riyaziyyatı lap yaxşı oxuyacam. Bütün dərsləri yaxşı oxuyacam, ancaq beş alacam. - Yasəmən inamla dedi.

Səriyyə Leylanın ona sataşdığını anladı.

– Sən hüquqşünas olsan da, əsl həqiqəti tapmaq, ədaləti təmin etmək üçün oxuduğun şair, yazıçılar, Napaleon, Stalin köməyinə gəlməyəcək, əzbərlədiyin qanunlar deyil, riyaziyyat kömək edəcək. Bunu gələcəkdə görəcəksən.

Həlimə, Nailə və Zəhra təzə ayaqqabılarını geyinib, asta-asta onların çirklənəcəyindən ehtiyyat edərək, həyətdə gəzişirdilər. Hərdən sağa-sola əyilərək, ayaqqabılarına baxırdılar. Ən çox sevinən Zəhra idi. O da anasının yanına gəlib dedi:

– Ana, mən də Leyla kimi prokuror olacam, pis adamları tutacam.

Səriyyə ona tərəf baxıb güldü və dedi:

– Hə, sən tutarsan, çox inadkar qızsan!

Leyla üzünü Sevdaya tutub soruşdu:

– Bəs, bu çiçək qız, öz-özündən göyçək qız böyüyəndə nə olacaq?

Qum topası üzərində oturub, gəlinciyini bərk-bərk qucağına sıxan, hələ də onun özünün bu cür gözəl, yaraşıqlı oyuncağı olduğuna inanmayan Sevda gülümsədi və dedi:

– Mən bilmiyəm nə olacam. Mənim gəlinciyimdə məktəbə gedəcək. Onu mən apayıb, gətiyəcəm.

Nailə də ocağın başına yaxınlaşıb dedi:

– Mən də həkim olacam, atam həmişə xəstələri həkimlərin yanına aparır. Deyirlər, ondan yaxşı iş, faydalı əməl yoxdu. Həmişə atamın yanında həkimləri görəndə, özümü onların yerinə qoyuram.

– Bunun üçün gərək, çox cəld olasan. Sən bir az ləngsən, cəld olmaq lazımdı ki, xəstələrə tez yardım edə biləsən. - Səriyyə qızına tərəf baxaraq dedi.

– Həm də riyaziyyatı biləsən. - Leyla yenə anası ilə zarafat etdi. Onun qəribə xüsusiyyəti var idi. Zarafat etməyə, deyib-gülməyə başladısa, əl çəkmirdi. Həm də hər deyəndə və hamı ilə zarafat etməzdi. Ya çox yaxın bildiyi, xoşu gəldiyi insanlarla zarafat edər, ya da zəhləsi gedən insanla. İkinci qrup insanlar Leylanın onlarla zarafat etdiyini, ya ələ saldığını bilməzdilər. Səriyyə isə uşaqları ilə çox zarafat etməzdi. O, həmişə soyuqqanlı olmağı, yeri gələndə, hərdən bir çox az davam edən zarafat edərdi. Qızları onun xasiyyətini bildiklərindən, çox zarafat etməyə cəhd etməzdilər. Səriyyə Leylanın ikinci dəfə onunla zarafat etməsinə reaksiya vermədi. Öz ciddi təbiətinin üzərinə Oktayın da xasiyyəti gəlib onu belə etmişdi. Leyla üzünü Həliməyə tutub gülərək dedi:

– Həlimənin ayaqqabıları lap gözəldi.

Onun bu sözünü eşidən kimi Nailə ilə Zəhra bayaqdan, bəlkə, yüz dəfə baxdıqları ayaqqabılarına bir də diqqətlə baxmağa başladılar.

– Həlimə, sən yenə də tarixçi olmaq fikrindəsən? - Leyla ondan soruşdu.

– Hə, bacı, tarixçi olacam. Məni insanların tarixi maraqlandırır. Prokuror, həkim bir insanla məşğul olursa, tarixçi hamı ilə, hələ keçmişdə olanlarla da məşğul olur.

– Yaxşı, sən riyaziyyatı bilirsən? - Leyla yenə gülərək soruşdu.

– Çox danışma, yemək hazırdı. Dur gəl, kömək et, süfrəni hazırlayaq, uşaqlar bayaqdan acdılar. - Səriyyə ciddi görkəm alıb dedi.

Leyla qalxıb ona tərəf gəldi. Ocağın üstündə olan qazanın qapağını dəsmalla qaldırıb, zövqlə küftələrə baxdı. Gözünü yumub, iyini ciyərlərinə çəkdi və dedi:

– Nə gözəl bişirmisən ana? Sənin yeməklərindən heç kim heç yerdə bişirə bilməz. Çox acmışam ana!

... Simanın səsinə Leyla yuxudan oyandı. Gözlərini ovuşdurub, qolundakı saata baxdı, üç idi. Sonra yan çarpayıya baxdı. Atası hələ yatırdı. Öz-özünə düşündü ki, həm yol, həm də yoldakı hadisələr atasını çox yorub. Leyla sağ böyrü üstə çevrilib, dirsəkləndi. Üzünü əlinin içinə qoyub, atasına baxmağa başladı. O, elə düşünürdü ki, yeddi qız böyüdən, heç vaxt yalan danışmayan, qürurunun zirvəsində qala bilən, hər bir peşə sahibindən çox kənddə, rayonda hörmət qoyulan bu insan dünyanın ən nurlu, pak və doğma insanıdır. Bax o, özünün, ələlxusda qızının ac olduğunu öz qardaşı arvadına bildirmədi. Özünü elə apardı ki, guya səhər-səhər yağ-bal yeyiblər. Halbuki (,) dünən axşam qatarda saat yeddidə nə yeyiblərsə odur.

– Sən həmişə erkəy əti alırsan. Neçə dəfə demişəm ki, quzu əti al. O qədər xərc çəkirsən, ancaq ürəklərində deyəcəklər ki, xəsislikdən quzu əti almırsan. Erkəy ətinin kababını hamı yeyə bilir? Hamının sənin kimi möhkəm dişləri yoxdur ki,? Heç mən özümdə qoparıb, çeynəyə bilmirəm. -) Simanın məzəmmətedici töhmət dolu sözləri yenə aydın eşidilməyə başladı.

– Ta sən deynən özümçün quzu əti istəyirəm da, qonaqları niyə bəhanə edirsən ki... Ancaq mən heç səni yaddan çıxardaram? Sənin üçün ayrıca bur kilo quzu əti almışam. Leyla əmisinin cavabına az qaldı gülsün, özünü güclə saxladı.

Əmisi sonra dedi:

– Yaxşı, o çantanı niyə yolun ortasında saxlmısan?

– Gözlədim, sən gəlib götürəsən çox ağırdı. Kartof, soğan, əzilmiş ərik, küftə pencəri qurudulmuşu, göy-göyərti... Elə bil, burada kartof soğan yoxdu, o boyda yolu şələyib gətiriblər - Sima istehza ilə dedi.

Leyla bu sözləri eşidəndən sonra elə bildi bədəninə istilik gəldi, tərlədiyini hiss etdi. Özü-özündən utandı. Düşündü ki, "Nə yaxşı ki, atası bərk yatır. Yoxsa, bu sözləri eşidib, çox pis olardı. Eybi yox, mən eşitsəm də olar, təki atam eşitməsin. O ataların ən yaxşısıdır, böyük insan, əsl, saf kişidir. Yaxşı, mən niyə eşitməliyəm? Axı, biz bura niyə gəldik? Kaş, gəlmiyəydik... Mən burada imtahana necə hazırlaşacam? - Leylanın xəyalları, düşüncələri bir qayıq olub, hisslərini qəmginlik dəryasında üzdürürdü. Orada hər şey müxtəlif idi, ancaq həm də eyniydi.

Saf ruhlar, təmiz hisslər həmişə təzadlı mahiyyətində qəribəliklər, çox rənglər olan hadisələrlə qarşılaşanda zərrələnirlər. Necə ki, dalğalar sərt sahillərə dəyib, səpələnirlər. Pak ruh, mənəviyyat həmişə soyuqluqdan, laqeydlikdən qorxar, üşüyər, boynu bükülər. İndi Leyla bu istidə tərlədiyi halda, birdən-birə üşüdüyünü hiss etdi.

– Yavaş danış, eşidərlər, ayıbdı. Neyləsinlər, kasıb adamlardı. Olanları odur, onu da gətiriblər - Əmisi dedi.

– Kasıb da gərək, öz) yorğanının uzunluğunu, kölgəsinin yerini bilə! Bəs, bunlar düşünmürlər ki, bir qızları tələbədi, ancaq oxudurlar, ikincini necə oxudacaqlar? Hələ beş qızları da evlərində. Özü də iddiaya bax, forsa bax sən qızda, hüquq fakultəsinə girmək istəyir. Hüquq! Prokuror olacaq sürücünün qızı! - Bunu deyib Sima ucadan güldü. Sonra əlavə etdi :

– Olsa, olsa prokurorun sürücüsü olar, atası kimi! Mən üç dəfə imtahan verdim, müəllimliyə heç girə bilmədim. Bunları deyib, o yenə bərkdən güldü.

– Yaxşı, bəsdi! Eşidərlər, ayıbdi! Sən vurma cədvəlini bilmirsən, hələ də mənə qaranlıqdı ki, niyə gedib, imtahan verirdiniz? Hər dəfə də fakultə dəyişirdin, elə birincidən də iki alıb, kəsilirdin. Qurtar bu söhbəti! Mən aparım gətirdikləri çantanı qoyum zirzəmiyə, qayıdıram...

Oktay gülüş səsinə yuxudan oyandı. Oyanan kimi də başını çöndərib, qızına baxdı, gülümsədi.

– Necə yatdın qızım?

Leyla da gülümsəyib, dedi:

– Yaxşı, ata.

– Deyəsən, əmin gəlib, onların səsini eşitdim. Saat neçədi?

– Dördün yarısıdı. - Leyla cavab verdi.

Oktay qalxıb çarpayıda oturdu və dedi:

– Nə yaman çox yatmışıq. Qalx qızım, gedək əminlə görüşək, yaxşı deyil, ayıbdı. Deyər bunlarda mərifətə bax, durub, gəlib mənimlə görüşmürlər.

Leyla heç nə demədi. Onlar otaqdan çıxıb eyvana gəldilər. Eyvandakı iri masanın üzəri dolu idi. Burada yarı şaqqa erkək əti, balıq, to-

yuq əti, müxtəlif növ kolbasalar, pendir, pomidor, xiyar, göyərtilər, müxtəlif növ içkilər, meyvələr və s. var idi. Elə bil hamısı yığışıb Leylanın mədəsilə gizlənpaç oynamağa gəlmişdilər.

Balaş pilləkənlərlə eyvana qalxdı. Oktay onunla əl tutub, möhkəm köksünə sıxdı.

– Necəsən Balaş? Ayə neyləyirdin bu qədər xərc, zəhmət çəkirdin? Bunlarla bir toy yola salmaq olar ki... - Sonra üzünü qızına tutub dedi:

– Leyla gördün, əmin ona görə gəlib vağzala bizi qarşılaya bilməyib! Bizə gör necə hazırlıq görüb. Doğurdan qardaş başqadı.

Leyla sadəcə atasına baxıb, gülümsəyirdi. Ona elə gəlirdi ki, onun sinəsindən ətrafa işıq saçır...

Günorta idi. Qonaqlar bağın ortasındakı çardaqda hazırlanmış masaya əyləşmişdilər. Onlar saat 12-dən gəlməyə başlamış, bağda gəzə-gəzə söhbət etmiş, çay içərək, kababların və müxtəlif cür xörəklərin hazır olmasını gözləmişdilər. Balaş kababçı çağırmaq istəsə də, Oktay razı olmamışdı ki, kababları özü bişirəcək. Leyla da Simaya kömək etmiş, buğlama, dolma bişirmişdilər, balıq qızartmış, müxtəlif salatlar hazırlamışdılar. Bir süfrə də eyvanda gələn qonaqların xanımları üçün hazırlanmışdı.

Oktay kababları gətirənə qədər qonaqlar soyuq yeməklər və salatlarla iki dəfə yüz-yüz vurmuşdular. Kababaları görən kimi masanın başında əyləşmiş kök, bığlı şəxs əlini əlinə vuraraq dedi:

– Nə cür xörəklər olur - olsun, yeyib-içməyinki kababdı. Götürün isti-isti yeyək. - Sonra üzünü sağ tərəfdə ona yaxın əyləşmiş, digər qonağa tutaraq, “Əhmədov, sən də araqları süz!” , - dedi. Həmin şəxs tez Rusiya istehsalı olan litrlik araq şüşəsini götürüb, hamıya süzdü.

Oktaya tərəf baxan nisbətən yaşlı, çoxu ağarmış saçlarını geri daramış şəxs dedi:

– Qardaş, sən də gəl əyləş, səhərdən çalışırsan, çox əziyyət çəkdin.

Oktay gülümsəyərək dedi:

– Siz rahat olun, gəlib əyləşəcəm, düzdüyüm kababları közün üstünə qoyum, gəlirəm.

Oktay gəlib masanın aşağı tərəfində, gənc oğlanla üzbə-üz əyləşdi. Başda əyləşən şəxs dedi:

– Çox gözəl bişirilib, halal olsun kababçı qardaşa. Əvvəlki kababçı heç nə idi.

Balaş gülümsəyərək dedi:

– Yoldaş Salmanzadə, əslində, kababçı deyil, Oktay qardaşımdı.

– Çox yaxşı, bəs, bunu bayaqdan bizə niyə demirsən? Mən də elə bilirəm kababçıdı. Ancaq zənnim məni heç vaxt aldatmır, hiss etdim Oktay müəllim aristokrat, mühüm bir mənsəb sahibidi. Ancaq çox təvazökar, deməli, böyük insandı.

Oktay tezdən durmuş, üzünü qırxmış, Leylanın ütülədiyi qara şalvar, ağ köynəyi geyinmişdi. Leyla onun etirazına baxmayaraq, onu zorla belə geyindirmişdi. O, atasını qonaqların yanında köhnə paltarda, üzü tüklü görmək istəmirdi.

Salmanzadə sonra üzünü sol tərəfdə əyləşmiş Oktaya, "sən də gəl əyləş", - deyən şəxsə tutub dedi:

– Vəli müəllim, bu günkü qonaqlığın masabəyliyini siz aparın. Görək, məktəb direktorları bu işi necə bacarır?

Vəli müəllim gülümsəyərək, ayağa qalxdı və dedi:

– Yoldaş Salmanzadə, bunu da sınayarıq. - Sonra üzünü məclisə tutub dedi:

– Əziz dostlar, bu günkü məclisimizin əsl səbəbkarı bizim gənc dostumuz Orxan Salmanzadədi. Orxan bizim məktəbin ən tərbiyyəli, başlıcası isə atasının zəhmətlərini yerə vurmayıb, əla oxuyan məzunlarındandır. O, atası kimi hüquqşünas olmaq, qanunların keşiyində durmaq istəyir. Düzdür iki dəfə hüquq fakultəsinə imtahanlardan keçə bilməyib, ancaq ruhdan düşməyib, əksinə, inadla daha çox hazırlaşıb bu il təkrar sənədlərini verib. Atası Fərman Salmanzadə çox hörmətli nəslin nümayəndəsidi. (r) Böyük bir rayonun avtomobil müfəttişliyi idarəsinə bacarıqla başçılıq edir. Gəlin (,) bu badələri Orxanın sağlığına içək, ona imtahanlarda uğurlar arzulayaq! Dünyanı yaxşılıq və elmə çəkilən zəhmət qurtaracaq!

– Əla, Vəli müəllim! Çox gözəl başladın.

Salmanzadə, Vəli müəllimin sözlərindən kefi kök halda əlindəki badəni irəli uzatdı. Nisbətən aralıda əyləşmiş Oktay və onunla üzüzə əyləşmiş digər qonaq ayağa qalxıb badələrini Salmanzadənin badəsiylə və digərləri ilə toqquşdurdular.

Oktay yalnız sol tərəfində otrumuş Balaşla və onunla üzbə-üz oturmuş şəxslə badəsini toqquşdurdu. Qarşıdakı gənc oğlana tərəf baxıb, gülümsədi. Astadan:

– Uğur olsun! - dedi.

Başı elə bil güclü zərbənin təsirindən bədəninə keçmiş, indidən buxağı əmələ gələn, nisbətən kök, ağ yumru sifət, qalın qaşlı oğlan saymazyana, əda ilə danışmağa da ərinirmiş kimi başı ilə “sağ ol” , - dedi.

Oktay ürəyində bu gəncə də, Leylaya da uğurlar arzu elədi. Müəllimin təqdimatından belə çıxırdı ki, bu gənc çox inadçıl şagird olub, vaxtını ancaq oxumağa, təhsilə sərf edib. Belə insanların arzuları həmişə gerçəkləşir. Oktay bu cür düşünə-düşünə ayağa qalxıb, manqala tərəf getdi. Kababları çevirib, yenidən qayıdıb yerində əyləşdi.

Vəli müəllim dedi:

– Yoldaş Salmanzadə, buyurun, söz sizindi.

Əlindəki kababı yerə qoyub, ağzındakı tikəni çeynəyə-çeynəyə əlini salfetka ilə silib, badəsini götürən Salmanzadə ayağa qalxmadan sağlıq deməyə başladı:

– Vəli müəllim, ilk növbədə sizin kimi müəllimlərin sağlığı olsun. Sonra mən Balaşa “çox sağ ol” , - deyirəm ki, zəhmət çəkib bu cür qonaqlıq təşkil edib.

Balaş rəisi tərəfindən adı çəkiləndə ayağa durdu. Salmanzadə əli ilə ona aşağı oturmasını işarə etdi və davam elədi.

– Biz Bakının böyük bir rayonunda yol hərəkət qaydalarının qorunmasını Balaş, Telman kimi fədakar, bacarıqlı avtomobil müfəttişlərinin, hüquq - mühafizə orqanları əmakdaşlarının köməkliyi ilə həyata keçiririk.

Bu dəfə də Oktayın sol tərəfində əyləşmiş, badələrə araq doldurmaq işini görən şəxs ayağa qalxdı. Salmanzadə:

– Əhmədov, əyləş, yüz dəfə demişəm ki, çörək yeyəndə ayağa qalxmazlar. Ümumiyyətlə, süfrə arxasında rəsmiyyəti unudun. Səmimi olun. Görürsünüz, qonağımız Oktay müəllimi, necə səmimi, təvazökar və rahatdı. Oktay müəllimin sağlığına içək! - söylədi.

Oktay gülümsəyərək, "Sağ olun", - dedi. İstədi desin ki, mən müəllim deyiləm. Ancaq nədənsə , fikrindən vaz keçdi. Yenə badələri toqquşdurub, içdilər.

Vəli müəlim sümüklü bir tikə götürüb əlində tutub, bir az oyan, bu yanına baxıb dişlədi. Ağzındakı tikəni çeynəyə-çeynəyə dedi:

– Doğurdan çox yaxşı bişirib Oktay müəllim. Ət də yaxşı ətdi, erkəy ətidi. Haradasa, iki illik olar. Çox adam elə bilir ki, kabab quzu əti yaxşıdı. Ancaq əslində, erkəy əti hamısından yaxşıdı.

– Vəli müəllim, hardan bilirsən ki, bu erkəyin iki yaşı olar? - Vəli müəllimin sol tərəfində əyləşən, arıq, idmançı görkəmində olan ortayaşlı şəxs soruşdu.

Vəli müəllim gülümsəyərək:

– Siz cinayətkarları axtaranda nəyə əsasən işləyirsiniz?

– Qanunlara əsasən! - Həmin şəxs cavab verdi.

– Yoldaş kapitan Səfərov, Vəli müəllim demək istəyir ki, cinayət-axtarış şöbəsinin əməkdaşları axtardığı şəxsləri necə müəyyən edirlər? - Salmanzadə izah etdi. Vəli müəllim başı ilə onun dediklərini təsdiqlədi.

Kapitan Səfərov gülümsəyərək:

– Əlamətlərini bilirik. Yaşı, görkəmi, boyu, buxunu, rəngi və s.

– Baxın, cənab axtarışçı, mən də bioloqam, bitki və heyvanların da əlamətlərinə görə, məsələn, ağacları gövdə kəsiyindəki en dairəsinin sayına, balıqları pulcuqlarına, qoyunları dişlərinə və s.-ə görə yaşlarını bilmək olur. Həm də ətdə sümüyün uzunluq, qalınlığına görə də yaşı bilmək olur. - Vəli müəllim dedi.

– Onda belə çıxır ki, bioloqlardan yaxşı dedektiv çıxar. - Səfərov gülümsəyərək söylədi.

– Yoldaş Səfərov, həm də belə çıxır ki, yaxşı hüquqşünas olmaq üçün biologiyanı yaxşı öyrənməlisən. - Salmanzadə əlavə etdi.

Oktay özünə inamla eşitdiklərindən gəldiyi qənaətə əsasən bu fikrə münasibətini bildirdi:

– Mən düşünürəm ki, nəinki hüquqşünas, elə bütün peşələrin öhdəsindən gəlmək üçün bütün elmləri, əsas da riyaziyyatı bilmək la-

zımdı. Fərz etsək ki, istənilən peşə bu həyətdirsə, bura girməyin ən asan yolu bax, o darvaza qapısıdı. Elə o qapı riyaziyyatdı.

Oktay bunları deyib, şəhadət barmağını qapıya tərəf uzatdı. Ona diqqətlə qulaq asan qonaqlar qeyri-ixtiyari çönüb onun barmağını uzatdığı tərəfə baxdılar. Onlar bir-birlərini çoxdan tanıyırdılar. Ancaq Oktayı ilk dəfə idi ki, görürdülər. Onun azad, özünə arxayın hərəkətləri, sadə və inamlı davranışları, indi isə danışıq tərzindəki qətiyyəti, səsinin avazındakı ciddiliyi qonaqlarda qəribə təsirədüşmə qüvvəsi yaratmışdı. Əslində, insanlara danışan şəxsin nitqindəki mənadan çox, o fikri nə cür, hansı tempdə deməsi daha çox təsir edir. Nitqin təsirinin altmış faizindən çoxu natiqin ritorikasından asılıdır.

Artıq Salmanzadədə də, Vəli müəllimdə də şübhə qalmamışdı ki, Oktay yüksək vəzifəli şəxsdir. Onlar ancaq özlərindən yuxarı vəzifəli şəxslərdə bu cür rahat, sərbəst danışıq və hərəkətlər müşahidə etmişdilər. Balaşın iş yoldaşı Əhmədov üçün fərqi yox idi, rəisi Salmanzadə kimə nə cür baxırdısa, o da eyni cür baxırdı. Buna vərdiş eləmişdi. Cinayət - axtarış şöbəsinin əməkdaşı Samir Səfərov Oktaya diqqətlə baxırdı. Peşəsindən irəli gələn vərdişlərin təsirindən o, Oktayı tanımaq, kəşv etmək istəyirdi. Onunla Salmanzadənin oğlu Orxanın arasında əyləşmiş daha bir qonaq var idi. Balaşın tələbə yoldaşı, qonşu rayonun polis idarəsində müstəntiq işləyən mayor Anar Fətəliyev. O, çoxdan qaynını "QAİ"-də işə düzəltdirmək istəyirdi. Dostu Balaşın Salmanzadə ilə arasının yaxşı olduğunu bilib, onları məhz belə bir məclisdə görüşdürməyi xahiş etmişdi və ona "iş" alınarsa "xəcalətindən" çıxacağına söz vermişdi. Odur ki, bayaqdan dinmir, Oktayın bu məclisdə olması onun heç ürəyincə olmamışdı. Bu "naməlum peşə" sahibindən çəkinirdi. Elə indi də onun elm və peşə haqqında dediklərindən belə başa düşdü ki, bu şəxsin yanında artıq-əskik danışmaq olmaz.

Orxan Salmanzadə başını aşağı salıb, kababları sümüyünə kimi yeyirdi. O, qurtaran kimi Balaş qabına yaxşı tikələrdən seçib, qoyurdu. Əhmədov isə rəisinin boşqabına yaxşı tikələr seçib qoyur, onun əziyyət çəkməsini "istəmirdi". Ata-bala Salmanzadələrin boşqablarında sümük yığını qalanmışdı. Orxanı Oktayın, eləcə də (,) digərlərinin nə dediyi qətiyyən maraqlandırmırdı. O, atasının onu bura niyə gə-

tirdiyini başa düşmürdü. Könülsüz gəlsə də kababları görəndən sonra hər şey yaddan çıxmışdı. Orxan Leylanı da görmüşdü. Hərdən oğrun-oğrun ona baxırdı. Ancaq kabablar gələn kimi Leyla da yaddan çıxmışdı.

Balaş çönüb sağ tərəfində oturan qardaşına baxdı. Ürəyinə qorxu düşdü. Düşündü ki, birdən Oktay içib keflənər, artıq-əskik hərəkət edər, ya söz danışar. Biabırçılıq olar. Hamı bir yana, rəisinin acığı tutar, əsəbləşər. Rəis onun oğlunun adına təşkil olunmuş qonaqlıqda qanqaraçılığı bağışlamaz. Həm də bunu uşağın imtahan qabağı uğursuzluğu kimi başa düşər, heç bağışlamaz. O, rəisini çox yaxşı tanıyırdı.

Balaş hiss etdi ki, kimsə onu çağırır. Çönüb geriyə baxdı, Sima idi. O, Oktayın əl hərəkəti ilə barmağını harasa tuşlayaraq, danışdığını görmüşdü.

Balaş məclisdəkilərdən üzr istəyib, eyvana tərəf getdi. Sima da pilləkənlərdən düşüb gəldi:

– Balaş, Oktay əl-qolu ilə nə danışır? O, bu insanların təbiətinə, qayda-qanunlarına bələd deyil, elə bilir yanında ora-bura daşıdıqları lüt "skorıpomoş" işçiləridi. Bizi biabır edər ha? - hirslə dedi.

Balaş özü də bu barədə narahat olsa da, üzə vurmadı. Gülümsəyərək dedi:

– Narahat olma, hər şey yaxşıdı. Mən nəzarət edirəm, sizdə vəziyyət necədi? Qonaqların yeməklərini bəyənir?

– Hə çox bəyənirlər. Leyla sağ olsun, mənə kömək edir. Zalım balası elə bil hüquqa yox, "poverliyə" hazırlaşıb, bir dadlı küftə, dolma bişirib ki, adam barmaqlarını yalayır. Ancaq mən öz kababımı gözləyirəm, quzu kababımı... - Sima nazlandı.

– Yaxşı quzum. Bu saat bişirtdirəcəm. Hazır olanda Leylanı göndərərsən. Uşaqlara da yemək verə bilirsən?

– Hə, yan otaqda onlara süfrə açmışam. Get, dediklərimi unutma. Oktaya nəzarət et, hörmətdən düşərik. - Sima bunları deyib, eyvana, qonaqların yanına qayıtdı.

Balaş Oktayı işarə ilə manqalın yanına çağırdı. İstədi ona nəsə desin, ancaq utandı. Quzu ətini kababa çəkməyi tapşırıb, qonaqların yanına qayıtdı.

Leyla dünən axşamdan əmisi arvadı Simaya dolma bükməkdə, salat hazırlamaqda, bütün işlərdə kömək etmişdi. Küftəni isə özü bişirmişdi. Bu gün isə demək olar ki, işin çoxunu görmüşdü. İndi qonaqlığın əsas yükünü o çəkir, tez-tez boşqabları dəyişir, kabab və xörəkləri gətirir, qonaqların istəklərini yerinə yetirirdi. Eyni zamanda, onları diqqətlə müşahidə edirdi. Birinci gəldiyi qənaət o idi ki, bura yığılan xanımlar təbii davranışlar sərgiləmirdilər. Gülüşləri, sözləri, mimikaları çox süni idi. Hətta, bir-birindən çəkinib, istədikləri kimi yemək də yemirdilər.

Artıq Leyla qonaqların adlarını və kimlərin yoldaşları olduqlarını da bilirdi. Vəfa adlı saçı kəsik, arıq, uzun xanımın yoldaşı müstəntiq idi. O özü də elə hərdən həmsöhbətlərini istintaqa çəkirmiş kimi suallar verirdi. Ancaq Vəfa məclisin başında əyləşmiş kök, ağbəniz, iri qara gözlü xanıma çox yaltaqlıq edirdi. Güləndə gülür, yeyəndə yeyirdi. Özü onun qabağına yemək çəkir, kabab seçib, qoyurdu. Ofeliya adlı bu xanım rəis arvadı idi və yeganə qonaq idi ki, heç kimi vecinə almır, istədiyindən istədiyi qədər yeyirdi. Fəridə adlı xanım alçaqboylu, kök, qarayanız idi. O da Ofeliya xanıma qulluq edirdi, ona yaxın oturduğundan, tərifləyib boşqabına dolma, salat və s. qoyurdu. Bəzən isə Vəfanın Ofeliyanın boşqabına nə isə qoymasına acıqla baxır, hətta, bir dəfə özünü saxlaya bilməyib onun qoyduğu kababı pisləyib, geri boşqaba qoydu. Qara, gödək, qırmızı dırnaqlı barmaqları ilə bel sümüyündən ibarət kabab tikəsi tapıb, tərifləyə-tərifləyə onun boşqabına qoymuşdu. Fəridənin həyat yoldaşı Ofeliyanın ərinin işçisi idi. Onlar "QAİ"də işləyirdilər. Leylanın nə isə həmişə bu "QAİ" sözündən zəhləsi gedirdi. Onlar atasını bir neçə dəfə saxlamışdılar. Leylanın xüsusi diqqətini cəlb edən nisbətən gənc, sarışın, uzunboylu, xumar gözlü, uzunsaçlı Almaz adlı qadın idi. Almaz az yeyir, az danışır, çox baxırdı. Elə bil, dedektiv idi, kimisə axtarırdı, ya nəsə itirmişdi. Ancaq ən çox yeməklərə, kabablara, salatlara baxırdı. Ya bunlarda nə isə çatışmamazlıq axtarır, ya da necə bişirildiyini öyrənmək istəyirdi. Sonralar bu xanım Leylanın yadında "axtaran" kimi qalmışdı.

Qonaqların içərisində Sara adlı, saçlarına dən düşmüş, özünü sakit, mehriban, digərlərinə nisbətən səmimi və təbii aparan, nisbətən yaşlı, orta boylu, arıq, qıvrımsaç qadın da var idi. Leylanın bu qadından xoşu gəlirdi.

O da məlum olmuşdu ki, bu qonaqlığın əsas səbəbi rəis arvadının Orxan Salmanzadə adında tez-tez tərif lədiyi oğlunun bu il hüquq fakültəsinə qəbul olmaq üçün dostların xeyir - dua verməyə yığışmasıdır. Qonaqların bu cür əcaib səbəbi Leylaya da çox təəccüblü gəlmişdi. Düşünmüşdü ki, görmüşük ki, adam imtahan verib, qəbul olar, sonra qonaqlıq edərlər. İmtahandan öncə nə qonaqlıq? Bu adam əsgərliyə gedir ki, ona əvvəlcədən qonaqlıq təşkil edirlər? Yaxşı, lap belədir, bəs, niyə onu rəis özü yox, əmim təşkil edir? Leyla öz-özünə bu sualları o qədər verirdi ki, elə bil imtahan qarşısında idi. Ancaq bu qonaqlığın səbəbinə heç cür məntiq donu geyindirə bilmirdi. Ya uzun gəlib yerə dəyirdi, ya da qısa olub ayıb görsənirdi. Elə bu adamların mahiyyətinə bənzər.

Leylanın yekun qənaətidə bu idi ki, bu qonaqlığın iştirakçıları nə isə başqa məqsədə yığışıblar. Leyla bu məqsədi tapmaq istəyirdi. Özünü gələcək zamanda, prokuror, müstəntiq yerində "görüb" müşahidələrindən nəticələr çıxarmağa başlamışdı.

Əvvəlcə Orxanın üzərində dayandı. Eyvandan, hərdən də kabab aparmaq üçün manqalın yanına gələndə arada bir onu müşahidə edirdi. Dərhal da belə nəticəyə gəldi ki, bu cür fizionomiyada olan, başını aşağı salıb, ora-bura baxmadan, dayanmadan yeyən, buxaq sallamış bir adam savadlı ola bilməz. Demək, bu oğlanı ya pulnan, ya da tapşırıq, xahişlə qəbul etdirmək istəyirlər. Tapşırıq ancaq çox yüksək vəzifəli şəxsin ola bilər. Çünki, cəmi əlli yer olacaq, nə qədər yüksək vəzifələr var respublikada. Onun atası isə elə də böyük vəzifədə deyil. Ola bilsin, çox yaxın qohumları yüksək vəzifədədir. Leyla bunları fikirləşə-fikirləşə qərara gəldi ki, bunu öyrənsin. Orxan da elə bilirdi ki, qızın ondan xoşu gəlir deyə, tez-tez ona baxırdı.

– Qızım, Leyla, nə yaman fikrə getmisən? - Ofeliya gülümsəyərək dedi.

Leyla fikirdən ayrılıb, baxdı. O da gülümsədi.

– Zəhmət olmasa, mənim boşqabımı dəyiş. Sonra isə əyləş, sən də yemək ye. Səhərdən heç nə yeməmisən. Çox əziyyət çəkmisən. Leyla ona yaxınlaşıb, qabağındakı sümük, kolbasa qabığı, dolmanın boş yarpaqları və s. dolu boşqabı götürdü və dedi:

– Siz rahat yeyin, mənim hələ aclığım yoxdu.

Onn bu sözünə məclisdəki qadınlar güldülər. Almaz gözlərini süzdürüb, gülümsəyərək dedi:

– Saat ikidi, günortadı. Bu qədər yemək - içmək var. Sən hələ acmamısan?

– Xeyr, mən çox gec acıram. Günorta istidə isə çox yemək ziyandı. Orqanizm həm isti ilə, həm də qəbul edilmiş qida ilə eyni vaxtda məşğul olub, gücə düşür. - Leyla nəzakətlə dedi.

Onun bu sözləri məclisdəkiləri pərt etdi. Ancaq heç biri biruzə vermədi. Təkcə Almaz Ofeliyaya baxıb, sonra yenə də Leyla baxdı, gülümsədi. Başını yelləyib, razılaşdığını bildirdi. Sima məclisdəki pərtliyi dərhal hiss etdi. Çox əsəbləşdi. Ürəyində "Bunlar hardan gəlib, çıxdı. Atası orada o boyda vəzifə sahiblərinə, qızı da burada arvadlarına dərs keçir", - fikirləşdi. Tez gülümsəyərək dedi:

- Siz narahat olmayın. Leyla vərdiş edib. Az yeyir, həm də yeməklərin iyi onu doyuzdurub. - Sonra Ofeliyanın dolu boşqabını dəyişdirən Leylaya üzünü tutub:

– Leyla, elə bil atan çağırır. Gör kabablardan bişən var, gətir isti-isti yeyək. Mən də əyləşirəm. Bərk acmışam.

Leyla heç nə deməyib, pilləkənlərdən enib, manqala tərəf getdi.

Ofeliya ona yaxın əyləşmiş Sara müəlliməyə tərəf əyilib, qulağına dedi:

– Bu qızdan çox xoşum gəlir, həm gözəl, incə qızdı, həm də çox ağıllı qızdı. Sən xəlvətə düşəndə soruş gör sevdiyi filan yoxdur ki... Çox istəyərəm Orxanımın bu cür həyat yoldaşı, gəlinim olsun. Atasına da göz qoyuram, çox hörmətli vəzifəli şəxsə oxşayır. Orada insanları heç vecinə almır. Üzündən də məğrurluq, sadəlik yağır. Belə nurlu, qürurlu insanlar ya yüksək vəzifəli, ya da ziyalı olurlar. Qızını çox savadlı böyüdüb.

Sara müəllimə gülümsəyərək, yavaşca pıçıldadı:

– Ofelya xanım, çox yaxşı olardı. Doğurdan da , Orxanımıza layiq qızdı. Mən Orxanın müəllliməsi kimi onun xasiyyətini bilirəm. Gərək, özü kimi aristokrat bir qızla ailə qursun. Narahat olmayın, mən Leyladan bir şey öyrənməyə çalışıram.

Eyvanda hazırlanmış süfrədə əyləşənlər çardaqdakıları görürdülər. Onların hamısının ürəyində ilk dəfə gördükləri Oktaya qarşı xoş hisslər vardı. Onun haradasa yüksək vəzifədə işlədiyini zənn edirdilər. Almazın isə ona qarşı xüsusi gizlin və xumarlı baxış atmaları olurdu. Oktay bunu hiss etməsə də, Leyla dərhal hiss etmişdi. Ürəyində o ki, var gülmüşdü. İlk fürsətdəcə bunu anasına deyib, onu cırnadacağını düşünürdü. Ağ köynək atasının nurlu simasına bir az da işıq gətirirdi. Leyla bu məclisdə bir "nur" gəzdiyini - atasını görürdü. Ciddi, işıqlı ata görürdü. Bu köynəyi iki il əvvəl Oktayı kirvə tutmuş Hidayət kirvəsi "Novruz bayramı"nda pay gətirmişdi. Səriyyə onu sandıqda saxlayır, nadir hallarda toyda-bayramda çıxardıb yoldaşına verirdi. Sonra yuyub, ütüləyib bir də yerinə qoyurdu. O, bahalı köynək idi.

Məclisdə bir cüt gözün də pünhan və oğrun, yaşarmış baxışları imkan düşəndə Samir Səfərova tərəf süzülüb gedirdi və dərhal da hamısı obyekt tərəfindən ağ cisim kimi geri əks olunurdu. Bu baxış sahibəsi Vəfa idi. Neçə vaxtdı ərindən əl çəkməyib, qardaşını işə düzəltdirmək üçün dostu Balaşdan xahiş etməyə təkid edən, bu cür məclisin ələ düşməyəcəyinə inandırıb, bura gətirdən Vəfa indi çox həyəcanlı idi. Həsrət baxışlarının eyni istiliklə geri dönməsindən məmnun olurdu, həm də özünü itirirdi. Leyla bunu da görə bilmişdi.

Sima quzu kababından bir tikə götürüb yeyə-yeyə dedi:

– Balığı qızardaq, yoxsa, kabab edək?

– Hansı balıqdandı? - Fəridə soruşdu.

– Ağ balıqdı, üç gün əvvəl Balaş sifariş verib, bərk-bərk tapşırmışdı. Pulunu da əvvəldən vermişdi. Çünki söz verirlər. Tutulan kimi müştəri çıxdı, satırlar, gözləmirlər. -Sima dedi.

– Kabab yaxşıdı. Oktay yaxşı kabab edir. Həm də istidi, qızartma yağlı olur. - Almaz dedi.

Onun bu sözlərinə Leyla az qaldı gülsün, özünü güclə saxladı.

– Hə, düzdü, kabab yaxşıdı. - Ofeliyanın rəyi müzakirəyə son qoydu.

Sima dərhal Leylaya tərəf baxıb, dedi:

– Leyla qızım, apar balıqları Oktay kabab eləsin.

Leyla atasının yanında balıq kabablarının bişməsini gözləyirdi. Onun uşaqlıqdan balıq kababından xoşu gəlirdi. Kabab bişdikcə, hərdən yağ damcıları közün üzərinə düşürdü.

– Ata, o tikəni ver yeyim. - Leyla əli ilə bişib, bir üzü qızarmış iri bir tikəyə barmağını tuşladı.

– Qızım, sən deyəsən, məni aldadırsan, doyunca yemək yeməmisən. - Oktay Leylanın gözlərinin içinə baxdı.

O, indiyə qədər və sonralarda heç vaxt atasına yalan danışmamışdı. Necə ki, atası onlara hər şeyi qısa, yığcam və düz danışmışdı. Bacılar da atalarına o cürə cavab vermişdilər.

– Yemişəm ata, hərəsindən bir tikə, mətbəxdə yemək hazırlayanda yemişəm.

– Niyə mətbəxdə? Salamat süfrədə niyə oturub yemirdin ki?

– Ata, qonaqlara qulluq lazımdı. Biri su istəyir, biri salat, digəri boşqab. Istədim ki, bu işləri mən edim. Sima xala rahat həm yemək yesin, həm də söhbət etsin.

– Yox, bu əsl səbəb deyil! Düz de! - Oktay ciddi və soyuqqanlı soruşdu.

– Ata, çox içmisən? - Leyla çəkinə-çəkinə soruşdu.

– Sən əvvəl sualıma cavab ver!

– Bilirsən ata, mən belə məclisdə birinci dəfəydi... Sıxıldım, istəsəm də otura bilməzdim. Həm də birinci dediyim səbəbdən.

– Qızım, yadında saxla, heç vaxt bir məclisdə təsirə düşmə. O belə baxar, bu nə deyər, fikirləşmə. Sənə necə rahatdırsa, o cür et, həmişəki kimi. Elə bil, heç kim yoxdu. Belə olanda, və rahat olursan. Təbii olanlar ən güclü olanlardı.

– Yaxşı, ata, indən sonra ən güclü olacam. - Leyla gülümsəyərək dedi.

Oktay əli ilə onun başını sığallayıb:

– Afərin, qızım, indi bu saat bir parça çörək gətirim, balıq kababından isti-isti ye, - Oktay bunu deyib, çardağa tərəf getdi.

– Fərman, zəhmət olmasa süfrədən bir parça çörək ver mənə!

O, çardağa elə yaxınlaşmışdı ki, ona ən yaxın elə Salmanzadəydi. Onun bu cür etinasız, soyuqqanlı, həm də nə yoldaş, nə soyadla deyil, sadəcə "Fərman", deyib, rəisə iş buyurmasını masada əyləşənlər, xüsusilə də tabeliyində işləyən Telman Əhmədzadə və Balaş elə bu cür buludsuz havada yanlarına "ildırım düşməsi" kimi qarşıladılar. Əhmədzadə təəccüblə, gözləri bərələ Balaşa baxdı və dərhal əlini uzadıb, bir parça çörək götürdü ki, Oktaya uzatsın. Ancaq rəis ondan tez tərpənmişdi. Masaüstü çörək qabını götürüb, Oktaya tərəf uzatdı. Gülümsəyərək dedi:

– Buyurun, Oktay müəllim. Çox yaxşı edirsiniz, ocağın başında isti-isti kabab yemək, ən zövqlü işdi. İstəyirsiniz, bir yüz də verim, vurun. Bu lap əla olar.

– Lap yerinə düşər. Yaxşı yadıma saldın, zəhmət olmasa, verin! - Oktay nəzakətlə dedi.

Salmanzadə bir qədəh araq süzüb, qalxıb ayağa, ona tərəf uzatdı. Oktay ona təşəkkür edib, çörək qabı ilə arağını götürüb, Leylanın yanına gəldi.

Əhmədzadə özünü itirmişdi, qızarıb, pörtmüşdü. Balaş isə həyəcandan əlləri əsir, Salmanzadənin üzünə baxmağa cürət etmirdi. Onun fikrincə, qonağı bu cür aşağılamazlar. Rəisə isə bunu heç etməzdilər. O, çönüb geri baxdı. Sima sağ əlini üzünə dayayıb, onlara baxa-baxa ayaq üstə donub, qalmışdı.

Salmanzadə artıq yüz faiz əmin idi ki, Oktay "KQB" işçisidir. Onların buradakı planlarından xəbərdardır. Onsuzda bir ildi ki, izləndiyini , hətta, otağının dinləndiyini, aldığı rüşvətlərin, yuxarı ötürmədiyi hesabların izinə düşüldüyünü hiss edirdi. Kim deyə bilərdi? - O, bunları düşünə-düşünə qorxudan və əsəbdən əlləri əsir, diqqətlə məclisdəkilərin üzünə baxırdı. Qızarmış gözlərinə gah bu, gah da digər şəxs şübhəli görsənirdi. Hamıdan şübhələnirdi, özü-özündən utanmasaydı, oğlu Orxandan da şübhələnərdi. Leyla isə atasının hərəkətlərinə gülümsəyirdi.

Oktay yalın əli ilə dört tikə balıq kababı çəkdi. Çörək kəsiklərini aralayıb, hər birinə iki tikə qoydu. Birini Leylaya verdi, birini isə özü yeməyə başladı.

– Ata, çox içmisən? - Leyla yenə sual verdi.

– Niyə soruşursan Leyla? - Oktay suala sualla cavab verdi.

– Sağlamlığına görə. - Leyla qayğı ilə dedi.

– Narahat olma, qızım, mən ümumiyyətlə, çox içə bilmirəm. Normanı keçsəm, ürəyim bulanar.

Oktay bunu deyib, gülümsədi və sonra əlindəki araq dolu qədəhi irəli uzadıb:

– Bayaqdan orada əyləşən, o kök oğlanın sağlığına içirlər. Arzu edirlər ki, hüquq fakultəsinə daxil olsun. Daha bilmirlər ki, burada daha bir hüquqşünas olmaq istəyən Həcər kimi, Nigar kimi qoçaq qız var. Sənin sağlığına! - deyib, qədəhi başına çəkdi.

– Çox sağ ol, ata. - Leyla gülümsəyərək söylədi.

– Hə, qızım, daha içməyəcəm. Bundan sonrakı artıq olar.

Leyla sevinərək:

– Nə yaxşı oldu. İnanıram sənə. Ata, bundan sonra nə qədər üz vursalar da içməyəcəksən, sözün də özün kimi bir dənədi.

– Elədir Leyla, söz verdimsə, qurtardı. - Oktay onun sözlərini təsdiq etdi.

Leyla bir az fikirləşib dedi:

– Ata, demək o kök oğlan mənim rəqiblərimdən biridi? Ancaq hiss olunur ki, o qədər də savadlı deyil.

– Bilmirəm qızım... Mənim Qaya kimi savadım yoxdur ki, onu sorğu-sual edib, biliyini yoxlayım. Ancaq onu bilirəm ki, iki dəfə imtahan verib kəsilib, bu üçüncü cəhtidi.

Leyla atasına diqqətlə qulaq asa-asa gah eyvana tərəf, gah da çardağa tərəf baxırdı. Sonra o, şəhadət barmağı və baş barmağı ilə alt dodağını ovuşdura-ovuşdura fikirləşməyə başladı.

– Qızım, nə oldu? Niyə fikrə getdin? - Oktay təəccüblə soruşdu.

– Dayan, dayan... Tapdım! - Leyla nisbətən ucadan, sevincək dedi. Çardaqdakılar çönüb, onlara tərəf baxdılar.

– Yavaş, yavaş qızım! Camaat eşidər. Nəyi tapdın? - Oktay heç nə başa düşməyərək, çiyinlərini çəkib dedi.

– Həqiqət işıqdı, onu gizləmək olmur. - Leyla dedi.

Oktay susub, onun nə deyəcəyini gözləməyə başladı. Leyla davam etdi:

– Bilirsən, ata, bu qonaqlığın səbəbi mənə çox qəribə gəlirdi. Əsl məqsədi tapmaq istəyirdim. İndi sən deyəndə ki, o buxaqlı, kök oğlan üçüncü dəfə imtahan verəcək, mənə hər şey aydın oldu.

– Qızım, əlindəki kabab soyudu, isti-isti ye, həm də başa sal görüm, sənə nə aydın oldu. Heç nə anlamıram. - Oktay kababları çevirə-çevirə dedi.

Leyla əlindəki kabab dolu dürməkdən bir tikə dişləyib, çeynəyə-çeynəyə dedi:

– O oğlanın savadı yoxdu. Buna yüz faiz əminəm. Valideynləri isə əl çəkmir ki, hüquqa daxil olsun. Bu halda iki yol var. Ya pulla, ya da tapşırıqla. Tapşırıq alınmır, ona görə ki, bu işdə daha yüksək yerdən tapşırılmalıdı. Onun rəis atası da elə yüksək vəzifəli deyil. Gördün, Qaya əmi deyirdi ki, rayonumuzun ikinci katibi dəfələrlə cəhd etsə də, oğlunu bu fakultəyə qəbul etdirə bilməyib.

– Bəlkə, daha yüksək vəzifədə işləyən yaxın qohumları var. Onlar tapşırıblar, indi də arxayındılar ki, qəbul olacaq, yeyib içirlər.

Leyla etiraz etdi:

– Xeyr ata, əvvəla elə olsaydı bu iki ildə qəbul olardı. İkincisi də doğurdan elədirsə, rəis o qonaqlığı öz evində təşkil edər, bu insanları deyil, yüksək vəzifəli tapşıran qohumu və digərlərini dəvət edərdi. Məncə, əlacları qalıb haram yolla yığdıqları pula. Bax, elə həmin pul, bu gün o işi düzəldən insana veriləcək və o puldan qonaqlıq təşkil edən qardaşına da çatacaq. Ona görə də, dünən bizim arxamızca deyil, qonaqlığa lazım olanları almaq üçün gedib əmim. Və o pul çoxdu, onu rəisin arvadı müəlliməyə verəcək, çox sadə üsulla, guya cantalarını “dəyişik” salacaqlar.

Qızına diqqətlə qulaq asan Oktay məətəl qalmışdı. O, bütün bunları haradan bilirdi...

– Qızım, Sima deyib bunları sənə? - O, qızına sual verdi.

Leyla gülümsəyərək dedi:

– Heç Sima bunları mənə deyər? Ömründə deməz! Həm də böyük ehtimalla heç Sima xala özüdə bu oyunu bilmir.

– Bəs, hardan bildin ki, qadınlar bu pulu alıb verəcək? Həm də niyə müəllimə? - Oktay yenə heyrətlə soruşdu.

Leyla növbəti dəfə dürməyindən bir dişlək götürüb, çeynəyə-çeynəyə dedi:

– Kişilərin bu işi bir-birlərinin yanında etməsi çətindi. Çantaları yox, əksəriyyəti milis işçisi və bu zamanlar daha həssas olurlar. Üzdə dost kimi görsənsələr də, bir-birlərindən sirrlərini gizlədər, qarşıdakıların sirrlərini bilməyə çalışarlar. Nə qədər əllərində dostun haqqında dəlilləri olarsa, özlərini o qədər rahat və güclü bilərlər. Rəisin arvadı ilə müəllimə yaxın oturmuşdular. Oxşar və iri qara çantaları var idi, hər ikisi oturduqları stulların qırağından yan-yana asıblar. Biri boşdu, digəri dolu. Rəisin arvadı Ofeliyanın çantası sadəcə çiyindən asılan kəməri uzundu və üst tərəfində iki ədəd kiçik, qara, düymə kimi bir şey var. Mənim diqqətimi o çantaların oxşarlığı ilk anda cəlb etmişdi, necə olurdu ki, rəis arvadı və müəllimə eyni cür çanta götürürdülər. Sima xala oradakı qadınlar haqda mənə danışıb.

– Yaxşı, deyək ki, bunlar düzdü. Niyə digər qadınlar yox, müəllimə? O pulu kimə verəcək, sadə bir insandı. - Oktay yenə saul etdi.

– Müəllimənin həyat yoldaşı məktəb direktorudu. Orada, rəisin sol tərəfində oturub. Məktəb direktorlarının həmişə ali məktəblərdəki müəllim və dekanlarla əlaqələri olur. Bunu Səfər müəllimdən və digər müəllimlərdən eşitmişəm. - Leyla dedi və sonra əlavə etdi:

– Ata, kabablar bişdi. Çək aparım.

Oktay kababları boşqaba çəkə-çəkə dedi:

– Qızım, səninlə qürur duydum. İkinci dəfədir ki, məni heyrətləndirirsən. İrəvan bazarında da sən o soğan oğruları haqında da düzgün nəticə çıxardın. İnanıram ki, gələcəkdə çox yaxşı hüquqşünas olacaqsan. Ancaq həmişə biliklərindən yaxşı işlər tərəfə istifadə et.

Leyla gülümsəyərək, kabablar olan boşqabı götürüb:

– Yaxşı ata, - deyib, eyvana tərəf getdi.

Sima pilləkənlərə qalxan Leylaya elə tərs-tərs baxırdı ki, imkan olsa, qışqırıb üstünə: “bizi biabır etdiz”, - deyərdi. Leyla onun qızarıb, pörtdüyünü gördü. Heç biri dinmədilər. Leyla balıq kabablarını iki

boşqabda masaya qoydu. Bu dəfə Vəfa tez bir yaxşı tikə götürüb, Ofeliyanın boşqabına qoydu. Fəridə yenə tərs-tərs ona baxdı, ancaq heç nə demədi. Almaz balıqdan bir tikə götürüb, bıçaqla kəsdi, bir parça ağzına qoyub : "Çox gözəl kababdı", - söylədi. Sara müəllimə də bir tikə yeyib, əlini salfetka ilə sildi, meyvə şirəsindən iki-üç qurtum içib, gülümsəyərək dedi:

– Çox dadlı balıqdı, əla da kabab olub. Digər kabablar kimi ustalıqla bişirilib.

Sonra o, üzünü Leylaya tutub, nəvazişli səslə:

– Qızım, atan Oktay müəllim belə kabab bişirməyi hardan öyrənib? Yəqin, bağ evinizdə tez-tez kabab çəkir.

Leyla gülümsəyərək dedi:

– Xeyr, bizim bağ evimiz yoxdu, kənddə yaşayırıq. Hərdən də kabab çəkəndə anam çəkirdi. Sözün düzü, mən də məətəl qaldım, atamı heç kabab çəkən görməmişdim.

– Necə yəni, siz Bakıda yaşamırsınız? - Almaz yol azmış gəminin kapitanının keçirdiyi hisslərə bənzər həyəcanın təsirilə soruşdu.

– Xeyr, atam məni imtahana gətirib. - Leyla dedi.

– Hansı fakultəyə hazırlaşmısınız? Atanız harada işləyir? - Sara müəllimə tez soruşdu.

Sima lap qızardı. Heç istəmirdi ki, bu söhbət açılsın. Leyla onun göz-qaş etdiyini gördü, ancaq nə demək istədiyini anlamadı. Sara müəlliməyə baxıb, özünə inamla dedi:

– Hüquq fakultəsinə! Atam təcili yardım sürücüsüdü.

Bu sözü eşidən məclisdəkilər hamısı ucadan, istehza ilə güldülər. Elə bil, xor gülüşü hazırlamışdılar. Ofeliyanın udduğu tikə boğazında qaldı. Onu bərk öskürək tutdu. Sara müəllimə sağ, Fəridə isə sol kürəyinə ehmalca vurmağa başladılar. Bir azdan özünə gələn Ofeliya bir-iki qurtum qazlı su içib, gəyirdi. Yaşarmış gözlərini silib, qaşqabaqlı və istehza ilə dedi:

– Sürücü qızı hara, hüquq fakultəsi hara? Heç bu barədə düşündüz?

O, sualı elə verdi ki, elə bil hüquq fakultəsi babasından qalan şəxsi mirasdı, ya da əri Fərman Salmanzadənin nəzarət etdiyi "tras" yoldu. Fəridə və Vəfa da eyni tərzdə:

– Doğurdan, hüquq fakultəsi hara, sürücü qızı hara? - sualını verdilər.

Sara müəllimə:

– Leyla, sən gərək, başqa fakultə seçərdin. Bütün məzunlar ora girmək istəyirlər. Cəmi isə əlli yer var. Rəqabət o qədərdi ki, heç nazir müavinləri ora övladlarını qəbul etdirə bilmirlər, - dedi və yan-yana Ofeliyaya baxmağa başladı. Almaz isə beynində “sürücü”, “sürücü”, “kənd”, - deyə təkrarlayırdı. Leyla isə onların simalarını müşahidə edir, qəribə reaksiyalarına baxırdı. Bu adamlar onun gözlərində dəyişib, sinif yoldaşları olurdular. Sara müəllimə məktəb direktoru olurdu, eyvan da sinif otağı. Direktor Səfər müəllim uşaqlardan bir-bir : - “hansı ixtisasa imtahan verəcəksiniz”, - deyə soruşurdu. Hərə bir cavab verirdi. Növbə Leylaya çatanda o : - “Hüquq fakultəsi” dedi. Uşaqlar xorla, istehza ilə gülüb, “Sürücü qızı, hüquq fakultəsi” deyirdilər. Səfər müəllimdə istehza ilə : - “ A bala, gərək, digər fakultələrə, ya da Naxçıvandakı instituta verib, müəllimə olaydın”, - deyirdi.

– Əşşi, gəncdi, həvəsi var, qoy versin. Zaman gələr, anlayar hər şeyi. Başqa ixtisas seçib, qəbul olar. - Simanın yarı ciddi, yarı istehzalı sözləri Leylanı fikirdən ayırıdı. O, heç nə demədi, sadəcə, məsum, inad zərrləri yayan təbəssümlə istehzalı baxışlara cavab verdi. Eynən beş-altı ay əvvəl, sinifdə olduğu kimi.

Sara əyilib Ofeliyanın qulağına pıçıldadı:

– “Hüquqa” hazırlaşıb, bildik. Sevdiyi olub olmadığını da öyrənəcəm.

Guya ki, bütün bunları özü öyrənibmiş... Ofeliya qaşqabaqlı halda : - “Nəyimizə lazımdı kimi sevir, ya sevmir”, - dedi.

Vəli müəllim üzünü məclisə tutub dedi:

– İcazənizlə, sözü verək Oktay müəllimə. Bugünkü məclisin əsas əziyyətini o çəkib, çox dadlı kababları bişirib. Oktay müəllim yeganə insanlardandı ki, ziyalılığı, peşəsi hərəkətlərindən, üzündəki nurdan bəlli olur. Mən çox inanıram ki, o hansı peşə ilə məşğul olmasından asılı olmayaraq, indi də günün əsas vaxtlarını kitablar arasında, biliklərini artırmaq, mütaliə etməklə keçirir. Bunu çox illik pedoqoji təcrübəmdən formalaşan intuisiyam deyir mənə. Buyurun, Oktay müəllim!

Oktay gülümsəyərək, ayağa qalxdı. Sakit və təmkinli səslə:

– Söz verdiyiniz üçün təşəkkür edirəm. Heç bir zəhməti yoxdu. Halal xoşunuz olsun. Qardaşımın qonaqları, mənim də əzizlərimdi. Mənim bildiyim bir şey var, bu həyatda hər bir şəxsin təcili yardıma ehtiyyacı var. İnsanın çox çətin, çıxılmaz vəziyyətində o təcili yardım vaxtında gələrsə, onun həyatını yaxşı tərəfə dəyişər. Bu təcili yardım isə hər bir insanın bəxti, şansıdı. Bəxt və şansın xeyirxahlıq və ya bəd əməllərin təsirindən çox sirli gedişləri var. Xeyirxah və savab işlər çətin vəziyyətlərdə bəxti və şansı maqnit kimi çəkib, gətirirlər.

Hamı, xüsusilə Salmanzadə ona çox diqqətlə qulaq asırdı. Balaş isə "təcili yardım" sözü eşidəndə, qızardı. "Bircə bunu deməyəydi",- deyə öz-özünə düşündü. Oktay davam elədi:

– Hər birinizə sağlamlıq, şans və uğurları çəkib gətirən xeyirxah və savab işlər arzulayıram.

Hamı əl çaldı. Eyvandakılar da çönüb baxdılar. Sima bu mənzərədən lap özündən çıxdı. Ofeliya qaşqabağını töküb, əyri-əyri baxırdı. Almazın tez alışan "kənd", "sürücü" sözündən sonra sönməyə başlayan hissləri yenidən tüstülədi. Salmanzadə:

– Afərin, Oktay müəllim, çox şey öyrəndik! - dedi.

– Mən axı, deyirdim ki, ziyalılıq insanın üzündən yağır, işığı gizlətmək olmaz. Otuz illik pedoqoji təcrübəm yanıltmadı məni. Çox sağ olun, Oktay müəllim! - Vəli müəllim dedi.

Digərləri də yerdən "Çox sağ olun, Oktay müəllim"- deyib, badələrini toqquşdurdular. Oktay da araqla yarımçıq dolu badəsini toqquşdurub, dedi:

–Onu da deyim ki, mən də sizin kimi qonağam. "Müəllim"- filan da deyiləm. Adi sürücüyəm, "təcili yardım" sürücüsü. Qızımı gətirmişəm imtahana, Leyla da hüquq fakultəsinə imtahan verəcək.

Bəzi hüquq - mühafizə işçilərində belə bir vərdiş var. Əgər kimisə pul verib, ya zəng edib tapşırıblarsa, onlara qarşı nəzakətli, gülərüz, yaxın dost kimi davranır, cinayətlərini az qala, savab iş kimi həmin şəxsin özünə belə inandırmağa başlayırlar. Yox, həbs etmək, sıxışdırıb rüşvət almaq lazımdırsa, pişiyin belinə sığal çəkməyi, şişirdib qətlə hazırlıq üçün məşq kimi qələmə verirlər. Əsas odur ki, bu tip or-

qan işçiləri bir dəqiqə içərisində belə hallar arasında yüz səksən dərəcə dəyişə bilirlər. Yəni, bir dəqiqə əvvəl sənə "qardaş" kimi baxan təbəssümlü gözlər, çönüb düşmən, cəllad kimi baxa bilir. Əks istiqamətə tez dəyişə bilən insanlar çox təhlükəli, üzləri rezinləşmiş şəxslərdi. İndi də hər şeydə öndə olan, daha tez simasını dəyişməyi bacaran, özünün rezin mahiyyəti daha yüksək dərəcəli olan, bəlkədə, buna görə yuxarı vəzifəyə sahib ola bilən rəis bir andaca dəyişdi. Əvvəlcə onun "naməlum obyektin" kimliyi bilinəndən sonra qorxu hissləri keçdi. Oturduğu stula yayxanıb, rahat nəfəs aldı, özünü bir anlıq kabinetində hiss etdi. Sonra gözlərindəki bir an əvvəlki süni hörmət, əslində isə qorxu işartıları, simasındakı rezinin "səmimiyyət", "mehribanlıq" cizgiləri əvvəl sıfırlandı, bir az sonra isə istehza, gülüş, qəzəb formaları aldı. Bu tez dəyişmə üz və gözlərdəki damarlada qan sürətini artırıb, pörtüb, qızarmaya səbəb oldu. Səs avazı da eyni formada dəyişdi.

– Necə? Sürücüsən? Həm də "skorıpomoş" sürücüsü? - sual verdi.

– Bəli! - Oktay cavab verdi.

– Həm də istəyirsən ki, qızın hüquq fakultəsinə daxil olsun? - Rəis Salmanzadə rişxəndlə, istehzalı səslə yenə sual verdi. Məclis iştirakçılarının Oktaya baxışları, Salmanzadəninki kimi dəyişdi. Yalnız Vəli müəllimin üzündə proqnozu düz çıxmayan, şah tərəfindən ölümə məhkum edilən "münəccim" kimi pərtlik, eyni zamanda, həyəcan yarandı. Bu həyəcan rəisin onun intuisiyasına şübhəli baxa biləcəyindən qaynaqlanırdı. Axı, o rəisi güclə inandırıb, Orxanın işini "həll" edə biləcəyini demişdi.

Anar Fətəliyevdə də istehza ilə yanaşı, arxayınlıq yarandı. "Əşşi, bu kimdi ki, ondan bayaqdan çəkinirəm. Gör e, sürücüdən çəkinirmişəm... Elə indicə yaxınlaşıb Salmanzadəyə qaynımın "məsələsini" xahiş edəcəm", - deyə düşünürdü. Balaş isə elə bil təzə-təzə keflənirdi. İçdiyi araqlar indi təsir edirdi.

– Bəli! - Oktay yenə qısa cavab verdi. Məclisdəkilər əlirindəki badələri yenə toqquşdurdular. Bu dəfə çox möhkəm vurdular, elə bil, Oktayın heyfini şüşələrdən çıxırdılar. Oktay isə daha əlini araq qədəhlərinə aparmadı, heç yarmçıq qalmış payını da içmədi. Axı, Leylaya söz vermişdi.

Salmanzadə arağı başına çəkib içdikdən sonra üstündən limon parçası yedi, üz-gözünü turşudub, gözünün birini də bir az qıyıb dedi:

– Mən iki ildir Orxanı o fakultəyə qəbul elətdirə bilmirəm. Özü də attestatdakı qiymətləri hamısı "beş" di. Siz necə hansı məntiqlə ora sənəd vermisiniz?

– Fərman, bir az əvvəl dedim axı, bəxt və şansın təcili yardım kimi vaxtında yetişməsi, sirli gedişləri var. Leyla o qədər zəhmət çəkib ki, indi bəxt və şans o zəhmətin dövrəsində rəqs edirlər. O mütləq istədiyinə çatacaq! - Oktay bu sözləri elə səs tonuyla, sərt baxışlarıyla, həqiqətən də belə olacağına inamla dedi ki, daha nə rəis, nə də digərləri sual verməyə çəkindilər. Onların beyinlərində "Yox, bu sürücü filan deyil, bizi aldadır," şübhəsi yenidən közərməyə başladı. Arağın təsirindən isə get-gedə alovlandı.

Qonaqlar yavaş-yavaş süfrədən çəkildilər. Bağda iki-iki, bir-bir gəzir, siqaret çəkir, söhbət edirdilər. Oktay tək, masada əvvəlki yerində oturub, samovar çayı içə-içə siqaret çəkirdi. Leyla ona baxa-baxa gülümsəyirdi.

... Onlar gedəndə qaranlıq düşmüşdü. Oktay Leylanın dediyi düyməli qara çantanı  Vəli müəllimin yanında olan müəllimədə gördü. Bir də qonaqların "kabab yaxşı bişməmişdi", "əti də yaşlı erkəy əti idi" - qeybətini eşitmişdi.

Vəli müəllim külli miqdar pula alıb, lazım yerə çatdırmış, Orxanı "qəbul etdirmişdi". Salmanzadə də Anar Fətəliyevdən pul alıb, verdiyi pulların yerini doldurmuş, onun qaynını "QAİ"-də işə düzəltmişdi. Ancaq bundan bir ay sonra rüşvət üstündə həbs edilmişdi və bu işdə uzun müddət Oktayın əli olduğundan şübhələnmişdi. Həbsxanada bu barədə çox düşünmüş, bayırda olan tək-tük ondan üz çevirməmiş qohumları vasitəsilə öyrənmişdi ki, onu satan eyni milis idarəsində işlədiyi "dostu, cinayət - axtarış şöbəsinin əməkdaşı Samir Səfərovdu. O, Balaşın təşkil etdiyi qonaqlıqda Anar Fətəliyevin rüşvətlə qaynını işə düzəltmək söhbətlərinə qualq asa bilmiş, Balaşdan ona da "pay" çatacağını demişdi. Rədd cavabı aldıqdan sonra işin üstü açılmışdı. Salmanzadə həbs olunduqdan sonra Fətəliyevin qaynını da işdən çıxardılar. Onlar da verdikləri pulu Balaşdan tələb etdilər.

Orxan Salmanzadənin hüquq fakultəsindəki tələbəliyi cəmi bir il sürdü. Yay imtahanlarında kəsilib, universitetdən qovuldu.

Leyla günlərini həyətdəki əncir ağacının altında oturub, kitab oxumaq və imtahanlara hazırlaşmaqla keçirdi. Dörd imtahanın hər birindən dörd alaraq on altı baı toplasa da, konkursa düşdü. Atasının və anasının təkidlərinə baxmayaraq, kəndə qayıtmadı. Bacısı Kəmaləylə dəmir yol vağzalı tərəfdə çox kiçik bir otaq kirayə tutub orada qalıb, gələn il imtahan verməyə hazırlaşmağa başladı. Məqsəd dəyişməmişdi, yenə də hüquq fakultəsi...

Ancaq ailənin maddi vəziyyəti çox çətin olduğu üçün onlara kirayə pulunu güclə tapıb, göndərirdilər. Hərdən də qatarla qohum-əqrəba vasitəsilə həyətlərindən olan meyvə-tərəvəz məhsulları göndərə bilirdilər. Böyük bacısı Kəmalə Bakı Dövlət Universitetinin Filalogiya fakultəsinin tələbəsi idi və hər gün dərsə gedirdi. Real vəziyyət işləyib, pul qazanmağı tələb edirdi. Leyla bunu dərhal anlamışdı. Gündüzlər işləmək, gecələr oxumaq – Leyla belə qərara gəldi və iş axtarmağa başladı.

* * *

... Leyla bu gün də evə çox yorğun gəldi. Yenə iş tapmamış, fiziki və mənəvi yorğunluğunu ümidlərinin gücü ilə çıxarmaq üçün çarpayıda uzanıb, gözlərini tavana zillənmişdi. Bu gün satıcı işləmək üçün yaxınlaşdığı mağazanın müdiri əvvəl onun ümidlərini az da olsa doğrultmağa başlamışdı. Ancaq bir az söhbət etdikdən sonra müdirin iş prinsipindəki cinayətləri – yaxşı malları gizlətmək, baha satmaq və s. işləri dərk etmiş, dərhal sağollaşıb, uzaqlaşmışdı. Digər bir mağaza müdirinin əyyaş, mənəviyyatsız olduğunu bilib, söhbəti kəsib, çıxıb getmişdi. Yenə də Bakının hər şey var olduğu, heç nəyin olmadığı küçələrində iş axtarmaqda davam etmişdi.

Elə bil, iki ay idi ki, Bakıda bütün iş yerlərinin heç birində kimsə işdən çıxmır, ya başqa işə keçmir, ya da ki, bu dünyadan köçüb, getmir! Deyəsən, heç təzə iş yeridə açılmırdı. Sanki işə qəbul, işə götürmə aləmində zaman dayanmış, hər şey sükunətdə idi. Təkcə Leyla iş yerləri ətrafında çevrə boyu fırlanırdı. Ancaq bu elə hərəkət forması idi ki, nə çevrənin mərkəzinə yaxın düşə bilirdi, nə də ondan uzaqlaşıb, çıxıb gedə bilmirdi. Eynilə yerin günəş ətrafında fırlandığı kimi...

Çox acmışdı. Durub qazın üzərindəki alüminium qazana yaxınlaşdı, qapağını açdı. İki dilim kartof, azca yeməyin çox az yağlı suyu və bir sümüklü tikə ət var idi. İstədi yeməyi qızdırsın, ancaq düşündü ki, bacısını gözləsin, onunla birlikdə yesinlər. Yeməyə baxıb, düşünməyə başladı. Ancaq aclıq üstünlük gəlməyə başladı. Gedib bir parça çörək gətirdi, kartofun bir dilimini çörəyin arasına qoydu, əzib, möhkəm sıxdı. Yemək istəyirdi ki, qapının tappıltı səsini eşitdi. Sevindi ki, bacısı tez gəldi. Ancaq bu qapı səsi fərqli idi. Bir az qulaq asdı yenə səs gəldi. Durub qapını açdı, boz pişik bir az arxaya gedib çöməlib oturdu. Ağzını, üzünü yalayıb, miyovuldadı. Leyla gülümsəyib, bir xeyli ona baxdı, yenidən qayıtdı. Çörəyi dişləmək istəyirdi ki, pişik yenə qapını cırmaqlamağa başladı. Leyla qapını açıb pişiyə, sonra isə yan-yörəyə baxmağa başladı. Həyətdəki tut ağacından bir az aralı divarın dibində biri qara, digəri isə boz pişik balalarını gördü. Yenə çöməlib oturan boz ana pişiyə baxmağa başladı. Tez qayıdıb gəldi, o bir tikə əti götürüb aparıb pişiyə atdı. Pişik istədiyini alan kimi cəld balalarının yanına qaçdı.

Qapının döyüntüsünə yuxudan oyandı. Gözünü ovuşdura-ovuşdura qapını açdı. Kəmalə gülə-gülə dedi:

– Nə bərk yatırsan bacı, deyəsən, iş tapmısan, sevincindən gəlib yatmısan.

– Yox, bacı, elə bil iş qəhətə çəkilib, yoxa çıxıb. - Leyla kədərlə dedi.

Kəmalə çantasını stolun üstünə qoyub, digər stulda əyləşib dedi:

– Canın sağ olsun, fikir eləmə, taparsan. Kaş, mən də qiyabi oxuyardım, ikimiz də iş tapıb, işləyərdik. Atamgilə də pul göndərərdik.

Kəmalə ona ürək-dirək verdi. Leyla yenə çarpayıda oturub dedi:

– İş var ki, hələ ikimiz də tapaq? Bu iki ayda getmədiyim mağaza, fabrik, müəssisə qalmadı. Heç xadimə, süpürgəçi də götürmürlər.

Leylanı diqqətlə başdan ayağa süzən Kəmalə, gülərək dedi:

– İncimə bacı, heç mən də müdir olsaydım, səni işə götürməzdim.

Leyla incik halda:

– Daha mən başqalarından niyə inciyirəm ki... Nə olub mənə? Niyə götürməzdin? - dedi.

– Bilirsən, sən heç işləyənə oxşamırsan. Əl-ayağın incə, özün nərmə-nazik. Elə bil, heç vaxt fiziki iş görməmisən. Bacı, güzgüdə özünü görəndə, işçi-müdir gözüylə bax, gör işə götürərsən? - Kəmalə bunları deyib, yenə güldü.

Leyla o yan bu yana baxıb dedi:

– Heç bu evdə salamat güzgü var ki, adam özünə baxa? Elə bil quş yuvasıdı. Düz əməlli gün də düşmür. Bu erməni Svetanı biz hardan tapdıq? Hələ buranı da bizə əlli manata verib. Svetadakı bicliyə bax e, ayrı-ayrı iki tələbə qıza qırx manata verirdi. Biləndə ki, biz bacıyıq, məcbur bir yerdə qalacıq, əlli manata verdi.

Kəmalə on-on iki kvadrat metrlik, divarları ağ emulsiya ilə rənglənmiş, iki çarpayı, bir şkaf, masa, iki stuldan ibarət otağı yeni görürmüş kimi diqqətlə nəzərdən keçirdi. Sonra təbəssümlə dedi:

– Buna da şükür. Əsas odur ki, bir yerdə qalırıq. Bizimdə soyuqda qaçıb, gəlib daldalanmağa, gecə yatmağa yerimiz var. Səni bilirsən niyə işə götürmürlər? Çünki, şahzadəyə, gülə, çiçəyə oxşayırsan.

– Yaman da şahzadəyəm, bütün günümü hamballıq üçün iş axtarıram. Ancaq gül-çiçəyi düz dedin. Getdiyim fabrik, müəssisələrin həyəti, gəzdiyim küçələrin kənarları da mənim kimi gül-çiçəklərlə, gözəl ağaclarla doludu. Elə bil, onlarda mənim kimi iş axtarır, yorulur, ya da müdiri gözləyirlər.

– Yaxşı, bacı, bu gün dərsimiz çox oldu. Saat üçdə çıxdıq, gəlib çıxana kimi lap gec oldu. Yaman acmışam. - Kəmalə dedi.

Leyla bir az düşünüb dedi:

– Bacı, bağışla, axşamdan qalan əti mən yedim, iki dilim kartofu da sənə saxlamışam. Durum qızdırım, ye.

Kəmalə təəccüblə onun sözünü kəsib dedi:

– Nə danışırsan? Nə kartof, nə ət? Onu biz sırağa gün axşam bişirmişdik. Qalanını da dünən günorta yedik.

Leyla gülümsəyib dedi:

– Yəqin, yuxuda görmüşəm.

Sonra o yuxusunu Kəmaləyə danışdı. Kəmalə qulaq asıb gülümsədi:

– Leyla sən yuxuda da xeyirxah mələk olursan. Hələ pişiyə ət verdiyin bəs eləmir, özün yediyini deyirsən. Allah səni arzularına çatdır-

sın, - dedi. Sonra ayağa qalxıb, "İndi mən yemək hazırlayaram. Sən uzan dincəl , - deyərək, əlavə etdi.

Leyla ayağa qalxıb dedi:

– Yox, sən indi gəlirsən uzan dincəl, mən hazırlayacam. Yatıb, dincəlmişəm.

Ancaq nə etdisə, Kəmalə razı olmadı. Qaldıqları bir otaqlı evin kiçik artırması var idi. Burada "qaz", köhnə soyuducu, ərzaq yığmaq üçün üç mərtəbəli, fanerkadan düzəldilmiş, kiçik şkafa oxşar bir şey var idi. Qazın böyründə isə su krantı var idi. Hamam, ayaqyolu isə bir yerdə idilər. Kəmalə soyuducunu açdı. Əslində (,) açmamışdan da bilirdi ki, orda çox şey yoxdur. Üç-dörd ədəd yumurta, iki dilim səhər yemək üçün yağ, bir tikə pendir var idi. Ərzaq şkafına baxdı, 3-4 ədəd soğan, beş ədəd kartof, bir qutu makaron var idi. Bərk acmışdı. Tələbə yoldaşlarının bəziləri dərs çox olan günlər yemək gətirirdi. Ona da təklif edirdilər, ancaq o heç vaxt bu təklifi qəbul etməzdi. Özü isə çox nadir hallarda nə isə yemək aparardı. Leyla ilə bir yerdə qalandan isə heç vaxt yemək aparmamışdı. O, makaronu çıxardıb, ağzını açdı. Bir dilim səhər yağından qazana atıb, əriməyini gözlədi. Sonra makaron, duz, töküb azca su əlavə elədi.

Ürəyində dua edə-edə Binəqədiyə gedirdi. Dünən getdiyi fabriklərdən birində qapıçı kişi ona demişdi ki, "Bünyad Sərdarov adına Maşınqayırma zavodu var. Ora böyük müəssisədi. Direktoru da yaxşı adamdı. Qardaşım orada qapıçı, gözətçi işləyir. Deyir ki, hərdən işçi lazım olur. Sən sabah get ora qızım". Leyla dərhal ünvanı, ora gedəcək avtobusların nömrəsini yazıb götürmüş, qapıçıya təşəkkür etmişdi.

Gəlib müəssisənin giriş qapısına çatdı. Arıq, bığlı, başında kepka olan əlli-əlli beş yaşlı bir kişi ona yaxınlaşıb, nə məqsədlə gəldiyini soruşdu. Leyla:

– Siz Mamed əmisiniz?

– Bəli!

– Qardaşınız bura gəlməyimi məsləhət bildi. İş axtarıram, zəhmət olmasa kadrlar şöbəsinin yerini göstərə bilərsiniz? - Leyla sual etdi. Qapıçı diqqətlə ona baxıb dedi:

– Göstərərəm qızım, ancaq nahaq yerə vaxt itirirsən. Əvvəllər işə götürürdülər. Bir aydan çoxdur ki, dayandırıblar. Kim gəlir geri qaytarırlar.

Leyla ümidini itirmədən:

– Daha bu qədər yol gəlmişəm, xahiş edirəm, göstərin yolu.

Qapıçı Mamed bir söz deməyib, qabağa düşdü. Binanın soldan ikinci qapısına yaxınlaşıb:

– Qalxarsız üçüncü mərtəbəyə, sağa çönüb 15-20 metr gedərsiniz. Otağın qapısının üzərində kadrlar şöbəsi, Saleh Əhmədov yazılıb, - dedi və dönüb öz yerinə getdi.

Hündür, ağ saçlı şöbə müdiri onu gülərüzlə qarşıladı. Leyla ona iş axtardığını dedi. Saleh Əhmədov da təxminən qapıçı Mamedin dediklərini təkrar etdi. Sonra pəncərəyə yaxınlaşıb, bayıra baxmağa başladı. Bir azdan çönüb Leylaya tərəf:

– Hiss olunur ki, rayondan gəlmisiniz. Axı, bu Bakıda nə var? Niyə qalıb valideynlərinizin yanında kənd təsərrüfatı işlərilə məşğul olmursunuz? - sual etdi.

– İmtahan verdim, keçə bilmədim! İndi işləyə-işləyə hazırlaşıb, yenidən imtahan verəcəm. - Leyla izah etdi.

– Hara imtahan vermişdiz?

– Hüquq fakultəsinə. - Leyla cavab verdi və onun istehza ilə gülməyini gözlədi. Ancaq Saleh gülmədi. Soyuq səslə:

– Heç bir iş yeri yoxdu. Doğurdan yoxdu!

Leyla ayağa qalxıb, təşəkkür etdi, naümid qapıya yaxınlaşıb açdı, bu zaman Saleh Əhmədovun səsi gəldi:

– Bir dayan qızım!

Leyla geri döndü. Saleh ona əli ilə işarə edərək, əyləşməyini göstərdi. Özüdə keçib yerində əyləşdi və dedi:

– Nə iş olsa işləyə bilərsən?

– Nə iş olsa! - Leyla cavab verdi.

– Məsələn, bizim xadiməçi analıq məzuniyyətindədi. Onun yerinə işləyə bilərsən? - Saleh Əhmədov sual verdi və diqqətlə Leylanın üzünə baxdı. Leyla dərhal cavab verdi:

– Bəli, işləyərəm!

– Bəs, gələcək prokuror, hakim bu gün otaqları, dəhlizi necə silib, süpürər? Və gələcəkdə geri qayıdıb bu keçmişi necə silə bilər?

Leyla bir az düşünüb dedi:

– Bu gün gələcək deyil, elə bu gündür! Bu gündən gələcəyə əl uzadıb, meyvə dərmək, bu dünyada oturub o biri dünyanın zəri ilə oynamaq kimi bir şeydi. Eləcə də, gələcəkdən keçmişə addım atıb, ayağını quru yerə qoya bilməzsən. Əsas da odur ki, xadiməçi işləmək ar, pis iş deyil. Ən pisi hakim, prokuror və s. olub, özü öz əməlləri ilə vicdanını kirlətməkdi. Xadiməçi neyləyir, süpürür, silir, təmizlik yaradır. Hər halda, döşəməni silib, süpürmək, vicdanı təmizləməkdən daha asandı.

Saleh Əhmədov ona çox diqqətlə qulaq asdı, sonra gözləri parladı, gülümsəyərək dedi:

– Sən çox dəyərli qızsan. Doğurdan da hüquqa hazırlaşırsan. Bir dostum var burada, ondan xahiş edəcəm, səni krançı götürsün. Ümid edirəm ki, işləyə bləcəksən.

Leyla tez dilləndi:

– Bəli, işləyərəm!

– Sözümü kəsmə, bildim ki, işləyə biləcəksən! Doğurdan indi heç bir iş yerimiz yoxdur. Mən dostumdan və direktordan xahiş edəcəm. heç vaxt xahiş etməmişəm onlardan, yəqin nəzərə alarlar. Razı olsalar üç ay şagird kimi işi öyrənəcəksən. Üç aydan sonra isə imtahan verib, işə başlayacaqsan. Razısan?

Leyla sevincdən bilmirdi ki, nə etsin. Tez dedi:

– Bəli, bəli, əlbəttə, razıyam! Siz çox yaxşı insansınız.

– Yaxşı adam olmağa bəzən bir ömür bəs eləmir. Vaxt itirmə, dur get, lazımi sənədlərini düzəlt gətir. Hə, unutmuşdum, həm də səni müəssisənin yataqxanasında qeydiyyata salacıq.

Leyla ayağa qalxdı, qulaqlarına inanmırdı. Elə bilirdi ki, dünənki kimi yuxu görür.

– Qızım, get da, niyə donub qaldın?

Saleh Əhmədovun sözü elə bil onu ayıltdı. Gülümsəyib:

– Gedirəm, Saleh müəllim. - bir daha çox sağ olun, - deyib, otaqdan çıxdı. Qapıçı Mamedə çoxlu minnətdarlıq etdi, qardaşına salam deməyi və onun adından təşəkkür etməyi xahiş etdi. Leyla hədsiz sevinirdi. Həyatda öz uğrunu qazanmışdı. Axşam bacısı Kəmalə ilə "krançı" vəzifəsini xeyli deyib, güləcəklər.

Evə sevincli gəlib çıxdı. Heç yorulmamışdı. Həyətin qapısını açıb, içəri girəndə boz pişiyin tut ağacının dibində uzanıb, balalarının da başlarını anasının qarnına qoyub, ailəlikcə yatdıqlarını gördü. Məsmənin "Xeyirxahlıq və savab işlər dünyada ən sürətlə yayılır", fikrini xatırladı və gülümsədi.

## III FƏSİL

*Burada bütün davranışlar Allah tərəfindən yaradılmış xüsusi məsafə ölçmə, istiqamət müəyyən etmə, yuva qurma, bala bəsləmə, günün uzunluğunun artıb-azalması ilə xəbərdarlıq siqnalı alma və s. kimi mükəmməl, mürəkəb mexanizmlərlə həyata keçirilir.*

* * *

*Hər uşağa valideynin sevgisi müxtəlif müstəvidə fərqli olur, ancaq mahiyyət etibarı ilə çox oxşar olur.*

* * *

*Ümumiyyəytlə, kainatda mövcud olan, izahedilməz münasibətlər sisteminin sevgisi adlandırılan insan, sözlə onun mahiyyətini aça bilməyib.*

* * *

*Həyatınızı düz gedin, kimsənin gülüb, ağlamasına görə dəyişməyin.*

* * *

*Ağıllı adamlar olub, keçənlərə təəssüf etməzlər, yalnız onlardan faydalı nəticələr çıxarar, gələcəkdə bu səhvləri etməzlər.*

* * *

*Deməli, həyatda öz yerini bilmədən 10-15 sm səhv salsan, salondakı və qanada bərkidilmiş insanların fərqi qədər müxtəlif vəziyyətlərə düşərsən.*

* * *

*Yəni, sonsuz eniş yoxdur, hər enişin sonu bir yüksəkliyin əvvəlidir.*

* * *

*Beləliklə, Allahın izni, məqsədilə halal zəhmətin, istedadın sayəsində yeddi səyyarənin yeddi sirli aləmi gerçəkləşmişdi və bu hadisə bütün zamanlarda, istənilən çətin şəraitdə zəhmət və elmin köməyilə istənilən məqsədə çatmağın mümkünsüzlüyünü göstərən, yeniyetmələrə, gənclərə faydalı örnək kimi böyük əhəmiyyətə malikdir.*

Heyvanlar aləminin elə mürəkəb davranışlar sistemi, hərəkət formaları vardır ki, onu Darvinin təkamül nəzəriyyəsilə, instinkt deyilən mexanizmlə izah etmək mümkün deyil. Bunlardan biri, maraqlısı da quşların uzaq məsafələrə uçması, geri qayıtması və yuva qurması, balalarını bəsləməsidir. Köçəri quşlardan olan qaranquşlar yazda isti ölkələrdən gəlir, adətən, insan yaşayan yerlərə yaxın ərazilərdə, bəzən isə açıq balkonların tavanlarında yuva qururlar. Erkək və dişi cütlüklər birlikdə çör-çöp gətirir, torpaqla və tüpürcəklərilə dairəvi yuva qururlar. Ora dördə qədər yumurta qoyurlar, may, iyunun əvvəllərində balalar yumurtalardan çıxır. Onlar, yuvada böyüyür, yayın axırlarında, gün uzunluğunun qısalmağa başlaması ilə qarşıdan soyuqların gəlməsi siqnalını alır, çıxıb gedirlər. Gələn il bir də həmin min kilometrlərlə yolu geri qayıdıb, gəlirlər. Burada bütün davranışlar Allah tərəfindən yaradılmış xüsusi məsafə ölçmə, istiqamət müəyyən etmə, yuva qurma, bala bəsləmə, günün uzunluğunun artıb-azalması ilə xəbərdarlıq siqnalı alma və s. kimi mükəmməl, mürəkəb mexanizmlərlə həyata keçirilir.

... May ayının axırları idi, qaranquşlar həyətdə uçuşurdular. Evin qabağındakı açıq eyvanın tavanındakı yuvada olan yumurtadan yenicə çıxmış, təzə tüklənməyə başlamış balalar qıraqları sarımtıl rəngli dimdiklərini yuxarı qaldırıb, yemək istəyirdilər. Qaranquşların özünəməxsus səsləri olurdu. Bu səslər yasəmən, qızılgül qoxuları, yam-yaşıl ağacların mehdən əsərək pıçıldaşan yarpaq səslərilə qarışıb, füsünkar, sevincli, xoş xəbərlərin gələcəyi aurası yaradırdı.

Səriyyə həyətdəki əkin sahəsində noxudların arasını kağlaya-kağlaya qaranquşların səsinə qulaq asır, hərdən onlara baxır, xəyalən özünü və Oktayı qaranquşlara, qızlarını isə qaranquş balalarına bənzədirdi. Onun fikirləri, qayğıları, arzuları ana sevgisilə bir-birlərinə

yapışaraq, eyni anda yeddi qız üçün ayrı-ayrılıqda xoşbəxt taleh, yuva qururdu. O, bu yuvaları xəyalən qurduqca, zövq alır, özünü noxud kərdilərinin arasında deyil, xüsusi yeddi ayrı-ayrı aləmlərdə hiss edirdi. Uzaq yollar gedib-gələn, baharı sevən qaranquşların səsindəki təravətli, xəyalları uzaqlara apara bilən enerji Səriyyənin qızlarının yeddi aləmdəki bəxt, taleh yuvalarına səyahət etməsinə kömək olurdu. O, bu gün özünü çox yaxşı, fərəhli hiss edirdi.

Səriyyə iki əlini kətmənin sapının qurtaracağında üst-üstə qoyaraq, çənəsini də əlinin üstünə dayayıb, qaranquşlara baxa-baxa həm dincəlir, həm də düşünürdü. Düşüncələri Leylanın üzərinə gələndə özünü narahat hiss edirdi. Sanki, suda boğulan, sahilə çıxmağa can atan, lakin səsini çıxarmadan, heç kimi köməyə çağırmadan, sağa-sola əl ataraq, getdikcə yorulan qızına heç cür kömək edə bilmirdi. Valideynlər bütün uşaqlarını çox istəyirlər. Ancaq çoxuşaqlı ailələrdə hansısa bir uşağa ana və ya ata əlavə, xüsusi hisslərlə bağlı olur. Burada çoxlu amillər : - o uşağın ata-anaya sevgisi, davranışları, xarakteri və s. rol oynaya bilir. Hansısa övlad çətinliklər, bəxtsizlik şəraitində olduqda da ona qarşı xüsusi sevgi forması, bağlantı yaranır. Ümumiyyətlə, bütün valideynlər uşaqlarına fərq qoymadan, hamısına eyni qədər sevgi bəslədiklərini desələr də, əslində, yanılırlar. Ona görə ki, eyni bir-birini təkrarlayan heç bir şey yoxdur. Hər uşağa valideynin sevgisi müxtəlif müstəvidə fərqli olur, ancaq mahiyyət etibarı ilə çox oxşar olur. Odur ki, özləri də uşaqlar, ətrafdakılar da bunu eyni cür sevgi kimi qəbul edirlər. Lakin buradakı incə və sirli fərqlər var, onu izah etməkdə sözün qüdrəti çatmır. Ümumiyyəytlə, kainatda mövcud olan, izahedilməz münasibətlər sistemini “sevgi” adlandıran insan, sözlə onun mahiyyətini aça bilməyib. Səriyyənin də qızları içərisində Leylaya əlavə xüsusi bir bağlantı ilə sevgisi vardı. Leyla artıq dördüncü dəfə imtahanlardan konkursa düşərək, universitetə qəbul ola bilməmişdi. Dörd il idi ki, Bakıda şəraitsiz bir evdə bacıları ilə qala-qala işləyirdi. Səhər tezdən durur, bir neçə avtobus dəyişərək işə gedirdi. İlk gündən onun krançı işlədiyini eşidən Səriyyə bunu özünə dərd eləmişdi. O heç cür başa düşə, qəbul edə bilmirdi ki, qız uşağı necə maşın idarə edər. Kran işlətməyi isə ümumiyyətlə, anlaya

bilmirdi, hələ də Leyla kimi zərif bir qızın bu işi necə görəcəyini axıra qədər də təsəvvür edə bilmədi. Hər yadına düşəndə, ürəyi sızlayırdı. Daha doğrusu, bu, onun hər dəqiqə yadında idi.

... Qaranquşların ucadan səsləri Səriyyəni fikirdən ayırdı. O, diqqətlə qulaq asmağa, onlara tərəf baxmağa başladı. Qaranquşlar daha ucadan, qəribə hüzünlü səslər çıxarır, hər ikisi növbə ilə alçaqdan uçur, yuvaya qonurdular. Səriyyə kətməni yerə atıb, eyvana gəldi. Diqqətlə yerə baxmağa başladı. Bir neçə dəfə olmuşdur ki, qaranquş balaları yerə düşmüş, Səriyyə onları qaldırıb yuvalarına qoymuşdu. Onda da cütlük qaranquşlar bu cür həyəcanlı səslər çıxartmışdılar. Səriyyə indi nə qədər yerə diqqətlə baxsa da, heç nə görmədi. Qıraqda qara pişiyin yuxarı baxıb, miyovuldadığını gördü. Ona elə gəldi ki, qaranquş balası yerə düşüb, pişik də yeyib, pişiyin üzərinə gələndə qaçdı. Səriyyə təəsüf hissilə yuxarı baxmağa başladı. Orada şam ağacından olan atmalar arasındakı qamış örtüyün üzərində sarı-qırmızımtıl ilanı gördü, diksindi. O, ilandan bərk qorxurdu. İlan növbəti ağac atmanı keçib yarım metrdən də az bir məsafədən yuvaya baxırdı. Səriyyə əvvəl bilmədi nə etsin, çaşıb qaldı. Az sonra, əkinə tərəf qaçıb, kətməni götürdü və geri qayıtdı. Özünü toplayıb var gücü ilə kətmənlə aşağıdan yuxarı ilanı vurdu. Cəld qırağa çəkilməsəydi, ilan başına düşəcəkdi. Düz önünə, ayaqlarının altına düşdü. Bərk qışqırdı. İlan əvvəl qıvrıldı, sonra irəli sürünməyə başladı. Səriyyənin beynində "İlan kinlidi, yaralı ilanı öldürməsəm, əvəzini çıxacaq və s." kimi eşitdikləri fikirlər sürətlə keçdi. Var gücünü toplayıb, irəli bir addım atdı və kətmənlə ard-arda iki zərbə endirdi. Onlardan biri ilanın ortasından tutdu və iki yerə böldü. Səriyyə özünü güclə eyvanda üst-üstə yığılmış kisələrin yanına çatdırıb, oturdu.

Az keçmədi ki, Oktay gəldi. Hələ də kisələrin üstə oturub, qalan Səriyyəyə təəccüblə baxa-baxa soruşdu:

– Nəsə olub, qışqırdın elə bil? Rəngin də ağarıb...

Səriyyə heç nə demədən, göz-qaş ilə döşəmədəki ikiyə bölünmüş ilanı göstərdi. Oktay gətirib ona su verdi. Sonra ilanın parçalarını aparıb, həyətdəki ayaqyolunun içinə atdı. Qayıdıb gələndə, Səriyyə artıq özünə gəlmişdi. Olanları yoldaşına danışdı. Oktay da gülüb, zarafat etdi:

– Əşşi, sən lap Zümrüd quşu balalarını xilas etmiş, əjdaha öldürmüş pəhləvansan ki...

Səriyyə gülümsəyərək dedi:

– Hə, lap pəhləvanam. Ancaq özüm də bilmədim, bunu necə bacardım. Adi vaxt olsaydı, edə bilməzdim. Bilirsən də mən ilandan necə qorxuram? Ancaq bu yaramaz, qaranquşlarımızın balalarını yemək istəyirdi. Axı, onlar hər il gör haralardan uçub, bura gəlirlər. Bu ev həm də onlarındı, o qaranquş balaları mənim də balalarımdı.

Oktay güldü və dedi:

– Sən qaranquş xilaskarı, zərif mələksən!

Oktayla Səriyyə bir-birlərini yeniyetməlikdən sevirdilər. Bu sevgi zaman keçdikcə kiçilməmiş, azalmamışdı. Əksinə, yeddi mələyin hər birinin sayəsində yeni-yeni sevgi qönçələri əmələ gəlmişdi. Qohum-əqrəbanın, dost tanışın içərisində olan, cahil təfəkkürlü insanların hər qız uşağı olduqca Oktayı Səriyyəyə qarşı nə isə söz deməyə, onun üstünə hirslənməyə və s. qızışdırmaları heç bir nəticə verməmişdi. Təhsili olmasa da (,) geniş dünya görüşünə malik olan Oktay insanı iradəsindən kənar iş üçün günahlandırmağın özünün günah olduğu qənaətində idi. Ona görə də, bu atmaca, kinayəli sözlərin heç birini eşitməzdi. Onların kökləri möhkəm, münbit torpaqda bitən qızıl gül koluna bənzəyən sevgilərini belə şeylər soldura bilməzdi. Həm də Oktay Allahın verdiyi paya ağız büzməyin, narazılıq etməyin çox axmaq iş olduğunu, günaha batmaq kimi fikirləşirdi. Başlıcası isə o, qızlarını o qədər çox istəyirdi ki, onların əvəzinə oğlan təsəvvür etmirdi. Odur ki, hər dəfə qızı olduqca onların da böyüyüb, digər qızları kimi mələklər olacağını düşünürdü və beləliklə, sevgi qızılgülündə bir qönçə də yaranırdı.

Oktayın sevgisini bütün hissləri kimi həmişə ürəyində gizlətdiyini, nadir hallarda üzə çıxardığını bilən Səriyyə, onun bu xoş sözlərindən fərəhləndi, yorğunluğu və həyəcanı tamam yox oldu. Gülümsəyərək dedi:

– Uşaqlara kartof qızartmışam, dərsdən gələndə yesinlər. İstəyirsən gətirim, ya da sənə yarpızla kükü bişirim?

– Çay gətir, alçanın altında içək. Ac deyiləm.

Onlar çay süfrəsinin arxasında oturmuşdular. Səriyyə Oktaya üzünü tutub, soruşdu. :

– Gözümə birtəhər dəyirsən. Nəsə baş verib, niyə yemək yemədin?

– Yas yerinə getmşdim, orada ehsan yedim. - Oktay fikirli cavab verdi.

– Kimin yas yerinə?

– Yadındadı, Leylanı Bakıya aparanda qatarda yol yoldaşlarımız Qaya, Məsmə haqqında danışmışdım ha...

Səriyyə onun sözünü yarımçıq saxlayıb dedi:

– Hə, hə yadımdadı. Leyla həmişə Məsmədən danışırdı. Onun qəribə, həm də çox zəkalı, mehriban bir qız olduğunu deyirdi.

– Bax, o Məsmə dünyasını dəyişib. - Oktay təəsüflə dedi.

Səriyyənin gözləri yaşardı. Bir az susub dedi:

– Allah rəhmət eləsin! Leyla onu çox istəyirdi. Yoldakı bütün hadisələri, onunla söhbətlərini danışmışdı mənə... Axı, o cavan idi, nədən rəhmətə getdi?

– Xəstə idi, Qaya onu hər yerə, bütün həkimlərə apardı, xeyri olmadı. Özü də bilirdi ki, xeyri yoxdu, ancaq aparırdı. O çox böyük insandı.

– Sən axı, yas yerlərində ehsan yeməzdin. Özü də mərhum cavan olanda, heç yeməzdin.

– Bivarislərin ehsanını yemək savabdı. Həm də Qaya çox israr etdi. - Oktay dedi və fikrə getdi. Səriyyə də susdu.

Sükutu Səriyyə pozub dedi:

– Maaşı aldın? Evdə un, çay qurtarıb. Çox şey qurtarıb. Bakıya uşaqlara da pul göndərməliyik. Anası ölmüş Leyla, o kişi işində işləməklə çatdıra bilmir. Həm kirayə, həm də ərzaq, yol pulları...

– Aldım, əlli manatını xərclədim. - Oktay başını qaldırıb, Səriyyənin üzünə baxaraq dedi.

– Nəyə xərclədin? Onda biz bu ay uşaqlara pul göndərə bilməyəcik?

– Bilirsən, maaşı almışdım, cibimdə idi. Kəndlərdən birindən zəng gəldi, getdik. Qadın uşağın birini dünyaya gətirmişdi, növbəti uşaq da gəlirdi, ancaq doğa bilmirdi. Təcili gətirdik rayona, burda da əlavə iki uşaq dünyaya gətirdi.

– Başa düşmədim, yəni əkiz uşaqları oldu? - Səriyyə maraqla soruşdu.

– Üç uşaq oldu. Qadın bir dəfəyə üç uşaq doğdu. - Oktay gülümsəyərək dedi və sonra əlavə etdi:

– Gördüm, həkimlər bir tərəfdən, tibb bacıları bir tərəfdən atadan pul istəyir. O da yazıq kasıbın biri idi. Sıxılır, çaşıb qalmışdı. Mənə də baxırdı ki, indi mən də pul istəyəcəm. Eləmədim tənbəllik, əlli manat çıxarıb verdim ona.

Səriyyə bir az fikirləşib dedi:

– Yaxşı etmisən, başqa cür neyləyə bilərdin. Allah əvəzini versin, çox savab iş görmüsən. İndi bizim bəzi ağzıgöycəklər olsaydı, kişini qızışdırardılar ki, arvadı öldürsün, üç qız birdən doğub.

– Bilirsən, biri var ki, adamın üstündə pul olmaya, onda heç nə edə bilmirsən. Ancaq vardırsa, elə hal yaranır ki, verməsən sonra özünü bağışlaya bilməzsən. - Oktay bunları deyib köks ötürdü.

Səriyyə fikirli halda dedi:

– Sən Leyla barəsində nə düşünürsən?

– Nə mənada? Başa düşmədim.

– Axı, dörd ildir ki, bu qız "hüquq" deyib, durub. Qəbul ola bilmir. İnadından da əl çəkmir. Bəlkə, yenə danışaq onunla, bu dəfə başqa fakultəyə sənəd versin. Alınmır da, zorla deyil ki...

Oktay şəhadət barmağı ilə boynunu qaşıya-qaşıya dedi:

– Bu gün elə Leylayla danışdım. Onlara da əlli manat göndərdim. Leyla yenə hüquq fakultəsinə sənəd verəcəyini dedi. Nə qədər etdimsə, fikrindən çəkindirə bilmədim.

– Allah özü kömək olsun, artıq beşinci dəfədi ki, eyni fakultəyə imtahan verəcək. Sənin etdiyin yaxşılıq, savab iş qızına yardım olar.

– Elə sən də bu gün qaranquş balalarını ilanın əlindən aldın, bu da çox savab işdi. Məncə, bu daha çox savab işdi, qızımıza köməyi daha tez olar.

Oktay bunları deyib, bir siqaret çıxarıb yandırdı. Səriyyə üzünü göyə tutub:

– Ya Allah, sən özün Leylaya kömək ol! - Sonra isə Oktaydan soruşdu.

– Yəqin ki, Məsmənin dünyasını dəyişmə xəbərini Leylaya demədin, düzdü?

– Yox, düz deyil, dedim... Məncə, bütün xəbərləri vaxtında vermək lazımdı.

– Çox pis... Gərək, deməyəydin. O çox həssas qızdı, heç nəyi unutmur.

Səriyyə ilə Oktay Leyla üçün bu cür dua etdiklərini heç vaxt ona demədilər.

Leyla atasından Məsmənin ölüm xəbərini eşidəndə, xeyli hönkür-hönkür ağladı. Məsmə ona axırıncı dəfə "Məni unutma", - demişdi. İş yaddaşları onu güclə sakitləşdirmiş, bir stəkan su vermişdilər. Onsuzda bu gün onun bəxti gətirməmişdi. Növbə rəisi onun kranın kabinəsində gizlətdiyi, macal tapan kimi oxuduğu ədəbiyyat kitabını tapıb cırmışdı. Leyla dikbaş Maqsudun bu hərəkətini heç vaxt unutmamışdı. Onu qiymətini kəsən müəllimlərlə eyni vaxtlarda xatırlamışdı. Tezdən krana qalxan kimi kitabın cırıldığını görüb, xeyli ağlamışdı. Ondan sonra da Vasya onu əsəbləşdirmişdi.

Leyla işlətdiyi kranın idarə edilməsi üçün on beş metrə qədər hündür bir yerə qalxırdı. Oradan kranın qolunun uc tərəfinə bərkidilmiş maqnit lövhələrə dəmir qirintilarını yığır, metal çəlləklərin içərisinə tökürdü. Diyircəkli çəlləklər hərəkət edərək polad əridilən yerə gətirilirdi. Kranın dəmirləri yerdən yığması üçün kranҫıya yerdən istiqamət verilirdi. Leylaya bu cür istiqamət verən Vasya, maqnit dəmir parçalarını tez və yaxşı götürməyəndə bunun günahını Leylada görürdü. Sanki, maqnitin cəzb etmə qüvvəsi Leyladan asılı imiş. Bu gün də aşağıdan yuxarı, əl-qolunu ölçə-ölçə, çığır-bağırla Leylaya nəsə deyirdi. Kitabı cırıldıqdan sonra üstəlik (,) bu "sarı milçəyin" vızıltısı Leylanı lap əsəbləşdirirdi. İndi bütün bunlardan da sonra Məsmənin ölüm xəbəri onu lap sarsıtdı. Leyla həmən gün evdə nə yemək yeyə bildi, nə də kitab oxudu.

* * *

Leyla beşinci dəfə hüquq fakultəsinə imtahan verdi. Bu dəfə istədiyinə nail oldu. Iki 4, iki 5 alaraq yüksək balla Bakı Dövlət Universitetinin (BDU) hüquq fakultəsinə daxil oldu. Bununla da ətrafda onu tanıyan "sürücü qızı hara, hüquq fakultəsi hara" deyib istehza edən,

yaxın-uzaq insanlara sübut etdi ki, insan iradəsi, zəhməti məqsədə çatmaq üçün yeganə amillərdir. Elə öz içindəki şübhə toxumlarını da məhv edə bildi, arzu dağlarının qarlı zirvələrinə çatdı. Həmin gün bir tort alıb, Kəmaləylə bu fəthi, qələbəni qeyd etdi. Səhəri gün isə bir tort alıb, dörd il işlədiyi, kran sürücüsü olduğu müəssisəyə getdi. Tanıdığı hamını torta qonaq etdi. Vasyanı da bağışladı, çay süfrəsinə çağırdı. Yalnız dikbaş Maqsudun kitab cırmasını ona bağışlamadı və o hadisəni unutmadı. Leyla ömrü boyu elmə, kitaba, həqiqətə kəm baxanları istəsə də, bağışlaya bilmədi. Axı, dikbaş Maqsud onun özünə deyil, hamı üçün xəzinə hesab edilən kitaba hörmətsizlik etmişdi.

Leyla rayona atasına maaşlarından da yığışıb, saxladığı puldan göndərdi. Bilirdi ki, anası onun hüquq fakultəsinə daxil olmasına qurban kəsmək üçün söz vermişdir. Atasının çıxılmaz vəziyyətdə qalmaması üçün öz yığa bildiyi puldan göndərmişdi.

Leyla universitetə qəbul olunan gündən dörd illik kran sürücüsü işindən uzaqlaşmışdı. O, müəssisəsdə kranın kabinəsində, dəmirləri toplayan maqnitlərdə bir sürü xatirələr, arzular yapışdırıb çıxmış, konkurslara düşdükcə keçirdiyi kədər hisslərini, istehzalı sözləri, baxışları metal çəlləklərə yığıb, poladı belə əridən, cəhənnəmə oxşayan odun içərisinə atıb, getmişdi.

Kəmalə həmin ili BDU-nun filologiya fakultəsini bitirib, öz kəndlərinə getdi. Bir neçə ay sonra ailə həyatı qurub, ucqar rayonlardan birinə köçdü. Leyla birinci kursda Xuraman adlı bir qızla, Kəmaləylə əvvəllər kirayədə yaşadığı evdə qaldı. Xuraman atasının dostunun qızı idi. Oktay Leylaya tapşırmışdı ki, ona köməklik etsin. Leyla Xuramanı əvvəl işlədiyi müəssisədə işə düzəltdi. Xuraman orada işləyə-işləyə universitetə hazırlaşıb, iki dəfə konkursa düşsə də, üçüncü il tarix fakultəsinə qəbul oldu.

Leyla universitetə qəbul olan il bacısı Həlimə də BDU-nun tarix fakultəsinə imtahan verdi, lakin konkursa düşüb, rayona qayıtdı.

Leyla birinci kursu bitirən il həm bacısı Nailə, həm də Həlimə universitetə imtahan vermək üçün Bakıya gəldilər. Nailə də Leyla kimi hüquq fakultəsini seçmişdi. Ora hazırlaşmışdı. Lakin Leylanın bu fakultədə oxuduğunu əsas gətirərək, "bir evdən iki nəfər eyni vaxtda

hüquq fakultəsində oxuya bilməz", - deyərək, onun sənədlərini qəbul etmədilər. Nailə bu dəfə də, N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu seçdi. Bacılar əvvəldən bir ixtisas seçib, əsas gücləri-ni o istiqamətdə hazırlamağa xərcləsələr də, Səriyyənin tələbləri sa-yəsində digər fənnləri də çox yaxşı oxuyurdular. Riyaziyyatı əla oxu-maq onların digər dəqiq elmləri və təbiət elmlərini öyrənməkdə kö-məklərinə gəlirdi. Elə bu səbəbdən də Nailə iki imtahandan 4, ikisin-dən isə 3 ala bildi. Lakin konkursa düşüb, qəbul olmadı. Həlimə də ikinci dəfə konkursa düşdü. Yenə kəndə qayıtmaq istəyəndə Leyla və Nailə onu getməyə qoymadılar.

Leyla dəmir yol vağzalına yaxın beş il qaldığı erməni Svetanın evindən köçdü. Xuraman qohum evində qalmağa başladı. Leyla isə bacıları ilə birlikdə Şərq Bazarına yaxın, orta şəraitli həyət evinə köç-dülər. Bu ev də şəraitinə görə baha olsa da, " 28 aprel" (indiki "28 May") metrosuna ayaqla gedib-gəlmək olurdu. Evin yiyəsi yenə də erməni idi. Ümumiyyətlə, keçən əsrin yetmiş-səksəninci illərində Ba-kıda kirayə mənzillərin çoxunu ermənilər verirdi. Bununla rahat, zəhmətsiz pul qazanırdılar və şirnikib gizli pulları ilə ancaq kirayə vermək üçün mənzillər alırdılar.

Həlimə "Ulduz" metrosuna yaxın toxuculuq fabrikində işə düzəl-di. Gündüzlər işləyir, axşamlar hazırlaşırdı. O, üçüncü il Bakı Dövlət Universitetinin tarix fakultəsinə daxil oldu. Axşam şöbəsini seçdi, gündüzlər işləməkdə davam etdi.

Nailəni Leyla "Elmlər Akademiyası" metrosu yaxınlığında kargü-zarlıq işinə düzəltdi. Bu iş üçün Bakıda qeydiyyat lazım idi. Leyla atasının Binəqədidə yaşayan kirvəsindən xahiş etdi, evlərinə qeydiy-yata saldılar. O dövrdə Bakıda yaşamaq, imtahanlara hazırlaşmaq üçün iş və qeydiyyat çox vacib idi. Əvvəla, kirayə pulunu vermək, minimum yaşayış xərclərini ödəmək üçün işləmək lazım idi. Həm də ikinci, üçüncü il imtahan vermək üçün iş stajı tələb olunurdu. İşlə-mək və Bakıda yaşamaq üçün isə qeydiyyat tələb edilirdi.

Leyla Nailə üçün institutda dərs deyən, təcrübəli müəllimlərlə da-nışıb, hazırlıq məşğələlərinə qoydu. Özü hər axşam Nailəni Tibb ins-titutuna imtahan vermək üçün hazırlığa aparıb, gətirdi. Gündüzlər isə Leyla dərsdə, Nailə öz işində olurdu. Bu cür rejim çox çətin olsa

da, qızlar bunun öhdəsindən gəlirdilər. Leyla nəinki dərslərindən geri qalmır, hətta yaxşı oxuduğu üçün onu qrup nümayəndəsi seçmişdilər. O, birinci kursdan sonuncu kursa qədər qrup nümayəndəsi olmuşdu. Nailənin də zəhməti öz bəhrəsini verdi. O, ikinci il biologiyadan 5, fizikadan 4, kimyadan 4, ədəbiyyatdan 4 qiymətlər alaraq Tibb institutuna daxil oldu.

Leyla hələ ikinci kursda oxuyanda bacılarının işləyərək qazandıqları pullardan xərcləməyi özünə sığışdırmadı. Əslində, heç bu pullar kirayə haqqına və evin bazarlığına çatmırdı. Leyla kran sürücüsü işləyəndə qənaət edib, maaşından bir az dar gün üçün pul yığmışdı və bu pullarını o vaxtlar qiymətli kağız olan istiqra şəklində saxlayırdı. Həmin istiqrazları da ikinci kursun axırlarına qədər yavaş-yavaş xərcləyib qurtardılar. Leyla özü də universitetdə əlaçı təqaüdü alırdı. O, birinci kursdan beşinci kursa qədər həm qrup nümayəndəsi, həm də əlaçı olmuş, bütün semestr imtahanlarında fənlərin hamısından beş almışdı və universiteti bitirənə qədər əlaçı təqaüdü almışdı. Ancaq bu pul da xərclərin ödənilməsinə çatmırdı.

Odur ki, Leyla yeddi il əvvəl olduğu kimi, indi də iş axtarırdı. Ancaq fərq ondaydı ki, indi tələbə idi, gündüzlər işləyə bilməzdi. Heç gecələr də işləyə bilməzdi ki, dərslərini oxumalı, semestr imtahanlarına hazırlaşmalı idi. Heç özü də bilmirdi ki, necə iş axtarır. Ancaq düşünürdü ki, mütləq iş lazımdır.

Onun iş məsələsi bu dəfə qəribə təsadüflə alındı. Kirayə qaldıqları iki mərtəbəli binada 10-a yaxın erməni ailəsi yaşayırdı. Onlar çox vaxt, əsasən də yaz, yay aylarında düşürdülər həyətə, oturub söhbət edir, ya da loto oynayırdılar. Leylagil onlarla ünsiyyət saxlamır, yalnız salamlaşırdılar. Boş vaxtlarında həyətdən çıxıb, yaxınlıqdakı parka gedib gəzirdilər. Onların qaldıqları binanın həyət hasarına bitişik hüquq məsləhətxanası var idi. Bir gün o məsləhətxananın yaşı altmışı keçmiş, qarayanız, hündür, dolu müdiri, Leylagil axşamçağı həyətin ümumi qapısından çıxıb gedəndə, onlara yaxınlaşıb dedi:

– Bağışlayın, sizi olar bir dəqiqə?

Leyla həmişə yolu üzərində gördüyü, ürəyində yaxşı bir insana bənzətdiyi bu şəxsə mülayim cavab verdi:

– Buyurun əmi, eşidirik sizi...

Kişi gülümsəyərək dedi:

– Mənim adım Hacıdı. Bu hüquq məsləhətxanasının müdiriyəm. Baxıram, həmişə sizin hərəkətlərinizə, davranışlarınıza çox ağıllı, zəhmətkeş, tərbiyyəli qızlarsınız.

Leyla gülümsəyərək dedi:

– Çox sağ olun, əmi.

– Sizi böyüdən ana, ata sağ olsun. Ancaq çoxillik intuisyam, təcrübəm mənə deyir ki, siz özünüzü ətrafdakılara imkanlı ailənin övladları kimi göstərirsiniz. Əslində isə çox ehtiyyac içərisində yaşayırsınız. Ancaq bunu heç kimə, hətta öz valideynlərinizə də demirsiniz. Ona görə ki, onlar da kasıbdılar.

Kişi danışdıqc,a Leyla ona diqqətlə qulaq asır, gah bütün bunların bu şəxsə nə dəxli olduğunu düşünür, gah da fikirləri kəndə ailəsinin yanına - indiyə qədər keçdiyi həyat yollarına gedib, gəlirdi. O doğurdan da heç vaxt çətinliyini ata-anasına deməmişdi. Onların əziyyət çəkməsinə, fikir eləməsinə heç vaxt razı olmamışdı. İkinci dəfə universitetə qəbul imtahanı verəndə dörd alıb, otaqdan qaşqabaqlı çıxanda hamının dəhlizdə gözləyən valideyn və uşaqların ona təəccüblə baxıb, "buna bax e, dörd alıb, sevinmir", - deyəndə, qəfil atasını görmüşdü. Oktay xəbərsiz kənddən gəlib, onun imtahanının nəticələrini gözləmişdi. Bunu görən Leyla lap əsəbləşib, pis olmuşdu ki, atası niyə o qədər yol gəlib, əziyyətlə dəhlizdə ayaq üstə iki-üç saat onu gözləməlidi. Əslində (,) beş alacaqdı, müəllimə əsəbləşərək ona dörd vermişdi. Çünki, Leyla digər imtahan verən şəxsin əvəzindən suallara yerdən cavab verirdi. Özünə söz versə də, elə bil imtahanlarda yadından çıxırdı. Hər dəfə yerindən imtahan verən şəxsdən əvvəl suala cavab verirdi və elə bil sualı ona verirdilər, təbii ki, bu da onsuzda aşağı qiymətverməyə bəhanə axtaran müəllimlərin əlinə fürsət verirdi. Leyla onun imtahanına gəlmiş atasından təkidlə xahiş etmişdi ki, bilet alıb geri, kəndə qayıtsın və demişdi ki, "mən biləndə ki, sən dəhlizdə, ayaq üstə gözləyirsən, tələsəcəm, fikrimi toplayıb, yaxşı cavab verə bilməyəcəm". Onun bu sözündən sonra Oktay geri - Naxçıvana qayıtmışdı...

Leyla gördü ki, Nailə ilə Həlimə də kişiyə diqqətlə qulaq asır, gah onun, gah da özünün üzünə təəccüblə baxırlar. Sual verdi:

– Siz bunları haradan bilirsiniz? Və sizə konkret nə lazımdı?

Hacı bir az pərt oldu. Ancaq özünü ələ alıb dedi:

– Dedim axı, uzun illərin peşə vərdişləri, intuisiyam sayəsində bildim. Sizin həyətdə hər gün qızlar, qadınlar yığışıb söhbət edir, loto oynayırlar. Siz onlarla yaxınlıq etmirsiniz, həm ermənilərdən xoşunuz gəlmir, həm də loto oynamağa pulunuz yoxdur və eyni lama boyunlu paltonu üç bacı, hamınız müxtəlif vaxtlarda geyinirsiz. Hamı da elə bilir ki, siz imkanlısınız, mən isə bilirəm ki, o, eyni paltodur.

Doğurdan da, Leyla komissiyonnudan boynunda lama dərisi olan, az geyilmiş, təzə qalan bir paltonu ucuz qiymətə almışdı və bacılardan hər biri onu müxtəlif vaxtlarda kimə daha çox lazımdırsa, o vaxt geyinirdi... "Hacı" adlı bu mülayim, naməlum şəxs, düz demişdi.

– Yaxşı, tutaq ki, elədir, nə olsun? - Nailə dözməyib, soruşdu.

– Mən  sizə kömək etmək istəyirəm! - Hacı ciddi görkəm alıb dedi.

Nailə ilə Həlimə Leylanın üzünə baxdılar. Leyla qaşqabağını töküb dedi:

– Necə?

– Hacı bir az düşünüb nəzakətlə dedi. :

– Baxın, siz tələbəsiniz, bacılarınız işləyirlər. Siz də axşamçağılar gəlin, bu idarədə yır-yığış edin. O qədər kar-kağız tökürlər ki, adam içndə itib, batır. Ayda altmış manat alarsınız.

Həlimə tez dilləndi:

– Çox sağ olun, lazım deyil.

Nailə isə üzünü Leylaya tutub, gəlin gedək, - dedi. Leyla:

– Çox sağ olun, Hacı müəllim, biz fikirləşib, öz qərarımızı sizə deyərik, - dedi və çıxıb getdilər.

Həmin gecə bacılar bu iş təklifini çox müzakirə etdilər. Daha doğrusu, Həlimə ilə Nailə Leylanı inandırmağa çalışdılar ki, lazım deyil, ikimiz işləyirik, sən əlli manat təqaüd alırsan, bəs edər, bir təhər ötüşərik. Leyla isə iş yerinin yaxın olduğunu və asan olduğunu əsas gətirərək qəti qərara gəldi ki, razılaşsın.

Leyla bacılarından əvvəl Bakıda qalırdı. İnsanları az çox tanıya bilirdi. O, Hacının yaxşı insan olduğu qənaətinə gəlmişdi və onun müdir olduğu idarədə işləməyin çətin olmayacağını düşünürdü. Əsas da Leyla bilirdi ki, Bakıda pulsuz qalmaq nə deməkdir. O çox belə günlər, ac-susuz zamanlar keçirmişdi. Bakının pulsuzlara güzəşt etmədiyini bilirdi. Kənddə yaşayan insanlara işıqlı, gur, qaynayan, cazibədar həyat kimi təsəvvür olunan Bakı pulsuz insanlar üçün , dumanlı, soyuq bataqlığa bənzəyirdi. Leyla üçün şüuraltı olaraq Bakı həmişəlik belə yadında qalmışdı. Odur ki, hər zaman qənaətçil və ehtiyyatlı olmuş, dumanda bataqlığa düşəcəyindən qorxmuşdu.

Leylanı bu işdən vaz keçməyə inandırmağa çalışan bacıların dəlilləri onun ağlına batmır, beynindəki "Dumanlı Bakıya" aydınlıq gətirə bilmirdi. Nailə son gülləsini atdı:

– Bacı yadındadı, birinci kursda qış imtahan sesiyalarından sonra kəndimizə getmişdin. Sən orda camaata deyəndə ki, hüquq fakultəsinə daxil olmusan, heç kim, hətta, yaxın qohum-əqrəbada inanmırdı, istehza ilə "sürücü qızı, hüquq", - deyirdilər. Sən isə tələbə biletini çıxarıb göstərirdin. Onların üzündəki ifadələr necə dəyişirdi. Özün bunları bizə demişdin, yadında?

– Hə, yadımdadı, o da yadımdadı ki, sonra onlar mənə necə "hörmət" etməyə başlamışdılar. Ancaq onların bu məsələyə nə dəxli var? Anlamadım.

Həlimə tez dilləndi:

– Bax, o adamlar bilsə ki, sən hansısa idarədə xadiməçi işləyirsən, bilirsən necə istehza və rahatlıqla gülərlər?

– Hə, Həlimə düz deyir, lap biabırçılıq olar e..., Nailə onun sözlərinə qüvvət verdi.

Leyla bir xeyli onların üzünə baxıb, başını buladı və dedi:

– Mənim bir qrup yoldaşım var. Rəhim çox imkanlı ailənin övladıdı. Dərslərə gah gəlir, gah da gəlmir. Məndən xahiş edib ki, ona jurnalda "qayıb" qoymayım. Özü də maşınla dərsə gəlir, birdən kefinə düşəndə dərsin ortasında deyir ki, "acmışam, beynimə kabab verib, özü də meşəlikdə". Tənəffüs olan kimi dərsdən qaçıb, maşınına oturur, gedib Şamaxı meşələrində, Ağsu döngələrində kabab yeyir. Bir gün o, təqaüd alanda qırx manatını mənə uzadıb, dedi ki, "al, bu

sənin payındı. Mənə qayıb qoymursan, ötüşdürürsən". Mən o pulu götürmədim, çox əsəbləşdim və ona dedim ki, birdə belə etsən, gəlmədiyin hər dərsə qayıb qoyacam. Bilirsiniz, ondan əvvəl mənim pulum qurtarmışdı, istiqrazlarımı isə Xuramana borc vermişdim. O da iki günlüyə qohum evinə getmişdi. İstəməyə də utanırdım. Təqaüd verilənə qədər mən iki günümü dörd ədəd soyutma kartofla keçirmişdim. Demək istəyirəm ki, indi biz birlikdəyik, güclənmişik, birtəhər dolanırıq. Tək, Bakıda pulsuz olmaq dəhşətdi, qorxuludu, soyuqdu. Halal zəhmətlə pul qazanmaq heç vaxt eyib deyil, xadiməçi işləmək Rəhimdən o pulu götürməkdən yaxşıdı.

O ki qaldı, siz deyən suala, bilsələr ki, mən xadiməçi işləyirəm, cahillər gülərlər, ağıllı adamlar halal zəhmətə gülməzlər. Əsas da odur ki, çirkin mənalarda gülməyi peşə edənlər, həmişə bir bəhanə tapıb güləcəklər. Həyatınızı düz gedin, kimsənin gülüb, ağlamasına görə dəyişməyin. Mən işləyəcəm, vəssalam. Mən, ancaq Allahın, bir də qanun yanında utana bilərəm!

Onun bu sözlərindən sonra sükut yarandı. Yenə sükutu Leyla pozub dedi:

– Qaya əmi haqqında sizə danışmışdım. O deyirdi ki, "Sən həyatını öz dəmir yolunla düz get, ətraf tez-tez dəyişəcək. Sən isə öz məqsədinə doğru gedib, mənzil başına çatacaqsan".

Yenə sükut yarandı. Bu dəfə sükutu Nailə pozub dedi:

– Sən deyən olsun, bacı. Mən hər gün səninlə gedib, kömək edəcəm, səni o işi görməkdə tək qoymayacam.

Bu hadisə Leyla ikinci kursu oxuyanda, yaz aylarında baş vermişdi. O, universiteti bitirənədək hüquq məsləhətxanasında xadiməçi işlədi. Nailə ilə hər gün, bəzən iki gündən bir gedib oranın təmizlik işlərini görürdülər və işləyən vaxtı pəncərələrin pərdələrini çəkirdilər ki, qonşularında qalanlar, xüsusən, ermənilər görməsinlər.

Həmin ilin yayında bacılar, lap çətin günlər yaşadılar. Leyla ikinci kursu bitirirdi, yay sessiyası imtahanlarını verirdi. Həlimə və Nailə isə qəbul imtahanlarına hazırlaşırdılar. Gecələr bir yerə yığışan bacılar heç bir-birlərilə danışmağa macal da tapmırdılar. Ancaq kitab oxuyurdular. Qaldıqları çox da böyük olmayan otaq elə bil oxu zalı

idi. Həlimə ilə Nailə gündüzlər işləyir, gecələr imtahana hazırlaşırdılar. Leyla xadiməlik işinə tək gedirdi. Pulları tamam qurtarmışdı. Evdə pomidor və qara badımcandan başqa bir şey yox idi. Bacılar demək olar ki, günorta-axşam ancaq bunları qazın üstündə kabab edib yeyirdilər. Qarınları acından quruldayanda bəhanə edib, sağa-sola gəzişir, mətbəxə keçib, qayıdırdılar ki, digərləri eşitməsinlər, hər biri bunu bilirdi və ürəklərində bir-birlərinə gülürdülər. Aclıq, ağcaqanad və isti yuxularını ərşə çəkir, səhərə kimi yata bilmirdilər. Elə bil, təbii olaraq bu şərait yaranmışdı ki, onlar imtahanlara hazırlaşsınlar. Ac insanın mədə enerjisi beyinə yönəlir və onu yaxşı işlədir. Bacılar iyirmi günə yaxın belə çətin vəziyyətdə yaşadılar. Nəticəsi isə Həlimə və Nailənin instituta daxil olması oldu. Bacılar belə çətinliklərlə həyat bataqlıqlarından keçib, zirvəyə gedirdilər.

Leyla BDU-nun üçüncü, Həlimə birinci, Nailə isə Tibb institutunun birinci kursunda oxuyur, Şərq Bazarı yaxınlıqdakı kirayə evdə qalırdılar. Dekabrın 29-u idi. Bakı yeni il (ili) qarşılamağa hazırlaşırdı. Bacılar da şəhərin ab-havasına uyğun olaraq yeni ili qarşılamaq üçün planlar tökürdülər. Əslində isə qış imtahan sessiyalarına diqqətlərini toplamış, gecə yarıyacan kitab oxuyurdular. Nailənin işi lap çətin idi. Tibb institutunun birinci kursunda anatomiya dərsləri ən ağır dərslər idi. Təkcə biləkdə olan səkkiz sümüyün latınca adını əzbərləmək hövsələ, yaddaş tələb edirdi. Axşamçağı idi, Leyla da Nailə də çox yorulmuşdular. Nailə "İnsan anatomiyası" kitabını qırağa qoyub dedi:

– Leyla, mənə elə gəlir ki, insandakı sümüklər necə bir-birilə əlaqəli, vahid sistem olub, orqanizmi bütövlükdə dik saxlayır, hərəkətini təmin edirsə, cəmiyyətdə də o cürdü. Məsələn, fəhlələr mil, dirsək said sümükləridi. Sürücülər bazu, baldır sümükləridi.

Leyla gülüb dedi:

– Bəs, hüquqşünaslar?

– Onları çiyin sümüklərinə bənzətmək olar, əl-qol hərəkətlərinə yuxarıdan nəzarət edirlər. - Nailə dedi.

– Onda onurğa sümükləri kimlərdi? Siz həkimlər? - Leyla yenə sual verdi.

– Yox, müəllimlərdi. Bütün sinirlərin çoxu ordan çıxır və ora ilə gedib-gəlir.

Leyla yenə gülüb dedi:

– Gəl, çıxaq bir az gəzək, hava alaq, qayıdarıq. Görürəm, çox yorulmusan. Bir azdan mənə də quyruq sümüyü deyəcəksən.

Nailə də gülüb dedi:

– Yaxşı, gedək hava alaq, gəzək. Ancaq gəl belə edək. Yeni il qabağıdı, gəzə-gəzə gedək Balaş əmimgilə. Mən gələndən heç bir qohum, doğma adam evinə getməmişəm. Sanki, yad bir adadayıq, elə bilirəm. Həm söhbət edərik, həm də bayramlarını təbrik edərik.

Leyla bir az düşünüb, fikrə getdi. İlk dəfə imtahana gəlib, onların bağ evində qaldığı vaxtları xatırladı.

– Hə, nə deyirsən? - Nailə bir də soruşdu.

– Bəs, Həlimə? O dərsdədi axı...

– Eybi yox, yorğun gələcək. Gəlib sakitlikdə bir az istirahət edər. Dur, biz geyinək, gedək. - Nailə bunu deyib ayağa qalxdı.

– Axı, dərslərimiz qalır, imtahanlar başlayacaq... - Leyla dedi.

– Mən xeyli oxudum. Səninki nədir, tarix, ədəbiyyat... Lenin belə gəldi, Axundov belə getdi. Dur gedək. - Nailə dedi.

– Pulumuz da yoxdu, bir şey alaq. Əliboş necə gedək?

– Ay qız, onların hər şeyi var. Bizim bir kiloqram konfeti neynirlər. Sevinsinlər ki, gələcəyin bir həkimi, bir prokuroru indinin isə konfet yox e, "şokolad" kimi qızları onlara qonaq gəliblər.

– Qayıdanda necə qayıdacıq, heç pulumuz yoxdu. - Leyla yenə getmək istəmədi.

– Vay dədə, nə qədər bəhanə gətirirsən? Əmim bizi elə gecə tək yola salar? Özü maşınla gətirər. Bizi görüb sevinəcək, bəlkə də, küsüb ki, mən iki ildi buradayam, gedib onu görmürəm. Özü də iş - güc adamıdı, gəlib bizi görə bilmir. Həm də kiçik gedib böyüyü ziyarət etməlidi. Biz gərək, çoxdan gedəydik.

– Hə, biz gərək, çoxdan gedəydik. - Leyla onun dediklərini təkrarlayıb, daha heç nə demədi, ayağa qalxıb, hazırlaşmağa başladı. Lamalı paltonu zorla, Nailəyə geyindirdi.

Şərq Bazarının yanında "Təzə Bazar" deyilən, "Bakı Sirki"nə yaxın, beşmərtəbəli binanın yanına çatanda ikisidə yorulub əldən düşmüşdülər. Leyla gülümsəyib dedi:

– Hə, Nailə, buradı.

Nailə dərindən köks ötürüb dedi:

– Çox şükür, gəlib çatdıq.  Çox uzaq yol imiş, lap nəfəsimiz kəsildi. Qaranlıq da düşdü. Qışın bu cəhətindən heç xoşum gəlmir, gözünü açıb yumursan, qaranlıq düşür. Hansı blokdu?

Leyla əli ilə işarə edərək:

– Odur, ikinci blok, beşinci mərtəbə.

– Vay dədə, hələ beşinci mərtəbəyə qalxmalıyıq? - Nailə dedi.

Onlar bloka daxil oub, pilləkənləri qalxmağa başladılar. Beşinci mərtəbəyə çatıb, sağ tərəfdəki mənzilin zəngini vurdular. Nailə üstbaşını əli ilə qaydaya salıb, paltosunun lama tüklü boynunu tumarladı və dedi:

– Lap nəfəsimiz kəsildi.

– Bəs nə bilmişdin, böyükləri ziyarət etmək elə bilirsən ki, asan işdi? - Leyla bunu deyib, gülümsədi. Sonra yenə qapının zəng düyməsini basdı.

– Leyla, gör həyatda nə qədər əziyyət çəkirik. Birini də əmimiz üçün çəkək də. Atam da eşidəcək ki, əmimizi ziyarət etmişik, sevinəcək. O, qardaşlarını çox istəyir. Ancaq doğurdan da əliboş gəlməyimiz çox pis oldu. Eybi yox, "Novruz bayramı"nda gələrik, əmimə qəşəng bir "moskovski" ağ köynək alarıq. Bu qardaşlara ağ köynəklər yaraşır.

Leyla heç nə demədi. Bacısına qulaq asa-asa yeddi il əvvəl atası ilə Novxanıda əmisinin bağ evinin darvazasını bir neçə dəfə döydükləri yadına düşdü. Axırda Oktay məcbur qalıb, yerdən daş parçası götürüb, onunla dəmir darvazanı döymüşdü. Leyla qeyri-ixtiyari olaraq yerə, sağa-sola baxmağa başladı. Nailə təəccüblə dedi:

– Bacı, nə axtarırsan yerdə? Çəkil görüm, mənim əlim yüngüldü, zəngi mən vurum.

Leyla kənara çəkilib:

– Vur! - dedi.

Nailə zəngi basıb, barmağını saxladı. Geri çəkib, yenə basıb, saxladı. Üçüncü dəfə bunu etmək istəyəndə, Leyla əli ilə onun qolundan tutub dedi:

– Olmaz! Sən nə edirsən? Ayıbdı...

– Nədən, kimdən ayıbdı? Öz əmimgilin evidi... Bir az ərköyünləşsək, zarafat etsək nolar ki? Həm də yeni il qabağıdı, hamı bir-birilə zarafat edir də...

Nailə bunları deyib, əlini yenə zəng düyməsinə tərəf uzatmaq istəyirdi ki, qapı açıldı. Sima qapıda göründü. Nailə əziz adamını görüncə sevinclə, gülə-gülə:

– Salam, axşamınız xeyir, - deyib, dəvət gözləmədən içəri keçdi. Sima geri çəkilib, ona yol verdi və sakitcə:

– Salam! - dedi.

Leyla bu buz səsi yenə eşitdi, heç dəyişməmişdi. O da Nailənin arxasınca qapıdan mənzilə keçdi. Otaqların birindən Balaş əmisi çıxdı və qapını yenidən çəkib bağladı. Həmin otaqdan səs-küy, deməkgülmək səsləri gəldi. Həm də müxtəlif cür yeməklərin qarışıq iyi bacıları vurdu. Balaş milis forması geyimində idi, elə bil işdən yeni gəlmişdi. Onu görən kimi Nailə atılıb boynunu qucaqladı, üzündən öpdü. Balaş da onun üzündən öpdü, sonra Leylayla görüşdü.

– Xoş gəlmisiniz, soyunun paltarlarınızı asın ordan, – dedi və əli ilə qapının sağ küncündəki divara bərkidilmiş, paltar asılqanını göstərdi.

Nailə paltosunu, Leyla isə kurtkasını soyunmağa başladı. Sima Balaşın çıxdığı otağın qapısını açıb, ora keçdi və qapını bağladı. Nailə qapının ağzında xeyli kişi və qadın ayaqqabılarını görüb, həm də otaqdan səs-küy, danışıq səsləri eşitdiyindən gülə-gülə dedi:

– Əmi, siz deyəsən, yeni ili indidən başlamısınız, qonaqlarınız var. Biz də sizi təbrik eləməyə gəldik. Bağışlayın ki, dərslərimiz çox olur, indiyə kimi gəlib sizi ziyarət edə bilməmişik...

Balaş gülümsəyərək dedi:

– Çox sağ olun gəlmisiniz. Elə bu gün xeyli dost, tanış da təbrikə gəliblər. Keçin, gəlin.

Bunu deyib o, evin dar dəhlizilə irəli getdi, qızlar da onun arxasınca. Sonra Balaş qapını açıb dedi:

– Leyla, siz hələlik burada əyləşin, qonaqlar çoxdan gəliblər, indilər də gedərlər. Sonra oturub, əmi-bala rahat söhbət edərik. Baxım

görüm, hələ nə edirsiz, dərsləriniz necə gedir, çətinliyiniz yoxdur ki. Sonra o, Nailəyə göz vurub zarafatla:

– Əminin balası nə yaman böyüyüb. Axırıncı dəfə kəndə gedəndə Səriyyə yaxşı süfrə açmışdı bizə. Oktayla yeyib içirdik. Onda Nailə dörd, ya beşinci sinifdə oxuyardı, həyətdəki yelləncəkdə özü üçün yellənirdi, - dedi.

– Hə, əmi, yadımdadı. - Nailə gülümsəyərək dedi.

Leyla da gülümsəməyə çalışdı və üzünü əmisinə tutaraq:

– Əmi, narahat olmayın. Siz gedin, qonaqlarınızın yanına, biz burada oturmuşuq.

– Əmi, kömək lazımdırsa, əmicanıma deyin, edərik.- Nailə dilləndi.

– Yaxşı, deyərəm.

Balaş bunu deyib, getdi. O gedəndən sonra Leyla sağ qolunun dirsəyini oturduğu stulun önündəki masaya qoyaraq, çənəsini ovcunun içinə dayayaraq Nailəyə baxmağa başladı. Nailə isə maraqla mətbəx mebelinə, tavana, oradakı lepkaların güllərinə baxırdı. Mətbəx çox zövqlə təmir edilmişdi. Nailə düşünürdü ki, belə mətbəxdə işləməyə, çay, yemək hazırlamağa nə var ki, hər şey insanın əlinin altındadır, lap iyirmi qonağı da yola salmaq olar. Əslində, bu cür şəraitli mətbəx insanı yormaz, əksinə, burada iş görmək zövq verərdi. O, xəyalən öz qaldıqları evin mətbəxi ilə buranı müqayissə etdi. Öz-özünə gülməyi tutdu, dodaqları qaçdı. Ona bayaqdan diqqətlə tamaşa edən Leyla gülümsəyərək dedi:

– Mənim bu həkim bacım, indi hansı sümükləri xəyalən kimlərə bənzədib, gülmək istəyir?

– Leyla, sümükləri yox, bu mətbəxi öz mətbəxmizlə müqayissə edib düşünürəm ki, burada işləməyə, qonaq yola salmağa nə var ki, adama zövq verər. Daha bizim mətbəx, ancaq qazın üstündə badımcan, pomidor kabab eləməyə yarayır. - Nailə dedi.

Sonra ayağa qalxıb, mətbəx mebelinə tərəf yaxınlaşdı.

– Nə edirsən? - Leyla tez soruşdu.

– Suzmuşam, çay süzüm içək. Bax, gör nə qədər çayla içməli şirniyyatlar, şokoladlar var.

– Olmaz, gəl otur yerində! - Leyla qaşqabağını töküb dedi.

– Niyə olmaz? Görmürsən, əmicanımın başı qarışıqdı qonaqlara. Nolar ki, özümüz-özümüzə çay süzəndə? - Nailə incik halda dedi.

– Otur yerində, deyim. - Leylanın bu sözündən sonra Nailə geri dönüb, əvvəlki yerində əyləşdi.

– Biz yeddi bacıyıq. Sən ancaq bizə ərk edib, öz başına evimizdə çay süzə, yemək götürüb yeyə bilərsən. O da indilikdə, sabah ailə qursaq, həmin ərk səlahiyyətləri əlli faiz azalacaq. Uşaqlar dünyaya gəlib, böyüdükdən sonra iyirmi beş faizə düşəcək. Burada isə sənin ərk səlahiyyətin bayırdakı havanın temperaturu kimi sıfırın altındadı, mənfidi. İndi isə bizim o badımcan-pomidor kababına yarayan mətbəximiz daha zəngin və möhtəşəmdi.- Leyla dedi.

Ona diqqətlə qulaq asan Nailə saata baxdı, yeddi tamam idi. Artıq on beş dəqiqə idi ki, burada idilər. Nailə heç bir söz demədi. Qapı açıldı, Sima mətbəxə gəldi. Xrustal armudu stəkanlara çay süzdü, iki konfet qabına növbənöv şokoladlar qoyub, padnosa yığdı və apardı. Ona diqqətlə tamaşa edən Nailə üzünü Leylaya tutub dedi:

– Bacı, deyəsən, ya əmim, ya da qonaqlardan kimsə əmicanımın xətrinə dəyib, yaman qaşqabaqlıdı.

– Nailə, dur gedək. - Leyla dilləndi.

– Axı, niyə, ayıb olar, əmim bizdən inciyər. Bax, çay apardılar, yəqin qonaqlar yeməklərini yeyiblər, indi də çaylarını içirlər, bir azdan gedərlər.

– Yaxşı, gözləyək, çaylarını içsinlər, mən çox səbirliyəm.

Araya sükut çökdü. Qonaqların gülüş, hərdən çəpik səsləri artıq mətbəxə gəlirdi. Bu səslərə qulaq asa-asa bacılar hərəsi öz aləmində xəyal sularında üzü günçıxana gəmi dolu arzularla üzüb gedirdilər.

Aradan xeyli keçdi. Nailənin gözü yenə divardakı saata tuşlandı. Artıq səkkizin yarısı idi, düz qırx beş dəqiqə idi ki, mətbəxdə oturmuşdular. O, qəfil ayağa qalxdı, Leyla diksindi. Gəlib pəncərənin pərdəsini aralayıb, baxdı. Qar yağmağa, külək əsməyə başlamışdı. Nailənin Bakının küləyindən heç xoşu gəlmirdi, elə bilirdi ki, külək onları bu şəhərdən qovmaq istəyir. Həmişə külək əsəndə bacıları ilə kimsəsizləşdiklərini hiss edirdi. Xüsusilə payız və qış aylarında yağışlı, qarlı soyuq küləklər onda vahimə və tənhalıq hissləri yaradırdı.

Nailə çönüb dedi:

– Leyla sən düz deyirsən. Bizim mətbəximiz çox zəngin, isti və möhtəşəmdi. Mən burada sıxılıram, üşüyürəm. Dur gedək! Sən onu da düz deyirdin ki, insan lazımlı olan yerə tez getməli, lazım olmadığı yeri isə vaxtında tərk etməlidi. Dur gedək!

Leyla bacısının çox pərt olduğunu gördü. O, özüdə pərt olmuşdu, ancaq reallıqları təbii qarşılamağa öyrənmişdi. Ayağa qalxıb:

– Gedək, narahat olma! Bir azdan öz evimizdə olacıq - nəvazişlə dedi.

– Məni bağışla, səni mən məcbur etdim bura gəlməyə. - Nailə güclə özünü ağlamaqdan saxlayaraq, pıçıldadı. Leyla gülümsəyərək zarafatla dedi:

– Yeni il qabağıdı da, hamı bir-birilə zarafat edir. Yeri getdik!

Onlar dar dəhlizi keçib qapının ağzına gəldilər. Leyla cəld kurtkasını geyindi, Ppaltonu Nailəyə uzatdı. Nailə paltonun boynundakı tüklü lama dərisinə baxanda, bir an ona elə gəldi ki, o dəri canlanır. Lama gözəl gözlərlə ona istehza ilə baxır. O, lamadan çox utandı.

– Gedirsiniz? Bağışlayın, bu dəfə başım qonaqlara qarışdı, sizinlə rahat söhbət edə bilmədim. Gələn dəfə rahat söhbət edərik, gələndə bir az tez gəlin. Yeni il keçsin, tətil günlərində gəlin, gözləyəcəm. Ancaq dərslərinizi yaxşı oxuyun ha, gələn dəfə gələndə özüm sual-cavab edəcəm sizi... - Balaş dedi.

– Yaxşı əmi, gələrik. Sağ olun, biz getdik! - Leyla dedi və Balaşla sağollaşdı.

Nailə isə lamanın gözlərinə utana-utana baxaraq, qapıdan cəld bayıra çıxdı. Nə Balaşın dediklərini eşitdi, nə də onunla əl tutub sağollaşmadı, bir söz demədi.

Binanın blokundan bayıra çıxan kimi külək qarı sürətlə üz-gözlərinə vurdu. Bayaqdan isti mətbəxdə oturmuş bacıları birdən - birə bu cür soyuq hava bərk üşütdü. Nailə dişləri-dişlərinə dəyə-dəyə dedi:

– Bacı necə gedəcik? Pulumuz yoxdu axı...

– Eşitmədin, əmin dedi ki, düşün gözləyin, gəlib maşınla aparacam. - Leyla onun paltosunun önünü düymələyə-düymələyə dedi və güldü.

– Mən piyada gedəcəm, sən o maşına minib, əminlə gedərsən. - Nailə acıqla dedi.

Leyla gülərək:

– Yaxşı zarafat etdim! Getdik!

İki bacı əl-ələ verib, Təzə Bazarın, Bakı Sirkinin yanından Şərq Bazarı istiqamətinə yola düşdülər. Külək getdikcə güclənirdi, yağan qarı üz-gözlərinə vururdu. Göz açıb, irəli baxmaq çətinləşirdi. Yer qarla ağarmışdı, səkilər sürüşkən olmuşdu. Bu səbəbdən sürətlə yerimək olmurdu. Nailə bərk-bərk Leylanın əlindən tutmuşdu. Bacardıqca sürətlə gedirdilər. Keçdikləri küçələrin əksəriyyəti qaranlıq idi. Küləklə soyuq qaranlığın ağır enerjisi ilə güclənib, Nailəni daha da vahimələndirirdi.

Bir xeyli heç biri danışmadan gedirdilər. Nailə bacısını məcbur edib, gətirdiyi üçün peşman olmuşdu. Nəhayət, o çənəsi əsə-əsə dedi:

– Bacı, bütün günahlar məndədi. Sən gəlmək istəmirdin, mən məcbur etdim.

– Nailə bu ana qədər olanlar artıq geridə qaldı. Yəni, biz zamanı geri gedib, nəyisə dəyişə bilmərik. Ağıllı adamlar olub, keçənlərə təəssüf etməzlər, yalnız onlardan faydalı nəticələr çıxarar, gələcəkdə bu səhvləri etməzlər. - Leyla qayğılı halda dedi.

– Onlar niyə elə etdilər? Axı, biz buna layiq deyildik, təmiz, saf niyyətlə getmişdik ora... - Nailə pərt və əsəbi səs tonuyla dedi.

Leyla dinmədi, o fikirləşirdi. Hələlik, hansı küçələrlə, necə gedib evlərinə çatacağını düşünürdü. Bu zamanlar Bakı küçələri çox da işıqlı olmazdı. Həm də qaranlıq tinlərdə, az gediş-gəliş olan yerlərdə tüfeyli həyat sürən, nəşə çəkən, spirtli içki qəbul edən təhlükəli adamlar da olurdu. Bu cür havalar təbiətdə yalquzaqlar, şəhərlərdə isə bu tipli insanlar üçün əlverişli sayılırdı. Leyla bunları düşündükcə, hansı küçələrin daha işıqlı, insanlarla gur olduğunu fikirləşə-fikirləşə gedirdilər. Ancaq hansı küçəni seçirdilərsə, elə bir-birinə bənzəyirdilər. Soyuq külək, qar və qaranlıq bütün küçələri vahiməli etmişdi.

– Düz demirəm, Leyla? - Nailə təkrar sual etdi.

– Bilirsən, mən düşünürəm ki, bu başımıza gələnlər iki səbəbdəndi.

– Nə səbəb? - Nailə tez soruşdu.

– Birincisi, insan təyyarənin salonunda deyil, qanadına sarılmış halda gedərsə, göydə nə hala düşər? Çox pis vəziyyətə düşər, qorxar, buz bağlayar, külək nəfəsini kəsər. Baxmayaraq ki, salonla qanadın arasında sadəcə 15-20 sm-lik metal arakəsmə, təyyarənin üz qabığı var.

– Leyla, bunu həmişə yadımda saxlayacam! Çox xoşuma gəldi. Demək, həyatda öz yerini bilmədən 15-20 sm səhv salsan, salondakı və qanada bərkidilmiş insanların fərqi qədər müxtəlif vəziyyətlərə düşərsən. Bəs ikinci nədir? - Nailə maraqla soruşdu.

Leyla gülərək dedi:

– İkinci də odur ki, biz dostlarımızı, kitabları atıb, gəldik onların qarğışına keçdik.

– Bununla qismən razıyam, kitabları atmaq, vəfasızlıq etmək, mənfi haldır və bu halda ona bərabər əks təsir yarana bilər. Ancaq bu qarğış formasında yox, kitabın mahiyyətinə uyğun olaraq, dərs vermək kimi olar. Bax, indi atıb gəldiyimiz kitablar bizə dərs verirlər, həyat dərsləri. Bütün hallarda kitablar ancaq öyrədirlər. - Nailə dedi.

Onlar beş mərtəbə bir binanın tinindən sağa burulub, yollarını davam etdirdilər. Bu küçə daha qaranlıq, bir tərəfi isə park idi. Leyla düşünmüşdü ki, bütün küçələr bir-birinə bənzəyirlərsə, elə bu kəsə yolla gedib, evə tez çatsınlar.

– Sən daha doğru fikirləşirsən kitablar haqqında. - Leyla Nailənin dediklərini təsdiqlədi və əlavə etdi.

– Bir az sürətli gedək, həm evə tez çatarıq, həm də isinərik.

Bacılar sürətlərini artırdılar. Ehtiyyatla daha iri və yeyin addımlarla getməyə başladılar.

– Bilirsən, Leyla, insanda lazımsız sümüklər də olur. Məsələn, büzdüm sümüyü. Nə vaxtlarsa quyruğun işində rolu olub, indi yararsızdı. Bax, əminin mətbəxində birdən özümüzü quyruğa və o sümüyə oxşatdım. Az qala, dəli olacaqdım, yaxşı ki, tez çıxdıq oradan... - Nailə dedi.

– Unut, o mətbəxi, evi! Allah insana unutmaq qabiliyyəti verib, yoxsa, belə hadisələrin yaratdığı gərginliklər yaşamağa imkan verməzdi. O ki, qaldı quyruq məsələlərinə, səhv düşünürsən. Əsl quyruq əminin qonaqları idilər. Səhər onu işdən çıxarsalar, nəinki evləri-

nə gəlməyəcək, zəng etməyəcək, heç küçədə görəndə salam belə verməyəcəklər. Mən onların məclislərində bir dəfə olmuşam. Kişilər bir-birlərinə yaltaqlanır, nə isə umur, xahiş edirlər. Qadınlar da həmçinin elə edirlər. Üstəlik də bir-birlərinə fors edir, bahalı əşyalarını göstərməyə çalışır, özlərini kübar, aristokrat kimi təqdim edirlər. Çəngəl-bıçağı, ortalıqdan yeməyi ədabazlıqla götürür, ağızlarını guya ceyran kimi açır, əslində isə bir uzunqulaq qədər incə su içməyi bacarmırlar. Gülüş saxta, təbəssüm süni... Çox yazıq, bədbəxt insanlardı onlar...

– Belə çıxır ki, xəstədilər? - Nailə gülərək dedi.

– Hə, bacı, acizlik və bədbəxtlik xəstələridirlər. Sən inan mənə, gələcəkdə bu cür çox xəstələr müalicə edəcəksən. Onların hamısını yığıb, bir yerə soruşsan ki, gözün anatomik qurluşu necədir, bilməyəcəklər. Hansı ki, bütün günü o gözlərini bəzəyir, baxış formalarını məşq etdirirlər. Beləliklə, sən mətbəxdə, onlar qonaqlıq süfrəsi arxasında oturmaqlarınıza baxmayaraq, fərqiniz ağ qanadlı mələklə, qara quyruqlu rəzil olub, insandan meymuna dönənlər, almazla kömür qədərdi. Məkan mahiyyəti, qiyməti dəyişməz... - Leyla söylədi.

Bacısının danışdıqlarına diqqətlə qulaq asan Nailə rahat nəfəs alıb dedi:

– Leyla, çox doğru söylədin. Yaxşı, bunları bilirdinsə, niyə əvvəldən demədin, getdik onlara?

– Demək, başqa, görmək başqa cür dərs verir. Dedim özün görəsən bu şeyləri. Həm də çox israr etdin sən...

Bir müddət heç biri danşmadı. Nailə birdən diksinmiş, qorxmuş səslə:

– Bacı, elə bil arxamızca kimsə gəlir, - dedi və onun əlini lap bərk sıxmağa başladı.

Əslində, Leyla bunu çoxdan hiss etmişdi. Ancaq bacısını qorxutmamaq üçün ona demirdi. Odur ki, son küçəni dönən kimi, sürətlə getməyin lazım olduğunu demişdi. O, çönüb geri baxdı. Bir nəfər qara paltolu, şapka papaqlı şəxs onların arxasınca gəlirdi. Leyla sakit səslə dedi:

– Gəl, bir az yavaş gedək, qoy, bizi keçib getsin. Yəqin, kimdirsə işdən, ya qonaqlıqdan gəlir...

Onlar addımlarını yavaşlatdılar. Ancaq o şəxs gəlib onları keçmədi. Təxminən on, on beş metr arxada, yavaş-yavaş gəlirdi. Bacılar bu dəfə sürətlə getməyə başladılar. Leyla yenə çönüb geri baxdı. Həmin şəxs eyni ara məsafəsiylə tez-tez gəlirdi. Növbəti binanın sonundan sol tərəfə döndülər. Bu dəfə Nailə geri çönüb baxdı.

– Bacı, yenə gəlir! - qorxmuş səs tonuyla pıçıldadı.

– Gəl, lap yavaş gedək! Qoy görək, niyə düşüb bizim arxamızca. - Leyla sakitliyini pozmadan dedi.

– Nə yavaş, gəl qaçaq, Leyla! - Nailə bunu deyib, irəli atılmaq istədi.

Leyla onun əlini bərk sıxıb, geri çəkdi, qoymadı.

– Heç vaxt kiminsə qabağından qaçma, ya kişi, ya da qadın olsun. Qaçanların yıxılma ehtimalı böyükdü.

Leyla əzmlə dedi və birdən dayanıb, cəld geri döndü. Nailənin əlini buraxıb, arxalarınca gələn şəxsə tərəf sürətli addımlarla getməyə başladı. O adam bunu gözləmirdi, çaşıb yerində durdu. Leyla onun iki metrliyində dayanıb, soyuq və cəsarətli səslə:

– Sizə nə lazımdı? Niyə arxamızca gəlirsiniz? - sual etdi.

– Sizdə bir manat olar? - Həmin şəxs cavabı sualla verdi.

– Yox, bizdə pul yoxdu. Qayıdın, öz yolunuzla gedin. - Leyla dedi.

O şəxs bir addım irəli atdı, Leylanı kifsəmiş iyə qarışmış araq iyi vurdu və bir addım geri çəkildi. Naməlum adam da bir addım yaxınlaşdı. Elə bu zaman düz sol qulağının dibindən möhkəm çanta zərbəsi dəydi. Nailə onu qorxudan elə möhkəm vurmuşdu ki, naməlum adamın papağı yerə düşdü, özü isə müvazinətini saxlaya bilməyib, sağ böyrü üstə yerə yıxıldı. Leyla tez Nailənin əlindən tutub -) "Qaçaq!", - dedi.

Var gücləri ilə qaçırdılar. Tez-tez binaların aralarından sağa, sola yollarını dəyişirdilər. Nəhayət, gəlib, evlərinə yaxın tanış, nisbətən işıqlı küçəyə çıxmışdılar. Evə çatanda təngnəfəs olmuş, tamam əldən düşmüşdülər. Leyla irəlidə gedib, qapını açdı, işığı yandırdı. Nailə tövşüyə-tövşüyə:

– Şükür Allaha öz evimizə, kitablarımızın yanına çatdıq, - dedi və cəld paltosunu çıxarmağa başladı.

Leyla da kurtkasını soyuna-soyuna gülümsəyərək dedi:

– Hə, Nailə, çox şükür, sağ-salamat gəlib çıxdıq! Sən gedəndə necə deyirdin? “Bacı , əslində , biz ora çoxdan getməliydik...”- Leyla güldü.

Nailə də güldü:

– Yaman sirli gediş, gəliş oldu. Həm də yadda qalan hadisələr oldu. Çox istilənmişəm, yorulmuşam. - Bunu deyib o, paltosunu yerindən asdı və çarpayıya arxası üstə uzandı.

– Gəl, səndə bir az uzan, dincələk! - Leylaya - dedi. Leyla gülümsəyərək söylədi:

– Yaxşı, qoy, bir çay təşkil edim, bir az dincələk, - dedi və divardakı zəngli saata baxdı. Saat doqquz idi.

– Hə, çay yaxşı olar, bir azdan Həlimə də gələcək. Indi o da yorulub, üşüyüb. – Nailə dedi. Sonra gülərək bildirdi :

– Yaman qaçırdın ha, bəs, deyirdin adam heç kimin qabağından qaçmaz?

Leyla da güldü:

– Söhbət normal, ağlı başında olan insandan gedir da. Dəli, kefli adamın qabağında durmaq ağılsızlıqdı. Özü də hələ ona vurduqdan, qıcıqlandırdıqdan sonra lap ağılsızlıqdı.

Sonra Leyla lap bərkdən gülüb dedi:

– Sən o yazığı necə vurdunsa, yıxıldı, çantanda elə bil daş var idi...

Nailə də gülüb dedi:

– Anam Bakıya gələndə verdiyi ətir vardı ha, Həliməylə vurub qurtardız, bax , onun boş şüşəsini atmamışam. Həmişə çantamda olur, özü də boş olsa da, qəşəng qoxusu gəlir. Demə, həm də qəşəng soyuq “silah” imiş. Qorxudan var gücümlə vurdum e!

Hər ikisi möhkəm güldülər. Leyla dedi:

– O yazıq bizdən bir manat müalicəsi üçün dərman pulu istəyirdi da, nahaq vurdum.

– Lap ölüdən can istəyirmiş ki...- Nailə bunu deyib, yenə güldü. Sonra əlavə etdi:

– Nə dərman, lap spirt qoxurdu, araq almaq üçün pul istəyirdi.

– Nailə, o özünü elə vəziyyətə salıb ki, indi artıq araq onun üçün elə dərman deməkdi. Daha kefindən yox, məcburiyyətdən içir. Artıq xroniki içki düşkünü olub. Nə isə, Allah özü kömək olsun ona da, bizə də. Yaxşı, bu qız niyə gəlib çıxmadı? - Leyla nigarançılıqla dilləndi.

– Yəqin, bu gün dərsləri çoxdu. Saat 10-a gəlib çıxar. Biz yenə birlikdə gəlirdik, Həlimə tək, bu cür havada necə gələcək? - Nailə də nigarançılığını ifadə etdi.

– Onun yol pulusu var idi. Cəmi bir manatım var idi, Həliməyə vermişdim ki, yol pulu eləsin. Avtobus bura yaxınlıqdakı dayanacaqdan keçir. - Leyla onu sakitləşdirmək üçün söyləri.

Sonra çayniki götürdü ki, təzə çay dəmləsin. Çay qutusuna baxdı, çay qurtarmışdı. Məcbur qalıb, bu gün tezdəndən iki dəfə içilib, yenidən dəmlənən çayın üzərinə qaynar su tökdü. Qaz peçinin üzərinə qoyub, gözləməyə başladı. Bir az sonra iki stəkan çay süzüb, masanın üzərinə qoydu və Nailəyə tərəf:

– Dur gəl, çay hazırdı - dedi. Nailə gəlib çaya baxa-baxa gülümsədi və bildirdi :

– Bacı, bu “xoruz pipiyi” yox, qorxudan rəngi qaçmış çaydı ki... Elə bil, bizimlə bərabər küçədə qaçıb.

– Nailə, buna da şükür elə, əsas odur ki, öz çayımızdı. Özümüzə nə məxsusdursa, çox dəyərlidi. İkincisi də, bir söz deyim, insan çox naşükürdü. Bax, cəmi yarım saat əvvəl biz soyuqda idik, arxamızca naməlum adam gəlirdi, biz qorxurduq. Onda ikimizdə ürəyimizdə Allaha yalvarıb, kömək istəyir, evə çatmağımızı xoşbəxtlik hesab edirdik. İndii isə rahat, isti evimizdəyik, ancaq çayın rəngi xoşumuza gəlmir. Bax, insan təbiəti belədi. - Leyla bunları deyib, çaydan bir qurtum içdi.

Nailə də çayından içib dedi:

– Yox, bacı, naşükürlük etmirəm. Sadəcə, rəngi əlverişsizdi, yazığın dili olsa deyər : “Ta bəsdirin, məni nə qədər dəmliyəcəksiz” - Nailə bunları deyib, gülümsədi. Çayından bir qurtum da içib dedi:

– Çox suzmuşdum, indi “badamlı” ya “sirab” olsaydı, bir şüşəsini tək içərdim. Leyla, bu qış sessiya imtahanlarını verək, mənədə iş tapaq. Dərsdən sonra işləyəcəm.

Leyla Nailənin bu fikrinə etiraz etdi. Dərslərinin ağır olduğunu dedi. Ancaq Nailə çətin dolandıqlarını, bütün yükün əziyyətin Həlimənin üzərinə düşdüyünü əsas gətirib, fikrində qəti olduğunu bildirdi. Qış imtahanları bitdikdən sonra iş axtarsa da, tapa bilmədi. Yay-

da köhnə iş yerində az maaşa axşamlar işləmək üçün razılaşdı. İkinci kursdan institutu bitirənəcən axşamlar orada işlədi.

– Yaxşı, bacı, bu "limonlu" çayı içdik, bəs, nə yeyək, yaman acam, elə bilirəm, səndə acsan. - Leyla dedi.

– Hə, çox acmışam, ancaq yeməyə heç nə yoxdur ki...

Araya sükut çökdü. Yalnız qaz peçinin "xorultulu" səsi və üzərindəki çaydanın ruhu xəyallara aparan "simfoniyası" eşidilirdi. Nailə ayağa qalxıb, çörək tabağına baxdı, boş idi. Tabağın böyründə kağız kulok var idi. Sevincək dedi:

– Leyla tapdım! İndicə sevimli kababımızdan edəcəm.

Sonra soyuducunu açıb, səhər yeməyindən qalmış iki dilim kərə yağını götürdü. Suxari olmuş çörək parçalarını peçin üstünə düzdü. Bir üzü qızaranda, digər üzünü çevirdi. Bacılar çox belə günlər keçirmişdilər. Qızarmış isti çörək suxarılarının üzərinə yağ çəkib, yeyərək mədələrini aldatmışdılar. Nailə bir üzü qızarmış quru çörək parçasını elə ehtiyyat və həvəslə çevirirdi ki, elə bil doğurdan da quzu əti kababı bişirirdi. Leyla qıraqdan tamaşa edib, gülümsəyirdi.

Ev telefonuna əvvəl çox qısa, sonra isə uzun zəng gəldi. Leyla Nailəyə baxıb:

– Bu rayon zənginə oxşayır - dedi və cəld qalxıb telefonun dəstəyini götürdü:

– Salam qızım, hansınızsız?

Qızların səsi çox oxşadığından Səriyyə onları çox vaxt ayırd edə bilmirdi.

– Salam, ana, mənəm, Leyla. Necəsiniz, atam, uşaqlar necədi?

– Biz yaxşıyıq, siz neynirsiniz? Bacıların necədir?

– Hamımız yaxşıyıq, imtahanlara hazırlaşırıq. Sənin bu "riyaziyyatın" bizi oyuna salıb. - Leyla dedi və güldü.

Səriyyə qızının zarafatına zarafatla cavab verdi:

– Qohum - əqrəban həmişə atana, mənə deyirdilər ki, niyə iki hektar üzüm bağı götürüb, bu qızları orda işlətmirsiniz. Hər il beş-on min manat mükafat alardız, indi sizdən varlı ailə olmazdı. Bax o "riyaziyyatın" sayəsində Bakıda oxuyursunuz.

Leyla güldü. Səriyyə sual etdi:

– Həlimə gəlib dərsədn?

– Hə gəlib...- Leyla yalandan dedi. Kəkələməyindən Səriyyə o dəqiqə hiss etdi ki, narahat olmasınlar deyə, yalan deyir. Odur ki, tez dedi:

– Çağır görüm, telefona.

– Hamamdadı, yuyunur. - Leyla yenə yalan dedi.

Səriyyə əsəbləşdi:

– Bu vaxta qədər dərs olar? Mən heç axşamlar dərsə getməyi bəyənmədim. Uşaqlardan muğayyat ol!

– Yaxşı, ana. Narahat olma!

– Atan hələ maaş almayıb. Əgər sabah olsa, sizə pul göndərəcək. Bu gün nə yediz? Yeni il keçirməyə az da olsa, pulunuz var? - Səriyyə qayğılı halda soruşdu.

– Atama de, narahat olmasın, hər şeyimiz var, yeni il üçün də bayram bazarlığı etmişik. Bu gün tezdən quzu əti almışdıq, Nailə indi ondan peçin üstündə kabab edir. Həlimə də beş-on dəqiqəyə harda olsa gələcək, oturub bir yerdə yeyəcik. Bizdən heç narahat olma, ana! Atama və uşaqlara salam de! - Leyla qızara-qızara bunları dedi.

–Yaxşı, deyərəm. Səndə bacılarına salam de. Sağ ol, gecəniz xeyrə qalsın!

– Xeyrə qarşı. - Leyla deyib, dəstəyi yerinə qoydu və dərindən nəfəs aldı.

Nailə özünü bayaqdan gülməkdən güclə saxlamışdı. İndi gülməyə başladı və dedi:

– Ay Leyla, gəl görək, "quzu" kababların bişdi.

Onlar qızarmış, isti çörək parçalarının üzərinə yağ çəkib, yeməyə başladılar. Elə bu vaxt qapı döyüldü. Nailə tez ayağa qalxıb, qapını açdı və sevinclə:

– Bəh, bəh şaxta baba gəlib. Keç, keç içəri ay "baba"!

Həlimə elə doğurdan da şaxta babaya oxşayırdı. Üst başı qarlı, əlində də iki dolu zənbil var idi. O içəri keçib, zənbilləri yerə qoydu və gülərək dedi:

– Bəh, bəh... Yenə özlərini tutublar "quzu" kababına.

Nailə sevincək:

– Bacı, deyəsən, maaş almısan - dedi və zənbilləri gətirib qoydu soyuducunun yanına, içindəkiləri çıxartmağa başladı.

Həlimə kurtkasının qarını qapının ağzında çırpdı, sonra soyunub, asılqandan asdı və peçin qırağına gəldi, stulda oturub, iki əlini də peçə tərəf tutub dedi:

– Çox möhkəm qar yağır, külək də güclənib. Belə hava heç olmamışdı, görmüşük qar yağanda hava mülayim olar.

– Hə, lap çovğundu, belə getsə, sabah yollar buz bağlayacaq. Yaxşı, demədin axı, maaş almısan, ya yox. - Leyla dedi.

Həlimə peçin üzərindəki qızarmış çörək parçasından birini götürüb, üstünə yağ çəkdi və yeyə-yeyə dedi:

– Yox, almamışam.

Leyla sual dolu nəzərlərini ona dikdi. Nailə tez soruşdu.

– Onda, bunları hansı pulla almısan? - O əlindəki çay qutusunu göstərdi. Həlimə gülərək dedi:

– Otuz manat yığmışdım. Leyla iki dəfə on manat vermişdi ki, tələbə yoldaşlarımın ad gününə gedim, bax onda mən getmədim. Bir ay yayda badımcan-pomidor kababını gözüm önünə gətirib, o pulları saxladım. On manatı isə qəpik-qəpik qənaətlə yığdım. Elə bil ürəyimə dammışdı ki, yeni il bayramı keçirmək üçün pulumuz olmayacaq. Əslində, sabah alıb, sürpriz edəcəkdim, ancaq tezdən baxdım ki, evdə heç nə yoxdur. Yenə "kabablayacaqsınız", bu gün aldım.

Nailə gəlib arxadan onun boynunu qucaqladı, üzündən öpüb dedi:

– Sən insan deyilsən e, mələksən! Özü də zəhmətkeş mələk!

– Həlimə gülümsəyərək:

– Əsl mələk sizlərsiz. Mən "Şaxta baba"yam.

Leyla heç nə demədi. Ayağa qalxıb yenidən çay dəmlədi. Masanın üstünə pendir, kolbasa, çörək kəsib qoydu və Həlimədən soruşdu:

– Yağ yəqin tapa bilmədin.

Həlimə gülümsəyərək:

– Yox, bacı, tapa bilmədim. Elə ona görə gecikdim. İki mağazaya getdim, yox idi. Elə bil, camaat yeni ildə yağ əridib, içəcəklər. Ancaq on manatımız qalır. Sabah görək, hardan tapırıq...

– "28 aprel" metrosuna yaxın, "AZİ"-lə üzbəüz mağaza da tapmaq olar. Səhər Nailəylə mən gedib alarıq. - Leyla dedi.

Bacılar yemək süfrəsi arxasında əyləşib, çörək yeyə-yeyə söhbət edirdilər. Nailə gülmsəyərək dedi:

– Həlimə, bu gün getmişdik əmimgilə.

Həlimə təəccüblə onların ikisinin də üzünə baxaraq dedi:

– Qonaqlıqdan gəlib, "daş kimi" iki gün qalmış suxarıları niyə yeyirdiz? Bu nə sirli gedişdi?

– Nailə gülərək dedi:

– Hə, doğurdan da sirli gediş və gəliş idi.- Sonra o başlarına gələn hadisələri danışdı. Həlimə gülərək dedi:

– Elə yaxşı ediblər sizə. Mənsiz gizlin gedəndə belə olar.

– Yaxşı ki, getməmisən. Nailə əl çəkmədi apardım, istəyirsən səni də aparım? - Leyla bunları deyib güldü.

– Yox, sağ olun!

– Əsl sirli gedişləri sən etdin. Bu pulları saxlamasaydın, neyləyəcəkdik. - Nailə dilləndi.

Leyla bir qurtum çay içib dedi:

– Bilirsiz, bəzən elə hadisələr olur ki, elə bil, əvvəldən öz-özünə gizli qüvvə tərəfindən, ardıcıl olaraq bir rəsm kimi çəkirlər. O insan üçün əsl sirli gedişlər Allahın etdikləridi. O, istəsə insan özü-öz kölgəsində gizlənər. Bax, bu gün Həlimənin etdikləri özünün öz kölgəsində həyat zərbələrindən gizlənməyidi.

Nailə gülərək dedi:

– Nəinki özünü, bizi də gizlədib bu qoçaq qız.

– Söhbət sirdən düşmüşkən, sizə bir sirr açım. - Leyla dedi.

– Maraqlıdı, de görək. Deyəsən, sizin iki bacı birləşərək məndən gizlətdiyiniz sirrləriniz çoxdur. - Həlimə zarafatla dedi.

Leyla gülümsəyərək:

– Yox, heç Nailə də bilmir. Mən dörd il imtahanlarda konkursa düşdüm ha, ikinci dəfə konkursa düşəndə məni filalogiya fakultəsinə, dördüncüdə isə jurnalistika fakultəsinə keçirmək istədilər.

– Bəs, niyə razı olmadın? - Nə bilirdin ki, sonra hüquqa daxil olacaqsan? - Nailə sual verdi.

– Heç bilmirdim, qəbul olacam. Hardan bilərdim? Bir şeyi bilirdim ki, mən bunu Allahdan çox arzu edirdim, ona dua edirdim. Qaya əminin "Sən öz dəmir yolunda düz get, mütləq mənzil başına çatacaqsan" , - sözlərini xatırlayıram və inanırdım ki, istəyimə nail olacağam. Mən fikrimdən dönüb, filologiya və ya jurnalistika fakultəsini qəbul etsəydim, belə çıxacaqdı ki, Allaha inanmadım, onun duaları eşitmədiyini, ya da eşidib öz zəhmətkeş, ancaq pulu və vəzifəli qohumu olmayan bəndəsinə kömək etmək fikri, qüdrəti olduğuna şübhə edirəm. Mən o qədər dua etmişdim ki, dualarıma xəyanət edə bilməzdim. Onlardan utandım...

Həlimə gülümsəyərək dedi:

– Əhsən, bacı. Sən lap İndira Qandisən ki...

Leyla da gülüb dedi:

– Bizim fakultədə bütün qrup nümayəndələri oğlandı, tək qız mənəm. "Zamdekanımız" Yasin müəllim iclas edəndə, mən içəri otağa girən kimi zarafatla deyir ki, qalxın, "İndira Qandi" gəlir. - Onun bu sözünə üçüdə gülüşdülər.

– Bilirsiniz, biz ən çətin, çıxılmaz vəziyyətə düşəndə mən sevinirəm, Allaha çox şükürlər edirəm.

Nailənin bu sözünə Həlimə təəccüblə çiyinlrini çəkdi və Leylaya tərəf baxdı. Leyla da heç nə anlamadı və sual etdi:

– Niyə? Tibbdə bu yeni xəstəlik növüdü?

– Yox, xəstəlik filan deyil, sadəcə olaraq həmin anlar biz dərənin dibi ilə gedirik. Dözə bilsək, bir azdan yoxuşa, yüksəkliyə çıxmağa başlayacağıq, - Nailə bunu dedi və köks ötürdü.

– İndi deyirsən ki, bizim pulumuz olmasaydı, bazarlıq etməsydik, yeni ildə hamı bayram keçirdəndə biz də quru suxarı yeyib, yüksələcəydik? - Həlimə bunları deyib, bərkdən güldü:

– Bəlkə də, hə...- Nailə dedi.

– "Qurd keçinin nəyini yeyib" ki, sən bayramı suxarı ilə keçirərsən, biz də baxarıq, yüksəlsən, zirvəyə qalxmağa başlasan, gələn il yeni ildə sənin kimi edərik. - Həlimə yenə istehza ilə güldü. Nailə düşüncəli halda dedi:

– Mən bir şeyi dəqiq bilirəm, Kəmalə Bakı Dövlət Universitetini oxuyub bitirdi, biz üçümüzdə yaxşı fakultələrdə oxuyuruq, orta məktəbdə oxuyan bacılarımız da əla oxuyurlar, inanıram ki, onlar da ali məktəblərə daxil olacaqlar. Hamımız ali təhsil alacıq, Allahın iznilə. Bütün bunlarda bizim ailənin kasıbçılıqla yaşamağı böyük rol oynayıb. Kasıblıq bizi elmə tərəf apardı. Mənə elə gəlir ki, kasıb daxmalardan elm günəşi daha aydın, cəzbedici gürünür və yarı ac, yarı tox mədələr beyinin yaxşı işləməsinə, oxuduqlarının düzgün dərk edilməsinə, yadda qalmasına mane olmur.

Bacılarının söhbətinə diqqətlə qulaq asan Leylanın fikri başqa yerdəydi. Bu gün iki maraqlı, həm də gələcək həyatı üçün önəmli hadisələr olmuşdu. Ürəyindən keçirdi ki, bunları heç bir sirrini gizlətmədiyi bacılarına desin. Bunlardan birini deyəcəkdi ki, onların kefi açılsın. Ancaq digərini deməyi götür-qoy edərdi. Bu gün Leyladan bir kurs yuxarı oxuyan, həmişə həmyerli kimi yanlarında xətir-hörmət olan Qənbər adlı oğlan ona yaxınlaşıb, çəkinə-çəkinə sözü olduğunu bildirmişdi. Leyla, "Buyur", - dedikdən sonra Qənbər ondan dekan müavini Yasin müəllimdən yay imtahanlarından qalan kəsirini düzəltmək üçün kömək etməyi xahiş etdi. O, bilirdi ki, bütün müəllimlər, xüsusilə Yasin müəllim Leylanın sözünü yerə salmayacaq. Leyla gülərək : "Yaxşı, xahiş edəcəm", - demişdi və elə dördüncü dərsdən sonra Yasin müəllimdən Qənbər üçün xahiş etmişdi. Qənbərin ikinci sözünə : - "Dostum Mehmanın sizdən çox xoşu gəlir", - Leylanın cavabı gözlənilməz olmuşdu: - "Bu cür sözləri qızlar aparıb gətirər! Onun bu cavabından Qənbər qulaqlarına kimi qızarmışdı. Bəlkə də, az sonra Qənbərin qulağının qızartısı çəkilmişdi. Ancaq kiçik bir sahəsində ömrü boyu qalmış bəzi anlarda ordan başlayaraq digər yaxın sahələrə, o cümlədən də boynuna qədər yenidən yayılmışdı. Məsələ burasındadı ki, qrup yoldaşları və digər qrupda olan qızlar da Leylanı dəng eləmişdilər ki, Mehmana "hə" desin. Mehmanın atası Bakının rayonlarından birində katib işləyirdi. Anası isə professor idi, Elmlər Akademiyasında işləyirdi. Çox hörmətli, həm də imkanlı insanlar idilər. Mehman dərslərin çoxunda heç iştirak etmirdi, ancaq müəllimlər ona imtahanlarda "əla" qiymətlər yazırdılar. Leylanı sevən Əli adlı başqa bir oğlan da var idi. Əlinin atası, anası yox idi. Ba-

kıda xalasıgildə qalırdı. Kasıb oğlan olsa da, çox alicənab, qürurlu və zəhmətkeş tələbə idi. Əli həm də yaraşıqlı, fiziki cəhətdən idmançıya bənzər qurluşa malik idi. Leyla ürəyində Əliyə "hə" demişdi. Bunu hiss edən yaxın rəfiqəsinin "bu kasıb, yetim oğlanın nəyini sevirsən?" sualına Leyla : - "Kasıb, qürurlu, ləyaqətli başları, ət və sümükdən, biokütlədən ibarət olan, vəzifələrinə, geyimlərinə və pullarına görə hörmət qoyulan min başdan üstün tuturam. Əslində, hörmət onların şəxsiyyətinə deyil, əşyalarına, var-dövlətlərinə qoyulur. Mən əşyalarla, vəzifəli ailə qurmayacam, insanla quracam!" , - demişdi.

İndi Qənbərə verdiyi cavab yadına düşəndə, qeyri-ixtiyari olaraq gülümsədi. Nailə ona baxıb dedi:

– Nədir, Leyla, düz demirəm? Sənə də gülməli gəlir?

Leyla ona tərəf baxıb dedi:

– İkinizdə düz deyirsiniz. Həlimə tarixi nöqteyi-nəzərdən, sən isə tibbi baxımdan düz deyirsiniz. Gəlin, bu gün sinifdə olan maraqlı bir hadisəni danışım sizə.

– Danış, qulaq asaq. Bayırda qar yağanda söhbət şirin olur. - Həlimə dedi.

– Bizim Abbas müəllim adlı bir fəlsəfə müəllimimiz var idi. Birinci kursdan bizə dərs deyir. Onun bütün dərslərində qəribə hadisələr, səs-küy olur. Ona görə ki, dərsdən başqa hər şey danışır. Gah deyir ki, "mən o qədər təmiz, pak insanam ki, əlimi divara vurub, desəm ki, divar yeri, - divar yeriyər".

– Burada pis, qəribə nə var ki... O, bunu məcazi mənada öz təmiz mənəviyyatına inanıb deyir. - Həlimə dedi.

Nailə diqqətlə qulaq asırdı. O sual verdi:

– Sonra nə deyir?

Leyla gülümsəyib dedi:

– Bu gün də sinifə girdi, mühazirənin adını dedikdən sonra dərs demək əvəzinə, əlini saldı şalvarın iki cibinin astarını bayıra çıxarıb, "Baxın, uşaqlar, ciblərim boşdur. Mənim ürəyim də belə təmizdir. Pul cibi doldurur, qəlbi çirkləndirir, ruhu boşaldır", - dedi. Uşaqların gülüşünü on dəqiqə kəsə bilmədik. Sonra o danışa-danışa arxa cərgələrə tərəf getməyə başladı. Mən fit çaldım, partanı aşağıdan taqqıldat-

mağa başladım. Geri çönüb, o yan bu yana baxdı. Gəldi bizim partanın yanına, lap önə. Birinci kursdan yanımda oturan oğlan var ha, Asəf o yazığa möhkəm bir şillə, sonra da başladı söyüb, təhqir etməyə.

Həlimə təəccüblə:

– Bəs, sən qrup nümayəndəsi, əlaçı tələbə niyə dərsdə elə hərəkət etdin? Həm də o yazıq Asəfi niyə müəllimin əlindən almadın, öz günahını demədin?

Leyla gülərək dedi:

– Vallah, mən Abbas müəllimə dedim. Dedim, səs salan mən idim. Nə qədər etdimsə, inanmadı. O da sənin kimi dedi ki, sinif nümayəndəsi, əlaçı, ağıllı qızsan. Sən belə iş görməzsən. Mən nə qədər dedim, Abbas müəllim eşitmədi. Asəfi danlamaqdan, qədim Şərq filosoflarından, İslam fəlsəfəsindən, Freyddən sitatlar gətirməkdə davam etdi.

– O, Asəf niyə birinci kursdan səninlə oturur? Yəqin, arxa partalarda oturmur ki, ərköyün, oxumayan nadinc tələbələr ona sataşır, məzələnirlər. - Nailə soruşdu.

– Hə, elədir! Hardan bildin? - Leyla dedi.

– Adətən, belə olur. Günah nə səndə, nə də qrupda deyil. Bəzən, ən əlaçı uşaqlar da dərs vaxtı çox hoqqabazlıqlar edirlər. Sizin müəllim və Asəf bir-birinə uyğundular... – Nailə bunları deyib, gülümsədi.

Həlimə isə dedi:

– İnsanları nə cür var, elə qəbul etmək lazımdı. Abbas müəllimə və Asəfə gülmək lazım deyil. Allah köməkləri olsun. Həyatda bəzən çoxunun cəzası başqasına görə verilir. Bəlkə də Leyla Abbas müəllimin qorxusundan çox da onu inandırmayıb.

– Həlimə, filosofluq eləmə. Mən bir Allahdan, bir də qanunlardan qorxuram. Asəfə də imtahanlarda o qədər kömək etmişəm. Ancaq neyləyim, maqnit dəmiri çəkən kimi Asəf də cəzaları özünə tərəf çəkir... - Leyla bunları deyib, güldü.

Araya sükut çökdü. Bir azdan Leyla sükutu pozub dedi:

– Elə Parisə getmək, oranı görmək istəyirəm ki...

Bu dəfə Həlimə bərkdən güldü və dedi:

– Paris hardan ağlına gəldi? Yemək bişirməyə yağ tapa bilmirik, Parisə gedirsən?

– Orta məktəbdə oxuyanda, fransız dili dərslərində kitabda Parisin şəkillərinə baxırdım. Həmişə düşünürdüm ki, mənə "dünyanın hansı şəhərinə getmək istəyərdin?" sualı versəydilər, Parisi seçərdim. Bir gün dözmədim, arzumu uşaqlara dedim, onlar da sənin kimi "Hələ bir ayaqqabılarına bax, gör səni Parisə buraxırlar? - deyib gülməyə başladılar. Ancaq mən bu arzuma da çatacam, necə olursa - olsun Parisə gedəcəm.

– Hə, bacı qurban, İnşallah! - Həlimə bunları deyib, yenə güldü.

– İanıram ki, onda məndən yağ və ayaqqabımı soruşmayacaqlar. - Bu dəfə isə Leyla güldü.

– Daha gecdir. Allah axırını xeyirli eləsin, çox güldük. Yatmaq lazımdı. - Nailə bunları deyib, əsnədi.

Sabahısı gün tezdən Həlimə işə, Leyla və Nailə dərsə getdilər. Dərsdən sonra "28 aprel" metrosunun çıxışında görüşüb, "AZİ" ilə üzbəüz mağazadan yağ almaq üçün gəldilər. Növbədə xeyli adam var idi. Kərə yağı qurtarmışdı. Hər kəsə yalnız bir litr qarğıdalı yağı satılırdı. Onlar ayrı-ayrı növbələrə dururdular ki, iki litr yağ alsınlar. Yağları alıb, getmək istəyirdilər ki, səs-küy qopduğunu gördülər. Bir orta yaşlı qadın qışqırırdı ki, - "nə tez yağ qurtardı. Gizlədib, əl altından satırsınız. İndi biz beş uşaqla, yağsız necə keçinəcik? Sabah da bayramdır. Mağazanın satıcısı və müdiri isə and-aman edirdilər ki, "Yağ doğurdan da qurtarıb. Kim inanmır keçib hər yerə baxa bilər". Hamı da qadına tərəf çıxır, halına acıyır, ancaq heç kim əlindəki yağlardan vermirdi. Leyla ilə Nailə məcbur qalıb, bir litrlik yağ qutusunu o qadına verdilər. Bakı tortu da alıb, evə gəldilər.

Onlar ilk dəfəydi ki, yeni ildə kasıbyana olsa da, süfrə açıb, deyib gülə-gülə bayram keçirdilər.

Bacıların tələbəlik dövrünün çətin, zəhmətli günləri bir-birinin ardına qoşulmuş vaqonlar kimi zaman qatarlarına çevrilib, irəli doğru gedirdi. Bu qatarların ardınca yeniləri gəlirdi. Leyla dördüncü kursda oxuyanda Yasəməni, bir il sonra isə Zəhranı Bakıya gətirdi. Onları "Avrora" metrosu yaxınlığındakı, təhsilin keyfiyyətinə görə Rrespublikada ad çıxarmış "Kimya-biologiya təmayüllü" məktəbə apardı. O vaxtlar bu məktəbə şagirdləri imtahanla qəbul edirdilər. Burada da

çox vaxt tapşırıq və pul rol oynayırdı. Ancaq hər yerdə olduğu kimi həqiqi bilik yiyəsinə heç kim mane ola bilmirdi. Yasəmən və Zəhra imtahanlardan yaxşı nəticələr göstərərək, öz bilikləri ilə məktəbə daxil oldular.

Zəhranı Leyla beş yaşından orta məktəbə qoymuşdu. Doğum haqqında şəhadətnamə istəyəndə "itib" demişdilər. Adı jurnala düşəndən üç ay keçdikdən sonra aparıb, məktəbə vermişdi. Zəhra zəkası ilə digər ondan yaşca böyük uşaqlardan fərqlənmir, dərslərə çox yaxşı hazırlaşırdı. Odur ki, etiraz etməyib, onu məktəbdə saxlamışlar. Buna görə də, Yasəmən kimya-biologiya təmayüllü məktəbə daxil olandan bir il sonra Zəhra da o məktəbə qəbul olmuşdu.

Yasəmən və Zəhra məktəbin yataqxanasında qalır, oranın yeməkxanasında yemək yeyirdilər. Hər şənbə günü Leylagilin qaldığı evə gəlir, bazar günü axşam yenidən yataqxanaya qayıdırdılar. Evə gələndə bacıları onları sual-cavab edir, necə oxuduqları ilə ciddi maraqlanırdılar. Leyla bununla kifayətlənməyib, vaxt tapan kimi məktəbə gedir, Yasəmən və Zəhranın dərslərində iştirak edirdi. 5 saylı kimya-biologiya məktəbində digər fənnləri də çox yaxşı tədris edirdilər. Baxmayaraq ki, burada oxuyan şagirdlərin əksəriyyəti Tibb institutu arzusuyla təhsil alırdılar. Məktəb özü də bu istiqamətdə ixtisaslaşmışdı, ancaq buranın məzunları içərisində digər dəyərli, savadlı peşə sahibləri də çıxmışdı. Məktəbi bitirən uşaqlar ömrü boyu bu məktəbi "İNTER-5" adıyla xatırlamış, sinif yoldaşlarını, müəllimləri məktəbin həyətini yeməkxanasını, səhərlər verilən "kaşanı", yataqxanasını unutmamışlar. Bu məktəbin gələcəkdə şagirdlərin həyatında xüsusi müsbət rol oynayan cəhətlərindən biri də ciddi nizam-intizam vərdişlərinə yiyənlənməyə səbəb olan şəraiti olmuşdu. Hərbi xidmətdəki kimi yeddinin yarısında "qalx", axşam on birdə "yat" komandası verilir, yeməyə və məktəbə, dərsə getmək üçün cərgəyə düzülürdülər.

Ancaq digər məktəblərdə olduğu kimi burada da pulla, ayrıca hazırlıq kursları var idi. Müəllimlərin bəziləri öz evlərində şagird hazırlaşdırırdılar. Lakin müəllimlər məktəbdə dərs zamanı çox ciddi, vicdanla öz vəzifələrini yerinə yetirir, tələbkar olurdular. Yəni, zəhmətkeş şagirdlər hazırlığa getməsə də, yüksək səviyyədə təhsil alıb, istənilən ali məktəbə qəbul ola bilirdilər. Yasəmənlə Zəhra da hazırlığa

getmədən, əlaçı səviyyəsində bütün fənləri oxuyurdular və Səriyyə ilə Oktayın tələbkar, ciddi, nizam-intizamlı tərbiyəsi dərslərə tələbkarlığı sayəsində qazandıqları vərdişlər, bu məktəbin qayda-qanunlarına tez öyrənmələrində böyük rol oynamışdı.

Yasəmən kimya-biologiya təmayüllü məktəbi bitirdikdən sonra sənədlərini tibb institutuna verdi. Üş imtahandan "4", bir imtahandan isə "3" qiymət alıb konkursa düşdü. Leyla nə etdisə, Bakıda qalmadı. Çox darıxmışdı doğma kəndləri, evləri, tut ağacları üçün kənddə getdi. Gələn il yenidən imtahan vermək üçün əmək kitabçası, yəni "iş stajı" olmalı idi. Bu, sovet dövründə tələb və müsbət amil idi. Mahiyyəti o idi ki, "Sən orta məktəbi bitirmisən, tələbə deyilsən, nə kimi cəmiyyətə fayda vermisən? Nə işlə məşğul olmusan? Yasəmən kolxozda işə düzəldi. Gündüzlər işləyib, gecələr imtahanlara hazırlaşdı. Növbəti il yenidən Tibb institutuna imtahan verib, yenə konkursa düşür, lakin bir neçə ay sonra Tibb institutunun "Fəhlə" fakultəsinə daxil olur. Zəhra orta məktəbi bitirdikdən sonra sənədlərini BDU-nun tarix fakultəsinə verdi. O, Leylanın tövsiyəsi ilə bu fakultəni seçmişdi. Lakin birinci il imtahanlardan "4" qiyməti alaraq, konkursa düşdü. Leyla Zəhranı Bakıda, yanlarında saxlaya bildi. Onu tələbə yoldaşının Xırdalanda pasport şöbəsində çalışan atasının köməkliyi ilə Novxanıda tanış bir ailənin evinə qeydiyyata saldırdı. Novxanı kəndi ətrafında olan üzüm bağlarında işə düzəltdi. Leyla özü də hərdən gedib Zəhraya kömək edirdi ki, onun üçün iş stajı yazılsın.

Gələn il Zəhra yenidən Bakı Dövlət Universitetinin tarix fakultəsinə imtahan verdi, fənnlərdən yenə də "4" qiyməti alan Zəhranı konkursa saldılar, imtahandan 5 almalıydı ki, qəbul olsun. Üçüncü il hüquq fakultəsinə sənəd verir. Dekan imtahanda onun Leylanın bacısı olduğunu bilir və "Bacın yeni qurtarıb bu fakultəni. Sənə "4" qiymət verəcəyik ki, qəbul olmayasan", - kimi absurd, qərəzli münasibət sərgilədi. Neçə gündür bütün bacarığı ilə hazırlaşdığı, beş alacağına şübhəsi olmayan, ən yaxşı bildiyi, məktəbdə sevimli Solmaz müəllimənin sətir-sətir öyrətdiyi ədəbiyyatdan 4 qiymət yazdılar. Bayırda gözləyən Həlimə isə bu qiymətlə qətiyyən razılaşmadılar. Səs-küy

qopdu. Bacılar appelyasiya şikayyəti verdilər. Bir neçə gün sonra Zəhra, rektoru və komissiya üzvlərini mat qoydu, əla qiymətə layiq olduğunu sübut etdi. Universitetin hüquq fakultəsinə daxil oldu. Əla qiymətlərlə oxudu. Sonuncu kursun sonuncu imtahanında ondan rüşvət istəyən müəllimin tələbini qəbul etmədi. Mübarizə aparıb, 5 qiymət aldı və digər bacılar kimi ali məktəbi "qırmızı diplom"la bitirdi. Bacılardan heç biri hər hansı fənndən, ən qəddar, rüşvətbaz müəllimə bir manat pul və ya bir "hədiyyə də vermədilər.

Evin son beşiyi Sevda orta məktəbi öz kəndlərində bitirir. Elə birinci il universitetin hüquq fakultəsinə sənəd verir, imtahanların ikisindən 4, ikisindən isə beş qiymət alaraq, qəbul olur.

Artıq bu zaman Leyla ailə qurmuş, digər bacılarını da öz yanında saxlayırdı. O, Sevdanı da evlərində saxladı. Sevda bacıları kimi universiteti əla qiymətlərlə oxumağa başladı. Leyla və bacılarının müxtəlif ali məktəblərin o dövr, elə sonralar da ən məşhur, abituriyentlərin can atıqları fakultələrinə daxil olmaları, uğurla oxuyub bitirmələri təkcə ölkə üçün deyil, bütövlükdə müsəlman aləmində, Şərqdə çox nadir və əhəmiyyətli hadisə idi. Heç Avropada da çox kasıb bir ailənin yeddi qızının özlərinin əl-ələ verərək ən məşhur, daxil olmağı və oxumağı çətin olan fakultələrdə ali təhsil alma faktlarına çox rast gəlmək mümkün deyildi. Bu, milli və bəşəri örnək, elmlə, zəhmətlə zirvələrin fəth edilə biləcəyinə nümunə sayılacaq hadisə idi.

Adətən, çoxuşaqlı ailələrin, xüsusilə müsəlman və Şərq aləmində, kasıb yaşayış şəraitində bütün güclərini toplayaraq bir-iki, çox az hallarda üç-dörd uşağı ali təhsil almağa imkan yaratdıqları hallarına rast gəlinir. Ancaq sürücü işləyən, az məvaciblə doqquz nəfərlik ailəni güclə dolandıran, özü və həyat yoldaşının ali təhsili olmayan bir kişinin yeddi qız övladından birinin ədəbiyyat, birinin tarix, ikisinin tibb, üçünün isə hüquq fakultələrinə daxil olub, əla qiymətlərlə oxuyub bitirməsi, doğurdan da möcüzə idi. Yeddi səyyarənin yeddi sirli möcüzələri...

Nə idi, yeddi səyyarənin, yeddi aləmin möcüzələrinin əsl sirri? Bu ən mükəmməl yaradılmış, çox şeyə qadir olan insanın təhtəlşüur, yoxsa, hər şeyə qadir uca Allahın ibrətamiz, dəqiq məntiqli sirli ge-

dişləri idi? Bu hadisənin özünün baş verdiyi məkan və zamanın da çox böyük ibrətamiz mənaları var idi.

Müsəlman aləmində İslam dininə qədər qız uşaqlarına vəhşi münasibət, hətta onların bəzi ərəb tayfalarında diri-diri basdırılması bəşər tarixinin heç vaxt heç bir əməllə getməyəcək qara ləkələrindəndi. Və bu cür hadisələrin kainatda qalan qara enerjiləri bəşəriyyəti, dünyanı "Qiyamət"ə sürükləyən amillərdən biridi. Yeddi səyyarənin yeddi möcüzəsinin müsəlman aləmində baş verməsi təsadüfi ola bilməzdi. Hər hadisədə bir ibrət, məqsəd var. Bu hadisənin baş verdiyi Azərbaycanda, qızların ali məktəblərdə, dünyəvi, təbiət və dəqiq elmləri öyrənməyə başlamasının tarixi heç yüz il deyildi. Bu tarix böyük azərbaycanlı Hacı Zeynalabidin Tağıyevin açdığı "qızlar məktəbi"ndən başlayırdı. Hacı Zeynalabdın sağ olsaydı, bu bacıların "möcüzələrin" görsəydi, neft quyuları kimi sevinci, fərəhi fontan vurardı.

Ümumiyyətlə, Şərqdə həmişə qadının kişidən bir pillə aşağı olması məntiqi hökm sürüb, hətta, bəzən bunu əsaslandırmaq üçün islam fəlsəfəsinə istinad cəhdləri də olub. Odur ki, əksər ailələr qız övladlarından çox oğlanları olanda seviniblər. Hətta, texnologiya inkişaf edib, hamiləlik dövründə qız uşağı olacağı müəyyən edilərkən, onları öldürüblər – götüzdürüblər... Bu atavizm, vəhşi əcdada qayıtma idi. Allahın məsləhət bildiyi payı seçib, xoşuna gələni götürmək, gəlməyəni özünün üstünə atmaq idi. Bəşəriyyəti ümumilikdə arxadan itələyib qiyamətə doğru aparan böyük günah idi. Bu baxımdan bacıların həyatı ibrətamiz nümunə idi.

XX əsrin ikinci yarısının ortalarında, əsasən də yetmiş, səksəninci illərdə Azərbaycanda Bakı Dövlət Universitetinin hüquq, jurnalistika, şərqşünaslıq, tarix, ədəbiyyat, Azərbaycan Dövlət Tibb İnstitutunun fakultələri ən məşhur fakultələrdən idilər. Bu fakultələrə qəbul olmaq üçün rəqabət çox idi. Bunların da çoxlu səbəbləri var idi. Məsələn, imkan edib hüquq fakultəsinə daxil olan tələbə hələ oranı) bitirməmiş "filankəs prokuror olacaq", - deyirdilər. Bütün gizli, haram yollarla pul yığanlar, yüksək vəzifəlilər də övladlarının bu fakultələrə daxil olmasını istəyir, kasıb ailələr də yeganə ümid yeri Allahdan kömək istəyir, dua edirdilər.

Rəhbərlik nə qədər mübarizə aparsa da, DTX orqanları gizli nəzarət etsə də, pul və tapşırıq daha gizli yollar tapıb, müəllimlərə, dekanlara, rektorlara çatırdı. Sadə bir ədəbiyyat müəllimi rüşvət alıb, ötürmənin o qədər mürəkkəb yollarını bilirdi ki, xüsusi xidmət orqanları çaşbaş qalırdılar. Nəzarət nə qədər güclənirdisə, yollar nə qədər daralırdısa, verilən rüşvətlər o qədər yoğunlayırdı, edilən zənglər daha uca yerdən gəlirdi. Tibbə, hüquqa 50-60 min rubldan söhbət gedirdi. Həmin dövrlər bu pulla Bakıda 4-5 mənzil almaq olardı.

Gündəlik dəstə-dəstə pullar "qazananlar" imtahanlar öncəsi yeyib-içib kefli halda evə gəlirdilər. Gülərək pencəyin yan cibindən bir-iki dəstə pul çıxarıb, həyat yoldaşlarına uzadaraq "al, arvad, qoy uşağın "qəbul" pulunun üstünə. Bir şey qalmayıb tamam olmağa. Atası ölməyib ki, o prokuror, ya həkim olacaq", - deyirdilər. Müftə, haram yeməkdən, qayğısız naz-nemət içində yaşamaqdan mətbəx pişiyinə bənzəyən arvadda ağ, toppuş əllərini uzadıb, pulu alır, evin ən gizlin yerində yığdığı, gündə üç dəfə saydığı "paçkalar"ın üstünə aparıb qoyur, gözləri sevincdən parlayır, yuxusu qaçırdı.

Kasıblar isə Oktay kimi yorğun, günorta da çörək yemədiyindən ac qarına özünü evə güclə çatdırır. Allah verəndən yeyirdilər. Qayğılar və yorğunluq layla çalıb, gözlərini yuxu aparırdı. O zamanlar əksər evlərdə kondisioner, filan yox idi. Naxçıvanda gecələrin bərk istisindən qaçmaq üçün həyətdə, çardağa bənzər "kətil" deyilən yatmaq yeri düzəldirdilər. Burada da ağcaqandalardan qorunmaq üçün tənzifdən "milçəkkən" deyilən, qoruyucunu yataq yerinin ətrafına çəkirdilər. Övladlarının hər dəfə imtahan vaxtları yaxınlaşdıqca arxası üstə uzanan ata ulduzlara baxa-baxa  sakitcə, ürəyində Allaha dua edirdi. Onun gözündə ən parlaq ulduzlar dönüb qızları olurdu. Yeddi səyyarə  əl-ələ verib, ona gülümsəyirdilər. Səriyyə ana isə işləməkdən dünya xəritəsindəki çayları xatırladan damarlı, qabarlı, arıq, quru əllərini göyə qaldırıb, ulduzlara baxa-baxa Allaha dua edirdi. Zəhmətkeş əllərini, saf niyyətlərin yola saldığı dualar kainatda sürətlə yayılırdı. Ona elə gəlirdi ki, əlləri uzanır, hər qızı üçün ayrıca işarələdiyi yeddi ulduza çatırdı. O, növbə ilə hər bir ulduzu sığallayır, nəvazişlə oxşayırdı. Və bu zaman Allaha şükürlər edir, ağır cəddi olduğu deyilən "Seyid" qızı qaynanasına da rəhmət oxuyurdu ki, nə yaxşı oldu

dua elədi, Tanrı oğlan paylarını böyük qaynına verdi, yeddi səyyarəni onlara bəxş etdi. Yeddi qızının olmasında qaynanasının duasının rolu çox idi. Hər halda, Səriyyə belə fikirləşirdi.

Təbii ki, bacıların kasıb, valideynləri təhsilsiz bir ailədən çıxıb, bu cür ali təhsil almaları Allahın Quranda deyilən "Mən bildiklərimi siz bilməyirsiniz", "Allah kimə istəsə oğlan, kimə istəsə qız verər, kimə isə heç birindən verməz", "Allahın icazəsi və xəbəri olmadan ağacdan bir yarpaq da düşə bilməz", "Yerdə və göydə hər nə vardırsa (,) Allaha məxsusdur", "Allahın vəkil olmağı yetər", "Allah bir şeyi istərsə sadəcə "Ol", deyər" ayələrinin qarşılıqlı vəhdətindən çıxan sonsuz mənalarından birinə uyğun idi. Sirli aləmlərin möcüzə sayılacaq, məna və məqsədinin insan ağlı tərəfindən çətin dərk edilən bir örnək idi.

Bəs, Allahın bu cür möhtəşəm, ibrətamiz hadisənin mövcudluğa çevrilməsində dərk oluna biləcək hansı səbəbləri, xüsusi rol oynayan amilləri var idi? Yəqin ki, kasıb ailənin uşaqlarında yaxşı yaşamaq, hamı kimi yemək, geyinmək arzuların, cəmiyyətdə nüfuzlu olmaq, hörmət qoyulmaq istəkləri üçün ancaq oxuyub, təhsil almağın zəruri olduğunu dərk etmələri bir səbəb olmuşdu. Digər tərəfdən atalarının, analarının halal zəhmətlərini yerə vurmamaq, onların ümidlərini doğrultmaq düşüncələri də rol oynamışdı. Müxtəlif cahil insanlar tərəfindən deyilən kinayəli sözlər, arzularına qarşı istehzalı baxışlar, gülüşlər müəyyən rol oynamışdı. Oktayın qaraqabaq, ciddi xarakteri, Səriyyənin özünəməxsus, sərt "təhsilə nəzarət" qaydaları oxumaq vərdişlərinin qazanılmasında kömək etmişdi. Digər səbəblər kompleksi Naxçıvanın torpağı, suyu, sərt iqlimiylə bağlıdı, insanin bir şəxsiyyət kimi əqlinin, xarakterinin, psixoloji göstəricilərinin formalaşmasında təbiətin rolu danılmazdır. Növbəti səbəblər kompleksi bacıların öz fərdi keyfiyyətləri, zəkaları, idrakları və təxəyülləri, zəhmətkeşliklərini birləşdirə bilmək bacarıqları olmuşdu. Leylanın isə bu gücləri bir komandada birləşdirmək, yeddi dəli-dolu, saf dağ çayın-

dan bir böyük, daha güclü, sakit axan, müdrik düzən çayı yaratmaqda çox böyük rolu olmuşdu.

Beləliklə, Allahın izni, məqsədilə halal zəhmətin, istedadın sayəsində yeddi səyyarənin yeddi sirli aləmi gerçəkləşmişdi və bu hadisə bütün zamanlarda, istənilən çətin şəraitdə zəhmət və elmin köməyilə istənilən məqsədə çatmağın mümkünsüzlüyünü göstərən, yeniyetmələrə, gənclərə faydalı örnək kimi böyük əhəmiyyətə malikdi.(r)

Elm və zəhmət qoşa qanad kimi insanı istənilən ucalığa qaldırar. Lap cənnətə qədər uçurdub apara bilər. Elm və zəhməti öz əqidəsinə çevirən insanlar sonrakı bütün vəziyyətlərdə, həyatlarındakı və işlərindəki önəmli hadisələrdə də həqiqətə, ədalətə və saflığa söykənir, eyni zamanda, onları yaradırlar.

Leyla da bu cür etmişdi. Ona evlənmək təklif edən çoxsaylı vəzifəli, var-dövləti namizədlərin, hamısını rədd etmiş, öz sevdiyi, xarakterini, əqidəsini bəyəndiyi Əli ilə ailə qurmuşdu. Əl-ələ verib işləmiş, pul yığmışdılar. Keçən əsrin səksəninci illərinin sonunda Bakını tərk edib gedən ermənilərdən mənzil almışdı. Bu ev Dəmir yol vağzalı (Bakı Dövlət Dəmir Yol Vağzalı) tərəfdə, indiki "Gilavar" restoranına yaxın ərazidə idi. İki mərtəbəli həyət evinin hər bir mərtəbəsi bir qardaşa məxsus idi. Leylagil evi bütövlükdə, hər qardaşdan ayrı-ayrı mərtəbələri müxtəlif qiymətlərə aldılar. Bununla da, on beş ilə yaxın kirayədə yaşamaq həyatına son qoyuldu. Leyla bütün bacılarını öz yanına gətirdi. Birlikdə yaşamağa başladılar. Sevda Bakı Dövlət Universitetinə qəbul olanda Leylagilin öz mənzili var idi və o orada bacıları ilə birlikdə qaldı. Əli geniş ürəkliyi, sadəliyilə çox məşəqqətlər görmüş bacıları öz doğmaları kimi qəbul etdi.

Bu evdə bacıların yadda qalan birlikdə yaşamağın zövqlü, maraqlı çox günləri oldu. Ən çox sevdikləri də qış gecələrində ikinci mərtəbədə qaz sobasının qırağında keçmişdən, gələcək arzulardan etdikləri söhbətlər idi. Hətta, bir dəfə başları söhbətə elə qarışmışdı ki, birinci mərtəbədə yanan qazın üzərində qoyduqları vedrəni unutmuşlar. Bu zaman bayırda səs eşidirlər. Diqqət kəsilirlər, səs dayanır. Sonra

yenidən səs eşidirlər. Bacılar bu səsi rəhmətə getmiş seyid nənələrinin səsinə oxşadırlar. Nəhayət, durub bayıra çıxmaq üçün birinci mərtəbəyə düşürlər və yanıq qoxusu hiss edirlər. Onlara elə gəlir ki, qonşu həyətdə yaşayan Vasili yenə nəisə çör-çöp yandırıb, həyətdə ocaq qalayıb, kabab bişirir... Az sonra, qoxunun fərqli olduğunu və qaz olan otaqdan gəldiyini hiss edib, ora qaçırlar. Vedrənin suyu qurumuş, qaynatmaq üçün qoyduqları paltarlar yanmağa başlamışdı. Bura gəlməyib, yatmağa getsəydilər, bütün evin yanma ehtimalı var idi. Bacılar bu hadisəni heç vaxt , hər xatırladıqca, seyid nənələrinin ruhunun onlara kömək edib, xəbər verdiyini düşünmüşlər. Həyatın sirli gedişləri isə davam edirdi.

# IV FƏSİL

*Mən bir şahmatçı kimi həyatı şahın ətrafındakı insanların bir-birini əvəz etməsi kimi görürəm. Ata, ana uzaqlaşır, oğul, qız yaxınlaşır. Sonra nəvələr. Axırda hamısını qurban verirsən, daha doğrusu, onlar səni özlərindən uzaqlaşdırırlar, qalırsan rəqiblə, əzrayılla tək. Ya mat olursan, ya da pat.*

** * **

*Çünki, ehtiyyacdan oğurluq etmək, şöhrət üçün şər atmaqdan daha ləyaqətli işdir...*

** * **

*Gah dini, vətənpərvərlik, gah da mədəniyyət, demokratiya, azadlıq və s. şüarlarla insanları aldadıb, müharibə etmişlər. Kasıblar döyüşmüş, varlılar isə qazanclarını göz önünə gətirib alqışlamışdılar. Sarsaqlar ideya ixrac edib ad, hiyləgərlər kapital, şöhrətpərəstlər vəzifə qazanmışdılar.*

** * **

*Müttəhimlərin, onların içərisində çoxlu kasıb, köməksiz, öz hüquqlarını bilməyən çoxlu insanlar var ki, onların bəziləri adi, mənasız hadisələrdən ötrü illərlə öz və yaxınlarının ömürlərini puç edirlər. Onların hüquqlarını müdafiə etmək güc və bəşəri qeyrət tələb edir. Bu, həm də ilahi xeyirxahlıq, savab işdir.*

"Hörmətli sərnişinlər, təyyarəmiz Paris şəhərinin Şarl de Qoll Beynəlxalq Hava Limanına yaxınlaşır". Təyyarə bələdçisinin dediyi bu sözlər Leylanın həyəcanını bir azda artırdı. Axı, o uşaqlıqan Avropanın bu füsnkar şəhərini görməyi arzulayırdı. Indi onun digər ürəkdən arzuladığı, dua edərək həyata keçməsini istədikləri kimi bu xəyalı da gerçəkləşirdi. Bu, Leylanın ilk xarici səfəri idi, həm də ən çox arzuladığı Paris şəhərinə gəlirdi.

Təyyarə hava limanına endikdən sonra onları Parisin ən yaxşı otellərindən birinə gətirdilər, qalacağı nömrələri göstərdilər. Əşyalrını yerləşdirdikdən sonra otelin restoranına düşdülər. Leyla ilk dəfə idi ki, bu cür komfortlu beş ulduzlu oteldə qonaq qalırdı. Hər şeyə - qalacaqları otağın qurluşuna, dəhlizlərin, liftin, restoranın dizaynına, eləcə, insanların davranışına diqqətlə nəzər yetirirdi.

Restoranda indi günorta yeməyi vaxtı idi. Müxtəlif cür salatlar, isti yeməklər, içkilər var idi. Burada əsasən Fransa mətbəxinə uyğun yeməklər olsa da, Şərq mətbəxinin də nümunələrinə rast gəlmək olurdu. Əksər oteldə olduğu kimi, burada da "İsveç masası" (yəni, cürbəcür yeməklərdən kim nə qədər istəsə götürür) təşkil etmişdilər. Bütün komanda yemək yedikdən sonra hər kəs öz qaldıqları nömrələrə gəldilər.

Leyla arxası üstə uzanıb əllərini çarpazlayıb, boynunun arxasına qoymuşdu. Nə qədər istədi ki, yatıb bir az dincəlsin, ancaq yuxusu gəlmədi. Özünə də qəribə gəlirdi ki, niyə belə qəribə, müxtəlif hisslər yaradan xəyallar aləminə gedirdi. Gah uşaqlıq dövrünə gedir, həyətdəki tut ağacından asılmış yelləncəkdə yellənir, gah İrəvan Bazarında soğan satdığı anlar gözü önünə gəlir, gah da kran sürücüsü olur,

Vasyanın çığır-bağırını eşidirdi. Hərdən də "İsveçrə masasa" ilə oradakı yeməklərlə tələbə vaxtı qızardıb, yağ sürtüb yedikləri quru suxarıları fikrən yanaşı gətirib, öz-özünə gülümsəyirdi.

İndi yadına düşdü ki, anası Səriyyəyə Parisə gedəcəklərini dedikdən sonra o qovurma edib, beş kiloluq şirəli qazana yığıb, Bakıya göndərmişdi. Leyla da qovurmanı özləri ilə gətirmişdi. Ancaq gündə üç dəfə restoranda yemək yeyəcəklərini biləndən sonra özlərilə qovurma gətirməklərinə gülməyi tutdu.

– Ana, nəyə öz-özünə gülürsən? Bayaqdan fikir verirəm, hey gözlərini gah açıb, gah da yumub gülümsəyirsən.

Leyla oğlunun bu sualından xəyallar aləmindən ayrıldı. Bir az düşünüb, yenə gülümsəyib dedi:

– Rüfət, şahmat oyununun gedişatında gülməli hallara rast gəlirsən?

Rüfət masanın üzərində qurub, bayaqdan öz-özünə oynadığı şahmat taxtasına baxa-baxa dedi:

– Olur hərdən, rəqib uduzanda ki, qulaqları qızarır, onda mənim gülməyim gəlir.

– O mənada demirəm. Oyunun özündə, məsələn, əvvəl başlayanda şah çox qüdrətli olur, vəziri, topu, atı, fili, piyadaları hamısı yanında, döyüşə hazır vəziyyətdə, həm də onu qoruyurlar. Sonra necə olur?

–Hə, ana, əvvəl elə olur, sonra fiqurlar vurulur. Bəziləri qurban verilir, şahın ətrafı seyrəlir...

– Həyatda tərsinə olur, əvvəl insan tək olur, gücsüz olur, get-gedə güclənir, ətrafına insanlar yığışır, bəzən , o lap şaha çevrilir.

Rüfət bir az düşünüb dedi:

– Şahmatda buna bənzər bir şey var, piyada irəliləyib son xanaya çatanda istədiyi fiqura - ata, filə və s. çevrilə bilir.

– Şaha da çevrilə bilir?

– Yox, ana, vəzirə çevrilə bilir, ancaq şah ola bilmir. - Rüfət dedi.

– Yəni, deyirsən, piyadadan şah ola bilməz? - Leyla sual etdi.

– Yəqin ki, ola bilməz. Hər halda, şahmatda olmur. Bir də ki, həyatda insan böyüdükcə vəzifəsi, işi olur. Ailə qurur, oğul-uşaq, qohumlar və s. ətrafında çox insan yığışır. Bu o demək deyil ki, o şah olur. Şah olmaq üçün anadan şah doğulmalısan. Həm də insan qoca-

landa o, başına yığışdıqları dağılışıb gedirlər. Mən bir şahmatçı kimi həyatı şahın ətrafındakı insanların bir-birini əvəz etməsi kimi görürəm. Ata, ana uzaqlaşır, oğul, qız yaxınlaşır. Sonra nəvələr. Axırda hamısını qurban verirsən, daha doğrusu, onlar səni özlərindən uzaqlaşdırırlar, qalırsan rəqiblə, əzrayılla tək. Ya mat olursan, ya da pat. Mən, rəqiblərim pat olmağa qaçanda gülməyim gəlir. Çünki, pat olmağa meyl etmək, onu son çıxış yolu kimi görmək özünü qayadan atmaqdan qorxub, əsir düşmək kimi bir şeydir. Oğlunun dediklərinə diqqətlə və fərəhlə qulaq asan Leyla qürurlanıb təbəssümlə dedi:

– Afərin, Rüfət! Sən həm də filosofsan. Doqquz yaşında bu cür düşünmək çox böyük idrak yiyəsi olmaq deməkdi. Bizim hakimlər, prokurorlar heç bu cür məntiqlə düşünə bilmirlər.

– Ona görə ki, onlar şahmatı və riyaziyyatı yaxşı bilmirlər. Yaxşı şahmatçı oyunun oratsında gəlib qıraqdan baxsa, təxminən bilər ki, rəqiblər hansı gedişləri edib, bu real vəziyyətə gəliblər. Eynilə də riyaziyyatçılar məçhulları müxtəlif metodlarla tapa bilirlər. Əgər hakim, prokuror, siz vəkillər şahmatı və riyaziyyatı bilsəydiz, cinayəti tez və düzgün təsəvvür edər, ədalətli qərar çıxardardınız.

– Yenə riyaziyyat? - Nənən Səriyyə həmişə bu riyaziyyatın üstündə dururdu. Heç bir fənni bilmirdi. Ancaq elə hey deyirdi ki, riyaziyyatı oxuyun. Sən də onun yanına şahmat əlavə elədin? Yaxşı ki, nənənin yadına şahmat düşməyib, yoxsa, bizim hamımızı, xallarını şahmatçı eləmişdi. - bunları deyib, güldü.

Rüfətin onun gülməyinə təəccüblə baxdığını görüb dedi:

– Rüfət heç soruşmadın ki, o soyuducuya qoyduğum qazanın içində nə vardı?

– Qovurma var. Nənəm göndərib. Bayaq sən hamam da olanda mən bir tikə çıxarıb, yedim. Çox dadlıdı, Allah nənəmə can sağlığı versin.

– Məni gülmək tutur ki, Bakıdan Parisə özümlə ərzaq, özüdə qovurma gətirmişəm. Elə bil dağ başına qalxıram, buralarda yeməyə heç nə tapa bilməyəcəyik. Ancaq o "İsveçrə masasını görəndən sonra öz tədarükümə, Səriyyə nənənin qovurmasına gülməyim gəldi.

– Əslində, səni bilmirəm, bu qovurmanı mən o çeşidli yeməklərin hamısından üstün tuturam. Mənim çox xoşuma gəlir. Gedənə qədər hamısını yeyib, qurtaracam. - Rüfət dedi.

– Sonra səndən yağ qoxusu gələr ha... – Leyla deyib, güldü.

– Nə olar gələndə? Rəqiblərimi Səriyyə nənənin yağı ilə qızardacam. - Bu dəfə Rüfət güldü.

Rüfət Moskvada on yaşlılar arasında birinci yer tutduqdan sonra ölkədə şahmat ictimayyəti arasında tanındı, nüfuzu artdı. Bir il sonra isə respublikada məktəblilər arasında keçirilən şahmat yarışında çox yaxşı nəticə göstərdi. Şahmat federasiyası Parisdə keçirilən Avropa çempionatına seçdikləri komandaya Rüfəti də saldılar. Rüfətin yarışa gəlməsi, burada qalması digər şahmatçılar kimi federasiyanın maliyyəsi hesabına idi. Leyla da digər şahmatçıların bəzilərinin valideynləri kimi öz hesabına bilet alaraq, oteldə əvvəldən yer sifariş edərək uşaqlar ilə gəlmiş, onlara mənəvi dayaq olmaq istəmişdilər.

Şahmatçıların qaldıqları otel Sena çayına yaxın idi. Oyunlar bitdikdən sonra Leyla Rüfətlə Sena çayı sahillərində gəzişir, buradan keçən qatarlara minib, şəhəri səyahət edirdilər. Bu qatarlarda iki cür vaqonlar var idi. Bir qismi köhnə, bəzəksiz, digər qisimləri isə bəzəkli komfortlu və işıqlı idilər. Təbii ki, kapitalist qanunlarına əsasən bəzəkli vaqonların biletləri baha idi. Adətən, o vaqonlara daha varlı adamlar minirdilər. Leyla çox vaxt Rüfətlə, bəzən isə komandadakı uşaqlar, onların valideynlərilə Parisin görməli, gəzməli yerlərini səyahət edirdilər. Onlar Versal sarayını, muzeyləri gəzmiş, Eyfel qülləsinə çıxmışdılar. Çoxlu xatirə şəkilləri çəkdirmiş, bu şəhərdən yadigar qalacaq müxtəlif əşyalar almışdılar.

... Artıq dördüncü gün idi ki, burada idilər. Sabah axırıncı oyunlar olacaqdı. Leylada qəfil Bakı üçün darıxmaq hissləri baş qaldırdı. Bu hisslər həm də onda qarışıq təəsüf duyğuları yaradırdı. Bəlkə, Leyla uşaqlıqdan arzuladığı Parisi, onun gəzməli yerlərini görmüş, gəzmiş, artıq onda illərlə bəstələdiyi arzu gülləri solmuşdu. Buna görə pis olurdu. Bəlkə də, Bakıdan boylanan əzablı tələbəlik günlərinin müqəddəs xatirələrinin boylantıları atılmış övladlar kimi onun ruhunu sarsıdırdı. Ancaq hər iki hala Rüfətin daha çox uğurla çıxış etməməsi öz pessimist təsirini göstərirdi.

Rüfət sabah keçirilən oyunda mütləq udmalıydı ki, üçüncü yerə çıxa bilsin. Bu dəqiqə Leyla Eyfel qülləsini, Versal sarayını verərdi ki, Rüfət üçüncü yerə çıxa bilsin. Elmdə, beyin yarışmasında qələbə çalmaq, istənilən mübarizədə udmaq Leylanın həyat devizi, vərdişi idi. İndi Sena çayı onun gözündə dayazlaşır, suyu azalır. O özü xəyalən Arpa çayını coşdurub, aşırıb, daşırırdı. Rüfət mütləq udmalı idi.

Rüfətin sonuncu oyunu başladı. O, Artur Mirzoyanla oynayırdı. Bu oyun da çətin keçirdi. Rüfət yenə gediş etdikdən sonra yerindən qalxır, pəncərənin önündə dayanıb, bayıra baxır, ya da digər oyunlara tamaşa edirdi. Leyla onun bu hərəkətlərinə acıqlanır, göz-qaş edərək, gedib öz yerində oturmasını istəyirdi. Leylaya elə gəlirdi ki, Rüfət durub getdikdən sonra onun fiqurları sahibsiz qalır, rəqib orada nə isə yer dəyişə, hətta fiqurları çoxalda, azalda bilər...

Leyla Rüfətin çox fikirləşdiyini görüb onların masasına yaxınlaşdı. O da oyuna baxmağa başladı. Bir xeyli baxıb, yenidən əvvəlki pəncərənin önündə qoyulmuş stullardan birində gedib, əyləşdi. Digər valideynlərdə hərdən ayağa qalxır, həm öz uşaqlarının, həm də digər oyunçuların oyunlarını izləyir, çəkilib qıraqda öz şərhlərini deyirdilər. Əslində, Rüfət zəif oynamırdı. Onun rəqibləri güclü idi, oyun təcrübələri və yaşları çox idi. Məsələn, elə son rəqibli Artur Mirzoyanın on üç yaşı var idi. Rüfətdən dörd yaş böyük idi. O gərək Rüfətin dörd il sonrası ilə oynayardı.

Leyla gözlərini yumub, dua edirdi. Allahdan Rüfətin qələbə çalması üçün ona kömək olmasını istəyirdi. Birdən, Rüfətgilin masası yaxınlığında səs-küy eşitdi. Kim isə əlini ona tərəf uzadıb, nə isə ucadan deyirdi. Leyla ayağa qalxıb, onlara tərəf yaxınlaşdı.

Rüfət qələbə çalmağa çox yaxın idi. Heç bir səhv etməsəydi, Arturun heç-heçə etmək şansı da yox idi. Elə buna görə də onun atası hay-küy salıb, bir az əvvəl oğlunun tam qalib gəldiyi vəziyyətdə indi necə olur ki, uduzduğunu yanındakılardan soruşurdu. O, bir az əvvəl Leylanın ona yaxınlaşdığını və Rüfətə hansısa güclü gediş öyrətdiyini deyirdi. Məsələ ciddiləşdi, səs-küy daha da gücləndi. Hakimlər də bu işə qarışdı. Komissiya təşkil olundu. Komissiyanın təşkil olunmasını Bakıdan gedən komandanın başçısı Faiq müəllim tələb

etdi. O, təsadüfən Rüfətin oyununu izlədiyindən hər şeyin necə baş verdiyini dəqiq bilirdi və Arturun atasının böhtan atdığına əmin idi.

Rüfət pərt olmuşdu. Leyla isə çaşqınlıq içində olsa da, özünü tez ələ ala bilmişdi. O, ömrü boyu haqlı olduğu halda heç vaxt məğlub olmamışdı. Bu Leylanın həyat fəlsəfəsi idi. Ancaq Leylanı çaşdıran, fikirlərini qarışdıran daha bir məsələ var idi. Arturun atası Leylaya tanış gəlirdi. Onu elə bil haradasa görmüşdü. Çoxdan görmüşdü, ancaq yüz faiz haradasa görmüşdü.

Komissiya oyunu yenidən qurdu. Rüfət ilk gedişdən başlayaraq bütün oyunu izah etməyə başladı. Hər şey onun yadında qalmışdı. O gedişləri etdikcə, Artur doğurdan da belə olduğun başı ilə təsdiq edirdi. Oyunun bir mərhələsində Rüfətin gedişini görən Arturun atası tez ucadan dedi:

– Baxın, bu xanadakı ağ fili bura oynamaqla Rüfət Mamedov səhv etmişdi. O bunu deyib, sağ əlini uzatdı və fili əlinə götürüb yuxarı qaldırdı. Leyla onun əlinə və əlindəki Rüfətin ağ filinə diqqətlə baxdı, xatırladı bu şəxsi harada görmüşdü. Sonra diqqətlə onun üzünə, gözlərinə baxdı. O idi, dəqiq yadına düşdü.

Arturun atası ucadan izah etməkdə davam edirdi.

– Bu gediş səhv idi və bu fili xilas etmək mümkün deyildi. Mən də bu anı görüb, oğlumun qələbə çalacağına, gümüş medalı alacağına əmin olub, sevinirdim. Digər oyunlara baxıb, qayıdanda onun uduzduğunu gördüm.

Faiq müəllim Rüfətin əslində səhv yox, əksinə, çox güclü gediş etdiyini görürdü. Fili Arturun atasının əlindən alıb, yerinə qoydu və dedi:

– Oyunun ardına baxaq!

Rüfət yenə oyunda sonrakı gedişləri göstərməyə başladı. Doğurdan da Rüfətin filini rəqib vurdu. Ancaq iki gediş sonra Rüfət vəzirlə onun şah və topunu açılmaza salıb, ya mat olmaq, ya da topu qurban vermək məcburiyyətində qoydu. Mübahisəni izləyənlər və komissiya üzvləri doqquz yaşlı şahmatçının cəsarətli və sirli gedişinə mat qalmışdılar.

Əsas məsələ də o idi ki, komissiyanın araşdırmasından sonra məlum oldu ki, Leylanın şahmat oyunundan heç bir bilgisi yoxdur. Do-

gurdan da, Leyla heç vaxt şahmat oynamamış, heç fiqurların gedişini də bilmirdi. Sonralar da bu oyunu öyrənməyə maraq göstərməmişdi.

Bütün bunlardan sonra həqiqət ortaya çıxdı. Arturun atasına izah etdilər ki, oğlu doğurdan da uduzub, Rüfətin gedişi isə səhv yox, çox güclü gediş olub. Artur Mirzoyan özü də uduzduğunu etiraf etdi. Atası qızardı.

Rüfət doqquz yaşı olmasına baxmayaraq, on beş yaşlılara qədər olan oyunçular arasında üçüncü yerə çıxdı.

Leyla Artur Mirzoyanın atasını qırağa çəkib, heç kimin eşitməməsi üçün yavaşcadan dedi:

– Mən sizi çoxdan tanıyıram.

– Haradan tanıyırsız? - O əsəbi şəkildə dedi.

– Mən elə bilirdim ki, siz o hadisədən sonra bir daha pis iş tutmazsınız. Həmişə haqqın, ədalətin yanında olarsınız... - Leyla diqqətlə onun gözünün içinə baxaraq, gülümsəyib dedi:

– Anlamadım? Hansı hadisə? Sözünüz varsa, deyin, yoxsa, vaxtımı almayın. Və bilin ki, kiminlə nə danışırsız. Sizi bilmirəm kimsiniz, mən öz ölkəmin tanınmış hüquq vəkiliyəm... - Orta boy, nisbətən kök kişi dedi.

– Ooo, nə yaxşı, mən də vəkiləm. Biz həmkarıq ki, buna sevinmək istədim. - Leyla dedi.

– Özünüz bilin, sevinirsiz, kədərlənirsiz! Mən getdim. - Vəkil dönüb getmək istədi. Leyla tez dedi:

– Dayanın! Mən sizi sağ əlinizdəki qara ləkədən tanıdım və sizi o vaxt İrəvan Bazarında soğan oğurlayanda milislərdən müdafiə etməyim, mənim tələbə olmadan etdiyim ilk və uğurla vəkillik işim idi.

Soğan sözünü eşidən kişinin gözləri bərəldi, qulaqları qızardı, alnı ilə birlikdə geriyə dartıldı. Leyla gülümsəyib dedi:

– Narahat olmayın, mən indi də kasıb tələbənin soğan oğurlamağına pis baxmıram və o vaxt sizi müdafiə etdiyimə peşiman deyiləm. Çünki, ehtiyyacdan oğurluq etmək, şöhrət üçün şər atmaqdan daha ləyaqətli işdir...

* * *

Bir il sonra iyun ayında Rüfət Avstriyada keçirilən mötəbər yarışa dəvət aldı. Bacılarını, eləcə də, övladlarını heç vaxt tək qoymayan Leyla bu dəfə də Rüfətlə birlikdə getmək qərarına gəldi. Keçdiyi həyat yolu və xarakteri Leylada maraqlı, faydalı adətlər, vərdişlər sistemi yaratmışdı. O, həmişə istəyirdi ki, yaxın insanların, xüsusilə bacıları və övladlarının görəcəkləri mühüm işləri yaxından müşahidə etsin, nəzarətdə saxlasın. Elə bilirdi ki, o baxmasa bu işlər nə isə düz, yolunda getməyəcək. Necə ki, gedib Zəhra ilə Yasəmənin dərslərində otururdu, o cür də Rüfətlə məşğul olurdu. Düzdür, Leyla şahmat oynaya bilmirdi. Ancaq Səriyyə necə ki, təhsilsiz ola-ola qızlarının dərslərinə nəzarət edirdi. O da Rüfətin oyunlarına elə nəzarət edirdi. Leylanın yeddi yaşında, Rüfətdən üç yaş kiçik Nəzrin adlı qızı da var idi. Nəzrin dil öyrnməkdə maraqlı idi. Elə Rüfətin özü də dil öyrənməkdə istedadlı idi. Onlar bu istedad və həvəsləri, Leylanın nəzarəti sayəsində sonralar dörd dil öyrənmişdilər.

Leylaya bəzən də elə gəlirdi ki, Rüfət o qədər qəlbi təmiz, sadə, təvazökar uşaqdı ki, həlledici məqamda rəqibi ondan xahiş etsə, ona özü qəsdlə uduzar. Rüfət doğurdan da çox safqəlbli idi. Ancaq bütün analar kimi Leylanın da düşündüyü qədər sadəlövh deyildi və oyunda rəqibinə güzəşti heç vaxt sevməzdi. Oyunda Rüfətin şahı həyatdakı "MƏNİN"dən çox qəddar idi. Rüfətin əqidəsi belə idi ki, oyunda səhv etmək, səhlənkarlıq, məsuliyyətsizlik, güzəşt etmək uğursuzluq gətirir və sonra istədiyi kimi yaxşı oynaya bilmir. Bir sözlə, həyatdakı Rüfətlə, oyunçu Rüfət fərqli idi.

... Onların gəldikləri şəhər Avropanın ən gözəl kurort şəhərlərindən biriydi. Bu şəhərin yaşıllıqları, qədim və müasir memarlıq ənənəsilə tikilmiş binaları, geniş və təmiz küçələri Leylanı valeh edirdi. Xüsusilə, insanları çox mədəni və mehriban idi. Bu insanlar yolda bir-birlərini gördükdə, tanımasalar da gülümsəyir, "qud" deyib, keçirdilər. Leylanı daha çox təəccübləndirən şəhər sakinlərinin nizam-intizam, dəqiqliyi və bir-birlərinə inamıydı.

Qaldıqları otelin inzibatçısı pulları masanın üzərində qoyub, harasa gedərdi. Heç kim o pullara əlini vurmazdı və yaxud mağazada satıcı vacib iş üçün oranı tərk edərdisə, yemək yeməyə gedərdisə,

müştəri gələr, nə lazımdırsa götürər, pulunu kassanın yanına qoyub, gedərdi. Hətta, bir dəfə Leyla bir şəhər sakinindən doğurdan da bunun belə olduğunu, insanlar nə üçün belə etibarlı olduğunu soruşmşdu. O şəxs isə cavabında demişdi ki, "Bəlkə də , yüz il olar ki, bu şəhərdə oğurluq hadisəsi qeydə alınmayıb". Leyla özü bir daha bunun şahidi oldu. Otelin ön tərəfində zəng etmək üçün avtomat telefon köşkünə gəldi. Yoldaşı Əliyə zəng edib, kef-əhval tutdu. Nəzrini soruşdu. Sonra qayıdıb, oteldə qaldığı nömrələrinə gəldi. Rüfət ciddi şəkildə sabahkı oyuna hazırlaşırdı. Başları qarışdı söhbətə, üç-dörd saat sonra pul kisəsini həmin telefon köşkündə unutduğunu xatırladı. Tez Rüfətlə ora gəldilər. Bu vaxta qədər bəlkə (,) on-on beş nəfər o köşkdən istifadə etmişdi. Elə indi də orta yaşlı, mavi gözlü, sarışın bir xanım kiminləsə danışırdı. Onları görüb gülümsədi və "qud" dedi. Leyla da salam verib, telefon aparatının alt tərəfində, kiçik çıxıntının üzərində qoyub, unutduğu pul kisəsini götürmüşdü.

Avstriyanın bu şəhərindəki insanların Leylanın tarix kitablarından oxuduğu ibtidai icma qurluşundakı bəşər övladları kimi elə bil pula ehtiyyacları yox idi. Bu cür bir-birinə hörmət və inama bir də islamın ilk dövrlərində Peyğəmbərin (s.a.s) sağlığında müsəlmanların cəmiyyətində rast gəlib, oxumaq olardı. Nəhayət (,) kommunist partiyasının uzun illər sosializmdən sonra qurulacaq "kommunizm" quruluşunun mühüm elementləri kimi təsvir olunan "Nədən, hansı miqdar lazımdır, götür apar", " Daha pula ehtiyyac qalmayacaq" təsəvvürlərilə uyğun gəlirdi. Leyla düşünürdü ki, elə kommunizm bu şəhərdə qurulub. Onu şəhərin sakinlərinin əksəriyyətini təşkil edən almanlar qurublar. Yəqin almanlar gördülər ki, dünyanı hərblə işğal edə bilməyəcəklər, başladılar mədəniyyətin yüksək forması ilə kommunizm ideyalarının gerçəkləşməsi yolu ilə bu arzunu həyata keçirsinlər.

Əslində, dünya tarixi boyunca işğal etmənin səbəbləri, məqsədləri eyni - hakiməyyət və mülkiyyət qazanmaq metodları fərqli olmuşdu. Gah dini, vətənpərvərlik, gah da mədəniyyət, demokratiya, azadlıq və s. şüarlarla insanları aldadıb, müharibə etmişlər. Kasıblar döyüşmüş, varlılar isə qazanclarını göz önünə gətirib alqışlamışdılar.

Sarsaqlar ideya ixrac edib ad, hiyləgərlər kapital, şöhrətpərəstlər vəzifə qazanmışdılar. Leyla oyunlardan sonra Rüfətlə şəhəri gəzdikcə, bu barədə düşünür, bəzən isə bu fikirləri başından uzaqlaşdırıb, muzeylərdən, memarlıq abidələrindən zövq alırdı.

Parisdə olduğu kimi burada da sonuncu gün bərk sıxılmağa, Bakı üçün darıxmağa başladı. Elə bil, yenə də oradakı yaxınlarını nəzarətsiz qoymuşdu. Bakı bir beşik, yaxınları da oradakı qayğıya ehtiyyacı olan, boylanıb ona baxan uşaqlar idilər.

... Sonuncu qarşılaşma idi. Rüfət indiyə qədər çox yaxşı çıxış etmişdi. Alman rəqibinə də qalib gələ bilsəydi, qızıl medal alacaqdı. Lakin Şərq müdrikliyinin sirli gedişləri alman dəqiqliyinin kənar məntiqini keçə bilmədi. Sirli gedişlər dəqiqliklə eyni sıxlığa malik olub, bir-birlərini batıra bilmədilər, oyun heç-heçə başa çatdı. Rüfət ikinci yerə çıxıb, gümüş medal qazandı.

Otelə gələnə qədər heç biri dinmədi. Rüfət bilirdi ki, anasının ona acığı tutub. Onu da bilirdi ki, şahmat oynamağı bacarmayan anasına alman rəqibinin necə məntiqli və dəqiq oynadığını izah edə bilməyəcəkdi.

Onlar öz nömrələrinə gəldilər. Leyla çarpayıya uzanıb, tavana baxırdı. Susmuşdu. Onun heç nə deməməsi Rüfəti lap dilxor edirdi. Nəhayət, gülümsəyərək dedi:

– Ana, bilirsən 1888-ci ildə dünyaya kim gəlib?

Leyla anladı ki, Rüfət onun könlünü almaq üçün nəsə fikirləşib. Ancaq heç cür onunla xoş danışmaq istəmirdi, qızıl medal almadığını ona bağışlaya bilmirdi. Leylanın da qəribə, təzadlı xarakteri var idi. O, bacılarına və övladlarına qarşı ipək kimi yumşaq, qayğıkeş olsa da, imtahanda, yarışda olan məğlubiyyəti, uğursuzluğu bağışlamırdı. Bu barədə rəhmsiz idi. Bəlkə də, Rüfətin oyunda güzəştsiz olması anasından keçmə xarakter idi.

Leyla təəccüblə ona baxıb, kinayəli səslə dedi:

– Biz bura şahmat oynamağa gəlmişdik, ya tapmaca tapmağa?

– Doğurdan bilmirsən? - Rüfət bir də soruşdu.

– Yox, bilmirəm, sən bilirsənsə, de.

– Kapablanka.

– O kimdi? Mən belə şəxs tanımıram. - Leyla dedi.

– Xose Raul Kapablanka. Kubalı şahmatçı. O, otuz üç yaşında Emanuel Lasker üzərində qələbə çalaraq, üçüncü dünya çempionu olmuşdu.

– Hə, nə olsun ki?

– O olsun ki, ondan düz yüz il sonra mən dünyaya gəlmişəm. İndi mənim on yaşım var. Mən də dünya çempionu olacağam. Buna iki yüz faiz inanıram. - Rüfət əzmlə dedi.

– Sən şahmatı da bu məntiqlə oynayırsan?

– Hansı məntiqlə? - Rüfət pərt olmuş halda dedi.

– Əvvəla, budur ki, yüzdən o tərəfə faiz olmur. İkincisi də sənin deyişindən belə çıxır ki, Hitlerdən yüz il sonra yeni Hitler doğulacaq? Kapablankadan yüz il əvvəl də başqa Kapablanka var idi? - Leyla dedi.

Rüfət diqqətlə ona baxıb:

– İcazə ver, bir az düşünüm - dedi.

Rüfət şahmat vərdişindən irəli gələn, həmçinin xarakterinə uyğun olaraq məntiqi sual-cavabda heç vaxt məğlub olmaq istəmirdi.

– Yox, icazə vermirəm, sözü demisən, dərhal çıxan suala cavab verməlisən. Yəni, gedişi etmisən, rəqib cavab verib, sən də dərhal oynamalısan. Iki gediş qabağı bilmirsənsə, səndən şahmatçı olmaz. - Leyla qaşqabaqlı halda dedi.

– Ana, sən lap mahir şahmatçı kimi danışırsan. - Rüfət gülərək dedi.

– Araya söz qatıb, fikirləşməyə vaxt qazanma.

– Yüzdən yuxarı, iki yüz faiz ola bilər. Məsələn, iki dəfə dünya çempionu olarsan, olar iki yüz faiz. Hitlerdən yüz il sonra başqa bir şəxs dünyaya gələr, adı Hitler olmaz, ancaq istedadlı olar. Kapablankadan da yüz il əvvəl istedadlı insan doğulub, bunlar yüz faiz belədi. Lakin şəraitlər müxtəlif olub və o insanların həvəsləri başqa sahələrə yönəlib. Odur ki, biz ikinci Hitlerə, əvvəlki Kapablankaya rast gələ bilmirik... Mən də Kapablankanın özü olmaq istəmirəm ki, sadəcə, dünya çempionu olmaq istəyirəm.

Leyla gülüb dedi:

– Bu cür məntiqlə və oyunla ola bilməzsən. Onun üçün daha çox çalışmalısan. Fantaziyalarını məşq etdirməlisən. Məntiqini sadələş-

dirməli və dəqiqləşdirməlisən. Sən Kapablanka kimi yox, Rüfət kimi dünya çempionu ola bilərsən.

Rüfət gülüb dedi:

– Bir az əvvəl mən də eyni sözü dedim.

– Hə, birdə eşitmişəm ki, sən sirli gedişlər edirsən. Bilirsən, sirli gedişləri nədənsə, Şərqin min bir gecə nağıllarına bənzədirəm. Sən şahmatı gələcəkdə əsasən Avropada rəqiblərlə oynayacaqsan. Onlar isə sirli deyil, məntiqli və dəqiq gedişlər edirlər.

– Əslində, ən sadə və dəqiq gediş, daha çox sirli görsənir. - Rüfət dedi və gülümsədi.

Leyla bir az düşünüb dedi:

– Səni təbrik edirəm, gümüş medal qazandın.

– Qəbul etmirəm. - Rüfət etiraz etdi.

– Niyə? - Leyla təəccüblə soruşdu.

– Ona görə ki, ürəkdən demirsən. Sən qızıl gözləyirdin.

– Ürəkdən deyirəm. Sən çox güclü şahmatçısan, milyonların içindən seçilən insansan. İnanıram ki, dünya çempionu olacaqsan.

– Təsəlli? - Rüfət gülümsədi.

– Uşaqlara və məğlublara təsəlli verirlər. Sən indi də qalib və çempionsan. Nəzərə alsaq ki, keçən ilki yarışlarda və indikində rəqiblərin səndən üç-dörd yaş böyük olurlar, onda əsl qızılı sən almış olursan.

– Bəs, niyə bayaqdan başqa cür danışırdın?

– Neyləyim, xarakterim belədi. Həmişə birinci olmağını, heç vaxt uduzmamağını istəyirəm.

– Əsl sirli anasan... - Rüfət güldü.

– Yox, məncə, bütün analar belədi və bu ən sadə, dəqiq hisslərdi. Odur ki, sirli görünürlər. - Rüfət onun bu sözlərinə ucadan güldü. Leylada ona qoşulub güldü.

* * *

Leyla həmin ilin payızında Rüfətin iştirak etdiyi, İspaniyada keçirilən daha bir mötəbər yarışda onu müşahidə etdi. Bu yarışda Rüfət anasını ürəkdən sevindirə bildi. O, ən yüksək xal qazanaraq, birinci yerə çıxdı. Sevinclə Bakıya qayıdan Leyla burada xoşagəlməz bir xə-

bərlə qarşılaşdı. Onu beş il idi ki, vəkil işlədiyi hüquq məsləhətxanasından digərinə keçirmişdilər. Bu hüquq məsləhətxanası Leyla üçün xüsusi əhəmiyyət kəsb edir, tələbəlik xatirələrinin divarlarda, pəncərələrdə çöküb qaldığı məkan idi.

Leylanın ailə qurduğu Əli ondan bir kurs yuxarı, rus sektorunda oxuyurdu. O universiteti bitirib, təyinatını nəqliyyat prokurorluğuna almışdı. Leyla beşinci kursda oxuyanda təcrübəni Əlinin yanında keçdi. O vaxt Əli burada müstəntiq işləyirdi. Leyla hüquq fakultəsinə daxil olmaq istəyəndə, orada oxuyanda həmişə arzusu prokuror olmaq olmuşdu. Lakin Əlinin yanında təcrübədə olanda baş vermiş bir hadisə onun fikrini tamam dəyişdi. Bir gün Əlinin yanında 30-35 yaşlarında bir kişi gördü. O şəxs az qalırdı yalvarsın ki, onu həbs etməsinlər. Leylanın o kişiyə yazığı gəldi, işlə maraqlandı. Məlum oldu ki, bu kişi kasıb bir taksi sürücüsüdür. Bakı ətrafındakı qəsəbələrdən birində qalır. Qonşuda kimsə ikimərtəbəli, böyük bir ev tikdirir, həyəti doludu tikinti materialı ilə. Taksi sürücüsünün yoldaşı da hər gün danlayır ki, yağış yağanda toyuq hinini su basır, üç-dörd ədəd şifer alıb, gətirib bu hinin üstünə qoymursan. Kişi yazıqda güclə uşaqlarını dolandırır, hər gün deyir alacam, ancaq ala bilmir. Axirda bezir, gecə qonşunun həyətindən üç-dörd şifer, beş-altı armatur oğurlayır. Sən demə, bu həyətdən çox şey oğurlayırmışlar, ev yiyəsidə hər gün sement, taxta, armatur və s. oğurlandığını görsə də, oğrunu tapa bilmir. Qonşusu taksi sürücüsü Haxverdinin həyətindəki toyuq hininin üstündə şiferlərini görür, onu polisə deyir. Qalan materialların da onun oğurladığını iddia edir.

Haxverdi nə qədər yalvarıb-yaxarsa da xeyiri olmur. Əli deyir ki, bu oğurluqdur, cinayyətdir.

Üç qız uşağı olan Haxverdiyə Leylanın yazığı gəlir. Düşünür ki, bu şəxsi həbs etsələr, onun qızlarına kim çörək qazanıb gətirəcək? Ən əsası da bu şəxs həbs olunarsa, cəmiyyət nə itirib, nə qazanacaq? O, düşündüyü sualları Əliyə verir. Əli isə belə cavab verir:

– İndi sən deyirsən ki, biz qanunları qoyaq kənara, cinayətlərə səbəbiyyət donu geyindirək, cinayətkarı həbs edəriksə "cəmiyyətə bu-

nun faydası nədir?" prizmasından yanaşaq? Onda, heç kimi gərək , həbs etməyək...

Leyla Haxverdinin işilə daha yaxından tanış oldu və Əliyə dedi:

– Bu adam doğurdan da 3-4 şifer, beş-altı armatur oğurlayıb, qalanlarından xəbəri yoxdu. Mən onun qonşusunu çağırıb, dəyən ziyanı ödədim. Həm də başa saldım ki, digər materiallarını bu şəxs oğurlamayıb. Bundan sonra da evini yaxşı qorusun ki, qonşusunu oğru tutmasın. O da razılaşdı, şikayət ərizəsini geri götürdü. Səndən də xahiş edirəm ki, kömək elə, bu sürücü, xüsusilə qızları yazıqdı, çıxsın getsin evinə-eşiyinə.

Əli Leylanın bu məsələdəki mövqeyinə hörmətlə yanaşmış, prokuror qarşısında məsələ qaldırmış, xahiş etmiş, Haxverdini həbsdən qurtarmışdılar.

Elə o vaxtdan Leyla fikrini dəyişmişdi. Prokuror yox, vəkil olmağa qərar vermişdi. Düşünmüşdü ki, onsuz da dövləti, qanunları müdafiə edən çox adam tapılacaq. Çünki, dövlət və qanun güclüdür. Güclünün tərəfini isə təbiətdə və cəmiyyətdə tutan çox olar. Müttəhimlərin, onların içərisində çoxlu kasıb, köməksiz, öz hüquqlarını bilməyən çoxlu insanlar var ki, onların bəziləri adi, mənasız hadisələrdən ötrü illərlə öz və yaxınlarının ömürlərini puç edirlər. Onların hüquqlarını müdafiə etmək güc və bəşəri qeyrət tələb edir. Bu, həm də ilahi xeyirxahlıq, savab işdir.

Bu hadisədən sonra da Əli ilə Leyla arasında qanunu və müttəhimi müdafiə etmək uğrunda çoxlu mübahisələr olmuşdu. Evdə, ailədə bir sözünü iki etmədiyi həyat yoldaşına Leyla iş barəsində, ədalət mübarizəsində heç bir güzəşt etməmişdi. Hətta (,) bir dəfə eyni məhkəmədə Əli prokuror, Leyla vəkil kimi iştirak etmişdilər... Leyla var qüvvəsini toplayaraq, həmişəki kimi barışmaz mövqe tutaraq, müdafiə etdiyi şəxsin həbs olunmasının qarşısını almışdı.

Leyla vəkili olduğu şəxslərin nə qədər pul verib, verməyəcəyindən asılı olmayaraq onları var gücü ilə, qanun çərçivəsində, vicdanla müdafiə etmişdi. Hətta, bəzən digər vəkil həmkarlarının gülüş obyektinə də çevrilmişdi. Maddi imkanı olmayan kasıb müştərilərindən pul almamış, özü onlara xərcləmişdi.

Bakı Dövlət Universitetini qırmızı diplomla bitirdikdən sonra Leylaya Bakıda işləmək üçün təyinat verdilər. Lakin həyat yoldaşı prokurorluq orqanlarında işləyir deyə, ona da bu orqanlarda iş təklif olunmadı. Buna icazə vermədilər. Ədliyyə, polis sistemlərində işlər təklif olunsa da, qəbul etmədi. Mərdəkanda yerləşən bir hüquq məsləhətxanasında vəkil kimi işləməyə razılaşdı və təyinat aldı. Orada yeddi il vəkil işlədi. Həmişə ədalətin, haqqın dostu oldu. Artıq onda həqiqəti müdafiə etmək üçün şərlə mübarizə aparmağın mütləq olduğuna heç bir şübhə qalmamışdı. Və qanunun doğru tətbiqinin, cəmiyyətin tarazlıqda olmasının əsas şərtlərindən olduğu qənaətinə gəlmişdi.

Yeddi il sonra Leylanın iş yerini dəyişdilər. O, yeni iş yerinə gəldi. Şərq Bazarı tərəfdə, tələbə vaxtı kirayə qaldıqları evin yaxınlığında olan hüquq məsləhətxanasına...

Leyla bu binaya daxil olanda gözləri yaşardı, oturub ağladı. Heç kim heç nə anlamadı. Hüquq məsləhətxanasının müdiri nə qədər etdisə, Leyla heç bir söz demədi. Yalnız gəlib pəncərədən kirayə qaldıqları evə tərəf baxdı, qeyri-ixtiyari olaraq pərdəni çəkdi ki, birdən həyətdəki insanlar görərlər. Sonra iti nəzərlərlə otağın səliqə-səhmanına, masaların üstünə, şkafların taxtalarına, şüşələrinə baxdı. Onların təmiz olub-olmamasına baxdı, xadimənin işinin çox və ya az olacağını düşündü.

Burada Leyla beş il işlədi. Ondan əlavə bu hüquq məsləhətxanasında iyirmiyə yaxın vəkil işləyirdi. Ancaq ora müraciətə gələn, vəkil tutmaq istəyən vətəndaşların əksəriyyəti Leylanı axtarır, onu özlərinin müdafiəçisi kimi görməyə çalışırdılar. Hətta, o işdə olmayanda, əyləşib gözləyirdilər. Leyla bu inamı və etibarı cəsarətlə haqqı müdafiə etdiyi üçün qazanmışdı və bütün bunları məşhurluq, şöhrət üçün deyil, həqiqət üçün etmişdi. Başqa cür edə bilməzdi. Onun xarakteri, əqidəsi nəyi diktə edirdisə, Leyla o cür idi.

... Hələ Rüfətlə birlikdə Parisə gedəndə, ondan nə işlə məşğul olduğunu soruşan əcnəbilərə : "vəkiləm", - dedikdə, nə cür hörmətlə yanaşdıqlarını hiss etmişdi. Başa düşmüşdü ki, burada, Avropada vəkillik çox hörmətli peşədir. O da nəzərindən qaçmamışdı ki, bura-

da vəkillərin şəxsi ofisləri də var və qərara gəlmişdi ki, Bakıda şəxsi ofis açıb, fərdi vəkilliklə məşğul olsun. O, Parisdən döndükdən sonra belə də etmişdi. İşlədiyi hüquq məsləhətxanasına yaxın bir yerdə binanın birinci mərtəbəsindən ev aldı. Oranı yaxşı təmir etdirib, vəkillik fəaliyyəti göstərmək üçün şəxsi ofisi etdi. Həmin dövrdə şəxsi ofisi olan tək-tük vəkillərdən biri oldu. Həm burada, həm də hüquq məsləhətxanasında fəaliyyət göstərməyə başladı.

İndi İspaniyadan qayıtdıqdan sonra iş yerinin dəyişildiyini eşitdi. Buna çox dilxor oldu, əsəbləşdi. Çünki, qanuna görə vəkilin iş yerini dəyişəndə özünün xəbəri olmalı, razılıq verməliydi. Lakin ona heç bir bildiriş etmədən, rəyini öyrənmədən iş yerini vəkillər kollegiyasından dəyişdirməkləri heysiyyatına toxundu.

Rəhbərlik bunu belə izah etdi ki, yeni hüquq məsləhətxanası daha yaxşı yerdə - Dəniz kənarı Milli Parka yaxın ərazidə yerləşir, ora ən yüksək səviyyəli iş yeridi. Həm məşhur bir yerdir, həm də geniş, təmirli otaqları var. Ancaq bütün deyilənlər Leylanın ağlına batmadı, onun razılığı olmadan iş yerinin dəyişdirilməsini özünə qarşı hörmətsizlik kimi qəbul etdi.

Köhnə iş yerinə o təkcə vəkil kimi işlədiyi hüquq məsləhətxanası kimi baxmırdı. Eyni zamanda, tələbəlik dövrünün altmış manata işlədiyi iş yeri kimi baxırdı. Leylaya elə gəlirdi ki, oradan getsə, bacıları ilə kirayə qaldığı həyəti, evi bir daha görməyəcək. Çətin günlərində xeyirxah Hacının sayəsində tapdıqları iş yerini birdəfəlik itirəcəklər, yenə suxarıya yağ çəkib yeyəcəklər.

Leyla həm də düşünürdü ki, bu iş yerindən çıxsa, vəkil dostlarına, oradakı keçmiş və bu günkü xatirələrinə xəyanət edəcək. Başlıcası isə, buranın səliqə-səhmanı pozulacaq, yer-yurdu kağız qırıntıları, dolduracaq, hər yanı toz basacaq, pərdələr çirklənib qalacaq.

Nəhayət, Leyla xatirələrilə vidalaşmağın zamanın tələbi olduğunu anladı. Başqa çıxış yolu da yox idi. O, qovuşmaqdan sevinən göz yaşları ilə gəldiyi iş yerini, ayrılıq kədərilə yaranan göz yaşları ilə tərk etdi.

# V FƏSİL

*Çünki, təbiət və həyatın özü tarazlıqdan çıxmanı heç vaxt bağışlamır.*

* * *

*Onun qaladığı kiçik ocaqları vaxtilə üfürüb böyük tonqallara çevirən həyat, indi çiskinlə, dumanlarla söndürmək istəyirdi.*

* * *

*Bilirsən, qızım, məncə, ruhi xəstə insanlar sağlığında biz görmədiklərimiz aləmləri görürlər, eşitmədiklərimizi eşidirlər. Və onların etdiyi əməllər, danışdıqları sözlər ağıl və iradələrindən kənar olduğu üçün "Qiyamət günü" sorğu-sual olunmazlar, "cənnətə" gedərlər.*

* * *

*Eləcə də, gündüz səmaya baxanda ulduzları görə bilmirik, ancaq onlar elə orada, gecələr gördüyümüz kimi yerindədirlər. Heç bir əməl, söz, hadisə itmir, sadəcə, parçalanır və kainatda qalır.*

* * *

*Əslində, böyük var-dövlət günahlar və cəzalar çoxluğu deməkdir. Məsələn, haram yolla tikilmiş bir villanın hər daşını daş üstə qoyan şəxs, suda əks olunan obyekt kimi o dünyasında da bir günah və cəza üst-üstə qoyub özü üçün tikir. Burada nə qədər böyükdürsə, orada da o qədər böyük olacaq.*

* * *

*Həm də insan gərək, həmişə öz şərəfini, ləyaqətini zirvələrdə görsün. Onların dərəyə enməsini görən insan artıq "ölü" sayılır.*

* * *

*Dünyanı tarazlıqdan çıxartmağa, "Qiyamətə" doğru aparmağa səbəb olan, görünməyən qüvvələrin mübarizəsiydi. Həqiqətlə, div ayaqlı, iyrənc ürəkli, yekə başlı örtülü qüvvələrin mübarizəsiydi...*

Bakı bulvarı Leylanın ən çox sevdiyi məkanlarındanıydı. O, bura tez-tez gələrdi. Xüsusilə, çətinə düşdüyü, özünü sahilləri görünməyən fırtınalı dənizdə, həmişə mənəvi dayaq nöqtəsi hesab etdiyi qanunun aliliyinə inamdan başqa köməyi olmayan çıxılmaz vəziyyətlərdə hiss edəndə Xəzəri görmək istəyərdi. Həm də tək, piyada gəzməyi xoşlayardı. Təklikdə öz "MƏNİ" ilə söhbət etməkdən daha çox rahatlandığı, güc aldığı ikinci bir şey yox idi.

İndi də xeyli piyada gəzib, yorulmuş, oturacaqlardan birində əyləşərək, dənizə, qağayılara baxırdı. May ayının ortaları idi. Bu vaxtlar Dəniz kənarı bulvar xüsusən gözəl olurdu. Buradakı daş palıd, qovaq, çinar, göyrüş ağacları yamyaşıl olur, çiçəklər açırdı. Onlardan gələn ətirlər biçilmiş biçilmiş çəmənin, dənizin xüsusi ətirləri ilə qarışaraq, özünəməxsus aromatlı təmiz hava yaradırdı. Ailəvi gəzən insanlar, sevən cütlüklər, qağayılar, qumru quşları və nəhayət, Xəzər dənizi görüntüləri insanın xəyallarını mövcud zamandan ayırıb, keçmişə, gələcəyə daha sürətlə aparırdı.

Leyla qağayılara və dənizə baxa-baxa tələbəlik xatirələrini, nişanlandıqdan sonra Əli ilə burada gəzdiklərini, vəkillik etdiyi dövrlərdə başına gələn hadisələri xatırlayırdı.

Bir dəfə nazirliklərin birində yüksək vəzifədə işləyən bir şəxsin öz katibəsi tərəfindən şərlənərək, həbs edildiyi vaxt ona vəkillik edirdi. Gedib həbsxanada o şəxslə görüşəndə həmin adam Leylaya baxıb, istehza ilə gülümsəyib:

– Mən boyda insanı bu arıq, qara qız burdan çıxaracaq? Bakı şəhərində bundan daha bazburdlu bir vəkil tapmadız? - demişdi. Onun yaxınları isə heç nə deməyib, başlarını aşağı salmışdılar. Ancaq Leyla o şəxsin haqsız yerə həbs olunduğunu bilirdi və özünün nə dediyinə fikir vermədi. Çünki, Leyla şəxsi yox, qanunları müdafiə edirdi. O, həmişə düşünür və həmkarları arasında deyirdi ki, "Bir Allahdan, bir

də qanundan qorxuram. Vəkillər qanunların sərhədlərini qoruyan əsgərlərdi". Leyla o şəxsi müdafiə edib, öz iş yoldaşları tərəfindən öyrədilən katibəsinin şərlədiyini sübut etdi və bəraət qazandıra bildi. Onun təklif etdiyi əlavə puldan isə "əvvəlcədən necə danışmışıq, o mənim halal pulumdu. Siz mənim müdafiə etdiyim çoxlu sayda vətəndaşlardan birisiniz və onlarla bərabər boydasınız" , - deyib, imtina etmişdi.

Leylanın bacısı Zəhra ilə işləyən prokurorla mübahisəsi yadına düşdü. Öz-özünə gülümsəyib, sonra dərindən nəfəs aldı.

Leyla nə Zəhranın, nə də Sevdanın vəkil olmaqlarına razı olmamışdı. Onlara inadla bildirmişdi ki, başqa sahələrdə özlərinə iş tapsınlar. Fikrini də belə əsaslandırmışdı ki, vəkillərin işləri ağır, təhlükəli olur. Əvəzində isə onlara lazımi hörmət qoyulmur.

Zəhra Bakı Şəhər Prokurorluğunda prokurorun böyük köməkçisi vəzifəsində işə düzələ bilmişdi. Onun burada işə düzəlməsində atası Oktayın Bakı Şəhər Prokurorluğunda işləyən bir dostu kömək etmişdi. Kömək sadəcə Zəhra öz biliyi ilə atestasiya imtahanından keçdikdən sonra onun haqq etdiyi işi digərləri tərəfindən zəbt edilməsinin qarşısının alınması olmuşdu. Həmin şəxs əvvəllər, sovetlər vaxtı Naxçıvanda işləyəndə həbs təhlükəsi yaranır. Oktayla dostluq edən bu şəxs tutulmaqdan canını qurtarmaq üçün qaçmaq qərarına gəlir. Oktay mərdlik göstərib, qapısına kömək istəməyə gələn, "zavodda yeyinti" işində adı hallanan müstəntiq dostunun qaçıb öz rayonlarına getməsinə yardım edir. İndi isə qızı Zəhranın vakant iş yerinə imtahan verdiyini, yüksək bal yığdığını biləndə, məsləhət edir ki, o şəxsi tapıb kömək etməyini xahiş etsin. Həmin şəxs də dostu Oktayın vaxtilə etdiyi yaxşılığı itirmir. Zəhranın işə qəbul olunmasına köməklik edir.

Zəhra işə başladıqdan, hələ hər şeyin yeni olduğu günlərin birində, Leyla bir şikayətlə prokurorun yanına gəlir. Prokuror Leylanı dinləyir. Bakıda tanınmış, vəzifəli bir şəxsin həbs olunduğunu və işi aparan müstəntiqin qərəzli əməllərini, ona dəxli olmayan cinayətləri yükləməyə çalışdığını deyən Leyla sübutların olduğu sənədləri pro-

kurora uzadanda, o əsəbləşərək üzünü böyük köməkçisi Zəhraya tutub deyir:

– Nə qədər demişəm ki, bu cür boş işlərlə məşğul olan vəkilləri mənim qəbuluma buraxmayın?! Mənasız işlərlə vaxtımı alırlar!

Zəhra qalır çaş-baş... Bilmir gülsün, ağlasın, nə etsin. Bir tərəfdə prokuror, onun çətinliklə qəbul olunduğu işi, digər tərəfdə isə ata, ana, qardaş olmuş bacısı Leyla...

Ancaq Leylanı nə Zəhranın işi, nə də prokurorluq orqanlarında işləyən həyat yoldaşı Əlinin təhlükə altına düşə biləcəyi maraqlandırmır. Daha doğrusu, o doğmalarını çox istəyir, qayğılarına qalır. Ancaq həqiqəti, ədaləti və qanunu onlardan da üstün tutur. Həyatın gedişləri doğurdan da sirlidir. Vaxtilə Leylanın prinsipiallığı, zəhmətsevərliyi həqiqətin, haqqın yanında dayanması bacıların ali təhsil almasına, yüksəlişinə səbəb olub, onları zirvəyə qaldırırdısa, indi onların, hətta, yoldaşı Əlinin də işlərinə təhlükə yaradır, zirvədən aşağıya itələyən qüvvəyə çevrilirdi. Belə hallar indi və sonradan çox olacaq. Sanki həyat bacıları Leylaya qısqanmış, onun altı bacının təhsil almasındakı rolunu təbii tarazlığın pozulması kimi qəbul etmiş, indi isə o gücün əks tərəfə yönəldərək, tərəzini düzəltməyə çalışmışdı. Çünki, təbiət və həyatın özü tarazlıqdan çıxmanı heç vaxt bağışlamır. Leyla indi və sonralar öz prinsiplərindən əl çəkməyəndə və bu səbəbdən də bacılarına, həyat yoldşına, yaxınlarına işlərində təhlükə yaradanda nə onları, nə də özünü başa sala bilmirdi. O, özü də tam anlamırdı ki, bu, həyatın sirli gedişləri idi. Onun qaladığı kiçik ocaqları vaxtilə üfürüb böyük tonqallara çevirən həyat, indi çiskinlə, dumanlarla söndürmək istəyirdi.

Prokurorun sərt reaksiyasına Leyla özünəməxsus, sakit və məntiqlə cavab verdi:

– Sizinlə mənim eyni "hüquq fakultəsi" diplomumuz var. Fərq yalnız vəzifədə, kürsüdədi. O da sizə yox, dövlətə məxsusdu. Odur ki, sizin mənimlə bu cür danışmağa ixtiyarınız yoxdu. Prokuror daha da əsəbləşdi:

– Çıxın bayıra, çağırıb sizi həbs etdirərəm!

– Mən sizin evinizdə deyiləm ki, məni qovasınız. Bura dövlət müəssisəsidi. Əgər belə deyilsə, qapınızın üstündən buranın sizin şəxsi

ofisiniz və ya obyektiniz olduğunu yazdırıb, asın. Məni isə heç vaxt həbs etdirə bilməzsiniz. Buna sizin kimi çoxları çalışıb, ancaq bacarmayıb. Bu, mənim arxamda dayanan güc təsəvvür etmədiyiniz qədər qüdrətlidi.

Onun bu sözlərindən çaş-baş qalan, həmişə vəkillərin, prokurorluq işçilərinin özündən qorxub, çəkindiyinə vərdiş etmiş prokuror səsini nisbətən aşağı salıb. :

– Kimə və nəyə güvənirsən belə? - soruşdu.

Leyla ayağa qalxıb ürəyində "Get qurban ol Zəhraya" , - deyib, Zəhranın üzünə baxdı. Zəhra elə baxırdı ki, sanki odla su arasında qalmış, çarəsizləşmişdi. Leyla əvvəl az qaldı gülsün. Sonra bacısına qayğıkeş nəzərlərlə baxıb, gülümsədi, prokurora:

– Mənim arxamda Allah, qanunlar və dövlətim dayanır. Sizlərin şəxsi düşüncələriniz, qanuna aid olmayan cılız hissləriniz və iddialarınızın gücü, enerjisi özünüzdən bir metrdə uzağa getmir, - deyib, prokurorun kabinetini tərk etdi. Sonda dediyinə nail oldu. Həmin vəzifəli şəxsi həbsdən azad etdirə, qanun aliliyini qoruya bildi.

... Bura boşdu, əyləşə bilərik? Qucağında iki-üç yaşlarında qız uşağı olan bir xanımın sualı, onu fikirlərindən ayırdı. Gülümsəyib dedi:

– Əlbəttə, buyurun əyləşin.

Qadın təşəkkür edib, əyləşdi. Leyla uşağa baxıb:

– Nə gözəl qızdı, Maşallah, Allah saxlasın, - dedi. Qadın da gülümsəyib:

– Çox sağ olun. Allah sizin də balalarınızı saxlasın. - Cavabını verdi.

Leyla bir az keçdikdən sonra saatına baxdı, ikiyə işləyirdi. O bərk acmışdı. Ayağa qalxıb, yavaş-yavaş yeriməyə başladı. Münasib bir yerdə günorta yeməyini yeyib, iş yerinə qayıtmaq istəyirdi. İşləri çox idi. Dünən onun yanına aran rayonlarından birindən iki nəfər gəlmişdi. Qardaşlarının şərlənərək, nahaqdan üstünə qətl hadisəsi atılaraq həbs edildiyini demişlər. Çox xahiş edib, yalvarıb ondan kömək istəmişdilər. Leyla onları bir az sorğu-suala tutduqdan, həqiqətə yaxın danışdıqlarına əmin olduqdan sonra kömək edəcəyinə, vəkil ola-

cağına söz vermişdi. Qardaşlar sevinərək, bu iş üçün nə qədər pul istədiyini soruşanda isə "kasıb adamlarsız, işi görək, müsbət nəticə əldə edəriksə, gücünüz nəyə çatır, verərsiniz", - demişdi. Həm onların rayonlarında iki il əvvəl bir qətl hadisəsində günahlandırılan sürücünün cinayətdə əli olmadığını sübut edə bildiyi üçün bacarıqlı vəkil kimi tanıdıqları Leylanı tapıb, razı saldıqlarından, həm də ondan əvvəl bir neçə vəkilin onlara "müdafiə" etmək üçün fantastik rəqəm demələri müqabilində indi "gücünüz çatan" sözləri eşitdiklərindən çox sevinən qardaşlar minnətdarlıq edib getmişdilər.

Leyla gəzə-gəzə gəlib saat qülləsinin yanına çatmışdı.

– Salam, qızım, sizi olar bir dəqiqə?

Leyla bu səsdən başını qaldırıb, onunla üzbəüz dayanmış 60-65 yaşlarında, saçlarının çoxu ağarmış bir kişini gördü.

– Buyurun, əmi, eşidirəm sizi. - dedi.

– Sizin adınız Leyla deyilki? - Həmin şəxs sual verdi.

Leyla gülümsəyərək:

– Bəli Leyladı!

– Məni xatırladınız? Sizinlə, atanız Oktayla birlikdə Naxçıvandan Bakıya yol gəlmişik, eyni vaqonda, kupedə.

Leyla diqqətlə ona baxıb sevincək halda:

– Bəli, xatırladım Qaya əmi! - deyib əlini ona tərəf uzatdı. Qaya onun əlini ehmal sıxıb, gülümsəyərək dedi:

– Necəsən, qızım, işlərin necədi? Bilirəm ki, istədiyinə nail oldun, hüquq fakultəsinə daxil oldun. Oktayı tez-tez rayonda görürəm, həmişə səni soruşuram.

– Çox sağ olun Qaya əmi. Hər şey yaxşıdı, siz necəsiz? Nə yaxşı sizi gördüm, çox sevindim.

– Hə, məndə sevindim. Bizdə də hər şey yaxşıdı. Şükür Allaha!

Leyla bir az fikirləşib, gülümsəyərək:

– Qaya əmi, bu bir xoş təsadüfdü, rastlaşdıq. Sizi hər zaman xatırlamışam, dediyiniz qiymətli sözləri unutmamışam. Gəlin, gedək, yaxınlıqda yaxşı kabab verirlər, həm yeyərik, həm də söhbət edərik, - dedi.

– Çox sağ ol qızım. yemək yox, çay olsa içərəm.

– Hə, Qaya əmi, orada yaxşı çay da verirlər. - Leyla bunu deyib, qabağa düşdü.

Onlar gəzə-gəzə gəlib Leylanın ən çox xoşladığı "Mirvari" restoranına çatdılar. Üzü dənizə tərəf bir masada əyləşdilər. Leyla ofisiantı çağırıb kəkotulu çay, lülə, tikə kababları sifariş verdi. Sonra üzünü Qayaya tutub, kədərli halda dedi:

– Allah Məsmə bacıya rəhmət eləsin. Onun vəfat etməsini atam mənə dedi, çox pis oldum. Ancaq Məsməni heç vaxt unutmuram, çünki ona söz vermişdim ki, hər zaman xatırlayacam yol yoldaşlığımızı, dostluğumuzu. Allah yerini cənnət etsin!

Qaya siqaret çıxarıb, yandırdı. Bir qullab vurub dedi:

– Allah ölənlərinizə rəhmət eləsin, çox sağ ol ki, onu unutmursan. O həmişə elə bil mənim yanımdadı. Baxmayaraq onun vəfatından iyirmi ilə qədər zaman keçib, ancaq hər gözümü yumanda, ağaclar çiçəkləyəndə, qar yağanda, durnalar uçanda, bir sözlə, istənilən təbiət dəyişikliyində mən onu xatırlayıram. Bu çox qəribə və əzablıdı. Hələ də mən düşünürəm ki, onun üçün lazımi qayğı göstərə, vaxtında həkimlərə apara bilmədim.

– İnsanlar yaxınlarını vaxtsız itirəndə həmişə özlərini günahkar hesab edirlər. Ancaq mən şahidiyəm ki, siz onun qayğısına necə qalırdız, çox istəyirdiniz. Heç vaxt xətrinə dəymirdiniz. Məsmə gedib söyüd ağacının altında oturanda biz onu axtarıb əldən düşdük, ancaq tapdıqda siz heç onun xətrinə dəymədiniz. İnanıram ki, heç vaxtda dəyməmisiniz. Onun sağalmağı üçün hər nə lazımdısa, ürəkdən zəhmət çəkmisiniz. Məsmə çox yaxşı, pak qəlbli insan idi. İnşallah, yeri cənnətdə olar. - Leyla bunları deyib, köks ötürdü.

– Hə, mən də onunla təsəlli tapıram ki, onun yeri cənnətdə olar. Bilirsən, qızım, məncə, ruhi xəstə insanlar sağlığında biz görmədiklərimiz aləmləri görürlər, eşitmədiklərimizi eşidirlər. Və onların etdiyi əməllər, danışdıqları sözlər ağıl və iradələrindən kənar olduğu üçün "Qiyamət günü" sorğu-sual olunmazlar, "cənnətə" gedərlər. - Qaya bunları dedi və ofisiantın gətirdiyi çayniki götürüb, Leylaya və özünə çay süzdü.

Elə qaynar-qaynar da çayından bir qurtum içdi, armudu stəkanı yerə qoyub. Dənizə tərəf baxmağa başladı. Leyla da istədi çayından içsin, bərk suzmuşdu, ancaq çox isti olduğunu görüb, yerə qoydu. O, iş yeri bulvara yaxın hüquq məsləhətxanasına dəyişildikdən sonra bura tez-tez gəlir, dənizə baxa-baxa çay içməkdən zövq alırdı.

– Qaya əmi doğurdan bizim görmədiklərimiz görüntülər, eşitmədiyimiz səslər var?

Qaya gözlərini dənizdən ayırıb, çayından bir-iki qurtumda içib dedi:

– Əlbəttə, var. Təbiətdə və cəmiyyətdə hər zaman hərəkətlilik var. Sükunət ancaq ölümdə ola bilər. Hər bir hərəkətlilik, yerdəyişmə isə müəyyən səslə müşahidə olunur. Məsələn, yerdə qarışqa gəzirsə, torpaqda qurd sürünürsə, havada toz hissəciyi hərəkət edirsə - bütün bunların ətrafa yaydığı səs olur. Sadəcə, insan bu səsləri eşidə bilmir. Eləcə də, gündüz səmaya baxanda ulduzları görə bilmirik, ancaq onlar elə orada, gecələr gördüyümüz kimi yerindədirlər. Heç bir əməl, söz, hadisə itmir, sadəcə, parçalanır və kainatda qalır.

– Ən tez də yayılan yaxşı əməllər, savab işlərdi? - Leyla bunu deyib, güldü. Qaya da gülümsədi və dedi:

– Elədir. Demək, yadında qalıb.

– Hə, bütün söhbətləriniz yadımda qalıb. Əslində, mən o vaxt bizim bir yerdə yol gəlməyimizi, başımıza gələn maraqlı hadisələri təsadüfi hadisələr deyil, həyatın sirli gedişləri hesab edirəm. Həm də mənə fayda verəcək, sonralar həyatım boyu mənəvi kömək olacaq söhbətləriniz çətin vaxtlarda çox köməyimə dəydi. Buna, sizə həmişə minnətdar olmuşam.

– Elə isə, sən mənə yox, o sirli gedişləri gerçəkləşdirən Allaha təşəkkür etməlisən, Qaya bunları deyib, çayının qalanını da içdi. Yenidən özünə çay süzdü. Leyla da çayından bir-iki qurtum içib, dənizə tərəf baxdı. Uzaqdan görünən, insanları qısa səyahətə aparan ağ rəngli gəmiyə tamaşa edə-edə dedi:

– Qaya əmi, mən bir sualın cavabını tapa bilmirəm, - insanlar niyə bu qədər var-dövlət hərisi oldular? Elə insan var ki, beş-on villası, çoxlu xarici maşınları var. Axı, o dünyasını dəyişəndə onların heç birini özü ilə aparmayacaq, burada qalacaq uşaqları, nəvələri onlardan

istifadə edəcək. Ona isə çox kiçik torpaq sahəsi, bir az da ağ bez parçası qalacaq.

Qaya bir siqaret də yandırdı. Dərin bir qullab vurub dedi:

– Həmin şəxs uşaqları bu var-dövlətdən istifadə edəndə, o dünyada həmin villaların hər daşının, maşınların hər detalının və s. hesabını verəcək. Əgər onlar haram, günah yollarla qazanılıbdırsa, bir yetimin, adi bir insanın haqqına girilibsə cəzasını çəkəcək. Əslində, böyük var-dövlət günahlar və cəzalar çoxluğu deməkdi. Məsələn, haram yolla tikilmiş bir villanın hər daşını daş üstə qoyan şəxs, suda əks olunan obyekt kimi o dünyasında da bir günah və cəza üst-üstə qoyub özü üçün tikir. Burada nə qədər böyükdürsə, orada da o qədər böyük olacaq.

– Bəs, insan niyə belə edir? - Leyla yenə sual verdi.

– Nadanlıqdan, cahillikdən, Allahı düzgün dərk etmədiyindən. İnsan əslində, anlamır ki, bu dünyadakı hər şey ona uşaqlara verilən oyuncaq kimi müvəqqəti verilmiş şeylərdi. Həqiqətdə yerdə və göydə hər nə varsa Allaha məxsusdu. Ancaq insan gedib, meşənin yarısını çəpərə alıb, deyir "bura mənimdi".

Ofisiant kababları, salat, pendir və spirtsiz içkilər gətirdi. Masada yerbəyer edib, getdi. Qaya:

– Nahaq əziyyət çəkdiniz, mən ümumiyyətlə, bu vaxtlar yemirəm. Əsasən, səhər, axşam, gündə iki dəfə yeyirəm. - dedi. Leyla çəngəli götürüb, yaxşı bir tikə kababı seçib:

– Yəqin, həmişə bu vaxtlar çöldə, üzüm sahələrində olmusunuz, yeməyə vaxt tapmamısınız, - deyərək, Qayanın boşqabına qoydu. Sonra isə öz boşqabına bir tikə qoyub, bıçaqla bir hissəsini kəsdi.

Bir müddət dinmədilər, sakitcə kababdan yeyə-yeyə hərə öz aləmində düşündü.

– Atan deyirdi ki, bacılarının da Bakıya gəlib, yaxşı fakultələrdə oxumasına kömək etmisən, böyük çətinliklər, zəhmətlər çəkmisən. Afərin sənə, Leyla. O vaxt Oktay sənin hüquq fakultəsinə daxil olacağına heç özüdə inanmırdı, ancaq mən inanırdım. Gözlərində o qətiyyəti və özünə inam görürdüm. - Qaya ağzındakı tikəni çeynəyə-çeynəyə dedi.

Leyla gülümsəyərək, əlini və ağzını salfetka ilə sildi. Büküb kül qabına qoydu. Kül qabı salfetka ilə dolmuşdu. O yemək yeyəndə tez-tez əllərini və ağzını silərdi. Odur ki, yanında qoyulan, artıq boşqab, ya kül qabı tez dolardı. Leyla başı ilə işarə edib, ofisiantı çağırdı, boşqabları dəyişməyi və sümük, salfetka dolu boşqabları boşaltmağı tapşırdı. Sonra isə üzünü Qayaya tutaraq dedi:

– Elədir Qaya əmi, vaxtında çox kömək etdim. Oxudular, ailə qurdular, işə düzəldilər. Ancaq indi elə bil bəzən əksinə, mən onların işlərinə mane oluram, təhlükə yaradıram. Bu da məndən asılı deyil, ədalətin, haqqın yanında olanda kimlərinsə xoşuna gəlmir. Başlayırlar bacılarıma və yoldaşıma təzyiq etməyə.

Qaya gülümsəyib dedi:

– Bu təbiidi. Kainatda hər şey dövrüdü, bir düz xətt üzrə deyil. Bəzən, etdiyin əməllər özünə qarşı da yönələ bilir. Bilirsən, insan həyatı da dünyanın üz qabığı kimidi. Bəzən, sənə zirvə kimi, bəzənsə yamac, düzənlik, dərə mahiyyətində baxırlar və ya eyni anda birinə zirvə kimi uca, əhəmiyyətli, digərinə dərə kimi qorxulu görsənirsən. Ancaq əsas odur ki, Leyla onun sözünü kəsib:

– Əsas odur ki, "Sən öz dəmir yolunla düz gedəsən" - dedi və gülümsədi.

Qaya da güldü və dedi:

– Hə, elədir. Həm də insan gərək, həmişə öz şərəfini, ləyaqətini zirvələrdə görsün. Onların dərəyə enməsini görən insan artıq "ölü" sayılır. O qədər dirilər var ki, çoxdan ölüblər, sadəcə, xəbərləri yoxdu. Çünki, onların mənəvi yaşamaq limitləri, əməl, savab ehtiyyatları tükənib. Eləcə də, bəzi insanlar var ki, onların ruziləri bitib, tükənib, birdəfəlik bağlanıb. Ancaq baxırsan ki, qıraqdan çox var-dövlətli, gəlirli kimi görsənirlər. Məsələn, villanın içindədi, soyuducuda quzu cəmdəkləri, bal və s. ancaq o xəstədi, gündə bir parça çörək güclə yeyir. Başqa formada, elə insan var ki, özünü oda-közə vurur, nə qədər zəhmət çəkir, heç bir qazanc edə bilmir, tabağı boşdur ki, boşdur. Ruzi verən Alahdı!

Qaya lülə kababdan kəsib, bir parça ağzına qoydu. Bir az çeynəyib, gülümsəyərək dedi:

– Mincivandakı kababçı Veysəlin kabablarının dadına çatmazlar.

Leyla da güldü və dedi:

– Qaya əmi, onu mən bilmərəm ki, siz bilərsiniz, o kabablar düşdü qatarın altına. Hələ mən də düşəcəkdim, siz həyatımı xilas elədiniz.

– Hə, kababları saxlaya bilmədim, doğrudu. Həyat xilas etmək başqadı. O isə adi hal idi, hamının edə biləcəyi sadə bir şey idi. - Qaya dedi. Bir az düşünüb sonra əlavə etdi:

– Bu kababların pulunu mən verəcəm, o vaxt ala bilmədim, indi əvəzi çıxsın...

– Yox, yox Qaya əmi, axı, mən sizi qonaq dəvət etmişəm, həm də siz Bakıdasınız...

Qaya Leylanın sözünü kəsib dedi:

– Bakı sizindi?

Onun bu sözünə ikisi də gülüşdülər. Sonra Qaya dedi:

– Leyla, sən hələ də mənim gözümdə imtahana gedən, həyəcanlı gəncsən. İnşallah, ikinci dəfə qismət olar, sənin qonağın olaram. Bayaqdan fikir verirəm, nə isə fikirləşirsən, pərişansan. Bir çətinliyə düşmüsən?

Leyla dənizə baxa-baxa bir az düşündü, sonra üzünü Qayaya tutub dedi:

– Hə, Qaya əmi, dünən yanıma iki nəfər gəlmişdi, qardaşlarını heç bir günahı olmadan həbs ediblər. Kəndlərində baş vermiş qətl hadisəsini onun üzərinə yıxıblar. Məndən vəkili olmağımı xahiş etdilər. Razılaşdım, heç pul da danışmadıq. Utandım, çox kasıb qardaşlar idilər.

– Afərin, Leyla, kasıb insandan utanmaq böyüklük əlamətidi. Pul isə dediyim kimi ruzidi. Allah onu bir yolla yetirəcək. Çünki, Allah bütün yaratdıqlarına ruzu də vermişdir. Bir gün Süleyman peyğəmbər öz-özünə düşünür ki, doğurdan da Allah yaratdığı bu qədər canlıya ruzi verib? Elə bu zaman Cəbrayıl peyda olur və ona deyir ki, dəryanın lap dərin yerinə iki dalğıc göndər, orda bir qara rəngli daş parçası var, onu tapıb gətirsinlər. Süleyman peyğəmbər dalğıcları göndərir, daşı tapıb gətirirlər. Cəbrayıl deyir : “daşı sındırın”. Daşı

sındırırlar, onun içərisində balaca bir qurd və bir ədəd yaşıl, çox kiçik bitki var idi. O bitki qurdun ruzisiydi.

– Çox xoşum gəldi bu hekayədən Qaya əmi. Mən o qədər kasıb, kimsəsiz insanlara kömək etmişəm, pul almamaışam. Ancaq sonradan hardansa iki qat əvəzi çıxıb, elə bil ruzi özü gəlib məni tapıb. Bilirsiniz, mənim fikrimcə, vəkillər qanunları qoruyan dövlətin əsgərləridi. Əsl vəkil birinci növbədə prinsipial olmalıdı. Əsas şərt, vəkil pul üçün, qazanc əldə etmək üçün çalışmamalıdı. Doğrunu, həqiqəti görən ağlı, onu müadfiə edəcək cəsarətli ürəyi olmalıdı. Qanuna söykənərək haqqı, ədaləti müdafiə etməyi bacarmalıdı. Ona görə ki, həyatda heç kim, heç nədən sığortalanmayıb, hər bir şəxsin vəkilə ehtiyyacı ola bilər.

Ona diqqətlə qulaq asan Qaya gülümsəyib dedi:

– Sən vəkilliyin əsas kriteriyalarını çox düzgün müəyyənləşdirmisən. Birini də mən əlavə edim ki, ən savadlı, əqidəli, vicdanlı, dözvlətini, xalqını canından çox sevən bir vəkil özü də şərə, böhtana düşəndə, haqsızlıqla üzləşəndə onun da vəkilə ehtiyyacı olur.

– Çox doğrudu, Qaya əmi. Mən bunun çox şahidi olmuşam. Vəkillər zəiflərin, səfillərin, haqqı tapdalananların immun sistemləridirlər. - Leyla bunları deyib, gülümsədi.

Qaya bir siqaret çıxarıb, yandırdı və dedi:

– Həm də vəkillər haqq, ədalət aclarının ruziyə yetmək üçün vasitəçiləridi. Haqqa, ədalətə möhtaclar vəkillərin süfrəsinin qonağı olarlar. Əsas məsələlərdən biri də odur ki, necə ki, həkim "Hippokrat andı" içib, düşməni də olsa, onu vicdanla müalicə etməlidi, eləcə də, vəkil fəaliyyət növü müxtəlif olan, haqqı pozulmuş insanlara elə baxmalıdı.

– Çox düz deyirsiniz, mən heç vaxt vəkili olduğum insanların ictimai, dini və s. mənşələrinə baxmaram.

Qaya siqaretindən bir tüstü alıb, dedi:

– İbrahim peyğəmbər çörək yeyirmiş. Baxır bir kasıb, səfil insan gəldi. deyir gəl otur birlikdə çörək yeyək. O şəxs gəlib oturur, peyğəmbər deyir ki, "Bismillah!" de, başla yeməyə. O şəxs qayıdır ki, "Bismillah!" nədir? İbrahim peyğəmbər onu başa saldıqan sonra həmin adam əlini çörəyə uzadıb – "Mən Allah filan tanımıram", - deyir.

İbrahim peyğəmbər əsəbləşərək, onu qovur. Bu zaman yenə Cəbrayıl peyda olub, deyir: “Sən onu niyə qovdun? Mən düz 68 ildir ki, ona yemək verirəm. Bu dəfə də sənin yanına göndərmişdim.” Bunu eşidən İbrahim peyğəmbər tez ayağa qalxıb, həmin səfilin arxasınca qaçır. Ona çatıb, alır onu dalına, deyir gedək, yemək yeyək. O şəxs təəccüblə: “Sən özün indi məni qovamdın?”, - deyir. İbrahim peyğəmbər: “Allahım səni geri qaytarmağımı buyurdu. O şəxs İbrahimin belində gülərək, deyir: “Sənin nə gözəl Allahın var. Mən ona iman gətirdim”.

İndi qızım, sənin yanına gələn kasıb, haqqı tapdanmış insanların hüququnu bəşər yaranandan Allah qoruyur. Sənin kimi vicdanlı, dürüst insanların vasitəsilə. Odur ki, kasıb ailədə doğulmağın, böyüməyin, dörd dəfə imtahan verib, yorulub ruhdan düşməməyin, sonda hüquq fakultəsinə daxil olmağın, bütün bunlar təsadüfi deyil. Müqəddəs bir iş üçün - ədalət tərəzisini tarazlaşdırmaq üçün vasitə olmağın vəzifəliliyin üçündü.

Leylanın kefi açıldı. Qayanın etdiyi söhbətlər onun xoşuna gəlmişdi, ruh yüksəkliyi yaratmışdı. O, bu günkü xoş təsadüfü taleyinin sirli gedişlərindən biri hesab etdi. Gülümsəyərək dedi:

– Doğurdan insanlar əvvəlcədən vəzifələndirilir?

Qaya gülümsəyərək dedi:

– Bəli. Bizim Qarabağda, Xocalıda nə qədər şəhidlərimiz oldu? Oğurluq, haram çörəklə böyüyən o müqəddəs zirvəyə çata bilər? İnsan anadan olanda 3-4 kiloqram olur. Sonra 70-80 kiloqram olur. Aradakı 70-75 kiloqram valideynin və özünün qazandığı hesabına artır, 70-75 kiloqram haram ruzidən formalaşan insan cismi cənnətə necə gedə bilər? Və ya haqqı müdafiə etmək üçün müqəddəs bir işə vəzifələndirilə bilərmi?

Qaya danışdıqca onun gözü önünə Novxanıdakı qonaqlıqda gördüyü, başını aşağı salıb bir boşqab kabab sümüyü çıxaran Orxan Salmanzadə, bir qrupda oxuduqları savadsız, ata pulu hesabına indi prokuror, hakim işləyən, rüşvət hesabına xeyli varlanan tələbə yoldaşları düşürdü. Qaya ilə söhbət Leylanı çoxdan narahat edən, maraqlandıran suallardan çıxış yolu, cavab tapmaqda kömək idi. Leylaya elə gəldi ki, hardasa Qaya özüdə mələkdir, ona stimul verən, məs-

ləhətlərilə yol göstərən, çətin anlarında peyda olub, yoluna işıq salan, hətta qoruyan, ölümdən qurtaran mələk.

– Anladım Qaya əmi, çox şey anladım. Yaxşı, siz mənə deyin görüm, xeyirdimi Bakıya gəlməkdə? İstəsəniz, axşam gedərik bizə, yoldaşım Əli ilə tanış olarsınız, işləriniz bitənə kimi bizdə qalarsınız.

Bu zaman ofisiant yaxınlaşdı. Leyla ona süfrəni yığışdırmağı və yenə də kəklikotulu çay gətirməyi tapşırdı. Ofisiant süfrəni yığışdırıb, getdi. Qaya dedi:

– Dəvətə görə çox sağ olun. Başqa vaxt İnşallah, gələrəm. Ancaq sən demədin niyə pərişansan. Yanına gələn insanlar haradan səni tanıyırdılar? Niyə məhz sənin yanına gəlmişdilər? Bakıda indi o qədər vəkil var ki...

Leyla gülümsəyib dedi:

– Hə, doğurdan da vəkillər çoxalıb. Yanıma gələn qardaşlarla eyni rayondan olan bir nəfəri günahsız həbs etmişdilər. Mən onun vəkili oldum, azadlığa buraxdıra bildim. O söhbət rayonlarında yayıldı. Qardaşlar onu əsas gətirib, mənə müraciət etdiklərini dedilər.

– Belə çıxır ki, sən qəfəsləri açan qızsan...

Leyla güldü. Qaya sonra soruşdu:

– Maraqlıdı, danış o hadisəni...

Leyla geriyə, oturacağın söykənəcəyinə söykənib, əllərini sinəsində çarpazlayıb dedi:

– Bakı-Qazax yolunun Qaradağ qəsəbəsi yaxınlığında bədbəxt hadisə baş vermişdi. "Kamaz" "Jiquli" markalı avtomobilin sürücüsünü vurub, öldürmüşdü. "Kamaz" sürücüsünü tutmuşdular. Onlar mənə müraciət edəndə, istintaq artıq yekunlaşmış, iş məhkəmədə idi.

– Yəqin ki, o şəxs hər şeyi danışdı sizə? - Qaya sual etdi. Leyla başı ilə təsdiqlədi və dedi:

- Mən əksər hallarda əvvəlcə müttəhimlə görüşüb, sonra işi götürürəm. Bu dəfə də belə etdim. Onunla görüşdüm, diqqətlə dinlədim, sonra hadisə yerində təkrar ekspertiza keçirməyi tələb etdim. Məlum oldu ki, sürücü düz deyir və günahsızdı.

– Necə məlum oldu? - Qaya maraqla sual etdi. Leyla gülümsəyib dedi:

– Həzrəti Əli deyirdi ki, elm çox sadədi, insanlar onu qəlizləşdirib, mürəkkəbləşdiriblər. Həqiqət də sadədi, eləcə də, cinayət hadisələrini özü və onu tapmaq yolları sadədi. Müstəntiqlər, prokuror və hakimlər onu gec tapıb, qəhrəman, peşəkar adlarını qazanmaq üçün sadə insanları çaşdırıb pul qoparmaq üçün mürəkkəbləşdiriblər.

– Aha, demək məsələyə sadə baxanda, heç bir təmənna, qərəzli mövqe tutmayanda, cinayətin üstü daha tez açılır, düzdür?

– Tamamilə doğrudur. Cinayətin üstünü açmaq ifadəsi əslində, doğru deyil, ona görə ki, cinayətin üstü elə açıqdı. Onu görmək üçün çox yerdən durub, boylanıb baxa bilərik. Yalnız ədalət, haqq nöqtəsindən baxanda aydın görərik. Cinayətin üstünü açmaq lazım deyil, örtməyin qarşısını almaq bəs edər. Bu isə çox sadədi.

– Sən o ədalət nöqtəsində dayanıb, sadə həqiqəti necə gördün?

– Həbs edilən "Kamaz" sürücüsü yol ilə Bakı-Qazax magistralında gedirmiş. Baxır ki, bir "Jiquli" yolun kənarında dayanıb, arxa işıqları yanıb sönür. Sürücü ona əl eyləyir. O da "Kamaz"ı saxlayır ki, yəqin nəsə köməyə ehtiyyacı var. "Jiquli"nin sürücüsü yaxınlaşır "Kamaz"a, sürücü tərəfdə, yolun üstündə dayanıb söhbət edəndə qarşıdan gələn digər yük kamazı onu vurub qaçır. Bu "Kamaz"ın sürücüsü də insanlıq, kişilik edib, onu yaralı buraxmır, öz maşınında xəstəxanaya gətirir. Ancaq elə yolda "Jiquli"nin sürücüsü dünayasını dəyişir. Onun aldığı zərbələrin yeri, yerə yıxılanda başının asfalta dəyən hissəsi və s. keçirilən ekspertiza sübut etdi ki, bu "Kamaz" sürücüsünün günahı yoxdur. Mən bunu sübut etdim, onu həbsdən qurtardım. Sonda dünənə kimi ona düşmən kimi baxan mərhumun yaxınları, üzr istəyib, minnətdarlıq etdilər. O şəxsin cəsur hərəkətini, çox uşaq atası olduğunu və üç ay həbsdə qalıb, heç bir manat qazanamadığını nəzərə alaraq pul almaqdan imtina etdim.

Qayanın kefi açıldı bu söhbətdən, ürəklə:

– Afərin, Leyla. Sən qiyamət gününə çox böyük savab iş götürdün özünlə. Dünyanı tarazlıqda saxlayan insanların yaxşı əməlləridi.

Ofisiantın gətirdiyi çaydan bir qurtum içən Qaya sonra dedi:

– İndi yanına gələn qardaşlar nə deyirlər?

Leyla köks ötürüb dedi:

– Bu işdə qətl hadisəsi var. Kimisə gecə ov tüfəngi ilə vurublar. O şəxsi tutublar, on gün sonra buraxıb, bu qardaşların digər qaradaşlarını həbs ediblər. Ən qəlizi isə odur ki, tutulan şəxsin yeniyetmə uşaqları və həyat yoldaşı da təsdiqləyirlər ki, doğurdan da qətli o törədib.

Leylaya diqqətlə qulaq asan Qaya dedi:

– Çalış, o yeniyetmələrə günün ayrı-ayrı vaxtlarında, bir neçə dəfə eyni suallarla müraciət edəsən. Xüsusən, səhər, yuxudan yeni oyananda sual ver. Çünki, günün müxtəlif vaxtlarında insanların, xüsusilə həssas olanların və uşaqların əhvalı, hiss və həyəcanları fərqli olur.

Leyla gülümsəyib dedi:

–Qaya əmi, sizdən yaxşı dedektiv olar. Elə bil hüquq fakultəsini bitirmisiz.

– Həyat fakultəsi daha çox öyrədir. Birdə ki, ağlın yolu birdi.

Sonra Qaya saatına baxdı və dedi:

– O işdə "qara kapital" böyük rol oynayacaq. Əslində, elə səninlə mübarizə aparan o kapitaldı. Dediyin kimi, bu işi mürəkkəbləşdirməyə çalışacaqlar. Ancaq sən möhkəm ol, heç vaxt haqqın, ədalətin yanından ayrılma, kapital səni o saat məhv edər. Əqidəsinə xəyanət edən insan, ən gücsüz, rəzil nöqtəyə gəlib çıxır. Əksinə, öz gözündə qəhrəman insana heç kim qalib gələ bilmir.

– Çox sağ olun, Qaya əmi. Inanın ki, mənə çox yüksək mənəvi ruh verdiniz. O vaxt sizin qatarda yol gələndə verdiyiniz məsləhətlər bu günə qədər köməyim olub, ruhlanmışam o sözlərinizdən. İndisə yenə çox həqiqiətlərə işıq saldız. Beynimdəki nizamsız fikirlər elə bil cərgəyə düzüldü. Hərəsi öz yerini aldı. - Leyla minnətdarlıq hissi ilə bunları dedi.

Qaya ayağa qalxıb dedi:

– Hə, ən əsas məsələ özündən muğayyat ol. İndi insanları namərdliklə aradan götürmək istəyirlər. Ya avtomobil qəzasına salıb, ya da zəhərləməklə. Bunları və digər təhlükəli məqamları diqqət mərkəzində saxla. O günahsız insanı həbsdən çıxarmaq üçün mütləq get! Tələs! İndi isə məni bağışla, beş dəqiqəyə qayıdıram.

Leyla fikirləşirdi ki, bu qədər söhbət etdilər, ancaq Qayanın nə yaxşı Bakıya gəldiyini bilmədi. Bir dəfə soruşdu, ancaq araya başqa söhbətlər düşdü. Leyla özünü qınadı ki, o, elə özündən danışdı. Bəlkə, onun problemi, bir köməyə ehtiyyacı var idi? Qərara gəldi ki, Qaya geri dönən ki-

mi ciddi cəhdlə bunları soruşacaq. Çönüb, o getdiyi tərəfə baxmağa başladı.

Artıq on dəqiqə keçmişdi, Leylanın hövsələsi daraldı. İstədi durub onun getdiyi tərəfə getsin, ancaq bunu ədəbsizlik kimi qəbul etdi. Bəlkə, siqaret almağa, ya ayaqyoluna gedib? Həm də axı, o özü demişdi, gözlə, beş dəqiqəyə qayıdıram. Onun arxasınca getmək inamsızlıq olardı.

– Xanım, kimisə gözləyirsiz? - Ofisiantın sualı onu fikirdən ayırdı. Leyla başını qaldırıb dedi:

– Hə, mənimlə əyləşən bir az əvvəlki ağsaqqalı.

Ofisiant gülümsəyərək dedi:

– Xanım, o çoxdan çıxıb gedib. Və mənə tapşırdı ki, on dəqiqə sonra getdiyini sizə deyim.

– Başqa nə dedi?

– Başqa heç nə demədi.

Leyla təəccüblü və heyifsilənmiş şəkildə köks ötürdü. Çantasını açıb, pul qabını çıxardı, ofisianta pul uzatdı. Ofisiant gülümsəyərək : - “Ağsaqqal hesab ödəyib” , - dedi. Leyla gülümsəyərək:

– Götür, bu da sənə çatsın.

Oğlan etiraz edib dedi:

– Çox sağ olun, xanım, mənə də əlavə pul verdi.

Leyla ayağa qalxıb, restoranı tərk elədi. Qayanın hara getdiyini, niyə belə ayrıldığını fikirləşə-fikirləşə iş yerinə - hüquq məsləhətxanasına tərəf getməyə başladı. “O, hesabı gizlicə vermək üçün belə etdi?”- Leylanın bu fikirdən özünün gülməyi gəldi. Qaya belə cılız insan deyildi. “Təsadüfən qarşıma çıxdı, məsləhət, ruh yüksəkliyi verdi, təhlükələrlə bağlı xəbərdarlıq edib, qəfil də yoxa çıxdı... Niyə?” - Leyla “bu”, “niyə”? sualına cavab fikirləşə-fikirləşə gəlib, bulvarın yaxınlığında yerləşən iş yerinə çatmışdı.

* * *

Saatın zənginə yuxudan oyandı, səkkizin yarısı idi. Bayırda quşların səsi gəlirdi. Bir az yerində quşların səsinə qulaq asa-asa dünəndən planladığı işlər haqqında düşünməyə başladı. Əvvəlcə məhkəməyə gedib, Rövşənin qətli ilə bağlı cinayət işilə tanış olacaq, işi aparan müstəntiq Aslan Musayevlə söhbət edəcəkdi. Sonra qətl hadisəsi baş vermiş kəndə

gedəcəydi. Orada kiminlə görüşəcəyini isə cinayət işilə tanış olduqdan sonra müəyyənləşdirəcəkdi.

Leyla ayağa qalxıb, paltarını geyindi. Pəncərənin pərdəsini aralayıb, baxmağa başladı. Bütün rayonlarda olduğu kimi burada da insanlar sübh tezdən yuxudan oyanmış, hərə öz işinin dalınca getmək üçün küçədə o tərəf bu tərəfə gedirdilər. Yolların qırağındakı göyrüş, çinar ağacları yamyaşıl yarpaqları axşamdan həsrət qaldıqları günəş enerjisini udmaq üçün sevinclə bir-birlərilə pıçıldaşıb, ona tərəf dönməyə çalışırdılar. Həzin meh əsirdi.

Məhkəmədən cinayət işinin sənədlərini götürüb, diqqətlə oxumuş, lazımi qeydlərini götürmüşdü. Leyla vəkil olduğu müddətdə bu cür qarışıq cinayət işi, dolaşıq izahatlara rast gəlməmişdi. Ancaq bütün qanunsuz aparılan istintaq işlərində görünən məqamlar burada da peşəkar hüquqşünas tərəfindən dərhal hiss edilirdi.

Leyla qapını döyüb, müstəntiqin iş otağına daxil oldu və özünü təqdim etdi. Müstəntiq arıq, alçaqboy, nazik bığlı, balaca girdə gözlü bir şəxs idi. O, heç ayağa qalxmadan, Leylaya əyləşmək üçün yer göstərmədən, qaşqabaqlı halda guya ki, çox vacib işləri varmış kimi gözlərini qarşısındakı vərəqlərdən zorla ayıraraq:

– Kapitan Aslan Musayev. Buyurun, eşidirəm sizi.

Leyla hələ universitetdə oxuduğu vaxtlardan, sonralar isə vəkillik işlərindəki təcrübələrindən bilirdi ki, rüşvətxor, savadsız müəllim və hüquq işçiləri özlərindən arxayın olmadıqları üçün, həm də qaranlıq işlərinə işıq düşməməsi üçün yalandan qaşqabaqlı olur, insanlarla məsafə saxlamağa çalışırlar. Təmiz və bilikli insanlar kimi sadə, ünsiyyətçil olmaq onların işinə yaramır.

Leyla təklif gözləmədən stul çəkib, əyləşdi. Sənəd qovluğunu masanın üzərinə qoyub dedi:

– Aslan müəllim, mənə elə gəlir ki, istintaq düzgün aparılmayıb.

Aslan Musayev gülümsəyərək dedi:

– Bu heç! Bütün vəkillərə elə gəlir.

– Siz uşaqlıqda yelləncəyə minmisiz?

Müstəntiq əlindəki qələmi yerə qoyub, gözündəki eynəyi də çıxarıb, əlində fırlada-fırlada qaşlarını düyünləyib, kinayə ilə dedi:

– Başa düşmədim, bu nə məntiqsiz, məsələyə aidiyyatı olmayan sualdı verirsiniz? Xahiş edirəm, ciddi, işlə bağlı sualınız vardırsa, verin. Yoxdursa, vaxtımı almayın, məhkəmədə görüşərik.

– Sizin apardığınız istintaq cinayət işinin açılmasına, aydınlaşmasına deyil, əksinə, dolaşığa düşməsinə səbəb olmuşdur. Mən sizə təklif edirəm ki, birlikdə köməkləşək, bu cinayətdə əsl cinayətkarı tapaq, - Leyla sakit tərzdə dedi.

– İstintaq başa çatıb, cinayətkar həbs edilib. Mən öz üzərimə düşən məsuliyyəti dərk etmişəm, vəzifəmi yerinə yetirmişəm. Siz niyə gələn kimi mənim üzərimə düşdünüz? Gedin, öz işinizi görün, - müstəntiq daha da ciddiləşərək dedi.

Leyla istehza ilə gülümsəyərək:

– Bax, elə bu haqda düşünün ki, niyə sənədlərlə tanış olandan sonra sizin üstünüzə düşdüm. Bir şeyi yadda saxlayın, bütün elmlərin, sənət və peşələrin obyektləri, məqsədləri müxtəlif olsa da, bir nöqtədə kəsişirlər. O nöqtə haqq və həqiqətdir. Allahın nəzəri həmişə ordadır. İnsanlar elə bilir ki, bəzən həqiqəti gizlədə bilirlər. Ancaq bu doğru deyil, onlar özlərini aldadırlar. Allah həmişə öz həqiqətinin yanındadır.

Müstəntiq ayağa qalxıb, əsəbi halda dedi:

– Leyla xanım, xahiş edirəm ki, burada mənə fəlsəfə və din dərsi keçməyin. Vaxtınızı da boş yerə xərcləməyin. Bağışlayın, mənim başqa işim vardır, indi getməliyəm.

Leyla da ayağa qalxdı, çantasını və sənədlər olan qovluğu götürüb dedi:

– Hal şahidlərinə izahat yazıb sonra dəyişdirmisiniz. Birinci həbs olunan şübhəli Aydınla Abdullanın izahatlarını özünüz yazmısınız və çox savadsız yazmısınız.

– Siz bunları sübut edə bilməzsiniz! - Müstəntiq həyəcanını gizlətməyə çalışaraq ciddi özünü müdafiə səs tonuyla dedi:

– Onları siz özünüz sübut etmisiniz, izahatlardakı səhvlər və bilmədən verdiyiniz işarələrlə. Mən gedirəm, digər məsələlərlə tanış olandan sonra inanıram ki, daha ciddi faktlar ortaya çıxacaq. Siz də inanın ki, yelləncəkdə irəlidə, ən yüksəkdəsiniz. Bir azdan geri, tarazlıq mərkəzi-

nə-həqiqətə doğru düşməyə başlayaqsınız. Sağ olun, vaxtınızı aldım. Leyla bunları deyib, otağı tərk etdi.

Gedəcəyi kəndlə rayon mərkəzi arasında yarım saatlıq yol var idi. Ora çatanda saat 12-yə qalırdı. Leyla əvvəl qətl hadisəsinin baş verdiyi yerə, mərhum Rövşən Əhədovun yaşadığı evə gəldi. Həyətin darvaza qapısını üç dəfə döydükdən sonra qırx - qırx beş yaşlarında, saçlarının çoxu ağarmış bir qadın açdı. Qaş-qabaqlı halda:

– Nə lazımdır? - deyə soruşdu.

Leyla gülümsəyərək, təmkinlə dedi:

– Hər vaxtınız xeyirli olsun. Bacı, icazə versəydiniz Sizinlə söhbət etmək istəyərdim. Mən vəkiləm, Bakıdan gəlmişəm, adım Leyladır.

Qadın ona diqqətlə qulaq asdı. Deyəsən,vəkil söhbətini başa düşmədi. Ancaq hələ ilk görəndə gələnlərin oğlunun qətl hadisəsilə bağlı olduğunu hiss etmişdi. Bu hadisədən keçən dörd ay ərzində 2-3 gündən bir həyətə çoxlu insanlar gəlmiş, müxtəlif suallar vermişdilər. Oğlunun itkisi bir tərəfdən, gələn şəxslərin darvaza ətrafında apardıqları ölçü-biçi, söz-söhbət, onunla və yoldaşı ilə sual-cavabları da bir tərəfdən qadını əldən salmışdı. O, könülsüz və əsəbi şəkildə:

– Nə barədə söhbət edəcəyik? Axı, bu söhbətlər, sual-cavablar məni yordu. Niyə başa düşmürsünüz ki, bütün bunlar bizə çətindir, əziyyət verir, niyə qoymursunuz ki, dərdimizi çəkək?

Ana danışdıqca Leyla onu çox gözəl başa düşürdü və onu da anlamışdır ki, cinayət işinin sirrini buradan aça bilər. Lakin valideynləri danışdırmaq, inandırmaq çox çətin məsələdir. Ancaq deyəsən, bu qadınla dil tapıb danışmaq olacaq.

– Qapıdakılar kimdir? - Ev yiyəsi kişinin və həyat yoldaşına xitabən verdiyi suala qadın geri çöndü və dedi:

– Bakıdan gəliblər, söhbət etmək istəyirlər!

Orta yaşlı, hündürboy, arıq bir kişi qapıya tərəf gəldi. Salam verib Leylanı və sürücünü həyətə dəvət elədi. Sürücü təşəkkür edib avtomobilin yanında gözləyəcəyini dedi. Leyla tək həyətə daxil oldu.

Tüfənglə atəş açılaraq öldürülən Rövşənin atası Azər, anası Şamama və Leyla eyvanda qoyulmuş masa ətrafında oturmuşdular. Leyla həyəti, oradakı müxtəlif meyvə ağaclarını, eyvanın aşağı tərəfində əkilmiş yasəmən və qızılgüllərə tamaşa edə-edə dedi:

– Allah rəhmət eləsin, Rövşən balamıza.

Ata və ana növbə ilə "ölənlərinizə rəhmət" , - dedilər. Leyla nəzərlərini Azərin üzünə gətirib gözlərinin içinə baxaraq dedi:

– Xahiş edirəm ki, məni diqqətlə dinləyəsiniz və səmimi söhbət edək, bu çox vacibdir. Mən Abdullanın vəkiliyəm.

Onun bu sözlərindən sonra Şamama çönüb həyat yoldaşına baxdı. Azərin üzü qızardı, əsəbdən gözləri bərəldi və titrək səslə dedi:

– Siz qadın olmasaydınız, mən başqa cür danışardım. İndisə xahiş edirəm, durun gedin buradan! Həm oğlumun qatilini müdafiə edəcəksiniz, həm də səmimi danışacıq?

Leyla özünü itirmədi. O, təxminən elə bu cür münasibət ehtimal edirdi. Şamama indi tam anladı ki, vəkil nə məqsədlə gəlibdir. Ancaq o namaz qılan, gözləməyi və səbirli olmağı bacaran qadın idi. Leylanın, sonra isə ərinin üzünə baxdı və dedi:

– Onsuz da neçə aydır ki, rahat buraxmırlar, o gəlir, bu gedir. Daha rahat həyat yoxdur bizə. Baxaq görək, Leyla nə deyəcək.

Leyla qadının səbrinə ürəyində "afərin" , - deyib, tez mətləbə keçdi:

– Mən sizi çox gözəl başa düşürəm.

– Düşə bilməzsən! Sənin də oğlunun başına Allah eləməsin belə bir iş gəlsəydi, onda başa düşərdin - Azər acıqlı dedi. Leyla qaşqabağın töküb dedi:

– Dedim axı, səbirli olaq, bir-birimizə hörmət və kömək edək. Çünki, hədəflərimiz eynidir. Siz də, mən də əsl qatilin kim olduğunu bilmək istəyirik. Abdulla günahsızdır.

– Siz onun qardaşlarından pul alıb günahsız çıxarmaq istəyirsiniz? - Azər istehza ilə soruşdu. Leyla cavab verməmişdən Şamama dedi:

– Bəs, onda oğlumu kim öldürüb?

Leyla soyuqqanlı səs tonunda cavab verdi:

– Düşünürəm ki, oğlunuzun qatili birinci dəfə həbs edilib, sonra azadlığa buraxılan Aydın Qədirzadədir. Ancaq nə üçün öldürüb, onu birlikdə tapmalıyıq!

– Siz Bakıdan durub bura gəlmisiniz ki, bu dəfə də Abdullanı buraxsınlar azadlığa, Rövşənin qanı yerdə qalsın? Heç kim həbs olunmasın? - Azər kinayələ dedi.

– Əsl qatil, Aydın həbs olunacaq! - Leyla qətiyyətlə bildirdi.

– Axı, onu necə həbs edəcəklər? "Türmədən" buraxılan kimi Bakıdakı varlı qohumlarının köməkliyilə çıxıb getdi Rusiyaya - Şamama köks ötürüb dedi.

– Necə? Aydın kənddə deyil? - Leyla tez soruşdu.

– Xeyr, o azadlığa çıxan kimi rayonu tərk etdi, bir müddət Bakıda bibisigildə qaldı. Onun bibisinin yoldaşı çox varlı bir iş adamıdır, tikinti şirkəti vardır. Səhv etmirəmsə (,) adı Orxan Salmanzadədir. Onun köməkliyilə ölkədən çıxıb getdi, deyirlər Rusiyadadır.

Azər bunları deyib darvazaya baxdı. Leyla təəccüblə soruşdu:

– Salmanzadə? Dəqiq belədir o şirkət rəhbərinin adı?

– Hə, belə olmalıdır. Onun həyat yoldaşı bizim kənddəndi. Aydının bibisidi. Orxanın özü Bakıda doğulsa da atası bizim qonşu kənddəndir.

– Orxanın atası Bakıda yol polisində, "OAİ"-də işləyirdi? - Leyla dəqiqləşdirmək üçün soruşdu.

– Bəli, polisdə işləyirdi. Səhv etmirəmsə, adı Fərman Salmanzadə idi. Onu hələ Sovet vaxtı rüşvət üstə həbs etdilər. Deyirlər, oğlu da vaxtilə hüquq fakültəsinə daxil olub, sonra qovublar. Ondan sonra birtəhər Pedoqoji universitetə girib, tarix müəllimi olub. Atası həbsdən çıxandan sonra ata-bala Bakıda ev alıb-satmaqla məşğul olublar. Sonra da tikinti şirkəti qurdular. - Azər dedi.

Leyla bir xeyli fikrə gedib, Novxanıda, əmisinin bağ evindəki qonalığı xatırlamağa başladı. Ancaq onun Salmanzadələrin sonrakı aqibəti barədə heç bir məlumatı yox idi.

– Siz bütün bunları, yəni Salmanzadələr haqqında haradan bilirsiniz? - Leyla sual etdi.

– Rayon yeridir, kənddə, qonşu kəndlərdə hamı bir-birini tanıyır. Həm də bu barədə müstəntiq Aslan Musayev mənə ətraflı danışıb, onların çox güclü adam olduqlarını deyib.

Leyla gülümsəyərək dedi:

– Müstəntiq niyə bu sözləri sizə desin ki? Qorxutmaq üçün, yoxsa, nə isə başqa, məsələn, şirnikləndirmək məqsədilə?

Onun bu sözlərindən sonra Azərin rəngi dəyişdi, yerində qurcalanıb, bir siqaret çıxartdı, yandırdı. Şamama da təəccüb və maraqla həyat yoldaşına tərəf baxdı. Azər lap özünü itirdi, qaş-qabağını töküb dedi:

– İndi bunların, yəni Salmanzadələrin bizim işə nə dəxli vardır? Aydın qaçıb gedibdir, burada nə var ki, bəlkə, qorxub qaçıbdır? Siz Salmanzadələri haradan tanıyırsınız? Bəlkə də gəlib, işi qurdalayıb, onlardan pul almaq istəyirsiniz? Onsuz da Abdullanın özü və qardaşları lütün biridilər, iki qardaş keçən bazar günü Abdullanın vur-tut olan iki danasını satıb Bakıya getdilər, yəqin vəkil tutmaq üçün gedib sizi tapıblar.

Leyla bura gəldiyinə sevindi. Çox şey aydın olmağa başlayırdı. Azər çox şey bilirdi, özünü müəmmalı aparırdı. Deməli, Salmanzadələrlə həyatda ikinci dəfə qarşılaşmaq da qismətdə varıymış. Şamama təhsilsiz olsa da, çox həssas və məntiqliydi. Eynən anası Səriyəni xatırladırdı. O, cinayətin əsl səbəbini və qatili bilmək istəyirdi. Azər isə müəmmalı danışır, səmimiyyət qurmaq istəmirdi, eynən müstəntiq kimi. Azərə görə çığır-bağır salır, onu yerli-yersiz ittiham edirdi. Ona bir-iki sual vermək lazım idi, lakin Şamamanın yanında yox, təklikdə. Bütün bunları düşünən Leyla üzünü Şamamaya tutub dedi:

– Yol gəlib yorulmuşam, bir stəkan çay versəydiniz minnətdar olardım.

Şamama yoldaşının üzünə baxdı, dinmədən ağaya qalxıb getdi. Leyla onun arxasınca baxa-baxa:

– Siz özünüz nə işlə məşğul olursunuz?

– Mən kənddə qaz pulu yığıram - Azər cavab verdi.

– Düzünü deyin mənə, müstəntiq sizə pul təklif etdi ki, Aydından şikayət etməyəsiniz, ya onların güclü olduğunu deyib qorxutdu?

Azər dərindən nəfəs alıb istədi ki, əsib coşsun, qabaqdangəlmişlik etsin, bunu hiss edən Leyla tez dilləndi:

– Baxın, mən bu sualı yoldaşınızın yanında vermədim. Şamama xanım gələnə qədər bu söhbəti bitirək. Azər müəllim, bilirəm ki, siz də oğlunuzun əsl qatilini bilmək istəyirsiniz. Sadəcə, nədənsə, ehtiyat edirsiniz. Mənə və dövlətimizə inanın, mənim əqidəm pulla ölçülmür.

Azər bir az fikirləşib, yoldaşının getdiyi tərəfə baxa-baxa dedi:

– Mən oğlumun qanını pula satan qeyrətsiz insan deyiləm. İnanmıram ki, hansısa azərbaycanlı belə iş tutsun. Baxın, əllərimə, mən həm də öz əkin sahələrimizdə torpaqla əlləşə-əlləşə övladlarımı halal zəhmətlə böyütmüşəm. - O əllərinin içini göstərdi. Leyla diqqətlə onun qabarlı əllərinə baxdı. Azər davam elədi:

– Özümdən də qorxmuram, Rövşənin yolunda, bir damla qanına görə ölümə də gedərəm. Və gedəcəm, ancaq zamanı var. Onlar məni uşaqlarımla hədələdilər. Bizim səkkizinci sinifdə oxuyan qızımız və onuncu sinifdə oxuyan daha bir oğlumuz vardır. Mən nə vaxtsa Aydının özünü öldürəcəm.

– Kim hədələdi sizi, müstəntiq? - Leyla sual verdi.

– Xeyr, nömrəsiz zəng gəldi, tanımadığım səs idi. - Azər dedi.

– Yəni, siz dəqiq inanırsınız ki, oğlunuzun qatili Aydındır?

– Yetmiş faiz inanıram. Ancaq Abdullanın uşaqları, həyat yoldaşı izahatlarında onun öldürdüyünü yazıblar, bu məni çaşdırır. Müstəntiq və məni hədələyənlər isə deyirlər ki, Aydına şər atıblar, o da qorxudan qaçıb gedibdir.

Şamama çay gətirdi, padnusu masanın üzərinə qoyub, hər kəsin qabağına bir stəkan qoydu. Leyla çaydan bir-iki qurtum içib dedi:

– Çox sağ olun, qəşəng çaydır. Nədənsə, rayon yerlərində çayın dadı fərqli (,) yaxşı olur. Yəqin ki, suyundandır.

Sonra o yenə bir-iki qurtum çayından içib dedi:

– Şamama bacı, mən də anayam, sizi çox yaxşı anlayıram. Siz mənə kömək etsəniz, həqiqi günahkarı taparıq.

Şamama kövrəldi, gözlərindən damcılar süzülüb yanaqlarından yuvarlanıb aşağı düşdü, pıçıltılı səslə:

– Mən inanmıram ki, oğlumun həqiqi qatilini tapalar. Bunu çox istəyirəm. Əvvəl Aydını tutdular, sonra Abdullanı tutdular. Mənə elə gəlir ki, bəlkə də bunlar yox, başqa biri oğlumu öldürüb.

Leyla da kövrəldi. O, inamlı səslə dedi:

– Mən sizi əmin edirəm ki, əsl qatili tapacıq. Baxın, izahatlarda yazıblar ki, guya mərhum Rövşən Abdullanın həyat yoldaşına tez-tez baxırmış. O da qısqanclıqdan öldürüb. Ancaq məncə, Rövşən belə oğlan olmayıb, düzdü?

– Onu deyən qələt edir, mənim oğlum qonşuya, qız-gəlinə heç vaxt belə baxmayıb, yalan deyirlər. - Şamama etiraz etdi. Leyla onun sözlərinə qulaq asıb dedi:

– Bax, ona görə də, biz həqiqəti tapmalıyıq. İndi siz təsəvvür edin, əgər doğurdan da Abdulla günahsızdırsa, siz istəyərsiniz ki, qonşunuzu haqsız yerə həbs etsinlər, uşaqları atasız böyüsün, özü isə həbsxanada çürüsün? Bu sizə, oğlunuzun ruhuna günah olmaz? Oğlunuzun əsil qatili cəzasız qalsa, rahat olarsınız? Onun adı guya qonşu qadınlara baxan, sataşan kimi qalsa, necə olar? Qonşu qadın, Abdullanın arvadı da biyabır olar, iki ailə arasında qan, namus intiqamı yaranar. Gələcəkdə uşaqlarınız bir-birilərilə düşmən olar. Başlıcası isə, Allah haqsızlığı götürməz. Biz vəkillər, hüquq işçiləri, dövlət də məhz bundan ötəriyik.

Leylaya diqqətlə qulaq asan Azər və Şamama fikrə getdilər. Onlar eşitdiklərini beyinlərində saf-çürük edirdilər. Leyla üzünü Şamamaya tutub dedi:

– Rövşənlə Aydın gənc, tay-tuş idilər, onların arsasında mübahisə falan olub? Aydın kənddə necə tanınır? Sakit, yoxsa, davakar birisi kimi?

Şamama bir az düşünüb cavab verdi:

– Aydın davakardır, varlı balasıdır, həm də ərköyündür. Rövşən isə ağır təbiətli, həm də sakit bir uşaq idi. Aydın toylarda da dava salardı. Ancaq Rövşənlə dalaşmamışdılar. Əsas odur ki, ikisi bir qız istəyirdilər. Mən bundan şübhələnirəm.

Leyla ona diqqətlə qula asıb dedi:

– Aydındır. Yaxşı, qonşu Abdullanın yoldaşı necə insandır?

Şamama tez dilləndi:

– Validəni mən çox yaxşı tanıyıram. O, mədəni, qeyrətli, namuslu bir qadındır. Onun haqqında pis söz danışanlar böyük günah edirlər. Siz digər qonşulardan da soruşa bilərsiniz, o təmiz insandır. Elə yoldaşı Abdulla da zəhmətkeş, sakit insandır. Biz neçə illərdir qonşuyuq, aramızda heç bir söz-söhbət, dava-dalaş olmayıbdır. Bu nə müsibətdir başımıza gəldi, bilmirəm.

– Abdullagilin ov tüfəngləri vardır? Leyla bu dəfə üzünü Azərə tutub sual verdi. Azər gülümsəyib dedi:

– Bu kənddə az qala hər evdə ov tüfəngi vardır. Abdullanın da varıdır. Ancaq o çox nadir hallarda tüfəngini götürüb ova gedər. Demək olar ki, heç bir il olar ki, onun əlində tüfəng görməmişəm. Abdulla balığa getməyi çox sevərdi.

Leyla stəkanın dibində qalmış, soyumuş çayından bir-iki qurtum da içib, nəlbəkiyə qoydu, ayağa qalxıb dedi:

– Yaxşı, bir çox mətləblər aydın oldu. Allahın köməkliyilə həqiqəti tapıb, üzə çıxaracıq. Bağışlayın, vaxtınızı aldım, dərdinizi təzələdim. Çox sağ olun, mən getməliyəm.

Azərlə Şamama Leylanı darvazaya qədər ötürdülər. Leyla iki dəfə darvazanı həm içəridən dartıb, həm də bayırdan itələyib açdı. Ona təəccüblə baxan ev sahiblərinə:

– "Darvaza qapınız çox ağır açılır", - deyib, yenidən sağollaşıb maşına əyləşdi və "Şahin, sür getdik" , - dedi.

... Leyla iki dəfə darvaza qapısını döydükdən sonra açdılar. Onları Abdullanın böyük qardaşı Bayram və ən kiçik qardaş Vəli qarşıladı. Ayaqüstü iki-üç dəqiqə söhbətdən sonra Abdullanın yoldaşı Validə də gəldi. Leyla bildirdi ki, Validəylə təklikdə söhbət edəcək. Abdullanın qardaşları Şahinlə həyətdəki tut ağacının altında qoyulan masada əyləşib, söhbət eləməyə başladılar. Leyla və Validə evə keçdilər. Validə çay süzüb gətirdi. Leyla ona təşəkkür edib, sözə başladı:

– Validə xanım, mərhum Rövşən necə oğlan idi? Yəni, siz onu necə tanıyırdınız?

Validə sakit və yavaş səslə dedi:

– Mən Rövşəni uşaqlıqdan tanıyıram. Çox sakit və tərbiyəli uşaq idi. Orta məktəbdən gələndə həmişə bizim darvazanın önündən keçib gedirdi.

– Bu zaman siz onunla salamlaşırdız? - Leyla soruşdu.

– Əlbəttə, görəndə salamlaşır, kef-əhval tuturduq. O çox utancaq idi, həmişə mən ondan kefini soruşurdum - Validə dedi.

– Sizin ondan xoşunuz gəlirdi? - Leyla yenə sual verdi.

– Bəli, çox xoşum gəlirdi. Rövşən mədəni və tərbiyəli oğlan idi. Bir neçə dəfə evə də çağırmışam. Allah rəhmət eləsin, sözümü yerə salmayıb gəlmişdi - Validə köks ötürüb dedi.

– Siz onu sevirdiniz?

Leylanın bu sözündən Validə pörtüb, qızardı. Göz bəbəkləri genişlənməyə başladı. Əlləri əsə-əsə, titrək səslə:

– Anlamadım...

– Siz onu sevirdiniz? - sualı təkrar verdi.

Validə özünü güclə ələ alıb dedi:

– Bu nə sualdır verirsiniz?

Leyla təmkinini pozmadan:

– Bəs, evə niyə çağırırdınız? - deyə sual verdi:

Validə istehza ilə gülümsəyərək dedi:

– Bir dəfə çağırdım ki, toyuğun başını kəssin. Bacımgil qonaq gəlirdi, tələsirdim. Abdulla da evdə yox idi. İkinci dəfə isə çağırdım ki, at açılıb, onu kömək etsin tutaq. Əkin sahəsinə girib təzə əkdiyim pomidor, badımcan şitillərini ayaqlayır. O da gəldi, kömək elədi. Rövşənin 22-23 yaşı vardı, mənim isə qırxbeş yaşım var. Ayıb deyil belə sual verirsiniz? Mən onu qardaşım, oğlum kimi çox istəyirdim. Eləcə də, digər qonşu uşaqlarını. Onlar da mənim balalarımı çox istəyirlər. Əgər qonaq olmasaydınız, mən bilirəm, sizə necə cavab verərdim...

Leyla düşündüyü metodun işə yaradığına əmin oldu, ürəyində buna sevindi. Validəni həyəcanlandıra bilmişdi. O, əhvalını pozmadan dedi:

– Bəs, onda izahatda niyə yazmısınız ki, Abdulla Rövşəni qətlə yetiribdir?

– Rövşəni öldürübsə, o deməkdir ki, mən onu sevirdim? - Validə əsəbi şəkildə sual etdi.

– Mən bilmirəm nə deməkdir. Ancaq işin sənədləşməsində qətlin qısqanclıq üstündə olduğu qeyd edilir. Yəni, yoldaşınız Rövşənin tez-tez sizə baxmasından narahat olub, qısqanıb, gecəylə gedib evdən çağırıb, ov tüfəngilə vurub.

– Bunları sizə kim deyib? - Validə gözlərini yumub, dərindən nəfəs alaraq dedi:

– "Dost dar gündə tanınar", - deyimi elə-belə deyilməyib. Dostu da, düşməni də, ümumiyyətlə, insanları həyəcanlandırıb, normal halından çıxarıb tanımaq olur. Eləcə də, xalqlar müəyyən keçid vəziyyətlərdə, pandemiya, müharibələrdə öz əsas xüsusiyyətlərini ortaya qoyurlar. Təbiətin özü də belədir. Canavarlar acanda, dəvələr hirslənəndə, ilanlar

zədələnəndə öz mahiyyətlərini ortaya qoyurlar. Lap geri gedəndə atomlar da belədir. Normal halda olanda yox, elektron alanda və ya verəndə radikallaşır, mahiyyətləri, kimyəvi xassələri üzə çıxır. Cinayətin üstünü açmaq üçün tərəfləri normal, adi haldan çıxarıb, həyəcanlandırmaq lazımdır. Leyla hüququn bu klassik metodundan dəfələrlə istifadə etmişdi. İndi isə bu metod işinə yarayırdı. Bu vaxt qarşı tərəf ya çaşır, özünü müdafiə məqsədilə, ya da hücum etmək üçün həqiqətlərin üstünü açmağa başlayır. Leyla bunları düşünə-düşünə dedi:

– Siz indi mənə izah edə bilərsiniz ki, bunlar yalandır. Ancaq bütün kəndə necə bir-bir hamıya izah edəcəksiniz ki, mən təmizəm? Elin ağzını yummaq olmur, kimə nə ad qoyursa, ömürlük yapışır. - Leyla ciddi səslə dedi. Sonra səsini bir az da yüksəldib:

– Mən bura Abdullanın günahsız olduğunu sübut etməyə gəlmişəm. Ancaq siz, onun həyat yoldaşı, öz uşaqlarınızın atasını şərləmisiniz, izahatınızda onun qətl törətdiyini yazmısınız. Həm də öz adınıza ləkə salmısınız. Həqiqəti deyin! Bu yalanları nə Allah, nə dövlət, nə də gələcəkdə övladlarınız sizə bağışlamaz!

Validə ağlamağa başladı. Başını sağa-sola yellədib dedi:

– Hər şeyi sizə düz deyəcəm, ancaq qorxuram.

– Qorxmayın! Heç bir vətəndaş sahibsiz, kimsəsiz deyil! Onun Allahı, dövləti vardır. Hər il Aşurada imam Hüseynin müsibətinə ağlayırıq. Onun günahkarı Yezid olsa da, səbəbkarı laqeyd, bitərəf, şəri görüb qorxudan səsini çıxarmayanlar, həqiqəti-Hüseyni müdafiə etməyənlər idi. Əslində, biz hər il iki müsibəti ağlayırıq, biri Hüseynin, digəri isə laqeydliyin müsibətidir. Siz həqiqəti danışın, heç nədən qorxmayın. Adınıza gələcək ləkələri bu gün təmizləyə, Abdullanın azadlığına belə birlikdə nail olarıq.

Validə ayağa qalxıb, yenidən Leylaya və özünə çay gətirib, dedi:

– Onlar məni hədələdilər və sonra aldatdılar. Məni və uşaqlarımı aparıb 3 gün oteldə saxladılar.

Leyla təəccüb və heyrətlə:

– Necə yəni oteldə saxladılar?

– Abdullanı həbs etdikləri gün bizi otelə apardılar. Guya ki, Rövşənin atası, qohum-əqrabası bizə xətər yetirə bilər. Və orada bizi inandırmağa çalışırdılar ki, guya ova gedəndə Rövşənlə Abdulla mübahisə

edib, Rövşən onu söyüb. Abdulla gecə gedib, onu çağırıb və ov tüfəngiylə vurub.

– Siz buna inandınız?

– Xeyr, mən inanmadım. Dedim əvvala, Rövşən heç vaxt Abdullanı söyməz, onlar mübahisə etməzlər. İkincisi də, axı Abdulla bəlkə də bir il olar ki, ova getmir, əlinə tüfəng götürməyibdir. Belə olan halda, məni hədələdilər, "qızına və oğluna yazığın gəlirsə, bu cür deməlisən, əks halda, öldürüb Rövşənin yaxınlarının üstünə atarıq , - dedilər. - Validə dedi.

– Bunları kim dedi? Sizi kim hədələdi? - Leyla uca səslə soruşdu.

– Mənə bu sözləri, izahatı belə yazmağı müstəntiq dedi. Ancaq telefona zəng edib hədələdilər. Onların kimliyini bilmirəm. Deyirlər, o birinci həbs edilən Aydın var ha, onun Bakıda yaxın qohumu imkanlı şəxsdir. Ondan şübhlənirəm - Validə dedi.

– Orxan Salmanzadə - Aydının bibisinin yoldaşı? - Leyla soruşdu.

– Hə, deyəsən, elədir. Müstəntiq belə bir adamın olduğunu və təhlükəli, çox da zəngin olduqlarını dedi.

– Siz də qorxub Abdullaya şər atdınız?

- Ailəli olmaq, ana olmaq insanı çarəsizləşdirir, qorxaq, asılı edir. Uşaqlarım olmasaydı, onlar məni qorxuda bilməzdilər. Həm də bizi üç gün oteldən bayıra çıxmağa qoymadılar. Və sonra özümü köməksiz hiss edib, bir müddət susdum. Daha dözə bilməyib, vəkil tutmaq qərarına gəldim. Vur-tut iki danamız var idi, qayınlarıma dedim aparın satın, yaxşı, ədalətli və savadlı bir vəkil tutun. Onlar da sizi dedilər - Validə dedi.

– Bəs, niyə indi mənimlə görüşən kimi bütün bunları dərhal demədiniz? - Leya soruşdu.

– Nəsə, yenə qorxdum, tərəddüd etdim. Həm də sözün açığı, sizə də inanmadım. Bakıdan gəlmisiniz. Aydının dost-tanışlarından hesab etdim - Validə bunları deyib, gülümsədi.

Leyla ayağa qalxıb, otaqda var-gəl eylədi və dedi:

– Biz vəkillər qanunların qoruyucuları və dövlətin bu sahədə əsgərləriyik. Siz mənə tam inana bilərsiniz. Ancaq heç qonaqpərvərliyiniz yox imiş.

– Niyə yoxdur? - Validə təəccüblə soruşdu.

– Ona görə ki, səhərdən qonağa ancaq qəndlə çay verirsiniz. Şokalad, mürəbbə, gətirmirsiniz - Leyla gülərək dedi.

Validə pərt oldu və gülümsəyərək:

– Vallah, ilin bu vaxtına mürəbbə qalmır. Biraz da kasıbçılıqdır. Mən vəkil üçün nəzərdə tutulmuş pula dəyə bilməzdim.

Leyla güldü və dedi:

– Yaxşı, Validə xanım. İndi dediklərinizin hamısını olduğu kim yeni izahatınızda yaza bilərsiniz?

Validə qətiyyətli səslə:

– Bəli, neçə vaxtdır bu günü gözləyirəm. Allah məni peşman etməsin. Sizə inanıram və güvənirəm.

– Sizin inamınıza layiq olmağı Allahdan arzu edirəm, buna dua edirəm. İndi isə başlayaq yazmağa.

Leyla bunları deyib çantasından kağız, qələm çıxardı. Masanın üzərinə qoyub dedi:

– Həqiqəti, hər şeyi necə olub elə də yazın. Və həmin gün, hadisə baş verəndə Abdulla harada olub, nə edirdi, onu da yazmağı unutmayın - Leyla xəbərdarlıq etdi.

– Mən bilirəm nə yazacam, heç narahat olmayın. Həmin vaxt Abdulla evdə olub, birlikdə balıq təmizləyib qızardırdıq. Uşaqlar da buna şahiddirlər. Validə bunları deyib, yazmağa başladı.

Validə izahatını yazıb qurtarmışdı. Artıq günorta idi. Uşaqlar da məktəbdən gəldilər. Leyla onları diqqətlə, təpədən dırnağa süzdü. Köhnə, lakin səliqəli, təmiz paltarlar geyinmişdilər. Ayaqqabıları isə lap köhnə idi. "Yerəvan" Bazarından ayaqqabı alıb gətirəndə bacılarının necə sevindiklərini xatırladı.

... Validə əl çəkmədi, çörək, pendir, kartof qızartması gətirdi. Leyla onlarla birlikdə oturub çörək yedi. Çoxdan idi ki, bu cür dadlı, ürəyinə yatan yemək yemirdi. Ona elə gəlirdi ki, alça ağacının altında Səriyənin bişirdiyi kartof qızartmasını bacıları ilə birlikdə yeyirlər.

Leyla yeməkdən sonra uşaqlarla da təklikdə, ayrı-ayrılıqda söhbət etdi. Lazımi qeydlərini götürdü. Sonra Validə və Abdullanın qardaşları Vəli və Bayramla sağollaşıb getdi.

İki gün sonra məhkəmə olacaqdı. Leyla çox yorulmuşdu. Prokurorla görüşü sabaha saxladı, otelə gəldi. Axşam bu gün keçirdiyi görüşləri bir daha düşünüb, mənzərəni aydınlaşdırmalı idi.

Leyla gecənin yarısına kimi yata bilmədi. Gah bu gün tanış olduğu insanlarla xəyalən söhbət etdi, onlara suallar verdi, gah da insanlığın nə vaxt cinayət törətmədiyi vaxtların olub-olmayacağını düşündü. Hərdən də qanunları öz əmtəəsi kimi satan hüquq işçilərinin millətə, bəşəriyyətə vurduqları ziyanı qiymətləndirməyə çalışdı. Orxan Salmanzadənin Novxanı bağında gördüyü görməmiş siması gözünün önündə Abdullanın uşaqlarının ayaqqabıları ilə qoşa dayandı. Ona elə gəlirdi ki, Orxan bu uşaqların köhnə ayaqqabılarını yavanlıq, qanunları isə çörək edib, dürmək tutub yemək istəyir.

Leyla prokurorluğa gələndə saat 10 idi. Prokuror qəbul otağında onu 15 dəqiqə gözlətdi. Leyla bundan pərt olmadı, bilirdi ki, bu prokurorların primitiv psixoloji təsir vasitəsiydi.

Prokuror onu qəbul etdi. Müstəntiq Aslan Musayevdən fərqli olaraq, prokuror Mehdi Mədətov Leylanı gülərüzlə qarşıladı, əyləşmək üçün yer göstərdi. Sonra isə mülayim səslə dedi:

– Leyla xanım rayonumuza xoş gəlmisiniz. Haqqınızda çox eşitmişəm, savadlı və prinsipial vəkilsiniz.

– Leyla da gülümsəyərək yaşı altmışı keçmiş, saçlarının çoxu ağarmış, qıyıq gözlərindəki ifadələri çətin oxunan prokurorun ağla sarının qarışığı rəngində olan simasına diqqətlə baxa-baxa:

– Çox sağ olun, təşəkkür edirəm! - dedi.

Prokuror Mədətov məmnunluq ifadəsi kimi başını yırğaladı və dedi:

– Buyurun, sizi eşidirəm!

Leyla onun gözlərinin içinə diqqətlə baxaraq danışmağa başladı:

– Mən dünən istintaq materialları ilə tanış oldum. Sizin müstəntiqlə söhbət etdim. Kəndə gedib, mərhum Rövşənin valideynlərilə, həm də qətldə şübhəli bilinən Abdullanın qardaşları, yoldaşı və uşaqları ilə söhbət etdim.

– Çox yaxşı, yəqin ki, təcrübəli vəkil kimi, cinayətin motivlərini, hadisəni və günahkarı təxmin edə bildiniz. Yəni, doğurdan da gecədir, göydə ulduzlar var - belə bir məlum mənzərəni müşahidə etdiniz. Əs-

lində, sizin kimi savadlı vəkillərlə işləmək çox rahatdır. Hər şeyi tez anlayırsınız. - Prokuror təmkinlə söylədi.

Leyla qaş-qabağını töküb, ciddi səs tonuyla dedi:

– Dövlətin qanunları çox ağır və uzun polad parçaları kimidir. Onun bir ucundan prokurorlar, digərindən vəkillər tutmalı, hakimin göstərdiyi lazimi yerə qaldırıb, qoymalıdırlar. Ancaq Siz prokurorlar bəzən həm vəkili, həm də hakimi heçə sayırsınız, həmən polad parçasını tək götürməyə çalışırsınız, yerdə sürüyüb aparırsınız. Hərdən də ayağınıza salıb, özünüzü şikəst edirsiniz.

Prokurorun üzündəki cizgilər rezin qırışları kimi dəyişməyə başladı. O, çoxillik təcrübəsindən dərhal anladı ki, vəkil bura elə-belə gəlməyib. Onu da təxmin etdi ki, bu arıq, qarayanız, gözlərindən inad saçan xanımla işi asan olmayacaq. Mədətovun bu cür vəziyyətlər, eləcə də, başqa variantlar üçün özünün inandığı, təcrübələri sayəsində əldə etdiyi çıxış yolları taktikası var idi. O, bu cür çoxlu çıxış yolları, üsullarını uzun illər ərzində təcrübədə sınaqdan keçirmişdi. İndi hələ ki, onlardan birini - səmimiyyət və mülayimliklə, dost olmaq, üzə salmaq kimi mahiyyəli üsulundan istifadə edirdi. Odur ki, özünü "dost" tərəf kimi tutmaqda davam etdi, əhvalını pozmadan təmkinlə dedi:

– Çox doğru deyirsiniz, sizinlə razıyam. Qanunları elə bərk toxumalıyıq ki, oradan "böyük həşəratlar" da keçə bilməsin.

Leyla istehza ilə gülüb dedi:

– Ancaq sizin müstəntiq özü qanun torunun ilmələrini dartıb, söküb. Bulud olub göy üzünü tutub, ulduz falan görsənmir. Sizə sadəcə bir söz deyim, mən dünən Abdullanın uşaqlarının məktəbə geyindikləri ayaqqabıları gördüm. Onların atasını həbs etmək bütün kainata yayılacaq, heç vaxt yox olmayacaq bir günah hadisəsidir.

– İndi deyirsiniz ki, cinayətkar yoxsuldursa, insan qətlə yetiribsə, onu həbs etməyək? Eyni cinayət üçün varlıya ayrı, kasıba ayrı qanunlar yazılsın? - prokuror bunu deyib, kreslonun arxasına yayxanıb, Leylaya baxdı.

– Xeyr, elə demək istəmirəm. İstintaq düzgün aparılmayıb, yekun nəticə həqiqətdən çox uzaqdadır. Bunu siz də bilirsiniz. İndi nə deyirsiniz? Qanunun polad parçasını köməkləşib götürək, yoxsa, tək sürümək istəyirsiniz? - Leyla dedi.

Prokuror Mədətov fikirləşdi ki, Leylanın bu işlə bağlı nələr öyrəndiyini bilsin, ondan sonra nə cür üsul istifadə edəcəyinə qərar versin. Odur ki, dedi:

– Qızım, gəncsiniz, bilirəm ki, enerjili, yenilikçi olmaq istəyirsiniz. Ancaq inanın ki, vaxt gələcək mənim doğru dediyimi anlayacaqsınız. Məsləhət görürəm ki, qayıdın, gedin Bakıya. Orada çoxlu maraqlı işlər var, onlarla məşğul olun, kariyeranızı yüksəldin.

– Siz də burada öz bildiyinizi edib, həqiqi cinayətkarı azadlıqda buraxıb, yerinə günahsız bir insanı həbs edəsiniz? , sabah onun oğlu vətənə əsgər olacaq, qızı ailə qurub, vətəndaşlar tərbiyə edəcək. Özü bir həmvətənimizdir, Allah bəndəsidir. Siz niyə belə edirsiniz? - Leyla dedi.

– Nə edirik? - prokuror dedi.

– Qanunları qorumaq əvəzinə özünüz pozursunuz, Leyla sərt şəkildə söylədi.

– Sübut? - prokuror yenə təmkinlə soruşdu.

– Qədirzadələrin, Salmanzadələrin ayaqlarına qanundan ayaqqabı tikmisiniz, Abdullanın başına isə corab toxuyub keçirmisiniz. Bunu nə Allah, nə də dövlət sizə bağışlamayacaq. Mən hər şeyi öyrənmişəm, əmin olun ki, həqiqəti bilirəm və müdafiə etməyi bacaracam.

Prokuror Mədətov növbəti anlaşma üsuluna keçməyə qərar verdi. Gülümsəyərək dedi:

– Qədirzadələr, Salmanzadələr... Hə, indi anladım sizi Leyla xanım, doğurdan çox peşəkar vəkilmişsiniz. Bəzi savadsız, tənbəl vəkillər özlərinə əziyyət vermir, bacarıqları olmur. Sonra da deyirlər ki, iş yoxdur, dolana bilmirik. Ancaq siz daşdan da pul çıxaran, zəhmətkeş vəkilsiniz. O saat başa düşmüsünüz ki, rəqib qapıya qol vurmaq çətindir, ona görə də dönüb öz qapınıza qol vurmaq istəyirsiniz. Heç bir halda, topu əldən vermək istəmirsiniz.

Leyla təəccüblə ona baxıb soruşdu:

– Nə top, nə qol? Anlamadım.

Mədətov bir anlıq sevindi. Vəkilin özünü anlamazlığa qoyduğunu zənn etdi və bunu ikinci üsulun işə yarayacağı kimi başa düşdü. Odur ki, gülümsəyərək dedi:

– İnanıram ki, hər şeyi gözəl anladığınız kimi, vəkilin öz qapısına qol vurmağını da yaxşı başa düşdünüz.

Prokuror Mədətov sağ əli ilə siyirməni açıb, ordan bir dəstə pul götürdü və masanın üzərinə qoyub, əlinin dalı ilə Leylaya tərəf itələdi və gülümsəyərək dedi:

– Götürün, beş min dollardır, xeyli əziyyət çəkmisiniz, halal xoşunuz. Bizə də vaxtilə böyüklərimiz bu cür köməklik edib, əlimizdən tutublar, özümüz yeriyənə qədər. Daha, bayaqdan "mus-mus" deyincə, "Mustafa" deyin, yoxsa, fəlsəfədən, psixologiyadan danışırsınız, cibi boş, başı mənasız şeylərnən dolu adamlar kimi...

Ona diqqətlə qulaq asan Leyla istehza ilə gülüb, dedi:

– İndi anladım, yəni, Abdullanın kasıb olduğunu görüb, qarşı tərəfdən pul qoparmağa çalışıram?

– Çox ağıllı vəkilsən, hər şeyi də düz edirsən. İnanın, buna pis baxmıram. Mən də sizin yerinizə olsam, elə edərdim - prokuror işi düzəldiyini fikirləşib, arxayın-arxayın gülümsədi.

– Siz mənim yerimə olmaq üçün zamanı geri qaytarmalı, kasıb, çox uşaqlı ailədə doğulmalı, xadiməçi, kran sürücüsü işləyə-işləyə, suxarı yeyə-yeyə ali təhsil almalısınız. Götürün pulunuzu, lazım deyil, belə hərəkətlər - Leyla dedi.

Prokuror bir az düşünüb, belə qərara gəldi ki, vəkil pul üçün gəlib, sadəcə (,) pulun azlığı ilə razılaşmır. Ona görə kasıblıqdan, çətinlikdən söz açdı. O, məsələni birdəfəlik həll etmək istədi. Əlini yenidən siyirtməyə atıb, bir paçka pul çıxardıb, əvvəlki pulların üstünə qoyub dedi:

– 15 min dollardır, götür qızım. Elə buradan da qayıt get Bakıya. Öz həyatını yaxşılaşdır, Bakıda da bir çətinliyin olsa, mənə xəbər edərsən. Iş prinsipindən çox xoşum gəldi. Sən həmişə öz peşəndə pul qazana biləcəksən. Afərin!

Leyla pullara baxa-baxa düşünürdü ki, bu qədər pulu Abdullanın ailəsinə versən, görəsən, birinci nə alarlar...Uşaqlara ayaqqabı? Yox, bəlkə də, Validə birinci gedib iki kiloqram ət alar. Böyük ehtimalla onun uşaqları çoxdandır ət yemirlər. Leylanın indi yadına düşdü ki, rayon bazarına getməlidir. Biraz geciksə, istədiklərini ala bilməyəcəkdi. Bilirdi ki, rayon yerlərində bazar tez seyrəkləşir, lazım olanı almaq olmur, dükanlar bağlanır. O, ayağa qalxıb, çantasını çiyninə salıb, dedi:

– Yoldaş Mədətov, mən sizin rüşvət təklif etməyinizi məhkəmədə deməyəcəm. Bunu da məndən bəxşiş kim qəbul edin. Qanunları pula satmıram, öz mənliyimin, Allahın yanında o qədər alnı açığam ki, bunu da sizə izah etmirəm, anlamayacaqsınız. Həqiqət ağ rəngdə, nurludur, bu uzatdığınız göy rəngli dollar isə sadəcə kağızdır. Abdullanı müdafiə edəcəm Qədirzadələrdən, Salmanzadələrdən, sizdən və sizin müstəntiqdən! O müstəntiqi orqandan qovduracam.

Prokuror da oturduğu kreslodan ayağa qalxdı və Leylanı hədələyərək, əsəbi şəkildə dedi:

– Siz çox yekə-yekə danışırsınız, ağlınızı yığın başınıza! Unutmayın ki, kökəni qəbul etməyən, sonda qamçı yeyir!

Leyla istehza ilə gülümsəyərək dedi:

– Baxın, indi təbii oldunuz, bayaqdan tətbiq etdiyiniz üsullar, metodlar və görünmək istədiyiniz obraz alınmadı. Xudahafiz, nə bacarırsınız edin!

Leyla bunları deyib prokurorun kabinetini tərk etdi. Şahinlə rayon bazarına gəldilər. Validənin uşaqlarına ayaqqabı aldılar. Sonra isə ət və digər ərzaq məhsullarından bazarlıq edib, kəndə getdilər. Validənin israrlı etirazlarına baxmayaraq, aldıqları hər şeyi onlarda qoyub, bir stəkan çay içdikdən sonra kənddə qətlə yetirilmiş Rövşənin qonşularından bir neçəsilə görüşdü. Leyla onlardan Rövşən, Abdulla, yoldaşı Validə, Aydın Qədirzadə haqqında lazım olan informasiyaları öyrənmək üçün müxtəlif suallar verdi.

Leyla qaldığı mehmanxanaya gələndə axşamçağı idi, çox yorulmuşdu. Çarpayıya uzanıb, gözlərini tavana zilləyərək düşünürdü. Artıq baş vermiş qətl hadisəsinin səbəbləri, bütün detalları yüksək ehtimalla aydın idi, indi qalırdı, bunları məhkəmədə sübut etmək, həqiqətin qələbəsini təmin etmək.

... Nənəsi çiçəkli bir təpənin üzərində oturmuşdu, gülümsəyərək ona baxırdı. ətrafındakı ağ, qırmızı, mavi, sarı, mor rəngli çiçəklərin üzərində bal arıları, ağ, qara xallı sarı kəpənəklər uçuşurdu. Bir az aralıdakı gül kollarının üzərində quşlar cəh-cəh vururdu. Bu kollar qızılgüllərə, yasəmənlərə bənzəyirdi, ancaq daha gözəl idi. Çiçəkləri və ordan gələn ətirləri təkrarsız idi. Quşların da rəngləri və səsləri qəribə gözəl,

daha aydın təsir bağışlayan idi. Leyla buranın Şuşa olduğunu zənn edirdi.

Leyla nənəsinə yaxınlaşdı, əlindən tutmaq istədi, ancaq nə qədər çalışsa da, tuta bilmirdi. Nənəsi gülərək dedi:

– Sən nə edirsən, səs-sədasını buradan eşidirəm. Hərdən, mənə elə gəlir ki, ayaqyalın bu çiçəkli çəmənlərdə uşaq kimi kəpənəklərin arxasınca qaçırsan, çiçəklər ayaqlarına dəyəndə sevinirsən, ancaq birdən də yox olub gedirsən, onda narahat oluram. Özünü qoru, ehtiyatlı ol!..

Əl telefonuna gələn zəng onu yuxudan oyatdı. Nailə idi.

– Salam, bacı, işlərin necə gedir?

– Yaxşıdır, sağ ol, Nailə. Siz necəsiniz? Uşaqlar neynəyir?

– Hamımız yaxşıyıq. Nəsə bir iş görə bilirsən?

– Hə, Nailə, çox iş gördüm. İndi nənəmizi yuxuda gördüm, bizim qoruyucu mələyimizi. Bir dəfə evimizi yanmaqdan qurtardı. Yadında? Yasəmən yuxuda görmüşdü ki, nənəm onu hədələyir ki, bacılarını incidirsən, hirslənəndə onları təhqir edirsən, özünü yığışdır!

Nailə gülərək dedi:

– Hə, yadımdadır, ondan sonra qorxudan özünü yığışdırdı, başımıza fırlanmağa başladı. Hər ikisi gülüşdü.

Sonra Leyla dedi:

– Nailə, o da yadındadır, İrəvan Bazarından sənə, bacılarımıza ayaqqabı almışdıq, siz onları geyinəndə necə sevinmişdiz?

– Hə, yadımdadır. İndi də həmişə təzə ayaqqabı alanda o an yadıma düşür. Ancaq indi o qədər sevinə bilmirəm. Elə bil, həqiqi təzə ayaqqabılar onlar idi - Nailə dedi.

– Bu, təbiidi, Nailə. İnsanlar ehtiyyac içində olanda hər qazandıqları, əldə etdikləri parıltılı, qiymətli bir şey kimi gəlir onlara. Məsələn, ac insan pendir çörəyə kabab kimi, tox insan kababa artıq yemək kimi baxır. Bu insan psixikasıdır - Leyla dedi.

– Hə, elədi. Bacı, əsl həyat sadəlikdədir. Mürəkkəblik və zənginlik əlavə yükdür.

– Doğrudur, Nailə. Bilirsən, mənim müdafiə etdiyim Abdulla çox kasıbdı, onlara getmişdim. Uşaqlarının ayaqqabıları çox köhnə idi. Eynən bizim məktəbli vaxtlarda geyindiyimiz ayaqqablara bənzəyirdi. Yoldaşı ocaqda kartof qızartdı, çox dadlı idi. Bakı toylarındakı yemək-

lərdən çox dadlı... Eynən anamızın kartof qızartması kimi. Mən bu gün onlara bazarlıq etdim, uşaqlarına ayaqqabı alıb apardım.

Nailə gülüb dedi:

– Sən yekunda onlardan necə pul alacaqsan, özün onlara bazarlıq edirsən?

– Sən olsan, etməzsən?

– Edərəm, ancaq vəkil sonda müdafiə etdiyi şəxsdən pul almalı, zəhmətinin haqqını alıb ailəsini dolandırmalıdır.

– Zəhmətin haqqını bəzən daha üstün aləmlərdən gəldiyini görürsən. Bax, bu gün nənəm mənə dedi ki, nə edirsən, səsini burada eşidirəm. Çiçəklərin üzərində gəzən ayaqlarını da görmüşdüm.

– Leyla, hər şeyin yaxşısını sən bilirsən. Ancaq götürdüyün iş çox çətin, məsuliyyətli işdir. Bir neçə ay vaxtını alacaq. Təhlükələrlə qarşılaşacaqsan, sonda heç bir maddi qazancın olmayacaq, qərara özün gəl!

– Mən qərara gəlmişəm. Onlar iki dana satıb, pullarını mənim üçün saxlayıblar.

Nailə yenə güldü və dedi:

– İki dana? Qətldə təqsirləndirilən şəxsi müdafiə etmək, azadlığa qovuşdurmaq, sonra isə iki dana?

– Mən onlardan heç bir manat da almayacam. Onların pulunu götürmək "Sirat körpüsü"nü keçəndə iki dananı boynuna alıb, keçməyə bərabərdir. Və sən, bir şeyi bil, "Qiyamət günü" bizə sübut olunan bir günah, ona düşən cəzanı biləndə, dana nədir, naxırı bir maşın pula verməyə hazır olardıq.

– Leyla, sən bunları o dünyan üçün edirsən? Bu bazarlıqdır?

Leyla gülüb dedi:

– Hər kəs öz əlindəki ilə, sahibi olduğu ilə cənnəti almaq istər. Həkim deyiləm ki, kimisə müalicə edim. Cəhənnəmdən qorxmayan insan potensial təhlükədir. Ancaq mən lap ateist də olsaydım, o uşaqlara təzə ayaqqabı alardım. Köhnə ayaqqabılar bəşəriyyətin mülkiyyət bölgüsünün ədalət göstəriciləridir. İnsan insanlıq üçün yaşayır, bu yoxdursa, demək o yaşamır, tüfeylilik edir təbiətdən.

– Hə, bacı, sən hər şeyin yaxşısını bilirsən. Özündən muğayat ol. Hər yerdə yemək yemə, hara gedəcəksənsə, planlarını əvvəldən heç kimə demə - Nailə qayğısını bildirdi. Leyla ucadan gülüb, dedi:

– Sən lap həkim-dedektivsən. Yaxşı, sağ ol. Siz də özünüzdən və uşaqlardan muğayat olun, gələndə ətraflı söhbət edərik.

– Sən də sağ ol, bacı.

Leyla fikirləşirdi ki, qanunların tam bərqarar olmasında ən böyük əngəllərdən biri də hüquq - mühafizə orqanlarında işləyən müstəntiq Musayev, prokuror Mədətov kimi "parazitlər"dir. Onlar qanunun gücünü, əhəmiyyətini, keyfiyyətini azaldan, onu öz içindən yeyən qurdlardır. Və gördüklərindən, eşitdiklərindən və oxuduqlarından belə qərara gəlirdi ki, dünyanın hər yerində belə qanun "parazitləri" vardır. Yaxşı xatırlayırdı ki, Amerikadan - nüfuzlu bir təşkilatdan bir qrup nümayəndə gəlmişdi. Onlar Bakıdan beş nəfər vəkil seçib, Amerikada bir müddət kurs keçməyə, təlimlər aparmağa və oranın vəkillər sistemini öyrənməyə aparacaqdılar. Leylanın da getmək şansı böyük idi. Onlar Leylaynan təklikdə görüşüb, sual-cavab etdilər. Hər şeydən razı qalmışdılar. Sonda Leyla həmin dövrlər məşhur olan, telekanallarda nümayiş etdirilən "Santa-Barbara" filmində polis kapitanının günahsız yerə həbs olunması epizodunu xatırlayaraq, "Amerika demokratik ölkədir, necə olur ki, orada da günahsız insanı həbs edirlər"(,) –sualı(nı) vermişdi. Elə bu sual da, onun Amerikaya gedəcək vəkillər siyahısına düşməsinə nöqtə qoymuş, sual-cavab edən nümayəndələr onu aparmaqdan vaz keçmişdilər.

İnsan tək qalanda həyatının səhifələrini vərəqləməyə, bu günü düşünməyə və gələcək arzularını xəyal etməyə başlayır. Keçmiş, bu gün və gələcək zaman xəttində yerləşən əhəmiyyətli nöqtələr, yadda qalanlar insan hisslərinin ən yüksək hədlərində olan anlardır. Bəzən, bu nöqtələr bir-birilərilə birləşib, qəribə formalı nəticələr fiqurları yaradır. Leyla indi müdafiə etdiyi kasıb ailələri, Abdullanı bir neçə il əvvəl müdafiə etdiyi çox zəngin, yüksək vəzifəli bir şəxslə - Bəhlul Fərmanlı ilə müqayisə edib, gəldiyi nəticəyə - "kasıb mərd olar", - öz-özünə gülməyi tutdu. Bəhlul Fərmanlı hər dəfə həbsxanada onun yanına gələn, vəkil Leylaya deyirdi ki, "Sən məni buradan qurtar, yüz min dollar verəcəm", Leyla isə gülümsəyib deyirdi ki, Bəhlul müəllim, mən sizi yox, qanunu həbsxanadan qurtarmaq istəyirəm, onu müdafiə edirəm. Bunu edə bilsək, bağladığımız müqavilədə haqqım nə qədər yazılıbsa, onu versəz (,)

bəsimdir. Bəhlul isə gülüb, "o çox azdır, sizə özüm bəxşiş verəcəm. Yüz min dollar və ilk azadlığa çıxdığım gün bir dəst brilliant".

Leyla Bəhlul Fərmanlını müdafiə etdi, bəraət aldı. Nəinki yüz min dollar, brilliant dəst, heç öz qanuni haqqını vermədi. Hər dəfə bir bəhanə gətirdi, fənd işlətdi. Gah dedi oğlum bütün pulları batırıb, iflas edib, gah da dedi, bir nəfərdən pul alacam, onu gözləyirəm. Beləcə günlər, aylar keçdi, Leylanın öz zəhmətinin haqqını vermədi.

... Bəhlul Fərmanlı bir gün Leylanın ofisinə gəldi. Çox kədərliydi. Leylaya, ağır xərçəng xəstəliyinə tutulduğunu dedi. Sonra isə bir yuxu gördüyünü danışdı. Yuxuda ağ paltarlı bir nəfərin ona "Səni qaranlıq bir yerdən çıxaran arıq, qarayanız bir xanımın haqqını verməyib, halallığını almamısan", - dediyini söylədi. Və sonra dedi ki, indi əllərində heçnə qalmayıb, nə pul, nə də mülk. Halalıq verməyini istədi. Bu vaxt Leyla ona belə cavab vermişdir ki, "mən halallıq verdim, ancaq sən əsas halallığı verəndən, Allahdan istə". Sonradan o şəxsin oğlu maşın qəzasında dünyasını dəyişdi, iki ay keçdi, özü də vəfat etdi.

Ancaq indi, Abdullanın ailəsi gözlərinin tikəcəyi olan iki dananı satıb, pulunu ona vermək istəyirdilər. Həyatda çoxlu sirli gedişlər var imiş. Leyla sonda bu qərara gəlirdi.

* * *

... Məhkəmə başladı, əvvəl prokuror ittihamı elan etdi, müttəhim Abdullanın "təqsiri"nin aparılmış istintaq zamanı ortaya çıxan dəlillərlə sübut olunduğunu, "faktlarla" dedi. Hakim üzünü Abdullaya tutaraq sual verdi:

– Müttəhim, siz prokurorun bu ittihamlarını qəbul edirsiniz?

Abdulla hakimləri, prokuroru, şahidləri və sonda, vəkili baxışları ilə süzərək dedi:

– Möhtərəm hakim, prokurorun dedikləri düz deyil. Mən hadisə baş verən vaxt öz evimdə olmuşam. Mərhum qonşumuz Rövşənlə heç bir mübahisəmiz olmayıb. O məndən yaşca çox kiçikdir, nə davamız ola bilərdi?

– Əyləşin! - hakim dedi və sonra sözü zərərçəkən tərəfə verdi. Rövşənin atası, Şamama və Azər də Abdullanın dediklərini təsdiq etdilər. Həqiqi qatilin tapılıb cəzalandırılmasını tələb etdilər.

Hakim şahidlərə söz verdi. İstintaq dövrü izahat vermiş şahidlər, Leylanın söhbət etdiyi qonşular ifadə verdilər. Hər biri Abdullanı sakit təbiətli, öz işilə məşğul olan, zəhmətkeş insan kimi xarakterizə etdilər. Rövşənin qətlində onun təqsiri olmadığını görüb, eşitdikləri faktları dedilər. Leyla onlara suallar verdi.

Şahidlərin hər biri ifadələrində vurğuladı ki, prokuror polis rəisilə birləşərək bu rayonda çox insanı günahsız yerə həbs etdirib, həyatını məhv ediblər.

Şahidlərin bu cür qətiyyətli mövqeləri Leyla üçün sürpriz, böyükköməklik oldu. Elə prokuror da bunu gözləmirdi.

Hakimlər və prokuror çıxılmaz vəziyyətdə qalmışdılar. Artıq hər şey aydın olurdu. Müttəhimin, zərərçəkənlərin, şahidlərin ifadələri, Leylanın peşəkarcasına, həqiqəti aydınlaşdırmaq üçün verdiyi suallar cinayət hadisəsinə, onun motivlərinə və əsl qatilin kimliyinə işıq salırdı.

Məhkəmənin gedişini diqqətlə izləyən prokuror Mehdi Mədətov bu cür vəziyyətdən çıxış yolu axtarmağı düşünməyə başladı. Vəkilin də çıxış edəndə nələr deyəcəyini təxmin edirdi. Bu cür savadlı, işinin peşəkarı, qətiyyətli və rüşvət təklifindən, hədə-qorxularla yolundan dönməyən, həqiqəti axtaran insanlar nadir hallarda olurdu. Onlardan həqiqəti gizlətmək sadəcə, mümkün deyildi. Okeanın dibində, dağın başında olsa da tapıb, gətirəcəkdi. Belə olan halda, Qədirzadələrə, Salmanzadələrə nə cavab verəcəkdi?

Prokuror Mədətov belə qərara gəldi ki, yeganə çıxış yolu bu işdən uzaqlaşmaqdı. O belə də etdi, hər kəsin gözləmədiyi şəklidə ayağa qalxıb, öz-özünə etiraz edib, məhkəmə zalını tərk etdi. Məhkəmə prosesi qeyri-müəyyən vaxta qədər təxirə salındı.

Abdulla şahidlərə təşəkkür etdi. Sonra isə Leylaya tərəf baxıb:

– Allah sizə kömək olsun. Mən doğurdan da təqsirkar deyiləm. Deyəsən, dualarım qəbul olunub - dedi. Sonra onu apardılar.

Məhkəmə binasının həyətində şahidlərin hər biri Leylaya təşəkkür edib, birlikdə Abdullanın günahı olmadığını sübut etmək üçün axıra qədər mübarizə aparacaqlarına, onunla birlikdə olacaqlarına söz verdilər. Prokuror və polis rəisinin bu rayonda törətdikləri qanunsuzluqlardan, rüşvət alıb kasıbların, kimsəsizlərin haqlarını tapdaladıqlarından danışdılar. Dövləti xalqın gözündən salacaq özbaşınalıqlarından,

ağlagəlməz əməllərindən söhbət açdılar. Leyla onlara qulaq asdıqca dəhşətə gəlirdi.

Şahidlər sağollaşıb getdilər. Rövşənin valideynləri də Leylaya təşəkkür edib getdikdən sonra, o üzünü Validəyə və Abdullanın qardaşlarına tutub dedi:

– Sizdən bir xahişim olacaq.

Validə minnətdarlıq dolu baxışlarıyla baxaraq dedi:

– Buyurun, Leyla xanım. Sizi bizə doğurdan da Allah yetirib.

Bayram və Vəli də ona təşəkkür edib, nə xahiş etsə, əməl edəcəklərini bildirdilər. Leyla bir az fikirləşib, dedi:

– Mən ikinci dəfə bura gələndə, yenə Validənin kartof qızartamısını yemək üçün sizə gələcəm.

Validə gülümsəyib dedi:

– Mütləq gəlin, bu dəfə sizə hər cür yeməklər bişirəcəm. Bağışlayın, keçən dəfə qəfil gəldiniz.

Leyla da gülümsəyib dedi:

– Hər cür yox, ocaqda qaynadılmış çay və kartof qızartaması istəyirəm. İkincisi, əsl istəyim, xahişim, mən sizə gələndə həyətinizdə əvvəlkindən də iri, kök iki dana görmək istəyirəm, onsuzda sizdən bir manat almayacam. Abdulladan isə narahat olmayın, o İnşallah, azadlığa çıxacaq. Mən sizə kişi qızı kimi söz verirəm ki, sona qədər mübarizə aparacam. İndi isə qalın salamat...

Leyla onlarla sağollaşıb, minnətdarlıq dolu, yaşarmış gözlərin ümidli baxışlarının müşayiətilə maşına əyləşdi. Və Şahinə:

– Sür, gedirik Bakıya! dedi.

Rayondan çıxıb iyirmi dəqiqə getmişdilər ki, Leyla dedi:

– Şahin, Şamaxı yolu ilə deyil, Kürdəmir yolu ilə gedəcəyik.

Gənc, idmançı görkəmində olan Şahin, çönüb arxada əyləşən Leylaya təəccüblə baxıb dedi:

– Leyla xanım, onda gərək geri qayıdaq. Bu yol daha yaxındır, həm də Ağsu döngələri, Şamaxı meşələrinə tamaşa edə-edə gedərik. Siz dediyiniz yol isə həm maraqsız, həm də iki dəfə uzundur.

– Şahin bala, atalar sözünə əməl etmək lazımdır. "Düz yol gedən yorulmaz", - deyirlər. Həm də,"kasıb mərd olar", - deyirlər.

Şahin birinci atalar sözünün indiki hala uyğun olduğunu düşünsə də, ikincisinin niyə deyildiyini anlamadı. Az danışmağı vərdiş etmiş, sürücülüklə pul qazanan bu gənc daha heçnə soruşmadı. Avtomobili çöndərib, Kürdəmir yoluna getmək üçün sürdü. Leyla da elə bu cür danışmağına, mənasız suallar vermədiyinə, səbirli və mədəni xasiyyətlərinə görə maşın lazım olanda Şahinə zəng edib çağırırdı.

Leylanın Kürdəmir yolunu seçməsinə səbəb, beş dəqiqə əvvəl gələn telefon zəngi olmuşdur. Zəng edən, bu rayonda polis idarəsində cinayət-axtarış şöbəsinin əməkdaşının Ağsu döngələrində sui-qəsd hazırladıqları haqda xəbər aldığını, əgər o yolla getsələr, maşınlarını yük maşınları ilə vurub, uçuruma salmaq kimi plan qurulduğunu demişdi. Sonra isə həmin yük maşınının nömrəsini, markasını söyləmişdi. Leylanın : "Sizə necə inanım?" sualına isə "Biz hər şeyi görürük, əlavə sual verməyin", - demişdi.

Məhkəmədən iki gün sonra hakim də həmin cinayət işindən imtina etdi. Ali məhkəmə işin icrahatını öz üzərinə götürdü. Loğman Kamranov adlı hakimin sədrliyi ilə məhkəmə prosesləri davam etdi. Loğman Kamranov lovğalıqla Leylaya bildirdi ki, "Siz indi baxarsınız, mən bu işi necə aparacam". O, belə deməklə ortada olan külli miqdarda rüşvət pullarının və yüksək vəzifəli insanların zənglərinin hesabına Abdullanın müqəssir kimi həbsinə "hüquqdan don" geyindirməyi nəzərdə tuturdu. Leyla gülümsəyərək ona sadəcə :- "baxarıq" cavabını verdi.

Leyla dörd ay, hər ayda 3-4 dəfə olmaqla həmin rayona getdi. Əlavə şahidlərdən ifadələr aldı, cinayət hadisəsinin mənzərəsini, əsl həqiqəti göstərən təkzib edilməz faktları zənginləşdirdi. Abdullanın tüfəngini Bakıya ekspertizaya göndərdi. Hadisə yerinə əlavə baxış keçirildi, hal şahidləri bir neçə dəfə yenidən dindirilib, ifadələri alındı. Validənin və uşaqlarının saxlanıldığı mehmanxanadan bu faktı təsdiq edən sənəd aldı.

Bu müddət ərzində Leyla bütün xərcləri özündən çəkdi. Hətta, şahidlərin bəzən kənddən rayona, Bakıya gəlib-getmək xərclərini də özü ödədi. Abdullanın ailəsinin bu işdə bir manat da olsun xərc çəkməsinə imkan vermədi. Onunla bəzən birlikdə gedib-gələn hakim Loğman Kamranov bu işlərə lap məəttəl qalmışdı. Və bu müddət ərzində Leylaya dəfələrlə külli miqdarda rüşvət təklifləri, hədə qorxular, xahişlər

olundu. Leyla bütün bunlardan qətiyyətlə imtina etdi, heç nədən qorxmadı, xahişləri qəbul etmədi.

O, hüquq fakültəsinə daxil olmaq üçün göstərdiyi inadı, çəkdiyi zəhməti, etdiyi səbri bir daha təkrarladı. Eyni arşınla digər həqiqəti ölçə bildi. Bəzən bilik, qətiyyət, zəhmət və səbrin vəhdətindən universal həyat açarı alınır. Və bu açarla istənilən bağlı qapını açıb, müxtəlif aləmləri görmək olur. Leyla ömrü boyu öz biliyi, qətiyyəti, zəhməti, səbri və haqqa söykənən əqidəsilə universal həyat açarını yarada bilmiş, açılmaz hesab edilən qapılar açmış, müxtəlif aləmləri həm özünə, həm də kənardakılara göstərə bilmişdi.

... Sabah Abdullanın son məhkəməsi keçiriləcəkdi. Leyla işlədiyi hüquq məsləhətxanasından çıxıb, şəxsi ofisinə gəlmişdi. Günortadan çoxdan keçməsinə baxmayaraq, yemək yeməmişdi. Sabahkı məhkəmədə həqiqəti ortaya çıxarmaq üçün lazım olan bütün əsas faktları, ifadələri yenidən gözdən keçirdi. Payızda öz bağının meyvəsini dərəcək bağban kimi həyəcanlı idi. Elə payızın qızılı ayı – (-) oktyabrın solğun, maili şəfəqləri pəncərələrdən yorğun-yorğun içəri düşürdü. Bir az aralıda görünən çinar yarpaqları da budaqlarda son günlərini yaşayır, könülsüz-könülsüz pıçıldaşırdılar.

Leylanın mobil telefonuna zəng gəldi. Tanımadığı, yoğun kişi səsi ilə danışan şəxs:

– Salam. Vəkil Leyla xanımdır?

– Bəli, buyurun, eşidirəm. - Leyla cavab verdi.

Sizi narahat edən Orxan Salmanzadədi. Sizinlə bir məsələ barədə söhbət etmək istəyirəm. Maşın göndərsəm, bizim ofisimizə gələ bilərsiz?

Leyla əslində, bu görüşü gözləyirdi. Bu, final görüşü olmalı idi. Bilirdi ki, rüşvət təklifləri edən, hədə-qorxu gələn, zəng edib xahişlər elətdirən universal həyat qıfıllarından biri olan köhnə "dostu" Orxan Salmanzadə idi. O hər cür kölgəsi olan bu mövcudluğun özünü görməyə çox maraq edirdi. Və bu görüşə iki bir-birinə zidd olan yolların qovuşması kimi baxırdı.

– Əgər siz mənimlə söhbət etmək istəyirsinizsə, ünvanı deyim, buyurun, gəlin, -Leyla təmkinlə və nəzakətlə cavab verdi.

Orxan Salmanzadə bir az gec cavab verdi. Görünür, bu arada nəsə demək istədi, fikrini dəyişdi. Nəhayət, dillənib dedi:

– Yaxşı, olsun, ünvanı bilirik. Yarım saata görüşərik.

Leyla onun səsindən təkəbbürlə çarəsizliyin boğuşmasını hiss etdi. Özünü o yerə qoymayıb dedi:

– Yaxşı, oldu, gözləyəcəm.

Orxan Salmanzadə gələnə qədər Leyla otaqda nə eşidə biləcəklərini təxmin edir, verəcəyi cavablar barəsində düşünürdü.

Nəhayət, küçədə, ofisin önündə maşınların dayandığını pəncərədən gördü. İki bahalı, ən son model, qara rəngli "BMV" markalı avtomobil idi. Arxadakı avtomobildən iki nəfər başı qırxıq, idmançı görkəmli, qara eynəkli adam düşdü. Biri tez gəlib, öndəki avtomobilin sağ, arxa qapısını açdı. Qara pencəkli, ağ köynəkli, tünd - qırmızı qalstuklu, nisbətən kök, ucaboy bir adam düşdü. Leyla onu o dəqiqə tanıdı, Orxan idi. Novxanıda yediyi kabablardan sümük qalayan, hərdən də oğru pişik kimi ona baxan Orxan Salmanzadə.

Orxan əlinin işarəsi ilə cangüdənlərinə avtomobillərin yanında qalmağı tapşırdı. Özü tək ofisə daxil oldu. Bir azdan qapı döyüldü. Leyla:

– Buyurun, gəlin - dedi.

Orxan otağa daxil oldu:

– Salam, xoş gördük!

– Salam, xoş gəlmisiniz. Buyurun, əyləşin, - Leyla bunu deyib, ona əyləşmək üçün yer göstərdi. Orxan təşəkkür edib, əyləşdi.

– Çay içirsiniz, yoxsa kofe? - Leyla sual verdi.

– Çay olsa, yaxşı olar - Orxan dedi.

- Leyla iki stəkan çay gətirdi. Birini özünün, digərini Orxanın önünə qoydu. Sonra öz yerində əyləşib dedi:

– Buyurun, Orxan Salmanzadə. Eşidirəm sizi.

Orxan çayından bir qurtum içib, dedi:

– Siz çox peşəkar və prinsipial vəkilsiniz. İndi sizin kimi vəkillər barmaqla sayılacaq qədərdir. Çox istərdim ki, sizinlə daimi əməkdaşlıq edək. Biz iş adamlarının həmişə peşəkar vəkillərə ehtiyacı var.

– Verdiyiniz qiymətə görə təşəkkür edirəm. Sözün düzü, mənim işlərim çox olur, ancaq Siz də bir vətəndaş kimi istənilən vaxt müraciət edə bilərsiniz, münasib olarsa, vəkillik edərəm.

Orxan başı ilə razılıq edib, gülümsədi və dedi:

– Çox münasib olar. Bizim şirkətlər evlər tikir, təmir edir. Topdansatış tikinti materialları bazarımız var. Yəni, biz əməkdaşlıq etsək, inanıram ki, sizin heç bir digər müştərilərə ehtiyacınız və vaxtınız olmaz.

Leyla gülümsəyərək dedi:

– Yəni, məhkəməlik bu qədər çox işləriniz var?

– İş olan yerdə həmişə narazılıqlar, şikayətlər, məhkəmələr olur. Bilirsiniz, biz gənc dövlətik. Tikinti sektoru bizdə yeni-yeni formalaşmağa, inkişafa başlayır. Və bu sahənin hüquqi bazaları hələ mükəmməl deyil, çoxlu çatışmazlıqları var. Odur ki, tez-tez mübahisələr meydana çıxır - Orxan dedi.

O danışdıqca, Leyla diqqətlə qulaq asır, həm də gözlərinə, simasına baxırdı. Orxan maksimum mədəni, qanunlara hörmət edən, ədalətli və işgüzar şəxs təsiri bağışlamağa cəhd edirdi. Və hələ ki, bu alınırdı. Ancaq Leyla onun əsl məqsədini bilirdi. Bilirdi ki, neçə aydır Orxanın pulları hüquq işçilərinin ciblərində komalaşıb, ədalət və vicdanlarını çirkli kağıza çevirmiş, bəzən isə narkotik kimi dumanlandırılmışdı. Leyla Orxanın simasında qanunun, onun keşiyində duranların iş adamları tərəfindən necə satın almaq mexanizmlərini bilmək, onların bu düşüncəyə düşmə səbəblərini öyrənmək istəyirdi. Bir tərəfdən isə, Orxanın süni fikir və düşüncələrinə qulaq asmağa hövsələsi çatmırdı, odur ki, dedi:

– Orxan müəllim, əgər tikinti şirkətində vətəndaşla mübahisə yaranırsa, böyük ehtimalla günah şirkətdə olur. Qarışqa ilə fil necə mübahisə edə bilər? Qarışqa filə nə edə bilərki, fil haqlı şikayət etsin. Güc, pul və öhdəlik sizdə, belə olan halda vətəndaş, müştəri nə haqsızlıq edə bilər?

Orxan gülüb dedi:

– Bu üzdən, sizin tərəfdən görünən tərəfdir.

– Bəs, sizin tərəfdən necə görünür? - Leyla sual etdi.

– Vətəndaş vaxtında pulunu ödəmir, üzərinə düşən öhdəlikləri yerinə yetirmir və s. – Orxan dedi.

Leyla biraz fikirləşib, sonra dedi:

– Yəqin, imkanı çatmır, ona görə ödəyə bilmir. Açıq deyim sizə, mən kapitalın yanında dayanıb, onu müdafiə edə bilmərəm. Başqa bir təklifiniz, sözünüz varmı?

Leylanın bu cavabı gözlənilməz oldu. Orxan pərt olsa da, özünü o yerə qoymadı, gülümsəməyə çalışdı, əli ilə qalstukunu sığallayıb, dedi:

– Hə, vardır. Sizdən bir kiçik xahişim olacaqdır.

- Buyurun, baxaq, görək, gücümüz çatacaqmı - Leyla dedi.

– Siz savadlı və peşəkar vəkilsiniz, gücünüz çatır ki, mən, o boyda şirkətin sahibi, sizin ayağınıza gəlmişəm. Və bir də, pulun güc gəlmədiyi, əymədiyi bir şey yoxdur.

Leyla sevindi ki, Orxan mətləbin üzərinə tez gəldi. Odur ki, gülümsəyərək dedi:

– O boyda şirkət, pul, güc vardısa və bura gəlibsinizsə, demək, daha böyük güclə qarşılaşıbsız, əyilmək üzrəsiniz. Buyurun, keçin mətləbə.

– Aydın Qədirzadə mənim qaynımın oğludur. Gəncdir, çox mərifətli, qanacaqlı oğlandır. Onu şərləyib, həbs ediblərmiş. Sonradan məlum olub ki, Rövşən adlı şəxsi o yox, sizin müdafiə etdiyiniz Abdulla qətlə yetirib. Sabah son, həlledici məhkəmədir. Mən hakim Loğman Kamranovla da danışdım, sağ olsun, sözümü yerə salmadı. Abdulla həbs edilməlidir.

– Niyə həbs edilməlidir? - Leyla təmkinlə sual verdi.

– O həqiqi qatildi. Aydın Qədirzadənin üzərindən bütün şübhələr götürülməlidir. Siz bu həqiqəti üzə çıxarıb, sübut etsəz, üç otaqlı mənzil hədiyyəniz olsun.

Orxan Salmanzadə bunları deyib, əlini pencəyinin cibinə saldı. Oradan bir dəstə açar çıxarıb, masanın üzərinə qoydu. Leyla açarlara, sonra isə diqqətlə Orxanın üzünə baxdı. O sevinirdi, sevinirdi ki, neçə aydır çəkdiyi əziyyətin böyük dəyəri varmış. Bu dəyərin bir hissəsi mənzil şəklinə düşüb, indi onun özünə təklif edilir. Bir hissəsi Abdullanın uşaqlarının, ailəsinin gözlərində görsənir, ordan işıq saçır. Yaxşı, belədirsə, çəkilən zəhmətin ümumi dəyəri, faydası nə qədərdir? Bunu necə hesablamaq olar? - Həqiqəti müdafiə edib, ortaya çıxarırsansa, uşaqlar sevinir, valideynlərin həyatı dəyişir, qanun qorunur, savab iş görürsən. Sizcə bunun həqiqi dəyəri nə qədərdir? - Leyla nəhayət, dilləndi. Onun təklifi dərhal rədd etmədiyini görən Orxan sevindi. Tez dilləndi:

– Baxır ortaya çıxan həqiqətə. Tapdığınız həqiqət ucqar bir kənddə uçuq, köhnə bir ev, ya da şəhərin mərkəzində yeni tikilmiş binada üç otaqlı mənzil də ola bilər.

Leylanın gözləri önündə kənddəki evləri ilə Orxanın dediyi kimi, şəhərin mərkəzində olan üç otaqlı, əla təmirli mənzil qoşa canlandı. Gözləri yaşardı və dedi:

– Orxan Salmanzadə, o dediyiniz ucqar kənddəki köhnə evi vaxtilə sözü bütöv, özü pir kişilər əllərilə, zəhmətlə tikiblər. Orada min bir əziyyətlə övladlarını böyüdüblər. O zəhməti, qazanda bir kilo halal ət qaynayanda ailənin sevincini tərəzinin bir gözünə, kimlərinsə haqqını oğurlayıb, əldə edilən mülkləri isə digər gözünə qoyanda, görünməyən bir şeyin, görünən maddiyatdan nə qədər ağır gəldiyini bilmək olur. Bax, bu fərq, qəribə üstünlük, ağırlıq həqiqətdir. Və həqiqətlər hamısı eyni dəyərlərdədir. Onların qiymət fərqi olmaz. Vəkilin müdafiə edə bildiyi həqiqətin böyüyü, kiçiyi yoxdur. Sizlər ona qiymət qoya bilməzsiniz.

Leyla danışdıqca diqqətlə qulaq asan Orxan, həm də, onu hardasa görmüş kimi tanımağa, yadına salmağa çalışırdı. Onun dediklərinin bir hissəsini başa düşür, digərlərini anlamaq üçün düşünürdü. Belə qərara gəldi ki, vəkilin daha çox istəyi vardır. Özünü qınadı ki, gərək, əvvəl iki otaqlı mənzil təklif edərdi, sonra üç otaqlı desəydi razılaşacaqdı. İndi isə gərək, dörd otaqlı mənzil təklif eləsin. Başqa cür də çıxış yolu yoxdur. Bu işə nə qədər pul xərcləmiş, kimlərə ağız açmamışdır. Rayondakı polis rəisi, müstəntiq, prokuror, hakim pullarını almış, bu işi görə bilməmişdilər. Düzdür, Orxan həmin pulların bir hissəsini geri alsa da, müəyyən hissəsi it-bata düşmüşdür. Buradakı hakimin də pulu çatmışdır, lakin o da işin açarının vəkil Leylada olduğunu demişdir. Vəkilə onun dostları, vəzifəli şəxslər tərəfindən nə qədər xahişlər, minnətlər olunmuşdur, xeyri olmamışdır, hədə-qorxular təsir etməmişdir. Bu zalım balası, elə bil bir vətəndaş yox, öz qardaşını müdafiə edir. Ya da əyilməz bir çinar, görünməz bir məläkdir ki, nə özünə güc gəlmək olmur, nə də kimsə təsir edə bilmir. Axı, bu vəkil niyə belə edir? Prokurora iyirmi min dollar vermişdim ki, şəxsən vəkilə çatacaq, onu da götürməyib. İnsanlar var ki, ömrü boyu çalışır, iki otaqlı mənzil ala bilmir.

Cəmi üç-dörd ay rayona gedib-gəlib, bir az kar-kağız yazıb, indi üç otaqlı mənzildən imtina etmək istəyir. Görəsən, bunun nə qədər pulu, evləri vardır ki, evin açarlarına heç gözünün ucuyla da baxmır.

Orxan Salmanzadə hələ yolda bura gələrkən qaynı oğlu Aydın Qədirzadəni ürəyində söyürdü. Əslində, Orxanın nə qaynından, nə də onun oğlu Aydından xoşu gəlmirdi. Qədirzadələr imkanlı ailə idilər. Düzdür, Orxanın tikinti şirkəti yaratmağında atasının köhnə dostluq əlaqələri, qızılları, onunla birlikdə ev alıb-satdıqlarından qazandığı pullar əsas rol oynasa da, qaynatasının da köməyi çox olmuşdur. Elə bu köməyi əsas götürən yoldaşı Laləndə və qaynı Dilqəm Qədirzadə, Orxanı həmişə özlərinə borclu bilmişlər. Hər işlərini ona gördürmək istəmişdilər. Bunları hər zaman düşünəndə, Orxan çox əsəbləşir, öz-özünə "nəsli kəsilmişlər, az qalır desinlər ki, gəl kənddə toyuğumuzun altına yumurta yığ, kürt yatsın", - deyirdi. İndi də dörd aydır ki, bu "Aydın məsələsi" ortaya çıxandan gündə ən az iki-üç saat bu işlə bağlı telefonla danışır, axşamlar isə Laləndəyə hesabatlar verir, tapşırıqlar alırdı. Ancaq bu halda sevinirdi.

Əslində, Orxan Salmanzədinin Aydını həbsdən qurtarmağa belə ciddi - cəhdlə girişməsinin daha maraqlı və vacib səbəbi vardı. Orxanın neçə illərdir gizli eşq yaşadığı Vəsilə adlı bir xanım vardı. Onu Laləndədən də çox sevirdi. Laləndə də bunu çoxdan hiss etsə də, bir il olardı ki, dəqiq bilirdi. Və elə bir il içində onun ömrünün əvvəlki illərini yaşadığına, sonrakıları da yaşamağa peşman etmişdi. Laləndə Orxanı sıxıb məsələni o yerə gətirmişdi ki, ya Vəsilədən ayrılmalı, ya da ki, qızı, yoldaşı və şirkətin yarısından vaz keçməli idi.

Ancaq dörd aydır Aydın məsələni ortaya çıxarandan Laləndə ipək kimi olmuşdu. Orxan heç təzə ailə qurduğu vaxtlar bu cür nəvaziş, qayğı görməmişdi. Və bu dörd ayda Vəsiləylə də elə bil bal ayı yaşayırdılar. Bəzən, Orxan arzulayırdı ki, bu məhkəmə ömürünün axırına kimi davam etsin, heç zaman bitməsin. Ona elə gəlirdi ki, məhkəmənin bitməsi onun xoşbəxt günlərinin də sona çatması olacaqdır. Allah eləməsin ki, Abdullanı buraxıb Aydını həbs etsinlər. Belə olarsa, az qala, buludların aşağıdan uçmasında da onu günahlandıran Laləndə, nələr edəcəkdi, Orxan daha o tərəfi fikirləşə bilmirdi.

İndi sabah son məhkəməydi. Orxanın aləmində bu məhkəmə Abdulla və Aydın arasında həqiqət axtarışı yox, Vəsiləli günlərlə zəhər-li-davalı səhər-axşamların əvəzlənməsi idi. Odur ki, Orxan nəyin bahasına olursa - olsun, Aydını, daha doğrusu, Vəsiləni xilas etməliydi. O , başqa variant düşünə bilmirdi.

Bu da həyatın bir sirli mübarizələrindən idi. Orxanın Vəsiləylə eşqinin davam etməsi üçün, Abdulla illərlə həbsxanada yatmalı, Validədən ayrı olmalı, uşaqları atalı olduğu halda, atasız böyütməliydilər. Dünyanı tarazlıqdan çıxartmağa, qiyamətə doğru aparmağa səbəb olan görünməyən qüvvələrin mübarizəsiydi. Həqiqətlə, div ayaqlı, iyrənc ürəkli, yekə başlı örtülü qüvvələrin mübarizəsiydi...

– Nə yaman çox fikirləşdiz? - Leylanın sualı Orxanı fikirdən ayırdı. O özünü pis hiss edirdi, lakin yenə var gücüylə sakitliyini qoruyub, saxlamağa çalışdı. Zorla gülümsəyərək, dedi:

– Leyla xanım, mən mənəvi dəyərləri nəzərdə tutmadım. Real, maddi dəyərləri müqayisə etmək istədim.

– Orxan Salmanzadə, Abdullanın günahı yoxdur. Günahsızların haqqı Allahın, dövlətin yanında müdafiə olunur. İndi mən sizin vəd etdiyiniz daşla, divarlarla o haqqı necə gizlədim? Axı, niyə anlamaq istəmirsiz ki, mən Abdullanı yox, haqqı, qanunu, həqiqəti müdafiə edirəm. Mən Xəzər dənizinə "meşəlik" desəm, dəniz meşə olacaq? Və ya mənim Aydınla nə düşmənçiliyim? O gedib Rövşəni çağırıb, ov tüfəngilə atəş açaraq öldürüb, cəzasını da alacaq. Vəssalam!

– Leyla xanım...

Leyla onun sözünü kəsərək dedi:

– Bu məsələ bitib. Olar, mən sizə bir sual verim?

Orxan tez dilləndi:

– Buyurun, buyurun!

– O vaxt sizin boşqabınızda niyə o qədər çox sümük var idi? - Leyla sual verib, bir qurtum çayından içib, kreslonun arxasına söykənib, maraqla cavab gözləməyə başladı. Orxan Salmanzadə gözləmədiyi sualdan çaşıb qaldı. Gözlərini döyməyə başladı, təəccübdən soruşdu:

– Nə vaxt? Sümük nədir? Heç nə anlamadım.

– Təxminən iyirmi beş il əvvəl, Novxanıda, əmimin bağ evində qonaqlıq idi...

– Həə..., indi xatırladım, Leyla...Bayaqdan baxıram, simanız tanış gəlir. Ha yadıma salıram, sala bilmirəm. Siz onda imtahana gəlmişdiniz, düzdür?  - Orxan Leylanın sözünü kəsdi, köhnə tanışını tapdığına sevindiyini göstərmək maskası geyindi. Həm də düşündü ki, Leyla bu köhnə tanışlıq xatirinə güzəştə gedəcək.

– Hə, düzdür. Elə o qonaqlıqda sizin hüquqa girəcəyinizi qabaqlayan, vaxtından əvvəl düzəldilmiş tədbir idi. Və mən onda sizin önünüzdəki boşqabda çoxlu sümük gördüm. Heç cür inana bilmədim ki, o qədər kabab yeyə bilərsiniz, - Leyla bunu deyib güldü.

Orxan da ona qoşulub xoş gəlsin deyə güldü və dedi:

– Hə, çoxlu kabab yemişdim, o sümüklərin hamısını mən o boşqaba qoymuşdum. Orda bir kababçı var idi, elə deyəsən, sizin atanız idi. O, həm kababları çox dadlı bişirirdi, həm də hamı ondan çəkinirdi. Elə bilirdilər ki, çox yüksək vəzifədə işləyir. Atam da, ondan çəkinirdi. Ancaq sonra bildilər ki, adi sürücüdür, özü də “skoropomoş” sürücüsü, – Orxan yenidən gülməyə başladı. Leyla üz-gözünü turşudub, dedi:

– Çox gülməliydi?

–Xeyr, sadəcə, insanlar ondan çox çəkinirdi - Orxan tez dilləndi.

– Bilirsən, niyə onlar atamdan çəkinirdilər?

– Niyə?

– Ona görə ki, hər biri öz sahəsində oğru və cinayətkar idi. Atamı tanımadıqları üçün qorxub, çəkinirdilər. Günahkarlar öz kölgələrindən də həmişə qorxurlar. Siz bilirsiz, əslində, ora hansı məqsədlə yığışmışdılar? - Leyla dedi.

– Nə bilim? Çoxdan olub, yadımdan çıxıb.

– Mənim isə yadımdadır. Orada sizin universitetə qəbul olmağınızdan ötrü kimlərəsə rüşvət verəcəkdilər.

– Yox, bundan xəbərim olmadı - Orxan dedi.

– Hə, ananız Ofeliya xanım Vəli müəllimin xanımı Sara müəlliməyə pul verəcəkdi. Hər ikisi oxşar çantalar götürmüşdülər. Məclisin sonunda çantaları dəyişdirdilər. Siz hüquqa daxil ola bildiz? - Leyla dedi.

Orxan biraz fikrə gedib, sonra dedi:

– Daxil olsaydım siz məni orda görərdiz axı...

– Görə bilmədim, çünki mən dörd dəfə imtahan verdim, konkursa düşdüm, yalnız beşinci il daxil oldum - Leyla dedi.

– Mən isə daxil oldum, birinci kursun sonunda atam həbs edildi. Mən isə universitetdən qovuldum, atamın düşmənləri etdi. Yaxşı ki, bunu etdilər. Yoxsa, mən indi Bakıda beş iş adamından biri olmazdım, - Orxan Salmanzadə köks ötürüb dedi. Sonra isə gülümsəyərək davam etdi:

– Madam ki, biz uzun illərin tanışıyıq, onda mənə kömək edin. Qaynım oğlu Aydın Salmanzadənin həbs olunmağına çalışmayın. Mən də köhnə dost kimi sizə əlavə hədiyyə verirəm - dörd otaqlı mənzil.

Leyla kinayə ilə gülümsəyib, dedi:

– Mən qorxuram axı...

– Nədən qorxursunuz? Mən varamsa, sizə heç kim heç nə edə bilməz! - Orxan şəstlə dedi.

– Mən Allahdan və qanundan qorxuram. Abdullanın uşaqlarının baxışlarından, köhnə ayaqqabılarından qorxuram. İki qonşunun gələcəkdə bir-birinə kinindən, yenə qan düşə biləcəyindən qorxuram. Aydın cəzasız qalarsa, yeni bir Rövşən tapıb öldürəcəyindən, Abdullanın bağlı qapılar arxasında günahsız taleyinə üsyan edib, çönüb cinayətkar olacağından qorxuram. Sənin kimi kabab yeyənlərin sümükləri sadə, kasıb insanların üstünə atacağından, hakim Loğmanların, prokuror Mədətovların, müstəntiq Musayevlərin haqqı, ədaləti alıb-satacaqlarından qorxuram. Başa düşdün, yoldaş iş adamı Orxan Salmanzadə?

Orxan başa düşdü ki, artıq Leylanı pul, ev vədi və s. ilə ələ ala bilməyəcək. Odur ki, birdən-birə sifətinin rəngini qızardıb, cizgilərinə qəddar və qorxunc obraz verdi. O, öz haqqını istəyən, əl çəkməyən,

mənzil pulunu ödəyib evini ala bilməyən müştərilərinə son anda etdiyi kimi etdi. Və qalın, boğuq, hədələyici səslə dedi:

– Yaxşı, Leyla xanım. Hər şeydən qorxursan, ancaq məndən qorxmursan?

Leyla bir az əvvəl rəsmiyyəti aradan götürmüş, ona "sən" deyə müraciət .etmişdi. İndi isə Orxan ona "sən" deyə hədələməyə başladı. Onun bu cür mələk rolundan qayıdıb, şeytan obrazına daxil olmasına Leylanın az qaldı gülməyi tutsun. Özünü güclə saxlayıb, dedi:

– Baxın, indi xoşum gəldi. Mən həyatda iki rəng tanıyıram: ağ və qara. Siz bayaqdan özünüzə əzab verib, ağ görünmək istəyirdiniz. İndi isə təbii rənginizdəsiniz. Mənim də gözümü qamaşdırırdınız, çətin görürdüm. İndi isə çox rahatdır sizə və mənə. Son sözüm belədir: Rövşəni Aydın öldürüb, Abdullanın günahı yoxdur. Məni nə hədələmək, nə də pul, mənzil verməklə fikrimdən döndərə bilməzsiniz. Vəssalam, şütt tamam. Gedə bilərsiniz!

Orxan Salmanzadə qəfil ayağa qalxıb, ucadan, hədələyici səslə dedi:

– Mən isə sənə deyirəm ki, Abdulla həbs ediləcək. Aydının üzərindən şübhələr götürüləcək. O ki, qaldı siz bəxşiş qəbul etmirsiniz, hədələməkdən qorxmursunuz, neynəyək, biz başqa - üçüncü yolu taparıq! Pul sənin kimi çox özündən razı, kölgəsindən böyük danışan cılız insanları qara yerə göndərib!

Orxanın son cümləsinə Leylanın gülməyi tutdu. İstədi desin ki, "az qala, qadın kimi qarğış edirsən", ancaq imkan edib deyə bilmədi. Orxan sözünü deyib, qapını çırpıb, getmişdi.

Leyla çox götür-qoy edib, Nailəyə zəng etdi. Bildirdi ki, işdən sonra onlara gəlmək istəyir. Sonra, yoldaşı Əliyə də belə dedi. Nəzrinlə Rüfəti də götürüb Nailəgilə gəlmələrini, özü isə işdən çıxdıqdan sonra ora gedəcəyini söylədi. O, qətiyyən özü üçün qorxmurdu, uşaqlarından, bacılarından, yoldaşından narahat idi. Orxan Salmanzadənin sabaha kimi vaxtı var idi. O və Qədirzadələr hər şey edə bilərdilər. Ən azından xoşagəlməz bir hadisə törədib, sabahkı həlledici məhkəmənin vaxtını

dəyişə, prosesi uzada bilərdilər. Orxan özü də hədələmişdi. Əsas da, bu gün tezdən tanımadığı nömrədən zəng gəlmiş, ehtiyatlı olmağını, xüsusilə evə gedib-gələndə diqqətli, hər şeyə fikir verməyini və ofisdə tək oturmamağını məsləhət bilmişdilər.

O, ofisdən çıxıb, yan - yörəyə baxdı. İnsanların sıx olduğu küçə ilə bir az gedib, taksiyə mindi. Yolda dəyişib, ikinci taksi ilə Nailəgilə gəldi.

Səhər məhkəmə uğurlu keçdi. Şahidlər həqiqəti dedilər. Rayonda istintaqı aparan müstəntiq Musayevin hal şahidlərinin protokolunu dəyişməsi faktı təsdiqləndi. O özü də, bunu lap əvvəldən, hələ proseslər rayonda gedəndə demişdir.

Leyla öz çıxışında şahidlərin ifadələrini, qonşularla olan söhbətləri, hal şahidlərinin ifadələrini ümumiləşdirib, məntiqi nəticəni dedi. Sonra Abdullanın yoldaşı Validənin, uşaqlarının qanunsuz olaraq mehmanxanada saxlanıldığını, onlara hədə - qorxu gələrək onun əleyhinə ifadə aldıqlarını söylədi. Beləliklə, məlum oldu ki, öldürülən Rövşən tərbiyəli bir gənc olub, hamı ilə, eləcə də qonşusu Validəylə etika daxilində davranıb. Validəni də hamı namuslu, zəhmətkeş qadın kimi tanıyıb. Sadəcə o, hədə-qorxu ilə həyat yoldaşına qarşı ifadə verib.

Leyla daha sonra müstəntiq Musayev tərəfindən təkcə hal şahidlərinin ifadələrinin dəyişdirilməsi yox, həmçinin Aydının və Abdullanın da izahatlarının onun tərəfindən yazıldığını sübut etdi. Hər iki izahatda "Rövşəngilin darvaza qapıları çox ağır açılırdı", ifadələrinin yer alması, bu izahatların eyni insan tərəfindən yazıldığını göstərirdi.

Vəkil həmçinin, Bakıdan gedən istintaq qrupunun hadisə yerinə təkrar keçirdiyi baxışın protokolunu və Abdullanın tüfənginə verilən ekspertiza rəyini təqdim etdi. Orada həmin tüfəngdən son altı ayda atəş açılmadığı qeyd edilmişdi. Leyla daha sonra həqiqi qatilin Aydın olduğunu bildirdi. O, Rövşən sevdiyi qızı sevirdi. Bir neçə dəfə onunla mübahisə etmiş, hədələmişdir. Aydın toylarda, məclislərdə də tez-tez mübahisə edib, dalaşırmış. O, qətl hadisəsində şübhəli bilinib, həbs edilir.

Qədirzadələrin və Orxan Salmanzadənin “fəaliyyəti” nəticəsində həbsdən buraxılır, dərhal da ölkədən çıxarılıb Rusiyaya göndərilir. Əvəzində isə Abdullanı həbs edib, cinayəti onun üstünə yıxmaq istəyirlər.

Sonda vəkil Leyla bütün faktları nəzərə alaraq müdafiə etdiyi Abdulla Şəfiyevə məhkəmədən bəraət istəyir. Ali məhkəmənin hakimi Loğman Kamranov bəraətverici sübutlar, faktlar qarşısında qalaraq, Abdullaya bəraət verməyə qərar çıxarır.

Yeni istintaq qrupu yaradılır, Aydın Rusiyadan gətizdirilir, cinayəti sübut edilir və layiqli cəzasını alır.

Müstəntiq Aslan Musayev istintaqın gedişində kobud qanun pozuntularına yol verdiyi üçün, hüquq - mühafizə orqanlarından xaric edilir.

Sonradan bu işə hakimlik etmiş Loğman Kamranov öz qardaşı oğlunun cinayət işində Leyladan xahiş edirdi ki, ona vəkillik etsin. Bu zaman ona belə deyir: “Mən iş təcrübəm müddətində sizin kimi dürüst, ədalətli, qanunları şah bilən, cəsarətli və peşəkar vəkilə rast gəlmədim.”

... Leyla evə çox yorğun, lakin sevinclə gəlmişdi. Yoldaşı Əli, qızı Nəzrin və oğlu Rüfətlə çay süfrəsi arxasında əyləşmişdilər. O, məhkəmədə gedən proseslər haqqında Əliyə danışırdı. Birdən yadına nə düşdüsə, əl telefonunu götürüb, kəndə - evlərinə zəng elədi. Anası ilə kef-əhval tutduqdan sonra, atasını çağırmasını istədi.

– Hə qızım, necəsən? - Oktayın səsi gəldi.

– Yaxşıyam ata, sən necəsən?

– Yaxşıyam, hər şey yaxşıdır. Nəvələrim, Əli necədilər?

– Hamısı yaxşıdır, ata. Salamları vardır. Ata, dörd aydır ki, bir günahsız insana vəkillik edirdim. Bu gün o azadlığa çıxdı - Leyla sevincək dedi.

– Çox şükür, Leyla. Təbrik edirəm səni, zəhmətimiz halal olsun sənə.

Leyla bu sözləri eşidincə çox sevindi, gözləri yaşardı.

– Ata, çox çətin oldu, ancaq bacardım.

– Qızım, sən çətin yollar yolçususan. Buna vərdiş etmisən və hər aşırımı aşanda, yeni mənzərələr görürsən.

– Çox düz deyirsən, ata. Hər çətinlikdən sonra yeni aləmlərdə özümü hiss edirəm. Ata, yadındadı İrəvan bazarından uşaqlara ayaqqabı aldıq?

– Hə, yadımda. Onda bacıların çox sevindilər. Amma səbəbkarı sən olsan da, mən çox yaxşı ayaqqabılar seçmişdim.

Hər ikisi gülüşdü. Sonra Leyla dedi:

– Ata, mən yenə təzə ayaqqabılar alıb, o günahsız həbs edilənin uşaqlarını sevindirdim. Özüm də buna çox sevindim.

– Bu lap yaxşı oldu. Belə işlərini çox elə, həmişə sevinəsən...

– Ata, o Novxanıda, bağdakı qonaqlıq yadına düşür?

– Hə, qızım, düşür.

– Orada bir gənc, kök oğlan var idi, onu da xatırlayırsan?

– Hə, Leyla, xatırlayıram. Mənlə üzbə-üz oturmuşdu. Rəisin oğlu idi. Qabağında bir koma sümük var idi.

– Hə, hə, ata. O, adı Orxan idi. Bax, o vaxt universitetə pulnan girdi. Qovdular, sonra iş adamı oldu. Əsl qatil onun qaynı oğlu idi. Arvadının qorxusundan mənə dörd otaqlı mənzil təklif etdi ki, qatili müdafiə edim. Ancaq istəyinə çatmadı. Mən haqqı, qanunu müdafiə etdim.

– Qızım, ən böyük bədbəxtçilik, cəza Allahın qəzəbinə gəlməkdir, bunu unutma. Sən ləyaqətli vəkilsən.

– Ata, çox sağ ol. Sevincimin üstünə sevinc gəldi. Bu gün çox xoşbəxtəm.

– Həmişə xoşbəxt ol, qızım.

– Ata, mənə təcili Qaya əminin ya ev, ya mobil nömrəsi lazımdır. Kömək edə bilərsən? Onunla söhbət etmək istəyirəm.

– Ata, eşidirsən?

– Hə, hə eşidirəm qızım. İndi gecədir, səhər tapıb verərəm.

– Xahiş edirəm ata, indi tap.

– ...

– Alo, ata, nə oldu?

– Leyla, Qaya əmin iki ay olar rəhmətə gedib. Səninlə görüşüb çay içdiyini, söhbət etdiyini mənə dedi. Elə o vaxt xəstəxanadan analizlərin cavabını alıbmış, ona beyin xərçəngi diaqnozu qoyublarmış. Gəlib dəniz kənarına ki, gəzsin, fikri dağılsın, səninlə rastlaşıb. Bakıdan qayıtdıqdan iki ay sonra rəhmətə getdi.

Leyla atasıyla sağollaşa da bilmədi. Telefonu Əliyə verib, gücnən gəlib divanda oturdu və ağlamağa başladı.

# VI FƏSİL

*Hadisələr də əvvəlki hadisələrin davamı olmaqla yanaşı, yeni, real şəraitin təsirləri altında, dəyişik formada mövcudluğa çevrilirlər.*

** * **

*Şəxsi və tayfa şüuruna malik insanların vəzifə başına keçməsi, səlahiyyət sahibi olması millət və dövlət üçün həmişə zərərli olur.*

** * **

*Xain, qorxaq, paxıl qəlbli insanlar gilli rütubətli və ya qumlu, quru torpaqlar kimidirlər. Onlara basdırılan toxumlar ya sudan çürüyür, ya da quraqlıqdan quruyurlar.*

** * **

*Ancaq yeniyetməlik, amorf həyat tsiklində vurulmaq, hirslənmək və tənbeh qorxusu altında saxlamaq da faydalı ola bilər.*

** * **

*Elə bil həyatın xüsusi tarazlaşdırıcı qüvvəsi vardı və o, haradasa ortaya çıxmalı, sevinci yarıda kəsməli, uğurların yanına uğursuzluq əmsalı da qoymalıydı.*

** * **

*Demokratiyanın ən çatışmayan cəhəti, reklama geniş şərait yaradıb, tülkünü aslan kimi beyinlərə soxmaqdır.*

** * **

*Demokratiyadan üstün sistem olacaq. O sistemdə insanların bilik, bacarıq və əqidəsi daha sürətlə və aydın şəkildə insanlara çatdırılacaq.*

** * **

*Düşündü ki, hər bir tənəzzülün dayanma, yenidən zirvəyə qalxma nöqtəsi də varmış. Daima enişə getmək olmaz. Yollar sonsuza qədər dərəyə enməzmiş.*

Həyatda baş verən hadisələr sonrakı hadisələri də şərtləndirir. Yəni, beşə çatmaq üçün üçü, dördü keçmək lazım gəlir və ya əksinə, üç, dörd mövcud olubsa, beşin də olacağı zərurətə çevrilir və onun üçün də şərait yaranır. Gerçəkliyə çevrilən hadisə, özündən əvvəlki hadisələrin ya inkişafında yeni mərhələ, ya da təşəkkülündə yeni eniş nöqtəsi olur. Bəzən isə yeni hadisələrə keçmişdə baş verənlərlə yanaşı, mövcud real mühit amilləri də təsir göstərir.

Qartalın balası qartal, ördəyin balası ördək olur. Lakin mühit amilləri qartal və ya ördək balasının forma və mahiyyətinə təsir edir. Hadisələr də əvvəlki hadisələrin davamı olmaqla yanaşı, yeni, real şəraitin təsirləri altında, dəyişik formada mövcudluğa çevrilirlər.

Şahmatda indi edəcəyin gediş əvvəlki gedişlərin davamıdır, onların yaratdıqları vəziyyətə uyğundur. Eyni zamanda da rəqibin oyunlarının yaratdığı real mühitin şərtlərinə uyğun olur, onlardan asılı düşür. Bizimlə həmişə daha güclü və güzəştsiz, səhvləri bağışlamayan, bəzən isə özü sirli gedişlərlə oynayan, bütün gedişlərinin yaratdığı vəziyyəti bir anda dəyişə bilən, soyuqqanlı, sevgi və nifrət hissi olmayan, əzazil-müdrik oyunçu vardır. Bu, həyatın özüdür. Biz onun sirli, bizə səbəbləri məlum olmayan və ya qəribə görünən gedişləri qarşısında mat-məəttəl durub, hərdən bir ad, bəzənsə tale, bəxt, alın yazısı və s. deyirik.

Məsələn, dördə çatırsan, növbəti hadisənin beş olacağını gözləyirsən, şərait də buna uyğun olur. Görünməz, əbədi rəqib həyat, sirli gedişlərlə mənfi beş hadisəsini gerçəkləşdirir. Və ya hələ birdə sən, növbəti ikiyə çatmaq hadisəsini gözləyirsən, on iki hadisəsi gerçəkləşir.

Bəlkə də, həyatın oynadığı sirli gedişlər insanın özünə qəribə, pünhan gəlir. Ümumi bəşəriyyətin vahid oyunu zəruri, normal bir gedişdir. Məsələn, sən burada dörddən beşə deyil, mənfi beşə düşür-

sən. Başqa bir zaman və məkanda kimsə birdən ikiyə yox, on ikiyə qalxır. Yekun sabit qalır. Çox güman ki, həyatın bəşəriyyətlə vahid oyununun sonu heç-heçəylə uyğun gəlir.

... Leyla yol boyu keçdiyi həyat yolunu varaqlayır, elə səhifələr olurdu ki, üstündən tez keçir, elələri də olurdu ki, dönə-dönə xəyalında canlandırırdı. Əslində, yol gedəndə düşüncə və xəyallar dəyişən ətraf mühitin təsirlərindən daha çox zaman və məkanlara səyahət edirlər. Çox insan tək yol getməyi sevir. Leylanın da yol getməkdən və bu zaman keçmişi xatırlayıb gələcək xəyalları, arzuları qurmaqdan xoşu gəlirdi.

Sabah Leylanın həyatında daha mühüm bir əlamətdar hadisənin olacağı gözlənilirdi. O, həmişə bu cür anlarda keçmişini xatırlayır, gəldiyi cığırlara dönüb baxırdı. Geriyə qoyduğu yolları, o yolların yan-yörəsindəkiləri yenidən görməyə çalışırdı.

Onun yeddi il idi ki, işlədiyi hüquq məsləhatxanasının müdiri rəhmətə getmişdi. Vəkil yoldaşlarla müdirlərinin dəfnində iştirak etmək üçün onun doğulduğu rayona getmişdilər. Dəfində və yasda layiqincə iştirak etmiş, öz son borclarından çıxmışdılar. Yolda gələndə müzakirə edib belə qərara gəlmişdilər ki, qanuna uyğun olaraq iclas keçirib, öz aralarından yeni bir müdir seçsinlər. Bu qərarı qəbul etmək asan olmamışdı, bir qisim vəkil yoldaş demişdir ki, "kişinin üçünü verib sabaki gün yerinə adam seçmək düzgün deyil. Bizə nə deyərlər? Gözləyək, qırxı çıxsın". Bir qisim yoldaşlar deyirdilər ki, "yuxarı orqanlar - vəkillər kolleqiyası ilə məsləhətləşək". Digər və daha çoxluq isə, vəkillər kolleqiyasının deyil, öz istədikləri, aralarından çıxan, tanıdıqları birinin müdir seçilməsini istəyirdi. Leyla da bu çoxluğun tərəfindəydi və bu fikrin tərəfdarları düşünürdülər ki, məsələni tez həll etməsələr, kolleqiya "öz adamını" seçdirəcək. Odur ki, vaxt itirmək olmaz. Günü sabah iclas edib, müdir seçmək lazımdır.

Leyla vəkil yoldaşlarının pıçıltılarından, ümumi danışıq və rəylərindən, başlıcası isə onların yanındakı nüfuzundan belə qərara gəlmişdi ki, yoldaşları onu müdir seçmək istəyirlər. Ancaq bu hələ ehtimal idi. Sabah hər şey ola bilər, gözlənilməz situasiyalar yarana bilərdi.

Lakin Leyla əgər onu Hüquq Məsləhatxanasına müdir seçərlərsə, yeni imkanlardan nə kimi istifadə edəcəyini, vəkil yoldaşlarının, özünün qanun naminə arzularının gerçəkləşdirilməsi üçün göstərəcəyi fəaliyyətləri düşünürdü. O, rayondan Bakıya doğru gəldiyi yol boyu keçmişdən gələcəyə doğru zaman xəttində xəyalən gəzişirdi.

Bəzi insanlar vardır ki, vəzifəyə, geniş səlahiyyətlərə can atırlar ki, mal, mülk, pul sahibi olsunlar. Şan-şöhrət zirvəsinə qalxsınlar. Övladlarının, yaxın ətrafının yaxşı yaşamasını, müxtəlif vəzifələrə təyin olunmasını təmin etsinlər. Yəni, vəzifə səlahiyyətlərinə bir növ şəxsi istək və arzularını gerçəkləşdirmək vasitəsi kimi baxırlar. Bu cür insanlar şəxsi mənafe şüurundan o tərəfə keçə bilməyənlər, tayfa, qəbilə ictimai fikir səviyyəsində olanlardır.

Milli şüur səviyyəsinə yüksələnlər isə vəzifə və səlahiyyətlərə istedad və peşəkarlığa öz xalqının, dövlətinin inkişafında edəcəyi xidmət, vasitə kimi baxırlar. Milli şüur səviyyəsindən daha yuxarı yüksələnlər isə bəşəri problemləri düşünən, həyat və fəaliyyətlərini buna sərf edən seçilmişlərdir. Bəşəri şüur səviyyəsinə yüksəlmək üçün milli dəyərləri, maraqları qorumaq, bu zirvəni keçmək lazımdır.

Şəxsi, tayfa, milli və bəşəri şüur səviyyələrindəki təkamül xəttində istedad, inam, vicdan, idrak və zəhmətin vəhdəti xüsusi rol oynayır. Bu elementlərin biri olmadıqda tamlıq pozulur və şəxs təkamül edə bilmir. Məsələn, hər bir kəs övladını çox istəyir, yaxşı geyinməsini, qidalanmasını, rahat yaşamasını arzulayır. Ancaq inamı, vicdanı və idrakı olmayan bunu yalnız öz uşağı üçün edir. Qonşusu və ya ümumən xalq onu qətiyyən maraqlandırmır. Heyvanlarda da belədir, onlar öz balalarını qoruyur, qida verirlər. Qoyun yad quzunun acından ölməyini dərk etməz, ona süd verməz.

Şəxsi və tayfa şüuruna malik insanların vəzifə başına keçməsi, səlahiyyət sahibi olması millət və dövlət üçün həmişə zərərli olur. Bunlar səlahiyyətlərinin imkan verdikləri qədər şəxsi mənafelərinə çalışır, qruplar yaradır, rüşvət-korrupsiya mexanizmləri yaradırlar. Hər bir xalqın inkişafı onun peşəkar və milli dövlətçilik şüurunu mənimsəyən vətəndaşlar çoxluğunun kadr kimi istifadəsindən asılıdır.

Öz mənafeyini güdən insanlar iqtidar komandasında da, müxalifət düşərgədə də olur. İqtidarda olanlar ciblərini doldurur, müxalifətdə olanlar isə bunu arzu edirlər. İqtidarda belələri daha çox olur. Çünki, müxalifətdə olub, millət və dövlət üçün çalışmaq arzusunda olanlar və bunun üçün real şərait yarananda, yəni vəzifə və səlahiyyət sahibi  olanda bir çoxları dəyişirlər.

Leyla müdir seçilərsə, var gücü ilə qanunun daha geniş dairələrdə gücünün təmin edilməsini, vətəndaşlara xidməti, onların hüquqlarının qorunmasını düşünəcəkdi. Ona elə gəlirdi ki, min bir zəhmətlə, iradəylə özü ali təhsil alıb, bacılarının da müxtəlif sahələrdə peşəkar kadrlar kimi həyatda yer tutmasına nail olub. Və bununla da o, bacı, övlad və ana kimi vəzifələrini layiqincə, vaxtında yerinə yetirib. Nəzrin əla qiymətlərlə orta məktəbdə oxuyur, Rüfət isə həm dərslərini əla oxuyur, həm də artıq beynəlxalq aləmdə güclü şahmatçı kimi tanınır. Və bütün bunlar elə-belə, təsadüfən baş verməmişdi, özünün və bacılarının ali təhsil alması, sonradan müxtəlif qurumlarda işlə təmin olunmaları, insanlara faydalı xidmət etmələri valideynlərinin halal zəhməti, təlim-tərbiyə üsulu, özlərinin çəkdikləri zəhmət, iradə, birlik hesabına olmuşdu. Eyni zamanda, bacıların bu günki nöqtədə dayanmalarında Leylanın özünün şəxsi keyfiyyətlərinin böyük rolu var.

Leyla bütün bunları düşünərək qərara gəlirdi ki, o artıq birinci missiyanı yerinə yetirib, xalq və dövləti üçün layiqli vətəndaşlar, kadrlar, başlıcası isə analar yetişdirilməsində həyatının bir hissəsini xərcləyib. Bacılar artıq bu cür müstəvilərdə yer alıbdırlar.

İndi isə daha bir mühüm vəzifə var. Öz bilik, bacarıq və peşəkarlığını vətənpərvərlik, millətsevərlik və insanpərvərliklə birləşdirib, qanuna, dövlətə və xalqa xidmət etmək. Elə buna görə də ona vəzifə və səlahiyyətlər lazım idi.

Bu səbəbdən hüquq məsləhatxanasının müdiri vəzifəsinə arzularını gerçəkləşdirmək vəzifəsi kimi baxırdı.

Leyla öz həyatının bundan sonrakı hissəsini xalqa və dövlətə daha geniş çərçivədə xidmətə sərf etmək üçün ikinci bir vasitə də seçməyi düşünür, buna çalışırdı. Bu da millət vəkili seçilmək fikri idi.

Bütün bunları fikirləşəndə bu ilin onun üçün çox önəmli, lazımi səlahiyyətlər əldə etmək baxımından əlverişli olacağı qənaətində idi. Millət vəkili, hüquq məsləhatxanasının müdiri olardısa, necə nümunəvi xidmət edəcəyini cəmiyyətə göstərmək şansı yaranacaqdı.

Bu barədə özünü o qədər inandırıb, həmin nöqtədə görürdü ki, hərdən öz-özünə deyirdi : "ömrümün sonuna bir gün də qalmış olsa belə, vəzifə, səlahiyyət sahibi olacağam". Bu cür düşüncə Leylanın Bakıya gələndən özünə və tanıdığı, bildiyi insanlara qarşı mələk cildinə girmiş vəzifə, səlahiyyət sahiblərinin etdikləri haqsızlıqların təkrarlanmaması istəyindən, hüquq müdafiəçisi və millət vəkili kimi vətənə, millətə nümunəvi xidmətini əyani göstərmək arzusundan yaranırdı.

Artıq Leyla ömrünün, bilik və peşəkarlığının, dünyaya baxışlarının elə bir kamil nöqtəsinə çatmışdı ki, indi verəcəyi qərarlar bundan sonrakı həyatının məqsədini, özünün və yaxınlarının taleyini müəyyənləşdirəcəkdi.

Yol boyu düşündükcə, neçə vaxtdı onu narahat edən, özünə çəkən, fikrindən çıxmayan məsələlər haqqında qəti qərara gələ bildi: "Bu il millət vəkili seçilmək, Hüquq Məsləhətxanasının müdiri olmaq".

Gəldiyi qərara öz-özünə gülümsədi. Axı, hər iki vəzifə də seçkiynəndi, onun istək və arzularından başqa amillər də vardır. Bu, imtahan deyil ki, hazırlaşıb, müəllimlə döyüşüb beş alasan. "Seçilmək"- bu məsələ təkcə insanın özündən asılı deyil, başqalarından da asılıdı axı.

"Demək, missiyalar, qarşıya qoyulan məqsədlər böyüdükcə duracağın nöqtəni müəyyənləşdirmək təkcə insanın özündən asılı olmur. Ancaq əsas odur ki, birinci Allah insanı hansısa vacib iş üçün seçsin, ikincisi də insan özü-özünü seçib, ürəklə səs versin". Hər halda, Leyla belə düşünürdü...

... Leyla evə çatanda qaranlıq düşmüşdü. Qapını Rüfət açdı, Əli xəbərlərə baxırdı, Nəzrin gəlib anasıyla görüşdü. Bir azdan çay süfrəsi arxasında əyləşdilər. Nəzrinin xüsusi çay dəmləmək qabiliyyəti var idi. Düzdür, yemək bişirməyə o qədər də girişmirdi, əksər yaxşı oxuyan qızlar kimi yemək bişirmək qaydalarını öyrənməyə o qədər də həvəs göstərmirdi, ancaq özünün və Rüfətin bəyəndiyi

müasir yemək növlərini bişirməyə cəhd edirdi. Çayı isə çox zövqlü dəmləyirdi.

Əli çayından içə-içə soruşdu:

– Necə gedib gəldiz?

– Yaxşı, ancaq çox yoruldum - Leyla cavab verdi.

– İnanıram ki, anam yoldakı düşüncələri daha çox yorub - Rüfət bunu deyib, gülümsədi. Leyla da ona sataşmaq üçün dedi:

– Nə bilirsən? Yanımda idin?

– Bilirsən, ana, gələcəkdə insanların keçmişdə nə danışdıqlarını, hansı hərəkətlər etdiklərini müəyyənləşdirə biləcəklər - Rüfət dedi.

Əli qaşlarını çatıb, maraqla soruşdu:

– Bunu necə edəcəklər? Məsələn, necə bilərik ki, Napaleon və ya Sezar nə danışıb, nə edib? Onlar ölüb gediblər. Yalnız tarixdən nələrisə bilirik.

– Ata, şahmatda indiki vəziyyətə baxanda, əvvəlki gedişləri bilmək olur. Əsas da, kainatda heçnə itmir, yoxa çıxmır. Məsələn, Sezar nəsə söylədi, bu yoxa çıxmır, başqa formaya keçib qalır - Rüfət dedi.

– Yaxşı, Sezar özü necə oldu? Nəzrin gülərək dedi.

– Sezar da var idi, yoxa çıxmadı, başqa formaya keçdi. Çürüyüb, torpağa qarışdı. O torpaqdan tikan çıxdı, demək Sezarın bir hissəsi tikana keçdi, - Rüfət dedi.

– Ey Sezar, sənin bir həftə sonra qəbul imtahanındı. Hazırlaşırsan, yoxsa, başın qarışıb şahmata və belə mifik fərziyyələrə? - Leyla sual etdi.

– Hazırlaşıram, - Rüfət dilləndi.

– Unutma ki, lap dünya çempionu olsan da, universitetə qəbul olmasan, mən bunu sənə bağışlamaram. Şahmat ayrı, universitet ayrıdı - Leyla ciddiləşdi.

– Ana düz deyir. Rüfət çox ciddi hazırlaşır, inanıram ki, yüksək balla qəbul olacaq, - Nəzrin qardaşını müdafiə etdi. Əli də onun dediklərini təsdiqləyərək, dedi:

– Rüfət bacardığını edir. Yaxşı hazırlaşır, hərdən sual-cavab edirik.

– Hərdən sual-cavabla, yaxşı hazırlaşmaqla hüquq fakültəsinə daxil olmaq çətindi -Leyla etiraz etdi.

– Ana, mən inanıram ki, qardaşım sualların cavabını ilk baxışdan dəqiq bilməsə də, şahmatçı məntiqi ilə axtarıb tapacaq - Nəzrin Rüfətə baxaraq onu təriflədi. Leyla gülümsəyib dedi:

– Nə vecinizə, test çox asandı. Doğru cavabı bilməsən də, səhvləri tapıb çıxarırsan, doğru tək qalır. Yaxud təxminən oxşadıb, tapırsan. Ancaq bizim vaxtımızda "divə bənzər", qəsdi ancaq aşağı qiymət yazmaq istəyən müəllimlər var idi. Onlar təkcə biletə düşən sualları yox, əlavə suallara da cavab tələb edirdilər.

Bu dəfə Əli onunla razılaşmadı. Təbiətən sakit və hər sözün, hadisənin yaxşı tərəfini görməyə çalışan, yarı su dolu stəkanı boş yox, dolu kimi qəbul edən, öz sahəsini mükəmməl bilən prokurorluq işçisindən çox, haqq-ədalət filosofu təsiri bağışlayan Əli dedi:

– O müəllimlərin hamısı "divə" bənzəmirdi, içlərində çox savadlı və vicdanlıları da var idi. Belə olmasaydı, mən və sən - kimsəsiz, pulsuz insanlar universitetlərə qəbul ola bilməzdik. Bilik həmişə qalib gəlib.

Leyla gülərək dedi:

– Yəni, deyirsən Məlikməmmədlər də var idi?

– Ana, "div" varsa, Məlikməmməd, cırtdan da olacaq. Bunlar təbiidi - Rüfət dedi.

Araya qısa sükut çökdü. Nəzrin dedi:

– Ana, yaxşı Naxçıvan şorbası bişirmişəm. Yol gəlmisən, acsan, mətbəxdə süfrəni düzəldim?

– Hələ yox, bir az özümə gəlim, yeyərəm.

– Bişirmişəm yox, bişirmişik - Rüfət bacısına xitabən zarafatla dedi.

– Sən ancaq əti doğramısan, kartofu və soğanı soymusan, - Nəzrin bildirdi, - Rüfət gülərək dedi:

– Daha nə qaldı ki? Yaxşı, ana sən yolda düşünüb, düşünüb nə qərara gəldin? Hüquq məsləhatxanasının müdiri olmaq istəyirsən?

– Sən haradan bilirsən ki, mən belə düşünürdüm?

– Bunu bilməyə nə var ki? Müdiriniz dünyasını dəyişib, "müqəddəs yer" boş qalacaq? İndi ora hücum gözlənilir, piyada, fil, və-

zir, top - hamısı irəli atılıb hücuma keçəcək - Rüfət bunu söyləyib, güldü.

– Axı, "şah"da var. O qısa hərəkətlər etsə də, oyunu idarə edir - Əli dilləndi.

– "Şah" kimdi? - Leyla yoldaşına sual etdi.

– "Şah" - Vəkillər Kollegiyası - Əli dedi.

– Axı, qanunla məsləhətxanada işləyən vəkillər öz aralarından səsverməylə müdir seçməlidirlər - Leyla dedi.

– Siz belə qərara gəldiz? - Əli soruşdu.

– Bəli, biz yoldaşlar bu cür qərara gəlmişik - Leyla özünə və vəkil yoldaşlarına inamını ifadə etdi.

Bakı Şəhər Prokurorluğunun idarələrindən birinin rəis müavini işləyən Əli dərhal anladı ki, vəkillərin bu cür qərara gəlməsi heç də yaxşı şeylər vəd etmir. Odur ki, şəhadət barmağı ilə başının arxasını qaşıya-qaşıya üzünü Leylaya tutub dedi:

– Düzdü, qanunda elə göstərilib, ancaq bilirsiniz ki, Vəkillər Kollegiyası buna necə baxacaq...

– Bizə onların baxması yox, qanunların necə baxması vacibdi.-

Əli gülümsəyib dedi:

– Nə baş verir, sizin Hüquq Məsləhətxanasında? "Fəzl qiyamı?"

Rüfət də güldü və dedi:

– Axırda məlum olacaq ki, "Fəzl" taxta qılıncla qiyam etmək istəyir.

– Anam haradadırsa, orada qələbə olacaq. Çünki, o, həmişə haqqın və qanunun yanında olub - Nəzrin anasına ürək-dirək verdi. O, həm də həmişə belə düşünmüşdü.

– Afərin, qızım! Sən hər şeyi prokurorluq işçisindən və şahmatçıdan daha doğru anlayırsan - Leyla gülümsədi.

– Yaxşı, namizədiniz kimdir? - Əli sual verdi.

– Ata, fikir vermirsən ki, anam necə "qiyamçıları" dəstəkləyir? "Fəzl" elə anam özüdü- Rüfət yenə Leylaya sataşdı.

– Hə, burada düzgün hesablaya bilmədin. Doğrudur ki, mən də müdiri öz işimizdən bir nəfəri seçməyin tərəfdarıyam. Çünki, həm tanıdığınız yoldaş olar, həm də bu ədalətli olar. Nə üçün qanunu pozub, qıraqdan birini təyin etməlidirlər? Biz vəkillər öz hüququmuzu

müdafiə edə bilmiriksə, başqasının haqqını necə edərik? Ancaq mən müdir olmaq istəmirəm - Leyla dedi.

– Ana, niyə müdir olmaq istəmirsənki? - Nəzrin soruşdu.

– Ona görə ki, mənim çoxlu tanıdığım insanlar var ki, vəkilləri olmağımı istəyirlər. İşlərim çoxdu, vaxtım isə azdı. Həm də müdir vəkil yoldaşların qonorarlarının bir hissəsinin yığılmasından maaş alır. Mən də bu pulu istəmirəm, öz zəhmətim bəs edir – (- )

– Ancaq bir neçə vəkil yoldaş müdirliyi sənə təklif etdi, sənin ən layiqli namizəd olduğunu dedi və sən razılaşdın, düzdü? - Rüfət gülümsəyərək dedi.

– Rüfət, bir onu bilirəm ki, sən çox təhlükəli adamsan. Həm də səndən əla "çekist" olar- Leyla təəccüblə oğluna baxıb, yarı zarafat, yarı gerçək dedi.

– Ana, bəzi şeylər var ki, çox sadədirlər. Ancaq insanlar ona qəribə, mürəkkəb kimi baxırlar. Əsgər general, şahmatçı çempion olmaq istəyirsə. Məsələn, atam özü Bakı şəhər prokuroru olmaq istəyir. Bu təbiidi, düzdür ata? - Rüfət atasına tərəf baxıb, cavab gözlədi. Əli bir az düşünüb dedi:

– Mən o boyda məsuliyyətin altına girə bilmərəm. Odur ki, heç vaxt daha yuxarı vəzifələr arzusunda olmamışam.

Rüfət gülərək dedi:

– Ata, ona görə də heç vaxt yüksək vəzifədə olmayacaqsan. Sən istəmədiyini, tale niyə istəsinki? Həyat sənin istədiyin gedişləri edir. Əlbəttə ki, ziyanına olan istiqamətdə, yəni, həyat sərt yamac kimidi, enişə gedəndə səni yellədib aparır, yuxarı çıxanda dirənib mane olur. Odur ki, hələ səni bu işdən də çıxardacaqlar.

Əli kifayət qədər səbirli və ağıllı insan idi. Həm də uşaqları ilə dostluq və hörmət müstəvisində münasibətlər qurmuş, onları dinləməyi həmişə bacarmış, deyilən fikirlərin doğruluğuna əsasən reaksiya vermişdi. O, uşaqlıqdan Rüfətə, Nəzrinə nəinki əl qaldırmamış, hətta nadir hallarda onlara hirslənmişdi. Əlinin düşüncəsinə görə uşağa hər hirsləndikcə, xüsusilə şillə vurduqca, onu həqiqətdən, ləyaqətdən bir addım uzaqlaşdırırsan. Ancaq yeniyetməlik, amorf həyat tsiklində vurulmaq, hirslənmək və tənbeh qorxusu altında saxla-

maq da faydalı ola bilər. Bu da uşaqların, yeniyetmələrin fərdi xüsusiyyətlərindən asılıdır.

İndi oğluna diqqətlə qulaq asan Əli, bir az pərt oldu, lakin özünü o yerdə qoymadı. Çox vaxt məntiq və ağıl mübarizəsində, söhbətlərdə qəsdən oğluna "məğlub" olan, onun dediklərinin doğruluğunun təsdiqinə imkan yaradan və beləliklə, özünə inam hissinin yaranmasına, möhkəmlənməsinə çalışan ata, bu dəfə özünü müdafiə etməyə, hücuma keçməyə qərar verdi. Bu da həyatın qəribə gerçəkliyidi ki, bir nöqtədən, qırmızı xətdən sonra ata oğula, oğul da ataya güzəştə getmir. Bu nöqtələri insan psixologiyasının qaranlıq nöqtələri hesab etmək olar.

– Sən və anan həyata bir nöqtədən baxırsınız. Səh şahmat qutusunun içindən, anan isə qanun kitablarının səhifələri arasından. Həqiqətdə isə sonsuz sayda baxış nöqtələri var və bu dünyada hər nə varsa açıq, dəyişən sistemdi. Bir nöqtədən baxmaqla həqiqətin, məsələn, öndən baxanda yatmış dovşanın üz-gözünü, qulaqlarını görmək olar. Axı, onun beli, quyruğu, ayaqları da var. Sənin şahmatının qutusunun içində olan piyada və şah eyni mahiyyətlidi. Oyunda isə məntiqsiz mahiyyətlidi.

– Oyunda nədir məntiqsizlik? - diqqətlə qulaq asan Rüfət soruşdu.

– Yalnız ətrafına bir xana gediş edə bilən şahı, at, fil, top kimi güclü gedişlər edənlər, vəzir kimi ən güclü müdafiə edir, yeri gələndə özlərini qurban verirlər. Ananın qanun, haqq, ədalət nöqtəsindən baxanda, gərək, şahı birinci oynayıb, qurban verib, vəziri qoruyasan. Ananın aralarından boylandığı qanun kitablarının səhifələri isə bəşəriyyət özünü tanıyandan bu tərəfə yazılır, pozulur, yenidən yazılır. Niyə?

– Niyə? - Bu dəfə Leyla sual etdi.

– Ona görə ki, bəşəriyyətdə ictimai münasibətlər sistemi sabit deyil, dəyişkəndi. Onlar dəyişəndə, qanunlar da dəyişir. İkincisi, qanunu yazan azlıqlar, onları çoxluğu itaətdə saxlamaq üçün yazır, bir növ burada şahmat oynayırlar. Üçüncü, dördüncü və s. səbəblər də var. Mənim isə vəzifədən, məsuliyyətdən qaçmağım, həqiqət olma-

yanlardan uzaq durmağım deməkdi. Heç bir ağıllı, müdrik insan, vəzifənin məsuliyyət təkərləri altına girməz. - Əli dedi.

Leyla gülümsəyərək dedi:

– Sənin dediklərin fəlsəfədi. Şahmat qutusunun içərisindəki fiqurlar eynicinsli materialdan düzəldilib və necəki sükunətdədirlər, mahiyyətləri eynidi. İnsanlar da öldükdən sonra sükunət halında bir-birilərindən fərqlənmirlər. Qutudakı fiqurlar üzə çıxıb, oynamağa başlayanda, fərqləri görsənir. Şahı niyə qoruyurlar? - Rüfət deyə bilər.

– Oyunun mənası şahı qorumaqdı. Şahmatda şah rəmzi güc göstəricisidi. Əsas məqsəd iki eyni gücdə olan komandanın, hərbi birliyin sərkərdəsinin bacarığını müqayissə etməkdi. Sərkərdə isə oyunçulardı, - Rüfət əlavə etdi.

– O ki, qaldı vəzifəyə yaxınlaşmaq, həqiqət olmayanlara yaxınlaşmaq yox, həqiqəti qorumaq imkanlarına sahib olmaqdı. Ağıllı insan vəzifə səlahiyyətlərinin təkərləri altına o zaman düşər ki, səhv etsin və cəsarəti olmasın. Bacarıqlı və peşəkar sürücü maşını sürüb gedir, onun təkərləri altına düşmür - Leyla dedi.

Bayaqdan atasına, anasına və qardaşına diqqətlə qulaq asan Nəzrin, onların dediklərini öz-özünə təhlil edirdi. O, on beş yaşı olmasına baxmayaraq, ağıl və dərk etmə qabiliyyətinə görə çox irəli getmişdi. Burada ata və anasından keçmə irsi istedadlı olmaq rol oynasa da, öz zəhməti hesabına dərslərini yaxşı oxuması, intellektual səviyyəsi də çox rol oynayırdı. Nəzrinin çox dəqiq və gerçək analitik düşüncə tərzi var idi. Necə ki, Rüfət şahmat oyununda sürətlə və dəqiqliklə bir az sonranı təsəvvür edirdi, eləcə də Nəzrin hadisələr, fikirlər, ideyalar arasında əlaqə qurmağı, səbəb və nəticəni, mahiyyəti təhlil etməyi bacarırdı. Onun ikinci mühüm, qiymətli xüsusiyyəti realist və doğruçul olmağı idi. Nəzrinin ən zəhləsi gedən insan yalan danışan, gop eləyən, onun-bunun arxasınca dedi-qodu edən, sətiraltı işarəylə söz ilişdirən şəxslər idi. Onun fikrincə, qısa, lokanik və doğru danışmaq lazımdır. Sözün var, açıq - aşkar adamın üzünə deməlisən. Bir sözlə, Nəzrinin xarakteri, şüur səviyyəsi və əqidəsi gələcək mükəmməl bir şəxsiyyətin gənclik dövrü idi.

Nəzrin qaşlarını çatıb, dedi:

– Atam daha düzgün və real fikirlər söylədi. Onun dedikləri həqiqətin özü idi. Anamın və Rüfətin dedikləri isə uğursuz özünü müdafiə cəhdləri idi.

– Bəlkə, sən uğursuz tərəf tutma cəhdi edirsən? - Rüfət narazılığını bildirdi. Leyla da Rüfətin tərəfini tutub dedi:

– Onsuz da Nəzrin çox vaxt atasının tərəfini tutur.

– Çünki, atam çox vaxt daha doğru və real fikir söyləyir.

– (Afərin, qızım, sən mənim yox, həqiqətin tərəfini tutursan. Həqiqətin yanında duranlar çox böyük və qiymətli görünürlər - Əli dedi.

– Ata, bacım səni çox istədiyindən belə müdafiə edir, ümumi sözlərlə. Əslində, nəyi və necə müdafiə etdiyini heç özü də anlamır - Rüfət Nəzrinə atmaca atdı. Nəzrin gülüb dedi:

– Düzdü, atamı çox istəyirəm. Ancaq sizə diqqətlə qulaq asdım. Atam anamı mat, səni isə pat elədi. Məsələn, vəzifəli şəxslərin əksəriyyəti məsuliyyət təkəri altına düşüblər, sadəcə, xəbərləri yoxdu. Onlar rahat yatmırlar, istirahət etmirlər, istədikləri yerə gedə bilmirlər, azad deyillər. Çox adam onlardan asılıb, ağırlıq eləyir. Onlar da kimdənsə asılıb, qalıb. İnsanlarla asılı münasibətdə olmaq, nərdivanın orta pillələrindən biri olmaq deməkdi. Səndən aşağıda və yuxarıda kimlərsə var. Nərdivanla çıxan isə həyat özüdü. O hər asılı pilləkənlərin üstündən çıxıb düşür, bu zaman onları ayaqlayır.

– Afərin, qızım, yüz yaşa. Nə gözəl fikirlər söylədin, sən bizdən irəli düşünürsən - Əli Nəzrinə tərəf fərəhlə baxdı.

– Bilirdim ki, həmişə olduğu kimi, ata-bala bir-birinizi tərifləyəcəksiniz. Hələ mən millət vəkili olanda gör nə fəlsəfələr uyduracaqsınız, -Leyla bu sözləri deyib, onların reaksiyasını gözlədi. Əli təəccüblə ona baxıb dedi:

– Bu haradan çıxdı? Nə millət vəkili?

– Millət vəkili də, deputat. - Nəzrin anasına sataşdı.

– Bu seçkilərdə iştirak edəcəm. Namizədliyimi verəcəm, payızda keçiriləcək Milli Məclis seçkilərinə, - Leyla inamla dedi.

– Gah hüquq məsləhatxanasına müdirliyə seçilmək istəyirsən, gah da millət vəkili seçilmək fikrinə düşürsən. Seçkilərə meyillik, se-

çənlərin təsiri altına düşmək, azadlığını itirmək, asılı olmaqdı. Vəkil isə müstəqil olmalıdı. Və həm də, iki atı eyni anda sürmək istəyirsən - Əli istehza ilə dedi. Rüfət anasından əvvəl cavab verdi:

– Şahmatda da iki at, həm də iki fil vardır. Növbə ilə oynamaq olur. Çox vaxt onları qarşılaşdıranda, çox güclü hücum və ya müdafiə xətti alınır.

– Rüfətin bu sözlərilə razıyam. Bu (,) şahmatda olduğu kimi həyatda da belədi. Məsələn, anam həm millət vəkili, həm də hüquq məsləhatxanasının müdiri olarsa, iki səlahiyyətləri qarşılaşdırıb, haqq, ədalət və qanunu müdafiə edəcək çox güclü istehkam yarada bilər - Nəzrin dedi.

– Afərin, ağıllı qızım, eynən mən düşündüyümü dedin, elə bil, ürəyimi oxudun - Leyla bunu söyləyib, razılıq dolu baxışlarla qızına baxdı. Nəzrin gülüb dedi:

– Öz xeyrinizə olanda fikirlərimi çox bəyənirsiz. Atamın xeyrinə olanda isə tərəf tutmaq deyirsiniz ha!..

– Leyla, bilirsən ki, bu ilki seçkilər çox qarışıq şəraitdə olacaq, çoxlu qruplar, partiyalar və s. var. Mürəkkəb vəziyyətdi. Elə bil, dumanlı, qaranlıq bataqlığa girmək istəyirsən. Hər an ayağın bata bilər, özünü də çəkib aparar. Bu barədə ciddi düşün - Əli narahatlığını ifadə etdi.

– Bilirsiz, hamınız arxayın olun. Mən hər şeyi hesablamışam. Kim qatılır qatılsın. Mən heç bir partiya üzvü deyiləm. Xalqımın, dövlətimin və prezidentimin yanındayam. Həm millət vəkili, həm də hüquq məsləhətxanası müdiri olaramsa, daha çox insanlarımıza fayda verərəm. Real və ədalətli, fayda verə biləcək, işlək mexanizmlər yarada biləcək qanun layihələrinin hazırlanmasında iştirak edə bilərəm. Və qərara gəlmişəm ki, bu, mənim həyatımın ikinci missiyasıdı. İnanıram ki, belə olacaq.

Bu il bizim üçün çox əlamətdar olacaq. Mən istədiyim xidmətləri etməyim üçün səlahiyyətlərə yiyələnə biləcəm. Rüfət isə hüquq fakültəsinə daxil ola biləcək.

– Sən lap Napaleon kimi düşünürsən. O da Rusiyaya hücum edəndə, hər şeyi hesabladığını zənn edirdi. Ancaq qışı nəzərdən qa-

çırmışdı. Sən də payızın yarpaq tökən fəsil olduğunu unutma - Əli dedi.

– Ana, hər iki seçkiyə qatıl, həyat özü yarışmadır. Gələcəyi hesablamağa qurulmuş oyunlardı. Uğurlar arzulayıram - Rüfət dedi.

Leyla üzünü qızına tutub dedi:

– Bəs, Nəzrin nə deyir?

Nəzrin gülümsəyib,- dedi:

– Nəzrin heçnə demir.

– Niyə? - Leyla soruşdu.

– Məsləhətlər qərarlardan sonra gələndə, bu artıq təzyiq sayılır. Sən qərarını vermisən, təzyiq yox, kömək etməyin tərəfdarıyam.

– Demək, razısan? - Leyla dedi.

– Kömək etməyə razıyam. - Nəzrin bunu deyib güldü.

... Həyatın sirli gedişləri davam edirdi. Vəkil yoldaşlarının təkidi ilə və özünün əgər geniş səlahiyyətləri olarsa, daha çox insana kömək edə biləcəyi düşüncəsi Leylanın hüquq məsləhatxanasına keçirilən seçkidə namizəd olmaq qərarına gəlməyinə səbəb oldu.

Hüquq məsləhətxanasının vəkilləri ümumi yığıncaqda Leylanın namizədliyini irəli sürüb, yekdilliklə özlərinə müdir seçdilər. Leyla səlahiyyətlərinin çoxalmasına və ona göstərilən etimada görə çox sevindi. Ailədə də bunu sevinclə qarşıladılar. Xüsusilə həmişə qələbə çalmağı qarşısına məqsəd qoymuş və əksər hallarda buna vərdiş etmiş Rüfət daha çox sevindi.

Bir neçə gün sonra Rüfət özü bütün ailəni sevindirdi. O, imtahanlardan çox yüksək bal toplayaraq, universitetin hüquq fakültəsinə daxil oldu. Buna həm öz ailəsi, həm də xalaları çox sevindilər. Rüfət vaxtının böyük bir hissəsini şahmata sərf etsə də, gecə yuxularına haram qataraq, yaxşı hazırlaşmışdı. Rüfət eyni zamanda dörd xarici dili də yaxşı öyrənmiş və daha əla bilmək üçün səylər göstərirdi. Onun yaddaşı güclü idi, həm də dərk etmə qabiliyyəti mükəmməl idi. Ancaq Rüfətə şahmatda uğurlar gətirən, dərslərini yaxşı dərk edib, öyrənməyə əsas səbəb olan onun xəyal gücünün və fantaziya genişliyinin olması idi.

Ailənin iki sevincinin davam etmə müddəti çox az oldu. Elə bil həyatın xüsusi tarazlaşdırıcı qüvvəsi vardı və o, haradasa ortaya çıxmalı, sevinci yarıda kəsməli, uğurların yanına uğursuzluq əmsalı da qoymalıydı. Belə də oldu.

Leyla hüquq məsləhatxanasının müdiri seçiləndən sonra, ona təzyiq və təhdidlər başlandı. Səbəb də o idi ki, yazılmamış qanunları "pozmuşdu". Hansı ki, bu yazılmamış qanunlar bəzən həqiqi qanunlara "ağalıq" edə bilirdi. Və əsas mahiyyətində yenicə müstəqillik qazanmış, gənc respublikada vəhşi kapitalizmin məmur səlahiyyətləri ilə birləşərək, əcaib vampirə bənzəyən məmur-oliqarx sistemi əks olunurdu.

Bir sıra vəzifəli şəxslər qanun boşluqlarından, kövrək ictimai-siyasi sabitlikdən istifadə edərək, səlahiyyətlərindən kapital toplamaq üçün istifadə edir, şəbəkələr, korrupsiya, rüşvət sistemləri yaradırdılar. Və bu zaman onlar öz səlahiyyətlərinin sərhədlərini, qanundan da o tərəfə atırdılar. Məsələn, hüquq məsləhətxanasına müdiri qanuna görə orada işləyən vəkillər özləri seçməli idi. Ancaq bəzi qurumlarda, vəkillər kollegiyası öz adamını təyin etdirmək, "seçdirmək" istəyirdi. Burada da əsas məqsəd hüquq məsləhatxanasında çalışan vəkillərin qonorarlarının bir hissəsini mənimsəyib, aralarında bölmək, onlara məhkəmələrdə "sifarişlər" vermək idi.

Leylanın müdir seçilməyi  Respublika Vəkillər Kollegiyasının xoşuna gəlmədi. Bunu "özbaşınalıq və saymamazlıq" kimi qəbul etdilər. Onlar öz adamlarını "seçdirmək", qonorarları mənimsəmək istəyirdilər. Kollegiyada bir qrup var idi ki, təkcə qonorarla kifayətlənmir, Leylanın işlədiyi hüquq məsləhətxanasının yerləşdiyi binanı özəlləşdirib, satmaq istəyirdilər. Bu bina şəhərin mərkəzində, dənizkənarı bulvara yaxın ərazidə yerləşdiyindən çox baha idi.

Leyla vəkil yoldaşlarının qonorarlarının qeyri-qanuni yolla mənimsəmələrinə imkan verməyəcək, onların kimlərdənsə rüşvət alıb, məhkəmələrdə boyunlarına götürdükləri öhdəlikləri yerinə yetirmək üçün verəcəkləri tapşırıqları yerinə yetirməyəcək, binanın özəlləşdirilməsinə heç razı olmayacaqdır!

Vəkillərin özbaşına müdir seçmələri, həm də məhz Leylanı seçmələri vəkillər kollegiyasındakı şər qrupunu özündən çıxarmışdı.

Onların Leyladan onsuz da xoşları gəlmirdi. Bir neçə dəfə tapşırıqlarından imtina etmişdi. Və onlar bir çox vəzifəli şəxslərin yanında "gözü kölgəli" olmuş, vəd verilən külli miqdar pulları ala bilməmişdilər. Xüsusilə, Leylanın vəkillik etdiyi son işlərdən olan, Rövşənin qətli ilə bağlı kasıb Abdullanı müdafiə etməsi, Aydın Qədirzadənin həbsinə nail olması, Orxan Salmanzadənin vəd etdiyi külli miqdarda rüşvətləri ala bilməmələrinə səbəb olmuşdu. Leylaya çox hiddətlənmişdilər. İndi də onun müdir seçilməsini heç cür qəbul etməyərək, özlərindən çıxmışdılar.

Əvvəl Leylaya sifariş göndərib, öz ərizəsilə Hüquq Məsləhətxanasının müdiri vəzifəsindən ərizə yazıb, imtina etməsini təklif etdilər. Leyla bunu qəbul etmədi. Onun keçdiyi yol, xarakteri, əqidəsi, arzu və istəkləri buna imkan verə bilməzdi. Leyla heç cür ağlına gətirə bilməzdi ki, vəkil yoldaşlarının etimadını yerə vurar və arzularına, istəklərinə, bilik və peşəkarlığına xəyanət edər. O, bunları edə bilməzdi.

Odur ki, Leyla bütün təklifləri rədd etdi. Müdir vəzifəsinin icrasını davam etdirdi. Vəkil yoldaşları sevinir və seçimlərində yanılmadıqlarını düşünürdülər.

Kollegiyadakı "qrup" belə olan halda onu təhdid etməyə başladı. Ona xəbərlər göndərirdilər ki, yoldaşını, bacılarını işdən çıxartdırarıq, özünü həbs etdirərik, oğlunu şahmat milli komandasından uzaqlaşdırarıq və s. Bu cür təhdid xəbərləri günü-gündən çoxalır, hər dəfə də yeni formalar, üsullar seçirdilər. Təhdid etmə, qorxutma müstəvisi genişlənirdi. Lakin Leyla bunların heç birindən çəkinmirdi, qorxmurdu. Həmişə "sən öz dəmir yolunla düz get, ətraf dəyişəcək. Ancaq sən sonda mənzil başına çatacaqsan" - mərhum Qayanın dediyi bu fikirləri xatırlayaraq, inadla öz işinə davam edirdi. Hüquq məsləhətxanasının müdiri necə olmalıdır, oradakı vəkillərlə necə işləməli, qanuna və haqqa, ədalətə nə cür riayət etməlidi nümunəsi yaratmağa çalışırdı.

Leylanın müdirliyi, iş prinsipi artıq vəkillər arasında məşhurlaşmağa başlamışdı. Digər hüquq məsləhətxanalarında çalışan vəkillər də özləri-özlərinə müdir seçmək haqqında qənaətlərə gəlmiş, söz-

söhbətlər çoxalmışdı. Vəkillər Kolleqiyasındakı şər qrupu buna heç cürə göz yuma bilməz, Leyla nümunəsinin yayılmasına imkan verə bilməzdilər. Onlar daha da hiddətlənmiş, Leylanı nəyin bahasına olursa - olsun, sıradan çıxarmağı, həmçinin digərlərinə dərs olsun,- deyə cəzalandırmağı qarşılarına məqsəd qoymuşdular.

Payızda növbəti parlament seçkiləri olacaqdı. Leyla bu seçkilərdə iştirak etməyi qarşısına məqsəd qoymuşdu. O, çoxdan bu barədə düşünsə, də Rövşənin qətli ilə bağlı cinayət işində Abdullanın vəkili kimi rayona bir neçə dəfə getmiş, məhkəmələrdə haqqı tapdalanan sadə və kasıb insanlara yardım etməyin zəruriliyini anlamışdı. Bundan sonra millət vəkili olmaq məqsədini daha israrla qarşısına qoymuşdu. Eyni , qanunlarda olan bəzi boşluqları, təxminilikləri doldurmaq, yeni yaranan sahələrlə bağlı hüquqi bazaların yaradılması haqda fikirlərini həyata keçirmək üçün də millət vəkili olmaq istəyirdi və buna nail olacağına inanırdı.

Leyla çox götür-qoy etdikdən sonra müstəqil, bitərəf namizəd kimi Bakının rayonlarından birindən millət vəkili olmaq üçün mübarizəyə başladı. O, zəhmət və qətiyyətlə çalışaraq, lazımi sənədləri hazırladı, sonra tələb olunan imzaları toplayaraq, Dairə Seçki Komissiyasına təqdim etdi. Bu seçkidə əvvəlkilərə nisbətən daha çox partiya, müstəqil namizəd qeydə alındı. Leylanın da namizədliyi qeydə alındı. O, özü peşəkar hüquqşünas olduğundan və hər şeyi diqqətlə, qanunla yerinə yetirdiyindən, ilk qeydə alınmış namizədlərdən oldu. Leyla heç bir partiyanın üzvü deyildi və partiyalarası mübarizə də onu maraqlandırmırdı. O, əsl vətəndaş, hüquqşünas kimi aydın ictimai-siyasi mövqe ortaya qoymuş, öz ideyalarını müdafiə edirdi. Leylanın fikrincə (,) müstəqil Azərbaycanın ən optimal yolunu, strategiyasını ümumilli lider Heydər Əliyev müəyyən etmiş, taktikasını hazırlamışdı. Bu yol azərbaycançılıq məfkurəsinə, elmə, reallığa və sabitlik fəlsəfəsinə söykənirdi. Leyla özünü bu yolun yolçusu hesab edirdi və düşünürdü ki, xalqın, dövlətin düşmənlərini partiyalarda deyil, qanunları tapdalayan, öz xeyirlərinə istifadə edən, bütün qurumlara səpələnmiş "parazi" insanlar içərisindən axtarmaq lazımdı. Ortada söz güləşdirən, dedi-qodu edən siyasətbazlar yox, görünmə-

yən heç nə danışmayan, ancaq mənimsəmək, cib doldurmaqla məşğul olanlar daha təhlükəlidirlər.

Leylanın parlament seçkilərində iştirak etməsi və namizədliyinin qeydə alınması onun kollegiyadakı rəqiblərini daha da hiddətləndirib, son həddə çatdırdı. Eyni zamanda, onlar buna çox sevindilər. Çünki, seçki siyasi-ictimai proses idi və burada istənilən insana qarşı qara piar qurmaq, onu ləkələmək, heyif çıxmaq imkanları çox idi. Neçə vaxtdır ki, hüquq müstəvisində qalib gələ bilmədikləri, hədələrlə qorxutmağa nail olmadıqları, yolundan dönməyən Leylaya zərbə vurmaq üçün yeni fürsət yaranmışdı.

Vəkillər Kollegiyasındakı Leylanı müdirlikdən uzaqlaşdırmağa çalışan qrup, indi daha sərt cəza düşünürdü. Seçki prosesi zamanı ələ düşə biləcək fürsətlərdən istifadə edib, onu vəkillikdən birdəfəlik uzaqlaşdırmağı qarşıya məqsəd qoymuşdular. Bunun üçün planlar qurmuşdular. Əks halda, yəni Leyla millət vəkili seçilsəydi, artıq ona qalib gələ bilməyəcəkdilər. Yeganə çıxış yolu, onun seçkidə qələbəsinə mane olmaq və sonra vəkillikdən uzaqlaşdırmaq idi.

Deməli, Leyla parlament seçkilərində həm müxalifət, iqtidar partiyasının və bitərəf namizədlərlə onların nümayəndələri, arxalarında duran qüvvələrlə mübarizə aparmalı, həm də Vəkillər Kollegiyasının rəhbərliyində ona qarşı düşmən münasibət bəsləyən qrupla döyüşməli idi.

Onun rəqibləri bir-birilərilə çox hallarda tam birləşməsələr də (,) ayrı-ayrılıqda zərbələr endirəcəkdi. Və bu zərbələrin hədəfi onu yolundan döndərməyə, məğlub etməyə xidmət edəcəkdi. Leylanın seçki prosesindəki və kollegiyadakı rəqiblərinin malik olduqları maddi, inzibati, ictimai-siyasi informasiya resursları üst-üstə toplananda böyük qüvvə ortaya çıxırdı. Bunlarla mübarizədə Leylanın əsas gücü hüquqi bilikləri, özünə, cəmiyyətə inamı idi.

Leyla bütöv bir qoşunun qabağına tək çıxıb, təkbətək döyüşməyə rəqib istəyən qədim Şərq pəhləvanlarına bənzəyirdi. Özünü əzmli, qələbəyə ümidli hiss edən Leyla heç nəyə baxmadan seçki təbliğatına hazırlaşırdı. Seçki platformasını hazırlamış, çıxışlarını, görüşəcək yerləri və vaxtları müəyyənləşdirmişdi. O, səbirsizliklə seçki

təbliğat və təşviqat gününün başlanmasını gözləyirdi. Elə onun rəqibləri də bu günü həsrətlə gözləyirdilər.

Bu gün Leyla seçki kampaniyası çərçivəsində namizəd olduğu dairəyə aid məhəllələrdən birində açıq havada sakinlərlə görüş keçirmişdi. Görüşdən o qədər məmnun qalmışdı ki, artıq millət vəkili seçiləcəyinə öz ehtimalı yetmiş-səksən faizə yüksəlmişdi. Onun seçicilərlə ünsiyyəti şəxsi xarakterindən və peşə xüsusiyyətlərindən asılı olaraq səmimi, nizam-intizamlı və inamlı alınmışdı. Əsas da Leylanın ünsiyyətində və çıxışında insanlar təbiilik, qanunsevərlik, reallıq, məntiq görmüşdülər. Gözü tərəzi olan xalq, o dəqiqə Leylanın siyasətbaz, pafoslu, hər nə bildi danışan namizədlərdən fərqini hiss etmişlər. Seçicilər onun sakit, sual dolu baxışlarla qarşılayıb, alqışlarla yola salmışdılar. Bu Leylanı o qədər sevindirmişdi ki, necə evə gəlib çıxdığını heç özü də bilmədi.

Qapını Rüfət açdı. Leyla ona gülümsəyərək:

– Sənin sözün olmasın, əla debüt idi. - deyib, mənzilə daxil oldu. Qapının ağzında çoxlu qadın ayaqqabıları görüb, gülərək ucadan dedi:

– Aha, Səriyənin qızları hiss ediblər ki, Leyla deputat olacaq, yığışıb gəliblər, indidən deputatı özlərinə dost tutmaq istəyirlər.

Nailə dəhlizdə görsəndi və gülümsəyərək dedi:

– Deputatın özü biz bacılara möhtacı ola bilər. Həkim, hüquqşünas komandasıdı. Deputatdan həm güclü, həm də faydalıyıq.

Leyla bu sözlərə güldü, sonra isə bacısını qucaqlayıb, öpdü. Onlar birlikdə qonaq otağına keçdilər. Həlimə, Yasəmən, Zəhra və Sevda da burada idilər. Leyla bir-bir bacıları ilə görüşüb, kresloda əyləşdi və dedi:

– Çox yorulmuşam Nəzrin, mənə bir isti çay ver.

Sevda ayağa qalxıb:

– Mən gətirəcəm, Nəzrin nə isə deyəsən, özünü pis hiss edir, - dedi və mətbəxə tərəf getdi.

Leyla çönüb, stulda əyləşərək gözlərini məchul bir nöqtəyə zilləyib, fikrə gedən Nəzrinə baxdı. Sonra yenə üzünü bacılarına tərəf tutub dedi:

– Hə, Nəzrində hərdən bir belə "kaprizlər" olur. Fikir verməyin, heç nə olmayıb. Siz neynirsiniz, uşaqlarınız, yoldaşlarınız necədilər?

– Hamımız yaxşıyıq, narahat olma. Əsas sənsən, işlər necə gedir? Bu gün ilk görüşün oldu. Necə oldu? – Həlimə soruşdu.

– Əsas da ilk görüşdü. Əgər yaxşı keçibsə, sonrası da yaxşı olacaq. Çünki, insanlarımız bir-birilərinə bənzəyirlər. Problemləri də, həyata baxışları da oxşardı - Yasəmən bunları deyib, Leylanın üzünə diqqətlə baxmağa başladı. Leyla sürətli baxışlarla bacılarını süzdü və dedi:

– Yasəmən düz deyir, insanlarımız bir-birilərinə çox bənzəyir. Əksəriyyəti saf qəlbli, təbiiliyi sevən və dürüst insanlardı. O da doğrudu ki, ilk görüşdə seçicilərin münasibəti necədirsə, axıra kimi də elə olacaq.

– Bacı, demədin axı, sənin ilk görüşün necə keçdi? Seçicilər nə istəyir, nə deyirlər? - Zəhra sual verib, səbirsizliklə gözləməyə başladı.

– Çox əla keçdi. Rüfət demiş əla başlanğıc, debüt etdik. Heç bu cür uğurlu başlayacağımıza inanmırdım - Leya bunu deyib, Rüfətə tərəf baxdı. Rüfət də bacısı kimi, sakit oturmuşdu. Onun da nədənsə kefi yox idi. Özünü qaş-qabaqlı aparırdı. Həmişə belə olanda Leylanın xoşu gəlmirdi. Ümumiyyətlə, Leyla mız-mızı, burnunu sallayıb duran, sözü öz ürəyində saxlayan, yersiz kədər buludlarına bənzəyən insanları xoşlamırdı. Həmişə də belə hallarda deyirdi ki, "sözün varsa, cəsarətlə və bəzəksiz, düzəksiz de". İndi də istədi Rüfətə və Nəzrinə nəsə desin. Ancaq düşündü ki, bacılarının qanını qaralda biləcək cavablar eşidə bilər. Odur ki, özünü bu yerə qoymayaraq, çönüb Zəhranın üzünə baxdı. Zəhra sevincək dedi:

– Çox şükür Allaha. Yaman nigaran idim ki, görəsən, necə olacaq? Camaat bacımı necə qarşılayacaq, münasibətlərini nə cür ortaya qoyacaqlar.

Sevda çayları gətirdi. Divan və kreslolarda əyləşmiş bacılarının çaylarını jurnal masasının üzərinə, Nəzrinlə Rüfətinkini isə ortalıq masasının üzərinə qoydu. Sonra gülərək dedi:

– Söhbətlərinizi eşidə bilirdim. Deyəsən, Leyla seçilməyinə çox inanır. İnşallah, seçilər. Məni də özünə köməkçi götürər. Canım qurtarar bu qızlara çay verməkdən. Hara gedirlər, məni özlərinə "çayçı" aparırlar.

– Sən də elə bilirsən ki, çox istədiklərindən belə edirlər? Bax, indi bütün namizədlər məhəllə-məhəllə, qapı-qapı düşüb, seçicilərin problemlərini dinləyir, əllərindən öpürlər.

– Niyə? - Leyla Sevdaya xitabən sual verdi.

– Niyə? - Sevda çiyinlərini çəkdi.

– Ona görə ki, onların səslərinə ehtiyacları var. O səsi çox istəyirlər. Seçici onların nəyinə lazımdı. Seçkidən sonra seçilmiş millət vəkili seçiciyə qızmar səhrada dərvişin isti, qalın kürkə baxdığı kimi baxacaqdır - Leyla dedi.

– İndi deyirsən ki, sənin bu bacıların hərdən mənə lazımsız, kürk kimi baxırlar?-Sevda guya incimiş kimi soruşdu.

– Nə bilim Vallah. Onlardan soruş, - Leyla gülümsədi.

–Sevda, kürkü deyə bilmərəm. Tələbə vaxtı bizim bir boynu tüklü paltomuz vardı, onu Leyla, Nailə və mən növbə ilə geyinirdik. Bax, o çox qiymətli idi. Köhnə olsa da, üç təzə paltodan qiymətli idi - Həlimə gülərək dedi. Sonra üzünü Leylaya tutub:

– Leyla, mən bir şeyi anlamıram. Çoxluq hakimiyyət partiyası, YAP üzvləri öz işlərini tərifləyir, xalqa izah edir, yenidən səs istəyir. Müxalifətçilər bu işləri pisləyir, özləri seçilsə daha yaxşı işləyəcəklərinə inandırıb, səs istəyirlər. Bəs, siz, yəni, bitərəf namizədlər nə istəyirsiniz? - sual verdi.

Leyla gülərək başını bulayıb dedi:

– Cəmiyyətin səksən, doxsan faizi heç bir partiyanın üzvü deyil, bitərəfdir. Biz bitərəflər də onları təmsil edirik. Şəxsən mən düşünürəm ki, millət vəkilinin hansı partiya üzvü olmağı yox, vətənpərvərliyi və biliyi, peşəkarlığı əsas şərtdir. Onun sabah faydalı iş əmsalı bunlardan asılıdır.

– İndi seçicilərin əlində bir aparat - zad var ki, namizədlərin vətənpərvərliyini ölçsünlər? Test edib biliyini yoxlasınlar? Ya onların alınlarında yazılıb? Odur ki, seçicilər bitərəf namizədlərə çox inanmırlar. Əsasən, Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinə

səs verirlər. Onların özlərinə də elə rəğbətləri yoxdur. Sadəcə olaraq, Heydər Əliyev yoluna, Prezidentin bu yolu layiqincə davam etdirdiyinə görə səs verirlər - Nailə dedi.

– Doğurdan maraqlıdı, YAP namizədləri müstəqil şəkildə və ya başqa partiyadan seçkilərə qatılsalar nə olardı? Yenə seçilərdilər? - Yasəmən sual etdi.

– Onların alacaqları səslərin on-on beş faizini özlərinə, qalanlarını isə YAP-ın ideologiyasına, konkret olaraq Prezidentin xatirinə, siyasi kursuna görə verirlər - Zəhra dedi.

– Yenə bizim partiya qalib gələcək. Müxalifət və Leyla kimi bitərəflər özlərini havayı yerə yorurlar - Sevda gülərək dedi.

Leyla da gülümsədi və şikayət etdi:

– Ona görə hərəniz bir bəhanə edib, bu günki görüşdə iştirak etmədiniz? Heydər Əliyev yolu ilə getmək, müstəqillik, dövlətçilik, azərbaycançılıq ideologiyasına xidmət deməkdi. Bu yolu təkcə YAP-çılar getmir ki, bu yolu çox insan gedir. Əsas odur ki, dövlətə, xalqa xidmət etmək istəyin, potensialın olsun.

Bayaqdan anasının və xalalarının söhbətlərinə diqqətlə qulaq asan Rüfət köks ötürüb dedi:

– Vallah, sizə qulaq asıram, düşünürəm ki, böyük Mirzə Ələkbər Sabir düz deyirmiş:

Dindirir əsr bizi, dinməyiriz,
Atılan toplara diksinməyiriz,
Əcnəbi seyrə balonlarla çıxır
Biz hələ avtomobil minməyiriz.

– Əşşi, nə iqtidar, müxalifət, bitərəf, dünyanın inkişaf etmiş xalqları bu cür düşünmürlər, xalqı belə bölmürlər. Hələ təriqətlər, sünni, şiə, rayonbazlıq, qohumbazlıq və s. mövzularla bölgücülük edirlər. Biz xalqa, dövlətə və Vətənə bütöv baxmalıyıq. Şahmatda bütöv komanda vəhdətdə olur, hər fiqur bir vəzifə yerinə yetirir. Hansı oyunçu bu vəhdəti düzgün və möhkəm qurursa, qalib gəlir. Millət vəkilləri bütöv bir komanda olmalıdırlar. Bir qismi hüququ, digərləri təhsili, iqtisadiyyatı, aqrar sahəni və s. bilməlidirlər. Orada mükəmməl, çevik qanunlar yazılmalıdır. Millət vəkilinin ikinci əsas vəsifəsi də, se-

çildiyi ərazidəki vətəndaşların problemlərinin həllinə kömək etmək, rayonun inkişafına töhvə verməkdi. Daha biri makaron paylayır, biri deyir : "asfalt çəkəcəm", o biri deyir : "park salacam". Axı, bunlar deputatın işi deyil və ya indi bir qismi sarı paltarlar geyinib, özlərini xaricilərə bənzədib, deyir : "inqilab edəcək". Mən namizədlərin televiziyadakı çıxışlarına da qulaq asıram. Elm, məntiq və reallıq yoxdu. Milli dövlətçilik şüuru çatışmır.

Bacılar Rüfətə diqqətlə qulaq asırdılar. Sevda üzünü ona tutub dedi:

– Sən indi üç-beş xarici dövlətdə olmusan deyə, bizim cəmiyyəti geridə qalmış hesab edirsən? Sənin getdiyin ölkələrdə seçkilərə partiyalarla getmirlər? Namizədlər göydən zənbillə düşür? - bunu deyib gülümsədi.

Rüfət də istehza ilə gülüb dedi:

– Orada partiyalardan göstərilən namizədlər əvvəlcə öz partiya yoldaşları tərəfindən bir neçə kriteri üzrə seçilir. Daha bizdəki kimi partiya sədri barmağını uzadıb onu tərif edənləri seçmir. Sonra isə iki-üç əsas güclü partiyalar kompleks, bütün sahələri əhatə edən mükəmməl inkişaf planları ortaya qoyur, onu elmi cəhətdən əsaslandırır. Daha pafoslu, məntiqsiz, çığır-bağırla, dedi-qoduyla seçicilərin zəhlələrini tökmürlər. Nəysə, mükəmməl partiyalarımızın olmağına zaman lazımdı. Demokratiyanın ən çatışmayan cəhəti, reklama geniş şərait yaradıb, tülkünü aslan kimi beyinlərə soxmaqdır.

– Səncə, Leylanın millət vəkili olmağa haqqı var? - Nailə ciddi imtahan edirmiş kimi soruşdu.

–Bəli, var- Rüfət qətiyyətlə dedi.

– Anandı, ona görə? - Nailə bir də sual verdi.

– Xeyr, bunu deməyə əsasım var. Leyla öz biliyilə hüquqa daxil olub, qırmızı diplomla bitirib. Sizlərin təhsil almasında xidməti olub. Vəkil kimi peşəkarlaşıb. Həmişə qanunun və dövlətin yanında olub. Kasıb-kusubun haqqını rüşvətə satmayıb. Cəsarətlidi, zəhmətkeşdi. Seçilərsə, həmin dairədən, vətəndaşlara böyük köməkliyi dəyər, qanunların yazılmasında iştirak edər. Onun keçdiyi yol bunu deməyə əsas verir. Ancaq bütün bunları otuz-otuz beş min seçiciyə izah etmək, inandırmaq çətindi. Demokratiyadan üstün sistem olacaq. O

sistemdə insanların bilik, bacarıq və əqidəsi daha sürətlə və aydın şəkildə insanlara çatdırılacaq.

– Afərin, oğlum! Məni bu gün bir daha sevindirdin. Allah səni sevindirsin. Mən elə bilirdim ki, sən ancaq şahmat oynaya bilirsən. Demə, sən həm də siyasəti də bilirsən, - Leyla öz razılığını bildirdi, fərəhlə Rüfətə baxmağa başladı.

– Şahmatı oynaya bilən, oradakı müxtəlif potensiallı fiqurların yerdəyişməsi zamanı olunan kombinasiyaları görən, at sürməyi təxəyyülündə canlandıra bilənlər cəmiyyətdən prosesləri daha aydın görə və proqnazlaşdıra bilirlər - Rüfət dedi.

– Yaxşı, indi proqnazlaşdır görək, bu seçkinin sonu necə olacaq? - Zəhra Rüfətə sual etdi.

– Oyun başlamamışdan bitib! - Rüfət bunu deyib, güldü.

– Necə yəni? - Zəhra təəccüblə soruşdu:

– Yəni, bir tərəf çox güclüdü, digər tərəf isə heç fiqurların yerini düz düzməyib, atın yerinə fil, topun yerinə isə piyada qoyub - Rüfət dedi.

– Bəs, bitərəflər? - Sevda soruşdu.

... Rüfət bu dəfə uğundu gülməkdən. Ona təəccüblə baxan xalaları bilmədi nəyə gülür. Bayaqdan susub qulaq asan, heç bir söhbətə qoşulmayan, bir fikir bildirməyən Nəzrin Rüfətə tərs-tərs baxdı. O qədər hirsləndi ki, qulaqlarına qədər qızardı.

Leyla bunu dərhal hiss etdi. Qızının nəsə ciddi narahatçılıq keçirdiyini başa düşdü. Elə Rüfət də narahat idi. Sadəcə, özünü tox tutub, ələ alıb, söhbətə qoşulmuşdu. Həm də onun kişi xarakteri bu narahatçılığa üstün gələ bilmişdi. Leyla belə qənaətə gəldi ki, nəsə xoşagəlməz bir şey var və bunu həm Nəzrin, həm də Rüfət bilir. Əli də bilmir, çünki hələ işdən gəlməyib. Bu nə işdirsə, bu gün baş verib. Uşaqların dünənki halı tamam başqa cür, "pozitiv" idi. Elə Rüfətin bir az əsəbi, kəskin danışmağı, sonra birdən uğunaraq gülməsi də bunları deməyə əsas verirdi.

Rüfət gülüb qurtardıqdan sonra yaşarmış gözlərini paltarının qatı ilə silib dedi:

– Bitərəf, öz təşəbbüsü ilə seçkiyə qatılıb, udmaq istəyənlər toyda çadırın arxasında oynayan uşaqlara bənzəyirlər. Səs qəşəng eşidilir və onlar çox yaxşı oynadıqlarına inanırlar.

Onun bu sözlərinə xalaları güldülər. Leyla isə istehza ilə soruşdu:

– İndi deyirsən ki, mən çadırın dalında oynayıram?

– Bir neçə nəfər sənin kimilər var ki, çox sadəlövhsüz, elə bilirsiniz ki, sizin mahnını çalıb, oynamağa dəvət edəcəklər - Rüfət dedi. Leyla daha ona heç nə demədi, üzünü Nəzrinə tutub dedi:

– Nəzrin, sənə nə olub, niyə qanın qaradı?

Nəzrin dinmədi. Onun əvəzinə Rüfət cavab verdi:

– Sonra deyərik.

– Niyə sonra? Biz bacıların bir-birimizdən gizli sirrimiz yoxdur. İndi niyə demirsiniz, bəlkə, bizim köməyimiz, məsləhətimiz oldu, - Nailə bir az incik səslə dilləndi.

– Cavanların elə problemləri ola bilər ki, ancaq analarına deyərlər. Bəlkə heç bizə deməli deyil? - Sevda Rüfətin tərəfini tutdu.

Nəzrin titrək səslə dedi:

– Ana, bu gün zəng edib, bizi hədələdilər!

Onun bu sözlərindən sonra sükut çökdü. Bacılar çönüb, bir-birilərinə baxdılar. Onlar ilk anda heçnə başa düşmədilər.

Leyla məsələni o dəqiqə anladı. Əsəbdən əlləri əsməyə başladı. Bilirdi ki, ona düşmən kimi baxan, bir neçə dəfə təhdid edənlər əl çəkməyəcəklər, yeni hücumlar edəcəklər. Lakin onların bu cür çirkin hərəkət edəcəklərini, uşaqlarını hədələyəcəklərini heç cür ağlına gətirməzdi. Vəkillər kollegiyasındakı qrupdan özünə qarşı seçki prosesində təxribatlar gözləyirdi. Odur ki, hərəkətlərini və sözlərini diqqətdə saxlayırdı ki, onların əlinə fürsət verməsin. Onlar isə gözlənilməz cəbhədən, ən həssas nöqtədən hüquq işçisinə yaraşmayan metodla hücum etmişdilər.

– Kim hədələdi, nə dedi? - Yasəmən həyəcanlı və əsəbi səslə soruşdu.

– Ev telefonuna zəng gəldi, Nəzrin götürdü. Gördüm ki, qulaq asdıqca, rəngi dəyişir. Hiss etdim ki, həyəcanlanır. Odur ki, dəsətəyi ondan aldım...

– Hə, kim idi? Nə deyirdi? - Zəhranın səbri çatmadı, Rüfətin sözünü yarımçıq kəsdi. Rüfət davam etdi:

– Yoğun, cırıltılı kişi səsi idi. O dəqiqə hiss etdim ki, səsini tamam dəyişib. Onu eşidə bildim ki, deyir : "onu həbs edəcik". Mən : "Sən kimsən, kimi həbs edəcəksiz?"- sualı verdim, telefonu üzümə bağladı. Sonra Nəzrindən soruşdum sənə nə deyib? Məlum oldu ki, "Anana deyərsən Kİ, Hüquq Məsləhətxanası müdirliyindən və deputatlığa namizədliyindən imtina etsin. Yoxsa, sizin üçün pis olacaq".

– Doğurdan belə dedi? - Nailə Nəzrinin üzünə baxaraq, ondan soruşub dəqiqləşdirmək istədi.

Nəzrin başı ilə Rüfətin dediklərini təsdiqlədi. Sevda hirsli səslə dedi:

– Çox cılız cinayətkarlardır. Mütləq polisə xəbər vermək lazımdır ki, zəng edənin kimliyini müəyyənləşdirsin. Evə zəng edib, yeniyətmə uşağı qorxutmaq, hədələmək cinayətdi.

– Leyla, sən bilərsən kimdi bunlar? - Zəhra soruşdu.

Leyla onun gözlərinin içinə baxaraq, istehza ilə dedi:

– Kim olacaq? Sənin "dostların".

– Anlamadım, necə yəni, mənim dostlarım? - Zəhra çiyinlərini çəkib, çönüb sağ tərəfində oturan bacısı Sevdaya baxdı.

– Vəkillər kollegiyasında müdir seçildiyim üçün mənə düşmən kəsilən bir qrup vardır. Onların işidi. Kimlərəsə pul verib, bu işi tutublar - Leyla dedi.

– Bəlkə, seçkiyə görədi? Axı, deyib seçkilərdə namizədliyini geri götürsün? - Həlimə dedi.

– Məncə, onlar iz azdırmaq üçün seçkini də ora qatıblar. Bu seçkidə at izi it izinə qarışıb. Elə dairə var 8-10 nəfər namizədliyini verib. Guya ki, Leyla namizədliyini geri götürsə nə olacaq? - Zəhra dedi.

– Hə, Zəhra düz deyir. Əsas məqsəd məni Hüquq Məsləhətxanası müdirliyindən uzaqlaşdırıb, öz istədikləri adamı təyin etməkdi - Leyla dedi.

– Axı, siz qanunla iclas edib, özünüzə müdir seçmisiniz. Ora təyinat olmur ki... Niyə səni istəmirlər ki? Sən də özünü elə apar ki, onlarla yola gedən, öz adamları kimi görsən, - Sevda dilləndi.

– Leyla kinayə ilə güldü və dedi:

– Sevda, bir insan həm qanunun, dövlətin, həm də qruplaşmanın öz mənafeləri üçün qanunsuzluqları edənlərin adamları ola bilməz. Onlar istəyirlər ki, öz adamalarını təyin etsinlər. Vəkillərin qonararlarını mənimsəsinlər, onlara işlər tapşırıb, cinayətkarları qanundan xilas edib, onlardan rüşvət alsınlar. Hüquq Məsləhətxanasının yerləşdiyi binanı özəlləşdirib, satsınlar...

– Belə çıxır ki, bunların həyat və yaşam fəlsəfəsi satqınlıq üzərində qurulub. Ticarət edirlər, əllərindəki maya da vicdanları, mənlikləridir. Əmtəələri isə qanunlar və dövlət əmlakıdır. Əslində, bu qurum tacirlərinin malı, mülkü, pulları nə qədər olsa da, nəinki vəzir, heç at, fil də ola bilmirlər. Ömürləri boyu piyada mahiyyətli olurlar. Piyada mahiyyətli insanlar həyat oyununun əvvəlindən öz cərgələrində düzülürlər, - Rüfət dedi.

– Rüfət, sənin bu sözlərin tarixə yazılacaq sözlərdi, - Nəzrin dedi və gülümsədi. Qardaşının sözləri xoşuna gəlmişdi. Həm də nədənsə, bu sözlərdən qardaşında güc, onu hədələyən şəxsdə zəiflik hiss etdi. Bayaqdan qaş-qabaqlı, həyəcanlı olan Nəzrin qardaşının qətiyyətlə və məntiqlə dediyi sözlərdən şüuraltı olaraq, təhlükənin önündə güvəncli nələrinsə olduğuna inandı. Bu güvən onların piyada olmasından, qanunların isə gücündən irəli gəlirdi.

– Afərin, Rüfət, hələ heç kim rüşvətxor, qanunpozan hüquq işçilərinin bu cür tərifini verməmişdir, - Zəhra dedi və sonra üzünü Leylaya tutaraq, soruşdu:

– Yaxşı, o qrupun üzvlərini tanıyırsansa, niyə rəhbərliyinizə demirsən? Daha yuxarı təşkilatlara müraciət etmirsən?

– Bilirsiz, mən heç evdə də deməmişəm. Bunlar iki aydı məni hədələyir, təhdid edirlər. Ancaq mən onlara sözümü demişəm. Siz də, dostlarım da bilir ki, mənim üçün iki rəng var: ağ və qara! Qorxduğum isə Allah və qanundu. Bilirlər ki, mən öz yolumdan dönmərəm, qanunsuz işlərə və onlara ağ demərəm... İndi görürlər ki, məni qorxuda bilmədilər, uşaqlarıma hədə-qorxu gəlirlər - Leyla dedi.

– Zəhra düz deyir, rəhbərliyə niyə demirsən? - Yasəmən bu sualı təkrar verdi.

– Əşşi, desə nə xeyri olacaq ki? Elə rəhbərliyin öz adamları, bəlkə də özləridi. Ola bilməz ki, xəbərləri olmasın ,- Həlimə dedi.

– Mən heç kimə heç nə deməyəcəm, xahiş etməyəcəm. Qoy, nə bilirlər, etsinlər. Heç kimdən qorxumuz yoxdu. Düzdü, Nəzrin? - Leyla Nəzrinə tərəf baxdı. O, başını yırğalamaqla anasının dediklərini təsdiqlədi.

– Söhbət qorxmaqdan getmir, polisə müraciət etmək lazımdı. Fakt budur ki, evə zəng edib, uşaqlara hədə-qorxu gəlirlər. Bu cinayətdi - Sevda dilləndi.

– Bilirsiz, məncə, bunun mənası olmayacaq. Xəstəliyin özünü müalicə etmək lazımdı. Ağrıkəsicilər sadəcə, bir az müddətə ağrını kəsib, sakitləşdirə bilərlər. Sonra xəstəlik yenə özünü göstərəcək. Zəng edən buyruq quludu. Yasəmən bunları deyib, Nəzrinə baxdı və ona xitabən soruşdu:

– Qızımı çox qorxudublar deyəsən?

– Elə onların da məqsədi odur ki, mən polisə müraciət edim. Başım qarışsın, seçkilərdən diqqətim yayınsın. Ancaq mən bunu etməyəcəm. Tutduğum yolu gedəcəm (,) - Leyla dedi.

– Çox inadkarsan, - Həlimə Leylaya dedi.

– Hə, özü də lap çox! Mən düz bildiyim yolda cəsarətli və inadkaram. Belə olmasaydı, indi Abdulla həbsdə idi, uşaqları atasız, arvadı ərsiziydi. Siz isə kənddə bağ-bostan becərirdiz - Leyla bunu deyib, güldü.

... O, heç vaxt bacılarının yolunda çəkdiyi əziyyəti dilə gətirməmişdi. Heç bu barədə eyham da vurmamışdı. İndi necə oldusa fikirləri qarışdı. Bəlkə də şüuraltı olaraq özünü müdafiə etmək instinkti bunu elə bacılarından başlamağa səbəb olmuşdu. Bacılar da onun eyhamını üzə vurmadılar. Ümumiyyətlə, bu bacıların əsas güc mənbələrindən biri də bir-birlərinə güzəştə getmək bacarığı idi. Söz güləşdirmək, səhv və ya hər hansı hərəkəti çox təhlil etməzdilər. Bir sözlə, "palan içi sökmək", dedi-qodu yaratmaqdan uzaq idilər. Təkcə bir-birilərinə qarşı yox, iş yerlərində, qohum-əqrəba ilə və ailədə də belə idilər. Əksinə, imkan varsa, kömək və yaxşılıq etmək, onların

ümumi qaydaları idi. Əgər şirin bir alma tapardılarsa, digər bacılarına verməyə tələsirdilər.

– Bilirsən Leyla, mən bir həkim kimi deyə bilərəm ki, bütün hisslərin və xarakterlərin yüksək dərəcələri insanda xəstəliklər yaradırlar. Məsələn, həddən artıq paxıl insan, şiddətli paxıllıq etdikdən sonra mədəsində yara əmələ gəlir. İkincisi, inad həyatın müəyyən mərhələlərində və bəzi işlərdə xeyir verə bilər, amma hər zaman, hər işdə xeyir verməz... - Nailə dedi.

– İndi nə deyirsiniz? Mən müdirlikdən öz ərizəmlə çıxım? Seçkilərdə namizədliyimi geri götürüm? Bununla da əqidəmə, yoldaşlarıma xəyanət edim? Arzularımın üstündən xətt çəkim?

Bu zaman qapının zəngi çalındı. Leylanın sözü yarımçıq qaldı. Rüfət qapını açdı, Əli idi gələn. O, qonaq otağına keçib, salam verdi, qonaqlara "xoş gəlmisiniz!", dedi. Əli çox dilxor idi, rəngi qaralmışdı. Bunu hər kəs dərhal hiss etdi. Nailə hamıdan qabaq soruşdu:

– Əli, nəsə gözümə birtəhər dəyirsən. Bir problem var?

Əli masanın ətrafındakı stullardan birini çəkib, əyləşdi. Qalstkunun boynunu dartıb genəltdi, dərindən nəfəs alıb dedi:

– Hə, Nailə, olub.

– Nə baş verib, de görək, lap ürəyimizi üzdün.

– Məni işdən çıxartdılar... - Əli təəsüflə bunu deyib, dərindən köks ötürdü.

* * *

Bir həftə sonra Leylanın özünü də Vəkillər Kollegiyasının üzvlüyündən çıxartdılar. Daha o nəinki hüquq məsləhətxanasının müdiri, heç vəkil də deyildi. Prosedur qaydalarını pozub, onun yerinə müdir təyin etdilər. Təyin edilən yeni müdir kollegiyadakı qrupun öz adamı idi. Ondan xeyli rüşvət alıb, bu yerə təyin etdilər. Orada bir neçə il müdir işləyəndən sonra yığdığı pulu alıb, hakim təyin etdirdilər. Leylanın yerinə təyin edilən bu şəxs, vəzifəyə pul qazanmaq üçün baxan, pul yığıb rüşvət verib, daha yüksək işə girən, vəzifə nərdivanlarını gəzən " parazitlər"dən idi...

Leyla özünü və uşaqlarını hədələmələrinə, yoldaşı Əlinin işdən çıxarılmağına, Vəkillər Kollegiyasından uzaqlaşdırılmağına baxmayaraq, ruhdan düşmədi. Seçki kompaniyasını daha inamla davam

etdirdi, seçicilərlə çoxlu görüşlər keçirtdi. Şəxsən mənzillərə getdi, qapı-qapı gəzib, seçicilərin problemlərilə maraqlandı. Eyni zamanda, Vəkillər Kollegiyasını məhkəməyə verdi. Qəribədir ki, onlar Leyladan öncə onu məhkəməyə vermiş, özbaşına iclas keçirib, müdir seçilməyinin qanunsuz olduğunu iddia etmişlər. Məhkəmədə ona yalnız 4-5 həmkarı dəstək olmuşdu.

Vaxtilə Leylanı bəh-bəhlə müdir seçənlərin çoxu indi təyin olunan yeni müdiri yalançı təbəssümlə qarşılamışdılar. Onun xoşuna gəlmək üçün əldən-ayaqdan getmişdilər və Leyladan uzaq gəzməyə başlamışdılar ki, birdən yeni müdirin xoşuna gəlməz, acığı tutar. Bu tip insanlar qrupunu çiçəklərə fərq qoymadan bu güldən o birinə qonan kəpənəklərə və ya dəyişkən xüsusiyyətli, gah metal, gah da qeyri metal kimi görsənən amfoterlərə bənzətmək olar. Bu amfoterlər cəmiyyətin inkişafını sağa-sola yırğalayan amillərdi.

Ancaq Leyla ona edilən təzyiqlərin, pisliklərin, dəyən zərbələrin önündə mətinliklə dayananda, çoxlu səbəblərdən biri kimi də amfoter olduğunu bilmədiyi, yoldaşlarının mənafeyini düşünmüş, onların gözündən düşəcəyini göz önünə gətirib, buna razı olmamışdı.

Məhkəmə Leylanın əleyhinə qərar çıxardı. Leyla apellyasiya məhkəməsinə müraciət etdi. Ona qarşı çıxan qrup, düşmənçiliyi daha da dərinləşdirdi. Hansısa yolla Rüfəti şahmat milli komandasının üzvlüyündən çıxara bildilər. Bu, Rüfətə çox pis etdi, ruhdan düşdü.

Leyla yenə də sınmadı, geri çəkilmədi, məğlub olmadı. Seçki prosesini daha uğurlu aparmağa çalışdı. Ancaq bütün olanlar seçicilər arasında ildırım sürətilə yayıldı. Eyni zamanda, qarşı tərəf seçicilər arasında əks - təbliğat aparıb, onu gözdən salmağa başladılar. Leylaya eyni dairədən namizəd olan rəqibləri də, onların yaxın tərəfdarları da, baş verənlərdən istifadə edib, ən şanslı olanı sıradan çıxartmaq istədilər.

Görüşlərin birində iki nəfər təxribatçı qadın yığıncağı pozmaq istədi. Nə vaxtsa Leylanı vəkil tutduqlarını, ona çoxlu pul verdiklərini, lakin işlərinə laqeyd yanaşıb və qarşı tərəfdən də rüşvət aldığını, əleyhlərinə qərar çıxarmasına səbəb olduğunu dedilər. Bu mübahisəli qarşıdurma zamanı, namizəd kimi toxunulmazlığı ola-ola polis Ley-

layla kobud davrandı. İçlərindən bir yekəpəri onu itələdi, hətta həbs etməyə cəhd göstərdi. Təxribatçı qadınları Orxan Salmanzadə, yekəpər polisi isə kollegiyadakı qrup öyrətmişdi. Leyla bunu sonradan öyrənmişdi.

Seçkinin keçirilməsinə sayılı günlər qalmış, Leylaya qarşı daha çirkin, cinayət tərkibli hərəkət etdilər. Leyla gecə evə qayıdanda onun avtomobilini qəfil peyda olan ağ rəngli bir ciplə vurdular. Hadisə yerindən qaçan o cipi sonra tapa bilmədilər. Elə bil əppəy olub, göyə uçmuşdu.

Leylanın maşınını vurdurmaq sifarişi verənlər o qədər özlərinə arxayın idilər ki, bu hadisənin seçkiyə, onun demokratikliyinə kölgə sala biləcəyini heç veclərinə qoymamışdılar. Bunların yeganə məqsədi Leylaya mənəvi, fiziki xəsarət yetirib, seçkidən uzaqlaşdırmaq və apellyasiya şikayətini geri götürməyə məcbur etmək idi. Hər cür qanunsuzluqlar edənlər yeri düşəndə özlərini iqtidarın alovlu tərəfdarı göstərsələr də vəzifə, pul üçün əqidələrinə xəyanət edərlər.

Bütün baş verən hadisələr seçkinin nəticələrinə çox böyük təsir etdi. Leyla millət vəkili seçilmədi və məhz bu zaman özündə ruh düşkünlüyünü hiss etdi. Ona mənəvi zərbə, ruhunu sındıran, insanların inamını qazana bilməməsi oldu. Leylanın əqidəsinin, xəyallarının, arzularının mərkəzində insanlara xidmət, kömək göstərmək və bunların qiyməti kimi onlarda özünə qarşı inam, hörmət, məhəbbət görmək idi. Ona elə gəldi ki, seçkidə məhz bu ülvi aləmi qazana bilmədi...

Leyla on beş il sonra yenidən parlament seçkilərinə qatıldı. Millət vəkili seçilib, arzularına sahib çıxmağa, xəyallarını gerçəkləşdirməyə çalışdı. Cənub rayonlarından birindən namizədliyini verdi. Çox zəhmət çəkdi, mənən qələbə çaldı, seçicilərin inamını, məhəbbətini qazana bildi. Bu dəfə də seçilmədi. Lakin xəyalındakı ülvi aləmi hiss edib yaşadı, özünə inamını bərpa etdi.

Apellyasiya məhkəməsi də Leylanın əleyhinə qərar çıxardı. O, bu qərardan razı olmadı və Ali məhkəməyə müraciət etdi.

Ali Məhkəmədə onun işinə baxacaq hakimlərin kimliyini biləndə çox sevindi, gözlərinə elə bil işıq gəldi. Düşündü ki, hər bir tə-

nəzzülün dayanma, yenidən zirvəyə qalxma nöqtəsi də varmış. Daima enişə getmək olmaz. Yollar sonsuza qədər dərəyə enməzmiş.

İndi Leylanın ən böyük arzusu Ali Məhkəmədə qalib gəlib, doğru yolda olduğunu, qanunu pozmadığını sübut etmək idi. Onu nəinki hüquq məsləhətxanası müdiri vəzifəsi, artıq heç vəkillik də maraqlandırmırdı. Bu saat yalnız qanunun aliliyini sübut etmək, düşüncə və hərəkətlərinin doğru olduğunu göstərmək, ona hər cür pisliklər edənlərə mənən qalib gəlmək istəyirdi.

Bəzən olur ki, həyatda insan çoxlu çətinliklərdən sonra yolun başlanğıcındakı məqsədi üçün deyil, ona çətinlik yaradan səbəblər üçün mübarizə aparmağa başlayır. İndi Leyla ancaq qanun və həqiqət uğrunda mübarizə aparırdı və qaranlıq, soyuq, yağışlı bataqlıqda tanıdığı yaxın adamlar görən insan kimi sevinirdi. Etdiyi yaxşılıqların gülümsəyərək ona tərəf gəldiyini düşünür, bundan bəzən kövrəlirdi. Həyatdakı hadisələrin bir az vaxtdan sonra qayıdıb, yenidən özünə tərəf gəlməyinə inanırdı. Bəlkədə belə olmasaydı, hadisələr arasında əlaqənin pozulduğuna, mənanın itəcəyinə inanardı.

Leylanın ümidlərinə çıraq yandıran Ali Məhkəmədə onun işinə baxan hakimlərin beş il bir partada oturduğu Asəf və bir qrup yuxarı oxuyan dostu Qənbərin olması idi. Elə bil həyat öz növbəti gizli gedişlərindən birini etmiş, məqsədli şəkildə onları seçib, köməyə gətirmişdi.

Keçən günləri, tələbəlik dövrünü xatırladı. Asəf universiteti bitirənədək onunla bir partada əyləşmişdi. O, Asəfə imtahanlarda çox köməkliklər etmişdi. Eyni zamanda, həmişə tərəfini tutmuş, onu qrupda nüfuzdan düşməyə qoymamışdı. Qənbərin isə yay imtahanlarından "psixologiya" fənnindən kəsirini düzəltməyinə kömək etmişdi. Bunun üçün dekan müavinindən xahiş etmişdi. O isə nəsə "hörmət" etməyin lazım olduğunu demişdi. Leyla bu "hörmətin" kimə çatacağını soruşmamış, özü əlli manat vermişdi. Qənbərə isə bu barədə heç nə deməmişdi ki, birdən ağlına başqa şey gələr.

Ali Məhkəmə də Leylanın əleyhinə qərar çıxarsaydı, onu birdəfəlik vəkillikdən məhrum edəcəkdilər. Bu, Leyla üçün mənəvi zərbənin ən güclüsü olacaqdı.

Belə də oldu. Leylanın güvəndiyi dağlara sən demə, çoxdan qar yağmışdı. Onun inandığı, arxalandığı tələbə yoldaşları sıldırımdan asılı qalmış, arzu və xəyallarını gücdən düşməkdə olan iradə əllərindən tutub, xilas etmədilər. Əksinə, bu əlləri keşmişin xatirələri, hörməti, Leylanın etdikləri yaxşılıqlarla birlikdə tapdalayıb, uçuruma yuvarladılar.

Yaxşılıqlar toxum kimi bir şeydir. Həmişə cücərmirlər. Bu həmişə bağbandan asılı deyil. Çox vaxt toxumun keyfiyyətindən də asılı deyil. Bu həm də yaxşılıq edilən şəxsdən, toxumun basdırıldığı torpaqdan asılıdır. Xain, qorxaq, paxıl qəlbli insanlar gilli rütubətli və ya qumlu, quru torpaqlar kimidirlər. Onlara basdırılan toxumlar ya sudan çürüyür, ya da quraqlıqdan quruyurlar. Asəflə Qənbər də elə çıxdılar.

Məhkəmədə Leylanın düşündükləri və zənn etdiklərinin əksi oldu. Asəflə Qənbər Leylanın gətirdikləri qanuni sübutları qanunsuz rədd etdilər. Onun vəkillər kollegiyasını üzvlüyündən kənarlaşdırılmasına qərar çıxartdılar.

Burada həyatın iki obrazı özünü göstərirdi. Biri sırtıq, insanı incidib, sonra ordan-burdan boylanıb baxan tülkü baxışlı formada idi. Bu insanda son məqamda öz inandıqları tərəfindən vurulan zərbədir ki, Asəflə Qənbər qorxudan, cəsarətsizlikdən tapşırıq əsasında bu zərbəni vurdular. İkinci isə soyuqqanlı, güzəştsiz, gözlənilməz zaman və məkanda peyda olan amansız qatilə bənzəyirdilər. Burada da Asəflə Qənbər Leylanı tanıdıqları halda, onun arzularını, xəyallarını, əldə etdiyi nailiyyətləri soyuqqanlılıqla məhv edəcək qatil - amansız dəyər qatilləri rolunda idilər.

Doğurdan da, sirli bir müamma idi ki, dörd il kran sürücüsü işləyən, inadla mübarizə aparıb, hüquq fakültəsinə daxil olan, suxarı yeyə-yeyə oxuyan, qırmızı diplomla universitet bitirən, həmişə kasıbı, haqqı, ədalətli, dövləti müdafiə edən vəkili, heç bir günahı olmadığı halda yaxşılıq etdiyi tələbə yoldaşları, kollegiyadan kənarlaşdırırdı. Bu həyatın sirli at gedişi idi ki, iradə, imkan tapıb, heç qalaqurma da edə bilmirdi.

Yaxın adamların vurduqları zərbələr o qədər gözlənilməz, qəfil olur ki, insan heç imkan tapıb, özünü müdafiə edə bilmir. Həm də

vurulan zərbə ilə yanaşı, onun mənəvi tərəfi daha çox təsir edirdi. İndi də elə oldu, bəlkə də hakimlər başqa insanlar olsaydı, Leyla özünü daha yaxşı müdafiə edərdi. Və həm də onun vəkillik fəaliyyətinə son qoyan Ali Məhkəmənin bu qərarı bu qədər mənəvi iztirablar verməzdi.

Respublika Apellyasiya Məhkəməsində Leylanın işinə İlqar adlı tanımadığı, ağsaqqal bir hakim baxırdı. O, işlə tanış olduqdan sonra vicdanının səsilə hərəkət etmiş, Leylaya zəng vuraraq, "Qızım, siz heç narahat olmayın, qanun sizin tərəfinizdədir" demişdi. Lakin məhkəməyə bir neçə gün qalmış Leylanı çağıraraq, ona demişdi ki, "Əziz qızım, mənə çox güclü təzyiq edirlər ki, sizin əleyhinizə qərar çıxardım. Ancaq mənim insan və peşə vicdanım, qanunlara hörmətim buna yol verməz. Odur ki, özüm-özümə etiraz edib, bu işdən imtina etdim. Acizliyimə görə səndən və özümdən üzr istəyirəm. Məni bağışla", demişdi.

İndi Ali Məhkəmənin hakimləri Asəflə Qənbər də bunu edə bilərdilər. Ən azınd(,an Leylanın onların qrup yoldaşları olduğunu əsas gətirib, özləri özlərinə etiraz edər, qanunsuz qərar çıxardıb, onu vəkillikdən uzaqlaşdırmazdılar. Bunun üçün sadəcə (,) az bir miqdar cəsarət, peşəyə və qanunlara hörmət, öz keçmişinə dəyər vermək lazım idi. Onlar bunu etmədilər. Bəlkə də, şüuraltı olaraq həmişə onlardan zəkasıyla, intellekti və universitetdə hörmətilə seçilən, aciz vaxtlarında kömək edən "arıq, çəlimsiz, qarayanız qız"dan heyif çıxmaq istəmişdilər. Bəzən olur ki, çox yaxşılıq edilən şəxs bunun əvəzini pisliklə çıxır. Bu o zaman baş verir ki, o şəxsin yaxşılıq edərək əvəz çıxma potensialı heç vaxt olmur. Yaxşılıq etmək acizliyindən əziyyət çəkir. Cəsarətsiz insanlar yaxşılıq qabiliyyətindən sonsuzdurlar, məhrumdurlar və onlar üçün yaxşılığın əvəzini pisliklə çıxmaq yeganə aciz yoldur. Bu yolu getmək isə özlərinin də anlamayacağı, səbəblərini bilmədiyi zərurətdir.

İkinci bir məsələ ondan ibarətdir ki, yuxarıdan gələn tapşırıq, hədə, işini itirmək qorxusu və təklif olunan rüşvətin qarşısında əyilməmək üçün daxilən bütöv, güclü olmalısan. İnsanın içindəki "MƏNİN" böyüklüyü hər şeyi ifadə və müəyyən edir. Onun davranış və

hərəkətlərinə o "MƏNİN" təsiri böyükdür. Asəflə Qənbərin "MƏNİ" Leylanın əleyhinə qanunsuz hökm oxumuşdular.

Məhkəmədə sonda Leylanın sözü belə olmuşdu. O, üzünü Asəfə tutaraq demişdi:

– Tələbə yoldaşların səni o vaxtlar ona görə ələ salardılar ki, özlərinə xas xüsusiyyətləri səndə görmürdülər. İndi məlumdu ki, onlar haqlı imişlər. Əslində, səni, tələbə yoldaşların yox, həyat ələ salırdı. Bu həyat amansız və soyuqqanlı olmaqla yanaşı, həm də mənəvi qüsurlu insanları tez tanıyır, onlarla sirk ustasının oyunlarını göstərir. Həmişə də arenanın mərkəzində, hamının görə biləcəyi yerdə saxlayır. Sənə ömrümün axırına qədər öndə olmağı arzulayıram.

Asəf onun bu sözlərinin yarısını ağlından, yarısını isə qürurunun süzgəcindən keçirib, qızarmış, susmuşdu. Sonra Leyla üzünü Qənbərə tutub demişdi:

– Yadındadır, sənə tələbəlik vaxtı "adətən, qeybətçil qızlar söz aparıb-gətirər", -demişdim?

Leyla bunula bir neçə gün əvvəl Qənbərin göndərdiyi xəbərə işarə etmişdi. O, Leylaya özünün "hər şeyi etiraf etməyini" məsləhət görmüşdü. Leyla bilirdi ki, bu, Qənbərin öz sözü deyil, yenə də sifariş yerinə yetirir, söz aparıb-gətirir. Ona heç bir cavab verməmişdi. Saxlamışdı ki, sözünü məhkəmədə desin.

Qənbər gözlərini döyə-döyə ona baxırdı. Leyla davam edərək, demişdi:

– Biz hamımız kənddə böyümüşük. Görmüşük ki, sərçə balası böyüyür, ancaq ley olmur, iri və yaşlı sərçə olur. Sən də böyüdün, yaşlandın, həyatın sənə verdiyi söz aparıb-gətirmək rolundan çıxa bilmədin. İndi sadəcə, daha böyüklərin, "böyük söz"lərini aparıb-gətirirsən. Ola bilər ki, sabah bir az da iriləşəcəksən. Ancaq həyatın sənin mənəvi boyuna biçdiyi dondan çıxa bilməyəcəksən. Sənə böyüməyi arzu edirəm.

Leylanın bu sözlərindən Qənbərin qulağındakı tələbəlik dövründən qalmış qızarma nöqtəsi fəallaşmağa başlamış, yaxın ərazilər, üz-göz, sonra isə boynu qırazmırşdı. O da söz deyə bilməmiş, qızarmış susqunluqla Leylaya baxmışdı.

Leyla daha heç nə demədən, məhkəmə zalını tərk edib, getmişdi.

... Hər bir insanın çətin, qeyri-bərabər mübarizə dövründə ona ətraf aləmdən müsbət və ya mənfi amillər təsir edir. Məsələn, meşədə azan insan üçün duman gəlməsi, gecə düşməsi, yağış yağması əlavə, bəzən isə həlledici təsir göstərir. Dənizdə batmaqda olan insana vəhşi balıqların hücumu və ya önünə xilas olmağa ehtimal yaradan taxta parçasının çıxması onun həqiqətlə mübarizəsində çox əhəmiyyətli amillərdir. Leylaya da parlament seçkilərindəki mübarizəsində ətraf mühitdən çoxlu güclü təsirlər oldu. Kolleqiyadakı qrupun, Orxan Salmanzadənin, namizədlər arasındakı rəqiblərinin təsirləri vəhşi balıqların hücumuna bənzəyirdi. Uşaqlarını hədələdilər, yoldaşını işdən çıxardılar. Oğlunu şahmat millisindən, özünü Vəkillər Kolleqiyasından uzaqlaşdırdılar. Ancaq əsl gecə zülməti, soyuq duman və leysan yağış seçki kompaniyasına həlledici vaxtlar başlayan dövrdə gəldi. Leyla və bacıları atalarını itirdilər.

Sentyabrın 20-si idi. Övladları üçün qardaş, dost, sirdaş və hər şeydən əvvəl əvəzedilməz ata olan Oktay, böyük əziyyətlərlə böyüdüb boya-başa çatdırdığı, qızlarının bəhrəsini görmək vaxtı yetişdiyi bir anda həyata ömürlük gözlərini yumdu. Elə bil, o zəhmət çəkib, yeddi qızı böyütmək, oxutmaq missiyası üçün yaradılmışdı. Və ona bu çəkdiyi zəhmətlərin nəticəsində qızlarının qazancından maddi imkanları düzələn zaman bəhrəsindən yemək yazılmamışdı. Bəlkə də, onun cismindən əvvəl yaranan ruhu buna razı olmamışdı.

... Oktayla Səriyyə iki il idi ki, payızda Bakıya gəlirdilər. Qızlarını, nəvələrini ziyarət edib, bir neçə həftə burada qalırdılar. Bu il də Bakıya gəlməyə hazırlaşırdılar. Oktay gündüz gedib, bütün qohum - əqrəba, dost-tanışla görüşmüşdü ki, sabah Bakıya gedəcək. Bu dəfə daha çox qalmaq, hətta qışı Bakıda keçirməyi planlayırdılar. Ancaq həyat yenə sirli gedişlərini etdi, imkan vermədi.

Gecə saat ikinin yarısı olardı. Səriyyə Oktayın yuxudan ayılıb, yerindən qalxdığını gördü, təəccüblə dedi:

– A kişi, nə oldu? Niyə qalxdın? Qızlarının, nəvələrinin yanına çox tələsirsən, sabahı gözləməyə hövsələn çatmır? Yuxun gəlmir?

– Yox, Səriyyə, yaman çox tərləmişəm - Oktay halsız cavab verdi. Səriyyə baxıb gördü ki, onun bədəni, alt paltarı tərdən islanıb. Ona təzə paltarlar verdi. Sonra paltarları çıxarıb apardı ki, bayırda ipdən assın. Öz-özünü, qızlarını ürəyində danlamağa başladı ki, nahaq yerə Əlinin işdən çıxarıldığını, Leylanın da vəkillər kollegiyasından uzaqlaşdırıldığını ona deyiblər. Oktay soyuqqanlı, ağır təbiətli bir insan olsa da, qızlarına qarşı çox həssas idi. Hələ dünən də qızlarından hansısa Rüfətin də şahmat komandasından çıxarıldığını demişdi.

Səriyyə evə qayıdanda Oktay həyata gözünü birdəfəlik yummuşdu.

Oktayın qızlarının hamısı Bakıda idi. Səriyyə Leylaya zəng edib titrək səslə, ağlaya-ağlaya dedi:

– Nə yatmısınız, atanız artıq yoxdu.

Leyla üçün bu kəlməni, anasının səs tonunu duymaq qədər acı bir şey ola bilməzdi. O, elə bilirdi ki, atası əbədi yaşayacaq. Ən azı, onun özü həyatda olduğu qədər. Atasının ölüm xəbəri onu sümüyünəcən göynətdi. Elə zənn etdi ki, bundan sonra arxa söykənəcək dağını itirdi, tənha və kimsəsiz səhralarda, ucsuz-bucaqsız dənizlərdə qaldı. Elə o vaxtdan "20" rəqəmi Leyla üçün kədər simvolu kimi qaldı. "20 yanvar", "20 noyabr", indi də "20 sentyabr".

Səriyyə isə dünyasını dəyişənə kimi Oktayın yoxluğunu qəbul edə bilmədi. Qalan ömrünü onun xəyalıyla, mənəvi qaranlıqla, soyuqluqda keçirdi.

Leyla və bacıları bir saat ərzində hava limanına gəldilər. Saat dördün yarısı idi. Tezdən birinci reysə bilet tapmaq çox çətin idi. Bu vaxtlar Bakıdan Naxçıvana çox sərnişin gedirdi. Neçə illər idi ki, Naxçıvan camaatı Bakıya gedib-gəlmək üçün çox əziyyətlər çəkirdi. Yaxınlarının dəfninə belə çatıb, iştirak edə bilmirdilər.

Güclə 3 bilet ala bildilər. Digərlərinə bilet tapılmırdı. Yenə də burada Naxçıvanlılar öz mərdanəliklərini göstərdilər. Bacıların ağladıqlarını, kədərlərini görüb bir neçə nəfər öz biletlərini onlara satdılar.

Bacılar kəndə çatanda saat on birin yarısı olardı. Həyətlərində xeyli insan yığışmışdı. Onların çoxunu tanımırdılar, qonşu kəndlərdən idilər.

Yaxın insanların, ailə üzvlərinin dünyasını dəyişməsi hadisəsi uzaqda yaşayanlara daha çox və sarsıdıcı mərhələlərdə təsir edir.

Əvvəl bu xəbərin şokunu yaşayırlar. Burada xəbər verənin səsi, söylədiyi sözlər ömürlük yadda qalır. Sonrakı mərhələ sən özün bu xəbəri digər yaxın insanlara vermək məcburiyyətində qalırsan, onların verdikləri reaksiyalar da heç vaxt yaddan çıxmır. Naxçıvanlılar üçün daha bir çətin məqam vardır ki, dəfnə və yasa gedəcək yaxın adamlar hava limanında yığışırlar. Bəzən, bilet olmur, bilmirlər ağlasınlar ya bilet tapsınlar. Hər bir reysə bilet əvvəldən satılır. Yası düşən şəxs isə təcili, indi getməlidir. Reysə xüsusi hallar üçün nəzərdə tutulan az sayda bilet olur. Ya da çox az ehtimalla qeydiyyata qədər hansısa səbəbdən getməyi təxirə salıb, bilet qaytaranlar olur. Bir sözlə, uzun illərdir ki, Naxçıvanlılar Bakıdan Naxçıvana və əks istiqamətdə dəfn, yas mərasimlərinə belə çətinliklə gedib gəlirlər. Bunun əsas səbəbi də Ermənistanın Naxçıvanı blokadada saxlayaraq, bütün quru yolları bağlaması olmuşdu.

Ən azı, beş-altı saat yollarda olan, yuxusuz, yorğun insanın ikinci böyük sarsıdıcı anı həmişə sakit gördüyü həyətlərində çoxlu toplanmış insanların olduğunu görməsidi. Bəlkə də, bu ana qədər hadisənin doğru olmadığı, yanlış xəbər olduğuna cüzi də olsa inam vardısa, bu inam da ölür. Həyətə daxil olmaq, toplanan insanların baxışlarının altında ailə üzvlərinlə qarşılaşmaq xüsusi auralı gərgin anlar yaşadır.

Nəhayət, ən sarsıdıcı, nəinki ömrü boyu, hər gün hər çiçəyə, ota, dağa, ağac yarpağına baxanda, musiqi eşidəndə, toyda, bayramda, sevincli, kədərli gündə yadından çıxmayacaq an gəlir. Ən yaxın insanın ortaya qoyulub, üzü örtülüb, ətrafında ağlaşırlar.

Qadınlar bacıları gücnən Oktayın nəşindən ayırdılar. Onlar nə kənara çəkilir, nə də ağlamaqlarını kəsirdilər.

Oktayın dəfn mərasimində kənddə görünməmiş sayda insan iştirak edirdi. Öz aralarında "yaxşı insan idi, Allah rəhmət eləsin!" deyirdilər. El-obanın verdiyi və sonralar da daima qalacaq bu qiyməti almaq üçün bir ömür elə yaxşı insan kimi yaşamaq lazım idi.

Bacılar atalarının yasını ləyaqətlə, hörmətlə, yeddi qız deyil, yeddi oğul kimi verib, Bakıya qayıtdılar. Qırx gün, hər həftənin üçüncü günü Naxçıvana gedib, sabahkı gün cümə axşamında iştirak edib, gecə reysilə Bakıya döndülər. Bir il toya, xeyir işə getmədilər, ağarmış saçlarına xına qoymadılar. Bayram, ad günləri keçirmədilər. Elimizin bu adətlərinə bəzi guya iyirmi birinci əsrdə yaşayanlar hərdən mənasız baxırlar. Ancaq bir şey vardır ki, insanlar, el-obalar, xalqlar hərəsi yası, kədəri, bayramı bir cür rəmzi mənalarla qeyd edir, öz daxili hisslərini bildirirlər. Naxçıvanda və Azərbaycanın əksər yerlərində yaxın insanı rəhmətə gedəndə kişilər qırx gün üzünü qırxmır, qadınlar isə saçlarına xına qoymurlar. Yaslı olduqlarını, hisslərini belə ifadə edirlər. On illərin adətlərinə hörmətlə yanaşmaq insanların borcudur.

Leyla seçkinin təbliğat-təşviqat dövrünün ən qızğın vaxtlarını, seçicilərlə görüşü, televiziyada çıxışlarını elə məhz bu cür daxili sarsıntılar, atasız günlər, onların iztirabları ilə keçirmişdi.

Hətta, rəqibləri onun namizədliyini geri götürəcəyini düşünmüşlər. Bəziləri isə Leylaya təklif etmişlər ki, onların xeyrinə namizədliyini geri götürsün. Lakin bir həqiqət məqamını unutmuşlar ki, Leyla hər an atası Oktayın baxışlarını, nəzarətini hiss edir. Bu baxışların altında təslim olmaq, geri çəkilmək sadəcə, o gözlərə xəyanət idi.

Bu cür çətin və mürəkkəb şəraitdə kollegiyadakı qrupun ağlasığmaz, gözlənilməz və sərhədtanımaz zərbələri doğurdan da okeanda tək üzən insana köpək balıqlarının hücumu idi.

Ancaq sonradan Leylanın əlinə imkan düşsə də, bu insanlara pislik etmədi. Çünki, ulduzlar kölgə yox, işıq saçmaq üçün yaranmışlar.

... Orxan Salmanzadənin tikdirdiyi binalardan birindən fəhlə yıxılaraq dünyasını dəyişdi. Təhlükəsizlik şəraiti yaratmadığı səbəbindən onun işi prokurorluğa düşdü. Orxanın əleyhinə Leyladan istifadə etmək istədilər. O, qətiyyətlə bundan imtina etdi. Belə bir vəkil tapdılar, o olanı, olmayanı hüquq müstəvisinə salıb, Orxanın xeyli pulunu aldırdı. Axırda həbs etdirdi. Şirkətinin yarısına banklar, yarısına isə məşuqəsi Vəsilə sahib çıxdı. İki il sonra özü də həbsxanada infarktdan dünyasını dəyişdi.

Kollegiyadakı qruplaşmanın üzvlərindən birinin gəlini boşanırdı. Leylanı vəkil tutmaq, ərindən xeyli təzminat almaq istəyirdi. Bilirdilər ki, onlardan acıqlıdır. Lakin Leyla bu işdən də imtina edib "mənimlə onun atasının mübahisəsi var, balasının nə günahı", - demişdi.

Leyla Vəkillər Kollegiyasından qanunsuz və qərəzli şəkildə uzaqlaşdırıldıqdan bir müddət sonra Nümayəndəlik İnstitutu vasitəsilə fəaliyyətini davam etdirdi. Səkkiz ay sonra Əliyə Sumqayıtda iş verdilər. Əli 7 il Sumqayıtda işlədi. Rüfət isə şahmatda daha sonranı sürətlə düşündüyü kimi həyatda da sürətlə baş vermiş hadisələri, gedişləri geridə qoyub, real vəziyyətə uyğunlaşdı. Tez bir zamanda özünü toparladı, beynəlxalq yarışlarda iştirak edib, qələbələr qazandı. Və onun bu qələbələri yenidən milli komandaya qaytarılmasına səbəb oldu. Eyni zamanda, Rüfətsiz milli komandanın zəiflədiyini hiss etmişdilər. Onu xahişlə qaytarmışdılar.

Dəfələrlə Leylanın öz adından və Rüfət tərəfindən ailəyə edilən haqslızlıqlarla bağlı ölkə başçısına müraciətlər ünvanlansa da, heç biri çatmadı. Hətta, bir dəfə yüksək vəzifəli bir şəxs məktubu şəxsən aparıb, ünvana təqdim edəcəyinə söz versə də, buna əməl etməmişdi.

* * *

... May ayının axırları idi. Həyətdəki qızılgüllər həmişə olduğundan bu il daha çox qönçələmiş, çiçəklər açmışdı. Səriyyənin və qızlarının əkdikləri qızılgüllərin rəng müxtəlifliyi, çiçəkləyəndə yaratdıqları ecazkar dekorativ mənzərə kənddə və yaxın kəndlərdə onları görən insanların dillərindən düşmürdü.

Ancaq bu il qızılgüllər xüsusi həvəslə, daha çox çiçək açaraq, sanki, kimisə və ya hansısa hadisəni qarşılamağa hazırlaşırdılar. Bitkilərdə bəzən qəribə hadisələr, hissetmə mexanizmləri müşahidə edilir. Gələcəkdə baş verəcək hadisələri və ya olmuş hadisələri müxtəlif reaksiyalarla qarşılmaq xüsusiyyətləri ortaya çıxır. Məsələn, badam ağacının onu əkib-becərən sahibi dünyasını dəyişdikdikdən sonra qəfil qurumasını rəvayət edənlər vardır. Bəzi ağacların sonuncu dəfə bol meyvə verdikdən sonra qurumasını da söyləyənlər vardır. Balta-

lanan yaş ağacların gövdəsindən xüsusi aparatların köməyilə iniltiyəbənzər səslər qeydə almışlar.

Qızılgüllərin hazırlaşdığı məqam yetişdi. Onları əkib-becərən, nazlarını çəkən, hər səhər çiçəklərini oxşayan Səriyyənin nəşini gətirirdilər.

Oktay rəhmətə gedəndən sonra Səriyyə həyatla barışa bilmirdi. Oktayla onu təkcə sevgi, həyat yoldaşı öyrəşməsi və övladları bağlamırdı. Eləcə də, birgə çəkdikləri zəhmət, getdikləri əzablı yollar, yeddi qız valideynləri olduğu üçün nadan insanların tənələrinə birgə sinə gərmək, sonradan onların hər bir uğuruna sevinmək bağlayırdı. Bəzən, bu cür bağlantılar qan qohumluğu bağlantılarından daha çox güclü olur, bir tərəfin dünyasını dəyişməsini güclü stress və sarsıntılarla qarşılayırlar. İnsan öz yaxınını itirəndə təkcə onun fiziki ruh aləmini deyil, onunla bağlı bütün hadisələri, hissləri itirir və mənəvi boşluğa düşür. Səriyyə də  Oktayın vəfatından sonra belə boşluğa düşdü. Elə bu boşluqda Naxçıvandan Bakıya və əksinə tez-tez gedib gəldi.

Reallıqda tapa bilmədiyi həyatının bir hissəsini boşluqda axtarmağa başladı.

Səriyyənin Bakıya növbəti gəlişi xoşagəlməz, ona daha bir zərbə vuracaq hadisəylə müşahidə edildi. Qızı Kəmalənin həyat yoldaşı, Rüfətin ilk şahmat müəllimi Şamil qəflətən dünyasını dəyişdi.

Kəmalə ailə qurduqdan sonra köçüb, həyat yoldaşı ilə birlikdə ucqar rayonlardan birində yaşamağa başlamışdılar. Sonradan bacılarının təkidilə Bakıya köçmüşlər.

Şamil dəmiryolunda mühəndis kimi çalışırdı. Onu Əlibayramlıya ezamiyyətə göndərmişdilər. Elə orada qəfil infarkt keçirmiş, dünyasını dəyişmişdi. Onun ölüm xəbəri təkcə Kəmaləyə, oğlanları Elşən, Mehman və qızı Elnarəyə deyil, bütün bacılara da çox pis təsir etmişdi.

Bacıların Şamilə böyük hörməti vardı, onu qardaş kimi çox istəyirdilər. Ümumiyyətlə, insanlar uzun zaman təmasda olduqları, üz-üzə gəldikləri şəxslərə ikinci dərəcəli yaxın qohum şəxslərə öyrəşirlər. Onların itkilərini çox ağır qarşılayırlar. Yeznələr, baldızlar, qaynanalar və s.- də bu cür qrup şəxslərdir. Xüsusilə də bacılar yeznələri çox

istəyirlər. Bunun kökündə öz bacısını çox istəmək dayanır və qadın öz həyat yoldaşının onun və övladları üçün nə demək olduğunu yaxşı dərk etdiyi üçün yeznəsinin də bacısı üçün əhəmiyyətini dərk edir. Bacılar yeznələri qardaş əvəzi kimi də çox istəyirdilər.

Ancaq bu əhəmiyyəti qızın anası daha çox hiss edir. Əslində, o təkcə qızını yox, yuxusuz gecələrini, zəhmətini bir oğlana etibar edir və odur ki, qızının ərinin naxələf çıxması və ya dünyasını dəyişməsi anaya daha pis təsir edir.

Elə Şamilin dünyasını dəyişməsi də onsuz da xəyali boşluqlarda Oktayı ilə ruhən gəzişən Səriyyəyə daha çox sarsıntı, iztirab gətirdi. O, dərhal anladı ki, qızı da onun kimi boşluğa düşdü. Ancaq daha tez və vaxtsız...

Şamilin dünyasını dəyişməsindən iyirmi gün sonra qızı Nailəgildə olan Səriyyənin gecə qəfildən təzyiqi qalxdı. Özünü çox pis, narahat hiss etməyə başladı. Nailə əvvəl onun kimi həkim olan bacısı Yasəmənə zəng edib çağırdı. Sonra digər bacılar da gəldilər. Gecə yarısı Səriyyəni özəl xəstəxanalardan birinə yerləşdirdilər.

Bütün müştərilərinə gəlir mənbəyi kimi baxan özəl xəstəxanalar, həkimlər apteklərlə şəbəkə yaradıb, ötür-ötür oyunları ilə kapital qazanmaq mexnizmi ilə işləyirlər. Lazım olmayan analizlər, iynə-dərman vasitəsilə ödənilən pulun müqabilində əksər vaxtlar xəstələrin həyatlarına əlavə təhlükə yaradırlar. Bəzən isə çox sadə xəstəlikləri mürəkkəbləşdirir, böyüdür və qazancı güdürlər. Aldıqları pulun iyirmi-otuz faizinə uyğun iş görmürlər. Bu dəfə də belə oldu, nə etdilər, etmədilər, nəticə sıfıra bərabər oldu.

Bacılar xəstəxanaya dörd min manat pul ödədilər. Səhərisi gün bütün analizləri verdilər. Nəticələr belə oldu ki, hər şey qaydasındadır, heç bir problem yoxdur. Bütün orqanlar sağlamdır. Bacılar bunula kifayətlənməyib, analarını başqa bir dövlət xəstəxanasına aparıb, başını aparata saldılar, yenidən həmin özəl xəstəxanaya qaytardılar.

Səriyyə daha iki gün xəstəxanada qaldı. Nailə və Yasəmən gecə-gündüz analarının yanında qaldılar. Sonuncu gecə yarıdan keçmiş Səriyyənin vəziyyəti ağırlaşdı. Qızları onun dünyasını dəyişdiyini zənn

edib, fəryad etdilər, ağladılar. Ancaq bir neçə dəqiqə sonra Səriyyə yenidən özünə gəldi.

Səhər bacılar təkrar dörd min manat ödədilər. Bu dəfə Səriyyəni necə olursa - olsun, sağ-salamat təyyarə ilə Naxçıvana aparmaq üçün. Xəstəxana tibbi heyyəti ayırıb, lazımı avadanlıqların köməyilə Səriyyəni Naxçıvana apardılar.

Səriyyə sağlığında dəfələrlə qızlarına vəsiyyət eləmişdi ki, məni öləndə Naxçıvanda, Oktayın yanında dəfn edərsiniz. Bunu etməsəniz, sizə halallıq verməröm.

Ona görə də həmişə Bakıda olanda, xəstələnib eləyəndə qorxurdu ki, birdən ölər, qızları onu Bakıda dəfn edərlər. Çünki, hərdən özləri də deyirdilər ki, "atamızın da məzarı burada olsaydı yaxşı olardı, tez-tez gedib ziyarət edərdik".

... Gediş-gəlişin çətin olması naxçıvanlılara əlavə mənəvi bir problem də yaratmışdı. Bakıda rəhmətə gedən yaxınlarını doğulduğu rayona, kəndə aparıb, dəfn edə bilmirdilər. Bir qisminin buna maddi imkanı çatmırdı. Bir hissə insan buna vaxt çatdıra bilmirdi. Xüsusilə, yay aylarında meyidi çox saxlamaq, uzaq yola aparmaq olmurdu. Digər insanlar isə düşünürdülər ki, "biz Bakıda yaşayırıq, burada dəfn etsək, daha tez-tez gedib, ziyarət edərik". Elə bu fikrin kökündə də Naxçıvana Bakıdan gedib-gəlməyin çətin olduğu dayanırdı. Dəfnə bir neçə nəfərin getməsi, qayıtması, tabutu aparmaq üçün ödənişlər, bilet tapmaq, sonra ziyarətlərinə getmək və s. kimi problemlər nəticəsində sağlığında öz el-obasında, yaxınlarının yanında dəfn olunmaq istəyən bir çox naxçıvanlılar Bakıdakı və ətraf qəsəbələrdəki qəbirstanlıqlarda dəfn olunurdular.

Səriyyəni kənddəki öz evlərinə gətirdilər, rahat yer düzəldib, uzatdılar. Bir az keçdikdən sonra işarə ilə başa saldı ki, həyətə çıxmaq istəyir. Zəhra ilə Sevda köməkləşib, onu həyətə çıxardılar, stol gətirib, ehmalca otuzdurdular. Sərin meh əsirdi, qələmlərin yarpaqları titrəyir, bəzən nisbətən boz, alt üzləri görsənir, yenidən ön, yaşıl tərəflərinə çönürdülər, eynən Səriyyənin sağlamlıq vəziyyəti kimi...

Onlar həm də çox tez-tez, xısın-xısın nə isə pıçıldaşırdılar. Bilmək olmurdu ki, sahiblərinin vəziyyətini hiss edib, hansısa hadisəyə hazırlaşırlar, yaxud ana və qızlarını onları tək qoyub çıxıb getdikləri üçün məzəmmət edirdilər.

Qələmə ağaclarının budaqları, yarpaqları arasından uzaqdan Ağrı dağı boylanırdı. Bəzən başı dumanlı, bulanıq görsənən zirvələr indi çox aydın görsənirdi. Gözəl görünüş idi. Dağ və səmanın bir-birinə oxşar rəngləri arasındakı bəyaz zirvələri eynən, bu dünya ilə o dünya arasında qalmış Səriyyənin ağ saçlarına bənzəyirdilər.

Səriyyə sakit, dərin xəyallara dalaraq, qələmləri, onların əsən yarpaqları arasındakı Ağrı dağını seyr edərək, nəzərlərini ərik, göyçə və alça ağaclarına yönəltdi. Bu ərik ağaclarının iki-üç illik tinglərinin Oktayla birlikdə rayondan alıb gətirdiklərini, sevinc və fərəhlə əkdiklərini, elə bu vaxtlar tinglər kimi böyüməkdə olan qızlarının həyətdə oynadıqları vaxtları xatırladı. Bu tinglərdən biri çox nazik, inkişafdan qalmışdı. Səriyyə Oktaya dedi ki, "gəl bunu əkməyək, deyəsən, böyüməyəcək". Oktay razılaşmadı, əkdilər. Sonradan həmən ting daha sürətlə böyüdü, ən çox bar verən oldu.

Göycə ağaclarına baxdı, necə alçaya göycə peyvəndlərini birlikdə vurduğu anları xatırladı. Əriklər, göycələr bir çox illər onların maddi vəziyyətlərinə kömək edən canlılar oldular. Və hər il onlar çox çiçəkləyəndə, meyvələri bol olanda onlara tərəf necə sevinclə baxdıqlarını, bu zaman çiçəklərin gülümsəyərək daha çox ağardıqlarını göz önündə canlandırdı. Bu il də ağaclar çoxlu, heç vaxt olmadığı kimi bar gətirmişdi. Meyvələrin sıxlığından, çoxluğundan budaqlar əyilmişdi.

Səriyyə sonra çönüb, qızılgüllərə baxdı və bu zaman xəfif gülümsədi. O, qızılgüllərin üzərində heç vaxt bu qədər qönçələr və çiçəklər görməmişdi. Elə bil, iki-üç ilin çiçək payını bir ilə sığdırmışdılar. Çiçəklər əsən mehdən al-əlvan son görüş rəqsi edirdilər. Bu rəqslərdən ətrafa cənnətin qoxusu yayılır, füsunkar görünüşü göz oxşayırdı. Qızılgüllər iki aləmin arasından boylanıb çiçəkləri, yarpaqları ilə cənnət rəqsləri edərək Səriyyəni bu dünyadan yola salır, o biri dünyada qarşılayırdılar. Elə ona görə də (,) keçən ildən qalıb gözləmiş, gələcəkdən gəlmiş, bu ilə qoşularaq çoxalmış, birlikdə əlvan rəqslərə başlamışdılar. Həm də son rəqslərinə...

O, bir xeyli də səmaya baxdı. Naxçıvan səmalarında ağ buludlarla mavi səmanın aydın və ecazkar görünüşlərinin yaratdıqları gözəlliklərə dünyanın az yerində rast gəlmək olar. Səriyyə həmişə olduğu kimi, yenə düşünürdü ki, "niyə buludlar ağ, səma isə mavi rəngdədir? Başqa rəngdə olsaydılar nə olardı? Elə bu zaman ağ buludların bir his-

səsi formasını dəyişdi. Səriyyə onu tanıdı və dərhal işarə etdi ki, evə girmək istəyir.

Onu evə gətirdilər. Bacılar yenə cəld analarını arxası qatda uzadıb, başının altını nisbətən dik qoydular. Səriyyə üç-beş dəqiqə dinməz tavana baxıb, gözlərini əbədi yumdu.

Bacılar atalarında olduğu kimi, analarının da dəfnini, yasını el adətincə, ən yaxşı səviyyədə verdilər. Bilinmədiki Səriyyənin yeddi qızı, ya yeddi oğlu var idi.

Analarının yasının yeddinci günündən sonra Bakıya qayıdan bacılar, yenə də qırxı çıxana qədər kəndlərində cümə axşamı mərasimi təşkil etdilər. Bunun üçün yeddisi də üçüncü gün axşam Naxçıvana gedib, cümə axşamı gecə Bakıya qayıtdılar.

Sonradan hər il Oktayın və Səriyyənin ölümlərinin il dönümlərində yeddi bacının hər biri harada olur - olsun, nə cür vacib işləri olsa da təxirə salıb, Bakıdan Naxçıvana valideynlərinin məzarlarını ziyarət etməyə gedirdilər. Bu cür layiqli övlad olmaqdan irəli gələn hərəkətlərin dərin qatlarında həm də bir kişilik xüsusiyyəti dayanırdı. Qızlar tək bioloji hisslərin, övlad borcunun təsirindən deyil, Oktayla Səriyyənin misilsiz zəhmət və əziyyətlərinin qarşısında heç vaxt çıxa bilməyəcəkləri borclarını azaltmağa çalışırdılar.

Bacılar ata-analarının məzarlarını ziyarət etməyə hər gedəndə başlarını onların qara mərmərdən hazırlanmış sinə və baş daşlarına dayayır, dünən rəhmətə getmiş kimi hönkür-hönkür ağlayırdılar. Sonralar Leyla ağlamırdı. Onların məzarı üstə "Fatihə" surəsi oxuyur, salam verib, ürəyində diri insanla danışırmış kimi danışırdı. Tələbə vaxtı olduğu kimi indi də narahat olmasınlar deyə, hər şeyin yaxşı olduğunu söyləyir, bir il ərzində baş vermiş müsbət hadisələri, uğurları sadalayırdı. Həmişə də düşünürdü ki, "görəsən, o düz edir, yoxsa, bacıları?". Bu barədə bir dəfə müdrik saydığı insandan soruşmuşdu. Həmən insan isə cavab vermişdi (vermişdi) ki, "evin önündən baxan qapı, yanından baxan isə pəncərə gördüyünü deyir. Hər ikisi düz deyir".

# VII FƏSİL

*Tarixən müharibə, döyüş fəlsəfəsi üzərində yaranmış və təkmilləşmiş şahmat oyununda da düşməni – rəqibi manevrlərlə aldatmaq, hücum istiqamətlərini gizli saxlamaq əsas prinsiplərdəndir.*

** * **

*Ümumiyyətlə, elmi kəşflərdə olduğu kimi, şahmatda da fantaziya, təsəvvüretmə çox böyük rol oynayır.*

** * **

*Onu da bilirdi ki, gilası alma gətirmədiyi üçün də baltalamaq cahillikdir.*

** * **

*Haradasa qaranlıqlar içərisində qara şahın bataqlıqda çapaladığını, batmaqda olduğunu çox çətinliklə olsa da görə bilirdi. Və bu zaman öz-özünə diksinir, sonra isə özünü danlayırdı ki, bu cür üstün vəziyyətdə niyə məğlubiyyət haqqında düşünür.*

** * **

*Mənası odur ki, alma gilas gətirmir, ancaq almalar da eyni olmurlar. Əgər eynilə övladlar ata-analarının təkrarı olsaydılar Adəmdən indiyə kimi oxşar insanlar olardılar. Övladlar ata-analarının birgə xüsusiyyətlərini daşıdıqlarından oxşar, fərdi xüsusiyyətlərinə görə isə fərqli olurlar.*

** * **

*Sosial müdafiə sahəsində işləyən insanların cənnətlə cəhənnəm arasında durduqları yer çox sürüşkən olur. Ani zamanda rüşvət, ədalətsizlik şüarları gözləri qamaşdıra, ayaqların sürüşüb cəhənnəmə yuvarlana bilərdin.*

Yunanıstan, Krit adası. Şahmat üzrə Avropa çempionatı keçirilir. Azərbaycan Milli Komandasını beynəlxalq aləmdə məşhur qroysmesterlər təmsil edirlər. Turnir yekunlaşmaq üzrədi. Azərbaycan Millisinin turnir cədvəlindəki vəziyyəti yaxşı olsa da, hər şey sonuncu oyundan asılıdır. Bu oyunun nəticəsi həlledici olacaq. Əgər oyunçu uduzacaqsa, komanda yaxşı halda dördüncü yerə, heç-heçə olacaqsa üçüncü, az ehtimalla ikinci yerə çıxa bilərdi. Qələbə çalardısa, bu, möhtəşəm ola bilərdi, komanda birinci yerə çıxıb Bakıya qızıl medalla dönəcəkdi. Bütün komanda üzvlərini, hətta soyuqqanlılığını hər zaman qoruyan, oyunçulara ümid verən, iti baxışları ilə hadisələri dərhal anlayan və cəld reaksiya verən məşqçi Viktor Xalifman da öz həyəcanını biruzə verirdi. Tez-tez oyunun əhəmiyyətini deyir, hansı taktikaların, kombinasiyaların əlverişli ola biləcəyini təhlil edirdi.

Nəhayət, həlledici oyun başladı. Azərbaycan Millisinin dünyada "sürətlə düşünən şahmatçı" kimi məşhurlaşmış qroysmesteri Rüfət Məmmədov ağ fiqurlarla, onun rəqibi səbr, təmkin və məharətli kombinasiyalar ustası kimi məşhur olan Ohan Melkumyan isə qara fiqurlarla oynayırdı. Bu oyuna çox böyük diqqət var idi. Çempionatda iştirak edən ölkələrin komanda üzvləri bu qarşılaşmanı səbirsizliklə gözləmişdilər. Odur ki, həyəcanla və diqqətlə izləyirdilər. Oyunun nəticəsi Avropa çempionu olacaq komandanı müəyyən edəcəkdi. Eyni zamanda, şahmat mütəxəssiləri, məşqçilər və oyunçular həmişə ayrı-ayrı müstəvilərdə oyun sistemləri quran rəqiblərin qarşılaşmasını çox həvəslə izləyirdilər. Onlar burada Rüfət Məmmədovun sonranı sürətlə düşünmək istedadına qarşı Ohan Melkumyanın səbr və təmkinlə təhlil qabiliyyətinin rəqabətini görəcəkdilər. Ohanın gözlənilməz kombinasiyaları qarşısında Rüfətin sirli gedişlərini seyr edəcəkdilər. Rüfət Məmmədovun sirli

gedişləri beynəlxalq şahmat aləmində həmişə xüsusi zövqlə müşahidə edilmişdi.

Bu oyuna həm də Azərbaycan və Ermənistan millisinin bütün komanda heyyətinin, eləcə də, ölkələrindəki mətbuatın və ictimaiyyətin diqqəti olduqca böyük idi.

Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsi, bir milyona yaxın insanı öz dədə-baba yurdundan didərgin salması, son iki yüz ildə hər dəfə fürsət düşdükdə qonşu imperiya dövlətlərinin dəstəyilə torpaqlarını qəsb etməsi, soyqırımlar törətməsi iki xalq arasında düşmənçilik, qisas hissləri yaratmışdı. Odur ki, təkcə səngərlərdə əsgərlər bir-birlərilə mübarizə aparmırdı. Eyni zamanda, informasiya müharibəsi də gedirdi və beynəlxalq idman yarışlarında azərbaycanlı-erməni qarşılaşmaları həssaslıqla müşahidə edilir, qələbə və ya məğlubiyyətlər ictimai mühitdə geniş əks-səda yaradırdı. Bu səbəbdən də Rüfətlə Ohanın oyunu böyük marağa səbəb olmuşdu və əhəmiyyət kəsb edirdi.

Rüfət bütün bunları aydın dərk edirdi. Qələbə və məğlubiyyətin nəticəsini göz önünə gətirirdi. Hələ iki il əvvəl Belarusda keçirilən sürətli şahmat üzrə beynəlxalq çempionatı xatırlayırdı. O, əksər rəqiblərini məğlub etdikdən sonra son üç oyuna qatılırdı. Elə bu üç oyunu da təsadüfən erməni şahmatçıları ilə keçirəcəkdi. Rüfət bütün iradəsini, istedadını ortaya qoydu. Təkcə öz şahmatçı kariyerasını deyil, həm də milli mübarizənin idman müstəvisindəki rolunu da nəzərə alıb, böyük zəhmət hesabına qalib gəldi. O, üç erməni şahmatçını ard-arda məğlub edib, çempionatın çempionu oldu və qızıl medalı Bakıya gətirdi.

Təəsüf ki, bəzən mətbuat və idman ictimaiyyəti, əlaqəli təşkilatlar idmançıların qələbələrinin əhəmiyyətini düzgün qiymətləndirmir, lazımi diqqət ayırmırlar. Burada da qohumbazlığa, tapşırığa və hər hansı öz şəxsi mənafelərinə üstünlük verirlər. Ən bağışlanılmaz, qəbahətli hal odur ki, eyni statuslu, əhəmiyyətli qələbə çalan idmançılara fərqli qiymət verilir, diqqət göstərilir. Bütün bu işlərin səbəbkarları vəzifələrini qazanc mənbəyi və tayfası üçün şərait yaratmaq vasitəsi hesab edən, dövlətin və dövlət başçısının idman siyasətinin mahiyyətini, məsuliyyətini anlamayan, oturduqları kürsüyə rüşvət və tapşırıqla düşən parazit

məmurların, informasiya alverçilərinə çevrilmiş bəzi mətbuat orqanlarının işidir.

Bu dəfə də belə oldu. Rüfətin parlaq və əhəmiyyətli qələbəsinə lazımi diqqət ayrılmadı. Onun üç erməni şahmatçını ard-arda məğlub etməsinin fəlsəfəsini, elmi əhəmiyyətini dərk etmədilər. Axı, elmdə bir hadisə bir neçə dəfə təkrarlanarsa, qəbul edilir ki, orada qanunauyğunluq vardır. Demək, Rüfət Məmmədov Azərbaycan şahmat məktəbinin erməni şahmat məktəbindən üstünlüyünü, azərbaycanlı idrakın, düşüncə sürətinin, sonrakı real dərk etmə qabiliyyətinin yüksək səviyyəsinin qanunauyğun olduğunu sübut etmişdi. Ancaq buna uyğun diqqət və qiymət olmadı.

Əvvəl qiymətləndirildiyini zənn etmişdi. Bakıda hava limanında onu atası və anası gül-çiçəklə qarşıladılar. Beş televiziya kanalı çəkilişə gəlmişdilər. Bu, Rüfətə xoş təsir bağışlamışdı. Həvəslə müsahibə vermiş, oyunların, qələbələrinin detalları barədə danışmışdı. Ağ pencək geyinmiş anası qıraqdan ona gülümsəyə-gülümsəyə baxmışdı.

Lakin bir neçə il sonra Rüfət bilmişdi ki, həmin telekanalları o danışdıqca qıraqdan baxıb gülümsəyən ağ pencəkli qadın pul verib gətirmişdi. Onun qələbəsindən cəmiyyətin xəbərdar olması, başlıcası isə gələcək mübarizələrdə ruhdan düşməməsi üçün belə bir düzünə top gedişi etmişdi.

... Rüfət Məmmədov sevimli şah piyadası – E-4 -lə başladı. Ohan Melkumyan düşünmədən eyni gedişin təkrarını etdi. Elə bil, neçə vaxt idi ki, bütün gedişlərə əvvəlcədən hazırlaşmış, rəqibinin nə oynayacığını bilirdi. Rüfət atın qabağındakı piyadanı B-3 -ə oynadı, Ohan yenə düşünmədən eyni oxşar gedişi etdi, atın önündəki piyadanı bir xana irəli B-6 ya oynadı. O, sanki güzgü effekti oyun taktikası seçmişdi. Ermənilər necə ki, "dolma bizimdir, "Sarı gəlin" bizimdir", - deyir və ya eyni əsərin surətini çıxarıb, özününkü edirdi, hardansa Rüfətin ağlına bunlar gəldi.

Sonra Rüfətin xəyalları, düşüncələri şahmat taxtasından sürətlə uzaqlaşıb, Bakıya, atasının yanına qayıtdı, işıqdan sürətli və hər tərəfə, həm də zaman daxilində irəli-geri hərəkət edə bilən düşüncələr yeganə idarə və dərk olunmayan mövcudluqlardı.

Rüfət çoxdan özünü tərbiyə etmişdi ki, oyun zamanı bütün fikrini, diqqətini şahmat taxtasına yönəltsin. Lakin bu gün iradəsi düşüncələrini tutub eyni müstəvidə saxlaya bilmirdi. O, bütün bunlara təəsüf edirdi. Bu cür mühüm məqamda iradəsinin, düşüncələrinin üsyanı qarşısında acizliyi Rüfəti dilxor edirdi. Keçirdiyi bütün gərgin hisslər onun düşüncə və xəyallarının dəniz dalğaları kimi şahə qalxmasına səbəb olmuşdu.

Bu gün tezdən o atası ilə yenə telefonla danışmışdı. Əlini iflic vurmuşdu. Neçə ay idi ki, yataqda yatırdı. Üzünün sağ tərəfi, ağzı əyilib yuxarı qalxmışdı. Bu hadisə bütün ailə üzvlərinin gecəsini- gündüzünü qara eləmişdi. Onların sevimli günlərini, qəmginli, gərgin anlar əvəz etmişdi.

Əlinin iflic olmasına işdə baş vermiş gərginliklər, stresslər, ona edilən təzyiqlər və təhdidlər səbəb olmuşdu. Əli kimsəsiz, yetimçiliklə böyüdüyü üçün həmişə özünü arxasız, kimsəsiz hiss etmişdi. Odur ki, ona qarşı edilən təzyiq və təhdidləri çox ürəyinə salmış, müqavimət göstərmək üçün yetərli qüvvəsi olmadığını düşünmüşdü. Öz gücü, biliyilə universitetin hüquq fakültəsinə daxil olan və oranı qırmız diplomla bitirən Əli çox savadlı, peşəkar və dürüst bir hüquqşünas idi. Rüşvətdən, qruplaşmalardan uzaq, dövlətin və qanunun yanında olan, əsl vətəndaş, xalqına fayda verəcək az saylı, qiymətli kadrlardan olan Əli tez-tez haqsızlıqlarla üzləşirdi. Ona edilən haqsızlıqların səbəb çələnginə həyat yoldaşı Leylanın vəkillik sənəti də əlavə olunmuşdu. Onun vicdanlı, inadcıl, haqqı və qanunları müdafiə edən fəaliyyəti kimlərinsə xoşuna gəlməyəndə, özü ilə bərabər Əliyə də hücumlar, təzyiqlər olurdu. Elə bu dəfə də Leylanın yaşıl həqiqətin yanında dayanması, inadından geri çəkilməməsi, Əliyə hücum, təzyiq və təhdidlərə səbəb olmuş, nəticədə iflic vurmuşdu.

... Rüfət qara fili atın önünə, B-2 -yə oynadı. Ohan daha eyni oynu oynamayıb, düşünməyə başladı. Rüfət çoxdan anlamışdı ki, rəqibi güzgü effekti oyunla sadəcə onu çaşdırır, əsl taktikasını, kombinasiyalarını sonraya saxlayır. Lakin daha çox onun gedişlərinin eynisini etsəydi, bu, sonradan qarşısı alınmaz xaosa səbəb olardı. Odur ki, üçüncü gedişdən sonra "güzgünü" sındırmağa məcbur olan Melkumyan düşünməyə başlamışdı. Rüfət də indi onun hansı gedişi edəcəyini çox səbirsizliklə

gözləyirdi. Çünki, bu gediş rəqibin gələcək planlarından, hansı taktikanı seçməsindən xəbər verəcəkdi.

Rüfətlə Ohanın qarşılaşması həm komanda üzvləri, həm də çempionatın digər iştirakçıları tərəfindən çox maraqla və diqqətlə izlənilirdi. Təbii ki, ən çox diqqət edən və həyəcanla gedişləri səbirsizliklə gözləyən Azərbaycan Millisinin məşqçisi Viktor Xalifman və Ermənistan millisinin məşqçisi Levon Araikyan idilər. Araikyanın simasındakı cizgilər hələ ki, oyundan razı qaldığını göstərirdi. Xalifman isə nədənsə, narahat idi. O, Rüfətin həyəcanlı və fikrinin dağınıq olduğunu hiss edirdi. Əsl məşqçilər oyunçunun psixoloji və peşəkarlıq amillərini vəhdətdə inkişaf etdirirlər.

Ohan Melkumyan atla A-6 gedişi etdi. Bu, şahmatda ilk başlanğıc gedişlər içərisində mürəkkəb bir oyun idi və ondan sonra çoxlu taktikalar tətbiq etmək olardı. Görünən o idi ki, Melkumyan hələ də manevr edir, nəzərdə tutduğu əsl taktikanı rəqibdən gizlədirdi. Tarixən müharibə, döyüş fəlsəfəsi üzərində yaranmış və təkmilləşmiş şahmat oyununda da düşməni – rəqibi manevrlərlə aldatmaq, hücum istiqamətlərini gizli saxlamaq əsas prinsiplərdəndir. Eyni zamanda, oyunun ilk başladığı vaxtlar əsasən piyadalara, sonra isə at, fil kimi nisbətən yüngül çəkili fiqurlarla oynamağa üstünlük verilir. Top, vəzir kimi ağır fiqurların başlanğıcda ortaya atılması, sonradan onların mühasirəyə düşməsi ehtimalını çoxaldırdı. Ancaq peşəkar şahmatçılar bütün fiqurların vəhdətdə, bir-birilə rabitəli düzülüşünə və oyununa üstünlük verirdilər.

Rüfət Ohanın etdiyi gedişdən sonra gözlədiyi məqamı, onun niyyətini tuta bilmədi. Anladı ki, rəqib manevr edir. Bu dəfə Rüfət rəqibin gedişini təkrar etdi, atı A-3 xanasına oynadı. Bu, Viktor Xalifmanın xoşuna gəlmədi, qaş-qabağını tökdü, hisslərində yanılmadığı, Rüfətin fikirlərinin qarışıq olduğu qənaətinə gəldi. Xalifman başa düşdü ki, Rüfət rəqibin taktikasını kəşf etməklə vaxt itirir, onun diqtəsilə oynayır. Əslində isə vaxtına öz taktikasını tətbiq etməli, oyununu qurmalıdı. Onsuz da gec, ya tez rəqib bu taktikanı biləcəkdi. Xalifman həmişə sürətli hücum tərəfdarı olmuşdu.

Ohanın məşqçisi Araikyan Rüfətin gedişindən sonra gülümsədi. Onun Ohanın manevirindən çaşdığı, fikirlərinin qarışdığı qənaətinə gəldi.

Doğurdan da Rüfətin düşüncələri qarışmışdı. O, hansı oyun üsulunu seçməkdə çətinlik çəkirdi. İki fikir arasında qalmışdı: özü hücum taktikasını seçsin ya oyunu rəqibinin planlarına əsasən qursun. Ohanın fikirləşməsindən istifadə edib, Rüfət də bu barədə düşünürdü. Ancaq yenə də, düşüncələri şahmat taxtasından Bakıya süzülüb gedirdi. Anası bu gün apellyasiya məhkəməsində Süleyman adlı şəxsin hüquqlarını etibarnamə əsasında müdafiə edəcəkdi. Neçə ay idi ki, bu barədə evdə söhbət gedirdi. Leyla bütün olanları danışmışdı...

Bir gün Leyla öz şəxsi ofisində oturduğu zaman qapı döyülür. İçəri ortaboylu, arıq, üst-başından kasıb birinə bənzəyən 50-55 yaşlarında bir kişi daxil olur. Otağa daxil olduqdan sonra Leylaya üzünü tutaraq deyir:

– Mənə vəkil lazımdı.

– Nə məsələdir? - Leyla soruşur.

– Mən kasıb bir adamam. Bazarda göyərti satıram. Öz ailəmi zəhmətimlə dolandırıram. Baxın əllərimə - o bunları dedikdən sonra, göyərti seçib dəstələməkdən dırnaqlarının ucu qaralmış barmaqlarını, əllərini irəli uzadıb göstərir.

– Probleminiz nədir? - Leyla onun əllərini və özünü diqqətlə başdan-ayağa süzdükdən sonra soruşur.

– Ömrü boyu çalışıb, bir mənzil əldə etmişik. İki qızım və bir oğlum var. Gözümüzün dikəcəyi, başımızı soxacaq bir üç otaqlı mənzilimiz var. Oğlumda ailəlidi, bir uşağı var. Onlar da bizimlə o mənzildə qalır. İndi icra hakimiyyəti bizi məcbur edir ki, tikinti şirkəti ilə müqavilə bağlayaq, evimizi söksünlər.

– Belə başa düşdüm ki, yaşadığınız köhnə bina sökülür, yerinə təzə “novostroyka” tikilir - Leyla dedi.

– Bəli, elədir. İndi kimin adamı, pulu varsa, ona yeni binadan daha yaxşı yerdən, çox kvadratlı ev verilir. Yoxdursa, razı deyillərsə, real qiymətdən az təklif edilir - Süleyman dedi.

– Sizə yeni mənzil və ya pul təklif edilir?

– Bizim ev 105 kvadratdı. Onlar isə 76 kvadrat, iki otaqlı mənzil təklif edirlər. Razı olmuruq, onda da evlərin real qiymətindən iki dəfə az pul təklif edirlər.

- Bunu sizə icra hakimiyyətinin deməyə əsası yoxdu axı. Vətəndaşla tikinti şirkəti bu məsələni həll etməlidi - Leyla təəccüblə dedi.

– Hə, elədi. Əvvəl tikinti şirkətinin nümayəndəsilə danışdıq, razılaşmadıq. Hədə-qorxu gəldilər, geri çəkilmədik. Sonra icra hakimiyyətində Tahir Vəlişov adlı müavin bizi çağırdı, tələb etdi ki, razılaşaq. Biz yenə razılaşmadıq, yoldaşım getdi evə, sabah bazara aparacığım göyərtiləri bağlamağa. Mən də gəldim bura. İnanırsınız? Yoldaşım ali təhsillidi, ancaq şəkər xəstəliyi ucbatından işləyə bilmir, bütün günü evdə göyərtiləri dəstələyib, iplə bağlayır...

– İnanıram, inanıram. Düz gəlmisiniz, mən sizə kömək edəcəm - Leyla Süleymana təsəlli verdi.

– Elə bil, yarışa giriblər, bu qədər bina tikərlər? Bir gün Bakı şəhəri ağırlıqdan batacaq. Bu qədər pulu hardan alıb tikirlər? - Süleyman gileyləndi.

– Sizin pulunuz, qazancınız yerdən göyərib çıxır, onlarınkı isə qara bulaq kimi qaynayıb çıxır. Siz belə edin, bütün sənədləri götürüb, sabah bura gəlin. Mənə etibarnamə verəcəksiniz, bu işlə özüm məşğul olacam.

– Bu iş müqabilində mən sizə nə qədər pul verəcəm? - Göyərti satan sual verib, gözləməyə başladı. Leyla gülümsəyərək dedi:

– Heç vaxt pul verməyə tələsməyin. Ta ki, iş alınsın, ürəyinizcə olsun, sonra danışarıq.

– İndi danışaq, mən konkretliyi və halallığı xoşlayıram. Bəlkə, sabah elə rəqəm dediniz ki, gücüm çatmadı. Onda nə edərəm?

Leyla göyərti satanın halallığına və saflığına gülüb dedi:

– Pulunuz olmaz, göy-göyərti verərsiniz. Onlardan qiymətli nə varki? Hərəsi min dərdin dərmanıdır...

Göyərti satanın üzü bir az qızarıb, sonra göyərdi.

– Məni ələ salırsınız? Siz də onların adamısınız? - acıqla dedi.

Leyla təbəssümlə dedi:

– Adınız nədir?

– Süleyman Pənahov.

– Baxın, Süleyman qardaşım, mən söz verdim ki, sizə kömək edəcəm. Siz də göyərti satıb güclə ailənizi dolandırırsınız. İndi mən sizə görəcəyim iş müqabilində nə rəqəm deyim?

–Zəhmətinizin haqqını deyin - Süleyman ciddi səslə dedi.

– Mən belə təklif edirəm. Siz özünüzü qoyun mənim yerimə, məni öz yerinizə. Məndən nə qədər pul istəyərdiz, o qədər verərsiniz. İndi isə gedin. Sabah saat 10-da sizi sənədlərlə birgə gözləyəcəm - Leyla dedi.

Süleyman ona təşəkkür etdi, şübhəli, inamsız nəzərlərlə bir az baxıb, heç nə deməyib, çıxıb getdi. O getdikdən sonra Leyla kürsünün söykənəcəyinə kürəyini dayayıb, tavana baxa-baxa öz-özünə "yenə sən Tahir Vələşov ...,Tahir Vələşov" deyərək, düşünməyə başladı.

... Ohan Melkumyan hücuma keçmişdi. Rüfətin ağ filinə qarşı ciddi təhlükə yaranmışdı. Onu müdafiə etmək çətinləşmişdi. Rüfət yarım saatdan çox idi ki, fikirləşirdi. Ohan isə özündən razı, lakin məsuliyyətli baxışlarını şahmat taxtasına dikmişdi. O Rüfətin filinə və topuna atla eyni anda hücum etmişdi.

Levon Araikyan rahat və sevincli görünsə də, həyəcanı özündən tam uzaqlaşdıra bilmirdi. Təcrübəli şahmatçı bilirdi ki, döyüş meydanında olduğu kimi, şahmat taxtasında da hər an vəziyyət dəyişə bilərdi. Tam qələbəyə hələ çox vardı.

Viktor Xalifman isə qıraqda, pəncərənin önündə dayanıb baxır, gah da var - gəl edirdi. Hərdən də öz narazılığını Rüfətin vaxtında etməli gedişləri komandanın digər üzvləri ilə təhlil edir, təəccübünü bildirirdi. O, Rüfətin oyununun məntiqini anlaya bilmirdi. İndiki vəziyyətdə ən yaxşı halda topu qaçırıb, fili qurban vermək olardı. Hələ ki, nə Xalifman, nə də müşahidə edən digər şahmatçılar başqa çıxış yolu görmürdülər. Çox təhlükəli vəziyyət yaranmışdı. Ağ xanadakı fili xilas etmək mümkünsüz görünürdü.

Ancaq bu o demək deyildi ki, mütləq mənada oyun uduzmağa doğru gedirdi. Rüfət xatırlayırdı ki, şahmatda mindən çox başlanğıc, üç gediş sonra isə 9 milyon variantlar var. Demək, oyunun taleyi bu milyonlarla gediş variantlarının içində gizlənmişdir. Elə bütün diqqətini toplayıb, o variantları bacardığı qədər təsəvvür etməyə çalışırdı. Lakin bir yerə qədər düşünə bilirdi, ordan o yana qaranlıq görürdü.

Rüfət ayağa qalxıb, pəncərənin önünə gəldi. Oyunu müşahidə edən hər kəs onu diqqətlə izləyirdi, nə edəcəyinə, hətta simasının cizgilərinə fikir verirdilər. Ancaq Rüfət sanki onları görmürdü. Gözünün önündə şahmat taxtası üzərindəki mövcud vəziyyət və rəqibi Ohanın kal pomi-

dora oxşayan burnu və qalın çatma qaşları vardı. Rüfət Ohanın nə gözlərinə, nə də üzünün cizgilərinə fikir verməmişdi. Yalnız qaşlarına və burnuna nəzər salmışdı.

Pəncərədən uzaqlara baxmağa başladı. Onun istədiyi yerdə dayanıb, istədiyi qədər fikirləşmək ixtiyarı vardı. Ancaq kiminləsə söhbət etmək, təmasda olmaq oyun qaydalarına zidd idi. Şahmat tarixində ən uzun oyun 20 saat 15 dəqiqə çəkmişdi. Bu zaman 269 gediş oynanılmış və oyun heç-heçə bitmişdi.

Rüfət uzaqlara, üfüqə baxırdı. O, uzağa baxdıqca oyundakı sonranı, ondan sonranı təsəvvür etməyə çalışırdı. Hara qədər aydın görə bilirdisə, yaxşı vəziyyət yarada bilmirdi... Nəsə etmək olardısa, ondan sonra etmək olardı. Bunun üçün də daha uzağı və ətraflı görmək lazım idi. O, uzaqlara baxanda təsəvvür çevrəsini genişləndirməyi bacarırdı. Ona görə də, yarışlarda qarşılaşmalar zamanı çətin vəziyyətlərə düşəndə pəncərə önünə gəlib, uzaqlara baxırdı. Bu, elə gözü bağlı düşünmək, oynamaq demək idi. Gözübağlı oynamaq qeyri-adi bir istedaddır, peşəkar şahmatçılar bunu bacarırlar. Bu cür oyun ilk növbədə oyunçudan şahmat lövhəsindəki vəziyyəti və baş verən dəyişiklikləri təsəvvüretmə qabiliyyəti tələb edir. Ümumiyyətlə, elmi kəşflərdə olduğu kimi, şahmatda da fantaziya, təsəvvüretmə çox böyük rol oynayır. Məhz buna görə də, dahi Eynşteyn "Mən düşüncələrimə və fantaziyalarıma daha çox borcluyam",- deyirdi. Macar şahmatçısı Yanuş Feş, eyni zamanda 52 rəqibə qarşı 31 partiya oynamaqla gözübağlı oyun tarixində rekorda imza atmışdı.

Rüfətin gözləri önünə nişanlısı Nataşa Buksa gəldi. O, gülümsəyərək, "daha uzaqlara bax, tələsmə, fikirləş, hamımız sənin qalib gələcəyini gözləyirik. Bacaracaqsan, buna inanıram. Bir azdan sirli gedişlərinlə rəqibini, elə hamını heyrətə salacaqsan. Hər an yanındayam, sənə köməyəm" , - deyirdi.

Nataşa Buksa ilə Rüfət beynəlxalq yarışların birində tanış olmuşdu. Ukraynanın Lvov şəhərindən olan sarışın, gözəl qız mənalı baxışları və aristokrat hərəkət tərzilə Rüfəti valeh etmişdi. Buksanın da Rüfətin alicənab, təmkinli və mədəni hərəkətlərindən, qara, saf baxışlı gözlərindən xoşu gəlmişdi. Onlar bir-birilərini sevməyə başlamışdılar.

Rüfət evlərində Nataşa Buksa ilə evlənmək təklifini deyəndə, bacısı Nəzrinlə atası Əli onun seçiminə hörmətlə yanaşmış, çox sual-cavab etmədən razılaşmışdılar. Oğlunun bütün ömrünün məsuliyyətini çiynində hiss edən, xarakterindən irəli gələrək "hər şeyi öz əllərilə" düşüncəsinə malik Leyla isə əvvəlcə buna razı olmamışdı, "tanımırıq kimdi, nəçidi. Həm də mən istəyərdim ki, öz millətimizdən olsun, adət-ənənələrimizi bilsin gəlinimiz",- demişdi. Rüfət Nataşa Buksanın çox istedadlı, peşəkar şahmatçı, dəfələrlə Ukrayna, iyirmi yaşlılar arasında isə dünya çempionu olduğunu demişdi. Sonra əlavə olaraq çox istiqanlı, mədəni, tərbiyəli və vicdanlı qız olduğunu, atasının memar, anasının və özünün isə hüquqşünas olduğunu söyləmişdi. Leyla bütün bunlara diqqətlə qulaq asdıqdan sonra çox fikirləşmiş, sonda razı olmuşdu. Ukraynaya gedib, sevənləri nişanlamışdılar.

Bir il keçəcəkdi. Rüfətlə Nataşanın Bakının elit şadlıq saraylarının birində toyları olacaqdı. Bu toyda elədə çox insan iştirak etməsə də, nazir müavinləri, şahmatçılar, Ukraynadan olan qonaqlar iştirak edəcəkdi. Toyda Rüfət Nataşa ilə rəqs edə-edə estrada və ariya üçün əlverişli, yüksək bas səs tonuyla Azərbaycan və Rus dillərində peşəkarlıqla mahnılar oxuyaraq, daha bir istedadı ilə iştirakçıları heyrətləndirəcəkdi... Sonralar Nataşa Buksa ailə üzvləri, xüsusilə Leylayla elə qaynayıb-qarışdılar ki, dostlaşdılar ki, hər biri vicdanlı, dürüst, istiqanlı bu qızı doğma insan kimi çox sevdilər.

Nataşa Buksanın xəyalən Rüfətə dediyi "tələsmə, fikirləş, sirli gedişlər" sözləri ona ruh yüksəkliyi gətirdi. Bayaqdan görmək istədiyi qaranlıq sonranın bir hissəsi təsəvvüründə işıqlandı. Cəld geri çönüb, şahmat taxtasına yaxınlaşdı. Onun bu cür cəld hərəkəti hamının təəccübünə səbəb oldu, daha həyəcanla nə oynayacağını gözləməyə başladılar. Levon Araikyan gözlərini qıyıb, nəfəsini çəkmədən baxır, Viktor Xalifmanın isə gözlərində ümid işartıları yaranırdı.

Rüfət heç stula əyləşmədən hamının gözlədiyinin əksinə olaraq, topu vuruqdan qaçırmadı, heç ağ filin də yerini dəyişmədi, atla şah verdi. Onun bu gedişi təkcə rəqibi Ohan Melikumyanı deyil, hər kəsi şoka saldı. Hamı artıq oyunun uduzulduğunu düşünməyə başladı. Araikyan bayaqdan içinə çəkib saxladığı nəfəsini rahatca burnundan çölə buraxdı.

Bu zaman onun burun pərləri genişlənib, rəngi ağardı. Rüfətin komanda yoldaşlarını təəsüf, Ohanınkıları isə sevinc hissləri bürüdü.

Məsələ burasında idi ki, şaha hücum edən atı piyada vura bilirdi. Şahın sağa yerdəyişmək imkanı da var idi. Çox cüzi üstünlük kimi görünən o idi ki, piyada atı vuranda iki piyada ard-arda vəziyyətə dayanır, şahın isə önü açılırdı. Şah sağa hərəkət etsəydi, qalaqurma hüququndan məhrum olurdu. Ancaq bütün bunlar real vəziyyətlə müqayisədə çox cüzi üstünlük sayıla bilərdi. Çünki, bir az əvvəl ağ fillə top atın vuruğunda idisə, indi üçüncü fiqur - at da piyadanın vuruğuna düşmüşdü. Ən mürəkkəb məsələ isə piyada atı vurduqdan sonra vəziyyət dəyişmirdi, ağ fillə top yenə təhlükədə qalır, ikisindən biri əvəzsiz udulurdu.

Ancaq piyada atı vurduqdan sonra vəziyyətin şahın önünün açılması səbəbindən dəyişməsinin çox dərin qatlarındakı mahiyyətini Viktor Xalifman başa düşmüşdü. Onun gözlərindəki heç-heçə ümid işırtıları daha çox parlamağa başlamışdı. Ürəyində "afərin, Mamedov, nəhayət ki, öz sirli gedişini etdin", - dedi.

Ohan Melikumyan ehtiyatlı peşəkarlardan idi. O, dərhal qərar çıxarmağa tələsmədi. Qara gözlərinin dərinliklərindəki ağıl, məntiq mahiyyətləri olan rəqibinin bu gedişinin daxili qanunauyğunluğunu anlamağa çalışdı. Axı, nə üçün iki fiquru vuruqda olan bu "qara gözlü" Rüfət Məmmədov üçüncü fiquru da təhlükəyə atdı. Ohan nə qədər fikirləşirdisə, bu sirri aça bilmirdi. Rüfətin gedişinin məntiqi onun üçün dibi görünməyən dərin, qaranlıq quyuya bənzəyirdi. Daş da atırdı, heç səsi çıxmırdı, daş özü yoxa çıxırdı. Ohan fikirləşməkdə davam edirdi.

Rüfətin indi də gözləri önünə anası gəldi. O, ağ pencəkdə, saçlarını geri yığmış, qamətini şax tutaraq həmişəki kimi sərt və soyuqqanlı baxırdı. Elə baxışı kimi buz səslə deyirdi: "Sən bura şahmat oynamağa gəlmisən, fikrin orda-burda nə gəzir? Qalib gəlməlisən, ikinci yolun odur ki, qalib gəlməlisən! Bakıya qızıl medalla dönməlisən, bu sənin gücünə uyğundur...".

Leyla xəyalən bunları deyib, gözdən itdi. Rüfət düşündü ki, anası o boyda çətin, mürəkkəb işlərinin içində vaxt tapıb, gəldi, xəbərdarlığını etdi. Soyuq duş kimi ruhuna təsir edib getdi. Axı, bu gün anası neçə aydır ki, məşğul olduğu atasının da iflic olmasına səbəb olan "Göyərti sa-

tanın" işini apellyasiya məhkəməsində müdafiə edəcəkdi. "Atam iflic oldu, özünə bu qədər təzyiq etdilər, pul təklif etdilər, bu işdən əl çəkmədi ki, çəkmədi. Əvəzində, göyərti satan heç pul da verməyəcək, yazığın nəyi var ki, nə də versin. Niyə belə edir bu inadkar, buz ürəkli, düz insan? Onun həyatı, düşüncələri, əməlləri, özü sirli bir aləmdir. Ancaq gözəl aləmdir, ərşə yaxın aləmdir, - Rüfət belə düşünürdü.

Doğrudan da haqq, qanun, yaxşılıq inadkarı olan Leyla bu gün apellyasiya məhkəməsində Süleymanın ev məsələsini müdafiə edəcəkdi. Onun rəqibləri güclü, pullu və hiyləgərdilər. Leyla həm tikinti şirkəti, həm də icra hakimiyyətindəki korrupsiya, rüşvət şəbəkəsi, onun başında duran müavin Tahir Vəlişovla mübarizə aparacaqdı. Tahir neçə illərdir ki, işlədiyi rayonu daha özününki bilirdi. İndi də köhnə binanın sakinlərini zorla, vədlə, hədə ilə və s. yaramaz yollarla tikinti şirkətiylə razılaşmağa məcbur edirdi. Rayon ərazisində çox belə köhnə binaları sökdürüb, yenisini tikdirmişdilər. Təbii ki, bu zaman tikinti şirkətlərindən çoxlu rüşvətlər almışdılar. Həm də rəhbərliyə özlərini iş görən, abadlıqlar edən kimi göstərmişdilər.

Ancaq Tahir Vəlişovla Leyla çoxdanın "dostları" idilər. Leyla Tahir Vəlişov mahiyyətində, hansı canlıya və ya cansıza bənzər olduğu bilinməyən insana ömründə rast gəlməmişdi. Həmişə onun haqqında "qara sirrlər xəzinəsi" və məntiqsiz mahiyyət kimi düşünmüşdü.

Bir gün Leylaya zəng gəlir, danışan Tahir Vəlişov idi. O, mülayim, acizanə səslə xahiş edir ki, görüşsünlər. Leyla təəccüblənir, məətəl qalır ki, Bakının iri rayonlarından birinin əsas şəxslərindən olan, neçə illərdi (r) ki, bu cür yüksək vəzifələrdə işləyən, böyük çevrəsi, bütün qurumlarda dost-tanışı, külli miqdar var-dövlət sahibinin onunla nə işi ola bilər? Və niyə belə az qalırdı ki, yalvarsın?

Leyla çox düşündükdən sonra Vəlişovun dediyi kimi, onların evində görüşürlər. Və burada Tahir Vəlişov və həyat yoldaşı israrla xahiş edirlər ki, Leyla onlara hüquqi kömək etsin.

Məlum olur ki, Tahir Vəlişovun oğlu Mərdan avtoqəza törədibdir. İndi iş məhkəmədədir, onu həbs edəcəklər. Hadisə də belə olub ki, Mərdan avtomobil sürməyi yenicə öyrənir. Yanında sürücülük müəllimi, arxa oturacaqda isə özü kimi gənc dostu İsmayıl əyləşirlər.

Mərdan avtomobili yolu boş görüb, sürətlə sürür. Bu vaxt qəfil yolun ortasında iki azyaşlı məktəbli görünür. Gənc Mərdan həm psixoloji, həm də peşəkarlıq baxımından bu cür çətin situasiyaya hazır deyildi. O, anidən var gücü ilə əyləci basır, avtomobil sağdakı işıq dirəyinə dəyib, yan üstə aşır, xeyli yerdə sürünür. Məktəbli uşaqlar real qəzadan xilas olur. Sürücü müəllim orta, Mərdan isə yüngül yaralanır. Ancaq dostu İsmayıl bu qəzada həlak olur. Avtomobil anidən işıqforun dirəyinə dəyəndə, sürəti azalanda yaranmış ətalət qüvvəsi təsirindən arxa oturacaqdakı İsmayılın başı gəlib ön "padpres"ə dəyir və o , həlak olur.

Tahir Vəlişov bütün dost-tanışlarından istifadə etsə də, külli miqdar pul xərcləsə də (,) xeyri olmamışdı. Elə onun daha çox pullarını mənimsəmək məqsədi güdənlər zəli kimi yapışmış, savadsız vəkillər də işi qatıb-qarışdırmışdılar.

İndi Tahir və yoldaşı Leyladan Mərdanın həbsdən qurtarması üçün israrla xahiş edirdilər. Xanım göz yaşlarını saxlaya bilmir, Tahir özü isə az qala yalvararaq, nə qədər istəsə pul vəd edirdi. Özü də gizlətmədən bu işə fantastik rəqəmdə pullar xərclədiyini deyirdi.

Leyla çox düşündü. Bir ananın göz yaşlarını, Mərdanın gənc olduğunu, həbsxana həyatının onun dünyagörüşündə yaradacaq izləri fikirləşdi. Əsas məsələni, Mərdanın məktəbli uşaqların həyatını xilas etmək üçün qəzalı vəziyyət yaratdığını, dostu İsmayılın sırf təsadüfi qəza nəticəsində həlak olduğunu nəzərə aldı. Xeyli götür-qoy edib, ailəyə kömək edəcəyini, Mərdanı müdafiə etməyə hazır olduğunu bildirdi. Və ortada həyatını itirmiş bir gəncin olduğunu nəzərə alıb, bu işdən bir qəpik də olsun götürməmək qənaətinə gəldi.

Onun razılaşdığına Tahir və həyat yoldaşı çox sevindilər. Ancaq təklif olunan müxtəlif pul rəqəmlərindən imtina etməsindən heç nə başa düşmədilər, bu işə məəttəl qaldılar. Sonralar da işin gedişatında Tahir Vəlişov Leylaya külli miqdar pul təklif etsə də (,) həyatda ancaq ağ və qara rəngləri qəbul edən, öz-özünə verdiyi sözü hər şeydən üstün tutan Leyla pul götürmədi.

Mərdanın dostu İsmayıl da tanınmış və imkanlı ailənin övladı idi. Leyla Tahiri və yoldaşını da götürüb, başsağlığı vermək üçün onlara getdi. İsmayılın anası əsilli-nəsilli, çox kübar və ziyalı qadın idi. Ondan başqa digər yaxınları və ailə üzvləri hər üçünü təhqir etdi, qarğış tökdü-

lər. Leyla bütün bunları əvvəldən bilirdi. Onu da bilirdi ki, bu, çox riskli, çətin olsa da olduqca vacib idi. Hər şeydən əvvəl, mənəviyyat məsələsi idi.

Tahir Vəlişov Leylanın vicdanla, peşəkarlıqla və zəhmətlə gördüyü işlərin müqabilində pul almadığını görüb, ona vəkillər kollegiyasına bərpa olunmağına, oğluna və qızına, bacılarına ixtisasları üzrə yüksək vəzifələrdə işlə təmin olunmağa köməklik göstərəcəyinə söz verdi. Leyla gələcəkdə bütün bunların heç birinin olmayacağını dərhal anladı, ürəyində gülümsədi, Tahirin anlamayacağı istehza ilə:

– Bacım Nailə tibbdən, Zəhra isə hüquqdan neçə illərdir ki, elmi iş müdafiə ediblər, ancaq diplomlarını ala bilmirlər. Onlara da köməklik edə biləcəksiz? - sualı vermişdi.

Əksər hallarda çətin vəziyyətdə olan insanlar kimi  sonra nə olacaq-olmayacağını düşünmədən vəd vermək, mövcud vəziyyətin təsiri altında götürə bilməyəcəyi və ya götürmək istəməyəcəyi yükün altına girən insanlar kimi Tahir Vəlişov da dərhal gülümsəyərək  razılaşmış:

– Əlbəttə, mütləq bunu edəcəyəm. Zəhmət çəkib müdafiə ediblər, niyə almasınlar diplomlarını. Diplomlarını da alacam, qonaqlıqlarını da özüm verəcəm. Ümumiyyətlə, sizin unikal genetik istedadlı ailə barəsində "yuxarılara" şəxsən məlumat verəcəm. Söz verirəm sizə, - demişdi.

Təbii ki, Leyla bu vədlərin heç birinə inanmamışdı. O öz peşəsinin hər cür nəzəri və təcrübi incəliklərini bilirdi. Leyla bu işi boynuna alanda gənc Mərdanı, onun günahsızlığını, xüsusilə, məktəbli uşaqları vurmamaq üçün dostlarının və özünün həyatlarını riskə atmaq kimi mərd, cəsarətli hərəkətini nəzərə almışdı. Düzdür, Leylada ömrü boyu varlı və vəzifəli şəxslərə qarşı şüuraltı bir kin, antisimpatiya olmuşdur. Ancaq onun düşüncəsinə görə əgər haqlıdırsa, şeytanın da balasını müdafiə etmək vəkilin peşə borcudur.

Leyla çox gərgin zəhmət nəticəsində işini yekunlaşdırdı. Yüksək etimadla Mərdana bəraət verəcəkdilər. Bu mərhələ dünyasını dəyişmiş İsmayılın ailə üzvləri, qohum-əqrabaları tərəfindən də Leylaya bu işdən vaz keçməsi müqabilində külli miqdar pul təklifləri gəlmişdi. Leyla Tahirin pul təkliflərini rədd etdiyi kimi bunlardan da imtina etmişdi.

Məhkəməyə bir neçə gün qalmış müəmmalı hadisələr baş verdi. Tahir Vəlişovdan gecə yarı qəfil, gözlənilməz zəng gəldi. O, qəribə, soyuq

səs tonuyla bildirdi ki, sizin hazırladığınız sənədlər və müdafiə müddəaları üzərində başqa bir vəkil məhkəmədə Mərdanı müdafiə edəcəkdir...

Leylanın cavabı sadəcə istehza ilə gülüb, telefonu Vəlişovun üzünə bağlamaq oldu. O, hər şeyi başa düşmüşdü.

Məhkəmə oldu. Yeni vəkilin "fəaliyyəti" sayəsində işlər yenə qarışdı, Mərdana 7 il iş kəsdilər.

Məhkəmənin səhərisi günü Tahir Vəlişov özü Leylanın şəxsi ofisinə gəldi. And-aman edib, onu aldatdıqlarını dedi. Dönə-dönə üzr istədi. Yenə daha çox pul təklif etdi, köhnə vədləri təkrarladı. Oğlunu apellyasiya məhkəməsində həbsdən xilas etməsi üçün israrla xahiş etdi.

Leyla apellyasiya məhkəməsində Mərdana bəraət verdirməyə nail oldu. Məhkəmədən çıxanda Tahirin tapşırığı ilə xüsusi hazırlıq işləri görülmüşdü ki, bir başa Mir Mövsüm Ağanın məzarını ziyarətə getsinlər.

Bütün qohum-əqraba, dost-tanış avtomobillərə əyləşdilər. Tahir Vəlişov bir milyona yaxın rüşvət verərək həbsdən xilas edə bilmədiyi oğlunu bir manatsız, yalnız qanunun köməyilə həbsdən azad olunmasına nail olan, indi sevinclə bir-birini qucaqlayıb öpən, Mərdanın başına toplaşan insanlardan kənarda, sakitcə durub tamaşa edən Leylaya tərəf baxdı. Sonra üzünü bir nəfərə tutub, soyuq, can çəkə-çəkə, əlavə problem həll edirmiş səs tonuyla:

– Leyla xanımı öz evinə aparársınız! - demiş, onu öz yanlarında ziyarətə aparmağı yüksək vəzifə statuslarına sığışdırmamışdı.

Tahir Vəlişovla Leyla bir il sonra yenə qarşılaşmışdılar. Bu dəfə Leylanın təşəbbüsü ilə hər il on mayda keçirilən şahmat yarışlarının birində Tahir qəfildən başının dəstəsiylə gəlmişdi. Leylanın həm ideya müəllifi olduğu, həm xərc çəkib təşkilatçılıq eləyib keçirdiyi ənənəvi şahmat tədbirinə gələn məsul şəxslərdən biri kimi Tahir Vəlişov heç üzünü çöndərib baxmamış, salam da verməmişdi.

Leyla bundan da pərt olmamışdı. O, insan kateqoriyalarının düşüncə, əqidə və davranış tərəzilərini çox gözəl bilirdi. Onu da bilirdi ki, gilası alma gətirmədiyi üçün də baltalamaq cahillikdir.

İndi Leylayla Tahir Vəlişov üçüncü dəfəydi ki, üz-üzə gəlirdilər. Bu dəfə başqa müstəvidə. Vəlişov nə qədər xahiş, minnət etsə də Leyla bu işdən vaz keçməmişdi. "Göyərti satanı" müdafiə etməkdən geri addım

atmamışdı. Qəribə və dözülməz hal o idi ki, Tahir Vəlişovlar yalnız bir klassik qanunsuzluq metodu bilirdilər, əvvəl xahiş-minnət, dilə tutma, şirnikləndirmə, sonra təhdid və təzyiqlər, hədə-qorxu gəlmək.

Onlar bu dəfə də belə etdilər. Şirnikləndirmə metodu işə yaramadıqda, hədə-qorxu gəlməyə başladılar. Bununla da, Leylanı geri çəkilməyə məcbur edə bilmədikləri üçün şəxsən Tahir Vəlişovun göstərişilə yaxınlarına, o cümlədən də həyat yoldaşı Əliyə absurd bəhanələrlə təzyiq etməyə başladılar. Bu cür mənasız, məntiqsiz, uydurma təzyiqlərə həssas olan, dürüst və vicdanlı hüquq işçisi Əli çox əsəb gərginlikləri, stresslər keçirdi. Nəticədə, iflic oldu. Lakin Leyla yenə geri çəkilmədi, qanunlara və əqidəsinə xəyanət etmədi.

Məhkəmədə uduzsalar da, mübarizəni davam etdirdi. Apellyasiya məhkəməsinə daha ciddi, tutarlı faktlarla hazırlaşdı. Qarşısındakı yegana məqsəd zəifi güclüdən, haqq işi hörümçək toruna bənzəyən kapital sahibi-məmur iş birliyindən qorumaq, qanunun qələbəsini təmin etmək idi.

Bu gün Leyla üçün ikiqat əhəmiyyətli, həyəcanlı gün idi. Cüt sirli gedişlərlə qarşı-qarşıya idi. O özü Bakıda Apellyasiya Məhkəməsində "göyərti satanın" timsalında Azərbaycan qanunlarını, oğlu Rüfət isə Azərbaycanın şahmat müstəvisində idman şərəfini qoruyacaqdı... Eyni anlarda müxtəlif məkanlarda hüquq və şahmat müstəvisində ana-oğul mübarizə aparırdılar. Qalib gəlmək üçün peşəkarlıq, məntiq, təsəvvür genişliyi əsas amillər kompleksi idi. Ohan Melkumyan fikirləşməkdə davam edirdi. O, məşqçisi Levon Araikyan kimi arxayın deyildi. Haradasa, qaranlıqlar içərisində "qara şahının" bataqlıqda çapaladığını, batmaqda olduğunu çox çətinliklə olsa da, görə bilirdi. Və bu zaman özözünə diksinir, sonra isə özünü danlayırdı ki, bu cür üstün vəziyyətdə niyə məğlubiyyət haqqında düşünür. Belə halda, heç-heçə fikirləşməyin özü məğlubiyyətdir. Ohan psixoloji baxımdan zərbə aldığını hiss edirdi. Odur ki, qərara aldı ki, tam özünü ələ alıb, rəqibin məqsədini aydın görməyincə, heç bir gediş etməsin, tələsmədən fikirləşsin.

... O, fikirləşdikcə, Levon Araikyan narahat olmağa başlayır, get-gedə həyəcanlanırdı. Ohanın çaşdığını, özünü itirdiyini zənn edirdi. Araikyana elə gəlirdi ki, Rüfət Mamedov məhz Ohanı çaşdırmaq üçün atla

şah verib, onu üç fiqurdan hansını – atı, fili və ya topu vurmaq seçimi qarşısında qoymuşdur.

Ancaq görünür, Ohan öz məşqçisindən daha dərin və real düşünə bilirmiş. O öz güclü rəqibinin, peşəkar və sirli gedişlər müəllifi şahmatçının sadəcə olaraq, çaşdırmaq məqsədilə atla şahı verib, fil və topdan əlavə atı da zərbə altına qoymaq məntiqinə sadəcə inanmırdı. Ohan da yekunda qərara gəlmişdi ki, rəqibi artıq sirli gedişini etmişdir. Ancaq bu gedişin sonrasını az-çox təsəvvür etsə də, sonradan sonrası qaranlıq idi. O, məhz bu qaranlıqda qara şahı bataqlıqda çarəsiz görürdü və yenidən diksinirdi.

Ohan Melkumyan  şah vermiş atı piyada ilə vurdu və bununla səhv etdi. Rüfət Məmmədov dərhal oynamadı, yenə fikirləşməyə başladı. O, anlamışdı ki, daha çox fikirləşdikcə, rəqibi edilən gedişə "möcüzə" kimi baxır, səhvlər buraxır. Rüfət Ohanın zəif nöqtəsini tapmışdı.

Qırx dəqiqəyə yaxın fikirləşdikdən sonra Rüfət vuruqda olan topu elə xanaya oynadı ki, Ohan atla fili vursaydı, üç gediş sonra mat olurdu. Bu dəfə Ohan fikirləşməyə başladı, oynamağa tələsmədi. İndi o qaranlıqda "qara şahın"in bataqlıqda batdığını bir az da aydın görməyə başladı.

Viktor Xalifman gülümsəyirdi. Onun fikrincə, oyunun heç-heçə bitməsi ehtimalı çoxalırdı. Belə olarsa, komanda ən azı bürünc , ya da gümüş medal alacaqdı.

Levon Araikyan və Ohanın komanda yoldaşlarının simasında isə həyəcan külləkləri kədər buludları əsdirirdi. Onlar əvvəl Rüfətin çox fikirləşməsinə əsəbləşirdilərsə, indi Ohanın fikirləşməsinə daha çox acıqlanırdılar. Bir şeyi anlamışdılar ki, oyun uzandıqca, rəqiblər daha çox fikirləşdikcə, Rüfət daha dürüst oynayır, Ohan isə sadəcə, səhv gedişlər edir.

Ermənistan millisinin üzvləri məəttəl qalırdılar : necə oldu ki, Qərbdə sürətlə düşünən, sirli gedişlər müəllifi, səbirsizliyilə "ne posidi Rufat Mamedov" kimi ad çıxarmış azərbaycanlı şahmatçı indi Şərqə məxsus hövsələ, səbr heykəli kimi şahmat taxtası arxasında oturur?

Artıq şahmat taxtasında vəziyyət təxminən beləydi: ağ fiqurlar nurlu, qalib ordu, qaralar isə qara niyyət, qorxudan rəngləri qaralmış, qüruru sınmış orduya bənzəyirdi. Ağ atlı "general" ön cəbhədə, hətta piyadalardan da öndə idi. Qara atlı "general" isə qaçıb geri, şahının yanında

idi. Ağ piyadalar öndə, hərəsi bir səngərdə, qara piyadalar geridə səngərdə və çoxdan bir-birinin arxasında gizlənmişdi. Ağ şahdan fərqli olaraq, qara şahın önü açıqdı, o xəttlə piyada da gedib ona çata bilər. Ağ vəzir işıqlı və güclü məsləhətçiyə, qara vəzir qara keşişə bənzəyirlər. Nəhayət, ağlar qaraları gündüz gecəni qovan kimi öz sərhədlərinə , məğlubiyyət üfüqlərinə doğru qovurlar.

Rüfət doğurdan da hövsələ, səbr heykəli kimi 6 saat şahmat taxtası arxasında oturaraq, bu vəziyyəti yaratmaq üçün fikirləşmiş, Ohanı da fikirləşməyə və səhv etməyə məcbur etmişdi.

Nəhayət, qarşılaşma sona çatdı, Rüfət Məmmədov qalib gəldi. Onu birinci Viktor Xalifman köksünə sıxıb, təbrik etdi. Sonra sevincinin həddi-hüdudu olmayan milli komandanın üzvləri bir-bir Rüfətlə qucaqlaşıb, onu təbrik etdilər.

Ohan Melkumyan şahmat taxtasının arxasında şok vəziyyətdə necə oturmuşdusa, eləcə də qalmışdı. Bir idmançının bu cür həlledici, son məqamda, gərgin oyundan, bütün səylərdən sonra uduzması doğurdan da çox çətin və heç vaxt yaddan çıxmayacaq andı.

Levon Araikyan əlini çarpazlayıb, qoynuna qoymuş, acıqlı-acıqlı Rüfətə baxırdı. Ohanın komanda yoldaşları isə sakit və qəmgin halda gah uduzmuş həmvətənlərinə, gah da sevinclə bir-birini qucaqlayan azərbaycanlı şahmatçılara baxırdılar.

Viktor Xalifman tez Rüfətin atası Əliyə zəng edib, təbrik etdi. Sonra Rüfət atasıyla danışdı. Xalifman Leylaya zəng edib təbrik etdi, telefonu Rüfətə verdi.

– Təbrik edirəm, afərin, Rüfət. Bilirdim ki, qalib gələcəksən. Sən axı, ora “veyillənməyə” yox, şahmat oynamağa getmişdin! Həm də sən çox güclü şahmatçısan!

Rüfət gülərək:

– Çox sağ ol, ana,- dedi.

– Yaxşı, sən məni təbrik etməyəcəksən? - Leyla sual etdi.

– Təbrik edirəm. Bilirdim ki, qalib gələcəydin. Sən heç qoyardın ki, o cür təravətli göyərtiləri mal-heyvan yesin? Axı, sən məhkəməyə “qeybət” etməyə getmirsən. Sən çox güclü, inadcıl qanun mələyisən!

Rüfətin bu sözlərinə həm Leyla, həm də yaxınlığında onu eşidən komanda yoldaşları güldülər.

Bu çempionatda Azərbaycan növbəti - üçüncü dəfə Avropa çempionu oldu, qızıl medalı Bakıya gətirdilər. Rüfət Məmmədov isə həm də fərdi qalib olub, iki qızıl medalla Bakıya döndü. Bakıda bir neçə gün sonra onları ölkə başçısı qəbul edib, qələbə münasibətilə təbrik etdi.

... Rüfət evlərinə daxil olanda bütün xalalarının onlarda olduqlarını gördü və buna çox sevindi. Xalaları hərəsi bir hədiyyə ilə Rüfəti təbrik etməyə gəlmişdilər.

Bacılar elə sevinirdilər ki, heç Leyla o cür sevinmirdi. Ümumiyyətlə, bacılar bir-birilərinin övladlarını həm xala, həm də dayı əvəzi kimi çox istəyirdilər. Onların qardaşları olmadığı üçün şüuraltı olaraq övladların dayı boşluğunu da doldurmağa çalışırdılar. İkinci bir amil isə bacıların hər biri kasıb və çətin gənclik, tələbəlik dövrü keçirmiş və oxşar zəhmət, istedad müstəvilərində həm dar günlərin, həm də uğurlu günlərin hisslərini yaşamışdılar. Bu səbəbdən də onların arasında bacı kimi bioloji doğmalıq, sevgi hisslərindən başqa yoldaşlıq, dostluq tellərilə sosial bağlantı da yaranmışdı. Və bu amilin də təsirindən bir-birlərinin övladlarını daha çox istəyir, uğurlarına sevinirdilər. Üçüncü ciddi amil bacıların özlərinin kasıb, real olaraq ata-analarından başqa köməkləri olmayan şərtlər altında böyümüş, oxumuş, həyatda uğurlar qazanmışdılar. Və bu zaman bir-birlərinə dayaq, kömək durmaq hissləri təbii olaraq güclənmiş, sonra isə övladlarına da bu cür münasibətlər bəsləmişdilər. Bütün bu səbəblərdən bacılar həm bir-birilərini, həm də övladlarını daha çox istəyirdilər.

İnsanlar fərdi olaraq təkrarolunmazdır. Lakin müəyyən ümumi oxşarlıqlarda var. Məsələn, xalqlar müəyyən fizioloji, sosial, idraki, psixoloji və xarakter baxımından bir-birilərindən fərqlənirlər. Eyni xalqın müxtəlif coğrafi-iqtisadi rayonlarında yaşayan hissələri də bir-birilərindən müəyyən qədər fərqlənirlər. Sonra kəndlər, ailələr fərqlənirlər. Məsələn, bir ailənin övladları müəyyən ümumi amillər üzrə digər ailənin övladlarından fərqlənirlər. El arasında bu fərqi göstərmək üçün "ot kökü üstə bitər" atalar sözünü çox işlədirlər. Mənası odur ki, alma gilas gətirmir, ancaq almalar da eyni olmurlar. Əgər eynilə övladlar ata-analarının təkrarı olsaydılar, Adəmdən indiyə kimi oxşar insanlar olardılar.

Övladlar ata-analarının birgə xüsusiyyətlərini daşıdıqlarından oxşar, fərdi xüsusiyyətlərinə görə isə fərqli olurlar.

Bacıların da valideynlərindən aldıqları ümumi oxşar xüsusiyyətləri çox idi. Oktayın az, konkret və doğru danışıq tərzi, sadəliyi və dürüstlüyü, yaxşılıq etmək, mərdlik xüsusiyyətləri bacıların hər birinə keçmişdi. Səriyyənin soyuqqanlı, tələbkar, sərt tərbiyə üsulu və hisslərini gizlədə bilmək, yalana nifrət kimi xüsusiyyətləri də qızlarında qabarıq biruzə vermişdi. Onlar elm öyrənmək, təhsil almaq, həyatın özü ilə sərt davranmaq müstəvilərində həm bir-birilərinə, həm də övladlarına qarşı güzəştsiz olmuşdular. Odur ki, hər biri övladlarının ali təhsil almalarına, sonralar isə uğur qazanmalarına nail ola bilmişlər.

Oktay və Səriyyənin üst-üstə düşən dürüstlük, zəifin yanında olmaq, alicənablıq, haqqı müdafiə etmək kimi xüsusiyyətləri qızlarda qabarıq şəkildə əks olunmuşdu. Bacıların həyat fəlsəfəsinin əsasında insanlara yaxşılıq, haqlının yanında olmaq, mənəvi dəyərləri ali tutmaq kimi prinsiplər dayanmışdı. Sonradan özlərinin keçdikləri çətin yollar da onların şəxsiyyətinin formalaşmasında, öz zəhmətlərinə, iradə və biliklərinə inanmaq, istinad etmək kimi müsbət xüsusiyyətlərin yaranmasında rol oynamışdı.

Kəmalənin yoldaşı dünyasını dəyişdikdən sonra nisbətən qara-qabaq və həyatdan küskün olmuşdu. Elə bu xüsusiyyət də anası Səriyyədən keçmişdi. O da anası kimi həyat yoldaşına cismani və ruhən bağlı idi. Bacıları həmişə ona həm böyük, həm də yoldaşını itirmiş bacı kimi həssaslıqla yanaşır, bayramlarda birinci onu təbrik edir, tez-tez zəng edib, hal-əhval tuturdular.

Kəmalənin oğlu Elşən turizm fakültəsini bitirmişdi, lakin işləmirdi. Ya iş tapılmırdı, ya da iş tapılanda Elşən onu bəyənmirdi. Bəzən, özü turizm şirkəti açmaq fikrinə düşsə də buna maddi imkan tapmırdı. Elşən əslində, bacarıqlı oğlan idi, ancaq özü istədiyi işini qurmaq üçün müəyyən şərtlər çatmırdı. Kəmalə Elşəni daha çox istəyirdi. Onun işləməyini həmişə özünə stress mənbəyi hesab edirdi. Kəmalənin kiçik oğlu Mehman idmanla məşğul idi. O, neft şirkətində mühafizəçi işləyirdi. Qızı Elnarə isə öz biliyilə Tibb Universitetini bitirmişdi.

Elnarə çox istedadlı və mehriban qız idi. Bu xüsusiyyətlərinə görə anasına və xalalarına daha çox oxşamışdı. Lakin fərdi xüsusiyyətlərində "hər şeyi bəyənməmək", məsələlərə daha çox həssaslıq var idi. Odur ki, öz biliyi və zəhmətilə, çətinliklə həkim ixtisasına yiyələnsə də, nadir hallarda tapılan iş yerlərini bəyənmirdi, öz istədiyi formada da iş tapa bilmirdi. Elşənlə Elnarənin işləməməsi həm özlərinə, həm də ailəyə maddi və mənəvi çətinliklər gətirirdi. Bu dövr işsiz ali təhsilliləri qınamaq da olmurdu. Çünki, cəmiyyətdə bəzi iş, vəzifə başında olanlar qohumbazlıq, yerlibazlıq, rüşvətbazlıq xəstəliklərindən əziyyət çəkir, kadrları bu prinsiplərlə seçirdilər.

Kəmalənin dərs dediyi şagirdlər Azərbaycan dili, ədəbiyyatdan həmişə imtahanda yüksək qiymətlər alırdılar. Buna səbəb onun əsl pedaqoq, öz fənninin peşəkarı olması idi. Kəmalə müəllimə şagirdlərə qarşı çox mehriban və ürəyiyumşaq idi, eynən bahar havası kimi. Ancaq uşaqlar dərsi oxumayanda, istədiyi səviyyədə cavab verməyəndə çox qəddar, güzəştsiz olurdu, qışın sərt, şaxtalı havaları kimi...

Onun şagirdləri müxtəlif yerlərdə məsul və yüksək vəzifələrdə işləsələr də, heç vaxt övladlarını işlə təmin etmək barədə ağız açmamış, xahiş etməmişdi. Kəmalə bunu müəllimlik etikasına zidd bilmişdi.

Bacıların son beşiyi Sevdaydı. Sevdanın özünəməxsus, çox mülayim, insanpərvər xüsusiyyətləri var idi. O, hüquq fakültəsini bitirmişdi, paqon daşımağı çox arzulasa da (,) həyat ona sosial təminat sahəsində işləməyi qismət etmişdi. Elə bu iş Sevdanın xarakterinə uyğun və zövqünə cavab verən fəaliyyət idi. Az təminatlı ailələrin, sosial yardıma ehtiyacı olan insanların müraciətlərinə baxmaq, ədalətli və dürüst sənədlər hazırlamaq vicdan, peşəkarlıq və zəhmət tələb edirdi. Eyni zamanda da bu dünyadan yığıb aparmağı mümkün olan savab boxçaları hazırlamağa imkan verirdi. Sosial müdafiə sahəsində işləyən insanların cənnətlə cəhənnəm arasında durduqları yer çox sürüşkən olur. Ani zamanda rüşvət, ədalətsizlik şüarları gözləri qamaşdıra, ayaqların sürüşüb cəhənnəmə yuvarlana bilərdin. Burada ən yaxşı çıxış yolu, gözlərini örtüb baxmamaq idi.

Dəfələrlə olmuşdu ki, Sevda tapşırıqları, zəngləri, xahişləri rədd edib, öz vəzifəsini təhlükə altına alıb, qeyri-qanuni yardım, sosial müavinət almaq istəyənlərin müraciətlərini rədd etmiş, əksinə, ehtiyacı olan-

ların yardım almasının təmin olunmasını təmin etmişdir. Bacısı Leyla kimi, Sevda da haqqın və kasıbın yanında durmağı, qanunu şah bilməyi həyatının qayəsi hesab edir, bu yolda cəsarət göstərirdi.

Elə bil, qanun, haqq və ədalətpərəstlik yeddi bacının alın yazısı, taleləriydi. Sevda həm də çox həyatsevər, nikbin təbiətli bir xanım idi. Onun düşüncələrinə görə həyatın enişli, yoxuşlu yollarını getmək üçün mərd, iradəli olmaq, öz ayaqları üzərində durmağı bacarmaq lazım idi. O, həyatı ən çox öyrədici müəllim hesab edirdi. Həyatın öyrətmək üçün ən yaxşı metodları kədərli və sevincli günləri idi. Elə insanın yadında da məhz bu anlar qalırdı.

Sevda ailənin sonbeşiyi olduğu üçün bir az ərkəsöyün, bir az da daha həssas idi. İnsansevər olduğu kimi həm də kəndinə, elinə, obasına, ailəsinə, bacılarına daha çox bağlıydı. Evin kiçiyi olub, həmişə özünə uşaq kimi baxmaq, ömrü boyu Sevdanın daxili dünyasının bir küncündən nadinclik və həyəcanla boylanmışdı. Elə bu səbəbdən də ata-analarının dünyalarını dəyişməsi ona daha çox təsir etmiş, ömrü boyu hər an unuda bilməyəcəyi kədərli günlər kimi yadında qalmışdı. Axı, uşaqlar daha çox yadda saxlayır və təsirlənirlər. Oktay dünyasını dəyişəndə Sevda uzun müddət özünə gələ bilmədi, yeriyəndə sanki ayaqlarının yerə dəydiyini belə hiss etmirdi. Hətta, onun bu vaxtlar otuzdan yuxarı yaşı olmasına baxmayaraq, yanında digər insanlar “ata”, - deyəndə qısqanclıq hissləri keçirirdi. O, ata itkisini ruhən qəbul edə bilmirdi.

Sevdanın ikinci ağır, yaddaşında dərin və geniş kədər izləri buraxan gün, anası Səriyyənin dünyasını dəyişməsi olmuşdur. Digər qızlar Bakıda yaşadıqlarından, Oktayla Səriyyə meyillərini Sevdaya daha çox salmış, o biri bacıların da fiziki görkəminə baxmaq, toxunmaq ehtiyacını onunla ödəməyə çalışmışdılar. Və daha artıq sirdaş, dost olmuşdular.

Onun eyni zamanda, geniş, qlobal düşüncələri də var idi. Sevda həmişə ata-anasından razı olmuş, onları minnətdarlıq hissləri ilə xatırlamışdır ki, ona 6 mükəmməl şəxsiyyət, bacı qoyub getmişdilər. Bacıları Sevda üçün hərəsi bir mələk, işıqlı ulduzlar idi. Onları əvəzsiz nemət hesab edirdi.

Sevdanın Allaha şükür etdiyi, ona verilən əvəzsiz nemət, nəfəs və həyatda tutacaq varlıq qızı Xatirə idi. Xatirə həmişə öz ağlı, əxlaqı və is-

tedadı ilə anasına həyat eşqi, sevinci bəxş etmişdir. Xatirə öz gücünə, iradəsinə uyğun olaraq yüksək balla memarlıq fakültəsinə daxil olmuş, Türkiyə Respublikasında ingilis dilində təhsil alırdı. Xalaları nə qədər Xatirəyə "səndən yaxşı hüquqşünas, həkim olar", - desələr də, o öz ürəyinin səsinə qulaq asmış, müasir gənclər kimi müstəqil seçim etməyə üstünlük vermişdir. Müstəqil, yaxşı istiqamətdə düşünən, iradə və qətiyyətlə zəhmət çəkən, intellektli gənclər, xüsusilə, qızlar millətin qızıl genefondudur. Xatirə Sevdanın xeyirxah əməllərinin bu dünyada Allah tərəfindən bəxş edilən hədiyyəsi idi. Öz fərqli zövqü, həyata baxışları, dərin təfəkkürü və iti zəkasıyla həmişə Sevdaya qürur, sevinc mənbəyi idi.

Sevda digər bacıları kimi, hər uğurunu, malik olduğu dəyərlərə, mələk Xatirəsinə görə Allaha şükürlər edir, yaxşı əməllərlə, savab işlərlə nemət verilən bəndə kimi borcunu ödəməyə çalışırdı.

Bacıların ikisi – Nailə və Yasəmən həkim idilər. Hər ikisi də, uşaq həkimi, ginekoloq sahəsi üzrə ixtisaslaşmışdılar. Öz bilikləri ilə Tibb Universitetinə daxil olmuş, fərqlənmə diplomuyla bitirmişdilər.

Həkimlik qədim və müqəddəs peşələrdən olub, insanda nəzəri, praktiki biliklər və peşə vicdanı tələb edir. Əgər bu amillərin hər hansı biri çatmırdısa, həkimin gördüyü işin nəticəsi sağlamlıqla bitməzdi.

Müasir dövrdə özəl xəstəxanaların gün-gündən çoxalması fonunda kapital sahibləri tibbi bilik sahiblərini istismar təsirinə salmışdılar. Özəl xəstəxana, həkim və aptek "şər üçbucağı" yaratmışlar. Onlar hər bir xəstələnmiş insana real qazanc mənbəyi kimi baxır, əvvəlcə onu lazım olan-olmayan analizlərdən, həm də şişirdilmiş, nəzarətdən kənarda qalmış qiymətlərlə keçirirlər. Sonra həkim ona ancaq "filan aptek"də satılan, ən təsirli, firma iynə-dərmanları yazır. Beləcə, xəstə orqanizm heç bir uyğunluğu olmayan, tərkibi naməlum dərmanlar qəbul edərək daha da bərbad hala düşür. Çünki, şər üçbucağının əsas qayəsi xəstəni sağaltmaq yox, pul qazanmaqdır.

Bu cür çətin şəraitdə öz vicdanını qoruyub, bilik və peşəkarlığını vətəndaşın sağlamlığına yönəltmək, "şər üçbucağı"nın elementi olmamaq həkimdən güclü iradə, Allaha inam və insanpərvərlik tələb edir.

Nailə və Yasəmənin Oktay və Səriyyədən aldıqları genetik xüsusiyyətlər, tərbiyə, keçdikləri çətin, zəhmətli həyat yolları onların həqiqi,

"Hippokrat andı"na sadiq həkim olmaqlarına zamin yaratmışdır. Eyni zamanda, onların dürüst və xeyirxah həkim olmalarına çox böyük təsir etmişdir. Doğurdan da, ailə üzvləri, bacı, qardaş, övladlar da insanın mənəviyyatının, şəxsiyyətinin və peşə vicdanının formalaşmasında böyük rol oynayırlar. Peşə vicdanı, məsuliyyətini dərk edən vətəndaşlar çoxluğu bir xalqın, dövlətin əsas güc amillərindəndir.

Nailə orta məktəbi bitirəndən sonra hüquqşünas olmaq istəsə də, onun sənədlərini bacısı Leylanın hüquq fakültəsində oxuduğunu bəhanə edib, qəbul etməmişdilər. Bu zaman Tibb Universitetinə sənəd verib, konkursa düşmüş, sonra isə gündüzlər işləyib, gecələr hazırlaşmış, yenidən imtahan verərək qəbul olunmuşdu.

O, uşaqlara qarşı çox həssas və qayğıkeş idi. Bunun çoxlu səbəbləri var idi. Əsas səbəblər isə özündən az yaş fərqlərilə kiçik üç bacısının olması və ailə qurduqdan sonra uzun müddət övladının olmaması idi. Kiçik bacılara qayğı, kasıb ailədə böyüyən uşaqların iç dünyasına yaxınlıq Nailədə uşaqlara qarşı, xüsusilə yoxsul ailələrin qız uşaqlarına qarşı məhəbbət və qayğı hissləri formalaşdırmışdır. Uzun müddət öz övladının olmaması isə analıq hisslərinin, məhəbbətinin uşaqlara yönəlməsinə səbəb olmuşdur. Beləliklə, Nailənin hissi yaddaşında olan kiçik bacılara qayğı və məhəbbət, analıq hissləri birləşərək uşaqlara qarşı güclü bacı-ana sevgi dünyası yaratmışdır.

Allah qadınlarda uşaqlara qarşı  xüsusi bir qayğı, məhəbbət, sevgi dünyası yaratmışdır. Bu dünyanın enerjisi xərclənməyəndə, onun real sakinləri - öz övladları olmayanda qəribə, çox mənalı hadisələr müşahidə edilir. Bəzən, bu cür qadınlar hər şeyə laqeyd, mənasız baxırlar. Elə olur ki, uşağa qarşı mövcud olan sevgi, qayğı enerjisi bumeranq kimi edir, qadının öz mənəvi aləminə zərbə vurur, qeyri-normal hərəkət və düşüncələrin yaranmasına səbəb olur. Hətta, bəzən digər uşaqlara qarşı həsəd, aqressiv münasibətlər ortaya çıxır. Belə hallarda, onları başa düşmək, anlamaq lazımdır, nəinki qınamaq... Ancaq bəzi hallarda isə bu cür qadınlar digər uşaqlara qarşı çox həssas, qayğıkeş və sevgili olurlar. Bu, ən çox imanlı, özünə inanan, gələcəyə nikbin baxan insanlarda müşahidə edilir. Nailə məhz övladı olmadığı dövrlərdə bu cür olmuşdur.

Uşaqlara olan qayğı və sevgi aləmi Nailəni uşaq evinə çəkib gətirdi. Bəlkə, bu da həyatın sirli gedişlərindən biriydi. Və Nailə on beş ilə yaxın uşaq evində baş həkim işlədi, hər günü, saatı qəribə, unikal anlarla, onun digər bacıları kimi əfsanələr yaratmaqla keçdi.

Elə bil, yeddi bacının həyatları və fəaliyyətləri insanlıq aləmində yaxşılıq, fədakarlıq, haqq və ədalət nümunələri yaratmaq üçün mövcud olmuşdur...

Nailə uşaq evində baş həkim işlədiyi müddətdə elə ilk anlardan uşaqlara o qədər yaxın oldu ki, ona "ana", "mama" deməyə başladılar. Uşaq evində çalışanlar heç vaxt bu cür hadisələrlə qarşılaşmamışdılar.

Uşaqlar Nailəyə o qədər öyrəşdilər ki, hətta bəziləri o evə gedəndə ağlayıb, dalınca gəlirdilər. Nailə belə vaxtlarda onları növbə ilə evlərinə aparır, axşam onlara qulluq edir, səhər yenə öz yerlərinə qaytarırdı.

Bəlkə də, Allahın ən çox nəzər və diqqətində olan məkanlardan biri də uşaq evləridir. Bura gələn, gətirilən uşaqların hərəsinin bir əfsanəsi, kiçik ömürdən boylanan dağlar boyda həyat hekayələri vardır. Uşaq evi sakinlərinin bura gəlişlərinin müxtəlif səbəbləri vardır. Bəlkə də, həyat uşaq evlərində daha sirli gedişlərin nəticələrini toplayır...

Bəzən, elə səbəblərdən uşaqları gətirib bura qoyurlar, yəni imtina edib, atıb gedirlər ki, insanın onu bəndə kimi tutub saxlayan Allahın "əlindən" qaçıb getməsinə bənzəyir.

Neçə-neçə uşağın əllərində, ayaqlarında qüsurları olduğu üçün gətirib bura atıb, getmişdilər. Qüsurlu uşağa əlavə qayğı, məhəbbət göstərilməli halda, ondan imtina etmək ancaq insan cildində şeytanın ağlına gələrdi. Axı, niyə? Tutaq ki, uşağın bir əli ya ayağı yoxdur, qüsurludur, ondan niyə imtina edirsən? Axı, daha çox hissəsi ki, vardır... Əsas odur ki, özü, ruhi vardır... Deyəcəklər ki, "uşağının əli-qolu yoxdur?" Qınaqdan qorxur insan? Ya şikəst uşağa qulluğun sonunda, ona borcunu qaytara bilməməsindən? Bütün hallarda insanın öz övladından imtinasını anlamaq və bəraət qazandırmaq üçün gərək, "şeytan" olasan.

Bu cür uşaqlarından imtina edənlərə, eləcə də, digər səbəblərdən övladlarını uşaq evinə qoyanlara Nailə saatlarla yalvarır, onları hər cür üsullarla başa salır, fikirlərindən döndərməyə çalışırdı. Yeddi səyyarənin biri olan həkim Nailə neçə-neçə əlsiz, ayaqsız uşaqlara Türkiyə Respublikasında protez qoydurulmasına nail olmuşdur. Digərləri kimi əl

və ayaqlarının olduğunu görən uşaqların sevinci, gülüşləri sürətlə ərşə qədər yayılmışdır.

Bir dəfə Nailənin yanına rayonlardan birindən ata-ana valideynlər gəlmiş, hər ikisi ağlaya-ağlaya övladlarından, bir yaşlı körpədən imtina etmək istədiklərini bildirmişdilər. Səbəb isə mücərrəd, qəribə idi... Uşaqda həm oğlan, həm də qız xüsusiyyətləri var idi. Nailə nə qədər tibbin inkişf etdiyini onlara başa salsa da, buna bir əlac tapacaqlarına söz versə də, xeyri olmamışdı. Həmin valideynlər : "bu uşaq böyüyəndə biz el-obanın üzünə necə baxacıq?" - demişdilər. Uşağı orada qoyub, getmişdilər. Nailə həkim bütün səylərini toplamış, ciddi müayinələrdən sonra uşağın fiziologiyası və orqanlarının  qıza daha yaxın olduğunu müəyyən etmişlər. Uğurlu əməliyyatlardan sonra gözəl bir qız olmuşdur. Sonradan imkanlı bir ailə onu övladlığa götürmüşdür və həm o qız, həm də ailə həmişə Nailəylə əlaqə saxlamış, hörmətlərini, ehtiramlarını ifadə etmişlər.

Nailə övladlığa uşaq götürmək istəyənləri bir həkim, insan, xüsusi xidmət orqanı, "işçisi" həssaslığıyla yoxlamış, sonralar da tez-tez diqqətində saxlayıb, maraqlanmışdır. Elə bil, öz balalarını hansısa evlərə qonaq göndərmişdir...

Bir həkim, insan, bacı, ana kimi Nailənin uşaqlara nəvazişi, qayğıkeşliyi və başlıcası isə hər zaman açıq, gizli surətdə onlara etdiyi dualar, uşaq sevincləri, gülüşləri ilə qarışaraq kainata qayıtmışdır. Və öz fərəhli, ecazkar nəticəsini vermişdir. Nailənin Aysel adlı mələk qızı dünyaya gəlmişdir.

Aysel də anası Nailə və xalaları kimi genetik istedadlı qız idi. Və Nailənin bütün bacıları kimi öz övladına qayğı, mehribanlıqla yanaşı tələbkarlığı, sərt təlim-tərbiyə üsulu Ayselin istedadını müsbət istiqamətdə inkişaf etdirmişdir. O doqquzuncu sinifdə verdiyi xüsusi imtahanlarının nəticələrinə görə vaxtından əvvəl iqtisadiyyat kollecinə qəbul olunmuşdur. Eyni zamanda, Aysel dörd xarici dili öyrənmişdir. O, istedadlı və zəhmətkeş olmaqla yanaşı, çox mülayim təbiətli, özünə inanan və vətənpərvər qız idi.

Yasəmən də uşaq həkimi idi. O, Bakıda, kimya-biologiya təmayüllü Respublika İnternat Məktəbini bitirmişdir. Bu məktəbə daxil olanların

əksəriyyəti həkim olmaq arzusuyla oxuyurdular. Ancaq Yasəmən hələ uşaqlıqdan həkim olmağı  qarşısına məqsəd qoymuşdu. Onun bu qərara gəlməsində atası Oktayın təcili yardım sürücüsü olması böyük rol oynamışdı. Atasının evdə etdiyi söhbətlərdən həkimlik peşəsinin müqəddəsliyi və insanların həyatındakı əvəzedilməz rolunu dərk eləmişdi. Yasəmən başa düşmüşdü. ki, bir həkimin bəzən beşmüşdüş dəqiqəlik zəhməti, müdaxiləsi bütöv bir insan həyatını xilas edə bilərdi.

O, həkim peşəsini ən gözəl və vacib peşələrdən hesab edir, sənətini sevir və həkim olduğu üçün özünü xoşbəxt sayır, Allaha şükürlər edirdi. Düşünürdü ki, bu sənət vasitəsilə insanların həyatına həyat qatır.

Yasəmən cərrah mama, ginekoloq idi və bu sənəti şərəfli, ləyaqətli və məsuliyyətli sahə hesab edirdi. Çünki, başqa ixtisas həkimlərindən fərqli olaraq, cərrah mama-ginekoloq bir uşağın, demək gələcək bir ailənin, nəslin, eyni zamanda, bir ananın, yəni indik zamanda bir ailənin məsuliyyətini öz üzərində daşıyır.

Deməli, cərrah mama - ginekoloqun bir kobud səhvi, yanlışlığı gələcək bir nəslin, bir ailənin faciəsi, sonu deməkdir. Bu sahədə çalışan həkimlər hansı səbəblərdən faciələrə bais ola bilərdilər? Əlbəttə ki, çoxlu səbəblər vardır. Ancaq əsas səbəblər nəzəri və təcrübi biliklərin, peşəkarlığın azlığı, laqeydlik, peşə vicdanının yoxsulluğu, insan taleyinə biganəlik və təbii ki, özəl xəstəxana, həkim və aptek şər üçbucağının bir elementi olması amilləridir. Həqiqi həkim böyük sağlamlıq qoruyucusu, həyat becərən bağbandır. Bunun üçün onda bilik, peşəkarlıq və peşə vicdanı tələb edir.

Yasəmən də digər bacıları kimi öz sənətinə insanlara xidmət vasitəsi kimi baxmış, yüzlərlə həkimlər içərisində nadir müşahidə ediləcək sirli, savab əməllər, düşüncələr sahibi kimi kainatın insan mövcudluqları içərisində yer almışdır.

XX əsrin sonları - XXI əsrin əvvəllərində tibb elmi çox inkişaf etmişdi. Və elə bu elmi-texnoloji inkişafın potensial gücündən insanların artım sürətinə uyğun olaraq onları istismar etmək, daha artıq qazanmaq üçün səy göstərən kapital sahibləri yararlanmışdılar. Nəticədə, tibb sahəsi bütün dünyada insanları ən zəif yerindən - sağlamlığından zəli kimi yapışaraq, həm can, həm də kapital soran qorxunc, ağ rəngli "əzrayı-

la" çevrilmişdir. Bu hal cərrah mama - ginekoloq sahəsində də özünü qabarıq göstərirdi.

Ana bətnində uşağın cinsiyyətini öyrənməklə tibb qız uşaqlarının dünyaya gəlmədən kütləvi qətlinə başladı. Yüz minlərlə uşaq qətlə yetirildi, ancaq insanlar bunu adi hal kimi qarşıladı. Hansı ki, cəmi beş-altı ay sonra o uşağı kimsə qətlə yetirsə, uzun illərin həbs cəzasını alardı. Bəs, səbəb nə idi ki, insanlar bu cür məntiqsiz mövqe sərgiləyirdilər?

Ən çox həkimlər nə etdiklərini daha çox dərk edirdilər. Ancaq dərk etdiyin cinayət və günah işdən səni çəkindirmək üçün peşə vicdanı, yüksək mənəviyyat və Allah qorxusu olmalıydı.

Yasəmən onun yanına gələn, övladlarının qız olduğunu öyrənən və müxtəlif əsassız bəhanələrlə uşağı götüzdürmək istəyən onlarla ailəni fikrindən daşındıra bilmişdir. Bunun üçün psixoloji, pedoqoji, dini, insanlıq baxımından nə qədər misallar, əsaslar gətirmiş, yeri gələndə, hətta yalvarmış, ağlamışdır. Özlərinin yeddi bacı olduqlarını, keçdikləri çətin həyat yollarını, indiki uğurlarını əyani misal gətirmişdir.

Ancaq Yasəmənin valideynləri öz fikirlərindən çəkindirməkdə əsas səbəb o deyildi ki, özləri yeddi bacı olmuşdular. Bu, onun ruhunun, mənəvi aləminin, Allah, bəndə yanında həkim peşəsinin müqəddəsliyini dərk etməsinin inikası idi.

Yasəmən eyni zamanda da, haqqın, ədalətin, kasıb və zəiflərin yanında olmaq kimi yüksək mənəvi keyfiyyətlərə malik idi. Bu cür ümumi yüksək keyfiyyətlər bütün bacılarda var idi və hər biri öz sahəsində əməlləri, düşüncələrilə sübut edirdilər. Bu səbəbdən də işləmək onlar üçün asan olmurdu, həmişə kapital qazanmaq istəyənlərin maneələrinə toxunur, qəzəbinə tuş gəlirdilər. Tarixən cəmiyyətdə ictimai münasibətlər elə qurulmuşdur ki, yaxşılıq etmək, ədalətli olmaq, kasıbı müdafiə etmək istismarçı qüvvələrlə üz-üzə gəlmək demək idi. Böyük iradə, güc və cəsarət tələb edirdi. Axı, hansı özəl klinika sahibi razı olardı ki, onun həkimi qəbula gələn qadının uşağını götürüb pul qazandırmasın, əksinə, onu bu fikirdən daşındırıb, geri yola salsın? Bu bir növ kisənin ağzına gəlib çatmış pulu geri qaytarmaq demək idi...

Dəfələrlə olmuşdur ki, Yasəmən cərrahiyyə, qeysəriyyə yolu ilə uşağı dünyaya gətirmək istəyən valideynləri fikrindən daşındırmış, bu

müasir bəlanın gələcəkdə həm uşağın, həm də ananın sağlamlığı üçün zərərli olduğunu izah etmişdir. Hansı ki, qeysəriyyə yolu ilə uşaq dünyaya gətirmək və normal doğuş arasında klinikaya ödəniləcək pul məbləğləri arasında ciddi fərqlər var idi. Odur ki, əksər klinika sahiblərindən mama ginekoloqlara şifahi tapşırıq gəlirdi ki, müraciət edən xanımların "keysər" yolu ilə uşaqlarını dünyaya gətirməyə razı salsınlar. Bunun üçün həkimlər tibbi bilikləri olmayan xanımları "sizdə normal doğuş mümkün deyil, uşağın bağırsaq-göbək" cifti boynuna dolanıb, tərs gəlir" və s. yalan informasiyalarla qorxudaraq cərrahi yolla razı olmağa vadar edirdilər. Yasəmən isə heç vaxt zərurət olmadıqda bunu etməzdi. Normal doğuşun ən doğru və sağlam yol olduğunu israrla başa salırdı.

Yasəmən eyni zamanda öz işinin peşəkarıydı. O, zərurət yarandıqda, xəstə əməliyyat olunaraq uşaq dünyaya gətirirdisə, çalışırdı ki, bu işi də dəqiqliklə görsün və başdansovdu etməsin.

Bəzən, olurdu ki, onun yanında kasıb, imkansız ailələr gəlirdilər. Onsuz da özəl xəstəxanalarda istər təbii, istərsə də əməliyyat yolu ilə uşaq dünyaya gətirmək son dərəcədə baha idi və əhalinin bir çox təbəqələrinin büdcəsinə uyğun deyildi. Həmin əməliyyatlara çəkilən xərc, iynə-dərman və s. çox cüzi miqdar pul etsə də, əvəzində fantastik rəqəmlə ödəniş tələb olunurdu. Elə hallar olmuşdur ki, Yasəmən həkim öz halal qazancı hesabına kimsəsiz və ya həddən artıq kasıb insanların əməliyyatını həyata keçirmişdir. Necə ki, Leyla müdafiə edəcəyi şəxsdən pul almaq əvəzinə onun övladlarına bazarlıq etmiş, ayaqqabı almışdı. Nailə bəzən qüsurlu, atılmış uşaqları öz vəsaiti hesabına əməliyyat etdirirdi, Sevda sosial yardım üçün müraciət edənlərin halına acıyıb, qanunla iş düzəlməyəndə öz pul kisəsində olan qalan pulunu insanlara verirdi... Elə bil, bu bacılar ulduzlar göyə səpələnib, müxtəlif aləmlərə işıq saldığı kimi, bir çox fəaliyyət sahələrində işləməklə insanların həyatlarına nur saçmaq üçün yaranmışdılar.

Yasəmən anaların övlad dünyaya gətirməsinə, sonra isə uşaqlara o qədər həssaslıqla yanaşırdı ki, hər bir belə hadisə onun yaddaşında çox maraqlı, bütün detalları ilə yadda qalırdı. Elə ona müraciət edən insanlar da bu mehriban, gülərüz, şirindilli və peşəkar həkimi heç vaxt unutmurdular.

Bütün həkimlər kimi, Yasəmənin də peşə fəaliyyəti dövründə çox ağır anlar olmuşdur. Bir dəfə klinikaya çox ağır bir xəstə daxil olur. Onda ciftin vaxtından əvvəl ayrılması baş vermişdi. Xəstəni təcili cərrahiyyə əməliyyatına götürürlər. Xəstə çox qan itirdiyi üçün böyük problemlər yaranmış, həyatla çarpışmaq üzrə idi. Onun həyatına ciddi təhlükə yarandığını görən Yasəmən həkim özündən və digər işçilərdən qan alaraq, xəstəyə köçürür. Sonra isə başını yuxarı qaldırıb, Allaha yalvarır ki, bu insanı həyata qaytarsın. Assistent tibb bacısı isə ağlayaraq "doktor, biz xəstəni itirmək üzrəyik", - deyirdi. Yasəmən isə işini görə-görə, tez-tez başını yuxarı qaldırıb, Allahdan imdad diləyir, kömək istəyirdi. Birdən, Yasəmən elə hiss etdi ki, kimsə əməliyyat blokunda dayanıb, onun gözlərinə baxır və "doktor, heç də tələsmə, təmkinlə, xəstəni necə lazımdırsa, o cür əməliyyatı icra et. Hər şey yaxşı olacaqdır" , - deyirdi. Yasəmən var gücünü toplayıb, dəqiqliklə və nə tələsmədən, nə də gecikmədən əməliyyatı başa çatdırdı. Xəstənin həyatını xilas edə bildilər. Bu cür anlar heç vaxt onun yaddaşından çıxmadı və hər dəfə xatırladıqca, Allaha sonsuz şükürlər edirdi ki, onun dualarını eşitmişdir. Yasəmən həm də bu inamdan bənzərsiz zövq alırdı. Həyatını xilas etdiyi insanlar tez-tez Yasəməni yad edir, onunla əlaqə saxlayır, "doktor, siz olmasaydınız və ya beş dəqiqə geciksəydiniz, indi mən həyatda yox idim", - deyib, təkrar minnətdarlıq edirdilər. Bütün bunlar Yasəmənə əlavə ruh, güc verir, öz işini daha da peşəkar görmək üçün çalışırdı. Əlavə yeni ədəbiyyatlar oxuyur, nəzəri biliklər öyrənirdi. Yasəmən hələ həkim kimi işləməyə başladıqdan az sonra Krasnodar şəhərində, iki il sonra isə Belçikada öz ixtisasını artırmaq üçün təlim kurslarında iştirak etmişdir.

Yasəmənin Sənan adlı bir oğlu var idi. Sənan hüquq fakültəsini bitirmişdir.(bitirmişdi.) Rusiyada özəl firmaların birində çalışırdı.

Digər bacılar kimi Yasəmən də öz həyat yoldaşına həmişə hörmət qoymuş, ürəkdən sevmişdir. Və digər bacıların həyat yoldaşlarına öz qardaşlarının əvəzi kimi baxmışlar.

Tələbəlik zamanı çox əziyyət çəkmiş, gündüzlər işləyib, axşamlar təhsil alan, Leyla və Nailəylə əl-ələ verib, çətinlikləri aşan Həlimə universiteti bitirdikdən sonra Gömrük orqanlarında çalışmağa başlamışdı.

Gəncliyindən zəhmətə alışqan olan Həlimə öz peşəsinə ciddi və qanunpərəst mövqedən yanaşırdı. Məsuliyyəti və çalışqanlığı sayəsində gğmrük polkovniki rütbəsinə qədər yüksəlmişdi.

Gömrüklər ölkənin giriş qapılarıdır və hər cür təəssüratlar ilk olaraq buradan formalaşır. Eyni zamanda, dövlətin büdcəsinin formalaşmasında gömrüklərin rolu böyükdür. Bu mənada gömrükdə çalışan istər məsul, vəzifəli, istərsə də sıravi əməkdaşlarda peşə biliklərilə yanaşı, yüksək mədəniyyət və ünsiyyət keyfiyyətləri, həmçinin rüşvət və korrupsiyadan uzaq, təmiz, vətənpərvər xüsusiyyətlərin olması vacibdir.

Həlimənin böyüdüyü mühit, atasının halal çörəyi, anasının sərt, nizam-intizamlı tərbiyə üsulları və nəhayət, özünün keçdiyi zəhmətli, çətin yollar onun vicdanlı, peşəkar bir gömrük işçisi olmasına səbəb olmuşdu.

Dəfələrlə müxtəlif yollarla edilən rüşvət təkliflərini, qanunu pulla satın alma səylərini rədd edərək, təmiz işləməyi üstün tutan Həlimə, heç vaxt vicdanı qarşısında başı aşağı qalmadı. Və təbii ki, onun bu cür sağlam və dürüst iş prinsipləri korrupsiya zəncirlərində ən zəif həlqə hesab olundu.

İdarə rəisləri dəyişəndə o çox sevinmişdi ki, həmyerlisidir, onunla işləmək daha asan və perspektivli olacaqdır. Lakin, yanıldı. Rəis öz şəbəkəsini qurmağa başladı və bir çox peşəkar işçiləri özünə "yad" bilib, vaxtından əvvəl təqaüdə göndərdi. O cümlədən də, ömrünü gömrük işinə sərf etmiş, daha çox peşə kamilliyinə çatan, məhsuldar fəaliyyət dövrü olan Həliməni də məcburən təqaüdə göndərdilər. Və bununla da Həlimənin nəinki hər hansı sahədə işləmək, eləcə də həyata olan həvəsini söndürdülər, iyirmi yeddi illik gömrük işində xidmətin, sağlam və dürüst fəaliyyətinin nəticəsində çox az miqdar təqaüd təyin etdilər. O, kasıblıq və həyata küskünlüklə qiymətləndirildi. Uzaqdan və yaxından tanıyanlar, eşidən və bilənlər heç kim inanmadı ki, bu qədər uzun müddətdə gömrükdə işləyən bir insan heç bir var-dövlət yığmamışdır. Baxmayaraq ki, dəfələrlə külli miqdar pulların gömrükdən qaçaq keçməsinin qarşısını almış, yüksək rüşvət təkliflərini rədd etmişdir.

Ən təhlükəli və zərərli hallardan biri bu idi ki, hansısa sahədə rəhbər dəyişikliyi olanda, kadrları ağına-bozuna baxmadan işdən çıxarır, vəzifələrini aşağı salır, yaxşı halda iş yerlərini dəyişdirirdilər. Boşalan iş yer-

lərinə və vəzifələrə ya öz yaxın qohum, dost-tanışlarını, ya da rüşvət müqabilində qeyri-peşəkar kadrlar təyin edirdilər.

Öz zəhmətilə, biliyi və təcrübələrilə ömrünü həsr edərək pillə-pillə yüksələn kadrların tutduqları vəzifələrdən bu cür kənarlaşdırılması onların mənəvi aləmlərində sarsıntılara səbəb olurdu. Eyni zamanda, həmin sahələrdə dayanıqlı inkişafın qarşısını alırdı.

Bacıların bilik, bacarıq, peşəkarlıqlarından, dövlətə, qanuna, insanlara qulluq etmək, fayda vermək hisslərindən və bir-birilərindən başqa heç bir arxa-dayaqları, vəzifəli dost-tanış, qohum-əqrabaları olmamışdır. Ancaq bir-birilərinə və özlərinə güvənmişdilər. Odur ki, hər biri öz sahələrində bəndə, vətəndaş kimi yüksək, nümunəvi fəaliyyətlər göstərsələr də, əksər hallarda rüşvətxor və korrupsiya şəbəkələri tərəfindən təzyiqlərə məruz qalmışdılar. Hətta, birinə qarşı yaranmış kin-küdurət səbəbindən digərlərinə də təzyiqlər edilmişdir. Leylayla prinsip aparanlar onun həyat yoldaşı Əli, oğlu Rüfətlə yanaşı, bacıları ilə də təzyiq metodları ilə danışmış, bəzən hədələmiş, bəzən də cəzalandırmışlar. Məhz bu cür səbəblərdən Nailə tibb, Zəhra isə hüquq sahəsi üzrə namizədlik dissertasiyaları müdafiə etsələr də, diplomlarını ala bilməmişdilər. Məsələn, Zəhraya iki şərt qoymuşdular: "ya diplom, ya da iş!". Yəni, hal-hazırda hüquq işindəsənsə, sənə diplom olmaz. İşdən çıx, - diplomunu verək, - kimi absurd bəhanələr gətirmişlər. Halbuki, qanunvericilikdə hüquq işiylə məşğul olanlara elm və təhsil sahəsində çalışmağa icazə verilirdi.

Həlimə təqaüdə məcburən  göndərildikdən sonra bacıları, dost-tanışları digər işlər təklif etsələr də, razı olmamışdı. Öz təbirincə desək, “atdan düşüb, eşşəyə minmək” istəməmişdir. Öz dəmir yolunda dayanıb, paslanıb, ömrünü başa vurmağı yad torpaqlı yollarda ayaqyalın getməkdən üstün tutmuşdur. Və o gündən nisbətən qaradinməz olmuşdur.

Həlimənin Fərhad adlı oğlu var idi. Bəlkə də, başına gələn haqsızlıqlardan Türkiyədə təhsil almış oğlunun elə orada qalıb, işləməsinə etiraz etməmişdi. Fərhad dövlət idarəetmə sahəsində yüksək təhsil almış, dörd xarici dil bilirdi. Bacıların içərisində nisbətən soyuqanlı, zəhmli xarakteri ilə fərqlənən Zəhra idi. Zəhra da Yasəmən kimi kimya-biologiya təmayüllü Respublika internat məktəbini bitirmişdir. Lakin burada oxu-

yan şagirdlərin əksəriyyətindən fərqli olaraq tibb sahəsinə deyil, hüquq sənətinə yiyələnmişdir. Bu internat məktəbin ciddi, nizam-intizamlı şəraiti, sonralar isə peşəsinin xüsusiyyətləri Zəhranın daxili istiqanlı, mehriban ruhunun ətrafına "zəhmli soyuq" qılaf, örtük çəkmişdir. Onun daxili aləmini, aurasını buz içində atəşlə ifadə etmək olardı. Haqq, ədalət, zəifin, kasıbın yanında atəş buzu əridir, güclülərin, qanun tapdalamaq istəyənlərin, kasıbı əzməyə cəhd edənlərin yanında isə buz atəşi söndürürdü...

Zəhra özü də bilmədi necə olmuşdur ki, hüquqşünas sənətinə yiyələnmiş, bu aləmə düşmüşdür. O, bu aləmi sehirli və çətin bir dünya kimi təsəvvür edirdi. Əslində isə, Zəhra hüquqşünas deyil, hər zaman diplomat olmaq arzusu ilə yaşamış, bu barədə düşünmüşdür. Ancaq rüzgarın sirli tərəflərdən əsən küləkləri onun arzularını hüquq yollarına qovub gətirmişdi. Zəhranın hüquq fakültəsinə daxil olması ibrətamiz bir əfsanə idi.

O, yeddinci sinfə qədər öz doğma kəndlərində oxumuşdu və bu müddətdə böyüyəndə hansı sahəni seçmək barəsində düşünməmişdi. Qarşısına yeganə məqsəd kimi bütün fənnləri yaxşı oxumağı qoymuşdu. Təbii ki, Səriyyənin tələbilə xüsusi olaraq riyaziyyatı öyrənməli idi. Digər bacılar kimi, onun da uğurlarının əsas səbəblərindən biri də məhz analarının riyaziyyatı öyrənmək tələbi, riyazi təfəkkürlərinin olması dayanırdı. Bütün fənnləri yaxşı oxuyan Zəhra hansı ixtisası seçəcəyini qətiləşdirməmişdi.

Yasəmən kimya-biologiya təmayüllü məktəbdə oxuyurdu. Ona Bakıdakı bu məktəbdə oxumağı bacılarına yeri gələndə ana, ata, bacı, sirdaş olan Leyla tövsiyə etmişdi. Çünki, Leyla Yasəmənin həkim olmaq arzusunu və bu məktəbin həkimlik üçün çox gözəl təhsil verdiyini bilirdi. Yasəmən bir il idi ki, bu məktəbdə oxuyurdu. Evdə hamı Yasəmənin oxuduğu məktəbdən razı qaldıqları üçün Oktay, Səriyyə və Leyla Zəhranın da bu məktəbdə oxumağına qərar verdilər. Və onlar Zəhranın da həkim olacağını düşünürdülər.

Beləliklə, Zəhra kimya-biologiya təmayüllü internat məktəbinə daxil oldu. Elə ilk gündən başqa bir dünyaya düşdüyünü hiss etdi. Müxtəlif rayonlardan olan şagird yoldaşları və tələbkar müəllimlərin əhatəsinə düşmüşdü. Bu məktəbdə oxuyan, sonra bir-birilərini "İNTER-5 uşaqla-

rı" adlandıran şagirdlər burada təkcə yüksək təhsil deyil, həm də həyat dərsləri öyrənir, ömrü boyu orada keçirdiyi günləri, rəngarəng şirin xatirələri unutmurdular.

Zəhra burada ata-anasından ayrı yaşamağı öyrənsə də, bacıları ona ayrılığı hiss etdirmədilər. Günlər keçdikcə o özünün şəxsiyyət kimi formalaşdığını hiss etdi. Və hansı sənəti seçmək lazım olduğu vaxtın yetişdiyini anladı. Zəhra qəti olaraq belə qərara gəldi ki, həkim olmayacaq. O niyə belə qərara gəlmişdir - həmin vaxt özü də bilmirdi. Heç sonralar da özü-özündən müxtəlif səbəblər uydursa da qəti olaraq özünü inandıra biləcək bir aydın cavab tapa bilməmişdir. Bacılarıyla məsləhətləşdi, Bakı Dövlət Universitetinin (BDU) şərqşünaslıq fakültəsinə daxil olmaq istədiyini, əsas məqsədinin diplomat olması arzusunu bildirdi. Leyla bu fikri qəbul etmədi. O fakültəyə qəbul olmaq şansının az olduğunu, ona görə də hüquq fakültəsinə sənədləri verməyini məsləhət bildi. Ancaq bunun üçün iş stajı tələb olunurdu. Və yekunda qərara gəldilər ki, tarix fakültəsinə sənədlərini versin. Elə də etdilər.

Zəhra hər fənndən "4" qiyməti aldı. Lakin həmin dövrdə imtiyazlar, güzəştlər mövcud olduğundan "3" qiymət alanlar tələbə adını qazansalar da, Zəhra konkursa düşdü. O bu hadisədən pis oldu, ağladı, lakin ümidsizliyə qapılmadı, sakit dayanmadı. Haqsızlıqla barışmadı, Mərkəzi Komitəyə şikayət etməyə qərara gəldi və gedib qəbula yazıldı.

Evdə bacıları ona gülüb, "sənin şikayətinə baxan kimdir? Otur yerində, gələn il sənədlərini yenidən verərsən",– dedilər. Lakin təbiətən mübariz, sərt və daha cəsarətli idi Zəhra, bəlkə də, böyük bacılarından fərqli olaraq şüuraltı özünün möhkəm dayaqları olduğunu hiss edirdi. Bu dayaqlar elə onun böyük bacıları idi.

... Avqust ayının sonları idi. Evdən çıxıb qəbula getmək istəyəndə böyük bacıları bu işin mənasız olduğunu deyib, mane olmaq istədilər. Lakin Zəhra fikrindən dönmədi, "gedib son cavabı almalıyam",- dedi. Həyatda həmişə bir yolu sonacan getmək istəyənlər, gedənlər uğur əldə edirlər.

Yasəmən həm bacı, həm də "İNTER-5 uşağı" kimi Zəhranı tək qoymadı, onunla birlikdə gedəcəyini bildirdi. Ümumiyyətlə, bir ailədə çox uşaqlar olanda əksər hallarda yaşca bir-birilərinə yaxın olanlar daha çox sirdaş, dərddaş və yoldaş olurlar.

Qəbulda çox insan var idi. Əksər uşaqlar valideynlərilə və ya valideynlər tək gəlmişdilər. 16 yaşlı Zəhra isə 18 yaşlı bacısı Yasəmənlə gəlmişdi. Şikayətçiləri müvafiq şöbənin Məmmədov familiyalı müdiri qəbul edirdi. O, bütün şikayətçiləri böyük bir otaqda, cəm halında qəbul edirdi. Çox maraqlı bir vəziyyət alındı, Zəhra birinci stulda, Yasəmən isə axırıncı stullardan birində əyləşdilər. Məmmədov üzünü Zəhraya tutub:

– Şikayətin nədir? - deyə sual etdi.

Zəhra o qədər həyəcanlı idi ki, səsi titrəyirdi. Ona elə gəlirdi ki, elə otaq, bina da titrəyir. Bunu görən Yasəmən ayağa qalxıb:

– Mən onun bacısıyam. Olar ki, mən danışım? - deyə sual etdi. Sonralar nur üzlü insan kimi Zəhranın yadında qalan, gümüşü saçlı Məmmədov Yasəmənə, bir də Zəhraya baxıb, sakitcə "əyləşin!", - dedi. Otaqda 35-40 şikayətçi olardı. Məmmədov hamını sakit, təmkinlə dinlədi, qeydlərini apardı. Uyğun cavablarını verdi. Sonda iki bacı qaldılar.

Hamı gedəndən sonra Məmmədov yaxın oturmağı və şikayətləri nədəndirsə sakit, həyəcanlanmadan danışmaqlarını dedi. Zəhra yenə də həyəcansız danışa bilmirdi. Səsi titrəyə-titrəyə yalnız bunları deyə bildi:

– Niyə mən yüksəkballa tələbə adını qazana bilmirəm? Məgər bilik əsas meyar deyil?

SonraYasəmən sözə başladı:

– Baxın, mən Tibb Universitetinə sənəd vermişdim. İmtahanlardan birindən üç almışam, odur ki, Sizə bir söz deyə bilmərəm. Ancaq bacım imtahanlardan "4" qiymət alsa da, tələbə ola bilmir. Niyə?

Məmmədov bir Zəhraya, sonra isə Yasəmənin üzünə baxıb, dedi:

– Haqlısınız, ancaq bir şey edə bilmərəm. Artıq gecdir, - dedi. Sonra yenə üzünü Zəhraya tutub, dedi:

– Sənədlərini "rabfaka" (o vaxtlar fəhlə fakültəsi var idi) ver, sənə kömək edim.

Zəhranın iş stajı olmadığı üçün bu təklif onun üçün real görünmürdü. Ancaq Yasəmən üçün bu çox gözəl şans idi. Bu il tələbə ola bilərdi. Zəhra dedi:

– Bunu mən edə bilmərəm. Ancaq bacım Yasəmənə kömək edə bilərsinizsə, edin.

Bu cavab təbiətən yaxşı insan olan Məmmədovun xoşuna gəldi. O düşündü ki, "gör necə cəfakeş, qayğıkeş bacıdırlar ki, bir balaca şans yaranan kimi özlərini deyil, bacısını düşünürlər"! O təbəssümlə dedi:

– Bu köməyi hansınıza edək?

Bacılar eyni anda biri "Zəhraya", digər isə "Yasəmənə" cavabı verdilər. Ancaq sonradan həm Məmmədov, həm də Yasəmən Zəhranın daha çox, inad və israrını görüb, qərara gəldilər ki, Yasəmənə kömək etsinlər.

Məmmədov yanında oturan köməkçi xanıma bacıların telefon nömrələrini götürməyi, öz əlaqə nömrəsini də onlara verməyi tapşırdı. Qəbul başlayan kimi xəbər verməyi bildirdi.

Bacılar evə qayıdıb, bütün olanları böyük bacıları ilə danışıb, müzakirə etdilər. Böyüklər gülüb bu məsələnin nəticə verməsinə inanmadıqlarını dedilər.

Yasəmən sənədlərini fəhlə fakültəsinə verdi. Müsabiqə günü təyin edildi. Yasəmən bütün suallara yüksək səviyyədə cavab verdi. Və onun qəbul olunmasına mane ola bilmədilər. Yasəmən öz haqqını gerçəkləşdirə bildi. Yasəmən birinci il də imtahanlardan yaxşı  qiymət alsa da, konkursa düşmüş, qayıdıb kəndlərində kolxozda işləmişdi ki, iş stajı olsun. Və bu il onu yenə konkursa salmışdılar. Ancaq Zəhra ilə qəbula getdikdən sonra Tibb Universitetinə qəbul ola bilmişdi.

Leyla Zəhranı Novxanıda üzüm bağlarında işə düzəltdi. Hərdən özü də gedib, ona kömək edirdi ki, onun iş stajı olsun. Gələn il yenidən tarix fakultəsinə sənədlərini verdi və bu dəfə də imtahanlardan "4" qiymət alaraq konkursa düşdü. Bu dəfə də universitetin rektoruna müraciət etdi. Zəhra otağa daxil olanda universitetin qaymaq alimləri, dekanlar, kafedra müdirləri, bir də o dövrün məşhur ziyalı və görkəmli şairlərindən bir nəfər əyləşmişdilər. Zəhra bunları gördükdə əvvəl özünü itirdi, lakin tez özünü toparlayıb, üzünü rektora tutaraq:

– Niyə mən iki ildir ki, yüksək bal toplasamda tələbə ola bilmirəm? - deyə sual etdi.

Hamı sakitcə balacaboy, arıq, buruq saçlı qızın tələbini dinləyirdi. Birdən ortada əyləşən görkəmli şair dilləndi:

– Qızım, hansı fakültədən keçməmisən?

– Tarix fakültəsindən - Zəhra cavab verdi.

Şair yenə də gülümsədi və qayğılı halda dedi:

– Mənə elə gəlir ki, səndən tarixçidən çox, prokuror olar. Sənədlərini niyə hüquq fakültəsinə verməmisən?

Zəhra istədi nə isə desin, ancaq həyəcandan və məşhur şairdən utanıb, çəkindiyindən heçnə demədi. Sakitçə çiyinlərini çəkdi. Ağ saçlı şair Zəhraya, sonra isə üzünü rektora tutaraq dedi:

– Millətimizin bu cür cəsarətli, haqqını tələb edə bilən, biliyinə inanan qızlarımıza böyük ehtiyacı vardır. Bunlar qızıl genefondumuzdur. Qoy, gələn il sənədlərini hüquq fakültəsinə versin. Mane olmasalar, inanıram ki, qəbul olacaqdır. Ona da inanıram ki, gələcəkdə yaxşı prokuror olacaqdır.

Bu şairin respublikada hörməti və nüfuzu çox böyük idi. Rektor heç nə demədi. Sadəcə, başını yelləməklə onun dediklərini təsdiq etdi. Sonra isə hüquq fakültəsinin dekanına üzünü tutub:

– Gələn il bu qıza şərait yaradın, hüquq fakültəsinin tələbəsi olsun, mane olmasınlar- dedi.

Zəhra ikinci il imtahanlardan bu vədi qazana bildi - yenə universitetə qəbul olmadı. Yenə kəndə qayıtmadı, bacılarının yanında qalıb işlədi. Bu il 2 saylı ayaqqabı fabrikində işə düzəldi. Ayaqqabı kleyləməyə başladı. Kleyin çox kəskin iyi var idi. Çox illər sonralar da hərdən, xüsusən də ayaqqabı mağazalarına girəndə bu iy Zəhranın burnuna gəlirdi.

Gələn il üçüncü dəfə Zəhra Bakı Dövlət Universitetinə sənəd verdi. Bu dəfə tarix yox, hüquq fakültəsinə sənəd verdi. Bir iliydi ki, ona verilən tövsiyə və vədlərin gerçəkləşəcəyi günü gözləyir, şirin xəyallarla yüz dəfələrlə bu ana gedib qayıtmışdı.

... Avqust ayı idi. Zəhra tarixdən "4" qiymət aldı. "İctimaiyyət" adlı fənndən isə "məqbul" aldı. Sonuncu imtahan ədəbiyyat idi, onun çox sevdiyi və yaxşı oxuduğu bir fənn. Bu fənndən düşən sualların üçünü də əla yazdı. Sonra müəllimənin önündə əyləşdi. Ona verilən suallara ətraflı cavab verdi. Zənn etdi ki, "beş" alacaqdır. Yazılı və şifahi cavablarını, digər "4", "5" alan uşaqların cavabları ilə müqayisə edib, bu qərara gəlmişdi. Məmmədov familiyalı imtahan götürən müəllim Zəhraya dedi:

– Qızım, sənə "5" düşür, ancaq yaza bilməyəcəyik.

Zəhra ani olaraq müəllim Məmmədovla Mərkəzi Komitədə bacısı Yasəmənlə onu qəbul edən xeyirxah Məmmədovu xəyalən müqayisə et-

di. Qərara gəldi ki, ad və familiyalar insanlara ucalıq gətirmir, əksinə, insan onları şərəfləndirir. Məmmədov əlavə olaraq soruşdu:

– Əvvəlki imtahandan neçə almısan?

– Dörd almışam. - Zəhra cavab verdi.

– Sənə yüksək bal kimi dörd yazırıq, ancaq tələbə olub-olmayacağın sual altındadır -Məmmədov cəsarətsizliyin boz, soyuq səsiylə dedi.

Zəhra xatırladı ki, keçən il rektor dekana "gələn il bu qıza şərait yaradın tələbə olsun, mane olmasınlar", - deyib. Əslində, xatırlamadı, hər an yadında idi və bu vəddən ilham alırdı, gecə yarıyacan kitab oxuyub, imtahana hazırlaşanda, bu vəd ona güc verirdi, məsuliyyət hissi yuxusunu qaçırırdı. O, çox əla cavab vermək üçün hazırlaşırdı ki, o məşhur şairin, rektorun inamını doğrultsun.

Zəhra dekanın qəbul keçirilən otağına gəlməsini tələb etdi. Əmin idi ki, dekan gələcək, nüfuzlu, hörmətli alim, şairin tövsiyələrini, "dağdan ağır" rektorun tapşırığını yerinə yetirəcək, onların qabağında verdiyi sözə əməl edəcək və onun qiymətinin kəsilməsinin qarşısını alacaqdır. Dekanın gəlməsini gözləyə-gözləyə hərdən də düşünürdü ki, birdən dekan özbaşınalıq edər, onun qiymətinin kəsilməsinə göz yumar. Ax, onun yerinə bir savadsız, ancaq imkanlı ailənin uşağını qəbul edib, tələbə edərdilər. Bunun üçün üç-dörd mənzilin qiymətinə bərabər külli miqdar rüşvət alardılar...Ancaq Zəhra tez də bu fikri başından atırdı. Düşünürdü ki, bu ola bilməz, dekan şairin və rektorun sözünü pula sata bilməz. Bu axmaqlığı, hörmətsizliyi və cəsarəti etməzdi. Axı (,) o gülümsəyərək, əzilib-büzülüb, qızarıb-bozarıb söz vermişdir...

Dekan gəldi. Tərs-tərs Zəhraya baxdı və ilanbaş soyuqluqla dedi:

– Sənin bacın Leyla bu fakültədə oxuyub. Sən də bu fakültədə oxuya bilməzsən. Sənə "4" yazılır və tələbə olmayacaqsan. - deyib qapını çırpıb, getdi.

Zəhra elə bildi ki, dünya başına fırlanır, döşəmə ayağının altından qaçır. O yenə "4" qiymət almışdır. Çöldə isə onu həmin vaxtlar universitetin tarix fakültəsinin axşam bölməsində oxuyan bacısı Həlimə gözləyirdi. Digər bacıları yay tətili olduğu üçün kəndə getmişdilər.

Bu anlar Zəhranın yadından heç vaxt çıxmadı. O universitetin əsas binasından bayıra çıxdı. Hamı ona tərəf gəldi və "necə oldu? - deyə so-

ruşdular. Zəhranın gözləri isə bacısı Həliməni axtarırdı. Həlimə ona tərəf gəldi və soruşdu:

– Necə oldu?

– Dörd aldım! - Zəhra bunu deyib körpə uşaq kimi ayaqlarını yerə döyərək, əlini alnına qoyub, üzünü divara çevirdi, ağlamağa başladı.

Ətrafda hamı ona "dəli" kimi baxırdı ki, buna bax, camaat "4" alanda sevinir, bu isə ağlayır.

Zəhra və Həlimə gözləri yaşlı evə gəldilər. Çox müzakirədən sonra qərarlaşdırdılar ki, mütləq apellyasiya komissiyasına müraciət eləsinlər. Rektorun qəbuluna düşüb, bu barədə onlara desinlər. Düşündülər ki, ancaq rektor kömək edə bilər.

Zəhra beynində planlar cızır, arada Həlimə ilə məsləhətləşirdilər. Ev telefonuna zəng gəldi, Zəhra dəstəyi qaldırdı. Kənddən zəng eləmişdilər, Leyla idi. O, imtahanın necə keçdiyini soruşdu. Zəhra bütün olanları dedi və özünü saxlaya bilməyib, ağladı.

Həmin vaxtlar Kəmalə də rayonda atasıgildə idi. Onun yeni doğulmuş oğlu Mehman möhkəm xəstələnmişdi. Orada müalicə edə bilməmişdilər. Tibb Universitetində oxuyan Nailə məsləhət görmüşdü ki, Mehmanı Bakıya həkimlərə gətirsinlər. İki gün sonra Oktay, Kəmalə, Nailə Mehmanı götürüb, Bakıya gəldilər.

Nailə və Zəhra apellyasiya komissiyasına şikayət etdilər. Avqust ayının sonları idi. Onlar tez-tez universitetə gəlirdilər, lakin onları qəbul etmir, şikayətlərinə baxmırdılar. Ancaq "dəmir yolu" ilə inadla gedən Zəhra yorulmurdu, qırılmırdı, əl çəkmirdi. Nəhayət, o rektorun qəbuluna düşə bildi. Baş vermiş hadisələri danışdı, keçən ilki görüşü xatırlatdı. Rektor göstəriş verib, imtahan protokolunu gətizdirdi. Ədəbiyyat kafedrasının professoru olan müdirini çağırdı. Professor Zəhranın yazısına baxdı və "beş yazmaq olar" , - dedi. Və əlavə etdi ki, "protokolu elə günə qoyubdurlar ki, yenidən yazılmalıdır".

Rektor yenidən göstəriş verdi. Zəhranı tək bir otağa saldılar. O protokola yazdıqlarını yenidən yazdı. Beləliklə, haqq etdiyi "5" qiymətini aldı, hüquq fakültəsinə daxil oldu. Zəhranın tələbə adını qazanmasında Nailənin çox böyük zəhməti oldu. Nailə onunla birlikdə bütün qapıları döydü, bərabər mübarizə apardı. Birgə qələbə çaldılar.

Zəhra universiteti qırmızı diplomla bitirdi. İlk olaraq Ali Sovet yanında Sosioloji Araşdırmalar Mərkəzində hüquqşünas mütəxəssisi kimi işə başladı. Ancaq orada az işlədi. Bu iş Zəhranın xarakterinə uyğun gəlmədi. Sənədlərini toplayıb, Ədliyyə Nazirliyinə, Baş Prokurorluğa, Xarici İşlər Nazirliyinə və digər qurumlara verdi.

Bir gün atası Oktay Zəhraya dedi ki, "Fərzəliyev familiyalı prokurorluq işçisi var, onu tap, sənə işə düzəlməyə kömək edər". Zəhra təəccüblə...Ata, o kimdir, sən haradan tanıyırsan demişdir"? Oktay isə ona danışmışdı ki, altmışıncı illərin sonlarında rayonda müstəntiq işləyirmiş Fərzəliyev. Onun rayonun katibliyilə problemi çıxır. Katib onu həbs etdirmək istəyir, Fərzəliyev kimin yanına gedir, kömək etmirlər. Katibdən hamı qorxurmuş. Belə olanda, Fərzəliyev dostu olan Oktaydan kömək istəyir. Oktay onu gecəynən Naxçıvandan çıxarıb, Azərbaycanın dağ rayonlarından birinə aparır. Beləliklə, həbs olunmaqdan xilas edir. Indi həmin şəxs yüksək vəzifədə işləyirdi.

Ancaq Zəhra Fərzəliyevi tapa bilmir. Nəhayət, etdiyi yaxşılıqdan 26 il sonra Oktay Bakıda təsadüfən Fərzəliyevlə qarşılaşır. Söhbət əsnasında qızı Zəhranın işsiz olduğunu deyir.

Zəhra Fərzəliyevin yanına gedir. Fərzəliyev Bakı Şəhər Prokurorluğunda yüksək vəzifədə işləyirdi. Zəhra onun köməkliyi ilə Ədliyyə Nazirliyində Məhkəmə Ekspertiza Mərkəzində işə başlayır.

Bir müddət sonra Baş prokurorluqda attestasiya olur və ora sənəd vermiş Zəhra uğurla keçir. Ona elə gəlir ki, bütün hadisələr həyatın seli kimi onu sürükləyib, prokurorluqda işləməyə aparır. Attestasiyaya yüzdən çox şəxs sənəd verir. Onlardan 17 nəfər keçmişdi. Və onların içində yeganə qadın Zəhra idi.

Attestasiyadan keçənlərin hamısı iki-üç ay içərisində prokurorluqda işlə təmin olunsalar da, Zəhra işsiz qaldı. Lakin bir il sonra, gözlədiyi vəzifəyə - Bakı şəhər prokuronun böyük köməkçisi kimi məsuliyyətli bir işə təyin olundu.

Sonradan prokurorluq orqanlarında müxtəlif vəzifələrdə çalışan Zəhra digər bacıları kimi qanunun, haqqın, ədalətin və kasıbların yanında oldu. Heç vaxt səlahiyyəti, imkanları çərçivəsində imkan vermədi ki, şeytan öz çubuğu ilə ədalət tərəzisinin tarazlığını pozsun. Mübarizə apardı ki, tərəzinin haqq-ədalət, kasıba tərəf olan hissəsi yüngülləşib,

göyə qalxmasın. Lazım gələndə, gücü çatmayanda öz əllərilə tutub saxladı.

... Bir ziyalı tanışı zəng edib, fırıldaqçı dəstənin bir sıra məsul şəxslərlə əlbir olub, çox uşaqlı, kasıb bir ailəyə satılan evi geri qaytarmaq istədiklərini bildirdi. Ondan kömık etməsini xahiş etdi. Zəhra bu xəbəri eşidən kimi araşdırmış, məlum olmuşdu ki, evə zorla girib, məskunlaşan fırıldaqçıları elə polis bölməsində olan bir nəfər yararsız müstəntiq müdafiə edirmiş. Zəhra nəinki fırıldaqçı dəstənin məsuliyyətə cəlb olunmasına, müstəntiqin də işdən qovulmasına nail olmuşdu. O, qanunsuzluğa, ədalətsizliyə qarşı çox amansız və güzəştsiz idi. Zəhrada qanun və haqqpərəstlik şərqin ədalət fəlsəfəsilə Qərbin soyuq reallıq düşüncələrinin vəhdəti kimi birləşmişdir. Zəhranın qızı Sevil Amerika Birləşmiş Ştatlarında tibb fakültəsində nevrocərrahiyyə üzrə təhsil alırdı, çox istedadlı idi, 6 dil bilirdi.

Yeddi bacı müxtəlif sahələrdə çalışsalar da, onların uşaqlıq həyatı, tələbəliyə qədərki dövrləri, universitetlərə qəbul olma, oxuma dövrləri çox oxşar olmuşdur. Elə çalışdıqları sahələrdə də işə baxış prinsipləri eyni olmuşdur. Onların fəaliyyətlərində sadəlik, qanunpərəstlik, insanpərvərlik, haqqın və zəifin yanında durmaq əsas olmuşdur. Bunları nəyəsə görə etmirdilər, sadəcə olaraq başqa cür ola bilmirdilər.

Yeddi bacının həyatı, fəaliyyəti yasəmənli, qızılgüllü, qaranquşlu, Səriyyəli, Oktaylı sadə və gözəl həyatin sonralar başqa aləmlərdə güzgü əksi idi...

# VIII FƏSİL

*Azərbaycan əsgəri Vətən müharibəsində kütləvi sürətdə elə qəhrəmanlıqla döyüşür ki, dünyanın ən güclü ordularının tarixində bununla müqayisə oluna biləcək nadir hallara az rast gəlmək olardı.*

** * **

*Çıxan nəticə o idi ki, şeytan təkamül edib, elə şeytan olur. Xeyirxahlıq məcburiyyətdən oğurluğu bağışlaya bilir, ancaq şöhrət üçün şər atmağı ləyaqətsizlik hesab edir. Demək, həyatın sirli gedişləri həmin an bulanıq görünür, zaman keçdikcə keçmiş öz-özünə durulur.*

** * **

*Aldadıcı gedişlər kiçik müstəvilərdə, dar təsəvvürlərdə gerçək kimi görünür. Həm də qısa zamanda keçərlidir. Qlobal baxanda isə heç nə sirli və aldadıcı gediş sayıla bilməz.*

** * **

*Haramla, harın, dələduzun tabağından çörək yeyən birinin müqəddəs zirvəyə ucalıb, şəhid olması ilahi prinsiplərlə düz gəlməz.*

** * **

*Bütün qaranlıqlardan işığa həqiqətin əlindən tutub, haqqın, ədalətin səsi gələn tərəfə getməklə çıxmaq olurmuş.*

** * **

*Tarix boyu azlıqlar istismar etmək üçün insanları bölməyə çalışmışdılar. Bunun üçün millətçilik, dini şəriətlər, təriqətlər, sektalar, partiyalar, demokratiya, fəlsəfi cərəyanlar və s. kimi bölgücülük üsulları tapmışdılar.*

** * **

*Yəni, bütün mövcudluqlar ümumi sistemin tərkib hissələridir və öz rolunu oynayırlar. Odur ki, kimin, kiminçün seçilmiş olmasını demək çətindir.*

Əzəmətli palıd ağacının budağından asılmış yelləncəkdə yellənə-yellənə keçdiyi həyat yolunu xəyallarında canlandırır və bu zaman daha çox ucada qalmaq, aşağı enmək istəmirdi. Ona elə gəlirdi ki, ucaya qalxdıqca, öz keçdiyi bütün enişli-yoxuşlu yollar daha aydın görsənirdi. Odur ki, var gücü ilə ayağını yerə vurur, geri gedib yenidən irəli, hündürə qalxırdı. Bu zaman əvvəl qarşıdakı kollar, ağaclar kiçilir, sonra Cıdır düzü, qarşıdakı başı qarlı dağlar görsənirdi. Bir an dayanır, sonra yenidən əvvəl dağ, sonra Cıdır düzü yoxa çıxır, ağaclar, kollar ucalır, o isə aşağı enirdi. Ən yüksəkdə bir anlıq dayananda ona elə gəlirdi ki, Cıdır düzü və başı qarlı dağlarla birlikdə bütün keçmişini görə bilirdi. Odur ki, aşağı enməkdən xoşu gəlmirdi. Düşünürdü ki, keçmişini, həyat yolunu yaxşı və həvəslə xatırlamaq üçün gərək, həmişə ucada qalasan. Onun lap uşaqlıqdan aşağı enməkdən xoşu gəlmirdi. Odur ki, ayağını lap bərk yerə vurur, daha yüksəklərə qalxmaq, həyat yolundakı ən vacib, incə olanları görmək istəyirdi. Bu zaman ağacların, düzlərin, sıldırım və dağların bir-birini əvəz etməsinə nostalji hisslərlə tamaşa edir, xəyallarında keşmiş xatirələrilə qələbə rəqsi edirdi.

May ayının ortaları idi. Günortaya az qalırdı. Məhz onun təşəbbüsü ilə ailə üzvləri, yaxın qohumlar, hörmətli qonaqlardan ibarət bir qrup Şuşaya gəlmişdilər. Yarım saat olardı ki, bura çatmış, hamı bərk yorulmuşdu. Odur ki, hər kəs istirahət etmək, az da olsa dincəlmək istəyirdi. Kimi bulaqda əl-üzünü yuyur, kimisi ağacların altında, çəmənlikdə əyləşib bir-birilərilə söhbət edə-edə dincəlirdi. Bir neçə nəfər isə ocaq qalamaqla məşğul idilər ki, samovar çayı hazırlasınlar, kabab bişirsinlər. Şuşada və yaxın ərazilərdə çoxlu müasirliklə qədim ənənələri saxlayan, birləşdirən yeməkxanalar, yüksək səviyyəli restoranlar olsa da, özləri kabab bişirmək qərarına gəlmişdilər. Elə bu qərar da əslində, ona məx-

sus idi və yaxın keşmişdən süzülüb gəlib, indi burada üzə çıxan, bulaq kimi sərin arzulardan idi...

O, yelləndikcə əsən mehə qarışan xatirələrin qoxusunu hiss edir, yuxarı qalxdıqca onları daha aydın görürdü. Anası Səriyyə həyətdə paltar yuya-yuya ondan və bacılarından riyaziyyatı birinci və daha yaxşı öyrənməyi tələb edirdi. Bütün olanlar göstərirdi ki, ana haqlı imiş, həyatın sirləri elmdə gizlənmiş, elmin aləmlərinin universal açarı isə riyaziyyatmış.

İrəvan bazarındakı soğan oğurluğu təsadüfi hadisəydi? Yox, ola bilməzdi! Axı (,) çox illər sonra həmin üstü qara ləkəli, soğana uzanmış oğru əli Parisdə görünmüşdü. Onun oğlu Artur Mirzoyan da şahmatçı idi, Rüfət də. Hər ikisi hüquq müdafiəçisi, vəkil idi. O vaxt biri oğurluq etmiş, digəri xeyirxahlıq edib, bağışlamışdı. Parisdə isə onlar zamanın əmrilə böyüdükdən sonra yenidən qarşılaşmışdılar. Hər ikisi təkamül etmişlər, oğru şərbaza çevrilmiş, xeyirxahlıq edən bu dəfə onu bağışlamamışdı. Çıxan nəticə o idi ki, şeytan təkamül edib, elə şeytan olur. Xeyirxahlıq məcburiyyətdən oğurluğu bağışlaya bilir, ancaq şöhrət üçün şər atmağı ləyaqətsizlik hesab edir. Demək, həyatın sirli gedişləri həmin an bulanıq görünür, zaman keçdikcə keçmiş öz-özünə durulur. Sadə bir həqiqəti nə vaxtsa dərk etmək üçün onu həm soğan oğurlayanda, həm də yetkin yaşında şərbaz yekun statusunda görməliymiş. Bu hadisələrin biri olmazdısa, həqiqət tam görünə bilməzdi. Bir-birinin ardı olan, lakin müxtəlif zamanlarda baş verən hadisələrə insanlar sirli gedişlər kimi baxırmış.

O, yüksəklikdən aşağı enib, dayandı. Ətrafına baxdı, ən yaxında oğlu ilə onun dostunu gördü. Çəmənliyin üzərində hər ikisi dirsəklənib, şahmat oynamağa başlamışdılar. Görünür, həyatın özünə şahmat taxtası kimi baxan, sevimli oyununu bu cür füsunkar yerdə oynamaqdan zövq almağını düşünən oğlu, yazıçı dostundan əl çəkməmişdi. Üzünü onlara tutub, gülümsəyərək dedi:

– Rüfət, Əli, mənə baxın, sizə bir sual vermək istəyirəm.

Onlar çönüb, baxdılar. Əli dedi:

– Buyurun, Leyla xanım, sualınızı verin. İlin bu vaxtı belə məkanda gələn sual adi olmaz.

Rüfət anasına, sonra isə şahmat taxtasına baxıb, heç nə demədi. Bildi ki, onun nə deməsindən asılı olmayaraq, sual gəlibsə verəcək.

– Mənə deyin görüm, yazıçı fantaziyası daha genişdi, yoxsa, şahmatçı?

Əli başını qaşıya-qaşıya dedi:

– Genişliyə qalsa, yazıçının fantaziyası daha genişdi. O şahmatçının, rəssamın, alimin, nadanın, cahilin, polisin və s. yerinə düşünə bilir. Şahmatçı isə yalnız şahmat taxtasındakı dəyişmə ehtimallarını bir az sonranı düşünə bilir.

– Sən nə düşünürsən, Rüfət? - Leyla təkrar oğlundan soruşdu.

Rüfət başını qaldırıb, yelləncəkdə oturub, ayaqlarını cütləyib yerə sıxaraq, yellənməyə hazırlaşan anasına baxıb, gülümsədi. Sonra isə yazıçı dostuna baxıb dedi:

– Səncə, o yelləncək asılmış ağacdakı yarpaqlarla, bu ətrafımızdakı çəmənlikdə olan rəngbərəng çiçəklər yerini dəyişsə, sonra külək əsməyə başlasa, yağış yağsa (,) nə olar?

Əli gülüb, atla gediş etdi, sonra dedi:

– Çəmənlik eyni cür palıd yarpaqlarından, ağac isə rəngbərəng çiçəklərlə dolu, daha gözəl olar. Yağış isə nə cür təsir edər, bilmədim...Səncə, necə olar?

– Bax, dostum, məncə, bu cür olması heç vaxt real deyil. Ona görə də, belə şeylər düşünmürəm. Yazıçı ilə şahmatçının da fərqi odur ki, birinin fantaziyası genişdir, bu genişlikdə həm də çoxlu qeyri reallıqlar var. Şahmatçı rəssam, alim, lap elə cani reallıqları düşünür. Bax, elə bu oyunda, mən düşündüklərim bir azdan real olacaq - Rüfət dedi.

– Yaxşı, bəs, yağış necə oldu? - Əli sual etdi.

–Yağış aldadıcı gediş idi. Bir az əvvəl piyadanı qurban verdim, sevindin. Sonra isə sənin atını uddum - Rüfət dedi.

Əli onlara diqqətlə qulaq asan Leylaya baxdı. Sonra üzünü Rüfətə tutub, dedi:

– Aldadıcı gedişlər kiçik müstəvilərdə, dar təsəvvürlərdə gerçək kimi görünür. Həm də qısa zamanda keçərlidir. Qlobal baxanda isə heç nə sirli və aldadıcı gediş sayıla bilməz. Bax, çiçəklərlə yarpaqların yeri dəyişsə, yağış yağanda damcılar yarpaqların üstünə düşəndə əmələ gələn səslər ağacdan yox, çəmənlikdən gələr. Deməli, şahmatçının aldadıcı

hesab etdiyi gediş, əslində, real bir nəticəyə səbəb ola bilir. O ki, qaldı piyadanı verib atı qazanmağına, piyada at, fil, vəzir ola bilir, at isə bütün oyun boyu at olaraq qalır. Belə insanlar da var, əvvəli kasıb, köməksiz olur, piyada kimi zəif hesab edirlər. Ancaq qətiyyəti hesabına başa çıxıb, daha güclü ola bilir. Çox atlılar isə at öldükdən sonra piyada qalır... Yəni, kiminsə sayəsində atlı olur, onsuz olanda piyada qalır. Anladın, dostum?

O, bunu deyib, vəzirlə gediş etdi.

– Geniş fantaziyadı, çoxu düzdü, lap çoxu isə illuziyadı - Rüfət bunu deyib, yenə güldü. Sonra Əli Leylaya tərəf baxıb dedi:

– Leyla xanım, hansımız düz deyirik?

Leyla gülümsəyərək dedi:

– Hər ikiniz çox güclü oynayırsınız. Yaxşı, deyin görüm, niyə həyatda baş verən bəzi hadisələr bizə sirli görünür?

– Rüfət anasına tərəf baxdı, gülümsəyərək:

– Sən də heç pis "oynamırsan", əvvəl fantaziyamızı soruşub, bizi qıcıqlandırırsan, sonra isə sual verirsən,- dedi və sonra vəziri oynayıb, "şah" - dedi.

Əli bir az düşünüb, şahın önünü piyada ilə bağladı. Sonra üzünü Leylaya tutub dedi:

– Məsələn, nə kimi hadisələr bizə sirli görünür?

– Məsələn, elə bu Şuşamızı işğaldan azad edənlərin, şəhid və qazilərimizin əksəriyyəti kasıb övladları idi. Ancaq məntiqcə çoxlu villaları, torpaq sahələri olan ailənin uşaqları gəlib döyüşməliydi. Çünki, Vətənin torpağından, sərvətindən onlar daha çox pay alıb sahib olurdular. Burada həyatın sirli gedişləri nədir?

Əli üzünü göyə tutub, yavaşca "Fatihə" surəsi oxudu. Sonra salavat çevirib, "Allah şəhidlərimizə rəhmət eləsin!", - dedi. Leyla və Rüfət də belə etdilər. Sonra Əli dedi:

– Şəhidin hər əzası pakdır. Halal ruzi ilə böyüyüb, qabar əllərin çörəyini yeyib, halal süd əmib, zəhmətkeş ana laylası dinləyib. Eləcə də, qazilərimiz bu cür ailələrdən çıxıbdırlar. Haramla, harın, dələduzun tabağından çörək yeyən birinin müqəddəs zirvəyə ucalıb, şəhid olması ilahi prinsiplərlə düz gəlməz. O ki, qaldı onlara məxsus çoxlu var, döv-

lətə, bunlar onların özünün deyil, oğurlayıblar. Biz necə bir oğruya irad tuta bilərik ki, "sən daha çox oğurlamısan, get döyüş"?

– Sən nə düşünürsən, Rüfət? - Leyla oğlundan soruşdu.

– Məncə, hər şey sadədi. Dövlətə həmin zaman yaxşı döyüşçü, əsgər lazım idi. Varlı balalarının əksəriyyəti heç silah tutmağı da bacarmırdı. Çoxu heç hərbi xidmətdə olmamışdı. Belələrini yığıb, ora aparmaq ağılsızlıq olardı. Məncə, hadisələrə real və soyuqqanlı baxanda hər şey aydın görünür. Şəhid və ya qazi əsl döyüşçülərdən olur və heçnə itmir, öz-özünə yaranmır. Can fəda edənlər şəhidlik qazanırlar, haram yeyənlər isə o dünyaya - özlərinə od yığırlar. Bu dünyanı şahmat taxtasının yarısı, o biri dünyanı isə digər yarısı kimi yanaşı qoyanda, hər şey aydın olur, sirli heç nə qalmır.

Rüfətin son sözləri Leylanı yenə xəyallara apardı. O, çoxdan axtardığı sualların bəzilərinə cavab tapmaq üzrə idi. Ayağını yenə möhkəm yerə vurub, yellənməyə başladı.

Deməli, həyatın sirli gedişləri bu dünyada belə müəmmalı görünür, o biri dünyanı da yanaşı qoya bilsəydin, hər şey tamam aydın olacaqdı. Sirr başlanğıcını natamamlıqdan alır. Tam, bütöv olan şeylər sual doğurmur. Günəşi aydın, bütöv görürüksə, hər şey bizim üçün adi olur. Yarısı ayla örtüləndə isə çoxlu suallar, sirli vəziyyət yaranır.

... Qaya ilə Məsməni xatırlayırdı. Bu hiss ona rahatlıq və zövq verirdi. Axı, Məsməyə söz vermişdi ki, onu unutmayacaq. Yaxşı, Məsmə haradan bilirdi ki, unudulmaq təhlükəsi var? O, ailə qurmayacağını, tezliklə, dünyasını dəyişəcəyini hiss edirmiş. Bəlkə də, daha çox şeylər bilirmiş, çöx düz deyirmiş ki, "İnsan həmişə təkdir. Hətta, birdən Allahın da yadından çıxa bilərsən. O vaxt mütləq mənada tək qalarsan, qaranlıq tuneldən necə çıxarsan?".

Məsmənin dediyi qaranlıq tunellər həyatında çox olmuşdu. Bütün qaranlıqlardan işığa həqiqətin əlindən tutub, haqqın, ədalətin səsi gələn tərəfə getməklə çıxmaq olurmuş. Bütün bəlalardan isə yaxşılıq etmək, xeyirxah olmaqla uzaqlaşmaq mümkün olurmuş. Çünki, yaxşılıq və xeyirxahlıq kainatda daha tez yayılır, səni Allahın bir daha yadına salırdı. Leyla həyatında baş verənləri göz önünə gətirdikcə, bu fikirlərin doğruluğuna indi daha çox inanırdı.

Yaxşı, nə üçün ilk dəfə Bakıya qatarla gələndə Qaya və Məsmə ilə eyni kupedə gəlməliymiş? Qayanın və bacısının dedikləri sözlər həmişəlik onun yadında qalmışdı. Qayanın "İnsan düşüncələri qatar kimi gah işıqlı aləmdə, gah da qaranlıq tuneldə hərəkət edir. İradə - dəmir yolları onları sona, müəyyən mənzil başına aparır"(,-) fikirlərini də həyat təsdiq edirdi. Bütün bunlar təsadüfi idi? Bəlkə (,) heç Qaya ilə Məsməni heç vaxt görməyib? Həyatı boyu yaddaşında dolaşan bacı-qardaşın görüntüləri, söylədiyi fikirlər onun pəncərə qırağında, Araz çayına baxa-baxa xəyallarında yaratdığı, söhbət etdiyi insan-mələklər idi? Bu, həyatın özünün sirli gedişləri idi? Ya da insanın öz-özü ilə gerçəklik və xəyallarının həyat rəqslərinin bir parçası idi? Yox, ola bilməzdi! Axı, Mincivanda qatara tələsik minəndə ayağı sürüşmüş, az qala, dəmir təkərlərin altına düşəcəkdi. O an Qaya onu xilas etmədi? Bəlkə (,) bu da xəyal quşlarının yuxarıdan gördüyü mənzərə idi? Əslində, Qayanın : "Sən öz dəmir yolunla düz get, ətraf dəyişəcək, ancaq sən öz istədiyin yerə çatacaqsan", - fikri həmişə ona çətin vəziyyətlərdən xilas olmağa kömək olmuşdu. Məsmənin "Yaxşılıq et, xeyirxah ol, çətinlikləri aşarsan, Allahın yadına tez düşərsən", - fikirləri yardımına çatmışdı. Necə olmuşdur ki, ilk dəfə azad həyat yolunun başlanğıcında Qaya ilə Məsmə onunla birlikdə qatara minmişdilər? Bu təsadüfi idi? Real yoxsa, paralel həyatın bir-birilə dolaşmasıydı? Axı, Qaya sonralar ən vacib anların birində də Bakıda onun qarşısına çıxdı. Bir yerdə yemək yeyib, söhbət etdilər. Öz tövsiyələrini verib, yox oldu... Xeyr, bütün bunlar gerçəklik ola bilməzdi. "Qaya və Məsmə ya mələk, ya da sadəcə, xəyallarının axtardığı, ilham və güc verə biləcək, iradəsinin sığınacaq" yeriydi. Onda necə oldu ki, atası Qayanın və Məsmənin ölüm xəbərini vermişdi?...

– Çox fikirləşmə, çıxış yolun yoxdu, mat oldun! - Rüfətin ucadan dediyi bu sözlər Leylanı düşüncələrdən ayırdı. İlk anda ona elə gəldi ki, oğlu onun düşündüklərini eşidir, bu sözləri ona deyir.

Leyla yenə dayandı və onlara xitabən soruşdu:

– Kim uddu?

– Mən uduzdum - Əli cavab verdi.

– Sən indi ağlarla oyna, udacaqsan - Leyla gülümsəyərək dedi. Oyunu pozub, ağ fiqurları öz tərəfində düzməyə başlayan Əli, özünü tox tutaraq, gülümsədi.

– Hə Leyla xanım, mən də düşünürəm ki, ağlarla oynasam, mütləq udacam. Rüfətə yazıçı fantaziyasının genişliyini göstərəcəm. Rüfət gülərək zarafat etdi.

– Qaraların üzünü lap qara etdin, indi mən onların üzünü ağardacam. Birdə ki, timsahlar suda güclüdürlər, havada heç nə edə, bir sərçəni tuta bilməzlər. Sənin fantaziyaların kitab yazanda işə yarayar, şahmatda yox. İstəyirsən səninlə lap gözüyumulu oynayım? Üzümü çevirim əks istiqamətə, dağlara baxım. Sən isə şahmat taxtasına bax, etdiyin gedişləri mənə de. Razısan?

Əli istehza ilə gülüb, onu yamsıladı:

– Gözü bağlı oynayım. Elə gözü bağlısan da, şahmat taxtasından başqa heç yeri görmürsən. Hoqqa vermə, oyununu oyna. Təkəbbürlüləri təbiət sevmir. - O, bunları deyib, vəzirin qulağındakı piyadanı iki xana irəli oynadı. Nə fikirləşdisə, tez də bir xana geri çəkdi, düzəliş etdi. Bunu görən Rüfət, gülüb dedi:

– Yaman sürətlə gəlirdin, nəsə elə bil qorxub geri çəkildin. Təbiət əslində, tərəddüd edənləri sevmir. Düz deyil, ana? - Rüfət çönüb Leylaya baxdı.

Onların zarafatlarına qıraqdan maraqla baxan Leyla dedi:

– Təkəbbürlük şeytanın sadə gedişləridir. Tərəddüd isə ehtiyatlı insanın bir stəkan suda boğulmaqdan qorxma hissləridir. Sən təkəbbürlü, Əli isə qorxaq deyilsiz. Sadəcə olaraq, siz atın sürətilə topun uzağa vurmasını müqayisə edirsiniz. Yəni, başqa-başqa sahələrdə güclüsünüz. Ancaq inanıram ki, Əli bu dəfə qalib gələcək. O, ağlarla oynayır. Həyatda ağlarla oynayanlar həmişə udurlar.

Bu zaman Zəhra və balaca oğlu Oktayın əlindən tutmuş Nataşa Buksa onlara yaxınlaşdılar. Leyla yelləncəyin iplərindən əllərini götürüb, qollarını yana açaraq, Oktaya tərəf baxıb, gülümsəyərək dedi:

– Nənənin ürəyi, gəl qucağıma.

Oktay Leylaya tərəf qaçdı. Nənəsi onu qucağında oturdub, üzündən öpdü, saçlarını sığallayıb dedi:

– Mənim balam ən güclü şahmatçı, yazıçı, hüquqşünas olacaq. Hə, Oktay?

Balaca Oktay aşağıdan yuxarı nənəsinə baxıb, gülümsəyərək dedi:

– Hə nənə, gəl yellənək!

Zəhra gülərək, bacısıyla zarafat etdi:

– Bayaqdan kənardan sənə baxırıq. Elə zövqlə gözlərini yumub, gah da açıb yellənirsən ki, sanki, bağça uşağısan. Deyirəm, indi qonaqların baxıb ürəklərində nə deyəcəklər? Deməzlər ki, buna bax e, gör camaat kimə səs verib, millət vəkili seçiblər? Bu yaşında uşaq kimi yellənir.

Leyla ayağını yavaşca yerə vurub, Oktayla birlikdə yellənməyə başladı və astadan gülərək:

– Kaş ki, elə bütün millət vəkilləri, məsul vəzifədə işləyənlər mənim kimi yelləncəkdə yellənib, uşaqlaşardılar. Uşaqlaşdıqca ruhları paklaşar, sadələşər və günahlardan təmizlənərdilər. Daha bir ucu yalan, oyunbaz sözlər, digər ucu isə pula bağlanmış, oturacağı yumuşaq şeytan yelləncəyində haqqın, ədalətin, qanunların üzərində yellənməzdilər - dedi və sonra üzünü gəlini Buksaya tutaraq, soruşdu:

– Düz demirəm, qızım?

Nataşa Buksa gülümsəyərək:

– Düz deyirsiniz. Həm də fikirləşirəm ki, siz burada nəyinsə barəsində düşünürsünüz. Bəlkə də, təklikdə təbiəti seyr edə-edə dincəlirsiniz - dedi. Sonra Oktaya xitabən:

– Oktay, nənənin qucağından düş gəl, gedək Zəhra xalanla birlikdə çiçəklər yığaq.

Leyla yenə də düşüncələr aləmində keçmişdən indiyə və əks istiqamətdə yellənirdi. Fikirləşirdi ki, Rüfətin Nataşa ilə ailə qurmağına nəyə görə ilk vaxtlar soyuq baxmışdı? Bəlkə, milli adətlərə, ənənələrə bağlılıq müəyyən həddə qədər faydalıdır? Və bəşəriyyəti hissələrə bölən, bütövləşməyə qoymayan, beləliklə, istismarçı qüvvələrə şərait yaradan səbəblərdəndir? Tarix boyu azlıqlar istismar etmək üçün insanları bölməyə çalışmışdılar. Bunun üçün millətçilik, dini şəriətlər, təriqətlər, sektalar, partiyalar, demokratiya, fəlsəfi cərəyanlar və s. kimi bölgücülük üsulları tapmışdılar. Axı, bütün bəşəriyyətin yolu bir olsaydı, o yolda hansısa qüvvə dayana bilməzdi. Onu beş dəfə təkrar universitetə qəbul imtaha-

nı verməyə məcbur edə bilməzdilər. Salmanzadələr at oynatmazdı, bacılarına və özünə təzyiqlər olmazdı. Dünya bir olsaydı, milyonları əyləncələrinə xərcləyənlərin gözü önündə uşaqlar acından ölməzdi, "səhvən" başlarına bomba düşməzdi.

Hardansa Leylanın yadına əmisigilin Novxanıdakı bağ evindəki qonaqlıq düşdü. Rəis Fərman Salmanzadənin həyat yoldaşı Ofeliya ilə Vəli müəllimin həyat yoldaşı Sara əvvəldən oxşar çantalar almış, sonra isə qonaqlıqda yanaşı əyləşib, onları elə dəyişmişdilər ki, heç kim görməmişdi. Çantanın birinin içində pul olduğu üçün belə etmişlər. Kimlər etmişdilər bu hərəkəti? Qanun qoruyanlar və təhsil, tərbiyə verənlər... Sonra nə oldu? Fərman Salmanzadə həbs olundu. Prokuror etmək üçün oyun qurub, rüşvət verdiyi oğlu Orxan Salmanzadəni universitetdən qovdular. İş adamı oldu, sonra isə vaxtsız bu dünyadan köçüb getdi... Orxan o məclisdə niyə elə vəhşiliklə kabab yeyirdi? İnsan mağardan çıxandan bu günə heç dəyişməyib? Ya Orxan gələcəkdə kasıb-kusubun haqqını da elə yeyəcəkdi, bunun işarəsiydi? O vaxt həyatın sirli görünən bu cür gedişləri indi aydın olurdu... Salmanzadə, Vəli müəllim, həyat yoldaşları, Orxan Salmanzadə və bu cür insanlar həyatın sirli oyununda qara fiqurlar idi. Vəkillər kollegiyasındakı ona qarşı haqsızlıq edən qrup, Abdullanı günahsız həbs etmək istəyən müstəntiq, prokuror, hakim oğlunu həbsdən xilas edən, sonra isə ona sağ ol demək əvəzinə təzyiqlər, düşmənçiliklər edən, icra müavini, böyük vəzifələrdə olub, həbsxanada kömək edib, ondan çıxmaları üçün yalvaranlar – bütün bunlar həyatın sirli oyunlarında qara fiqurlar kimi rol almışdılar. Kiçik zaman kəsiklərində xoşbəxt, güclü kimi görünən bu qara fiqurları, uzaq zamandan baxanda həyatın öz oyunları üçün qurban seçdiyi, çox amansız davranıb, rəzil etdiyi insanlar idi.

Öz bilik və iradəsinə, zəhmətinə güvənən, haqqın, ədalətin, qanunun, insanların yanında duran özü və bacıları kimi insanlar isə həyatın sirli oyunlarında ağ fiqurlar idi. Ağ fiqurlarda əksinə idi, onlar kiçik zaman kəsiyində kasıb, zəif, əzilən və çətinliklər dənizində boğulan kimi görsənsələr də, zamanın uzaq nöqtəsindən baxanda qalib, heç zaman sönməyəcək kimi parlayan nurlu ulduzlara bənzəyirdilər. Həyat bunları öz sirli oyunlarında istifadə etsə də, amansızlıqla cəzalandırmaq istəsə də, işıq qarşısında özü əriyib, keçmişlərdə yox olmuşdur. Həqiqət, xe-

yirxahlıq, bilik, zəhmət kimi dörd ünsürün vəhdətinə heç bir sirli gedişlə qələbə çalmaq olmazmış... Həyat özü "məğlub" olaraq bunu göstərmişdi və ya bu dörd ünsürün vəhdəti həyatın kodlaşmış bütün sirli gedişlərinə rəğmən qalib gəlməyə imkan vermişdir.

O, bütün bunlara görə atası Oktaya, anası Səriyyəyə ürəyində "Fatihə" oxudu. Onların qanından, halal çörəyindən və çəkdikləri zəhmətlərin nəticələrindən bu dörd ünsürün bacılarında və özündə əmələ gəldiyini düşündü. Sonra isə əvvəl ata-anasını, özünü və bacılarını mövcud etdiyi, həyatda işıqlı, insan olmağı, elmli, xeyirxah, həqiqətsevər və zəhmətkeş olmağı nəsib etdiyi üçün uca Allaha sonsuz şükürlər etdi.

Leyla yelləncəyi dayandırıb, üzünü Əli ilə Rüfətə tutub, soruşdu:

– Vəziyyət necədir? Heç səsiniz gəlmir. Deyəsən, ağlar udur, həmişəki kimi.

Heç birinin dinmədiyini görüb, yelləncəkdən düşüb, onların yanına gəldi, başlarının üzərində dayanıb, baxmağa başladı. Nə qədər baxdısa, kimin üstün olduğunu bilmədi. Qəribə idi ki, dünya şöhrətli qroysmesterin anası, məşhur şahmatçının qaynanası şahmat oynamağı bacarmırdı.

Əli qalaqurma edib, gülümsəyərək dedi:

– Leyla xanım, "gözüyumulu oynayan" oğlanın pişiyini divara dırmaşdırmışam. Bundan sonra Fişer də gəlsə, kömək edə bilməz.

Leyla gülüb dedi:

– Mən inanırdım ki, ağlarla, özü də yazıçı oynayırsa, qalib gələcək. Ancaq yenə də ehtiyatlı ol, qaraların həmişə sirli gedişləri olur...

Rüfət heçnə demirdi, ancaq fikirləşirdi. Bunu görən Leyla dedi:

– Əli, qoy Rüfət fikirləşsin. Sən mənə de görüm, bəşəriyyətin vahid dini, milliyəti, dövləti olsaydı, yenə də kapital sahibləri insanları bu cür istismar edə biləcəkdi? Müharibələr olacaqdı? Səfillər və zənginlər olacaqdı?

– Leyla xanım, dünya yaranandan müşahidə olunan müharibələr, istismarçılıq, acından ölənlər və həddən artıq zənginlərin olması, zərrədən kainata qədər olan mövcudluğun mahiyyətindəki müxtəliflikdən qaynaqlanır. Hər şey eyni olsaydı, nəinki inkişaf, heç mövcudluq olmazdı. Məsələn, müharibələr olmasaydı, sürətlə çoxalan insanları xəstəlik

və epidemiyalar qırıb qurtarardı. Eynilik, sakitlik ölümə uyğun bir şeydir.

Leyla ona diqqətlə qulaq asa-asa dedi:

–Yaxşı, de görüm, ola bilər ki, insanın həyatında mühüm rol oynayan, onu çətinliklərdən qurtaran şəxslər, xüsusi seçilmişlər və ya sadəcə onun öz xəyalında yaratdığı gerçək olmayan fantaziya obrazları olsun?

Əli biraz düşünüb dedi:

– Bilirsiniz, Leyla xanım, bizim şüurumuz hadisələrin müəyyən hissəsini qısa zaman kəsiyində dərk edir. Məsələn, bir bal arısı ailəsinin sirli hərəkətlərinin cəmi onların yaşamasına və nəsil artırmasına kodlaşdırılıb. Yaxınlıqdakı nektarı çox olan çiçəklər onlar üçün seçilmiş, göndərilmiş kimi qəbul edilə bilər. Ancaq həqiqətdə isə o çiçəklər üçün də seçilmiş, göndərilmişlər var. Elə həmən arıların özü bu rolu oynayır, onları tozlandırır, meyvə, toxum verməsinə səbəb olur. Yəni, bütün mövcudluqlar ümumi sistemin tərkib hissələridir və öz rolunu oynayırlar. Odur ki, kimin, kiminçün seçilmiş olmasını demək çətindir. Yəni, siz vəkil olan zaman bir haqsız yerə həbs ediləni müdafiə edib, xilas etmisinizsə, qlobal baxanda, sizin ona, yaxud onun sizə göndərilmiş, seçilmiş olduğunu söyləmək çox çətindir. İnsan xəyalları isə həmişə güclü cansız, canlı, o cümlədən də özünəbənzər obrazlar yaradır.

Rüfət atı Əlinin ağ filinin vura biləcəyi xanaya gediş edib:

– Şah? - dedi.

Əli gülümsəyərək dedi:

– Sənin bu atını əvəzsiz uduram axı, niyə qurban verirsən? İcazə verirəm, qaytar, yenidən ona. Atları dəmir-dümürlərin əvəz etdiyi bu dövranda havayı at verməzlər.

Rüfət başını qaldırıb, onun üzünə diqqətlə baxaraq dedi:

– Bayaqdan fikirləşirəm, bacardığım budur. Sən tələsmə, daha yaxşı düşün ki, səhv etməyəsən.

Əli heçnə deməyib, fikirləşməyə başladı. Rüfətin bu at gedişi onun düşündüyü planları pozur, fikirlərini qarışdırırdı. Ola bilməzdiki, məşhur şahmatçı xeyli fikirləşəndən sonra bu cür səhv gediş etsin. Burada nə isə var. Ancaq nə?...

Rüfət Əlinin düşündüyündən istifadə edib, üzünü anasına tutaraq dedi:

– İndi sənin suallarına mən cavab verim.

– Əli mənim suallarıma çox dəqiq cavab verdi. Doğurdan da, həqiqi yazıçıların çox güclü fantzyaları olurmuş. Ancaq şahmatçı məntiqi də maraqlıdı.

Rüfət gülümsəyərək dedi:

– Bax, ana, biz ermənilərlə necə bir dində, dövlətdə birləşə bilərik? Vətən müharibəsində onların səngərlərini vururduq, onlar bizim şəhərlərimizi vurur, dinc sakinləri, uşaqları öldürürdülər. Bizim bu yazıçı Əli bir at fiquruna vurmaq isəmir. Mənə deyir geri qaytar, havayı vermə. Onların yazıçısı Zori Balayan isə Xocalıda əsir götürülən qız uşağının diri-diri dərisini soyur, bu vaxt ruhunun dincəldiyini deyir...

Əli başını qaldırıb Rüfətin üzünə baxdı, heçnə demədi. Yenidən fikirləşməyə başladı. Rüfət davam etdi:

– Mən dünyanın bir çox ölkələrində olmuşam, xalqlarını görmüşəm. Qəti əminəm ki, qiyamətə qədər dünya xalqları bir din və dövlətdə ola bilməzlər. Məsələn, çalışqan çinli, yapon ilə kef çəkməyi vərdiş etmiş, özünə qızıl unitaz düzəltdirən, soydaşları acından ölən ərəb şeyxləri, çoxbilmiş avropalı ilə yarıçılpaq afrikalı necə birləşə bilər? İkinci sualına gədikdə isə hesab edirəm ki, ümumən dünya əhalisi elə şahmat taxtasındakı kimi xeyirxah, dürüst ağlara, nadürüst qaralara bölünüb oynayırlar. Bu oyun heç vaxt bitməyəcək və bilmək olmaz ki, ağlar bir-biri üçün seçilib işığı, yoxsa, qaralar qaranlığı gücləndirirlər.  Məncə, sən və xalalarımız həmişə həyatda ağlar kimi oynamısız. Bütün bunlar niyə belə olub, ən yaxşısını Allah bilir.

Leyla qaşlarını düyünləyib dedi:

– İkiniz də beynimi qarışdırdınız.

Bu zaman Əli Rüfətin atını fillə udub, götürdü və dedi:

– Çox fikirləşdim, atla məni aldatmaq istəyirdin. Ancaq unutdun ki, belə sadə gedişlərlə şahmatçı məntiqini çaşdıra bilərdin. Yazıçılar isə sadə gedişlərə qıraqdan və ucadan baxa bilirlər.

Rüfət əlini ona tərəf uzadıb:

– Vur bura, sən doğurdan da qalib gəldin! - dedi.

– Gördünüz, bilirdim ki, ağ fiqurlar qalib gələcək. Əli, təbrik edirəm. - Leyla bunları deyib, öz - özünə “görəsən, Rüfət özü qəsdlə uduzdu ki,

Əli pərt olmasın, mən fikirlərimin doğru olduğuna əmin olum?" düşünərək, onlardan aralandı. Yaxınlıqdakı kiçik, çiçəkli təpənin üstündə oturub, Cıdır düzünə baxmağa başladı.

Sərin meh əsirdi. Ətrafdakı nisbətən uzaqdakı güllərin, çiçəklərin ətirlərini bir yerə yığıb, xüsusi gözəl qoxu yaradırdı. Təbiətin bütün elementləri - dağların ucalığı, qayaların əzəməti, meşələrin yaşıllığı, gül və çiçəklərin gözəlliyi, eləcə də, çayların, quşların, yarpaqların səsi, duman, çən, yağış, meh, çiçəklərin iyi - bütün bunlar insanın hər bir hiss üzvlərinə təsir edir, düşüncə və xəyallarını müxtəlif zamanlara, yerlərə aparırdı. Xüsusilə, belə zamanlarda insan həyatını dəyişmiş yaxınlarını daha çox xatırlayırdı. Bunun əsas səbəbləri o idi ki, yaxın insanarla bağlı xatirələr səs, qoxu, görünüş kimi elementlərə ilişkili yadda qalırdı. Məsələn, gözəl, ətirli gülləri görəndə insan həyətindəki güllərə anası ilə baxmağını və ya qulluq etdiyini xatırlaya bilərdi. Elə onlar üçün Vətən də ordan başlanırdı. İlk gəzdiyi, yıxıldığı, üz-gözü toz-torpağa batdığı yerdən. Bu mənada böyük şəhərlərdə doğulan uşaqlar yarımvətən idilər. On beş-iyirmi mərtəbəli binanın maşınlarla, böyüklərlə dolu ümumi həyəti Vətənin başlanğıcı kimi effektsiz idi. Bu mənada, məsələn, Nyu-Yorkda, Tokioda, Paris, Londonda doğulan uşaqlar meqapolis şəhərləri ilk vətənləri kimi necə sevə bilərdilər? Böyük və ümumiləri sevmək uşaqlar üçün çox çətin olur. Odur ki, kəndlərdə, kiçik qəsəbələrdə, həyət evlərində böyüyən uşaqlar vətən anlayışını daha yaxşı dərk edərdilər. Ancaq insan böyüdükdən sonra, öz böyük vətənini bütöv sevməyə başlayır. Çünki, artıq bu müqədəssliyi dərk edir. Bir sözlə, iri şəhərlərdə, xüsusilə uşaq vaxtlarında tez-tez mənzillər dəyişən uşaqların vətənlərinin başlanğıcı olmur...

Leylaya elə gəlirdi ki, indi Oktayla Səriyyə də buradadırlar. Ola bilməzdi ki, onlar bura gəlməsinlər, nəticələrinin ad günündə iştirak etməsinlər. Bütün qızlarının bir yerdə olduğu, füsunkar, cənnət Şuşaya gəlmək onlar üçün çox asan olmalıydı. Axı (,) elə onlar da cənnətdə idilər, gəzə-gəzə gəlib bura çıxmalıydılar. Mütləq burada qıraqdan durub, sevinc və rahatlıqla, qürurla baxmalıydılar.

Birdən, Leyla qarğa səsi eşitdi, başını qaldırıb yuxarı baxırdı, bir dəstə qarğa Şuşanın üstündən uçub, "Cıdır düzü"nə tərəf gedirdi. Bu, Leylanın heç xoşuna gəlmədi, qarğalardan zəhləsi gedirdi. Bu niyə belə idi,

özü də bilmirdi. Bəlkə də, uşaqlıqdan eşitdiyi "qarğalar pis xəbər gətirir" deyiminə görə idi? Ya da ümumiyyətlə, kom halında, xoşagəlməz səslə qarıldaşan qarğaların özlərindən xoşu gəlmirdi?

Qarğalar uçub Cıdır düzünə çatdılar və ora qondular. Leyla lap dilxor oldu. İndi bu xoşagəlməz pis quşlar orada qarıldaşacaq, çiçəklərin, güllərin, o cümlədən bu düzün bəzəkli gəlini olan Xarı bülbül güllərinin üzərindəki arıları, digər gözəl quşları qaçırdacaqdılar. Həm də öz nəcisləri, mundar tüklərilə pak Cıdır düzünü batıracaqdılar. Elə bu qarğaların özü Cıdır düzünə uyğun gəlmir, yaraşmırdılar, indi qonub orada qarıldaşır, hoppanıb düşürdülər.

Birdən Leylanın xəyallarında Cıdır düzünə qonmuş qarğalar çönüb, insanlara çevrilir, qol-boyun olub "yallı" gedir, rəqs edirdilər. Onların arasında qadınlar, kişilər vardı. Kişilərin bəziləri hərbi formada, bəzilərisə qalstuklu, rəsmi geyimdə idilər. Hərbi formada olanların bəziləri yaşlı və kök idilər, görünür təqaüddə olan hərbi qulluqçular idi. Və üzgözlərində nə vaxtsa göstərdikləri "qəhrəman"lıqların, "şücaətin" bu gün spirtli içkilərlə qarışıb yanan "eyforiyaları", "qürurları" qırmızı rəqslər edirdi. Aralarında digər "mötəbər", hamının hörmət etdiyi, gümüşü saç-saqqallı, qalstuklu bir şəxs də vardı. O, nüfuzu qədər ağır olan üslubda qollarını yanlara açır, sanki "buralar - hər yer bizimdir" rəqsi edirdi. Bu zaman ona elə gəlirdi ki, ruhu dincəlir, xalqının bu xoş günləri üçün bir "ziyalı yazıçı" kimi artıqlamasını edib, böyük rol oynayıbdır. Bu hisslərin təsirindən onun gözlərində bicləşmiş, qırmızı rəngli gülüşlər yaranırdı. Dərinliklərində isə zülmətlər içərisində qorxacasına qaçan çaqqalların bərəlmiş gözləri işıldayırdı. Bu qorxu onu heç vaxt rahat buraxmayan, dərisini diri-diri soyduğu, 13 yaşlı azərbaycanlı qızın hər ona baxan intiqamlı baxışlarından yaranmışdır.

Qıraqdan bir dəstə pencəkli, qalstuklu mühafizəçilər yaxınlaşırdılar. Onların qoruduqları ağ rubaşkalı, qalstuklu, keçəl, saqqallı biri aralanaraq, tez-tez gəlib rəqs edənlərlə qol-boyun olub, yallı getməyə başlayır. Onun da saqqalındakı tüklər elə bil sərxoş olub, ağları ilə qaraları bir-birilə rəqs edirdilər.

Onların yallı gedib, rəqs etdikləri musiqi də Leylaya tanış gəlirdi. Bu musiqinin sədaları iki hissəyə bölünürdü. Bir hissəsi doğma, ürəyə ya-

tan idi. Digər hissəsi isə ət ürpədici təsir bağışlayırdı. Elə bil, kəklik səsilə bayquş səsi bir-birinə qarışmışdı. Ya da, bayquş kəklik kimi oxumaq istəyirdi.

Haradansa uçub gələn qartalları görən qarğalar pərən-pərən düşdülər, hərəsi bir yana uçub getdilər. Arılar, bülbüllər, rəngli kəpənəklər yenidən çəmənliyə qayıtdılar, çiçəklərin üzərinə qondular. Qartallar isə Cıdır düzünün kənarında dayanıb, sıldırımlardan qarşı tərəflərə baxırdılar. Bu, Leylanın xoşuna gəldi, gülümsədi, sağ tərəfə çönüb baxdı. Orada elə bu təpəyə oxşar digər kiçik, çiçəkli, güllü bir təpədə Oktayla Səriyyə oynayırdılar. Elə bil, cənnətdə iki mələk var idi. Anaları Nataşa və Nəzrin də yanlarında dayanıb, söhbət edirdilər. Bu gördükləri Leylanın ürəyini fərəhləndirdi. Allaha çoxlu şükürlər etdi.

Leyla sonra Rüfətlə Əlinin şahmat oynadığı yerə tərəf baxdı. Onların başına xeyli digər qonaqlar yığışmışdılar. Bəziləri oyuna baxıb, nələrisə müzakirə edir, digərləri isə öz aralarında ətraf aləmi göstərə-göstərə nələrsə danışırdılar. Leyla bulağa tərəf baxdı. Bacıları salat düzəldir, süfrə hazırlayırdı. Yoldaşı Əli yanında üç-dörd nəfər ziyalı, millət vəkilləri ilə söhbət edirdilər. Nəvəsi Oktayın ad gününü Şuşada keçirmək təklifinə Əli həvəslə razı olmuşdur. Rüfətlə Nataşa Buksa da Leylanın bu təklifindən çox sevinmişdilər. Onlarda yerli və xarici şahmatçı dostlarından bu qonaqlığa dəvət etmişdilər. Ancaq qonaq şahmatçılar Rüfət kimi burada şahmat oynamaqdansa çəmənliklərdə, ağacların arasında söhbət edə-edə gəzib, dolanmağı üstün tutmuşdular. Odur ki, Rüfət Əliylə oynayırdı.

Şuşada təbiətin qoynunda, bulaq başında baş tutan bu ad gününə bəlkə də (,) ən çox sevinən bacılar idi. Onlar Leylanın hər zamankı kimi, bütün təkliflərini, istəklərini həvəslə qəbul etmiş, yerinə yetirmişlər. İndi də çalışırdılar ki, qonaqlıqda yeməklər, salat və kabablar çox yaxşı olsun. Həm də əhval-ruhiyyə, qonaqlığın abu-havası xoş olsun ki, hər şey Leylanın zövqünü oxşasın. O, nüfuzlu, hörmətli qonaqlarının yanında pərt olmasın.

Ancaq bacıları bir şey narahat edirdi ki, Leyla özü nəinki onlarla, heç qonaqlarla da maraqlanmır, onlarla söhbət etmir. Heç hazırlanan yeməklərlə də maraqlanmır, gəlib baxmır. Bu bəlkə qonaqların xətrinə dəyər, hörmətsizlik kimi qəbul edərdilər. Düşünürdülər ki, "bizi qonaq gə-

tirib, özü isə uşaq kimi yelləncəyə minib yellənir, ya da tək-tənha gəzir". Odur ki, bacılar həm süfrə hazırlayır, həm də qonaqlarla söhbət etməyə çalışırdılar ki, onların xətri qalmasın. Qəribəsi isə o idi ki, qonaqlar da bu hallarından məmnun idi, gedib Leylanı narahat etmirdilər. Demək (,) onlar da təbiətlə tək qalmaq istəyirdilər... Bir azdan Rüfətlə Əli də şahmat taxtasını büküb, kənara qoydular, kabab bişirənlərin yanına gəldilər. Bilmək olmadı ki, kömək etməyə gəliblər (,) yoxsa (,) "ağır döyüşlər"dən sonra acıbdırlar.

Leyla yenidən çönüb, Cıdır düzünə tərəf baxmağa, sonuncu qarğa rəqsini xatırlamağa başladı. Bəli, ermənilərin o zamankı liderlərinin başının dəstəsilə burada sərxoş halda yallı getməsi çoxdan hazır vəziyyətə gətirilmiş tüfəngin tətiyini çəkən səbəblərdən biri oldu, müharibə başladı.

Bu müharibənin qaçılmaz olduğunu hər iki tərəf bilirdi, buna illərdi ki, ciddi hazırlaşırdılar.

Ermənilər Azərbaycanın Dağlıq Qarabağ və ona bitişik yeddi rayonunu otuz il idi ki, işğal altında saxlayırdılar. Bir milyona yaxın azərbaycanlı dədə-baba yurdundan didərgin düşmüşdür. Bu işğalın erməni xalqına heç bir faydası yox idi. Hər iki xalqı, dövləti təsir altında saxlamağa çalışan dünya gücləri, erməni lobbisi, Ermənistandakı hakimiyyət və mülkiyyət qazanmaq istəyən qüvvələrə bu işğal sərf edirdi. Erməni xalqı, eləcə də dövləti yaxşı anlayırdı ki, gec-tez azərbaycanlılar qəti və son döyüşə girəcəklər. Elə bunu anladıqca məğlub olurdular.

Ancaq buna baxmayaraq, sülh danışıqlarında vaxt uzadır, ağalıq edir, həqiqəti tanımaq istəmirdilər. İnanırdılar ki, işğal etdikləri ərazilərdə yüksəkliklər və əlverişli mövqelər onların əlində olduğuna görə, eyni zamanda, 30 il ərzində qazıb betonladıqları səngərlər, istehkamları olduqları üçün müharibə başlayarsa, məğlub olmazlar. Əsasən, "böyük qardaşları"ndan pay aldıqları silahlarının da yetərincə olduğunu düşünürdülər.

Azərbaycan dövləti və xalqı da müharibəyə hazırlaşırdı. Ermənilərin vaxt uzatdıqlarını anlayırdılar. Azərbaycan dövləti müdrik, uzaqgörən və cəsarətli liderin rəhbərliyilə əsasən üç istiqamətdə müharibəyə

hazırlaşırdı. Beynəlxalq aləmdə hüquqi baza yaradır, güclü ordu yaradır və iqtisadi qüdrət formalaşdırırdı.

Düyna tarixinə düşəcək, fərqli bir müharibə başlayır. İlk dəfə olaraq PUA-ların həlledici rol oynadığı bu müharibə, həm də canlı döyüş səhnələrinin bir başa internet vasitəsilə yayımlanması ilə müşahidə edilir.

Döyüş başlayandan sona qədər Azərbaycan əsgəri irəli gedir, qələbələr qazanır. Bu müharibədə dünya hərb tarixinə özünə məxsus "Azərbaycan əsgəri" fenomeni düşür. Xalq könüllü müharibəyə axışır, gənclər onları müharibəyə tez aparsınlar deyə hərbi komissarlıqların qabağında dolaşır, evdən qaçıb cəbhəyə gedirlər.

Cəbhədə yaralanan əsgərlər qospitalda dözməyib tələb edirdilər ki, onları tez geri, yenidən cəbhəyə göndərsinlər. Yaxud, özləri qaçıb, geri qayıdırdılar. Döyüşçülər əsgər yoldaşlarının canını özlərindən çox istəyir, bəzən qumbaranın üstünə özlərini atıb, onları xilas edirdilər.

Təkbaşına 10-a qədər düşmən polkovnikini, generalını öldürən, iki yüz əsgəri və zabiti məhv edən, birbaşa qarşı səngərə girən və neçə-neçə təsəvvürə gəlməz qəhrəmanlıqlar göstərən Azərbaycan əsgərləri rəşadətli tarix yazırdılar. Dünya buna həmin dövrdə və sonralar mat qalacaqdı.

Azərbaycan əsgəri Vətən müharibəsində kütləvi sürətdə elə qəhrəmanlıqla döyüşür ki, dünyanın ən güclü ordularının tarixində bununla müqayisə oluna biləcək faktlara nadir hallarda rast gəlmək olardı. Hərb tarixində kütləvi qəhrəmanlığı qızıl hərflərlə Azərbaycan əsgəri yazırdı.

Azərbaycan xalqı da ordusunun, əsgərinin yanındaydı. Hər bir şəhidini alqışlarla qarşılayır, içində ağlayır, ellikcə dəfn edirdi. Özünə təzə ayaqqabı ala bilməyən təqaüdçü cəbhəyə yardım üçün pul göndərir, gənclər məvaciblərindən bir yerə yığıb, lazımi əşyalar alıb, səngərə qədər gedib əsgərlərə verirdilər. Öz oğlu, qardaşı cəbhədə olmayan azərbaycanlı xanımlar uşaqları eşitməsin, görməsin deyə çəkilib qıraqda şəhidlərinə ağlayırdılar. Tələbələr təqaüdləri, küçədə əlində lavaş, limon satıb öz az miqdar halal qazancları ilə qələbə üçün qurban alıb kəsirdilər... Leyla özü də Vətən Müharibəsində cəbhə üçün əlindən gələni etmişdir. Mühirəbə başlayan kimi könüllü cəbhəyə yazılmışdı. Onu : "hələ ehtiyac yoxdur", - deyərək, cəbhəyə aparmasalar da, - sakit qıraqdan tamaşa etməmişdir. Dəfələrlə şəxsi vəsaitilə müxtəlif əşyalrdan ibarət

yardımlar hazırlatmış, özü səngərə qədər gedərək, əsgərlərə paylamışdır. Müharibə bitdikdən sonra isə bütün bayramlarda şəhid ailələrinə baş çəkmiş, onlara köməkliklər etmişdi. İndi o anları xatırlayanda az da olsa, ürəyi rahat olurdu ki, nə yaxşı ki, bunları edib, qələbədə zərrə qədər də olsa vətəndaş kimi kömək göstərib.

Azərbaycanın Ali Baş Komandanı cəsarətlə, ağılla xalqı və ordunu səfərbər edib, döyüşü idarə edirdi. Böyük dövlətlərin, regionda marağı olan beynəlxalq güclərin təzyiq və təhdidlərinə mərdliklə, mətinliklə dözür, ordunu qələbəyə aparırdı. Bu müharibədə Ali Baş Komandanın unikal sərkərdəlik, diplomat və dövlət xadimi qabiliyyəti dünyanı heyrətə, düşməni qorxuya saldı, xalqı qürurlandırdı.

Bu müharibənin qalibi Xalq-Ordu-Ali Baş Komandan birliyindən yaranan "Dəmir yumruq" oldu. Napaleon Rusiyaya hücum edəndə hər şeyi hesablasa da başını qaldırıb təqvimə baxmamış, qışın gəldiyini nəzərdən qaçırmışdı. Ermənilər də hər şeyi nəzərə alsalar da, məhz bu "Dəmir yumruğu" nəzərə almamışdılar...

Bütün bunları düşündükcə, Leylanın qürurdan gözləri yaşarır, qanındakı azərbaycançılıq məfkurəsi şahə qalxır, dərindən nəfəs alır, köksü qabarır, tükləri biz-biz olurdu...

Qulağına haradansa Şərqin musiqi Günəşi, dahi Üzeyir Hacıbəylinin "Koroğlu" uverturasının səsi gəlirdi. Sonra gözləri önünə sıldırımlar, qayalıqlarla Şuşaya dırmaşan şücaətli Azərbaycan əsgərləri gəlirdi. Onların əllərində ancaq əsgər bıçaqları, çiyinlərində odlu silahları var idi. Bəzilərinin bir əli sıldırımların, qayaların kiçik çıxıntılarından yapışmış, dişləri bıçaq tutmuş, digər əlilə çiynindəki yaralı əsgər yoldaşını tutmuşdur. Belə halda, sanki sıldırıma, qayaya yapışmışdı. Bunlar digər döyüşçü yoldaşları kimi müqəddəs vətən daşıydılar, Vətənə yapışmışdılar. Bəlkə də, əsgər deyil, mələk döyüşçülər, aləmlərin əfsanələriydilər. Bəlkə də, bıçaqla şəhər azad etməyi yazmaq indiyə qədər qoca zamanda heç bir tarixçiyə nəsib olmamış, hansısa xalqın heç nağıl və dastanlarında da rast gəlinməmişdir. Əslində, onlar bıçaq deyildi, Xocalıda qətlə yetirilən, gözü çıxarılan, dərisi diri-diri soyulan uşaqların, namusunu qorumaq üçün balası ilə birgə özünü qayadan atan anaların qisasları idi, soyuq bıçaq formasına düşmüşdülər. Axı, onları da soyuqda öl-

dürmüşdülər. İndi o bıçaqlar Şuşa küçələrində erməni əsgərlərinin ürəklərinə anidən saplanır, çıxırdı. Bir, on, yüz erməni ürəyinə girib-çıxan bıçaqlar isinmirdi ki, isinmirdi. Onlarla erməni ürəyindən fışqıran qan, bir bıçağı isitmirdi. Qisaslar qanla da isinməzmiş...

... Kürəyinə toxunan yumşaq əl Leylanı dərin düşüncələrdən, döyüş səhnəsi xəyallarından ayırdı. Nəvəsi Səriyyə idi. O, çönüb, nəvəsinin üzündən öpdü, qucaqlayıb dizinin üstündə oturtdu. Oktay da nənəsinin yanına qaçdı, Leyla onu da digər dizi üstə oturtdu, nəvələrinin tellərini oxşadı. Nəzrin və Nataşa da gəlib Leylanın sağında, solunda oturdular. Onun baxdığı istiqamətə, Cıdır düzünə baxmağa başladılar. Nəzrin dedi:

– Ana, niyə bizdən, qonaqlardan ayrı gəzirsən? Nə fikirləşirsən?

– Heç, elə-belə, bir az istirahət edirəm - Leyla gülümsəyərək dedi.

Nəzrin çönüb mehribanlıqla anasının üzünə baxdı:

– Məncə, sən anadan olandan nə istirahət etmisənsə, bəlkədə istirahət etmisən. Sonra həmişə, hətta susanda da döyüşmüsən, mübarizə aparmısan - deyib, sol qolunu onun boynuna saldı.

– Hə, elədir, mən də buna inanıram - indi də Nataşa belə deyib, sağ qolunu Leylanın boynun saldı.

Haradansa Zəhra ilə Nailə gəlib çıxdılar. Zəhra tez önə keçib, əlindəki fotoaparatla onların şəkillərini çəkməyə başladı. Nailə tez başlarının üzərində, ayaq üstə durub:

– Bacı, mənimlə də çək - dedi.

Zəhra yenə bir neçə şəkil çəkib, dilləndi:

– Nailə, indi də gəl sən çək - deyib, fotoaparatı ona verdi. Özü gəlib Nailənin durduğu yerdə dayandı.

Elə bu vaxt, Kəmalə, Həlimə, Yasəmən və Sevda da gəlib çıxdılar. Yasəmən gülərək dedi:

– Nə özünüzü gizlinə verib, şəkil çəkdirirsiniz? Bizi niyə çağırmırsınız?

Onlar da Zəhranın sağında-solunda ayaq üstə dayandılar. Nailə şəkillərini çəkdi. Birdən Leyla diksinən kimi oldu. Nəzrin bunu hiss etdi, çönüb ona baxdı və soruşdu:

– Nə oldu?

– Heç nə.

Leyla bunu deyib, Səriyyəni ona tərəf, Oktayı isə Nataşaya tərəf uzadıb:

– Uşaqlarınızı tutun - deyib, ayağa qalxdı.

Kəmalə dedi:

– Hə, gəlin gedək, süfrə hazırdır. Hamı yığışıb sizi gözləyir. Səhərdən ac susuzdular.

– Doğrudur, bacı, gedəyin - Sevda təsdiq etdi.

Leyla onlara baxıb dedi:

– Siz gedin, süfərədə əyləşin. Qonaqlarla çörəyinizi yeyin.

Hamı ona təəccüblə baxdı. Zəhra dilləndi:

– Necə yəni, siz gedin, bəs, sən getmirsən?

– Mən gedirəm Şuşaya, işim var, tez qayıdacam - Leyla dedi.

– Ora nəyə? Yeməyini ye, gedərsən. Nə vacibdir? O cür hörmətli, nüfuzlu insanları qonaq gətirmisən, ayıbdır axı...

Leyla Həlimənin sözünü kəsərək:

– Çox vacibdir. İndi getməliyəm, tez qayıdacam - dedi və avtomobilinə tərəf getdi.

Bir saat keçdi, Leyla qayıtmadı. Ona nə qədər zəng edirdilərsə, telefonuna zəng çatmırdı. Artıq narahat olmağa başlamışdılar.

Nəhayət, Rüfətin telefonuna anasından mesaj gəldi: "Məni bağışlayın, Bakıya getməli oldum".

Ağ rəngli cip avtomobil Şuşa-Bakı istiqamətində sürətlə şütüyürdü. O, axşama qədər Bakıya çatmalı idi. Millət vəkili seçildiyi rayonun balaca sakini, şəhid qızı Laləyə ad gününə çoxlu oyuncaq, hədiyyələr alacağına, birlikdə gəzməyə gedəcəklərinə söz vermişdi.

Bu gün mələk Lalənin ad günüydü!



*Kitabın içindəkilər:*

Ön söz ........................................................................ 5
REDAKTORDAN ........................................................... 10
I FƏSİL ........................................................................ 13
II FƏSİL ....................................................................... 87
III FƏSİL ...................................................................... 127
IV FƏSİL ...................................................................... 172
V FƏSİL ........................................................................ 189
VI FƏSİL ...................................................................... 245
VII FƏSİL ..................................................................... 291
VIII FƏSİL .................................................................... 333

**LƏTİFƏ ƏLİYEVA**

**(Lətifə Oruc)**

# SİRLİ GEDİŞLƏR

"Elm və təhsil" nəşriyyatının direktoru:
***professor* Nadir MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 27.01.2021
Şərti çap vərəqi 13,5. Sifariş № 16
Kağız formatı 60x84 1/16. Tiraj 300

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4